**MUSA QASIMLI**

# HEYDƏR ƏLİYEV-
# İSTİQLALA GEDƏN YOL
## (1969-1987-ci İLLƏR)



Ф3(2A)
Q-25

MUSA QASIMLI

2392242

# HEYDƏR ƏLİYEV-
# İSTİQLALA GEDƏN YOL
## (1969-1987-ci illər)

BAKI – 2006

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Q-23

Məsləhətçi: **RAMİZ MEHDİYEV,**
*fəlsəfə elmləri doktoru, professor*

Elmi redaktor: **ƏLİ HƏSƏNOV,**
*tarix elmləri doktoru, professor*

Rəyçi: **ƏRƏSTUN MEHDİYEV,**
*tarix elmləri namizədi, dosent*

**QASIMLI M. C. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər).** Bakı, Bakı Universiteti nəşriyyatı, 2006. – 608 s.

Azərbaycan, Rusiya, Gürcüstan arxivlərində uzun illər boyu «tam məxfi», «məxfi», «xidməti istifadə üçün» qrifləri altında saxlanılmış materiallardan, ABŞ, Türkiyə, Böyük Britaniya, Polşa, Fransa və Rusiya müəlliflərinin əsərlərindən və b. mənbələrdən istifadə edilərək yazılmış monoqrafiyada sovet hakimiyyəti illərində Azərbaycan xalqını düşündürən başlıca problemlər, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin müstəqil dövlətçilik baxışlarının formalaşması, hakimiyyətə gəldikdən sonra azərbaycanlıların birliyinə nail olması, azərbaycanlı kadrları hazırlaması, Azərbaycan aliminə və elminə qayğısı, tarixi-mədəni, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi sahəsində fəaliyyəti, ədəbi irsə və ədəbiyyata qayğısı, milli incəsənətin tərəqqisi naminə çalışmaları, Azərbaycan dilinin dövlət dili statusunu qoruyaraq inkişaf etdirməsi, milli hərbçi kadrları hazırlaması, əsassız erməni iddialarına qarşı mübarizəsi, Azərbaycanı beynəlxalq aləmdə tanıtması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulması istiqamətində səyləri, Cənubi Azərbaycan məsələsinə diqqət yetirməsi, türk dünyasına münasibətdə mövqeyi, gələcək müstəqil dövlətçiliyin əsaslarını hazırlaması elmi-tarixi baxımdan öyrənilmişdir. Mənbə və ədəbiyyatların demək olar ki, hamısı elmi dövriyyəyə ilk dəfə gətirilmişdir.

Monoqrafiya elmi dairələr, siyasətçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$$Q\,\frac{5030209070\text{-}1}{M\text{-}658(07)\text{-}01}\,1\text{-}2006$$

ISBN 5-8025-001-00

© **Musa Qasımlı, Bakı Universiteti nəşriyyatı, 2006**



*«Doğrudur, 22 il bundan öncə, 1971-ci ildə biz heç bilmirdik ki, Azərbaycan müstəqil respublika olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım»* (H.Əliyevin gənclərin nümayəndələri ilə görüşdə çıxışından. 22 sentyabr 1993-cü il).

*«Bu dövrdə Azərbaycan xalqı kommunist rejimində, Ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan, şübhəsiz ki, müstəqilliyini itirmiş, ancaq dövlətçiliyini tam itirməmişdi. Azərbaycan Respublikasının dövlətçiliyinin bir çox atributları qalmış, yaşamışdı. Əsas cəhət budur ki, yetmiş il ərzində Azərbaycan xalqı böyük tarixi yol keçmiş, respublikanın iqtisadiyyatı yüksək sürətlə inkişaf etmiş, xalqımızın mədəni, təhsil səviyyəsi yüksəlmiş, Azərbaycanın elmi, mədəniyyəti, həyatının bütün sahələri inkişaf etmiş, respublikada böyük iqtisadi, sosial və mədəni-intellektual potensial yaranmışdır.*

*Azərbaycan xalqı həmin dövrdə mövcud şəraitə uyğunlaşsa da, eyni zamanda onun qəlbində tam müstəqillik, milli azadlıq hissləri yaşamışdır. Keçmişdə olduğu kimi, bu dövrdə də həmin hisslər xalqımızı heç vaxt tərk etməmişdir... siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq, xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır»* (H.Əliyevin Azərbaycanın istiqlal bayramına-Respublika gününə həsr olunmuş təntənəli yığıncaqda nitqindən. 27 may 1994-cü il).

*Xalqlarımız* (Türkiyə və Azərbaycan - M.Q.) *çoxəsrlik tarixi ərzində böyük sınaqlardan keçmiş, böyük çətinliklərlə rastlaşmış, özlərinin milliliyini, mənəviyyatını, dilini, dinini yaşatmış, saxlamış və bugünkü xoşbəxt günlərə gətirib çıxarmışlır. Bizim xalqlarımız dünya mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya sivilizasiyasını elm, mədəniyyət sahəsində dəyərli əsərlərlə zənginləşdirmişlər»* (H.Əliyevin Ankara yaxınlığındakı Bilkənd Universitet şəhərciyində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılışında çıxışından. 1 noyabr 1994-cü il).

*«Ötən 70 ildə Azərbaycanın elmi potensialı yaranıb, respublikamızın böyük iqtisadi potensialı yaranıb. Azərbaycan qurulub, yaşayıb, yəni Azərbaycan xalqı bu rejimi qəlbən qəbul etməsə də, bu rejimin içərisində öz işini görüb, irəliyə gedib, inkişaf edib»* (H.Əliyevin Türkiyədə yaşayan azərbaycanlılarla görüşdə nitqindən. 1 noyabr 1994-cü il).

*«Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyim zaman, bu orqanın başçısı olduğum zaman və ondan sonra Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafelərinə əks olan heç bir tədbir görülməmişdir»* (H.Əliyevin Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş mərasim və təntənəli yığıncaqda nitqindən. 28 iyun 1997-ci il).

## KİTABIN İÇİNDƏKİLƏR


GİRİŞ. PROBLEMƏ ÜMUMİ METODOLOJİ BAXIŞ ........................ 7

I FƏSİL. AZƏRBAYCAN XALQININ QARŞISINDA DURAN BAŞLICA PROBLEMLƏR VƏ HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL DÖVLƏTÇİLİK BAXIŞLARININ FORMALAŞMASI ........................ 38

II FƏSİL. AZƏRBAYCANLILARIN BİRLİYİNƏ NAİL OLUNMASI ........................ 85

III FƏSİL. MİLLİ KADRLARIN HAZIRLANMASI ........................ 108
III. 1. AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFI ........................ 108
III. 2. AZƏRBAYCAN ALİMİNƏ VƏ ELMİNƏ QAYĞI ........................ 136

IV FƏSİL. TARİXİ-MƏDƏNİ, MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN MÜHAFİZƏSİ VƏ İNKİŞAF ETDİRİLMƏSİ ........................ 159
IV. 1. TARİXİ ABİDƏLƏRİN MÜHAFİZƏSİ ........................ 159
IV. 2. MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI ........................ 174
IV. 3. MƏDƏNİ-MAARİF MÜƏSSİSƏLƏRİNİN QURULMASI ........................ 179

V FƏSİL. ƏDƏBİ İRSƏ VƏ ƏDƏBİYYATA QAYĞI ........................ 186

VI FƏSİL. MİLLİ İNCƏSƏNƏTİN TƏRƏQQİSİ ........................ 229

VII FƏSİL. ANA DİLİNƏ QAYĞI ........................ 267

VIII FƏSİL. DEMOQRAFİK İNKİŞAF ........................ 285

IX FƏSİL. HƏRBÇİ KADRLARIN HAZIRLANMASI VƏ HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ ........................ 298

X FƏSİL. ERMƏNİ İDDİALARINA QARŞI MÜBARİZƏ ........................ 325

XI FƏSİL. AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMDƏ TANIDILMASI ........................ 391

XII FƏSİL. XARİCDƏ YAŞAYAN HƏMVƏTƏNLƏRLƏ ƏLAQƏ ........................ 412

XIII FƏSİL. CƏNUBİ AZƏRBAYCAN MƏSƏLƏSİ ........................ 443

XIV FƏSİL. HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI ........................ 495

NƏTİCƏ ........................ 549

İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT ........................ 571


# GİRİŞ.
# PROBLEMƏ ÜMUMİ METODOLOJİ BAXIŞ

Məlum olduğu kimi, sovet dövründə tarixçilər sinfi mübarizəyə əsaslanan hakim marksist-leninçi ideologiyaya uyğun araşdırmalar aparırdılar, başqa bir alternativə istinad etmək mümkün deyildi. Alternativlik bəzi elm adamları tərəfindən düşünülsə də, tətbiqi üçün şərait və imkan yox idi. Ölkədə rəsmi ideologiya tarix elminin üzərində şəriksiz ağalıq edirdi. Tarixçilərin qarşısına konkret vəzifələr qoyulur və cızıq çəkilirdi. Ondan kənara çıxmaq mümkün deyildi. Hakim ideologiyanın göstərişlərini yerinə yetirən tarixçi onu əsaslandırmağa borclu idi. Dövrün şərtlərindən kənara cıxmağa cəhd edən tarixçini sıxma-boğmalar, cəmiyyətin müəyyən, hətta məhdud dairəsinə təsir göstərmək imkanından məhrum edilmə gözləyirdi. Bütün bunlar danılmaz gerçəklik olduğundan ayrı-ayrı tarixçiləri bir neçə il keçdikdən sonra ittiham etmək doğru olmadığı kimi, həmin əsərləri tam bitkin, hərtərəfli və obyektiv saymaq da düzgün deyil. Çünki həmin tarixçilər özləri etiraf edirdilər ki, araşdırmalarını marksist-leninçi metodologiya əsasında aparırlar. Marksist-leninçi metodologiyanın tələbləri və meyarları isə aydındır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bununla əlaqədar olaraq deyirdı: «Alimlərimizin, tarixçılərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz». Dogrudan da belədir. Həmin əsərlər kifayət qədər faktoloji bazaya malik olmalarına baxmayaraq, hadisə və proseslərin bütün tərəflərini tam əks etdirə bilmədiklərindən müstəqil dövlət quruculuğu şəraitində bu problemlərin dərindən öyrənilməsinə yenidən qayıdılması vacibdir. Belə vəziyyət yeni şəraitdə sovet dövrü problemlərini araşdıranlardan dərin nəzəri-metodoloji hazırlıq, araşdırıcılıq qabiliyyəti, bacarıq və yüksək vətəndaşlıq tələb edir. Amma heç kimə sirr

deyil ki, əvvəlki illərdə ideoloji baxımdan yazılmış monoqrafiyaların yerini sovet sistemi dağıldıqdan sonra tədricən populist əsərlər tutmağa başladı. Dövlət müstəqilliyi bərpa edildikdən sonra tarix elmimizdə mövcud olan bu nəzəri-metodoloji çatışmazlıq özünü tarixi dövrlərin - Cümhuriyyət və sovet dövrü problemlərinin tədqiqində xüsusilə büruzə verdi. Sovet dövründə üstündən xətt çəkilərək pislənilən Cümhuriyyət dövrü dərindən, ciddi təhlil edilmədən təriflənməyə, sovet dövrü isə kor-koranə pislənilməyə başlandı. Nəinki sovet dövrü və siyasi xadimləri, hətta onun araşdırıcıları da "topa tutuldu". Siyasi konyukturanın təsiri altında hər şeydən imtina etmək az qala axına çevrilmişdi. Axının önündə gedənlər unudurdular ki, bu dövrün özü xalqın tarixinin bir hissəsi olmuşdu, siyasi xadim zamanının yetirməsidir və sovet dövründə tarixçi mövcud şəraitin əsirinə çevrilmişdi. Məlumdur ki, dövrün siyasi-ideoloji ab-havası istəsə də, istəməsə də tarixçiyə müvafiq təsir edir. Xüsusən dövlət müstəqilliyinin mövcud olmadığı bir şəraitdə rəsmi tarix doktrinasının əleyhinə kitab çap etdirmək mümkün deyildi. Tariximizin və tədqiqatlarımızın keçdiyi inkişaf yolunda varislik baxımından həmin dövrə və dövrün araşdırıcılarına qayğı ilə yanaşmaq tələb olunur. Həm də müstəqil dövlət quruculuğu şəraitində Azərbaycan tarix elminin bəzi araşdırıcıları ciddi mənbələrə əsaslanmadan və ya lazım bildiyi ayrı-ayrı seçmə faktları götürüb bütün sovet dövrünü populist tənqid edərək belə təməllər üzərində inkişaf etmək istəyirlərsə, bu, nəinki elmi, həmçinin dövlət və milli mənafelər baxımından ziyanlıdır. Belə yanaşma ilə tarix elmimizin ciddi uğur qazanacağı şübhəli görünür. Ona görə də bir neçə illər ötəndən sonra məsələlərin mahiyyətinə dərindən varmadan həmin dövrü və tarixçiləri ittiham etmək tarixi hadisə və proseslərə metodoloji yanaşmanın tələbləri baxımından yanlışdır. Çünki hadisə və proses, yeridilən siyasət konkret məkan və zamanda mövcud şərtlər daxilində baş verdiyindən onlara da məhz bu baxımdan, bütün tərəfləri, daxili və



beynəlxalq cəhətləri nəzərə alınmaqla qiymət verilməlidir. Marksist-leninçi prinsiplərə əsaslanaraq özünə sərf edən fakt və materialların götürülməsi əsasında aparılan tədqiqatlar nəticəsində yazılmış ideologiyalaşdırılmış əsərlər birtərəfli olduğu kimi, populist, tarixi hadisə və prosesi baş verdiyi dövrdə olduğu kimi deyil, sonradan yersiz modernləşdirərək, siyasiləşdirərək istədiyi kimi vermək, hansı nəticələrə gələcəyini araşdırmadan əvvəl müəyyənləşdirmək də ziyanlıdır. Təəssüf ki, belə hal artıq qeyd edildiyi kimi, ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərindən etibarən tarix elmimizə ayaq açmağa başladı. Sovet tarixindən kor-koranə imtina edilmənin "əsaslandırılması" bəzi tarixi tədqiqatların az qala leytmotivinə çevrilmişdi. Qeyd etmək lazımdır ki, sovet sisteminin dağıldığı bir şəraitdə belə yanaşmaya siyasi baxımdan bəlkə də haqq qazandırmaq mümkün idi. Lakin elmi baxımdan onun yanlış və ziyanlı olduğu kimsədə şübhə doğurmamalıdır. Çünki belə səhv yanaşma artıq bır dəfə başımıza gəlib. Azərbaycan tarix elmi sovet dövründə ideoloji basqılar və ölkədə yeridilən ümumi siyasət ucbatından xalqımızın müsəlman Şərqində ilk dəfə olaraq respublika formasında dövlətini qurduğu 1918-1920-ci illər tariximizi qaralamaqla bu baxımdan xeyli əziyyət çəkib. İndiki şəraitdə isə Cümhuriyyət dövrü tarixinin yersiz ideallaşdırılması nə qədər ziyanlıdırsa, onun əks tərəfdən eyni qayda ilə qaralanması, üstündən xətt çəkilməsi də bir o qədər zərərlidir. Çarizm və Cümhuriyyət dövrləri kimi, sovet dövrü tarixi də Azərbaycan xalqının zəngin tarixinin ayrılmaz tərkib hissəsidir. Onu olduğu kimi öyrənərək əsərlər yazıb xalqın istifadəsinə vermək vacibdir. Xalqın gercək tarixinin təhrif edilmiş halda yazılıb yenidən ona sırıdılması elmimizdə əlavə problemlər yaradar. Sovet dövrü tarixindən imtina etmək yolverilməz və yanlış olduğu kimi, onun yersiz modernləşdirilməsi və siyasiləşdirilməsi də məqbul deyil. Keçmişin siyasəti bu gün üçün tarix, bu günün siyasəti isə gələcək üçün tarix olduğundan, yeridilən bu və ya digər siyasətə münasibətdə müxtəlif

yanaşmaların olması da təbiidir. Amma soruşulur: həmin tarix öz əksini müxtəlif sənəd və materiallarda, o cümlədən biri-birinə ideoloji baxımdan zidd cəbhələrdə olan dövri mətbuatda tapdığından tədqiqatçı nəyə əsaslanmalı, hansı meyarları əsas götürməlidir? Tədqiqat apararkən mənbələrlə işləməsində sərbəst olan tədqiqatçının ciddi sənədləri öyrənərək nəinki onların görünən, həmçinin görünməyən tərəflərini araşdırıb müqayisəli təhlil etməsi, başlıca və ümumi cəhətləri üzə çıxarması vacibdir. Tarix artıq baş verdiyi kimidir. Ona həm baş verdiyi şəraitdə, həm də bir neçə illər sonra müxtəlif münasibət ola bilər. Bu, təbiidir. Lakin yanaşmalar necə olurlarsa - olsunlar, tarixi hadisə və proseslərin gerçək mahiyyətini dəyişmirlər. Səhv yanaşma insanların tarixi biliyini də yanlış formalaşdırır. Onu sonradan düzəltmək isə çətin olur. Deməli, tarixçi tarix elmi və xalq qarşısında ciddi məsuliyyət daşıyır. Axı insanların heç də hamısı tarixçi deyillər və onların arxivlərdə oturub ilk mənbələri oxumaq imkanları həm fiziki, həm də nəzəri baxımdan yoxdur. Bu, heç onların işi də deyil. Belə şəraitdə bütün iş tədqiqatçının bacarığı, səriştəsi və vicdanından asılıdır. Doğrudur, tədqiqatçının araşdırmasına yuxarıda deyilənlərlə yanaşı onun siyasi mənsubiyyəti, dünyagörüşü, hətta tərbiyə aldığı, böyüyüb boya-başa çatdığı ailə mühiti, əxlaqı və digər keyfiyyətləri də təsir edir. Belə olduqda Azərbaycan tarixi tədqiqatçısının əsas vəzifəsi hər hansı təsirin fövqündə duraraq yaxın və uzaq tarixi oldugu kimi, bütün tərəflərini nəzərə almaqla obyektiv yazmaq olmalıdır. Başqa cür yazılan əsərlər yanlış, birtərəfli, çaşdırıcı və qısa ömürlü olacaq. Əlbəttə, hec bir tarixçinin, o cümlədən, bu sətirlərin müəllifinin də işləri qüsur, nöqsan və çatışmazlıqlardan xali deyil. Lakin tədqiqatçı xalqın tarixinə yanaşmada, məsələlərin qoyuluşunda və həllində konseptual yanlışlıqlara yol verməməli, ciddi mənbələrə əsaslanaraq obyektiv əsərlər yazmalıdır. Hansı sistemin və ideologiyanın mövcudluğundan asılı olmayaraq xalqımızın tarixinin ayrılmaz bir hissəsi olan sovet dövrünə münasibətdə də bütün bunlar



ciddi şəkildə gözlənilməlidir. Sovet tarixini "ütülü", tərifli vermək nə qədər ziyanlıdırsa, onun üstündən bircə "uf" deyərək qara xətt çəkmək də qat-qat zərərlidir. Belə yanaşma tarixi tədqiqatların metodoloji prinsiplərinə zidd olub, xalqın tarixinin bütöv bir dövründən, mədəniyyət, iqtisadiyyat, hətta bu torpaqda yaşayan və Azərbaycan istiqlalını yaradan xalqın varlığı tarixindən imtina etməyə gətirib çıxarır. Tədqiqatçı hər hansı amilin və ya amillər qrupunun təsiri altında xalqın tarixinin bu və ya digər dövrünü, səhifəsini, anını, şəxsiyyətini sevməyə, bəyənməyə bilər. Bu, onun şəxsi işidir. Lakin xalqın tarixinə qayğı ilə yanaşmağa və hörmət etməyə borcludur. Çünki bu, onun öz tarixidir və ən azı bilməlidir ki, əvvəlcə xalq yaranır, sonra müxtəlif istiqamətli ideoloji-siyasi cərəyanlar. Xalqın tarixini təhrif etmək yolverilməzdir. Müəyyən ideoloji cərəyanı qabardaraq hadisə və proseslərə subyektiv yanaşıb xalqın tarixinin digər səhifəsinin üstündən xətt çəkmək hansı baxımdan olursa-olsun zərərlidir və elmi deyil. Deməli, sovet dövrünün bütün tərəflərinin əhatəli araşdırılması, ümumiləşdirmələrin aparılması, dərin nəticələrin çıxarılması, ibrət alınması elmi və siyasi baxımdan mühüm aktuallıq kəsb edir.

Bəzən sovet dövrünü çarizmin müstəmləkəçilik siyasətinin başqa formalarla davamı kimi də dəyərləndirirlər. Azərbaycan xalqının dövlət müstəqilliyinə son qoymuş bolşevik işğalının həyata keçirilməsi prosesini və nəticələrini mahiyyətinə görə başqa cür qiymətləndirmək heç doğru da deyil. Lakin Cümhuriyyətin süqutuna baxmayaraq, işğaldan sonrakı dövrdə Azərbaycan formal olsa da, müttəfiq respublika sayılırdı, konstitusiya ilə müəyyən beynəlxalq əlaqələr saxlamaq hüququ var idi. Əslində Azərbaycan Xalq Cümhuriyyəti olmasaydı, bolşevik işğalından sonra qurulan Azərbaycan Sovet Sosialist Respublikası da olmayacaq, Azərbaycan Rusiyanın bir əyaləti kimi qalacaqdı. Azərbaycan SSR olmasaydı, SSRİ dağılanda bəlkə də indiki Azərbaycan Respublikası yaradılmayacaqdı. Deməli, sovet dövrü tariximizə Azərbaycan Xalq Cümhuriyyəti

tarixi ilə varislikdə, Azərbaycan SSR-ə isə İkinci respublika kimi baxmaq daha doğru olardı. Qeyd etmək lazımdır ki, sovet dövründə Azərbaycanda müstəqil dövlət olmasa da, dövlətçiliyin müəyyən atributları saxlanılmışdı. Bununla belə, anlaşılmalıdır ki, sovet dövrünün yersiz təriflənməsinin və şişirdilməsinin dövlət müstəqilliyini yenidən bərpa etmiş bir xalq üçün siyasi-ideoloji baxımdan ziyanı da ola bilər. O dövrü yaşamış adamlarda və gənclərdə sovet sistemi, marksist-leninçi ideologiya üçün qəribsəmək hissləri baş qaldıra bilər. Amma dünya artıq əvvəlki dünya deyil və geriyə qayıdış da imkansızdır. Ona görə də sovet dövrü tarixinin obyektiv və dərindən öyrənilməsinə nail olmaq lazımdır. Həm də bu zaman sovet tarixinin müxtəlif dövrlərini bir-birindən fərqləndirmək vacıbdir. Məsələn, hər ikisində sovet sisteminin mövcud olmasına baxmayaraq, Azərbaycan milli mədəniyyətinin, milli düşüncəli ziyalıların məhv edildiyi 20-40-cı illərlə müqayisədə ziyalılara xüsusi qayğının göstərildiyi, milli-mədəni intibahın baş verdiyi, gələcək müstəqilliyin təməllərinin yaradıldığı 60-ci illərin sonu-80-ci illərin ortaları heç də eyni deyil. Ölkədə vahid sistem və ideologiya olmasına baxmayaraq, göstərilən illərdə Azərbaycanda bir-birindən fərqli siyasət həyata keçirilirdi. Birincidə milli köklərə dayanan mədəniyyət, mədəniyyət xadimləri məhv edilir, ikincidə isə bunlar böyük əzmlə, ciddi düşünülərək yaradılırdı.

Bəzi böyük ölkələrdə Xalq tarixi və Rəsmi (Hökumət) tarix ayrı-ayrı öyrənilir və öyrədilir. Əlbəttə, bunların arasında ciddi sərhədi, suayrıcını müəyyənləşdirmək çox çətindir. Çünki xalq mövcud olmasa, rəsmi anlamı özündə daha çox ehtiva edən hökumətin mövcudluğu da mümkün deyil. Müstəmləkəçiliyin istənilən formasında mərkəzi hakimiyyətin siyasətinə bəraət qazandırmaq müstəqilliyin əsaslarına və bərpasına qarşı çıxmaqdır. Bununla belə, tarixi təcrübə göstərir ki, müstəmləkəçilik idarə üsulunun müəyyən müsbət tərəfləri də vardır. Məsələn, məktəblərin açılması, sənaye müəssisələrinin yaradılması və s. müstəmləkə siyasətinə xidmət etsə də, yerli xalqın



həmin sahələrdə inkişafına kömək edir. Tikilən, qurulan xalq üçün qalır. Deməli, belə olduqda diqqətə daha çox alınması lazım gələn məsələlərdən biri sovet sistemi şəraitində Azərbaycana rəhbərlik etmiş şəxslərin fəaliyyətinə, respublikada həyata keçirdikləri tədbirlərin təhlilinə geniş yer ayrılmasıdır. Tədqiqatçı belə bir suala da cavab axtarmalıdır ki, onların hansının hakimiyyəti illərində həyata keçirilən tədbirlər Azərbaycan xalqının maraqlarına, arzularına və müstəqillik ideallarına daha çox xidmət edib?

Müstəqil dövlətin mövcud olduğu bir şəraitdə Rəsmi tarixin, Dövlətçilik tarixinin daha geniş araşdırılmasına, öyrədilməsinə və təbliğinə xüsusi diqqət verilməsi vacibdir. Çünki xalqın iradəsini ifadə edən Rəsmi tarixin öyrədilməsi xalqı bütövləşdirir, birləşdirir, dövləti möhkəmləndirir. Güclü dövlət siyasi mövqeyi və mənsubiyyətindən asılı olmayaraq güclü vətəndaş deməkdir. Məlumdur ki, xalqın müstəqil dövlətinin olmadığı şəraitdə mərkəzi hakimiyyətə qarşı xalqın mənafeləri naminə hər hansı formada yönəlmiş hərəkət Xalq tarixi baxımından müsbət, Rəsmi (İmperiya) tarix baxımından isə mənfi qiymətləndirilir. Milli dövlətçilik şəraitində isə hər hansı qeyri-qanuni hərəkət birbaşa hakimiyyətə, geniş mənada xalqa, dövlətin əsaslarına qarşı yönəldiyindən ümumdövlət, ümumxalq mənafeləri baxımından obyektiv araşdırılmalıdır. Çünki Rəsmi, Dövlətçilik tarixi elə xalqın tarixi deməkdir.

Məlum olduğu kimi, Azərbaycan bütün dünyaya səpələnmiş azərbaycanlıların ümumi vətənidir. Amma təəssüf olsun ki, bəzən "Azərbaycan tarixi" ifadəsindən imtina edib "Azərbaycan xalqının tarixi" yazılması barədə populist, elmi və siyasi baxımdan zərərli fikirlərə də rast gəlinir. "Azərbaycan tarixi" ifadəsi həm siyasi, həm coğrafi, həm də yaşadığı ərazidə dövləti qurmuş xalqın tarixi anlamını kəsb etdiyindən heç şübhəsiz, uğurlu və həmişəyaşardır. Bu ifadə xalqımızın zəngin dövlətçilik ənənələrini, qədim tarixini özündə ehtiva edir. Bəzi xalqların və əşirətlərin tarixinin coğrafi-siyasi, dövlət anlamın-

da yox, etnik anlamda verilməsi heç də əbəs deyildir. Çünki dünyada xalqlar çox olsa da, heç də onların hamısı dövlət qurucu deyillər. Ona görə də tariximizin "Azərbaycan tarixi" deyil, "Azərbaycan xalqının tarixi" adlandırılması barədə arasıra rast gəlinən fikirlərin kifayət qədər elmi əsası yoxdur və həm elmi, həm də siyasi baxımdan ziyanlıdır.

Əlbəttə, bütün bunlar Xalq tarixinin yazılmasından imtina etmək demək olmamalıdır. Azərbaycan xalqının tarixi həm Azərbaycan Respublikası ərazisində yaşayanların, cənubi azərbaycanlıların, taleyin hökmü ilə dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin, mühacirətin tarixidir. Xalqımızın tarixinin bütöv, vahid, qarşılıqlı vəhdətdə, əlaqədə araşdırılması zəruridir. 1920-1991-ci illərdə xarici ölkələrdə fəaliyyət göstərmiş mühacirətin tarixi də ümumi tariximizin tərkib hissəsidir. Ona qara yaxılması və üstündən xətt çəkilməsi cəhdləri doğru deyildir. Məhz siyasi mühacirlər və onların varisləri xaricdəki Azərbaycan diasporunun nüvəsini təşkil edirlər. Böyük dövlət adamı H.Əliyev çox haqlı olaraq deyirdi ki, tariximizin hər bir səhifəsi bizim üçün əzizdir. Əgər sovet hakimiyyəti illərində ölkə sərhədlərindən kənarda yaşamağa məcbur olan mühacirət liderləri xaricdə istiqlal fikrini qoruyuyb saxlamışlarsa, müstəqil dövlətin qurulması üçün zəruri olan ilkin maddi amillər-ərazi, əhali və hökumət - Azərbaycan Sovet Sosialist Respublikasının hüdudlarında formalaşıb. Bu baxımdan Azərbaycan tarixində 60-cı illərin sonu-80-ci illərin ortaları xüsusi yer tutur. Respublikanın kommunist rəhbəri olmasına baxmayaraq, H.Əliyev hakimiyyəti illərində xalqını düşündürən problemləri məharətlə həll edir, istiqlalın bərpası üçün lazım olan şərtləri ehtiyatla, məqsədyönlü şəkildə sovet Azərbaycanında hazırlayır, milli ziyalıları qoruyur, idealizmə uymadan dövrün şərtləri daxilində gözlərinin qarşısında olan xalqı üçün çalışırdı.

Qeyd etmək lazımdır ki, bəzi araşdırıcılar sövet dövrü xadimlərini ehtiyac olmadan, lüzumsuz yerə tərifləyir, digər bir qisim isə "gözlərini yumaraq" qaralayır, onların hamısının pis



olduğunu deyir. Əslində ciddi elmi araşdırma baxımından bu məsələyə yanaşmada elə bir mübahisə olmamalıdır. Çünki Azərbaycanın sovet dövrü dövlət xadimlərinin hər biri artıq tarixdə tutduqları yerlərini özləri müəyyənləşdiriblər, tarixlərini özləri yaradıblar. Dünya elmində qəbul olunmuş metodoloji yanaşmadan məlumdur ki, tarixi xidmətlərə qiymət verilərkən tarixi xadimlərin müasir tələblərə nisbətən vermədikləri şeylər deyil, onların öz sələflərinə görə verdikləri yeni şeylər əsas götürülür. Tədqiqatçının borcu həmin tarixi olduğu kimi araşdıraraq yazıb oxucuya çatdırmaq olmalıdır. Bir neçə on illər sonra şəxsiyyət probleminə siyasi baxışlar bucağından yanaşıb yersiz modernləşdirilmiş və siyasiləşdirilmiş qiymət vermək tarix elmi üçün ciddi dəyər daşımasa da, müəyyən dolaşıqlıqlar yaradır. Məlumdur ki, marksist-leninçi ideologiya tarixdə xalq kütlələrinin aparıcı rolunu əsas götürsə də, şəxsiyyətlərin rolunu da qiymətləndirirdi. Bütün tarix boyu xalqın taleyində liderlərin misilsiz rol oynadıqları şəksizdir. Bu baxımdan sovet dövrü tariximizdə olan bütün, xüsusən, xalqın mənafeləri naminə çalışmış dövlət adamlarımıza qayğı və hörmətlə yanaşılmalıdır. Həmin xadimləri Kommunist Partiyasının üzvü, rəhbəri olduqlarına görə ittiham etmək tarixi tədqiqatların metodologiyası baxımından doğru deyil. Çünki o dövrdə başqa bir siyasi partiya fəaliyyət göstərmirdi. Xalqa daha yaxşı xidmət etməyin başlıca yolu sovet təhsili almaqdan, Kommunist Partiyasına üzv olmaqdan keçirdi. Tarixçi üçün bu məsələdə istinad mərkəzi həmin şəxslərin niyə görə Kommunist Partiyasının və respublikanın rəhbəri olmaları deyil, mövcud şəraitdə öz xalqına necə xidmət etmələri, xalqın arzu və istəklərini necə yerinə yetirmələri, Azərbaycanın istiqlalı üçün lazım olan şərtləri necə hazırlamaları olmalıdır. Tədqiqatçı eyni zamanda bu suallara cavab axtarmalıdır ki, Azərbaycanın sovet dövrü rəhbərlərinin hansının hakimiyyəti illərində respublika və Azərbaycan xalqı ölkə daxilində və xaricdə daha geniş tanınırdı, nüfuzlu idi? Hansının hakimiyyəti illərində Azərbaycan

xalqının milli kimliyini özündə qoruyub saxlayan və inkişaf etdirən mədəniyyətə, ədəbiyyata, incəsənətə, elmə, təhsilə, bu sahələrdə çalışan şəxslərə, milli ziyalılara, xaricdəki azərbaycanlılara münasibət daha yaxşı idi? Hansı rəhbər daha çox milli hərbçi və idarəetmə kadrları hazırlayaraq irəli çəkirdi? Hansı rəhbər erməni iddialarına qarşı daha səmərəli mübarizə aparırdı? Hansı rəhbər SSRİ-nin türk xalqlarının birliyinin inkişaf etdirilməsində, türk dünyası arasında əlaqələrin qurulmasında daha çox maraqlı idi və bu istiqamətdə necə çalışırdı? Həqiqətdir ki, tarixdə dağıdan, zəif dövlət adamlarının deyil, xalq və dövlət naminə qurub-yaradan güclü rəhbərlərin adı daim uca tutulur. Dövlət qurucu və xalq üçün çalışan rəhbərlərin adı millətin və dövlətin durduqca daim yaşayır, hörmətlə çəkilir.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi göydəndüşmə bir hadisə olmadı. Tarixə obyektiv yanaşma belə nəticəyə gəlməyə imkan verir ki, müstəqilliyin daxili maddi, mənəvi və digər amilləri əvvəlki dövrlərdə, xüsusən 60-ci illərin sonu-80-ci illərin ortalarında sovet sistemi şəraitində tədricən, ehtiyatla, düşünülmüş şəkildə formalaşdırılmışdı. Deməli, istiqlala gətirən yolun dərin elmi araşdırılması həmişə aktual olaraq qalır. Qeyd edildiyi kimi, dünya xalqlarının dövlət quruculuğu təcrübəsi göstərir ki, müstəqil dövlətin yaradılması üçün əhali, ərazi olmalı və nəhayət, hökumət qurulmalıdır. Məlumdur ki, 1918-ci ilə qədər Azərbaycanın ərazisi, əhalisi var idi, daxili və beynəlxalq amillərin təsiri altında hökuməti də quruldu. Sovet dövründə SSRİ-nin tərkibində olmasına baxmayaraq, Azərbaycan formal müstəqil, əslində sovet respublikalarından biri idi və müttəfiq respublika adlanırdı. Bununla belə, Azərbaycanın dövlət müstəqilliyindən söhbət gedə bilməzdi. Çünki hətta daxili idarəçilik üçün göstərişlər Moskvadan verilirdi. Xarici siyasət fəaliyyəti də mərkəzin əlində cəmlənmişdi. Əslində Azərbaycan müstəqil xarici siyasət yeritməkdən məhrum edilmişdi. Azərbaycan SSRİ-nin bir ərazisi idi. Sovet rejiminin şərtləri altında yaşamalarına baxmayaraq, Azərbaycanın istiqlalı məsələsi azərbaycanlıların



qabaqcıl xadimlərini, elm, mədəniyyət və incəsənət adamlarını daim düşündürürdü.

Tarixi təcrübədən məlumdur ki, istiqlalının beynəlxalq aləmdə tanınmasına iddia edən hər bir xalq əsasən aşağıdakı tələblərə cavab verməlidir: xarakterindəki müəyyən intellektual və mənəvi-dini xüsusiyyətlərinə görə seçilməlidir; öz taleyini müəyyən etməyə qadir olduğunu sübut etməlidir; öz xərclərini ödəmək üçün iqtisadi, təbii və maliyyə vasitələrinə malik olmalıdır; özünü xarici təcavüzdən qoruya bilməlidir. Bu şərtlər olmadan dövlət müstəqilliyinin tanıdılmasına ümid etmək yalnız xoş arzu olaraq qalır. Çünki xaricdən başqa bir xalq və ya dövlət gəlib digər xalq üçün hökumət qurmur.

239242

Bəs Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonrakı dövrdə sovet orqanları tərəfindən düşünülmüş, sistemli şəkildə məhv edilmiş yuxarıda göstərilən şərtlər əsasən nə vaxtdan yenidən hazırlanıb? Qeyd etmək lazımdır ki, İ.V.Stalinin ölümündən sonra Azərbaycanda milli dil və tarixlə bağlı məsələlərdə cüzi canlanma baş versə də, respublikada siyasi hakimiyyətin daxilində yekdilliyin, hakimiyyətlə xalq arasında birliyin olmaması nəticəsində onun qarşısı kəsildi. Yalnız 60-cı illərin sonlarından etibarən Azərbaycan sovet tarixində ilk dəfə olaraq xalqın problemlərinin həllində və müstəqil dövlətçiliyə aparan yolda böyük, strateji mərhələnin əsası qoyuldu. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə Heydər Əlirza oğlu Əliyev təyin edildikdən sonra milli düşüncəli ziyalıların yaradıcılıq fəaliyyəti üçün respublikada əlverişli şərait yaranmağa başladı. Millətsevərlik fəaliyyətləri üstündə təqiblər demək olar ki, dayandırıldı. Buna baxmayaraq, respublikada vəziyyət heç də yaxşı deyildi. Hakimiyyət daxilində intriqalar hökm sürür, respublikanın iqtisadiyyatı geri gedirdi. Moskva Azərbaycana yeni bir rəhbərin təyin edilməsi barədə düşünürdü. Bu zaman Azərbaycana H.Əliyevdən savayı rəhbərlik edəcək güclü adam yox idi. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əlirza oğlu Əliyevin respublika rəhbəri



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

seçilməsi ilə xalqın tarixində keyfiyyətcə yeni mərhələ başlandı. MK bürosu əvvəlcə Heydər Əlirza oğlu Əliyevin Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsi məsələsini müzakirə edərək bəyəndi[1]. Bundan sonra MK plenumu təşkilat məsələlərini müzakirə edərək Azərbaycan KP MK-nın birinci katibi Vəli Yusif oğlu Axundovu Azərbaycan Elmlər Akademiyasının prezidenti vəzifəsinə seçilməsi ilə əlaqədar olaraq MK-nın birinci katibi vəzifəsindən və büro üzvlüyündən azad etdi, H.Ə.Əliyevi isə Azərbaycan KP MK-nın birinci katibi və büro üzvü seçdi[2]. Bununla bağlı olaraq büronun qəbul etdiyi qərarda deyilirdi: «Yoldaş Əliyev Heydər Əlirza oğlu başqa işə keçməsi ilə əlaqədar olaraq Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsindən azad edilsin. Bu qərarın təsdiqi Sov. İKP MK-dan xahiş edilsin»[3]. Sov. İKP MK həmin qərarı təsdiq etdi. ABŞ tarixçisi B. Foukis bu hadisə ilə əlaqədar olaraq yazır ki, Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev DTK-dan Heydər Əliyevi partiya liderliyinə gətirdi[4].

Qeyd etmək lazımdır ki, Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra H.Əliyevə SSRİ DTK-nın sədri Y.Andropovun 1969-cu il 27 noyabr tarixli 166№-li əmri ilə təşəkkür elan edildi və qiymətli hədiyyə verildi[5].

H. Əliyev hakimiyyətə gəlməsi ilə Azərbaycanda partiya, dövlət, təsərrüfat idarəçiliyinə yeni nəfəs, yeni iş metodu, ciddiyyət gətirdi. Bu, özünü ilk növbədə köhnə rəhbərliyə münasibətdə göstərdi. Azərbaycan tarixində ilk dəfə olaraq yeni

---

[1] Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARSPİHDA), f. 1, siy. 56, iş 45/46.
[2] «Kommunist» qəzeti , 1969, 15 iyul, № 163 (14159).
[3] ARSPİHDA, f. 1, siy. 56, iş 45, v. 5.
[4] Fowkes B. The National Question in the Soviet Union under Leonid Brezhnev: Policy and Response // Brezhnev reconsidered. New York, 2002, p.69.
[5] Приказ председателя Комитета Государственной Безопасности при Совета Министров СССР – AR MTN muzeyinin materialları.



# ПРИКАЗ

**ПРЕДСЕДАТЕЛЯ КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ**
при СОВЕТЕ МИНИСТРОВ СССР

за 1969 год

СОДЕРЖАНИЕ:

№ 166 — О поощрении бывшего председателя КГБ при Совете Министров Азербайджанской ССР генерал-майора АЛИЕВА Гейдара Али Рза оглы

№ 166 — 27 ноября 1969 года — г. Москва

Генерал-майор АЛИЕВ Гейдар Али Рза оглы свыше 25 лет работал в органах госбезопасности. За это время он прошел путь от оперуполномоченного до председателя КГБ республики. Находясь на руководящих постах т.АЛИЕВ все свои знания и энергию отдавал делу обеспечения государственной безопасности нашей Родины, служил примером честного и добросовестного исполнения своего долга, проявил себя хорошим организатором.

В настоящее время т.АЛИЕВ избран первым секретарем ЦК Компартии Азербайджана.

П Р И К А З Ы В А Ю:

За долголетнюю и безупречную службу в органах госбезопасности генерал-майору АЛИЕВУ Гейдару Али Рза оглы объявить благодарность и наградить его ценным именным подарком.

ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ
БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СССР



(АНДРОПОВ)

rəhbər köhnə rəhbəri nəinki tənqid etmədi, pisləmədi, əksinə ona xüsusi qayğı ilə yanaşdı. Bu addım xalqın sovet dövru tarixində rast gəlinməyən nadir bir hadisə idi. Bilavasitə H.Əliyevin təklifi əsasında MK bürosunun qəbul etdiyi və özünün imzaladığı qərarla Vəli Axundovun birinci katib işlərkən istifadə etdiyi tibbi və məişət xidmətləri özündə saxlanıldı[6]. Azərbaycanın yeni rəhbərinin bu hərəkəti xalqla hakimiyyət arasında və hakimiyyət daxilində o zamanadək heç vaxt mövcud olmayan birliyin yaradılması yolunda ciddi bir strateji məqsədin, iradənin ortaya qoyulması demək idi. Azərbaycan xalqının uğurlu inkişafını və tərəqqisini milli birlikdə görən H.Əliyev hakimiyyəti illərində məhz buna nail olaraq geniş planlarını həyata keçirməyə girişdi. O, ciddi, eyni zamanda qayğıkeş idi. H.Əliyev hətta övladları üçün xüsusi şərait yaratmamışdı. Onlar sadə və hamı ilə bərabər idilər. Əliyev çox vaxt gözlənilmədən maşınını saxladıb dükanlara girər və əhalinin ərzaq təminatını, satıcıların fəaliyyətini öz gözləri ilə görərdi.

Azərbaycan xalqı H.Əliyevin rəhbərliyi altında siyasi hakimiyyət ətrafında sıx birləşərək heç bir şüar, yersiz kəlmə işlətmədən, ehtiyatla müstəqil dövlət quruculuğu üçün lazım olan daxili və beynəlxalq şərtləri ümumi sovet sistemində tədricən hazırlamağa və tarixən qarşısında duran ümümilli problemləri həll etməyə başladı. Azərbaycanın istiqlalının təməllərini təşkil edən həmin şərtlərin H.Əliyevin respublikanın kommunist lideri olmasına baxmayaraq, mahiyyətcə millətsevərlik baxışları və dövrün reallığını nəzərə alaraq yeritdiyi praqmatik siyasəti nəticəsində formalaşdırıldığı şəksizdir. Onun sovet sistemi şəraitində xalqının tərəqqisinə nail olub müstəqil dövlətçilik üçün tələb olunan şərtləri hazırlaması və xalqı düşündürən problemləri həll etməsi istiqamətində böyük tarixi əhəmiyyətli fəaliyyətini araşdırmaq həm tariximizin bir hissəsi olan sovet dövrünü öyrənmək, həm də müasir milli dövlət quruculuğuna gətirən ağır yolu bilmək baxımından əhəmiyyətli və aktualdır. Ona görə də biz heç bir siyasi konyukturaya yol vermədən elmi və siyasi baxımdan aktual olan bu

[6] ARSPİHDA, f. 1, siy. 56, iş 46, pr. № 105, § 2, v. 10.



problemi olduğu kimi, obyektiv araşdırmağa çalışmışıq. Heç şübhəsiz, indiyədək Heydər Əliyev haqqında yazılmış çoxlu kitablar qiymətli və əhəmiyyətlidir. Lakin monoqrafiyada tədqiqat obyekti olan problem ilk mənbələr əsasında elmi araşdırma kimi kompleks şəkildə indiyədək heç vaxt öyrənilməyib.

Qeyd etmək lazımdır ki, xarici ölkələrdə görkəmli dövlət, siyasi və hərbi xadimlərə həsr edilmiş əsərlər yazmaq çoxdandır adi hal alıb, ailələrin, nəsillərin tarixindən bəhs edən Geneologiya elmi kifayət qədər geniş yayılıb. Bununla bağlı yüzlərlə misal gətirmək olar. C.Vaşinqton[7], T.Cefferson[8], A.Cekson[9], V.Vilson[10], F.D.Ruzvelt[11], D.Eyzenhauer[12], R.Kennedi[13], L.Conson[14], Napoleon[15], Bismark[16], İ.V.Stalin və A.Hitler[17], B.Mussolini[18], A.İden[19], Ş.D.Qoll[20], N.S.Xruş-

[7] Яковлев Н. Вашингтон. М. , 1973.
[8] Merill D. Peterson. Thomas Jefferson and the New Nation. London, 1970.
[9] Arthur M. Shlesinger Jr. The Age of Jackson. New York, 1945.
[10] Artur S. Link. Wudrow Wilson and the progressive era. 1910-1917. New York, 1954; Уткин А. И. Дипломатия Вудро Вилсона. М. , 1989.
[11] Jhon Morton Blum. The republican Roosevelt. Cambridge, 1997; Frank Freidel. Franklin D. Rossevelt. A Render - vous With Destiny. New York, 1990; Willam E. Leuchtenburg. Franklin D. Rossevelt and the New deal. 1932-1940. New York, 1963; Уткин А. И. Дипломатия Франклина Рузвелта. Свердловск, 1990.
[12] Robert A. Divine. Eisenhower and the cold war. Oxford, 1981; Stephen E. Ambrose. Eisenhower solider and president. New York, 1990; İvanov R. F. Duayt Eyzenhauer. Bakı, 1985.
[13] Arthur M. Shlesinqer Jr. Robert Kennedy and his times. New York, 1978.
[14] Robert A. Garo. The Jears of Lindon Jonson means of ascent. New York, 1990.
[15] Tarle Y. V. Napoleon. Bakı, 1993.
[16] Чубинский В. Бисмарк. Биография. СПб., 1997.
[17] Булок Алан. Гитлер и Сталин. Жизнь и власть: в 2-х томах. Смоленск, 1994.
[18] Хибберт Кристофер. Бенито Муссолини. Биография (Пер. с англ.). Ростов- на-Дону, 1998.
[19] Трухановский В.Г. Антони Иден. М., 1983.
[20] Молчанов Н.Н. Генерал де Голл. М., 1980.

şov[21] və b. haqqında maraqlı kitablar çap edilib.

Azərbaycanda isə dövlət və siyasi xadimlərə həsr olunmuş dərin elmi-tədqiqat əsərlərinin yazılması işi yenidir. Həm də gizlətmək lazım deyil ki, həmin əsərlərə bəzən birmənalı münasibət bəslənilmir. Çox vaxt belə tədqiqatlarda tarixi gerçəklik, tarixi tədqiqatların metodoloji prinsipləri arxa plana keçirilir, yanlış olaraq siyasi-ideoloji baxışlar və subyektiv yanaşma üstünlük təşkil edir. Bütün bunlardan fərqli olaraq Azərbaycan alimlərindən R.Mehdiyev, A.Məhərrəmov, N.Xudiyev, İ.Hüseynova, Y.Mahmudov və başqalarının əsərləri azərbaycançılığı, Heydər Əliyevin həyat və fəaliyyətini öyrənməkdə əhəmiyyətlidir[22]. Bununla belə, 1969-1987-ci illərdə Heydər Əliyevin Azərbaycan xalqını düşündürən problemlərə münasibəti, onları həll etməsi və istiqlal məsələsi tarixşünaslığımızda ayrıca tədqiqat obyekti olmayıb.

Heydər Əliyev öz həyat prinsipləri uğrunda axıradək cəsarətlə mübarizə aparan, mövcud şəraiti bütün tərəfləri ilə soyuqqanlıqla, xırdalığına qədər dərindən təhlil edərək doğru qiymətləndirən, fantaziyaları və xəyalları rədd edərək xalqın mövcud və gələcək istəklərinin yerinə yetirilməsinə yönəlmiş konkret işlər görən, bir an işsiz durmayan, dincəlməyi sevməyən, ikinci dərəcəli söhbətləri etməyən böyük dövlət, siyasi və partiya xadimi idi. Heç şübhəsiz, onun fəaliyyətinə sovet dövlətinin yeritdiyi ümumi siyasətdən kənarda qiymət vermək qətiyyən doğru deyildir. Məlumdur ki, sovet sistemi şəraitində təkcə idarəçiliyi bilməklə, yaxşı mütəxəssis olmaqla karyerada

[21] Гриневский О. Тысяча и один день Никита Сергеевича. М. , 1998.

[22] Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, XXI - Yeni nəşrlər evi, 2003; Məhərrəmov A. Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu. Redaktor akademik C.Ə.Əliyev. Bakı, Bakı Universiteti nəşriyyatı, 2001; Heydər Əliyev. Biblioqrafik məlumat kitabı. Azərbaycan MEA müxbir üzvü, professor A.M.Məhərrəmovun ümumi redaktorluğu altında. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003; Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı, 1997; Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil, 2004; Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, Təhsil, 2002.



uğur qazanmaq mümkün deyildi. Ünsiyyətcil olmayan, yuxarılarla dil tapmayan rəhbər işçi irəli gedə bilmirdi. H.Əliyev isə bütün yuxarıda göstərilən keyfiyyətləri özündə müvəffəqiyyətlə birləşdirən görkəmli dövlət xadimi idi. Onun respublikadakı uğurlarının çoxunun səbəblərini eyni zamanda bu amillərdə axtarmaq lazım gəlir. Çünki mərkəzlə normal, isti münasibətlər qurmadan respublikadakı problemləri həll etmək, deməli, xalqın istəklərini yerinə yetirmək mümkün deyildi. H.Əliyev yaxşı başa düşürdü ki, reallığı nəzərə almayan və fantaziyalara uyan siyasətçinin yalnız bir umidi qalır: özü haqqında uydurma yaratmaq. H.Əliyev hakimiyyəti illərində ən yaxşı, xoşagələn, məstedici sözləri sovet rəhbərlərinin, Kommunist Partiyasının ünvanına söyləyir, bunun əvəzində xalqını düşündürən problemləri böyük əzm, inad və bacarıqla həll edir, konkret işləri Azərbaycan üçün yerinə yetirir, mümkün olmayan hesab edilən işləri heyrətamiz məharətlə reallaşdırırdı. Məlum olduğu kimi, böyük siyasətçinin məharəti də elə mümkün olmayanı mümkün etməkdir. Vaxtilə ABŞ prezidenti V.Vilson deyirdi: «Əgər iş alınmırsa, elə etmək lazımdır ki, o, alınsın!»[23]. H.Əliyev alınmayan işlərin həllinə inadla, ustalıqla nail olurdu. O, sovet sistemi şəraitində bir çox mümkün olmayanları Azərbaycan xalqı üçün mümkün, xeyli mürəkkəb məsələləri isə millətin mənafeləri naminə uğurla həll edirdi.

Heydər Əliyevin hakimiyyəti illəri xalqın tarixində dönüş, Azərbaycanda ilk növbədə təhsil, mədəniyyət, incəsənət, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi, quruculuq və tərəqqi dövrüdür. Məhz bunlar Azərbaycan istiqlalının təməlini hazırladı. Minlərlə faktın yalnız bir neçəsinin xatırlanması bu barədə aydın təsəvvür yaradır. Əgər XIX əsrin ortalarından 1969-cu ilədək Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, 1969-1982-ci illərdə onların sayı 1048-ə çatdırıldı. Bu illərdə sənaye məhsulunun orta illik artımı 7,9%-ə yüksəldi. 1920-ci illə müqayisədə 1982-ci ildə Azərbaycanda sənaye

[23] Уткин А.И. Дипломатия Вудро Вилсона. М., 1989, с.239.

məhsulu istehsalının həcmi 187,9 dəfə artdı. Ümumi məcmu məhsulda sənaye məhsulunun payı kənd təsərrüfatı məhsullarının həcmini üstələyərək 66%-ə çatdı. Azərbaycanda geniş yollar şəbəkəsi yaradıldı. Bakıda metro tikintisi haqqında SSRİ Nazirlər Sovetinin 1949-cu ildə qəbul etdiyi qərar yalnız 1967-ci ildə 10 km uzunluğunda cəmi 5 stansiyanın istifadəyə verilməsi ilə yerinə yetirilmişdisə, 1969-1982-ci illərdə stansiyaların sayı 19-a, xətlərin uzunluğu isə 2,5 dəfə artırılaraq 28 kilometrə çatdırıldı. H.Əliyevin hakimiyyəti illərində Azərbaycanda 11 elektrik stansiyası tikilib istifadəyə verildi. Azərbaycan nəinki özünü elektrik enerjisi ilə təmin etməyə, həmçinin qonşu respublikalara enerji verməyə başladı. Müqayisə üçün belə bir fakt əhəmiyyətlidir ki, 1969-cu ilədək bütün sovet hakimiyyəti dövründə Azərbaycanda yalnız 28 elektrik stansiyası var idi. Rabitə müəssisələrinin sayı 1,2 dəfə, şəhər telefon stansiyalarının gücü 2,4 dəfə artırıldı. Azərbaycanın su təchizatı 1969-cu ildəki 346 mlrd. $m^3$-dən, 1982-ci ildə 689 mlrd. $m^3$-ə çatdırıldı. 2304 km. uzunluğunda su xəttləri çəkildi.

1982-ci ildə kənd təsərrüfatı məhsulu 1969-cu illə müqayisədə 2,5 dəfə, 1920-ci illə müqayisədə isə 9 dəfə artmışdı. Şərabçılıq sənayesinin istehsal həcmi 6 dəfədən artıq çoxaldı. Əhalinin hər üç nəfərindən biri təzə mənzillərə köçdü[24]. Belə faktların sayını xeyli artırmaq mümkündür.

Lakin monoqrafiyanın yazılmasında məqsəd H.Əliyevin iqtisadi sahədə həyata keçirdiyi tədbirləri deyil, onun millətsevərlik, müstəqil dövlətçilik baxışlarının formalaşmasını, xalqla hakimiyyət arasında, siyasi hakimiyyət daxilində yekdilliyə nail olmasını, təhsil, mədəniyyət, tarix, ədəbiyyat və incəsənətə qayğısını, milli hərbçi kadrları hazırlamasını, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulmasında, Azərbaycanın beynəlxalq aləmdə tanıtdırılması istiqamətində gördüyü işləri, müstəqilliyin təməlinin yaradılması sahəsində fəaliyyətini, Azərbaycan xalqının istəklərini və tarix boyu düşündürən problemlərini həll etməsini, xüsusən Cənubi Azərbaycan məsələsinə, türk və müsəlman dünyasına dair baxışlarını olduğu kimi, ilk mənbələr əsasında obyektiv-tarixi araşdırmaqdan ibarətdir.

[24] Fakt və rəqəmlər «Çoxəsrlik tariximizin 34 ili» kitabından (Bakı, CBS, 2003) götürülmüşdür.



Heydər Əliyev və dövrü Azərbaycan xalqının inkaredilməz gerçək tarixidir. Bu şəxsiyyətin və dövrün tarixinin inkar edilməsi cəhdi qeyri-etik, qeyri-elmi və tarixə primitiv münasibətin təzahürüdür, uğursuzluğa məhkumdur. H.Əliyev düşüncələri, biliyi, uzaqgörənliyi, dünyagörüşü, fəaliyyətilə xalqından xeyli irəli gedərək bütün varlığıyla tamamən ona mənsub olmuş və yerinə yetirdiyi tarixi missiya ilə Millətin atasına çevrilmişdi. Bütövlükdə, ölkə daxilində və xaricdə Azərbaycan xalqının biliyinə, bacarığına qiymət verənlər ilk növbədə Heydər Əliyevi gözləri önünə gətirir və meyar kimi onu götürürdülər. Buna görə də Azərbaycan xalqı və onun yaratdığı dövlət durduqca H.Əliyev də yaşayacaq, tarixi tədqiqatların obyekti olaraq qalacaq, ona həsr olunmuş yüzlərlə dəyərli əsərlər nəşr ediləcəkdir. Bu əsərlərdə H.Əliyev dövrünün mövcud şərtləri altında xalqının mənafeləri naminə fədakarlıqla çalışmış görkəmli dövlət və siyasi xadim olaraq başlıca yer tutacaq. Heç əbəs eyil ki, H.Əliyev sonralar deyirdi: «Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişdirə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı»[25].

Əlbəttə, bütün sovet hakimiyyəti illərində yeridilən siyasətin başdan-başa yaramadığını və yanlış olduğunu söyləmək doğru olmazdı. H.Əliyev özü söhbətlərinin birində deyirdi: «...heç bir dövrü, heç bir şəxsi ideallaşdırmaq lazım deyildir. Təəssüf ki, bu ideallaşdırma xəstəliyi 70 ildir beynimizə girmişdir ... tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır. Bu, tarixçilərimizin əsas vəzifəsidir»[26].

[25] Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). III cild. Bakı, 1998, s.572.

[26] Əliyev H. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı, 1997, s.156.

Məlumdur ki, sovet dövründə H.Əliyev yalnız kommunist lider və xadim olaraq təqdim olunub. Onun milli ruhu, millətin gələcək müstəqilliyi, Azərbaycan xalqının milli-mədəni intibahı naminə gördüyü işlər barədə hələ az yazılıb. İndi isə heç vaxt bilinməyən bir sıra həqiqətlərin öz yerini tutması vaxtıdır.

İlk mənbələrin öyrənilməsi göstərir ki, 1969-cu ilin iyulundan 1982-ci ilin dekabrınadək H.Əliyevin sədrliyi altında keçirilən Azərbaycan KP MK bürosunun demək olar ki, bütün iclaslarında xalqın tarixi, mədəniyyəti, ədəbiyyatı, mənəviyyatı ilə bağlı məsələlər dərindən müzakirə olunub və milli tərəqqiyə yönələn mühüm qərarlar qəbul edilib. Qeyd etmək lazımdır ki, bu illərdə Azərbaycan KP MK bürosunun iclaslarında milli-mədəni inkişaf, milli tarixlə bağlı məsələlər gündəliyin əsasən 11-ci maddəsi kimi müzakirə edilib. Bunun nə üçün belə edildiyi barədə əlbəttə, qəti fikir söyləmək mümkün deyil. Çünki mənbələrdə bu barədə heç bir şey yazılmayıb. Amma həmin rəqəmə rast gələndə Azərbaycan xalqının tarixində və taleyində mühüm rol oynamış Parisdə 1920-ci il yanvarın 11-də Azərbaycanın dövlət müstəqilliyinin de-fakto tanınması xatırlanır. Büro iclaslarının gündəliyində yer tutan 11-ci məsələ bəlkə həmin 11 yanvarla bağlı olub?

Hakimiyyəti illərində H.Əliyev Azərbaycanı və xalqını Cənubi Qafqaz respublikaları və xalqları arasında liderə çevirdi. Region problemlərinin həllində sovet rəhbərliyi onun tövsiyələrini nəzərə alırdı.

70-ci illərin ortalarından etibarən ölkənin siyasi hakimiyyət olimpində möhkəm yer tutan H.Əliyev Azərbaycan xalqını düşündürən problemlərin həllinə daha inadla nail olmağa çalışırdı. Xarici ölkə tarixçilərinin qeyd etdiyi kimi, Azərbaycanda hakimiyyətə gəldikdən yeddi il sonra, 1976-cı ildə Sov. İKP MK Siyasi büro üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi büronun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ilə Heydər Əliyevin həm xalq içərisində, həm də ölkənin siyasi rəhbərliyində mövqeləri xeyli möhkəmləndi, qətiyyəti artdı, sözü daha da kəsərli oldu[27]. ABŞ-da nəşr olunan kitabda deyilir ki, H.Əliyev özünə inamı, siyasi məsələləri həll etmək bacarığı, praktikliyi, fiziki və intellektual imkanları, zahiri görünüşü ilə Kremlə Kişilik potensialı gətirdi. Hündür, enlikürək, ağıllı, gözəl hərbi karyerası olan, ingilis tipli kostyum geyinən, ipək qalstuk taxan, cazibəli gözləri olan H.Əliyev biliyi, işgüzarlığı, yorulmazlığı ilə özünü Siyasi büronun boss kardinallarına qarşı uğurla qoya bildi. O, rəqiblərinə qarşı mübarizədə incə siyasətçi, amansız və fəndcil idi.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ilə əlaqədar olaraq 1982-ci il dekabr ayının 2-də Azərbaycan KP MK-nın plenumunda o, birinci katib və MK bürosunun üzvlüyündən azad edildi[28]. Bu addım heç şübhəsiz, sovet sistemi şəraitində türk, müsəlman siyasi və dövlət xadimi üçün nadir bir hadisə idi. H.Əliyevin Moskvaya daimi işləməyə aparılması da səbəbsiz olmayıb, əsasən aşağıdakı amillərlə bağlı idi. Birincisi, ölkədə güclənən rus millətçiliyi imicini zəiflətməyə zahiri görüntü yaratmağa çalışan DTK sədri Y.Andropov özünə yaxın bildiyi H.Əliyevin Siyasi büroya üzv olmasına səylər edirdi. Lakin ölkə rəhbəri L.İ.Brejnev və onun ətrafında olan Dnepropetrovsk mafiyası bunun əleyhinə çıxırdılar. Onlar H.Əliyevi «yaxın vuran top» kimi deyil, «uzaq vuran top» kimi görürdülər. Brejnevin ölümündən sonra Andropovun ölkə rəhbəri seçilməsi ilə H.Əliyevin Moskvaya işləməyə aparılması reallaşdırıldı. İkincisi, H.Əliyevin Azərbaycanda nüfuzunun yüksək olması və xalq tərəfindən hərarətlə sevilməsi 70-ci illərin sonundan etibarən Moskvanı açıq şəkildə olmasa da, gizlincə narahat edirdi. Kremldə belə hesab edirdilər ki, Azərbaycan Moskvadan daha çox Heydər Əliyevin nəzarəti altındadır və bu nəzarəti zəiflətmək lazımdır. ABŞ-da nəşr edilən

[27] Solovyov V., Klepikova E., Yuri Andropov. A secret passage into the Kremlin. London, Coller Macmillan Publishers. New York, Macmillan Publishing Company, 1983, p. 97-99.

[28] «Kommunist» qəzeti, 1982, 4 dekabr, № 278 (18112).

kitabda yazılır ki, Azərbaycanın H.Əliyevin gizli siyasətinin təsiri altında olması Moskva üçün arzuedilən deyildi[29]. Belə hal Moskva üçün xoşagəlməz nəticələrə gətirə bilərdi. Moskva onu bu vəzifədən hər hansı vasitə ilə uzaqlaşdırmaq istəsə də, atacağı addımların mənfi reaksiya doğuracağından çəkinirdi. Sovet rəhbərliyi üçün belə bir əlverişli imkan yalnız 70-ci illərin sonu-80-ci illərin əvvəllərində yarandı. Üçüncüsü, 1978-ci ildə İran inqilabı baş verdikdən və Əfqanıstana 100 minlik ordu ilə[30] hərbi müdaxilə etdikdən sonra Kreml müsəlman dünyasında nüfuzunu sürətlə itirməyə başlamışdı. Moskva yaranmış ağır vəziyyəti aradan qaldırmalı idi. Belə bir fakt maraqlıdır ki, Sov. İKP MK Siyasi bürosunun 1979-cu il mart ayının 18-də keçirilən iclasında verilən tapşırığa əsasən A.A.Qromıko, Y.V.Andropov, D.F.Ustinov və B.N.Ponomaryov həmin il aprelin 1-də «Əfqanıstanda vəziyyətlə əlaqədar olaraq bizim gələcək xəttimiz haqqında» tam məxfi qeydlərini Siyasi büroya təqdim etdilər. Bu qeydlər Siyasi büronun 12 aprel tarixli iclasında (protokol №149) müzakirə edilərək bəyənildi[31]. Qeydlərdə Əfqanıstandakı vəziyyət geniş təhlil edilir və göstərilirdi ki, irtica antikommunizm şüarları ilə çıxış edir və islam respublikası yaratmaq istəyir[32]. Yeni hökumət hələ zəifdir, yerlərdə dayaqlarını qurmayıb. Vəziyyət bütün müsəlman Şərqinə təsir edə bilər[33]. Təkliflərdə deyilirdi ki, Əfqanıstana nümunə kimi Orta Asiya respublikalarının sovet hakimiyyəti illərində qazandıqları nailiyyətləri, müsəlman əhalinin öz dinini qoruduğunu təbliğ etmək vacibdir[34].

Həmin şəxslər 1980-ci il yanvar ayının 27-də də təkrarən öz mülahizələrini Siyasi büroya yazdılar. Siyasi büro 28 yanvar tarixli iclasında (protokol №181) bu qeydlərlə ra-

[29] Medvedev Zh., Andropov. New York, London, W.W. Norton and Company, 1983, p.160.
[30] Киссинджер Г. Дипломатия. М., 1997, с. 695.
[31] Российский Государственный Архив Новейшей Истории (РГАНИ), ф.89, оп.14, д.27, л.1-12.
[32] Yenə orada, v.3.
[33] Yenə orada, v.4.
[34] Yenə orada, v.11.



zılaşdı[35]. Qeydlərdə ABŞ-ın müsəlman ölkələrindəki xəttinə mane olmaq, islam fundamentalizminin antisovet axına keçməsinə yol verməmək[36], eyni zamanda əfqan cəmiyyətində, müsəlmanlarda sovet dövlətinə olan nifrəti aşağı salmaq tövsiyə edilirdi[37].

Belə bir şəraitdə Kreml İslam dünyasında tanınan, sevilən bir nüfuzlu müsəlman şəxsin mərkəzdə işləməsinə ehtiyac duyurdu. SSRİ-nin itirilmiş mövqelərini müsəlman dünyasında özünün mükəmməl biliyi, güclü məntiqi ilə tanınmış, Şərqin və Qərbin problemlərini, müsəlman xalqlarının tarixini, mədəniyyətini, məişətini, mentalitetini dərindən bilən yalnız H.Əliyev bərpa edə bilərdi. O, gənc olmasına baxmayaraq, müsəlman Şərqi məsələlərində Orta Asiyanın türk və müsəlman respublikalarının rəhbərlərini xeyli geridə qoymuşdu. Hələ Azərbaycanda işləyə-işləyə sovet rəhbərliyi müsəlman dünyası məsələlərinin həllində onunla məsləhətləşirdi. Qeyd etmək lazımdır ki, sovet rəhbərliyi H.Əliyevi təkcə Azərbaycanın rəhbəri kimi deyil, bütün türk, müsəlman dünyasının bilicisi kimi qəbul edir, onun fikirlərini dinləyir və tövsiyələrini yerinə yetirirdi. ABŞ tarixçisi A. D'Agostino yazır ki, H.Əliyev nəinki Moskvada, hətta hələ Azərbaycanda işləyərkən SSRİ-nin Əfqanıstan, Livan, Cənubi Afrika, Mərkəzi Amerika və b. yerlərdə yeritdiyi siyasətdə mühüm rol oynayırdı[38]. Onun yazdığına görə H. Əliyev Brejnevin yanında özünün müsəlman dünyasının lideri və mahir bilicisi olması obrazını yarada, SSRİ-nin digər türk və müsəlman respublikalarının rəhbərlərini çox məharətlə geridə qoya bilmişdi[39]. Xarici ölkə tarixçilərinin yazdığı kimi, o, Y.Andropovun Yaxın və Orta Şərq problemləri üzrə gizli məsləhətçisi idi.

[35] РГАНИ, ф.89, оп.34, д.3, л.1.
[36] Yenə orada, v.4.
[37] Yenə orada, v.7.
[38] D'Agostino A. Gorbachev's Revolution. New York, New York University Press, 1998, p. 80.
[39] Yenə orada, s.103.

ABŞ-da nəşr olunan başqa bir kitabda da etiraf edilir ki, H.Əliyevin Moskvada hakimiyyətə gətirilməsi ilə sovetlər müsəlman dünyasında itirilmiş mövqelərini qaytarmaqda zahiri görüntü üçün yeni təşəbbüs əldə etdi. Çünki H.Əliyev Orta Şərqin kommunist qrupları arasında xeyli məşhur və nüfuzlu idi[40]. Müəllif daha sonra yazır ki, H.Əliyev sovet rəhbərliyində SSRİ müsəlmanları arasında təsirli fiqur, yaxşı inzibatçı, dərin bilikli, şəxsən təmiz, doğru, inadcıl, dözümlü adam olaraq qəbul edilirdi. Bu keyfiyyətlər karyerada irəliləməsində onun dini və milli mənsubiyyətini arxa plana keçirmişdi. Moskva üçün o, sovet sistemi şəraitində dünyaya göz açmış, formalaşmış Heydər Əliyev, müsəlman dünyası üçün isə müsəlman, Heydər, Əli, Əlizadə idi[41]. Məlum oldugu kimi, bütün müsəlmanlar arasında ədalətli, bilikli, güclü tarixi şəxsiyyət olaraq nüfuz qazanmış İmam Həzrəti Əlinin adlarından biri məhz Heydər olmuşdu. Siyasi-ideoloji yönümündən, SSRİ-yə necə münasibət bəsləməsindən asılı olmayaraq müsəlman dünyası Heydər Əliyevlə fəxr edirdi.

Deməli, H.Əliyevin Moskvada Kremldə işə irəli çəkilməsində məqsəd bir tərəfdən, Azərbaycanı H.Əliyevin nəzarətindən çıxarmaq idisə, digər tərəfdən, yaranmış beynəlxalq amillərlə şərtlənmişdi.

Beləliklə, H.Əliyev artıq SSRİ hüdudlarını aşaraq dünya siyasətçiləri və dövlət adamları sırasına möhkəm daxil olmuşdu. ABŞ-da nəşr olunan digər bir kitabda deyilir ki, H.Əliyevin Moskvaya işə çağırılmasında onun müsəlman, türk olması arxa planda qaldı. SSRİ rəhbəri olan Y.Andropov onu SSRİ Nazirlər Sovetinin birinci müavini təyin etməklə xəstə, iclaslarda iştirak edə bilməyən 77 yaşlı baş nazir N.A.Tixonovun boşalacaq yerinə məntiqi olaraq hazırlayırdı[42]. Nazirlər Soveti sədrinin birinci müavinləri çox olsa da, H.Əliyev hakimiyyətdə təsirli fiqur idi, həlledici qərarlar onun fikrindən sonra qəbul edilirdi. Moskvada belə hesab edirdilər ki, Əliyev türk və müsəlman olmasına baxmayaraq, sovet rejiminin beynəlmiləlçilik ideologiyasında yaşadığından başqa hisslərdən, millətsevərlik baxışlarından uzaqdır[43].

H.Əliyevin Moskvadakı fəaliyyəti daha geniş, ümumittifaq və ümumdünya miqyasını əhatə edirdi. Belə bir fakt maraqlıdır ki, ABŞ-da nəşr olunan bəzi kitablarda Heydər Əliyev, Yuri Andropov və Dmitri Ustinov sovet siyasətinin həyata keçirilməsində «triumvirat» da adlandırılır[44]. Beləliklə, H.Əliyev dünyanın fövqəldövlətlərindən birini idarə edən şəxslərdən idi.

Andropov vəfat etdikdən sonra H.Əliyevin Sov. İKP MK-nin Baş katibi seçilməsinə və Tixonovdan sonra baş nazir təyin edilməsinə ABŞ-da nəşr olunan kitablarda deyildiyi kimi yalnız qafqazlı və müsəlman olması mane oldu. Andropovun ölümündən bir gün əvvəl H.Əliyevin sovet nümayəndə heyətinin rəhbəri olaraq Suriyaya səfərə göndərilməsi də əsasən bununla bağlı idi.

Geniş səlahiyyətlərə sahib olan H.Əliyevin imzaladığı SSRİ Nazirlər Sovetinin qərarları ilə onlarla şəxs məsul vəzifələrə təyin edilir və ya azad olunurdular. Bu qərarlar elm, təhsil, mədəniyyət, səhiyyədən tutmuş atom energetikası və xarici ölkələrdə ticarət nümayəndəliklərinə qədər geniş bir sahəni əhatə edirdi[45]. Minlərlə insanın taleyi onun qərarlarından asılı idi. Əliyev ciddi dövlət xadimi, hakimiyyət ustası idi. İdarəetmə mexanizmini əla bilirdi. H.Əliyev spirtli içkilər içmirdi, ova getmirdi, daim işləyirdi. Moskvadakı mənzilini Şərq üslubunda təmir etdirmiş, hətta bir neçə dəfə divar kağızını

---

[40] Medvedev Zh. Andropov, p.118.
[41] Yenə orada, s.117-118.
[42] Soviet politics. Russia after Brezhnev. Edited by Joseph L. Nogee. New York, Proeger Publishers, 1985, p.140-141.

[43] Yenə orada.
[44] Medvedev Zh. Andropov, p.160.
[45] Bax: Постановление Совета Министров СССР за июнь 1984 г. М., Тип. Совмина СССР, 1984, с.127-128, 136-137, 139; Постановление Совета Министров СССР за октябрь 1984 г. М., Тип. Совмина СССР, 1984, с.313-316.

# ANDROPOV

## Zhores Medvedev

FENWICK LIBRARY
GEORGE MASON UNIVERSITY
FAIRFAX, VA.

W. W. Norton and Company
New York · London
1983



The one new executive appointment which attracted attention was Aliyev's appointment as First Deputy Prime Minister. Although the Prime Minister has several 'First' and several ordinary deputies, as a Politburo member Aliyev became the most influential figure in the government. This was a wise appointment – Aliyev is a tough man, a good administrator, personally honest and a representative of the



substantial Soviet Moslem population. It is not important that he himself is not a religious man: in the eyes of the Moslem world he is a Moslem, not Geidar Aliyev, but Geider-Ali Ali-Zadeh. As a colonel, he served as deputy to General Tsvigun, the head of the KGB in Azerbaijan. When Tsvigun moved to Moscow in 1967 to become First Deputy Chairman of the KGB, Aliyev was recommended to succeed him. This was indicative of the trust Tsvigun placed in him, for it was unusual for a native to be appointed boss of the KGB in one of the Union Republics. In 1969, when the level of corruption in Azerbaijan became intolerable, Brezhnev reluctantly dismissed the First Secretary of the Azerbaijan Central Committee, Veli Akhundov. Akhundov, a physician by profession, became Vice-President of the Azerbaijan Academy of Sciences and Aliyev was appointed in his place. So successful did he prove that it was jokingly said that he had 'restored Soviet power' in Azerbaijan. The rate of economic development there, previously below average for the Soviet Union, increased remarkably: in 1975–80 the increase in GNP in the USSR as a whole was 24 per cent while in Azerbaijan it was 47 per cent. Aliyev had thus proved himself to be an intelligent man capable of making adventurous, pioneering decisions.

Aliyev's promotion was immediately perceived by foreign observers as a new initiative to regain 'Moscow's lost influence in the Moslem world'.[1] This may be true, but it was certainly not the main reason for his appointment. Andropov seems to have decided to reduce all forms of nationalism, particularly 'Great Russian nationalism', which would ease relations with many countries and not just with the Moslem world. China, for instance, has used the revival of Russian nationalism as a standard explanation for Soviet actions abroad. Aliyev is popular in Middle-Eastern Marxist circles. Although loyal to Brezhnev – Brezhnev and Tsvigun were originally responsible for his promotion – his was a loyalty of expediency. His eloquent praise of Brezhnev on public occasions was an Eastern kind

təqdim etsələr də, yalnız öz bəyəndiyini seçmişdi. İstirahət üçün Azərbaycana gəlirdi. Səfərlərə gedəndə özü ilə aşbaz, xidmətçi aparmırdı. O, məktəb islahatı, onların kompüterləşdirilməsi, hətta qatarların vaxtında hərəkəti ilə məşğul olurdu. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi H.Əliyev xarici qonaqları qəbul edir, səfərlərə gedir, böyük dövlətin qlobal problemlərini həll edirdi. Amerikan tarixçilərinin yazdığı kimi Kremldə xarici qonaqları qəbul edən H.Əliyev onlardan çəkinmir, sərbəst danışır, dünya işlərini dərindən bildiyini nümayiş etdirir, Siyasi büro üzvlərinə xas olmayan gülümsərliyi, bəzən ürəkdən gülməsi, ünsiyyətcilliyi ilə fərqlənirdi. Onun gülüşləri qələbə gülüşləri idi. H.Əliyevin keçirdiyi görüşlərin coğrafiyası xeyli geniş idi. Məsələn, H.Əliyev 1983-cü ilin yanvar ayında ABŞ-ın kənd təsərrüfatı naziri C.Blokla danışıqlar aparmışdı[46], bir neçə Siyasi büro üzvü ilə birlikdə Çernobıl qəzasının nəticələrini aradan qaldırmaq barədə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin birgə qərar layihəsini hazırlamışdı[47]. 30-cu illərdən başlayaraq Siyasi büronun iclaslarında daim müzakirə edilsə də, tikintisi başa çatdırılmayan, böyük hərbi-siyasi, iqtisadi və strateji əhəmiyyət daşıyan Baykal-Amur magistralı bilavasitə H.Əliyevin rəhbərliyi və nəzarəti altında istifadəyə verildi.

ABŞ tarixçisi Martin İvn yazır ki, H.Əliyev Andropovun yanında etibarlı adam idi[48]. Moskvada H. Əliyev sovet dövlətinin Yaxın və Orta Şərq siyasətinin həyata keçirilməsində mühüm rol oynayırdı. Münaqişələrin, xüsusən Suriya-İsrail münaqişəsinin, Livanda və Yəmən Xalq Demokratik Respublikasında qardaş qırğınının dayandırılmasında onun nüfuz və bacarığından istifadə edilmişdi. Lakin H.Əliyevin qeyri-adi dərəcədə işgüzarlığı, biliyi, istedadı, bacarığı, yorulmazlığı, dövlətə rəhbərlik etməyə qadir olması, hamı ilə dil tapması 1985-ci ildə

[46] РГАНИ, ф.89, оп.42, д.54.
[47] РГАНИ, ф.89, оп.53, д.19.
[48] Evon M. The Andropov file. New York, Mc. Graw – Hill Book Company, 1983, p.113.



hakimiyyətə gələn məhdud düşüncəli, dövləti idarə etmək səriştəsi olmayan M.S.Qorbaçovda və bəzi başqa xadimlərdə qısqanclıq yaratmağa başladı. Bundan sonra ona qarşı müxtəlif böhtanlar da atılmağa başlandı. Bütün bunlar ölkədə vəziyyəti ağırlaşdırırdı. Nəticədə SSRİ-nin türk və müsəlman xalqlarına münasibət soyuqlaşmağa, beləliklə, dövlətin bütövlüyü təməlini təşkil edən slavyan-türk birliyi pozulmağa başladı. Mövcud sistem laxladı. Dəmir pərdə götürüldü. Qərb ölkələri uzun illər boyu onları qorxu altında saxlayan SSRİ-nin zəif olduğunu gördülər. Yüksək partiya və dövlət orqanlarında çalışan türk və müsəlman xalqlarının xadimləri M.S.Qorbaçov tərəfindən işdən uzaqlaşdırılmağa başlandı. H.Əliyev danışanda Qorbaçov soyuq yanaşsa da, o, dil tapmağa çalışırdı. Lakin H.Əliyev 1987-ci il oktyabr ayının 21-də keçirilən Sov. İKP MK plenumunda «xəstəliyinə görə» vəzifəsindən azad edildi[49]. Əslində xəstəlik bəhanə idi. Çalışqan, enerjili, təmiz, böyük təşkilatçı, bilikli, inadcıl olan H.Əliyevi çirkaba bulaşmış, işləməyi bacarmayan Siyasi büro qəbul edə bilmirdi. Amerikan müəllifləri yazırlar ki, Siyasi büroda DTK-nın keçmiş xadimlərinin olması Ağ evi narahat etdiyindən 1985-ci ildə Cenevrədə keçirilən Reyqan-Qorbaçov görüşündə amerikalılar tərəfindən qaldırıldı, ABŞ prezidenti DTK generallarını Siyasi bürodan uzaqlaşdırmağı Qorbaçova tövsiyə etdi. Bundan sonra bəzi şəxslər vəzifələrindən azad edildilər. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1989-cu il yanvar tarixli qərarı ilə bir qrup keçmiş Siyasi büro üzvünə, o cümlədən H.Əliyevə müəyyən imtiyazlar saxlanıldı[50]. Lakin H.Əliyev məğlubiyyətlə barışan şəxs olmadığından işdən uzaqlaşdırıldıqdan sonra bütün hərəkətləri xüsusi xidmət orqanları tərəfindən izlənilirdi. O, ev dustağı edilmişdi. 70-ci illərdən xalq tərəfindən sevildiyindən Azərbaycana gəlməsinə icazə verilmirdi. Ailə üzvləri də təqiblərə məruz qalmışdı. Oğlu İlham Əliyev yüksək ixtisaslı mütəxəssis, alim

[49] Hazan B.A. Gorbachev and his enemis. The Struggle for Perestroika. Oxford, San Francisko, Westview Press, 1990, p.82; РГАНИ, ф.2, оп.5, д.81, л.5-6; ф.2, оп.5, д.83, л.98-100; ф.2, оп.5, д.86, л.118-120.
[50] РГАНИ, ф.89, оп.13, д.15.

olmasına baxmayaraq, dərs verdiyi Moskva Beynəlxalq Münasibətlər İnstitutunda müəllim vəzifəsindən çıxarıldı.

Qeyd etmək lazımdır ki, H.Əliyev 1982-1987-ci illərdə Moskvada işləyə-işləyə Azərbaycanı diqqətdə saxlayır, problemlərini həll edir, respublikanın maddi-texniki inkişafına, mədəni tərəqqisinə daim qayğı göstərirdi. O, Moskvaya işləməyə gedərkən çiçəklənən Azərbaycan qoyub getmişdi. Sonralar H.Əliyev deyirdi: «...Moskvada 5 ildən artıq işləyərkən yenə də ümumiyyətlə, Azərbaycana... himayədarlıq etmişəm»[51]. Bununla bağlı yüzlərlə misal gətirmək olar. Məsələn, Azərbaycanda baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasından ötrü SSRİ Nazirlər Sovetinin 1986-cı il 7 aprel tarixli 420№-li qərarı verilmişdi[52]. Qərara uyğun olaraq Azərbaycana 15,4 mln. rubl, o cümlədən tikinti işlərinə 11,4 mln. rubl ayrılmışdı[53]. Bütün bu vəsait SSRİ Nazirlər Sovetinin ehtiyat fondundan verilmişdi. Göründüyü kimi, H.Əliyev Moskvada işlərkən də Azərbaycanın maraqlarını təmin etməyə çalışırdı. Heç əbəs deyil ki, o sonralar deyirdi: «Mən on il Moskvada yaşadım, özü də ən yüksək vəzifədə işlədim. Azərbaycan xalqının, müsəlman aləminin tarixində nə keçmiş rus imperiyası dövründə, nə də Sovet İttifaqının hakimiyyəti zamanı o cür zirvəyə çatan azərbaycanlı, müsəlman olmamışdır. Bu da tarixdir. Bəziləri deyirlər ki, Heydər Əliyev Siyasi büronun üzvü olubdur və sairə. Bəli olmuşam. Mən bununla fəxr edirəm. Çünki Azərbaycan xalqını tanıtmışam, Azərbaycan xalqını Kremlin sarayında qaldırmışam. Bununla fəxr edirəm. Mən orada on il yaşadım, ancaq mənim ürəyim də, gecəm də, gündüzüm də Azərbaycanla oldu. Çünki Azərbaycan mənim doğma Vətənim, torpağımdır»[54].

---

[51] Xalqa, vətənə, dövlətə sədaqət. Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş mərasim və təntənəli yığıncaq. 28 iyun 1997-ci il. Bakı, Gənclik, 1997, s.24.

[52] Постановление Совета Министров СССР за апрель 1986 г. М., Тип. Изд. Совмина СССР, 1986, с.15-16.

[53] Yenə orada.

[54] Azərbaycan beynəlxalq aləmdə. III cild, s. 572.



Təqdim edilən bu monoqrafiya publisistik və təbliğat xarakteri deyil, sırf elmi-tarixi araşdırma mahiyyəti daşıyır. Monoqrafiya Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində (ARSPİHDA), Azərbaycan Respublikası Dövlət Arxivində (ARDA), Azərbaycan Respublikası Ədəbiyyat və İncəsənət Dövlət Arxivində (ARƏİDA), Azərbaycan Respublikası Dövlət Foto və Kino sənədləri Arxivində (ARDFKSA), Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivində (ARMTNA), Rusiya Dövlət Ən yeni tarix Arxivində (RDƏYTA), Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivində (RDSSTA), Gürcüstan Respublikası Dövlət Ən yeni tarix Arxivində (GRDƏYTA) uzun illər boyu məxfi, tam məxfi və ya xidməti istifadə üçün qrifləri altında saxlanılmış çoxsaylı sənəd və materiallar, ABŞ universitetlərinin kitabxanalarındakı və Konqres kitabxanasındakı mənbə və ədəbiyyatlar, Böyük Britaniya, Polşa, Fransa, Türkiyə, Rusiya tarixçilərinin əsərləri, dövri mətbuat əsasında yazılıb. Biz yazılı tarixi mənbələrdə əks olunmuş məsələlər haqqında həqiqətləri tarixi müqayisə metodunun köməyi ilə üzə çıxarmaqdan ötrü H.Əliyevin yanında işləmiş bəzi şəxslərlə görüşmüş, şifahi tarixin imkanlarından da yararlanaraq yalnız tarixi şərh deyil, eyni zamanda tarixi varisliyi verməyə çalışmışıq. Qeyd etmək lazımdır ki, hətta rəsmi sənədlərin hamısı belə, H.Əliyevin baxışlarını tam ehtiva etmir, çünki Azərbaycan rəhbərinin verdiyi bir sıra çoxsaylı şifahi göstərişlər rəsmi sənədlərdə əks olunmayıb. Ona görə də problemin tədqiqində şifahi tarix metodunun köməyindən də istifadə olunmuşdur.

Monoqrafiyanın Azərbaycan dövlətçilik tarixinə, xalqımızın görkəmli şəxsiyyətlərinin baxışlarının və fəaliyyətinin öyrənilməsinə töhvə verəcəyi inancı ilə öz xeyirxah qeydlərini söyləyəcək şəxslərə əvvəlcədən təşəkkürümüzü bildiririk.

# I FƏSİL

## AZƏRBAYCAN XALQININ QARŞISINDA DURAN BAŞLICA PROBLEMLƏR VƏ HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL DÖVLƏTÇİLİK BAXIŞLARININ FORMALAŞMASI

Heydər Əliyev hakimiyyətə gələrkən Azərbaycan xalqının qarşısında həllini gözləyən bir sıra ciddi problemlər dururdu. Həmin problemlər bütün əvvəlki tarixi dövrlərdə, xüsusən sovet hakimiyyəti illərində yığılıb qalmış, həllinə çox vaxt heç cəhd edilməmişdi. Edilən bəzi cəhdlər nəinki elə bir ciddi nəticələr verməmiş, əksinə vəziyyəti daha da ağırlaşdırmışdı.

Azərbaycan cəmiyyətinin qarşısında duran başlıca problemlərdən biri milli vəhdətə, hakimiyyətlə xalqin yekdilliyinə və hakimiyyətin daxilində birliyə nail olmaq idi. Bu problemin dərin tarixi kökləri var idi. XIX əsrdə Azərbaycan işğal edildikdən sonra xalqın problemlərindən biri çarizmin azərbaycanlılara inanmayaraq onları idarəetmə orqanlarına yaxın buraxmaması idisə, sovet dövründə hakimiyyətdə olan azərbaycanlılar arasında birliyin olmaması, hakimiyyət daxilində intriqaların, hakimiyyətlə xalq arasında dərin uçurumun mövcud olması, bəzi rəhbərlərin isə xalqa hətta qənim kəsilməsi idi. Hakimiyyət daxilində mövcud olan intriqalar çox vaxt mərkəzdə müzakirə olunur və hətta rüsvayçılıq səviyyəsinə qalxırdı. Məsələn, RK(b) P MK Siyasi bürosunun 1921-ci il oktyabr ayının 15-də keçirilən iclasında (protokol №68) büro üzvləri Lenin, Trotski, Kalinin, Molotov, Stalin, Kamenev, MK üzvləri Radek və Orconikidzenin, Mərkəzi



Nəzarət Komissiyasının üzvü Soltsun, Nərimanov, Mdivani və Qasımovun iştirakı ilə 18-ci məsələ kimi «Bakı məsələləri» müzakirə edilmişdi[1]. Qəbul edilən qərarda deyilirdi ki, Azərbaycanda kommunist siyasətini doğru izah etməkdən ötrü Hüseynov və Axundovu təcili olaraq Moskvaya çağırmaq təşkilat bürosuna tapşırılsın; Bakıda və Azərbaycanda fraksiya mübarizəsinin qəti şəkildə dayandırılması yerli kommunistlərdən tələb edilsin; MK-da fraksiya mübarizəsi davam etdiyi təqdirdə partiyadan çıxarılmağa qədər cəzalandırılacaqları təsdiq edilsin; RSFSR-dən Bakıya və Azərbaycana göndərilən yoldaşlara tapşırılsın ki, MK-nın milli məsələdə doğru siyasət aparmasına hər vasitə ilə kömək etsinlər; Stalin, Orconikidze, Mdivani, Nərimanov, Hacıyev və Qasımovdan ibarət komissiya büronun müvafiq layihəsini ilkin olaraq müzakirə etsinlər və s.[2]

Bundan sonra Ruhulla Axundov və Mirzədavud Hüseynov Moskvaya çağırılmışdılar. Siyasi büronun 1921-ci il 11 noyabr tarixli iclasında Stalinin təqdimatı ilə 12-ci məsələ kimi «Hüseynov və Axundov yoldaşlar haqqında» məsələni Siyasi büronun 17 noyabr tarixli iclasında müzakirə etmək qərara alınmışdı[3]. Büronun həmin tarixli iclasında onlar cəzalandırılmışdılar[4].

Başqa bir misal. Moskvada işləyərkən N.Nərimanovun rəhbərlikdəki bəzi şəxslərlə ümumi dil tapa bilməməsi, ona qarşı edilən ədalətsizliklər də problemlər yaradırdı. N.Nərimanovla Yaroslavski arasında ciddi münaqişə yarandığından o, istefa ərizəsi ilə MK-ya müraciət etmişdi. RK(b) P MK Siyasi bürosu 1923-cü il noyabr ayının 15-də keçirilən iclasında (protokol №46) bununla bağlı olaraq 22-ci məsələ kimi «Nərimanov yoldaşın ərizəsi» haqqında iki bənddən ibarət

---

[1] Российский Государственный Архив Социально-Политической Истории (РГАСПИ), ф.17, оп.3, д.216, л.5.

[2] Yenə orada.

[3] РГАСПИ, ф.17, оп.3, д.229, л.1-4.

[4] РГАСПИ, ф.17, оп.3, д.230, л.1-2.

qərar qəbul etmişdi. Qərarda deyilirdi ki, Nərimanov yoldaşın ərizəsi və ona əks olaraq Yaroslavskinin yazdığı ərizə ilə bağlı yaranmış münaqişə bitmiş hesab edilsin; qeyd edilsin ki, yoldaş Nərimanov MK-nın tam etimadını qazanıb; istefa barədə ərizəsini geri götürmək yoldaş Nərimanova təklif edilsin[5]. Bundan sonra Nərimanov həmin təklifi qəbul etmişdi.

Daha bir misal. ÜİK(b) P MK Siyasi bürosunun 1929-cu il 16 sentyabr tarixli iclasında «Bakı məsələləri» müzakirə edildi. Azərbaycan XKS-nin tərkibində heç bir dəyişiklik edilmədi, Q.Musabəyov sədr, D.Bünyadzadə isə sədr müavini kimi saxlanıldılar. S.Ağamalıoğlunun MİK sədri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan KP MK-nın və Zaqafqaziya Diyar Komitəsinin qərarı təsdiq edildi. Sədrin vəzifələri müvəqqəti olaraq onun müavininə həvalə olundu. H.Rəhmanovun məsələsini 17 sentyabr tarixli iclasda sorğu yolu ilə həll etmək qərara alındı[6]. Növbəti iclasda Qikalonun təklifi ilə Rəhmanov Azərbaycan KP MK katibi təsdiq edildi[7]. Büronun 19 sentyabr tarixli iclasında Azərbaycan KP MK, XKS və MİK arasında mövcud olan münaqişə «Bakı məsələləri» adı altında müzakirə edildi[8]. ÜİK(b) P MK Siyasi bürosunun 1929-cu il 26 sentyabr tarixli iclasında (protokol №99) gündəliyin 18-ci maddəsi kimi Bakı təşkilatı haqqında məsələ yenidən müzakirə edildi. ÜİK(b) P MK-nın AK(b) P MK-nın məruzəsi üzrə qərarı təsdiq olundu[9]. İxtilaflara son qoymaq qəti şəkildə tələb edildi.

Uzun illər Azərbaycana rəhbərlik etmiş M.Bağırovun taleyi də bir sıra səbəblərlə yanaşı hakimiyyət daxilində və xalqla hakimiyyət arasında birliyin olmaması ucbatından acınacaqlı olmuşdu. Sov. İKP MK-nın 1953-cü il iyul plenumu Azərbaycan KP MK-nın birinci katibi M.Bağırovu vəzifəsindən və MK üzvlüyündən azad etmişdi[10]. Sov. İKP MK rəyasət heyəti 1954-cü il mart ayının 2-də keçirilən iclasında (protokol №53[п]) M.Bağırov haqqında məsələni müzakirə etmiş və onu partiyadan çıxarmışdı[11]. M.Bağırov 1954-cü il mart ayının 29-da həbs edilərək məhkəməyə verilmiş və ona ölüm hökmü kəsilmişdi. 1956-cı il aprel ayının 26-da əksinqilabi, terrorçu fəaliyyətinə və L.Beriya ilə əlaqələrinə görə (dövlət və partiya xadimləri üzərində) SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının qərarı ilə «güllələnmişdi».

1956-cı il may ayının 7-də keçirilən iclasda (protokol №14[п]) Bağırovun məsələsinə yenidən baxılmışdı. Bu məsələ üzrə Çepçov, Voroşilov, Bulqanin, Rudenko, Mikoyan, Kaqanoviç, Pervuxin, Xruşşov, Jukov çıxış edərək məhkəmənin güllələnmə barədə qərarını bəyənərək təsdiq etmişdilər. Lakin Mikoyan beynəlxalq şəraitin ağır olduğunu əsas gətirərək qərarın icrasını iki il yubatmağı təklif edir. Bununla belə, güllələnmə haqqında qərarın Azərbaycan mətbuatında çap edilməsi barədə razılıq əldə olunur[12].

Bağırovun işi sonralar da Sov. İKP MK rəyasət heyətinin iclaslarında dəfələrlə müzakirə edilmişdi[13]. Məsələyə SSRİ Ali Məhkəməsi də baxmışdı[14]. Bağırovun bağışlanmaq barədə bütün xahişlərini Sov. İKP MK rəyasət heyəti rədd etmişdi[15]. M.Bağırovla eyni vaxtda Ermənistan KP MK-nın birinci katibi Q.A.Arutunov da vəzifəsindən azad edilmişdi[16].

Qeyd etmək lazımdır ki, sovet rəhbəri N.S.Xruşşov sonrakı nitqlərində də M.Bağırovun arxasınca deyinərək onu təh-

[5] РГАСПИ, ф.17, оп.3, д.394, л.5.

[6] РГАСПИ, ф.17, оп.3, д.758, л.6-7.

[7] Yenə orada, v.8.

[8] Yenə orada, пр. № 98, м.34.

[9] РГАСПИ, ф.17, оп.3, д.759, л.3.

[10] Архивы Кремля. Президиум ЦК КПСС. 1954-1964. т.1. Черновые протокольные записи заседаний стенограммы. Главный редактор А.А.Фурсенко. М., РОССПЭН, 2003, с.883-884.

[11] РГАНИ, ф.3, оп.8, д.388, л.16-18; Архивы Кремля. с.27-28.

[12] РГАНИ, ф.3, оп.12, д.1004, л.37-42[пб].

[13] РГАНИ, ф.3, оп.10, д.70, л.2; ф.3, оп.10, д.207, л.2.

[14] Газ. «Правда», 1956, 23 мая, №144 (13807).

[15] РГАНИ, ф.3, оп.14, д.23, л.3; д.24, л.17; д.25, л.96-98.

[16] РГАНИ, ф.3, оп.8, д.89, л.86.

qir edirdi. Məsələn, Sov. İKP MK rəyasət heyətinin 1959-cu il 14 dekabr tarixli iclasında «Sov. İKP Proqramının layihəsi haqqında» məsələ müzakirə edilərkən o deyirdi: «Stalin onun (Bağırovun – M.Q.) haqqında danışırdı ki, əgər onu müdafiə etməsəydik, müsəlmanlar onu heç bir həftə də saxlamazdılar, öldürərdilər, o orada 20 il oturdu»[17]. Göründüyü kimi, sovet rəhbərləri bəzən Azərbaycan xalqını öz adı ilə deyil, müsəlman olaraq təqdim edir, ona həqarətlə baxırdılar.

Hakimiyyət daxilindəki çəkişmələr İmam Mustafayevin və Vəli Axundovun zamanında da səngiməmişdi. Onların da haqqında məsələlər Moskvada müzakirə edilmişdi. Bütün bunların hamısı barədə H.Əliyevin məlumatı var idi. O belə biabırçı vəziyyəti aradan qaldırmalı idi.

XIX əsrin sonları-XX əsrin əvvəllərindən etibarən müstəmləkə zülmü altında inləyən xalqların millətçilik, milli azadlıq hərəkatı əsasında öz müqəddəratlarını təyin etməyə nail olub müstəqil dövlətlərini qurması prosesindən Azərbaycan xalqı da kənarda qalmadı. XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın görkəmli ziyalılarının başladıqları maarifçilik hərəkatı azərbaycanlılarda milli şüurun, milli özünüdərkin formalaşmasına və milli azadlıq mübarizəsinin yaranmasına gətirdi. Mövcud şəraitdə milli azadlıq hərəkatı Azərbaycan xalqını düşündürən problemlərin həlli yolunda başlıca istək və arzularını ifadə edirdi. Bu prosesdə görkəmli Azərbaycan ziyalılarının publisistik yazıları, redaktoru olduqları mətbuat orqanları, açdıqları qiraətxanalar və məktəblər müstəsna rol oynayırdı. Azərbaycan maarifçiliyini və milli hərəkatını başlayan, önündə gedən ziyalılar onun bütün ağırlığını öz çiyinlərində daşıyırdılar. M.F.Axundov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Rəsulzadə, N.Nərimanov, Ə.Topçubaşov, C.Məmmədquluzadə və başqaları Azərbaycanda maarifçilikdə, milli özünüdərkdə, xalqın öz problemlərinin həlli yollarını axtarmasında və milli hərəkatda mühüm rol oynadılar. Ona görə də çarizm dövründə ən çox təqib olunan,

[17] РГАНИ. ф.3. оп.12. д.998; Архивы Кремля. с.399.



məmləkətdən didərgin salınan, həbsxanalara atılan, Sibir sürgününə göndərilərək amansızcasına məhv edilən Azərbaycan ziyalıları olmuşlar. Belə bir fakt acınacaqlıdır ki, çarizm süquta uğradıqdan sonrakı ilk illərdə Sibirdə sürgündə 5 min azərbaycanlı var idi[18]. Azərbaycanda milli hərəkatın önündə cəsarətlə gedən ziyalılardan fərqli olaraq çarizm hakimiyyət orqanlarında çalışan azsaylı azərbaycanlı məmurlar, iri, orta və xırda kapital sahibləri milli hərəkata daxilən rəğbət bəsləsələr də, xəlvəti yardım etsələr də, ona açıq münasibət bildirməkdən çəkinirdilər. Azərbaycanlı sahibkarlar daim məngənədə saxlanılır, qorxudulur, sıxışdırılır, kapitallarını artırmalarına, xariclə əlaqələr qurmalarına icazə verilmirdi. Xalqa qarşı yeridilən bu siyasət ictimai rəydə böyük narazılıqla qarşılanırdı. Əhali çarizmin, sonra isə müvəqqəti hökumətin milli və dini zülmündən xilas olmaq üçün fürsət gözləyirdi. Belə bir imkan birinci dünya muharibəsi illərində yarandı. Müharibəinin gedişində yaranmış əlverişli beynəlxalq şərait nəticəsində müsəlman Şərqində ilk dəfə olaraq 1918-ci il may ayının 28-də Azərbaycan dövlətçiliyinin respublika formasında bərpa edilməsi ilə xalqımızın Dövlət Millətinə çevrilməsi, milli hökumətin qurulması və millətsevər siyasətin yeridilməsiylə ictimai həyatın demək olar ki, butun sahələrində böyük tarixi əhəmiyyətli hadisələr baş verdi. Milli hökumət, parlament, ordu və digər strukturlar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin böyük dövlətlər tərəfindən 1920-ci il yanvar ayının 11-də faktiki olaraq tanınması təkcə bir akt deyil, Azərbaycan milli azadlıq hərəkatının nəticəsinin, millətin öz istəyinə nail olmasının, yeni tarixi şəraitdə dövlət qurmaq bacarığının beynəlxalq aləmdə tanıdılması, qəbul edilməsi idi. Respublika formasında Azərbaycan xalqının dövlətini qurması müsəlman xalqlarının həyatında böyük tarixi hadisə hesab olunurdu.

Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa edərkən beynəlxalq şərait mühüm amillərdən biri olduğu kimi, onun iti-

[18] ARDA, f. 28, siy. 1, iş 179, v. 84.

rilməsində də başlıca rol oynadı. Yaranmış beynəlxalq şəraitdən istifadə edən bolşevik Rusiyası Azərbaycanın dövlət müstəqilliyini tanımayaraq ona qarşı təzyiqlərini artırıb, nəhayət, 1920-ci ilin aprelində işğal etdi. Bolşevik işğalının ilk illərində Azərbaycan xalqı mənəvi və fiziki məhv olmaq təhlükəsi qarşısında qaldı. Ölüm təhlükəsindən canlarını qurtarıb xaricə gedən, başqa ölkələrdə Azərbaycanın müstəqilliyi ideyasının unutdurulmamasını başlıca məqsəd olaraq qarşıya qoyan siyasi mühacirət və ölkədə ağır şərtlər altında yaşayan milli ruhlu adamlar əsasən aşağıdakı vəzifələri yerinə yetirməyə çalışırdılar: milli mədəniyyəti məhv olmaqdan xilas etmək; milli-mənəvi dəyərləri mühafizə edərək aşınmadan qorumaq; milli ziyalıları mühafizə etmək; Azərbaycan dilinə rəsmi və ya dövlət dili statusu vermək; İslam dini dəyərlərini qorumaq; Azərbaycanın ərazi bütövlüyünü müdafiə etmək, azərbaycanlı hərbçi kadrlar hazırlamaq; çar Rusiyası ilə İran arasındakı işğalçı müharibələr nəticəsində ikiyə bölüşdürülmüş vətən problemini – Cənubi Azərbaycan məsələsini unutdurmamaq; müstəqil Azərbaycan dövlətinin yaradılması üçün lazım olan maddi və mənəvi təməlləri, şərtləri hazırlamaq və şərait yetişdikdə istiqlalı bərpa etmək, Azərbaycanı beynəlxalq aləmdə tanıtmaq, türk dünyası ilə qırılmış əlaqələrin bərpasına yönəlik tədbirləri həyata keçirmək və s.

Qeyd etmək lazımdır ki, bolşevik işğalına qədərki dövrdə dövlət müstəqilliyi məsələsinin qoyuluşu ilə sovet dövründəki qoyuluşu arasında ciddi fərqlər var idi. Nəinki öz həcmi, həmçinin daxili mahiyyəti ilə bir-birindən fərqli olan milli məsələ ümumi sovet dövlətinin və Kommunist Partiyasının məqsədlərinə xidmət etməyə yönəldilmişdi. İ.V.Stalin yazırdı ki, milli məsələ proletar inqilabı haqqındakı ümumi məsələnin bir hissəsidir, proletariat diktaturası məsələsinin bir hissəsidir[19]. Mahiyyətinə görə amansız sinfi mübarizəni əsas götürən, qan, nifaq, kin-küdurət yaradan proletariat diktaturası Azərbaycan milli dövlətçiliyinə və xalqın milli ruhuna ağır zərbə vurdu. Yeni hakimiyyət milli dövlət

[19] Stalin İ.V. Leninizm məsələləri. Bakı, 1948, s.53.



aparatını dağıdaraq milli qüvvələri məhv etməyə, beynəlmiləlçilik bayrağı altında başqa xalqların nümayəndələrini Azərbaycana kütləvi surətdə doldurmaqla demoqrafik şəraiti dəyişdirməyə, milli-mənəvi dəyərləri saya salmayaraq sıradan çıxarmağa başladı. Milli olan bir çox şeylər qəddarlıqla məhv edilirdi. Azərbaycan milli qüvvələrinə, millətsevər ziyalılarına qarşı amansız təqiblər və kütləvi qırğınlar həyata keçirilirdi. Xalqın malı və mülkü əlindən alınırdı. Azərbaycanın yeraltı və yerüstü sərvətləri Rusiyaya daşınırdı. Bunun əvəzində isə mərkəzi hökumət Azərbaycana yalnız cüzi şeylər verirdi. Ağır repressiyalara məruz qalan milli ziyalılar, azərbaycansevər qüvvələr həbsxanalara atılır, sürgünə göndərilir, Xəzər dənizinin sularında boğulur, nəinki gecələr, hətta günün günorta çağı itkin düşürdülər. Demək olar ki, millətsevər azərbaycanlıların işləmədiyi, işləyənlərinin isə milli hisslərdən uzaq olduğu Fövqəladə Komissiya – Dövlət Siyasi İdarəsi – Dövlət Təhlükəsizliyi Komitəsi kimi xüsusi xidmət orqanı milli düşüncəni amansızlıqla məhv edirdi. Əsrlər boyu formalaşmış milli-mədəni sərvətlər antisovet adı ilə dağıdılırdı. Əvvəlcə cəlbedici bolşevik şüarlarına inanan əhali bir müddət keçdikdən sonra onun mahiyyətini dərk edərək sovet hakimiyyətinə müqavimət göstərməyə başladı. Tərtər, Gəncə, Qarabağ, Naxçıvan və b. yerləri güclü antisovet üsyanlar bürüdü. Lakin bu üsyanlar görünməmiş qəddarlıqla yatırıldı. Antisovet üsyanlarda iştirak edənlər küçədə camaatın gözü qarşısında təhqir olunur, güllələnirdilər. Müqavimət gücündə olmayanlar ölkəni tərk edirdilər. Yeni hakimiyyətin özününkü deyil, yabançı, yağmaçı olduğunu başa düşən xalqın milli vəhdəti pozulmuşdu. Hakimiyyət orqanları, xüsusən Fövqəladə Komissiya böyük məharətlə Azərbaycan xalqını və İslam dinini parçalamaq planlarını işləyib hazırlayaraq ustalıqla həyata keçirirdi. Belə şəraitdə fəaliyyət göstərən və əsasən azərbaycanlılardan ibarət olan Azərbaycan hökumətinin elə bir ciddi funksiyası yox idi. Bütün səlahiyyətlər demək olar ki, qeyri azərbaycanlıların

üstünlük təşkil etdiyi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin, XI ordunun Xüsusi şöbəsinin, Fövqəladə Komissiyanin əlində cəmlənmişdi. 20-ci illərdə MK-ya başçılıq edən şəxslər – birinci katiblər V.İ.Naneyşvili (1920-ci il 23 iyul – 8 sentyabr); müvəqqəti olaraq birinci katib işləmiş E. D. Stasova (1920-ci il 9 sentyabr – 15 sentyabr); E.V.Dumbadze (1920-ci il 15 sentyabr – 24 oktyabr); Q.N.Kaminskiy (1920-ci il 24 oktyabr – 24 iyul); S.M.Kirov (1920-ci il 24 iyul – 1926-cı il 20 yanvar); katibliyə seçilmiş Ə.Qarayev (1925-ci il 4 dekabr – 1929-cu il 24 dekabr); R.Axundov (1925-ci il 4 dekabr – 1926-cı il 21 yanvar; 1929-cu il 24 dekabr – 1930-cu il 15 iyul; 1930-cu il 18 avqust); H.Ağaverdiyev (1926-cı il 21 yanvar – 1927-ci il mart); L.Mirzəyan (1926-cı il 21 yanvar – 1929-cu il 11 iyul) Moskvanın iradəsini Azərbaycanda qeyd-şərtsiz yerinə yetirərək respublikanın ən kiçik hüquqlarını ləğv edir, milli ziyalılara, müstəqillik tərəfdarı olan qüvvələrə qarşı qırğınları amansızlıqla həyata keçirirdilər[20]. Milli qüvvələrin ilk böyük, kütləvi məhvi məhz 20-ci illərdə oldu. Azərbaycanın sovet rəhbərləri arasında milli təmayüllü bolşevik kimi tanınan N.Nərimanovun və digərlərinin millətsevər azərbaycanlı ziyalıları xilas etmək səyləri də elə bir ciddi nəticə vermədi.

Rəhbərliyi əsasən qeyri azərbaycanlılardan ibarət olan Bakı partiya komitəsi öz fəaliyyəti ilə Azərbaycan hökumətini, azərbaycanlı partiya və dövlət xadimlərini saya salmırdı. Milli simasını getdikcə itirən Bakının hətta Azərbaycandan alınıb Rusiyaya tabe etdirilməsi barədə MK-nın məxfi qərarı da qəbul edilmişdi. İş o yerə çatmışdı ki, Bakı şəhərinin büdcəsi bütün Azərbaycanın büdcəsindən çox idi. Bolşevik hökuməti həyatın bütün sahələrində - iqtisadi, mədəni, sosial, mənəvi və b. sahələrdə antiazərbaycan siyasəti yeridirdi. 20-ci illərdə sovet cəza orqanlarının ölüm hökmlərindən canlarını birtəhər qurtaran şəxslər 30-cu illərdə heç cür xilas ola bilməyərək amansızlıqla məhv edildilər.

[20] ARSPİHDA-nın əlyazma fondu.



30-cu illərdə Azərbaycan KP MK-nın birinci katibləri işləmiş N.F.Qikalonun (1929-cu il 11 iyul – 1930-cu il 4 avqust), V.İ.Polonskinin (1930-cu il 18 avqust – 1933-cü il 6 fevral), R.Q.Rubenin (1933-cü il 6 fevral – 1933-cü il 10 dekabr), M.Bağırovun (1933-cü il 10 dekabr – 1953-cü il 18 aprel) hakimiyyəti illərində Azərbaycanda milli düşüncəli, həmçinin başqa cür düşünən şəxslərin sonuncu dalğası kütləvi sürətdə məhv edildi. Respublikada repressiyalar, qətllər, sürgünlər, təhqirlər tüğyan edirdi. Nəticədə 1934-cü ildə 2447, 1935-ci ildə 2985, 1936-cı ildə 3824, 1937-ci ildə 11698, 1938-ci ildə 6504 nəfər, cəmi 27 458 nəfər repressiya edilmişdi[21]. Arzu olunmayan şəxslərin, bütöv ailələrin kütləvi sürgün edilməsi halları baş alıb gedirdi. Məsələn, təkcə 1937-1938-ci illərdə Azərbaycandan Qazaxıstana 1642 ailə (6504 nəfər) sürgün olunmuşdu[22].

Ümumiyyətlə, repressiyaların həyata keçirilməsində, azərbaycanlıların kütləvi şəkildə məhv edilməsində iştirak edən yüksək vəzifələrdə işləmiş heç bir azərbaycanlı dövlət və siyasi xadimə bəraət qazandırmaq mümkün olmasa da, tarix elminin vəzifəsi uzun illər keçdikdən sonra bu və ya başqa hərəkət üstündə kimisə ittiham etmək və ya bəraət qazandırmaq deyil, problemi olduğu kimi araşdırıb mahiyyətini üzə çıxarmaqdan ibarətdir. Amma şəksizdir ki, Azərbaycan rəhbərliyində birliyin olmaması, şəxsi intriqalar, yaşlı bolşeviklərlə gənclər arasında vəzifə üstündə gedən mübarizə repressiyaların daha da şiddətli aparılmasına təsir edən amillərdən idi. 30-cu illərin kütləvi repressiyaları ilə milli düşüncəli şəxslər amansızlıqla məhv edildikdən və dövlət idarəçilik orqanlarından uzaqlaşdırıldıqdan sonra ölkə daxilində millətsevər təbliğat və fəaliyyətlər kəsildi. Bütün bunların hamısı H.Əliyevin gözləri qarşısında baş vermişdi. O, repressiyaların canlı şahidi olmuşdu. H.Əliyev sonralar deyirdi: «...mən o günlərin şahidiyəm. Mən Naxçıvanda yaşayırdım. Bizim qonşularımızı

[21] AR MTN arxivi. PF-292, v. 70.
[22] Yenə orada, v. 2.

iki günün içində gətirib ağlaya-ağlaya avtomobillərə doldurdular, çıxarıb Arazın o tayına saldılar. Mən 1937-1938-ci illərdə Naxçıvandan siyasi motivlər üzrə Orta Asiyaya sürgün olunanları da görmüşəm. Onlar orta məktəbdə mənimlə bu yerdə oxuyan qızlar, oğlanlar idi, göz yaşları içində gəlib bizimlə vidalaşırdılar. Biz də başa düşmürdük, gəlib yola salanda görürdük ki, bir günün içərisində onların evlərində-eşiklərində nə vardırsa söküb-dağıdıb, onları avtomobillərə doldurub sürürlər»[23].

H.Əliyev deyirdi: «O vaxtlar gənc bir işçi kimi arxiv materialları ilə, xüsusən 37-38-ci illərin, ondan sonrakı dövrün materialları ilə tanış olarkən daim öz-özümə sual vermişəm: bu antisovet qruplar, millətçi qruplar sovet hakimiyyətini devirmək istəyən qruplar, filanlar – kimlərdir, hansılardır? Onların bir qismi həbs edilib, ya öldürülmüş, ya da uzaq Sibirdə həlak olmuşdu», «...əgər insanlar siyasi cəhətdən öz fikrini bildirmək, demək istəyirdisə, yaxud başqa fikir söyləmək istəyirdisə, dərhal nəzarət altına alınır, haqqında ölçülər götürülür və bəzilərini cəzalandırmağa çalışırdılar. Mən bunları görmüşəm, 40-cı illərin sonunda, 50-ci illərin əvvəllərində şahidi olmuşam»[24].

İkinci dünya müharibəsi illərində Azərbaycan daxilində istiqlal məsələsi demək olar ki, unuduldu. Ölkənin digər xalqları kimi Azərbaycan xalqının da bütün diqqəti nasist Almaniyası, faşist İtaliyası və militarist Yaponiyası üzərində qələbəyə yönəldi. Azərbaycan xalqı SSRİ xalqları ilə birlikdə antihitlerçi koalisiyanın qələbəsinə böyük töhvə verdi. Respublika daxilində istiqlal məsələsinin arxa planda qalması muharibədən sonrakı illərdə də davam etdi.

[23] Sitat götürülmüşdür: Şükürov K. Qədim türk diyarı – Naxçıvan. - «Xalq qəzeti», 2004, 3 mart, №51(24618).

[24] Xalqa, vətənə, dövlətə sədaqət. Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş mərasim və təntənəli yığıncaq. 28 iyun 1997-ci il, 1997, s.20.



M.Bağırovdan sonra Azərbaycan KP MK-nın birinci katibləri olan M.Yaqubovun (1953-cü il 18 aprel – 1954-cü il 17 fevral) və İ.Mustafayevin zamanında (1954-cü il 17 fevral – 1959-cu il 8 iyul) sovet cəmiyyətində nisbətən yumşalma baş verdiyindən millətin taleyi, ana dili ilə bağlı məsələlər yenidən dirçəlməyə başladı. 20-40-cı illərdə məhv edilməsindən ötrü böyük səylər göstərilməsinə baxmayaraq, millətin mənafelərini düşünən şəxslər 50-ci illərdə tədricən dövlət aparatına, o cümlədən Dövlət Təhlükəsizliyi orqanlarına ayaq açmağa başladılar. Beləliklə, Azərbaycan ədəbiyyatı, jurnalistikası və elminin xəlvəti qoruyub saxladığı, mühafizə etdiyi millətsevərlik baxışları partiya və sovet orqanlarında özünə yer tutmağa başladı.

Millətin mənafeyi ilə bağlı yalnız bəzi məsələlər İmam Mustafayevin zamanında rəsmi səviyyəyə qaldırılsa da, kifayət qədər ehtiyatlı, praqmatik deyil, daha çox emosional xarakter daşıdığından qarşısı Moskva tərəfindən qətiyyətlə kəsildi, Azərbaycan xalqı gözümçıxdıya salındı. İşdən azad olunan İ.Mustafayevi əvəz edən V.Y.Axundovun dövründə (1959-cu il 8 iyul – 1969-cu il 14 iyul) bu məsələlər tədricən arxa plana keçsə də, unudulmamışdı və həllini gözləyirdi. Qeyd etmək lazımdır ki, nəinki onun, həmçinin ondan əvvəlki rəhbərlərin dövründə siyasi hakimiyyət daxilində yekdilliyə nail olunmadığından, xalqla hakimiyyət arasında uçurum olduğundan bir çox ziyalılar siyasi rəhbərlikdən uzaq qaçırdılar. Beləliklə, birlik problemi Azərbaycan cəmiyyəti qarşısında duraraq öz həllini gözləyirdi. H.Əliyev bu problemi həll etməli idi.

Azərbaycan xalqını düşündürən mühüm bir problem məktəblər açmaq, savadsızlığı aradan qaldırmaq, ali təhsilli kadrları, mütəxəssisləri hazırlamaq idi. Çarizmin hakimiyyəti illərində Azərbaycanda çox az sayda olan məktəbləri açmaqda məqsəd yerlərdə müstəmləkə siyasətini həyata keçirmək üçün müəyyən savada malik kadrları hazırlamaq olsa da, hər halda həmin məktəblər xalqın maariflənməsində müəyyən rol oynamışdı. Təhsilli adamlar maarifi yayır, milli kimlik barədə

düşünür, milli düşüncənin yaranması və inkişafında müstəsna rol oynayırdılar. Azərbaycan kəndlərində isə məktəb və savadlı adamlar yox idi. Yerli əhalinin yazışmalarını xalq içərisində böyük nüfuza malik olan azsaylı mirzələr aparırdılar. «Mirzə» ifadəsi xalq içərisində xüsusi hörmətlə səslənirdi. Xalq savadsızlıqdan əziyyət çəkirdi. Azərbaycan əhalisinin savadsız olması geniş mənada götürüldükdə müstəmləkəçi hakimiyyətin maraqlarına daha çox uyğun gəlirdi. Savadsız, baş verən hadisələrin mahiyyətini anlamayan, haqqını tələb etməyən xalqı idarə etmək asan idi və o, mərkəzi hakimiyyət üçün ciddi təhlükə törətmirdi.

Heç şübhəsiz, xalqın maariflənməsində mühüm mərhələni Azərbaycan Xalq Cümhuriyyəti dövrü təşkil edir. Azərbaycanın ilk müasir ali təhsil ocağı olan Bakı Dövlət Universiteti 1919-cu ildə yaradıldı. Lakin nəinki ana dilində dərslik, dərs vəsaiti və kitablar, hətta müəllimlər çatışmırdı. Çarəsiz qalan hökumət tanınmış rus alimlərini və Turkiyədən müəllimləri dəvət etmişdi. Mustəqillk illərində təhsil sahəsində həyata keçirilən dövlət siyasəti Azərbaycan xalqının maariflənməsində xüsusi rol oynadı. Milli hökumət azərbaycanlı gəncləri xarici ölkələrə oxumağa göndərməklə Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik olan bir fəaliyyətə başladı. Lakin bolşevik işğalı Azərbaycan maarifinin məqsəd və vəzifələrini dəyişdirdi. Milli ruhlu müəllimlər işdən qovuldular. Keçirilən attestasiyalar belə müəllimlərin işsiz qalması ilə nəticələndi. Məktəblərdə ana dilində dərs verən müəllimlər çatışmadığından ali məktəblərin Azərbaycan bölmələri rus bölmələri ilə birləşdirilirdi. Azərbaycanlı tələbələr rus dilini bilmədiklərindən çətin vəziyyət yaranırdı. Azərbaycan bölmələri sıxışdırılır, sonra isə bağlanırdı. Nəticədə tələbələr arasında azərbaycanlılar azlıq təşkil edirdilər. Hətta fəaliyyət göstərən Azərbaycan bölmələrinə ögey münasibət bəslənilirdi. Onları bitirən şəxslərin yüksək partiya və sovet orqanlarında işə qəbul olunması çətin idi. İşə qəbul zamanı daha çox siyasi mənsubiyyət, rus dilini bilmək və



bolşevik hökumətinə sədaqət əsas götürülürdü.

Cümhuriyyət dövründə xarici ölkələrə təhsil almağa göndərilmiş azərbaycanlı gənclərin böyük əksəriyyəti 20-30-cu illərdə sovet repressiya maşınının qurbanı oldular. Milli hökumət zamanında müxtəlif strukturlarda işləyənlər də məhv edildilər, həbsxanalara salındılar və ya sürgün olundular.

Sovet hakimiyyəti illərində Azərbaycan kəndində olan məktəblərin əksəriyyəti şəxsi evlərdə yerləşirdi, müəllim kadrları çatışmırdı, kəndin ümumi mədəni səviyyəsi aşağı idi, azərbaycanlılar qabaqcıl dünya elminin nailiyyətlərindən xəbər tuta bilmir və ya gec xəbər tuturdular. Məktəb tikintisi, təhsilə, müəllimə və alimə qayğı başlıca problem kimi həllini gözləyirdi. H.Əliyev bu problemi həll etməli idi.

Azərbaycan xalqını düşündürən ən ciddi problemlərdən biri mədəni, tarixi irsi məhv olmaqdan qorumaq, inkişaf etdirmək və zənginləşdirmək idi. Həm çarizm dövründə, həm də 20-40-cı illərdə Azərbaycan xalqının çoxlu mədəni, tarixi sərvətləri düşünülmüş şəkildə amansızlıqla məhv edilmişdi. Mədəni inqilab illərində bir sıra qədim tarixi abidələr, gözəl memarlıq inciləri dağıdılmışdı. Məktəblərdə və ali təhsil ocaqlarında Azərbaycan tarixi ya öyrədilmir, ya da pis öyrədilirdi. Məktəblilər və tələbələr milli tarixdən xəbərsiz qalırdılar. Azərbaycansevər mədəniyyət və elm xadimləri təqiblərə məruz qalır və repressiya olunurdular. «Millət», «xalq», «milli tarix», «milli mədəniyyət» deyənlərin, onların müdafiəsinə qalxanların «dili kəsilirdi». Xalq gerçək tarixi və mədəni-milli kökündən zorla qopardılırdı. Ümumi sovet mədəniyyəti, sovet xalqı və sovet tarixi yaradan maşın sürətlə və aramsız işləyirdi. Xalq bu problemini həll etməyə qadir olan rəhbərə ehtiyac duyurdu. H.Əliyev həmin problemi həll etməli idi.

Azərbaycan xalqının qarşısında duran problemlərdən biri milli-mənəvi və dini dəyərlərin qorunması idi. Hələ çarizm dönəmində azərbaycanlıların milli-mənəvi dəyərləri mütəmadi olaraq gözdən salınır, təhqir olunurdu. Eyni siyasət Azərbaycan sovetləşdikdən sonra da başqa formalarla davam etdiri-

lirdi. 20-40-cı illərdə Azərbaycan xalqının soy-kökündən ayrı salınması gücləndirildi, başqa cür düşünən bir çox görkəmli ziyalı türkçü, turançı, pantürkçü adı ilə qətlə yetirildi. Milli-mənəvi dəyərlər amansızlıqla məhv edilməyə başlandı. 30-cu illərdə Novruz bayramının keçirilməsi qadağan edilmişdi. Belə bir fakt ürəkağrıdıcıdır ki, 30-cu illərdə dövlət aparatında məsul vəzifədə işləyən bir şəxsin həyat yoldaşı Novruz sovqatlarını hazırlamışdı. Axşam işdən evə qayıdan həmin şəxs bundan xəbər tutaraq qəzəblənmiş və bişirilmiş nemətləri ayaq altına salaraq tapdalamış və tullamışdı. 50-ci illərin ortalarından etibarən ölkədə inzibati amirlik sistemində nisbi yumşalma baş versə də, xalq Novruz bayramını ürəyi istədiyi kimi keçirə bilmirdi.

Milli musiqi aləti olan tar qadağan edilmişdi. Sovet hakimiyyətinin sonrakı illərində də qalan belə vəziyyət xalqı narahat edirdi.

Məlum olduğu kimi, çar hakimiyyəti müsəlmanlara etibar etməyərək onları idarəetmə işlərinə yaxın buraxmamaqla milli, dini və dövlət idarəçilik bacarıqlarının inkişaf etdirilməsinə imkan vermirdi. Çarizm dövründə sıxışdırılan İslam dininə qarşı təzyiqlər sovet dövründə də davam etdirilirdi. Mərkəzi hökumət müsəlman və türk olduqları üçün azərbaycanlılara inanmırdı. Moskvada müəyyən dairələr belə hesab edirdilər ki, azərbaycanlı yaxşı kommunist ola bilər, ancaq müsəlman, türk olduğu üçün ona etibar etmək olmaz. 20-40-cı illərdə İslam dinini parçalamaq, ziyarətgahları dağıtmaq, din xadimlərini ittihadçı, panislamçı adı altında məhv etmək siyasəti amansızlıqla yeridilirdi. Sovet cəza orqanları minlərlə görkəmli din xadimini məhv və sürgün etməklə, məscidləri dağıtmaqla İslam dininə sarsıdıcı zərbə vurdu. Həccə getmək 20-ci illərin ortalarından etibarən rəsmi surətdə qadağan olunmuş, Qurban və Ramazan bayramları üzərində yasaq qoyulmuşdu. Azərbaycanlılar bu problemlərinin həllini gözləyirdi.

Azərbaycan xalqının qarşısında duran başlıca problemlərdən biri ədəbi irsə, ədəbiyyata qayğı, milli incəsənətin inkişaf etdirilməsi idi. Çarizm dövründə ədəbi irsə, milli ədəbiy-



yata, incəsənətə vurulan sarsıdıcı zərbə sovet hakimiyyəti illərində də davam etdirilirdi. Vahid sovet mədəniyyəti yaratmağa yönəldilən güclü siyasət yeridilirdi. Xalqın soy-kökü ilə bağlı olan bir sıra abidələrin, konkret olaraq «Kitabi-Dədə Qorqud»un öyrənilməsi və təbliği qadağan edilmişdi. Hələ 1948-ci ildə SSRİ Yazıçılar İttifaqı dastanın milli mənsubluğu haqqında müzakirə açmaq istəsə də, Azərbaycan KP MK buna qəti şəkildə etiraz etmişdi. 1950-ci ilin yayında Bakıda ziyalılarla görüşündəki nitqində M.Bağırov bildirirdi ki, Azərbaycan ədəbiyyatında çoxlu nöqsanlar vardır və belə nöqsanlardan biri "Kitabi-Dədə Qorqud" haqqındadır. Azərbaycan K(b)P-nin 1951-ci ilin may ayında keçirilən XVIII qurultayındakı nitqində M.Bağırov "Kitabi-Dədə Qorqud"u antixalq və zərərli adlandıraraq bildirirdi ki, bəzi ədəbiyyatşünaslar və yazıçılar siyasi sayıqlığı itirərək onu uzun illər boyu təbliğ etmişlər[25]. O, respublikanın partiya təşkilatını və ictimaiyyətini bu dastanın antixalq mahiyyət daşıdığını ifşa etməyə çağırırdı. Azərbaycan KP MK katibi Həsən Həsənov "Pravda" qəzetində yazdığı məqaləsində qeyd edirdi ki, dastan Azərbaycan xalqına yaddır və irticaçı xarakter daşıyır. Müəllif dastanın Azərbaycan xalqı ilə heç bir əlaqəsi olmadığını bildirərək göstərirdi ki, yanlış olaraq bu dastan uzun illər boyu Azərbaycan xalqının vətənpərvərlik hissinin nümunəsi kimi təqdim edilib[26]. Azərbaycan KP MK "Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qəbul etdiyi qərarda da bu dastanı kəskin tənqid etmişdi.

Rəhbərlik hətta yazıçıları da dastanın əleyhinə çıxmağa məcbur edirdi. Məsələn, 1951-ci ildə Azərbaycan yazıçılarının bu məsələyə həsr olunmuş xüsusi iclasında etdiyi nitqində Yazıçılar İttifaqının sədri M.İbrahimov deyirdi: «Ədəbi irsə marksistcəsinə yanaşmayan bəzi dilçi və ədəbiyyatşünasları-

---

[25] XVIII съезд КП(б) Азербайджана. - Газ. «Правда», 1951, 29 мая, №149 (11986).

[26] Гасанов Г. Важная задача идеологической работы. - Газ. «Правда», 1951, 7 июля, №188 (12025).

mız, Azərbaycan dili, tarixi və ədəbiyyatı ilə heç bir əlaqəsi olmayan, talançılığı, dindarlığı, xalqlar arasında ədavəti təbliğ edən "Kitabi-Dədə Qorqud" eposunu Azərbaycan xalqının mədəniyyət abidəsi kimi qələmə vermişlər»[27]. İclasda çıxış edən digər natiqlər də göstərirdilər ki, dastanda təsvir olunmuş ictimai-iqtisadi həyat, adət və ənənələr, tiplər Azərbaycan həyatına və Azərbaycan xalqına tamamilə yabançıdır, dastanda Oğuz xanları idealizə olunur, hərbi-feodal məfkurəsi təbliğ edilir. İclasda sovet hakimiyyəti illərində belə bir dastanın dəfələrlə çap olunması siyası korluq hesab edilirdi. Deyilirdi: «Dədə Qorqud»u Azərbaycan xalq dastanı kimi qələmə verən pantürkistlər və onların havadarları olan burjua millətçiləri olmuşdur»[28]. Çıxış edənlər dastanın Azərbaycan xalqına mənsub olduğunu bildirən H.Araslını, M.Rəfilini və dastanda Azərbaycan dilinin mənşəyini axtaran Ə.Dəmirçizadəni kəskin tənqid edirdilər. İclasda çıxış edən M.İbrahimov, S.Vurğun və öz səhvlərini etiraf etsələr də, H.Araslı öz mövqeyindən geri çəkilməmişdi[29]. Hakimiyyətə gələn H.Əliyev "Kitabi-Dədə Qorqud" dastanına olan belə münasibəti kökündən dəyişdirməli idi.

20-30-cu illərdə sovet orqanları tərəfindən milli ruhlu şair, yazıçı və incəsənət adamları həbsxanalara atılır, sürgün edilir və qəddarlıqla məhv edilirdilər. Onların bir çoxu gözümçıxdıya salınaraq cəmiyyətə təsir etməkdən təcrid olunurdular. Başqa cür düşünən yaradıcı adamlar rejimin basqısından əziyyət çəkirdilər. Azərbaycan xalqının zəngin tarixi keçmişini və mədəniyyətini özündə əks etdirən qədim əlyazmalar yandırılır, baxımsızlıq ucbatından məhv olurdu. H.Əliyevin qarşısında bu problemin həlli dururdu.

Azərbaycan xalqının qarşısında duran əsas problemlərdən biri ana dilini qorumaq, inkişaf etdirmək, ona dövlət dili statusu vermək idi. Qeyd etmək lazımdır ki, çarizmin işğalına

[27] ARƏİDA, f.340, siy.1, iş 248, v.14-15.
[28] Yenə orada.
[29] Yenə orada, s.16.



qədərki müəyyən dövrdə Azərbaycan dilinin heç bir rəsmi statusu olmamışdı. Buna baxmayaraq, Azərbaycan dili Qafqaz xalqları arasında ümumi ünsiyyət dili funksiyasını uğurla yerinə yetirirdi. İşğaldan sonra yeridilən müstəmləkəçilik və ruslaşdırma siyasəti nəticəsində rus dili Qafqazda zorla yayılmağa başlasa da, Azərbaycan dili yenə də öz funksiyasını davam etdirirdi. Cümhuriyyət dövründə Azərbaycan (türk) dilinə rəsmi, dövlət dili statusu verilməsi ilə xalqın həyatında tarixi əhəmiyyətli bir hadisə baş verdi. Sovetləşmədən sonra bu status müəyyən dəyişikliklərlə saxlansa da, əslində onun heç bir funksiyası yox idi, hər şey kağız üzərində qalmışdı. Azərbaycana başqa millətlərin doldurulması ilə aborigen xalqın dili sıxışdırılır, onun yerini zorla rus dili tuturdu. Bütün idarə və müəssisələrdə kargüzarlıq işləri rus dilində aparılırdı. Hətta Bakı küçələrində Azərbaycan dilində danışanlara geri qalmış adam kimi baxırdılar. Ana dili yad sözlərlə aşınıb gedərək az qala sıradan çıxırdı. Azərbaycanlılar elm və mədəniyyət mərkəzi, təbii, tarixi paytaxt olan Bakıda özlərini yad hiss edirdilər. Özünə inamı getdikcə azalan xalq bu problemin həllini gözləyirdi. H.Əliyev həmin problemi həll etməli idi.

Azərbaycan xalqının həllini gözləyən problemlərindən biri sovet ordusu sıralarında azərbaycanlılara pis münasibət bəslənilməsi və onlara qarşı hökm sürən inamsızlıq idi. Vaxtilə çar hökuməti azərbaycanlılara etibar etməyərək hərbi xidmətə çağırmırdı. Çarizm azərbaycanlıların içərisindən yüksək rütbəli zabitlərin çıxmasında maraqlı deyildi. Bununla belə, birinci dünya müharibəsi illərində azərbaycanlı könüllülərdən ibarət yaradılmış və hərbi əməliyyatlar meydanında şücaət göstərmiş «Vəhşi diviziya» Cümhuriyyət dövründə milli ordunun nüvəsini təşkil edərək Azərbaycanın ərazi bütövlüyünün düşmənlərdən qorunmasında mühüm rol oynamışdı.

1920-ci ilin aprelindən sonra Azərbaycan diviziyasını sovet hökuməti müvəqqəti olaraq saxlasa da, antisovet üsyanlarda iştirak edən yüksək rütbəli hərbçiləri-generalları, polkovnikləri və b. nəinki amansızlıqla məhv etdi, eyni zamanda

yeni hərbçi kadrların yetişdirilməsinə hər vəchlə mane olmağa başladı. 30-cu illərdə milli hərbçi kadrların kökü demək olar ki, tamamilə kəsildi. Çarizm dövründə hərbi xidmətə çağırılmayan azərbaycanlılara sovet hökuməti də etibar etmədiyindən onları əsasən tikinti batalyonlarına xidmətə çağırır, hərbi texnika olan hissələrə yaxın buraxmırdı. ABŞ tarixçisi A.L.Altstadtın haqlı olaraq yazdığı kimi, bununla sovet hökuməti əslində özünün müsəlman müstəmləkə ərazilərinə inanmırdı[30].

İkinci dünya müharibəsi illərində sovet ordusuna səfərbər edilən azərbaycanlıların daha çox həlak olmasının səbəblərindən biri də heç şübhəsiz, hərbi texnikanı, rus dilini bilməmələri və döyüşdən baş açmamaları idi. Müharibənin gedişində azərbaycanlılırdan ibarət diviziyalar yaradılsa da, problem hələ tam həll edilməmişdi. Müharibədən sonrakı dövrdə də hərbi sahədə azərbaycanlılara münasibətdə inamsızlıq davam edirdi. Azərbaycan xalqının SSRİ-nin bir çox başqa xalqlarından sayca çox olmasına baxmayaraq, sovet ordusu sıralarında yüksək rütbəli azərbaycanlı zabitləri barmaqla saymaq olardı. Orduda xidmət edən azərbaycanlılara adətən polkovnikdən yüksək rütbə vermirdilər. Sovet rəhbərliyi ordunun zabit heyəti içərisində türk və müsəlmanların sayının çox olacağından qorxurdu. Azərbaycanlılara ordu sıralarında tikinti işlərini yerinə yetirən fəhlə kimi baxırdılar. Azərbaycan xalqı bu problemin həllini öz üzərinə götürən rəhbərə ehtiyac duyurdu. H.Əliyev həmin problemi həll etməli idi.

Azərbaycan xalqının başlıca problemlərindən biri qonşu erməni dairələrinin əsassız ərazi iddialarına, zaman-zaman yeritdikləri düşmənçilik siyasətinə son qoymaq idi. İşğalçı müharibələr nəticəsində Azərbaycan bölüşdürüldükdən sonra tarixi, etnik türk və müsəlman torpaqlarına, xüsusən, Naxçıvana, İrəvan quberniyasına, Yelizavetpol quberniyasının dağlıq ərazilərinə, indiki Dağlıq Qarabağa çar hökuməti tərəfindən

[30] Altstadt A. L. The Azerbaijan Turks. Stanford, California, Hoover Institution Press, 1992, p. 185.



yerləşdirilməklə əsrlər boyu formalaşmış demoqrafik vəziyyəti pozan, əlverişli iqtisadi imkanlar qazanaraq milli münasibətləri kəskinləşdirən, Cənubi Qafqazda çarizmin müstəmləkəçilik siyasətinin aləti olan ermənilər az keçmiş türkləri və müsəlmanları tarixi torpaqlarından sıxışdırmağa başladılar. İmperiya ərazisində sosial-siyasi proseslər gərginləşdiyi bir zamanda, xüsusən, 1905-1907-ci illərdə, birinci dünya müharibəsi dövründə erməni silahlı dəstələri əvvəlcə imperiyanın müxtəlif yerlərində hərbi əməliyyatların gedişində, daha sonra isə 1918-1920-ci illərdə Anadoluda, Cənubi Azərbaycanda, indiki Ermənistan ərazisində, Şimali Azərbaycanda, Borçalıda türklərə və müsəlmanlara qarşı kütləvi qətliamlar törətdilər. Birinci dünya müharibəsi illərində Bakı, Gəncə və b. şəhərlərə rus-türk cəbhəsindən qaçqın adı ilə gələn və yerləşdirilən ermənilər sonrakı illərdə həmin soyqırımlarda xüsusi rol oynadılar. Azərbaycan sovetləşdikdən sonra bolşevik cildində respublikaya qayıdan erməni xadimləri müxtəlif partiya və sovet orqanlarında məsul vəzifələr tutaraq antiazərbaycan fəaliyyətlərini yeni hakimiyyətin şüarları ilə pərdələnmiş halda qəddarlıqla davam etdirirdilər. Sovetləşmədən sonra xaricə qaçmış yüzlərlə daşnakın nəinki Ermənistana, hətta Azərbaycana qayıtmasına 20-30-cu illərdə icazə verilsə də, mühacir azərbaycanlıların müvafiq istəkləri yerinə yetirilmədi[31]. Məsələn, hələ RK(b) P MK Siyasi bürosunun 1923-cü il 22 noyabr tarixli iclasında (protokol №47) SSRİ xalq xarici işlər komissarının müavini M.Litvinovun təqdimatı əsasında «Türkiyədən olan qaçqın ermənilər haqqında» məsələ müzakirə edildi[32]. Qərarda 10 min nəfər ermənin Türkiyədən SSRİ hüdudlarında qəbul olunmasına etiraz edilmir, eyni zamanda bu işin dövlət büdcəsi tərəfindən maliyyələşdirilməməsi qeyd olunurdu[33]. Nəticədə Türkiyədən gələn ermənilərin bir hissəsi Azərbaycana yerləşdirildi.

[31] ARSPİHDA, f. 1, siy. 91, iş 310, v. 5; siy. 74, iş 158.

[32] РГАСПИ, ф.17, оп.3, д.395, л.1.

[33] Yenə orada.

Sovet hökuməti 20-ci illərdə hətta Naxçıvana da erməniləri yerləşdirmək siyasətini davam etdirirdi. Zaqafqaziya MİK-in kiçik rəyasət heyəti 1925-ci il may ayının 19-da (protokol №12) «Naxçıvandan qaçmış bir sıra ermənilərin geri qaytarılması barədə» qərar qəbul etmiş[34] və bu qərar yerinə yetirilmişdi.

30-cu illərdə xaricdə, xüsusən Türkiyə və Fransada yaşayan ermənilər gətirilərək Azərbaycana yerləşdirilmişdilər[35]. Ermənilərin ZSFSR-ə köçürülməsi haqqında məsələ ÜİK(b) P MK Siyasi bürosunun 1931-ci il 10 may tarixli iclasında (protokol №37) və iyun ayının 16-da keçirilən iclasda (protokol №43) müzakirə edilərək müsbət qərar qəbul olunmuşdu[36]. SSRİ XXİK 1932-ci il mart ayının 14-də ZSFSR MİK-ə 263/s №-li məxfi məktub göndərərək ermənilərin Azərbaycana yerləşdirilməsi məsələsinin həllini tələb etmişdi. ZSFSR MİK katibi H.Sultanov 1932-ci il mart ayının 27-də Azərbaycan MİK-in işlər müdirinə 470/s №-li məxfi məktub yazaraq məsələnin təcili həllini xahiş etmişdi[37]. 1936-cı ilin may ayında Cənubi Qafqaza təkcə Parisdən 2 min erməni köçürülmüşdü. Onlar da həmin ilin may ayının 22-də L.Beriya və Q.Musabəyova təşəkkür məktubu göndərmişdilər[38].

İkinci dünya müharibəsi qurtardıqdan sonra Azərbaycan xalqı və Türkiyə yenidən əsassız erməni iddiaları ilə üz-üzə qaldı. Xaricdə fəaliyyət göstərən erməni təşkilatları SSRİ-Türkiyə münasibətlərindəki soyuqlaşmadan və dünyada yaranmış vəziyyətdən yararlanıb Türkiyəyə qarşı sərsəm ərazi iddiaları ilə çıxış edərək dünyanın müxtəlif ölkələrində, yenicə yaradılmış Birləşmiş Millətlər Təşkilatının qarşısında tələblərinin yerinə yetirilməsini irəli sürdülər. Lakin Türki-

[34] GRDƏYTA, f.607, siy.1, iş 327, v.2.
[35] ARDA, f.379, siy.5, iş 2382, v.1-4.
[36] РГАСПИ, ф.17, оп.3, д.830, л.4.
[37] GRDƏYTA, f.607, siy.2, iş 1973, v.10.
[38] «Kommunist» qəzeti, 1936, 23 may, №118(4744).



yədən torpaq ərazisi almaq istəkləri boşa çıxdıqdan sonra onlar Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə başladılar. Ermənistan KP MK katibi Q.Arutunov 1945-ci ilin noyabr ayında Moskvaya məktub yazaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırdı. Lakin bu iddia Azərbaycan və SSRİ rəhbərliyi tərəfindən qətiyyətlə rədd edildi[39]. Belə olduqda erməni dairələri başqa bir varianta əl atdılar. Onlar xaricdəki ermənilərin repatriasiyasına – Ermənistana qayıtmasına icazə verilməsini sovet hökumətindən xahiş etdilər. ABŞ-ın müttəfiqinə çevrilən Türkiyə ilə münasibətlər pisləşdiyindən və iki dunya sistemi arasında soyuq müharibə şiddətlə başladığından sovet rəhbərliyi həmin istəyi həvəslə yerinə yetirdi. Heç şübhəsiz, SSRİ rəhbərliyində çalışan erməni xadimləri də bu işdə mühüm rol oynadılar. Beləliklə, erməni dairələri qarşılarına qoyduqları üç vəzifədən birini reallaşdırdılar. Ermənilərə Ermənistana köçməyə icazə verildi. Lakin köçürülən ermənilərin yerləşdirilməsi üçün lazımi şərait olmadığından Ermənistandakı tarixi torpaqlarında, xüsusən Türkiyə ilə sərhəddə yaşayan azərbaycanlıların köçürülməsi məsələsi qaldırıldı. Azərbaycanlılar SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 №-li və 1948-ci il 10 mart tarixli 754 №-li qərarlarına uyğun olaraq 1948-1953-cü illərdə planlı şəkildə, lakin başqa ad-təsərrüfat quruculuğu adı altında Azərbaycanın iqlim cəhətdən əlverişsiz olan aran rayonlarına köçürüldülər. 1948-ci ildə 24631 nəfər, 1949-cu ildə 54373 nəfər, 1950-ci ildə 65650 nəfər azərbaycanlı tarixi-etnik torpaqlarından deportasiya edildi. Beləliklə, 1917-ci ilin sonlarından 1918-ci ilin mart ayınadək İrəvan quberniyasında azərbaycanlılara qarşı kütləvi soyqırımı həyata keçirərək 198 kəndi yerlə yeksan edən, əhalisini qaçqına çevirən[40] erməni terrorçu dəstələrinin

[39] ARSPİHDA, f.1, siy.169, iş 249, v.5-14.
[40] ARDA, f. 28, siy. 1, iş 185, v. 1-8.

fəaliyyətini başqa formada davam etdirən erməni kommunistləri sovet hakimiyyəti illərində istəklərinin yerinə yetirilməsinə rəsmi qərarların qəbul edilməsi ilə nail oldular.

Bununla kifayətlənməyən erməni dairələri sonrakı illərdə də Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarından əl çəkmədilər.

Heç şübhəsiz, daşnak iddialarına qarşı sərt mübarizə aparan azərbaycanlı xadimlər, xüsusi xidmət orqanlarının əməkdaşları da var idi. Bəzi xarici dövlətlərin erməni daşnaklarından ölkə əleyhinə casusluq məqsədilə istifadə etmələrinə qarşı fəaliyyət göstərənlərdən biri DTK-da işləyən H.Əliyev idi. O, erməni millətçilərinə qarşı qonşu ölkələrdə və respublikada əməliyyatların keçirilməsində və onların zərərsizləşdirilməsində müstəsna rol oynamışdı[41].

H.Əliyev bu fəaliyyətini 60-cı illərdə də davam etdirmişdi. DTK-nın ikinci şöbənin rəisi işləyən podpolkovnik H.Əliyev və dördüncü şöbənin rəisi podpolkovnik Bağırov SSRİ Nazirlər Soveti yanında DTK-nın ikinci baş idarəsinin ikinci şöbəsinin rəisi V.M.Xamazyuka 1962-ci il iyun ayının 20-də yazdıqları 2/3804 №-li tam məxfi məktubda göstərirdilər ki, Azərbaycan SSR ərazisində Bakı, Kirovabad, Stepanakert və Naxçıvan şəhərlərində yaşayan 60-adək keçmiş daşnak və digər erməni burjua millətçisi qeydə alınıb. Bu kontingentdən 15 nəfər təhlükəsizlik orqanları tərəfindən araşdırılıb və işlər arxivə verilib. Məktubda əməliyyat diqqəti çəkən şəxslərin siyahısı və xarakteristikası verilir, eyni zamanda göstərilirdi ki, son vaxtlar millətçi elementlər tərəfindən ayrı-ayrı təzahürlərə rast gəlinir. Belə ki, 1962-ci ilin may ayında məlumat daxil olub ki, Stepanakertdə yaşayan bəzi millətçi əhval-ruhiyyəli ermənilər vilayətdəki təsərrüfat problemlərindən istifadə edərək Azərbaycan SSR DQMV-nin Ermənistana birləşdirilməsi haqqında təxribatçı şayiələr yayırlar. Şayiələri fəal yayanlar agentura yoxlamasına götürülmüşlər[42].

---

[41] AR MTN arxivi, iş 164, v.1.
[42] Yenə orada, v.356-363.





Ст. 13

СССР
КОМИТЕТ
ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ
при СОВЕТЕ МИНИСТРОВ СССР
2 Главное управление
7 февраля 1962 г.
№ 2/II-383
гор. Москва

Копия
Совершенно секретно
экз. №

НАЧАЛЬНИКУ 2 ОТДЕЛА КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ
при СОВЕТЕ МИНИСТРОВ АЗЕРБАЙДЖАНСКОЙ ССР
подполковнику

тов. АЛИЕВУ Г.А.
гор. Баку

Для сведения сообщаем, что в конце ноября 1961 года в Ливане специально прибывший туда представитель американской разведки провел секретное совещание с руководящими деятелями "Загранбюро" дашнакской партии, ТЕР-ГАЛУСТЯНОМ, СААКЯНОМ Арменом, [illegible] и другими.

На совещании обсуждались вопросы об активизации разведывательной деятельности дашнаков против СССР, принятии мер, направленных на срыв решения Советского правительства относительно репатриации зарубежных армян в Советский Союз, и принятии необходимых мер для освобождения дашнаков, арестованных в 1961 году в Египте за шпионскую деятельность (в этих целях американцами ассигновано 50 тысяч долларов).

По этим вопросам "Загранбюро" приняло решения о подготовке и направлении нелегально и по каналам репатриации в Армянскую ССР с территории сопредельных стран агентуры для подрывной работы; об использовании в шпионских целях поездки в СССР групп туристов и отдельных армян к своим родственникам; о срыве предстоящей репатриации армян в Советский Союз путем использования всех средств, вплоть до совершения террористических актов в отношении лиц, которые активно будут содействовать репатриации. Эту работу дашнаки намерены проводить во всех странах, где имеется армянское население.

Особая роль ими отводится Ирану, учитывая общность его границ с Советским Союзом и сходство диалектов армянского языка в Иране и СССР.

2/3804 256 484

Копия.

20 июня 62 г.

На № 2/II-383 от 7/II-62г.

Совершенно секретно
экз.№ 2

НАЧАЛЬНИКУ II ОТДЕЛА 2 ГЛАВНОГО УПРАВЛЕНИЯ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ ПРИ СОВЕТЕ МИНИСТРОВ СОЮЗА ССР

П О Л К О В Н И К У
товарищу ДАНАЗЮК В.М.
город Москва

На территории Азербайджанской ССР учтено около 60 бывших дашнаков и других армянских буржуазных националистов, в основном проживающих в городах Баку, Кировабаде, Степанакерте и Нахичевани.

Из указанного контингента ранее органами госбезопасности разрабатывались 15 человек, дела на которых разновременно были прекращены и сданы в архив.

Из числа проходящих по этим делам заслуживают оперативного внимания, по своей прошлой деятельности, следующие лица:

1. НАХЗАДОВ Сумбат Мартиросович, 1897 года рождения, уроженец Хундзореск, Горисского района, Армянской ССР, армянин, гражданин СССР, беспартийный, проживает в городе Баку по 12-й Нагорной улице, в доме № 19.

Происходит из семьи крупного богача. С 1918 года





возвратиться в СССР не высказывает.

Проживающий в сел. Ленинакене, Мардакертского района, НКАО, Азербайджанской ССР бывший дашнак БАБАЯН Авак Айрапетович, 1873 года рождения, уроженец Горисского района, Армянской ССР, с 1946 года поддерживает переписку с находящимися во Франции невозвращенцами сыновьями БАБАЯНОМ Алексаном и БАБАЯНОМ Ашатуром.

В своих письмах БАБАЯН Авак сообщает, что он долгое время находился на севере в ссылке, о своем тяжелом материальном положении и просит помочь ему, после этого он из Франции стал получать ценные-вещевые посылки.

Последнее время имели место отдельные проявления со стороны националистического элемента. Так, в мае 1962 года в Отдел КГБ при СМ Азербайджанской ССР по НКАО поступили данные о том, что некоторые националистически настроенные лица, из числа армян, проживающие в г.г. Степанакерте и Ереване, используя хозяйственные неполадки в области, распространяют провокационные слухи о присоединении Нагорно-Карабахской автономной области Азербайджанской ССР к Армении. Активные распространители этих слухов выявлены и взяты в агентурную проверку.

НАЧАЛЬНИК ВТОРОГО ОТДЕЛА КГБ при СОВЕТЕ МИНИСТРОВ Азербайджанской ССР
подполковник
/ Г.АЛИЕВ /

НАЧАЛЬНИК 4-го ОТДЕЛЕНИЯ –
подполковник
/ БАГИРОВ /

Верно: [signature]

1965-ci ilin aprel ayında Yerevan küçələrinə çıxan bir neçə min erməni yenidən Türkiyə və Azərbaycana qarşı ərazi iddiaları irəli sürdülər. Vəziyyət getdikcə ağırlaşırdı. Erməni iddialarının qarşısının kəsilməsi tələb olunurdu.

Sonralar Azərbaycan Respublikasının Prezidenti H.Əliyev nitqlərinin birində etiraf edərək deyirdi: «30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam»[43].

Ərazi iddiaları ilə kifayətlənməyən Ermənistanın rəsmi dairələri tarixi torpaqlarında yaşayan azərbaycanlıları sıxışdırmağı, etnik mənsubiyyəti göstərən yaşayış yerlərinin adlarını dəyişdirməyi, tarixi abidələri məhv etməyi genişləndirirdilər. Bu işi həyata keçirən erməni siyasətçiləri, ədibləri daim antiazərbaycan mövqe tutaraq onu həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gözdən salmağa çalışırdılar. Erməni dairələrinin ildən-ilə güclənən iddialarının qarşısının kəsilməsi Azərbaycan xalqının qarşısında duran başlıca problemlərdən biri idi və bu işi bacaran rəhbərə ehtiyac duyulurdu. H.Əliyev həmin problemi həll etməli idi.

Başlıca problemlərdən biri Azərbaycan xalqının nəinki beynəlxalq aləmdə, hətta SSRİ-də tanınmaması, az tanınması və ya pis tərəfdən tanınması idi. Bəzi antiazərbaycan dairələr Azərbaycan xalqını elm və mədəniyyətdən uzaq olan köçəri, heyvandar xalq kimi təsəvvür edir və qələmə verirdilər. Azərbaycan xalqının tarixi, mədəniyyəti, incəsənəti ölkədə kifayət qədər yaxşı tanınmırdı. Sovet dövründə Azərbaycanda hakimiyyətdə olan rəhbərlər bu istiqamətdə müəyyən addımlar atsalar da, problemi həll edə bilməmişdilər. SSRİ-də vahid xarici siyasət xətti yeridildiyindən ölkə konstitusiyasında təsbit olunmuş «müttəfiq respublikaların beynəlxalq əlaqələr saxlamaq hüququ» da kobud surətdə pozulurdu. Ölkəyə xaricdən gələn nümayəndələr Azərbaycana «geri qalmışdır» deyə göndərilmirdilər, Azərbaycan elmi, mədəniyyəti və incəsənəti ölkə sərhədlərindən kənara çətinliklə çıxırdı, nəinki dünyada, o cümlədən türk və müsəlman dünyasında geniş məlum deyildi. Xarici ölkələrdə Azərbaycan xalqı haqqında təsəvvürlər yanlış, bəzən də düşmən xarakterli idi. H.Əliyevin qarşısında bu problemin həlli dururdu.

[43] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Demokratik Respublikasının 80 illiyinə həsr olunmuş təntənəli iclasda nitqi. – «Dirçəliş -XXI əsr» jurnalı, 1998, № 5.



Xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulması da problem olaraq qalırdı. 1920-ci ilın aprelindən sonra işğala etiraz olaraq xaricə gedən, ikinci dünya müharibəsindən sonra isə Stalin repressiyalarından qorxduqları üçün vətənə dönməyən minlərlə azərbaycanlı barəsində sovet rəhbərliyində mənfi fikir formalaşdığından, düşmən obrazı yaradıldığından barələrində təhqir və böhtanlar baş alıb gedirdi. Onlarla əlaqələr saxlamaq, vətənə gəlməyə dəvət etmək, sovet sisteminin mövcudluğundan asılı olmayaraq Azərbaycan haqqında həqiqətləri öyrənmələri və təbliğ etmələri, sovet dövlətinə düşmənçilikdən imtina etmələri lazım idi. SSRİ-nin başqa respublikalarında xaricdə yaşayan həmvətənlərlə əlaqələr üzrə cəmiyyətlər fəaliyyət göstərsələr də, Azərbaycanda belə bir təşkilat yaradılmamışdı. Moskva onun qurulmasına icazə vermirdi.

Bəzi xalqların xarici ölkələrdə lobbisi və diasporu olduğu halda, azərbaycanlı rəsmi şəxslərdən bu barədə düşünən belə yox idi. Mövcud acınacaqlı vəziyyətin düzəldilməsinin vacibliyini ən çox başa düşənlər xarici olkələrə səfər edən yalnız bir neçə Azərbaycan ziyalısı idi. Onların da sözü eşidilmirdi. Bəzən onlar da sovet rejiminin sərt şərtləri altında susmağı üstün tuturdular. Belə şəraitdə xaricdə yaşayan həmvətənlərə qayğı göstərən, onların problemlərini həll edən, vətənə dəvət edən rəhbərə ehtiyac duyulurdu. Heç şübhəsiz, bu məsələdə

dövlətin ümumi mənafeləri ön planda düşünülürdü. H.Əliyev həmin problemi həll etməli idi.

Azərbaycanın qabaqcıl ziyalılarını düşündürən problemlərdən biri Cənubi Azərbaycan məsələsi idi. Rusiya ilə İran arasında işğalçı müharibələr nəticəsində bölüşdürüldükdən sonra mütərəqqi şəxsləri Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların vəziyyəti, sosial-iqtisadi, mədəni və b. problemlərinin həlli daim düşündürmüşdü. Şimali azərbaycanlıların nümayəndələri Cənubi Azərbaycanda baş verən 1907-1911-ci illər inqilabında iştirak etmiş, Səttarxan və Bağırxanla birgə işləmiş, Şeyx Məhəmməd Xiyabani hərəkatında fəal olmuş, 1941-1946-cı illərdə sovet ordu hissələri İrana yeridilərkən azərbaycanlılar arasında iş aparmış, onların təşkilatlanmasında, Seyid Cəfər Pişəvəri hərəkatında, azərbaycanlıların maariflənməsində, milli şüurunun inkişafında müstəsna rol oynamış, cənubda milli hökumətin qurulmasında yaxından iştirak etmişdilər. Sovet sistemi şəraitində ziyalılar tərəfindən xəlvəti müzakirə edilən Cənubi Azərbaycan probleminə diqqət yetirmək, unutmağa qoymamaq, oradakı soydaşlara mənəvi dəstək vermək, şah rejiminin zülmündən can qurtarıb Şimali Azərbaycana pənah gətirən yüzlərlə adama qayğı göstərmək və b. problemlər həllini gözləyirdi. Qeyq etmək lazımdır ki, Azərbaycanın H.Əliyevə qədərki rəhbərləri də Cənubi Azərbaycanda yaşayan soydaşların taleyini düşünmüş və onlara kömək etməyə çalışmışlar. Belə münasibəti M.Bağırov, İ.Mustafayev, V.Axundov da bildirmişlər. Azərbaycanda müxtəlif vəzifələr tutan şəxslər zaman-zaman həmin məsələni hətta rəsmi səviyyələrdə də qaldırmışlar. Əlbəttə, bu işdə sovet dövlətinin ümumi siyasəti başlıca məqsəd olsa da, Azərbaycanın da mənafeyi diqqətdə saxlanılırdı. Məsələn, Azərbaycan KP MK katibi T.Yaqubov "Pravda" qəzetindəki məqaləsində qeyd edirdi ki, Cənubi Azərbaycandakı zəhmətkeşlər – qan



qardaşlarımız xüsusilə ağır vəziyyətdə yaşayırlar, İranın mülkədar və kapitalistlərinin zülmünə məruz qalırlar[44].

H.Əliyevin DTK sistemində işlərkən cənublu mühacirlərlə əlaqə saxlayır, onların problemlərinin həllinə kömək edir, hətta Sibir sürgünündə olanların azad edilib Azərbaycana gətirilməsinə yardım göstərirdi. Məsələn, H.Əliyev Sibir sürgünündə çürüyən, Cənubi Azərbaycanda milli hərəkatın görkəmli xadimlərindən biri olmuş Məhəmməd Biriyanı şəxsən Azərbaycana gətirmiş, onun mənzil-məişət şəraitinin yaxşılaşdırılması barədə rəhbərlik qarşısında məsələ qaldırmış və istəyinə çatmışdı. Bölünmüş vətənin dərdini həm tarixdən, həm də əməli şəkildə dərindən bilən, onunla yaşayan, varlığı ilə cənubu sevən, ona bağlı olan bir rəhbər bu problemlərlə məşğul ola bilərdi. H.Əliyev Cənubi Azərbaycan məsələsinə diqqət yetirməli idi.

Sovet hakimiyyətinin müharibədən əvvəlki və sonrakı illərində Azərbaycanın türk dünyası və Türkiyə ilə qırılmış əlaqələrinin bərpası da qabaqcıl Azərbaycan ziyalılarını düşündürən məsələlərdən biri idi. Çarizm dövründə müsəlman ziyalıların Türkiyə ilə əlaqələrindən əndişələnən hakimiyyət orqanları belə ünsiyyəti qətiyyətlə kəsir, təqib edir, təzyiqlərə məruz qoyurdu. XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri demək olar ki, türklüyü qoruyan və Türkiyəyə meyl edən ziyalıların təqibləri və amansız məhv edilmələri ilə dolu olmuşdu. Yalnız Cümhuriyyət dövründə bu məsələnin qaydaya salınması üçün tədbirlər görüldü. Qeyd etmək lazımdır ki, 20-ci illərdə SSRİ - Türkiyə münasibətlərinin yaxşı olduğu bir zamanda da belə əlaqələr üçün əlverişli şərait yaranmışdı. Lakin 30-cu illərdə iki ölkə arasında münasibətlər soyuqlaşdıqda əvvəlki dövrdə fəal olan pantürkçülər, turançılar, ümumiyyətlə, qabaqcıl ziyalılar qəddarlıqla məhv edildilər. Sovet hakimiy-

[44] Якубов Т. Советский Азербайджан перед выборами. - Газ. «Правда», 1951, 3 февраля, №34(11871).

yəti sanki 20-ci illərdə Bakıda Türkoloji qurultayı çağırmaqla, Türkiyə və SSRİ-nin türk xalqları arasında əlaqələrə imkan verməklə türkçüləri, türkpərəstləri və türkiyəsevərləri üzə çıxarmaq üçün münbit şərait yaratmışdı. Məhz 30-cu illərdə onların hamısı kütləvi şəkildə məhv edildilər. Bakıda Türkoloji qurultayda iştirak edənlər amansızlıqla repressiya olundular. 40-cı illərdə də bu proses davam etdirildi. Sovet hökumətinin Azərbaycan xalqını milli, tarixi köklərindən ayırmaq, Türkiyə ilə əlaqələri məhdudlaşdırmaq siyasəti ziyalıları ciddi şəkildə narahat edirdi. İki ölkə arasında münasibətlərin istiləşdirilməsinin zəruriliyini sovet rəhbərliyinə ehtiyatla və inandırıcılıqla başa salan, belə əlaqələrin qurulması yönündə şüarlar söyləmədən praktik fəaliyyət göstərən, türk və müsəlman dünyasının problemlərini dərindən bilən, onları həll etməyə çalışan rəhbərə ehtiyac duyulurdu. H.Əliyev həmin problemi də həll etməli idi.

Bütün bu problemlərin həlli əslində geniş mənada milli-mənəvi sahədə müstəqil Azərbaycan dövlətçiliyinin əsaslarının yaradılması, xalqı bu gələcək möhtəşəm tarixi hadisəyə hazırlamaq məqsədini güdürdü.

1923-cü il may ayının 10-da Naxçıvanda dəmiryolçu ailəsində doğulmuş Heydər Əliyev, dünyagörüşünə əsaslı təsir edən bu problemləri dərindən bilmiş, onların həlli yolları barədə hələ hakimiyyətə gəlməmişdən əvvəl düşünmüş və müəyyən ilkin planları olmuşdu.

Bütün bunlarla yanaşı, onun həyat fəlsəfəsinə, millətsevərlik və müstəqil dövlətçilik baxışlarının formalaşmasına başqa amillər də təsir etmişdi. Həmin amillər Heydər Əliyevin doğulub boya-başa çatdığı ailə mühiti, xüsusi xidmət orqanlarında leytenantdan generaladək bütün karyera pillələrini uğurla keçərək inkişaf etməsi, sovet hakimiyyətinin milli siyasətini, daxili və beynəlxalq problemləri, Azərbaycan tarixini mükəmməl, incəliyinə qədər bilməsi, dunya tarixi və beynəlxalq münasibətlər haqqında zəngin biliyə, tarixçi



diplomuna sahib olması, tanınmış Azərbaycan dövlət və siyasi xadimi Əziz Əliyevin ailəsi ilə qohumluq əlaqələri və başqalarından ibarət olub.

Heydər Əliyevin valideynləri və özü xarici ölkə tarixçilərinin yazdığı kimi, müsəlman Şərqi ölkələrinin tarixini və xalqlarının həyatını, psixologiyasını, fars, ərəb, türk dillərini bilir, milli, dini adət-ənənələrə sadiq idilər[45]. H.Əliyevin atası əvvəllər Bakıda neft mədənlərində işləmiş, sonra isə dəmiryolunda çalışmışdı.

ABŞ-da nəşr olunan kitabda deyilir ki, H.Əliyevin valideynləri, ailəsi Naxçıvanda kasıb şiə olmuşdur[46]. Əliyevlər ailəsinin milli və dini dəyərlərə sıx bağlılığı, İslam dininə inanan, qanunlarına əməl edən, qoruyan, müqəddəs yerləri ziyarət edən olmaları onun baxışlarının formalaşmasında müstəsna rol oynamışdı. H.Əliyev sonralar, 1995-ci ildə Naxçıvanda Həzrəti Zəhra (s) məscidinin açılış mərasimində etdiyi nitqində dindar ailədən çıxdığını, atasının və anasının namaz qıldığını vurğulayır, eyni zamanda qeyd edirdi ki, onun uşaqlığı bu məscidin həyatində keçmiş və o bu məsciddə dəfələrlə olmuşdur[47]. Əliyevlər ailəsində səkkiz uşaq böyüyürdü. Uşaqların tərbiyəsi ilə İslam dini qaydalarına və milli adət-ənənələrə ciddi əməl edən anası İzzət xanım məşğul olurdu. Heç əbəs deyil ki, Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra söylədiyi nitqlərinin birində H.Əliyev müharibə vaxtı, gənc yaşlarında anasının tövsiyəsi ilə Naxçıvandan Bakıya gəlib İçəri şəhərdə Mirmövsüm ağa ilə görüşdüyünü deyirdi. Görünür, bu hadisə onun xüsusi xidmət orqanlarında işə qəbul olunduğu vaxtlara təsadüf edir.

Orta məktəbdə əla qiymətlərlə oxuyan H.Əliyev geniş dünyagörüşə, fitri istedada malik olmaqla şagird yoldaşları

---

[45] Solovyov V., Klepikova E. Behind the high Kremlin Walls, p. 63.
[46] Yenə orada.
[47] Qədim Naxçıvanda bayram. Bakı, 1999, s.31-32.

arasında ünsiyyətcil və əsl lider idi. Küçədə uşaqlar dalaşanda o heç bir qrupa qarışmaz, hər iki tərəflə yaxşı münasibət saxlayar, onları barışdırar və birləşdirərdi. Müəllimlərinin sevimlisinə çevrilmişdi. O, şer yazır, gözəl rəsmlər çəkir, rəssam olmaq istəyirdi. Lakin 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikimunu bitirib Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil oldu. H.Əliyevin ən böyük arzusu gözəl binalar tikmək, qurub-yaratmaq idi.

H.Əliyevin qardaş-bacılarının elmə və mədəniyyətə yüksək marağı, böyük qardaşı Həsən Əliyevin məşhur coğrafiyaçı alim kimi Azərbaycanın hər bir guşəsini gəzib dolaşaraq onu qəlbən sevməsinin, müxtəlif vəzifələrdə işləməsinin təsiri də izsiz ötməmişdi.

H.Əliyevin memarlıq fakültəsində oxuyarkən tələbə yataqxanasında qalması, işləməsi onun azərbaycanlı tələbələrin məişətinə, düşüncəsinə dərindən bələd olmasına kömək etmişdi. Lakin müharibənin başlanması ilə bir çoxları kimi onun da təhsili yarımçıq qaldı. H.Əliyev 1941-1944-cü illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Xalq Daxili İşlər Komissarlığında və muxtar respublikanın Xalq Komissarları Sovetində şöbə müdiri işlədi. 1944-cü ildən isə DTK-da işə göndərildi. H.Əliyev 1944-cü il yanvar ayının 27-də Xalq Dövlət Təhlükəsizliyi Komitəsində işə girmək üçün ərizə verdi[48]. ABŞ-da nəşr olunan kitabda deyilir ki, H.Əliyev 1941-ci ildən, 18 yaşından xüsusi xidmət orqanlarında işləyərək Qırmızı ordu hissələri İran ərazisində olarkən, İran Demokrat Partiyasında, Cənubi Azərbaycanın SSRİ-yə birləşdirilməsi səyləri yolunda çalışmışdır. O, 1943-cü ildə, 20 yaşında Kommunist Partiyası sıralarına daxil oldu. Müxtəlif Şərq dillərini bilməsi H.Əliyevin Təbrizdə, bir neçə il sonra isə

[48] Заявление Г.А.Алиева. – AR MTN muzeyinin materialları.



# Behind the High Kremlin Walls

Vladimir Solovyov
and Elena Klepikova

Translated by Guy Daniels
in Collaboration with the Authors

Fenwick Library
George Mason University
Fairfax, Virginia

Dodd, Mead & Company • New York

At Kremlin receptions for foreign guests, Aliyev wittily fielded tricky questions and never seemed to be afraid of them. He often smiled and even laughed heartily—something that was new in the Kremlin, which in the eighties was coming more and more to resemble a hospital for the Party elite. He radiated vigor, enterprise, and initiative. Next to him, even the youngest members of the Politburo—Vorotnikov, Romanov, and Gorbachev—who didn't have his Caucasian temperament, lost their luster and looked older. Because of his self-confidence, his grasp of practical matters, and his physical appeal, Aliyev brought "masculine potential" into the Kremlin atmosphere, which had long been sexless. If there was anything that stopped Aliyev from officially taking over the post of prime minister after Tikhonov's resignation in the autumn of 1985, it was his Caucasian/Moslem origins. After all, even the Slav, Nikolai Ryzhkov, who before he became premier was identified in official biographical sketches as a Ukrainian, was obliged, once he had assumed that office, promptly to change his ethnic origin to "Russian."

Aliyev's father was a poor Shiite trader in Nakhichevan, a town on the Iranian border of the Republic of Azerbaijan. But his career, beginning in his teens, has been so completely Soviet as to wipe out any ethnic or religious differences. Despite his Middle Eastern name and appearance, he became a hundred percent cosmopolitan, as witnessed by the fact that Moscow entrusted him with the chairmanship of the Republic KGB, a post usually held by a Russian or a Ukrainian. (His predecessor as chief of Azerbaijan's secret police was Semyon Tsvigun, Brezhnev's brother-in-law, who before that had worked in the KGB in two other republics.)

Aliyev started working for the security organs in 1941, when he was not yet eighteen. Almost immediately, he was sent (along with the Red Army) into neighboring Iran to the city of Tabriz, where he worked in the ranks of radical separatists of the pro-Soviet Democratic Party of Iranian Azerbaijan. Their purpose was to help Stalin realize the traditional imperial dream: the annexation of northern Iran to Russia. Aliyev's familiarity with Moslem customs and his fluency in Middle Eastern languages—Farsi, Turkish, and Arabic, in addition to Azerbaijani—helped in his work in Tabriz and also a few years later in Turkey. It also came in handy much later, decades after Stalin's adventure in Iran had failed, when Aliyev, still serving as Party boss in Azerbaijan, became Andropov's secret consultant on the KGB's





Middle Eastern policy, which involved matters ranging from the overthrow of the Shah of Iran, to the seizure by left-wing Iranian students of the American hostages in that country and later Soviet actions in the Middle East, to the occupation of Afghanistan.

Early in 1979, through Andropov's efforts, Aliyev even got a permanent apartment in Moscow, although his official residence permit was for Baku, and his official duties were there. But Brezhnev and his colleagues were still desperately resisting making yet another KGB man a member of the Politburo, since right at that time they were beginning to have trouble with Andropov himself. Neither Aliyev's proven abilities, nor his success in raising productivity in his republic, nor his endless flattery of Brezhnev helped his cause, while Andropov's sponsorship no doubt militated against his protégé rather than for him. The main reason for his exclusion from the Politburo, however, was that the Dnepropetrovsk mafia had certain knowledge of the unbridled cruelty Aliyev had shown in dealing with his enemies in his own part of the country.

Aliyev was a highly gifted man whose very long experience with the security organs had made him into a cynical, crafty, and ruthless plotter. As chief of the secret police in Azerbaijan, it took him only two years—using the pretext of an antigraft campaign—to overthrow the Party boss who had been named by the Kremlin to run the republic, and to take his place. By comparison, Andropov, who had helped Aliyev carry out his coup and even regarded it as a rehearsal for his own projected coup on the national scale, needed fifteen years to overthrow Brezhnev. (True, unlike Aliyev, Andropov had no helpers and sponsors, only enemies.)

In any case, the dwellers in the Kremlin feared Aliyev and kept him at a safe remove in his native republic. This was irksome to a man who for years had longed to make it into the Kremlin; Aliyev felt cramped in Azerbaijan—he was a politician of national, not just local, caliber. When he finally did make it to the capital under Andropov's reign, he rolled up his shirtsleeves and went to work with vigor such as had not been seen in the Kremlin for a long time. This was all the more necessary in that Andropov had spent much of his strength in his struggle for power; only a few months after his inauguration he began to fail physically.

Even judging only from information in the Soviet press, the scope of Aliyev's duties was extraordinarily broad, ranging from combating graft to making the trains run on time; from reforming "general" schools (computer courses were made obligatory in the upper grades) to overseeing Soviet policy in the Middle East. Thus, the day before Andropov's death, the Soviet papers announced an impending visit by Aliyev to Syria, the USSR's chief outpost in the Middle East.

Türkiyədə uğurla işləməsinə kömək etmişdi[49]. Baş əməliyyat müvəkkili kimi H.Əliyev 1945-ci il iyunun 20-dən iyulun 10-dək Bakıda ixtisasartırma kursunu keçib əla qiymətlərlə bitirmişdi[50].

Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri general-mayor Yemelyanovun 1949-cu il 10 may tarixli 66 №-li əmri ilə Naxçıvan MSSR DTN 5-ci şöbəsinin rəisi işləyən H.Əliyev Leninqrada xüsusi məktəbə oxumağa göndərildi[51]. Baş leytenant H.Əliyev 1949-cu il mayın 16-dan 1950-ci il iyulun 6-dək SSRİ DTN-də rəhbər əməliyyat heyətinin hazırlığı məktəbində oxuyaraq onu əla qiymətlərlə başa vurdu[52]. 1950-ci il iyunun 21-də məktəb rəhbərliyi tərəfindən verilən xidməti xasiyyətnamədə H.Əliyev intizamlı, mənəvi cəhətdən saf, məişətdə ciddi, yoldaşları ilə münasibətdə ünsiyyətcil, hörmətcil və taktikalı olaraq müdavimlər arasında nüfuzlu şəxs kimi səciyyələndirilirdi[53].

H.Əliyevin DTK sistemində karyera qazanmasına onun etnik və dini mənsubiyyəti mane olmadı. O, DTK-da işləyərək kiçik zabit-leytenant rütbəsindən generaladək bir yol keçmişdi. Sovet hakimiyyəti illərində bu sistemdə general olmaq şərəfli bir iş idi. Xüsusən türk və müsəlman xalqların nümayəndəsi üçün. H.Əliyevə qədər həmin sistemdə bu rutbəni alan azərbaycanlı olmamışdı. Heç şübhəsiz, H.Əliyev sovet quruluşunda doğulub boya-başa çatmış bir şəxs olduğundan həmin quruluşu da sevirdi. Lakin uzun müddət xüsusi xidmət orqanlarında işləməsi, çox məhdud dairənin tanış ola

[49] Solovyov V., Klepikova E. Behind the high Kremlin Walls, p. 63.
[50] Характеристика Г.А.Алиева. – AR MTN muzeyinin materialları.
[51] Приказ Министра Государственной Безопасности Азербайджанской ССР. – AR MTN muzeyinin materialları.
[52] Свидетельство об окончании школы МГБ СССР ст. лейтенанта Г.А.Алиева. – AR MTN muzeyinin materialları.
[53] Служебная характеристика ст. лейтенанта Алиева Гейдара Али Рза оглы. – AR MTN muzeyinin materialları.



biləcəyi məxfi və ya tam məxfi qrifli sənədlərlə işləməsi, milli ruhlu şəxslərə təzyiqləri, işlədiyi sistemdə azərbaycanlılara olan mənfi münasibəti görməsi onun millətsevərlik və müstəqil dövlətçilik baxışlarının formalaşmasına təsir etmişdi. DTK sistemində azərbaycanlıların xeyli az, rusların və digər xalqların nümayəndələrinin isə kifayət qədər çox olması ona pis təsir edirdi.

H.Əliyev ikinci dünya müharibəsi illərində covet ordu hissələri Cənubi Azərbaycana yeridildikdən sonra oraya göndərilmiş, azərbaycanlılar arasında fəal iş apararaq, «iki Azərbaycanın birləşdirilməsinə yönəlik Stalinin imperialist məqsədlərinin həyata keçirilməsinə xidmət etmiş», Ukrayna cəbhəsində hərbi əks-kəşfiyyat qrupunun üzvü olmuş[54], 1950-ci ildə DTK-da bölmə müdiri, 1953-cü ildə isə əks-kəşfiyyat şöbəsinin rəisi təyin olunmuş[55], DTK-nın Şərq diviziyonunda işlərkən Pakistan, İran, Əfqanıstan və Türkiyəyə səfərlər etmişdi.

1965-ci il martın 31-də polkovnik rütbəsi alan H.Əliyev 1966-cı ilin fevral-may aylarında SSRİ Nazirlər Soveti yanında DTK-nın rəhbər kadrlarının təkmilləşdirilməsi kursunda oxuyaraq imtahanları əla qiymətlərlə verdi[56]. 1967-ci ildə isə respublikada DTK-nın sədri təyin edildi. Formalaşmış praktikaya əsasən ölkədə bu vəzifədə əsasən ruslar və ukraynlar işləyirdilər. Ondan əvvəl Azərbaycan DTK-nın sədri vəzifəsində Sov. İKP MK-nın Baş katibi L.İ.Brejnevin bacanağı Semyon Sviqun işləmişdi. Brejnevlər ailəsi ilə yaxın olan H.Əliyev ünsiyyət qurmaqda fitri istedad sahibi idi. Həticədə H.Əliyevin DTK sədri vəzifəsinə keçməsinə onun milli və dini mənsu-

[54] Altstadt A.L. Göstərilən əsəri, s.183.
[55] Heydər Əliyev. Biblioqrafik məlumat kitabı. Azərbaycan MEA müxbir üzvü, professor A.M.Məhərrəmovun ümumi redaktorluğu altında, s.29.
[56] Свидетельство об окончании курса усовершенствования руководящего оперативного состава. Полковник Алиев Гейдар Али Рза оглы. – AR MTN muzeyinin materialları.

biyyəti, azərbaycanlı, türk və müsəlman olması maneçilik törətmədi[57]. Çünki Kremldə oturanlar onu kosmopolit bir şəxs hesab edirdilər. Bu təyinatda DTK sədri Y.Andropovun təkidləri və Azərbaycan KP MK-nın birinci katibi V.Axundovun düzgün mövqe tutması əsas rol oynamışdı. H.Əliyevi SSRİ DTK-sı 1967-ci il oktyabr ayının 30-da 136№-li məxfi əmrlə general-mayor rütbəsinə təqdim etdi. Attestasiya sənədində deyilirdi ki, o, 1944-cü ildən DTK sistemində, 1945-ci ildən isə rəhbər vəzifədə çalışıb, uzun müddət 2-ci şöbənin rəisi işləyib, 1965-ci ildən sədrin müavini, 1967-ci ilin iyunundan isə sədridir, zəruri təşkilatçılıq qabiliyyətinə malikdir, ən mürəkkəb tədbirlərin işlənilməsi və həyata keçirilməsində şəxsən iştirak edir, respublikada milli özünəməxsusluğu və əməliyyat işini yaxşı bilir[58].

H.Əliyev DTK sistemində ən yüksək məktəblərdə - Moskva və Leninqradda, sonra isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdı. O, dünya və Azərbaycan tarixlərini mükəmməl bilirdi. Həm DTK məktəblərində, həm də Universitetdə əla qiymətlərlə oxumuş, onları fərqlənmə diplomu ilə bitirmişdi. DTK məktəblərində və universitetdə Osmanlı, Rusiya, Avropa, Qədim yunan, Çin tarixlərini öyrənmişdi.

Bir Qərb tarixçisi yazır ki, H.Əliyev 1945-ci ildən N.S.Xruşşov dövrünədək Pakistan, Türkiyə və İran üzrə çalışmış, sonra isə Naxçıvanda qısa müddətdə mülki işdə işləmişdi[59]. Onun mülki işə keçirilməsinin əsas səbəbi 20-40-cı illərdə Azərbaycan ziyalılarına qarşı cinayətlər törətmiş təhlükəsizlik əməkdaşlarının həbsini tələb etməsinin rəhbərlik tərəfindən mənfi qarşılanması olmuşdu. Lakin bir müddət sonra o yenidən DTK sistemində işə qaytarılmışdı. Bütün bu fəaliyyətlər onun Cənubi Azərbaycan, Türkiyə, türk və müsəlman dünyası problemləri ilə yaxından tanış olmasına, mükəmməl

[57] Solovyov V., Klepikova E. Behind the high Kremlin Walls, p.62-63.
[58] Представление к присвоению воинского звания генерал-майора. - AR MTN muzeyinin materialları.
[59] Charles van der Leew. Azerbaijan a quest for identity. A short history. New York, St. Martin's Press, 2000, p. 131.



Присвоено звание

Приказ КГБ при СМ СССР
№ 196 от 30/X 1967 г.
Протокол №
от Пост. СМ СССР № 985 21/X-67

СЕКРЕТНО
(по заполнении)

Предельное звание, предусмотренное штатами
Генерал-майор

ПРЕДСТАВЛЕНИЕ

к присвоению воинского звания "Генерал-майора"
(звание)

Кому Полковнику АЛИЕВУ Гейдару Али Рза оглы (личный № Е-01 II)
(звание, фамилия, имя, отчество, личный номер)

1. Должность председатель КГБ при Совете Министров Азербайджанской ССР
(с указанием места работы)

2. Год рождения 1923 3. Национальность азербайджанец Партийность чл.КПСС с 1945

5. Образование высшее, окончил Азербайджанский госуниверситет им.С.М.Кирова в 1957 г.
(что и когда окончил)

6. Время службы в Советской Армии, в органах и войсках госбезопасности с мая 1944 г., в Советской Армии не служил
(с указанием перерывов)

7. Дата и № приказа о присвоении предыдущего звания 31 марта 1965 г. № 131

АТТЕСТАЦИЯ

Тов. АЛИЕВ в органах госбезопасности с 1944 г., на руководящих должностях с 1945 г. Продолжительное время являлся начальником 2 отдела КГБ Азербайджана, с 1965 г. заместителем председателя, а с июня 1967 г. возглавляет Комитет госбезопасности при Совете Министров Азербайджанской ССР.

Обладает необходимыми организаторскими способностями. Хорошо знает национальные особенности и оперативную обстановку в республике, целеустремленно направляет подчиненных на выполнение стоящих задач.

В КГБ республики активно проводятся мероприятия по разработке разведчиков и агентов, посещавших республику в числе иностранцев, а также лиц, подозреваемых в проведении шпионской и другой враждебной деятельности. Ведется настойчиво работа по совершенствованию агентурного аппарата.

Много внимания уделяет организации работы периферийных органов КГБ. В решении служебных вопросов проявляет принципиальность и настойчивость. Принимает личное участие в разработке и проведении наиболее сложных мероприятий.

За умелое осуществление оперативных мероприятий неоднократно поощрялся, в 1962 г. награжден орденом Красной Звезды.

По личным качествам трудолюбивый, волевой и принципиальный руководитель.

Среди личного состава Комитета и партийно-советского актива пользуется авторитетом, избран кандидатом в члены ЦК КП Азербайджана и депутатом Верховного Совета республики.

Тов. АЛИЕВ заслуживает присвоения очередного воинского звания генерал-майора.

НАЧАЛЬНИК УПРАВЛЕНИЯ КАДРОВ КГБ при СОВЕТЕ МИНИСТРОВ СССР
полковник
(ЧЕБРИКОВ)

ЗАМЕСТИТЕЛЬ ПРЕДСЕДАТЕЛЯ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ
при СОВЕТЕ МИНИСТРОВ СССР генерал-майор
(ЦВИГУН)

25 октября 1967 г.

---

ЗАКЛЮЧЕНИЕ СТАРШИХ НАЧАЛЬНИКОВ

Тов. АЛИЕВ достоин предоставления к очередному воинскому званию генерал-майора.

ЗАМЕСТИТЕЛЬ ПРЕДСЕДАТЕЛЯ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СССР
генерал-полковник
(ЗАХАРОВ)

« 25 » X 1967 г.

---

ЗАКЛЮЧЕНИЕ УПРАВЛЕНИЯ, ОТДЕЛА КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СССР

Представить тов. АЛИЕВА к присвоению очередного воинского звания генерал-майора.

ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СССР

АНДРОПОВ

« 26 » октября 1967 г.

верно: [signature] –



bilik qazanmasına və millətsevərlik baxışlarının formalaşmasına kömək etmişdi. O, türk və müsəlman dünyası problemlərini yalnız kitablardan deyil, praktik olaraq bilirdi. Sonralar H.Əliyev türk dövlət xadimləri ilə söhbətlərinin birində açıq şəkildə etiraf edirdi ki, ona türk dilini öyrətmək üçün xüsusi müəllim də ayrılmışdı. İki-üç il ərzində o, türk dilini mükəmməl öyrənmişdi. Özünün dediyinə görə onun türk dili lüğəti və türk dili dərsliyi də olmuşdu. Türkiyə tarixini, ictimai-siyasi həyatını, baş verən prosesləri, mədəniyyətini, incəsənətini, müxtəlif təbəqələrin baxışlarını, hətta türk şairlərinin əsərlərini bilirdi. Hələ 13-14 yaşlarında görkəmli yazıçı Rəşad Nuri Güntəkinin «Çalıquşu» romanını oxumuşdu. H.Əliyev eyni zamanda Türkiyənin digər böyük şair və yazıçılarının əsərlərini də öyrənmişdi. Əbdülhəmid Hamid, Tofiq Fikrət və başqalarının əsərləri sovet hakimiyyətinin həmin illərində orta məktəb dərsliklərə salınmışdı. H.Əliyevin türk dünyasına münasibəti təbii, qəlbindən, mənəviyyatından və içindən gələn bir duyğu idi.

H.Əliyev DTK-da müxtəlif vəzifələrdə, bu orqanın sədr müavini və sədri işləyərkən millətin bütün problemlərinə daha dərindən bələd olmuşdu.

H.Əliyev əslində daxili aləmi və düşüncələrinə görə praqmatik əməliyyatçı, strateji düşünən, artıq danışmağı sevməyən millətsevər bir şəxs idi. Mövcud rejim şəraitində tam səlahiyyət sahibi olmayanadək və hətta səlahiyyət sahibi olanda belə, millətsevərlik baxışlarını büruzə vermək faciə ilə nəticələnə bilərdi. Əslində H.Əliyev reallığa əsaslanaraq hərəkət edən bir şəxs idi[60]. Xüsusi xidmət orqanının yüksək rütbəli zabitinin birinin söylədiyinə görə H.Əliyev DTK sədri vəzifəsində çalışarkən kadrlari işə qəbul edəndə onların Azərbaycan xalqının milli, dini adət-ənənələrini, Azərbaycan tarixi, mədəniyyəti və incəsənətini necə bilmələri ilə maraqlanar, bunlara

[60] Solovyov V., Klepikova E. Behind the high Kremlin Walls, p.62-63.

dair suallar verərdi. DTK-da işə qəbul edilən gənclərdən dünya tarixi, mədəniyyəti barədə soruşduqdan sonra Azərbaycan tarixi, mədəniyyəti və incəsənətinə dair söhbətə keçər, suallara çətin cavab verdikdə onları dərindən öyrənməyi tövsiyə edərdi.

Sonralar Azərbaycanın rəhbəri olarkən H.Əliyevi Moskvaya işləməyə apardılar. Bu dəfə də etnik və dini mənsubiyyəti onun karyerasına mane olmadı. ABŞ-da nəşr olunan bir kitabda yazılır ki, Əliyev köklü azərbaycanlı idi, lakin buna baxmayaraq, onu Moskvaya işləməyə apararkən türk və müsəlman olması amili arxa planda qaldı[61]. Daha sonra həmin müəllif yazır ki, qeyri rus olan H. Əliyev Moskvada sovet rejiminin beynəlmiləlçilik ideologiyası altında yaşamağa başladı[62].

Heydər Əliyevin Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində ikinci təhsilini 50-ci illərdə, məhz sovet cəmiyyətində stalinizmin iflasa uğradığı və nisbi yumşalmanın baş verdiyi şəraitdə alması, tarixi mükəmməl bilməsi, milli azadlıq hərəkatı tarixi ilə yaxından tanış olması onun millətsevərlik və müstəqil dövlətçilik baxışlarının formalaşmasına təsir etmişdi.

Digər tərəfdən, qeyd etmək lazımdır ki, 60-cı illərin sonu - 80-ci illərin sovet cəmiyyəti 20-50-ci illərin sovet cəmiyyəti ilə heç də eyni deyildi. Yeni sovet rəhbərləri bir sıra məsələlərə yanaşmada özlərindən əvvəlkilərdən xeyli fərqlənirdilər. Ölkənin daxili həyatında keyfiyyət dəyişkənliyi baş verdiyi kimi, beynəlxalq aləmdə iki sistem arasındakı qarşılıqlı münasibətlərdə də yumşalma, yaxşılığa doğru meyl gedirdi. H.Əliyev hakimiyyətə gələrkən iki sistem arasında münasibətlərdə qarşıdurmadan gərginliyin zəifədilməsinə, əməkdaşlığa keçid baş verirdi.

H.Əliyevin beynəlxalq, xüsusən müsəlman Şərqi məsələlərini dərindən bilməsi ona sovet rəhbərliyində böyük nüfuz qazandırmışdı. O, sovet rəhbərliyində müsəlman ölkələri, Türkiyə, Türküstan və türk dünyası üzrə mahir bilici hesab edilirdi. Bu istiqamət üzrə SSRİ-nin siyasəti həyata keçirilərkən onun fikir, mülahizə və tövsiyələri çox vaxt həlledici olurdu.

[61] Soviet politics. Russia after Brezhnev, p. 140.
[62] Yenə orada, s. 141.





*Heydər Əliyev*
*uşaqlıq illərində*



Heydər Əliyev
DTK zabiti formasında



Heydər Əliyev və anası İzzət xanım



Heydər Əliyev, həyat yoldaşı Zərifə xanım,
qızı Sevil, oğlu İlham



*Azərbaycan rəhbəri iş otağında*



*Heydər Əliyev və oğlu İlham xalq tərəfindən böyük coşqu ilə qarşılanır*



***Heydər Əliyev Azərbaycanın tarix və mədəniyyət abidələri sərgisində. 1981-ci il 27 noyabr***



*Heydər Əliyev xalq arasında*



*Heydər Əliyev rayonların birində mədəniyyət evinin açılış mərasimində*



*Heydər Əliyev məktəblərin birində*



*Heydər Əliyevin səyləri nəticəsində Bakı yaşıllıqlar şəhərinə çevrildi*



*Heydər Əliyev ailə üzvləri ilə Moskvada Qızıl meydanda*

# SOVIET POLITICS

//

## RUSSIA AFTER BREZHNEV

**Edited by Joseph L. Nogee**

[illegible] LIBRARY
[illegible] UNIVERSITY
[illegible]

PRAEGER

PRAEGER SPECIAL STUDIES • PRAEGER SCIENTIFIC

New York • Philadelphia • Eastbourne, UK
Toronto • Hong Kong • Tokyo • Sydney

## THE ANDROPOV INTERLUDE

During Yuri Andropov's brief tenure as general secretary, it was clear that he was opposed to Russian nationalism.[36] Andropov made no sweeping pronouncements on the question, but his views and his intentions can be inferred from some specific steps that were taken in 1982 and 1983.

The first major appointment of the new general secretary was to summon Geidar Aliev to Moscow. Aliev, who is an ethnic Azeri (and thus of Muslim and Turkic background) was then the first secretary of the Azerbaidzhan party organization, and he had spent his entire career in the republic. As first secretary, he had been made a candidate (or nonvoting member) of the Politburo under Brezhnev. But at that point he seemed to have risen as high in the system as he could. Now Andropov promoted him to full membership in the Politburo, and appointed him USSR vice-premier. In the vice-premier's job, Aliev became the most logical candidate to succeed the premiership when N.A. Tikhonov (who was then 77) [illegible]ly vacated the post. Furthermore, as an experienced party official and full

member of the Politburo, Aliev (despite his non-Russian backg not be ruled out entirely as a possible contender for the office secretary. Like Mukhitdinov 20 years ago, Aliev is a living sy internationalist ideology of the Soviet regime.



H.Əliyevin Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevlə gənc yaşlarında Cənubi Azərbaycanda tanış olması, müharibədən sonrakı illərdə ona qarşı törədilən haqsızlıqları görməsi, bu ailə ilə qohum olması millətsevərlik və müstəqil dövlətçilik baxışlarının formalaşmasına güclü təsir etmişdi. Qeyd etmək lazımdır ki, Əziz Əliyev hələ 20-ci illərdə Tibb institutunun tələbəsi ikən Cənubi Azərbaycanda olmuş, burada fəaliyyət göstərmişdi. O, ikinci dunya müharibəsi ərəfəsində ölkədə Cənub Azərbaycan məsələsini dərindən, mükəmməl bilən dövlət xadimi hesab edilirdi, 30-cu illərdə Azərbaycanın xalq səhiyyə komissarı, SSRİ Ali Sovetinin deputatı olmuşdu. Müharibə başladıqdan sonra İrana sovet hissələri yeridildikdə Ə.Əliyevin siyasi təbliğatçılar qrupuna rəhbər təyin edilməsi, Cənubi Azərbaycanda fəal iş aparması bu baxımdan əbəs deyildi.

H.Əliyevin həyat yoldaşı Zərifə xanım Əliyevanın millətsevər bir ziyalı və məşhur oftalmoloq həkim olması, xalqının problemlərini dərindən bilməsi, həlli yolları barədə düşünməsi də heç şübhəsiz, izsiz qalmamışdı. O, musiqi bəstələyir, gözəl piano çalırdı. Qeyd etmək lazımdır ki, ABŞ-da nəşr olunan kitablarda Zərifə xanım Əliyeva yaxşı insan və görkəmli oftalmoloq alim kimi qiymətləndirilir[63]. H.Əliyevlə Z.Əliyevanın baxışları arasında heç bir fərq yox idi. Onlar eyni cür düşünürdülər.

Bütün yuxarıda qeyd edilən amillər heç şübhəsiz, H.Əliyevin millətsevərlik və milli dövlətçilik baxışlarının formalaşmasına təsir etmişdi.

* * *

Beləliklə, H.Əliyev hakimiyyətə gələrkən Azərbaycan xalqının qarşısında duran başlıca problemlər siyasi hakimiyyət daxilində yekdilliyin olmaması, xalqla hakimiyyət arasında uçurumun dərin olması, ziyalıların siyasi hakimiy-

[63] Solovyov V., Klepikova E. Behind the high Kremlin Walls, p. 63.

yətlə əməkdaşlıqdan kənarda qalması, milli ziyalılara ögey münasibətin mövcudluğu, milli ədəbiyyatın, milli-mənəvi dəyərlərin, mədəniyyətin sıxışdırılması, məhv edilməsi, tarixi abidələrə yad münasibət bəslənilməsi, ana dilinin təsir dairəsinin məhdudlaşdırılması, milli hərbçi kadrların hazırlanmaması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulmaması, Azərbaycan xalqının ölkədə və dünyada kifayət qədər tanınmaması, xalqın düşmənlərinin bədxah niyyətlərinin qarşısının lazımınca kəsilməməsi, Cənubi Azərbaycan məsələsi, türk dünyası və Türkiyə ilə qırılmış əlaqələrin bərpa edilməməsi idi.

H.Əliyevin doğulduğu ailənin və özünün Azərbaycan xalqının milli-mənəvi, dini dəyərlərinə sıx bağlılığı, Azərbaycan və dünya tarixini, türk və müsəlman dünyası məsələlərini mükəmməl bilməsi, xüsusi xidmət orqanlarında işlərkən Azərbaycan xalqına qarşı yönəlik siyasəti görməsi və s. amillər onun millətsevərlik, müstəqil dövlətçilik baxışlarının formalaşmasında əsaslı rol oynamışdı.

Bəs H.Əliyev Azərbaycan xalqını düşündürən, milli, mədəni və mənəvi sahələrdə müstəqil dövlətin təməllərini təşkil edən bütün bu məsələləri necə həll edir və ya həll etməyə səy göstərirdi?



# II FƏSİL

## AZƏRBAYCANLILARIN BİRLİYİNƏ NAİL OLUNMASI

Müəyyən məkan və zaman daxilində fəaliyyət göstərən siyasi, dövlət xadiminin həyatına və həyata keçirdiyi tədbirlərə mövcud şəraitdən kənarda, mücərrəd halda qiymət vermək qeyri-elmi və yanlışdır. Belə qiymət heç vaxt kiçicik tənqidə tab gətirə bilmir. Bu baxımdan H.Əliyevin fəaliyyəti də istisna deyil. H.Əliyev Azərbaycan xalqının zəngin tarixinin bir hissəsini təşkil edən sovet dövründə dünyaya gəlmiş, boya-başa çatmış, işləmiş, sovet cəmiyyətinin yetişdirdiyi görkəmli siyasi və dövlət xadimi, respublikanın kommunist rəhbəri idi. Xarakterinə görə praqmatik, dərin bilikli, məntiqli, döyüşkən, cəsarətli, inadcıl, prinsipləri uğrunda qətiyyətlə mübarizə aparan, beynəlmiləlçiliyi həyata keçirən partiya rəhbəri olmaqla yanaşı, milli ruhlu, millətsevər bir azərbaycanlı siyasi xadim, tarix yaradan böyük dövlət adamı, milli lider idi.

H.Əliyev hakimiyyətə gəldikddən dərhal sonra xalqının qarşısında duran başlıca problem olan – siyasi rəhbərlik daxilində yekdillik, azərbaycanlılar arasında milli birlik, xalqla hakimiyyət arasında uçurumu aradan qaldırıb vəhdət yaratmaq kimi problemi həll etməyə ciddi səylə girişdi. O, respublikanın rəhbəri seçilən kimi atdığı birinci addımı ilə bu cəhətdən nümunə göstərdi. H.Əliyev nəinki Azərbaycanın keçmiş rəhbərliyini tənqid etmədi, əksinə özündən əvvəl Azərbaycan rəhbəri işləmiş Vəli Axundovun MK-nın birinci katibi olarkən

istifadə etdiyi xidmətlərini özündə saxladı, vəzifə verərək normal iş şəraiti yaradıb özünə qədərki rəhbərlərdən xeyli irəli getdi, özündən sonra gələnlərə isə yaxşı nümunə qoyaraq ibrət verdi. Qeyd etmək lazımdır ki, sovet dövrü tarixində H.Əliyevə qədər keçmiş rəhbərə münasibətdə heç vaxt belə bir hal olmamışdı. Bununla belə, doğrudur, sonrakı illərdə H.Əliyevin keçmiş rəhbərliyi bəzi məsələlərdə, o cümlədən Azərbaycan torpaqlarını Ermənistana güzəştə getmək üstündə tənqid etməsinə rast gəlmək mümkündür.

H.Əliyev hakimiyyətə gəldikdən az sonra respublikanın siyasi rəhbərliyində birliyə çalışaraq buna məharətlə nail oldu. O, hakimiyyət strukturlarına əsasən azərbaycanlıları yerləşdirərək Azərbaycan elitasını birləşdirib respublikanı tərəqqiyə doğru aparmağa başladı. Hər yerdə əsasən azərbaycanlıları vəzifələrə çəkən H.Əliyev yerli xalqın nümayəndələrindən müxtəlif sahələr, xüsusən gələcək dövlət müstəqilliyi üçün lazım olan peşəkar kadrları hazırlamaq istiqamətində səylər edirdi. Bununla bağlı olaraq görkəmli ABŞ tarixçiləri T.Svyatoxovski və B.K.Kollinz yazırlar ki, H.Əliyev Azərbaycan Kommunist Partiyasının rəhbəri seçildikdən sonra respublikadakı iqtisadi tənəzzülün qarşısı alındı, alternativ sənaye sahələri yaradıldı, neft sənayesinə xüsusi diqqət yetirildi. O, respublikanın siyasi elitasını birləşdirdi. Bu elita əsasən azərbaycanlılardan ibarət idi[1]. Həmin tarixçilər H.Əliyevin bu sahədəki fəaliyyətini təhlil edərək daha sonra yazırlar ki, o, daim milli birliyə can atır, Azərbaycan elitasını birləşdirərək azərbaycanlıları yüksək vəzifələrə gətirirdi[2].

H.Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanın partiya-siyasi, qanunverici, icraedici və məhkəmə orqanları arasında, onların öz daxilində yekdillik hökm sürürdü. Bu orqanlar artıq kollektiv deyil, komanda olaraq işləyirdilər. Tələbkar olduğundan H.Əliyevlə işləmək çətin, ədalətli olduğundan, maraqlı ideyanı dərhal qəbul edib həyata keçirmək üçün göstəriş verdiyindən asan idi.

T.Svyatoxovski başqa bir əsərində yazır: «Əliyev nailiyyətinin ən aşkar mənbəyi onun neft siyasətində idi. Lakin həmin siyasət həm də yerliçiliyi həyata keçirirdi. Bu da yerli nomenklaturanın möhkəmləndirilməsi ilə nəticələndi. Əliyevin otuz beş nəfər əsas əməkdaş və tərəfdarlarının demək olar ki, hamısı azərbaycanlı idi. Əliyev mühüm əhəmiyyətli boş vəzifə yerlərini doldurmaq üçün slavyan mənşəli namizədlərdən istifadə edilməsinə heç bir meyl göstərmirdi və bir qayda olaraq, rus millətindən olan ikinci katib Moskva tərəfindən təyin edilirdi»[3].

H.Əliyev Azərbaycan neftinin mərkəzə daşınmasında maraqlı olmadığından qeyri-neft sahələrinə başlıca diqqət yetirir, maliyyə vəsaiti ayırır, bununla da respublikanın regionlarının inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, azərbaycanlıların həyat şəraitinin yaxşılaşdırılmasına, əhalinin demoqrafik inkişafına, rayonların və kəndlərin mədəni simasının dəyişdirilməsinə dair strateji niyyətlərini həyata keçirirdi. 70-ci illərdə Azərbaycanda pambıqçılığın və üzümçülüyün üstün inkişafının səbəblərindən biri də məhz bu amillərlə bağlı idi. ABŞ tədqiqatçısı Bernard A.Kukun redaktorluğu altında nəşr edilmiş ensiklopediyada göstərilir ki, Heydər Əliyev hakimiyyətə gələn kimi qeyri-neft sahələrinin inkişafına xüsusi diqqət yetirdi, iqtisadi idarəçilikdə azərbaycanlıların mövqelərini möhkəmləndirdi, iqtisadiyyata rəhbərliyi onların nəzarətinə keçirdi[4]. Bütün sovet dövründə azərbaycanlılar ilk dəfə olaraq Azərbaycanda məhz H.Əliyevin hakimiyyəti illərində iqtisadi həyatda hökmran mövqe tutdular, onların özünə inamı gücləndi.

---

[1] Swietochovski T., Collins C. Brian. Historical dictionary of Azerbaijan. Asian \ Oceanian Historical Dictonaries, № 31, Marilend and London, The Scarecrow Press Inc., Lanham, 1999, p. 8.

[2] Yenə orada, s. 15.

[3] Svyatoxovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000, s.248-249.

[4] Europe Since 1945. An Encyclepedia. Volume 1. Bernard A.Cook. Loyola University New Orleans. Editor. New York and London, Garland Publishing Inc., 2001, p.70.

Artıq qeyd edildiyi kimi, müttəfiq respublikalarda Kommunist Partiyası MK-nın ikinci katiblərinin və DTK sədrlərinin ya rus ya da ukrayn olması praktikası qayda halını almışdı. Fransız tarixçisi Nikolas Vert yazır ki, 70-ci illərdə ölkədə DTK şəksiz hökmran idi[5]. Azərbaycanda bu praktikanı cəsarətlə qıran H.Əliyev gəlmələrin hökmranlığına son qoymaq istiqamətində çalışır, DTK orqanlarının şəxsi heyətinin azərbaycanlılaşdırılmasına səy edir, yerli xalqın nümayəndələrini yerləşdirərək yüksək rütbələr verilməsinə nail olurdu. O yaxşı başa düşürdü ki, azərbaycanlı ziyalıların xalqın inkişafına dair söylədikləri fikir və mülahizələr dövlət üçün heç bir qorxu törətməsə də, əslində lazımlı olsa da, ölkədə hakim olan millətin nümayəndələrinin rəhbər vəzifələr tutduğu DTK tərəfindən millətçilik kimi qarşılanır və ona qarşı ən sərt tədbirlər tətbiq edilir. Bütün bunlar milli ruhlu adamların gözünü qorxudur, xalqın mənafeləri naminə düşünməkdən və fəaliyyət göstərməkdən uzaqlaşdırırdı. Ona görə də H.Əliyev bu orqanda işləyən yüksək rütbəli azərbaycanlıların sayının artırılmasına çalışır və buna nail olurdu. Məsələn, Azərbaycan SSR DTK sədri V.S.Krasılnikov başqa işə keçməsi ilə əlaqədar olaraq vəzifəsindən azad edildikdə H.Əliyev onun yerinə 1929-cu ildə anadan olmuş, 1956-cı ildən DTK orqanlarında, 1976-cı ildən isə DTK sədrinin birinci müavini vəzifəsində işləyən general-mayor Ziya Məmmədiyyə oğlu Yusifzadənin namizədliyini tövsiyə edib, onun haqqında Sov. İKP MK-ya 1980-ci il 27 may tarixli 276 s №-li məxfi məktub yazdı. Onun tövsiyəsi və təklifi ilə Z.Yusifzadə Azərbaycan SSR DTK sədri təyin edildi. Bununla da DTK sistemində rəhbərlik yenidən azərbaycanlıların əlinə keçdi[6]. Nəticədə H.Əliyev Azərbaycan DTK-sı üzərində Moskvadan çox özü nəzarət qazanmış oldu. Beləliklə, bundan sonra millətsevər ziyalıların qorunması daha etibarlı oldu, yaradıcılıqları üçün sərbəstlik yarandı.

---

[5] Верт Н. История советского государства. 1900-1991. Пер. с фр. М., 1999, с. 465.

[6] ARSPİHDA, f. 1, siy. 67, iş 178, v. 80-81.



81

2850

31 мая 80г.
Секретно

ЦК КПСС

В связи с рассмотрением вопроса перевода на другую работу представляется характеристика на члена Бюро ЦК КП Азербайджана, председателя Комитета Государственной безопасности Азербайджанской ССР тов.Красильникова В.С.

Приложение: характеристика,- 2 л.

Секретарь ЦК КП Азербайджана [signature]

Г.Алиев

80

2760 27 мая 80

Секретно

ЦК КПСС

В связи с рассмотрением вопроса о переходе тов.Красильникова В.С. на другую работу ЦК КП Азербайджана рекомендует на должность председателя Комитета Государственной безопасности республики тов.Юсиф-заде Зия Мамедья оглы.

З.М.Юсиф-заде, 1929 года рождения, член КПСС с 1955 года, с высшим образованием, в органах государственной безопасности работает с 1956г., с 1976 года занимает должность первого заместителя председателя Комитета Госбезопасности Азербайджанской ССР. Имеет воинское звание генерал-майор.

За период работы в органах Госбезопасности тов.Юсиф-заде приобрел высокие профессиональные качества, проявил себя хорошим организатором и руководителем.

З.М.Юсиф-заде является кандидатом в члены ЦК КП Азербайджана, депутатом Верховного Совета Азербайджанской ССР.

Просим рассмотреть.

Постановление Бюро ЦК от 27.У.1980 года и
Приложение: учетные материалы на 3 листах.

Секретарь ЦК КП Азербайджана Г.Алиев



Qeyd etmək lazımdır ki, Azərbaycan DTK zabit heyətinin tərkibində azərbaycanlıların sayı 1950-ci ildən 1985-ci ilədək artmağa, rusların və ermənilərin sayı isə azalmağa doğru getmişdi[7]. Sonralar H.Əliyev deyirdi ki, kadr yetişdirmək böyük vaxt, böyük zəhmət tələb edir. Mən burada, Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyim zaman da, Azərbaycanın rəhbəri olduğum zaman da çalışmışam ki, milli kadrlar yetişdirək. Bir tək burada deyil, mən bunu hər yerdə edirdim. Məsələn, Kənd Təsərrüfatı Nazirliyində buna böyük ehtiyac yox idi. Amma bura on illərlə, 1920-ci ildən Moskvanın əli altında olduğuna və azərbaycanlılara etimad göstərilmədiyinə görə, - mən bunu, bu tarixi bilirdim, bunlar hamısı gözümün qabağında olan şeylərdir, - milli kadrları yetişdirməyə çalışırdım[8].

H.Əliyev partiya sıralarında azərbaycanlıların xüsusi çəkisinin artırılmasına diqqət yetirir, buna uğurla nail olur, nəticədə isə onları partiya, sovet və təsərrüfat orqanlarında yerləşdirərək idarəçilik təcrübəsi öyrədirdi. O bu addımlarını elə bir zamanda atırdı ki, sovet respublikalarında vəzifələrə əsasən ruslar gətirilir, ölkədə güclü ruslaşdırma siyasəti həyata keçirilirdi. Respublikada azərbaycanlı kommunistlərin sayının çox olması onların məsul vəzifələr tutmasına imkan verirdi. Sovet sistemi şəraitində vəzifə tutaraq xalqa xidmət etməyin başlıca yolu Kommunist Partiiyasına üzv olmaqdan keçirdi. Partiya üzvü olmayanların yüksək vəzifələr tutması mümkün deyildi. Çünki ölkədə nə ikinci bir partiya, nə də başqa bir siyasi təşkilat var idi. Buna görə də H.Əliyev daha çox azərbaycanlının kommunist olmasına çalışırdı. Müqayisə üçün belə bir fakt maraqlıdır ki, əgər 1920-ci ildə Azərbaycan Kommunist Partiyasının sıralarında 4 min nəfər var idisə (bunların heç də hamısı azərbaycanlı deyildi), 1980-ci ildə bu rəqəm 324 minə çatmışdı. Əgər 20-ci illərdə

[7] Azərbaycan DTK zabit heyətinin milli tərkibi (1950-1985-ci illər). – AR MTN muzeyinin materialları.

[8] Yenə orada.

partiyaçıların 4,4%-i orta və ali təhsilli idisə, 1980-ci ildə onların xüsusi çəkisi 75%-ə qalxmışdı. 1921-ci ildə Azərbaycan KP MK-nın sıralarında cəmi 620 nəfər qadın var idisə, 1980-ci ildə partiya üzvü olan qadınların sayı təqribən 79 min nəfərə çatmışdı[9].

Məlumdur ki, SSRİ-də və onun tərkib hissəsi olan Azərbaycanda hakim olan marksizm-leninizm ideologiyası millət və millətçilik məfhumlarını mənəvi ünsürlərə dayandığı üçün rədd edirdi. Hələ K.Marks və F.Engelsə görə kapitalizm sistemi ləğv edildikdən sonra proletariatın hakimiyyəti dövründə millətlər yox olacaqdılar. Kommunist cəmiyyətləri sinifsiz olduğu kimi, millətsiz də olmalı idilər. Əslində kommunizm rus millətçiliyinin dəyişilmiş formasından başqa bir şey olmayıb, ölkənin digər xalqlarını, o cümlədən Azərbaycan xalqını da totalitar sovet millətçiliyinə çevirmək məqsədi güdürdü. Bunu dərindən bilən Heydər Əliyev əvvəlcə Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, sonra isə tam hüquqlu üzv olmasına baxmayaraq, azərbaycanlıları Sovet İttifaqında mövcud olan totalitar millətçilikdən tədricən xilas etdiyindən Azərbaycan coğrafiyasında ən böyük azərbaycansevər və millətsevər idi. Bəhs edilən bu coğrafiya azərbaycanlıların vətəni olan Azərbaycan torpağı idi. Tarixi təcrübə göstərir ki, vətənə bağlanmayan və konkret praktik işlərlə möhkəmləndirilməyən millətsevərlik xəyaldan başqa bir şey olmayıb, boş sözlər kimi havadan asılı qalır. Ümumi tarix, dil, mədəniyyət, xoşbəxtlik və bədbəxtliyi birləşdirən topluluq vətəndə kütlə halından çıxıb millət olur. Deməli, bu baxımdan millət fikrinin təməli də vətənin mövcudluğu ilə bağlıdır. Heç əbəs deyil ki, azərbaycanlıların böyük əksəriyyəti vətən deyəndə SSRİ-ni deyil, Azərbaycanı, paytaxt deyəndə Moskvanı deyil, Bakını, rəhbər deyəndə isə L.İ.Brejnevi deyil, Heydər Əliyevi başa düşürdülər. «Əziz Vətən», «Can Azərbaycan», «azərbaycançılıq» və s. kimi ifadələr sovet dövründə məhz həmin illərdə

[9] Əliyev H. Ə. Sovet Azərbaycanı. Bakı, Azərnəşr, 1981, s. 101.



ictimai şüura daha çox möhkəm daxil olmuşdu. Bu coğrafiyada formalaşan güclü millətsevərlik sonradan Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdə siyasi, dövlət milliyyətçiliyinə çevrildi. Əslində 70-80-ci illərdə millətsevərlik azərbaycançılığa çevrilərək sağlam milliyyətçiliyin, milli birliyin bütün ünsürlərini özündə ehtiva edirdi. Azərbaycan coğrafiyasındakı millətsevərlikdə Azərbaycan ərazisi torpaq, zəmin, İslam dini ruh, azərbaycançılıq isə gövdə rolunu oynayaraq bütün vətəndaşların istək, arzu və düşüncələrini ifadə edirdi. Bunların vəhdəti olmadan xalqın istəklərinə qovuşması xəyal olaraq qalırdı. Azərbaycan filosofu R.Mehdiyev yazır: «Azərbaycançılıq» xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir... «azərbaycançılıq» milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi qanun və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir»[10].

Məhz bütün sovet tarixi ərzində ilk dəfə olaraq H.Əliyevin hakimiyyəti illərində alim, şair və yazıçılar arasında böyük ruh yüksəkliyi hökm sürürdü. Onlar xalqın birliyini, vəhdətini, problemlərini, düşündürən məsələləri çəkinmədən tərənnüm edirdilər. Azərbaycan üzrə görkəmli ABŞ tədqiqatçısı Brenda Şaffer yazır ki, 60-70-ci illərdə yazıçılar və ziyalılar öz əsərləri ilə Azərbaycan mədəniyyətini və milli inkişafını hazırlamağa kömək etdilər. Onların çoxlu əsərlərində, aşıq şerində milli kimlik və vətən anlayışları tərənnüm edilirdi. Rejim isə yalnız dekorasiya idi[11]. Dogrudan da bir çox şair və yazıçılar üçün rejim yalnız zahiri bir görüntü idi. Məsələn, milli ruhlu şerləri ilə seçilən görkəmli şair Bəxtiyar Vahabzadə Azərbay-

[10] Mehdiyev R. XXI əsrdə milli dövlətçilik, s.30.

[11] Shaffer B. Borders and Brethren. Iran and the Challenge of Azerbaijani identity. London, The MIT Press, 2002, p. 15-47.

can yazıçılarının qurultaylarında L.İ.Brejnev başda olmaqla Sov.İKP MK Siyasi bürosunu qurultayın fəxri rəyasət heyətinə seçməyi təklif edir, elə həmin qurultayda da milli ruhlu çıxış edirdi. Bütün bunların hamısına H.Əliyev şərait yaradır, söyləninənlər onun gözlərinin qarşısında baş verirdi. O belə üsullardan istifadə edərək milli ruhlu ziyalıları rejimin fəsadlarından qoruyur, kommunist rəhbər olmasına baxmayaraq, özünün bütün varlığı ilə milli köklərə bağlılığını ortaya qoyurdu.

Heydər Əliyev milliətsevərliyi Azərbaycanı parçalamağa, küskünlüyə, incikliyə yönələn məhdud etnik deyil, respublikanı bütövləşdirmək məqsədi daşıyan siyasi, coğrafiya milliyyətçiliyi mahiyyətini daşıyaraq bu ərazidə yaşayan bütün vətəndaşların soy-kök mənsubiyyətindən asılı olmayaraq birləşərək Azərbaycan naminə çalışmalarına xidmət etmək məqsədi güdürdü. Bu isə Azərbaycanı bir çox xoşagəlməz hadisələrdən, xüsusən etnik ziddiyətlərdən, qarşıdurmadan xilas edirdi.

H.Əliyev hakimiyyətə gələrkən Azərbaycanla əlaqələri olmayan və ya zəif olan xaricdə yaşayan azsaylı azərbaycanlıların inkişafını istəsə və bundan ötrü ciddi addımlar atsa da, mücərrədlikdən qaçaraq, ilk növbədə daha çox gözünün qarşısında olan, rəhbərlik etdiyi böyük çoxluq təşkil edən xalqını praqmatik siyasəti ilə inkişaf etdirir, milli-mənəvi dəyərlərini qoruyaraq zənginləşdirir, qürbətdə yaşayan həmvətənlər üçün cəlbedici edirdi.

Məlumdur ki, müstəqil dövlətçilik şəraitində millətsevərlik, milli problemləri həll etmək nə qədər asandırsa, ağır sovet sistemi şəraitində onları yoluna qoymaq bundan qat-qat ağır idi. Aydındır ki, 1969-1987-ci illərdə Azərbaycanda müstəqil milli dövlət mövcud deyildi, Azərbaycan SSRİ-nin ittifaq respublikalarından biri idi. Çünki milli dövlət başqa bir millət və dövlətin siyasi, hərbi, iqtisadi və hətta mədəni təsiri altında olmayan dövlətdir. «Millət» ərəbcə ifadə olub çoxlu kütlə, əhali deməkdir. «Millət» ifadəsi latınca «nation»



- tayfa, xalq anlamını verir. Milləti meydana gətirən amillər – irq, ərazi, vətən birliyi kimi təbii və ya obyektiv amillərlə yanaşı dil, ədəbiyyat, sənət, tərbiyə, milli tarix və ideal birliyi kimi subyektiv və nəhayət, müstəqil bir dövlət halında təşkilatlanma və ümumi mənfəətlər kimi hüquqi, siyasi və iqtisadi amillərdir. Millət, bu üç qrup amilin nəticəsində meydana gələn qarışıq sosial və hüquqi bir gerçəklikdir. Ancaq millət yalnız irq və ərazi birliyinin, yalnız dil, tarix, ideal birliyinin, eyni zamanda yalnız siyasi, hüquqi və iqtisadi birliyin məhsulu deyil. Millət hər şeydən əvvəl, qan və soy-kök birliyidir. Damarlarında qədim zamanların qaranlıqlarına qərq olmuş atalarının qanı axan və eyni kökdən olan adamlar harada doğulmaları və yaşamalarından, hansı dövlətin vətəndaşları olmalarından asılı olmayaraq bir milləti təşkil edirlər. Millətə belə yanaşma əsasən alman baxışıdır və vaxtilə Almaniyada nasional-sosialistlərin əsaslandığı tezis idi[12]. Bu tezisdə heç şübhəsiz, bir həqiqət anı var. Təbii ki, eyni qan və soy-kök adamları bir yerə toplayan, təbii surətdə bağlayan amildir. Lakin eyni kökdən olan bəzi millətlər heç də bir dövlətdə yaşamırlar və parçalanmış haldadırlar. Məsələn, azərbaycanlılar. Azərbaycan xalqının bir hissəsi Gürcüstanda, Rusiyada, Cənubi Azərbaycanda və başqa ölkələrdə, bir qismi isə Azərbaycan Respublikasında yaşayırdı və yaşayır. Digər tərəfdən, soy birliyini elmi baxımdan sübut etmək xeyli dərəcədə çətin və mürəkkəb bir işdir. Çünki bəşəriyyətin zaman-zaman üzləşdiyi sonsuz hadisələr burulğanında yer üzündə saf qanını qorumuş millət tapmaq mümkün deyil. Məsələn, XIX əsrdə Parisdə diplomatlar hazırlayan Şərq məktəbində deyirdilər ki, hər hansı bir rusun damarını kəssən oradan türk, tatar qanı axar. Deməli, irq və millət heç də eyni deyil. İrq millətə nisbətən daha genişdir. İrqin coğrafiyası daha böyükdür. Millətin coğrafiyası isə məhduddur, müəyyən bir dövlətin sərhədlərinə

[12] Hitler A. Kavğam. Çeviri: M. Selman Uğurlu. İstanbul, 1998, s.350-411. XI bölüm. İrk ve millet.

sığışır. Millət bu geniş topluluq içərisindən çıxaraq müəyyən bir qrupu təşkil edir. İrq bioloji, millət isə tarixi-siyasi məfhumdur. Milləti yaratmaqda qan birliyi əhəmiyyətli bir amildirsə, bu birliyin həqiqətən mövcud olması üçün qənaət və inanc lazımdır. Azərbaycan xalqında 1969-1987-ci illərdə milli inanci, qənaəti gücləndirən və inkişaf etdirən məhz H.Əliyev oldu. O, azərbaycanlıların sovet dövründə itirilmiş özünə inamını bərpa edərək onlarda milli ruh yüksəkliyini və qüvvəsinə arxalanmaq hissini gücləndirdi. Hətta ABŞ tarixçiləri də qeyd edirlər ki, H.Əliyev 70-80-ci illərdə Azərbaycan xalqında nikbinlik və özünə inam yaratdı.

Türkçülüyün əsaslarını yaradan Z.Göyalpa görə «millət nə irqə, nə qövmə, nə coğrafiyaya, nə siyasətə, nə də iradəyə bağlı bir topludur. Millət dil, din, əxlaq və bütün gözəl sənətlər baxımından ortaq olan, yəni eyni tərbiyəni görmüş fərdlərdən ibarət bir zümrədir»[13].

Məlumdur ki, tarixən ortaq dil millətin varlığında mühüm rol oynayıb. İlk baxışda millət eyni dildə danışan insanlardan böyükdür və eyni dildə danışan insanlardan meydana gəlmiş bir qrupdur. Eyni dildə danışan insanların eyni irqdən olduğunu da söyləmək olar. Qeyd etmək lazımdır ki, vaxtilə alman irqçiliyinin əsaslarından biri də məhz bu olmuşdu. Ortaq dilin millətin birliyinin ən güclü əsaslarından biri olduğu şəksizdir. Ancaq soruşulur: millət dili yetişdirir, yoxsa dil milləti? Dil sosial bir reallıq olub daha çox tarixlə bağlıdır. Ona görə dil də millətin yaranması üçün əsas deyil. Məsələn, ingiliscə danışan adamların heç də hamısı ingilis deyil. 70-ci illərdə Azərbaycan dili Azərbaycanda yaşayan insanları birləşdirən başlıca vasitələrdən biri idi.

Milləti var edən ən başlıca amil ortaq vətən və torpaq hissləridir. Ortaq torpaq milləti təşkil edən ən təbii və maddi amildir. Millət ortaq vətən torpağı üzərində doğulub yaşayan insanlardan meydana gəlmiş bir qrupdur. Lakin eyni torpaqlarda yaşayan bütün insanlar bəzən vahid millətdə qaynayıb

[13] Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, 1991, s. 35.



qarışmaya da bilərlər.

Eyni dinə bağlılığın adamların bir-biri ilə birləşməsində böyük rolu olduğu şəksizdir. Böyük səmavi dinlər olan iudaizm, xristianlıq və İslam mahiyyətləri etibarı ilə onlara itaət edənləri bir mərkəzdə birləşdirirlər. Orta əsrlərdən etibarən azərbaycançılığın qorunmasında, Azərbaycan torpaqları üzərində yaşayan aborigen xalq olan azərbaycanlıların varlığının mühafizəsi və inkişafında, Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsində, sonralar isə millətin formalaşmasında, bütövləşməsində İslam dini əsaslı rol oynayıb. Aydındır ki, millətin var olmasında yuxarıda göstərilən obyektiv amillərin mövcudluğu təkbaşına və ayrı-ayrılıqda qətiyyən əsas deyil. Deyildiyi kimi, eyni kökdən olanların heç də hamısı bir millət topluluğu içində yaşamırlar. Bununla belə, eyni din bayrağı altında yan-yana yaşayan adamların da hamısı eyni millət birliyinə də mənsub deyil. Məsələn, Qərb dünyasında yaşayan xalqlar xristian olduqları halda ayrı-ayrı millət topluluqlarına bölünmüş halda yaşayırlar. Yaxın və Orta Şərqin əhalisinin çoxu müsəlman olduğu halda müxtəlif millətlərə ayrılıblar. Deməli, millətin var olmasında yalnız obyektiv təsirlərin mövcudluğu yetərli deyil. Bu məsələdə subyektiv, yəni mənəvi amillər, birlikdə yaşama arzusu və iradəsi ön plana çıxır. Başqa sözlə ifadə edilərsə, millət - birlikdə yaşama arzu və iradəsi ilə birləşmiş insanların qrupudur. Yalnız bu halda insanlar bir millət olurlar. Millət mənəvi və ruhi birlikdir. Millət bir-birini sevən, könül bağlayan insanların yaratdığı şüurlu bir topluluqdur. Məhz H.Əliyevin hakimiyyəti illərində Azərbaycan coğrafiyasında yaşayanların mənəvi birliyinə daha çox nail olundu. Məlumdur ki, mənəvi birliyin doğması üçün əlverişli zəmin lazımdır. Bu zəmin ortaq vətən, dil, soy, din, tarix kimi obyektiv amillərdir. Millətin millət olması üçün subyektiv və obyektiv amillərin bir-biri tamamlaması vacibdir. Bu halda siyasi amilin təsiri də güclü olur. Milləti siyasi qüvvə birləşdirir. 70-80-ci illərdə H.Əliyev və başçılıq etdiyi Azərbaycan

rəhbərliyi bu siyasi qüvvənin nüvəsini təşkil edirdi. Kommunist olmalarına baxmayaraq, onlar millətin problemlərini həll edir, tərəqqiyə yönələn qərarlar qəbul edirdilər. Onlarda milli dövlətçilik baxışları, milli təəssübkeşlik var idi. Lakin millət siyasi qüvvənin əsiri deyil, mayası və maddəsidir. Elə buna görə də hakimiyyəti illərində H.Əliyev gücünü Azərbaycan xalqından alırdı. Məlumdur ki, zülm olan yerdə könül birliyi halında millət yaranmır. Çünki ədalətsiz idarəçilik insanları bir-birindən ayırır, soyuqluq, hətta düşmənçilik yaradır. Ədalətsizcəsinə idarə edilən bir məmləkət orada yaşayan millətin evinə deyil, xalqlar həbsxanasına çevrilir. Fəaliyyətində «Qoy ədalət zəfər çalsın» şüarını əsas götürən H.Əliyevin dönəmində Azərbaycan bu ərazidə yaşayanlar üçün millət evinə çevrilmişdi.

Millət sevgisi və milli duyğu tarixdə ən mühüm hadisələrdən biri olub, millətlərin yaranması ilə eyni vaxtda doğub. Milliyyətçilik fərdi milli qrupa bağlayan və eyni millət tipinə mənsub olma duyğusundan doğan təbii bir hissdir. Buna görə də H.Əliyevin fəaliyyət istiqamətlərindən biri bu təbii hissi şüurlandırmaq və qüvvətləndirmək üzrə milli olan şeyləri sevmək, inkişaf etdirməkdən ibarət idi. Millətsevərlik ən geniş anlamda hər bir şəxsin mənsub olduğu millətə sevgi, məhəbbət və hörmət hissləri ilə bağlılıq duyğusudur. Bu bağlılıq millətin dilinə, dininə, əxlaqına, maddi və mənəvi mədəniyyət dəyərlərinə dərin hörmət bəsləmək, millətin varlığını inkişaf etdirmək, qüdrətini artırmaq, vətəni qorumaq naminə hər cür fədakarlığa hazır olmaq, öz milləti üçün böyük mənfəətlər qazanmağa çalışmaqdır[14]. H.Əliyev həmin iş uğrunda əzmlə, yorulmaq bilmədən çalışan bir rəhbər idi. Onun fəaliyyəti millətə xidmətlə, Azərbaycanın və azərbaycanlıların mənfəəti naminə çalışma ilə səciyyələnirdi.

Məlumdur ki, yeni ictimai münasibətlərin – kapitalizmin yarandığı şəraitdə meydana çıxan millətçiliyin iqtisadi

[14] Краткий словарь иностранных слов. М. , 1950, с. 242.



əsasını istehsal üzərində xüsusi mülkiyyət təşkil edirdi[15]. Milli dövlətlərin yaradılmasında millətçilik müstəsna dərəcədə müsbət rol oynamışdı. Sosializm cəmiyyətində Kommunist Partiyasının və marksist-leninçi ideologiyanın şəriksiz hökmran olduğu bir şəraitdə nəinki millətçilik, hətta millətsevərlik xeyli dərəcədə çətin və ağır nəticələrə gətirə biləcək bir iş idi. Xüsusən rəhbər partiya və sovet orqanlarında açıq-aşkar millətsevərlik, xalqda milli duyğuları gücləndirmək yolverilməz sayılırdı. Bu istiqamətdə ən xırda təzahürün qarşısı mərkəz tərəfindən dərhal və amansızlıqla alınırdı. Sovet sistemi şəraitində və kommunist ideologiyasına görə millətçilik milli məsələdə burjua ideologiyası, siyasəti və psixologiyası kimi qiymətləndirilirdi. Bütün bunları yaxşı başa düşən H.Əliyev kommunist ideologiyasının hökmran olduğu şəraitdə millətsevərlik baxışlarını, milli duyğuları gücləndirməyi şüarlarla deyil, xeyli ehtiyatla, diqqətlə, praktik işlərlə həyata keçirirdi.

Məlumdur ki, milliyyətçilik doktrina-ideoloji və sosioloji milliyyətçiliyə bölünür. Doktrina-ideoloji milliyyətçilik irq, mədəniyyət, din, coğrafiya və totalitar milliyyətçiliyinə ayrılır.

Aydındır ki, sosioloji baxımdan milliyyətçilik və millətsevərlik bütün insan topluluqlarında vardır. Sosioloqlar sübut ediblər ki, millətlərin yaşaya bilməsi, inkişafı üçün ən vacib və güclü təsir fərdlərin mənsub olduqları millətə bağlılığı və sədaqətidir. Millətin millət kimi yaşamasını saxlayan, digər millətlər içərisində əriyib yox olmasına əngəl olan başlıca duyğu milli hisslərdir. Milli hisslər millətin mövcud olması uğrunda mübarizənin bir təzahürüdür. H.Əliyev kommunist rəhbər olaraq bir tərəfdən, yüksək kürsülərdən sovet xalqlarının birliyindən, vahid sovet xalqından danışır, işdə isə Azərbaycan xalqının milli hisslərinin yaşaması və inkişaf etməsi üçün əzmlə çalışırdı. Məlumdur ki, millətlərin var olmaq əzmi və iradəsi «milli şüur», «millət duyğusu» və ya

[15] Краткий политический словарь. М. , 1983, с. 211.

«millətçilik» adlarını alır. Məhz H.Əliyevin sayəsində bu hiss və duyğular Azərbaycan xalqı, xüsusən ziyalıları arasında nəinki hökmran olmuş, hətta partiya və sovet aparatında tədricən möhkəmlənməyə başlamışdı. Bununla belə, o, aşırı millətçiliyin əleyhinə idi.

Qeyd etmək lazımdır ki, XX əsrdə müxtəlif ölkələrdə müəyyən qruplar «milli qüvvələr», «millətçilər» adına iddia edirdilər. Məsələn, Almaniyada Bavariya pivəxanalarında ölkənin problemlərini öz əqidə yoldaşları ilə qızğınlıqla müzakirə edən A.Hitler özünü və mənsub olduğu siyasi təşkilatı «yeganə milli qüvvə», hakimiyyətdə oturub mövcud şəraitdə, praqmatik olaraq millətin problemlərini həll etməyə çalışanları isə «xəyanətkar», «satqın», «alman xalqının mənafelərini müdafiə etməyən» adlandırırdı. Cəlbedici sosial demoqoqluq və millətçilik şüarları ilə seçicilərin səsini alaraq hakimiyyətə gələn nasional-sosialistlər bir müddət sonra ikinci dünya müharibəsini törətməklə alman xalqına olmazın müsibətlər gətirdilər. Məhz Hitlerin və rəhbərlik etdiyi siyasi təşkilatın avantüraları ucbatından müharibənin yekununda məğlub edilmiş ölkə bölüşdürüldü, əhalinin sayı azaldı, xalq bədbəxtliklərə düçar oldu. Bundan fərqli olaraq millətçilik şüarlarını qabartmadan Qərbi Almaniyada hakimiyyətə gələn K.Adenauer isə Hitlerin siyasətinin ağır nəticələrini praqmatik fəaliyyəti ilə aradan qaldırmağa başladı. Eyni sözləri Fransa müqavimət hərəkatının rəhbəri, ikinci dünya müharibəsi dövründə, 1944-cü ildə Bakıdan keçərək Moskvaya səfər etmiş, sonralar Beşinci respublikanın prezidenti işləmiş Şarl de Qoll və başqa görkəmli şəxsiyyətlərin fəaliyyəti haqqında da söyləmək olar. Bir sıra digər siyasi və dövlət xadimləri millətçi şüarları söyləmədən xalqının problemlərini həll etməyə çalışırdılar.

Belə nümunələri Şərqin timsalında da göstərmək olar. Osmanlı dövlətində birinci dünya müharibəsi illərində gənc türklərin irq millətçiliyinə, turançılığa, pantürkizmə əsaslanan siyasət yeritməsi bu ölkənin coğrafi-siyasi sərhədlərindən kənarda yaşayan türklərin və müsəlmanların oyanışında mühüm rol oynasa da, bəzi müxaliflər tərəfindən Osmanlının çöküşünün səbəblərindən biri, «xəyali turançılıq» kimi dəyərləndirilirdi. Ümumiyyətlə, irq millətçiliyi mürəkkəb və qorxulu olub onu irəli sürənlərin düşmənlərinin sayını artırır, hətta vahid bir ölkəni parçalanmaq təhlükəsi ilə üz-üzə qoyur.

Avropada baş verənlərə bənzər misalları Azərbaycan təcrübəsində də göstərmək olar. Sovet dövründə çayxanalarda milli problemlərdən xəlvəti olaraq danışanlar özlərini əsl «milli qüvvə», hakimiyyətdə oturaraq millətin problemlərini tarixi şəraitə uyğun olaraq min bir çətinliklə həll edən kommunistləri isə bəzən «Moskvaya satılanlar», «xəyanətkarlar» adlandırırdılar. Amma soruşulur: çayxanalarda, məhdud dairənin nümayəndələrinin iştirak etdiyi məclislərdə əyləşərək millətin heç bir probleminin həllinə kömək göstərməyən bu söhbətləri etmək asan idi, yoxsa ağır sovet sistemi şəraitində Moskva ilə birtəhər dil taparaq birgə iş şəraitində çox incə üsullarla millətin problemlərini həll etmək? Əlbəttə, cavab aydındır. 70-80-ci illərdə bir qrup adamın çayxanalarda və bəzi ictimai yerlərdə ümummilli məsələlərdən danışması dövlət hakimiyyət orqanları üçün elə bir ciddi təhlükə törətmirdi. Çünki belə söhbətlərin millətə təsir imkanı məhdud, səmərəsi isə az idi. Bununla belə, həmin söhbətlər əhəmiyyətsiz də deyildi. Heç şübhəsiz, həmin illərdə millətin problemləri rəsmi strukturlar tərəfindən kabinetlərdə həll edilirdi. Belə şəraitdə respublikada hakimiyyətdə oturanların aşkar millətçiliyi Moskva üçün daha təhlükəli olduğundan bağışlanmaz idi. Həmin şəxslər nəinki qazandaqları hər şeyi, həmçinin perspektivi itirmək təhlükəsi ilə üzləşərdilər.

Qeyd etmək lazımdır ki, ölkədə DTK hakim olduğundan hər bir hadisə ilə bağlı ictimai rəy ciddi şəkildə öyrənilirdi. Məsələn, hətta Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevin SSRİ-nin yaradılmasının 50 illiyi ilə bağlı etdiyi məruzəsi haqqında ictimai rəy barədə DTK sədri Y.Andropov 1973-cü il 10 yanvar tarixli 56-A №-li məxfi məktubunda MK-ya

məlumat vermişdi[16]. Belə şəraitdə H.Əliyev Azərbaycanda güclənən millətsevərlik hallarından Moskvanın xəbər tutmamasına çalışır, problemi özü sakitcə yoluna qoyurdu. Məsələn, 1976-cı il may ayının 1-də Bakıda keçirilən nümayiş zamanı Azərbaycanın üçrəngli, ay-ulduzlu bayrağını qaldıran antisovet təşkilat «Milliyyət»in üzvü olan şəxslər həbs olunsalar da, tərbiyələndirici söhbətdən sonra azad edildilər. Qeyd etmək lazımdır ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin yekun aktını 1975-ci il avqustun 1-də sovet rəhbəri imzaladıqdan sonra hakimiyyət ölkədə yadfikirliliyin, dissidentlərin yaranmasında, yaransa da, onun geniş yayılmasında, informasiyanın dağıdılmasında maraqlı deyildi. Belə təzahürlər çox vaxt ört-basdır edilir, həmin şəxslərlə söhbətlər aparılır və tərbiyələndirilirdilər.

70-80-ci illərdə Azərbaycan rəhbərliyi, MK-da ideologiya sahəsinə başçılıq edənlər, DTK-nın azərbaycanlı rəhbərliyi respublikada rast gəlinən millətçilik meyllərini, antisovet təzahürləri Moskvanın ağır təzyiqlərinə baxmayaraq, mərkəzdən gizlətməyə çalışır və həmin şəxsləri ələ vermirdilər. Nəticədə Azərbaycanın adı antisovet təzahürlərə həsr olunmuş sənədlərə, arayışlara düşmürdü. Məsələn, SSRİ DTK sədri V.Çebrikovun adından 1987-ci il 26 fevral tarixdə Sov.İKP MK-ya yazılan 346-E №-li tam məxfi «DTK orqanlarının 1986-cı ildə anonim antisovet materialların müəlliflərini axtarması işinin nəticələri haqqında» məruzəsində deyilirdi ki, göstərilən ildə ölkə ərazisində 1519 müəllif tərəfindən 11480 anonim material hazırlanıb və yayılıb[17]. Onun 9520-si vərəqə, 1960-ı məktub olub, divarlara 879 bədxah yazılar yazılıb. 1985-ci illə müqayisədə belə yazılar və materiallar 143, yayılan vərəqələr isə 2683 nüsxə artmışdı.

Məruzədən aydın olur ki, antisovet materialların ən geniş yayıldığı yer Qazaxıstan idi. Bu da əsasən Qazaxıstan KP MK plenumunda D.Kunayevin vəzifəsindən azad edilib yerinə

[16] РГАНИ, ф.89, оп.65, д.11, л.1-2.
[17] РГАНИ, ф.89, оп.51, д.10, л.1-2.



ОСОБАЯ ПАПКА
Совершенно секретно

РАССЕКРЕЧЕНО

ЦК КПСС
0569

КОМИТЕТ
ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ СССР

26.02.87 № 346-Е

Москва

КОПИЯ

Об итогах работы органов КГБ
по розыску авторов антисоветских
анонимных материалов в 1986 году

В 1986 году на территории страны 1519 авторами было изготовлено и распространено 11480 анонимных материалов (9520 листовок и 1960 писем) антисоветского и политически вредного содержания, а также учинено 879 враждебных надписей.

По сравнению с 1985 годом число составителей такого рода материалов и учинителей надписей возросло на 143, а количество распространенных ими листовок и сделанных надписей увеличилось на 2683 экземпляра.

Некоторый рост анонимных проявлений вызван распространением на территории Казахской ССР материалов, отражающих недовольство решением Пленума ЦК Компартии Казахстана по организационному вопросу (с 17 по 31 декабря 1986 года отмечено 128 случаев распространения 780 листовок, 3 писем и учинения 76 надписей националистической, антирусской направленности).

Наибольшее количество анонимных проявлений зафиксировано на территории Украины, Казахстана, Латвии, Белоруссии, в городах Москве и Ленинграде.

В результате принятых мер в 1986 году установлено 1237 авторов антисоветских анонимных "материалов", в том числе 86 допустивших высказывания террористического характера в отношении руководителей КПСС и Советского государства и 96 – угрозы физической расправы над представителями местного партийного, советского актива и должностными лицами.

3МАР87 00164

2556

2. 102

Из общего количества разысканных авторов 26,6 процента составляют студенты и учащиеся школ и профтехучилищ, 19,4 процента - рабочие, 19,3 процента - служащие, 15,3 процента - пенсионеры, 2,6 процента - колхозники и 16,8 процента - лица без определенных занятий, а также отбывающие наказание в исправительно-трудовых учреждениях.

В числе разысканных 88 членов и кандидатов в члены КПСС и 195 комсомольцев.

Причинами изготовления и распространения установленными авторами антисоветских и клеветнических материалов являются: враждебные убеждения - 10, националистические настроения - 27, влияние идеологической диверсии противника и политическая незрелость - 390, хулиганские побуждения и корыстные цели - 212, неправомерные действия в отношении них должностных лиц на местах и личные обиды - 35, психические заболевания - 206 человек. Причины изготовления анонимных материалов остальными 357 авторами в настоящее время выясняются.

В отношении разысканных лиц приняты меры профилактического, воспитательного характера. Наиболее злостные анонимы привлечены к административной, а отдельные - к уголовной ответственности. 206 анонимов, оказавшихся психически больными, определены через органы здравоохранения на лечение.

Комитет госбезопасности продолжает работу, направленную на повышение результативности в розыске авторов и распространителей антисоветских и клеветнических материалов.

Сообщается в порядке информации.

Зг Председатель Комитета Чебриков В.Чебриков

2556

0569



Kolbinin təyin edilməsi ilə əlaqələndirilirdi. Belə bir fakt cəlbedicidir ki, 1986-cı il dekabr ayının 17-dən 31-dək 780 vərəqin, 3 məktubun və 76 antirus istiqamətli yazıların yayılması üçün 128 hadisə qeydə alınmışdı. Anonim təzahürlərin ən çox yayıldığı ərazi Ukrayna, Qazaxıstan, Latviya, Belorusiya, Moskva və Leninqrad şəhərləri idi. Həyata keçirilən tədbirlər nəticəsində anonim antisovet materialların müəllifi olan 1237 nəfər, o cümlədən dövlət və partiya xadimlərinə qarşı terrorçuluğa səsləyən 28 nəfər, yerli rəhbər işçiləri fiziki cəzalandırmaqla hədələyən 96 nəfər müəyyənləşdirilmişdi. Axtarılan müəlliflərin 26,6 faizi tələbələr, məktəb və peşə texniki məktəblərin şagirdləri, 19,4 faizi fəhlə, 19,3 faizi qulluqçu, 15,3 faizi pensiyaçı, 2,6 faizi kolxozçu, 16,8 faizi konkret işi olmayanlar və əvvəllər həbsdə olanlar idi. Axtarılanların 88 nəfəri Sov.İKP üzvü və üzvlüyünə namizəd, 195-i komsomolçu idi. Antisovet materialların hazırlanmasına əsasən aşağıdakı amillər təsir etmişdi: 10-u düşmənçilik mövqeyi, 27-si millətçilik əhval-ruhiyyəsi, 390-ı rəqibə ideoloji təxribatla təsir etmək və siyasi səriştəsizlik, 212-si xuliqanlıq və şəxsi mənafelər, 35-i yerli vəzifəli şəxslərin qeyri-qanuni hərəkətləri, 206-sı psixi xəstəliklə bağlı idi. Digər 357 müəllifin anonim materialları hazırlanmasının motivləri aydın deyildi. Üzə çıxarılan şəxslərə profilaktik və tərbiyəvi xarakterli tədbirlər tətbiq olunmuşdu[18].

Qeyd etmək lazımdır ki, Azərbaycanda millətçilik təzahürləri genişlənsə də, arayışda əksini tapmamışdı. Belə şəraitdə hakimiyyətdə oturaraq millətin problemlərini Moskvanı qıcıqlandırmadan ustalıqla həll etmək böyük məharət tələb edirdi.

---

[18] Yenə orada.

* * *

Beləliklə, H.Əliyev hakimiyyətə gələrkən Azərbaycan cəmiyyətinin başlıca problemlərindən biri xalqla hakimiyyət arasında uçurumun mövcudluğu, siyasi hakimiyyət daxilində yekdilliyin olmaması idi. Hakimiyyətdə müxtəlif yüksək vəzifələr tutan şəxslər arasında hökm sürən intriqalar nəticəsində iş yerimirdi, milləti düşündürən başlıca problemlər həll edilmirdi, nəticədə ziyalılar hakimiyyətlə əməkdaşlıqdan uzaq qaçırdılar. Yaranmış vəziyyət xalqın bir sıra köklü məsələlərinin həllinə nəinki mane olur, hətta onu daha da dərinləşdirir, xalq və rəhbərlik haqqında Moskvada mənfi fikrin formalaşmasına təsir edirdi.

H.Əliyev hakimiyyətə gəldikdən sonra bu problemin həllinə qətiyyətlə girişdi. O özünün gərgin fəaliyyəti ilə azərbaycanlılar arasında milli birliyə, siyasi hakimiyyət daxilində yekdilliyə, xalqla hakimiyyət arasında uçurumun aradan qaldırılmasına uğurla nail oldu. Azərbaycanlıları yüksək dövlət, partiya və təsərrüfat strukturlarında vəzifələrə gətirmək üçün onların Kommunist Partiyası sıralarına daha çox daxil olmasına çalışırdı. H.Əliyev xüsusi xidmət orqanlarına azərbaycanlı kadrları yerləşdirməklə, onlara rütbələr verdirməklə, siyasi hakimiyyəti möhkəmləndirməklə, azərbaycanlı qadınları müxtəlif vəzifələrdə irəli çəkməklə bu məqsədlərinə uğurla çatır, milli ruhu qaldırır, Azərbaycan ərazisində yaşayan bütün vətəndaşları vahid amal ətrafında birləşdirir, sovet hakimiyyətinin əvvəlki illərində azərbaycanlıların qırılmış inamını bərpa edərək onların vətənpərvərlik və ana torpaq sevgisini gücləndirirdi. Onun hakimiyyəti illərində azərbaycanlıların böyük əksəriyyəti vətən deyərkən Azərbaycanı, paytaxt deyərkən Bakını, rəhbər deyərkən Heydər Əliyevi nəzərdə tuturdu.

H.Əliyevin ən böyük tarixi xidmətlərindən biri Azərbaycan xalqının birliyinə, siyasi hakimiyyət daxilində yekdilliyə, hakimiyyətlə xalq arasında vəhdətə nail olması idi. Məlumdur ki, 1920-ci ilin aprelində Azərbaycan bir



dövlət və xalq kimi bolşevik Rusiyası tərəfindən işğal olunduqdan sonra yeridilən sovet siyasəti onu xalqdan kütləyə, manqurta çevirməyə çalışır, bəzən buna nail də olurdu. Lakin bütün təzyiqlərə baxmayaraq, azərbaycanlılar SSRİ dağılanda bütöv bir xalq, millət olaraq imperiyadan ayrıldılar. H.Əliyev xalqa münasibətdə yaxın, isti, xeyirxah, məmurlara, məsul partiya və sovet işçilərinə münasibətdə isə qayğıkeş olmaqla bərabər mürəkkəb, sərt, soyuq və tələbkar idi. Bu isə digər sahələrdə onun millət naminə çalışmalarında uğur qazanmasına kömək edirdi. Bütün əvvəlki rəhbərlərin bacarmadığı işin öhdəsindən məharətlə gələn H.Əliyev Azərbaycan xalqını sıx birləşdirən qeyri-adi istedadlı siyasi, dövlət və partiya xadimi idi. Əslində xalqı birləşdirməklə o, azərbaycanlılar içərisində kommunist rəhbərdən daha çox milli lider olaraq qəbul edilirdi.

# III FƏSİL

## MİLLİ KADRLARIN HAZIRLANMASI

### III. 1. Azərbaycan təhsilinin inkişafı

Məlumdur ki, məktəb və maarif tarix boyu hər bir xalqın tərəqqisində müstəsna rol oynayıb. Xalqa rəhbərlik edənlər, dövlət xadimləri, elm, mədəniyyət və incəsənət adamları və b. məktəb partaları arxasından çıxıblar. Xalqı irəli aparan, onun inkişafının istiqamətlərini müəyyənləşdirən şəxsiyyətlər də məhz məktəb təhsili görüblər. Güclü məktəbi olan xalqın ticarəti, sənəti, mədəniyyəti, dövləti və mənəviyyatı da qüdrətli olur. Azərbaycanın görkəmli yazıçısı və diplomatı Y.V.Çəmənzəminli vaxtilə yazırdı ki, hər bir məmləkətə təzə qüvvə verən, onun qabağa getməsinə səbəb olan məktəbdir. Hansı məmləkətin məktəbi nizami olsa və sayca artıq olsa o biri məmləkətə qalib gələr - istər davada, istər ticarətdə, istər sənətdə. Məktəbsiz millət rişəsiz ağac kimidir; diriliyi üçün lazım olan qüvvəsi olmayıb, quruyub candan düşər. Məktəb təzə fikirli adamlar yetirir. Bunlar da camaatın məişətini dəyişməyə çalışırlar. Belə olduqda Azərbaycanda məktəb və maarif işinə artıqlığınca çalışmalıyıq. Maarif işinə dövlətimiz pul buraxdıqda hamının ehtiyacını nəzərdə tutar[1].

Tarixi təcrübə sübut edir ki, savadlı və dərin elmli xalqların qurduğu dövlət uzunömürlü, ədalətli və cəlbedici olur. Bu həqiqəti dərindən başa düşən H.Əliyev Azərbaycan xalqının maariflənməsinə, savadlanmasına xüsusi diqqət yetirirdi. Əlbəttə, H.Əliyevin təhsil sahəsindəki fəaliyyəti ölkədə yeridilən

[1] Çəmənzəminli Y.V. Xarici siyasətimiz. Bakı, Azərnəşr, 1993, s. 19.



siyasətin tərkib hissəsi idi. Ölkədə təhsilə dair çoxsaylı qərarlar qəbul edilirdi. Bununla belə, Azərbaycan rəhbərinin fəaliyyətinin bir sıra özünəməxsus cəhətləri də var idi. Təhsil sahəsində həyata keçirdiyi tədbirlər onun böyük maarifçi və milli kadrların hazırlanması sahəsində strateq olduğunu göstərir.

H.Əliyevin təhsil sahəsində fəaliyyəti əsasən aşağıdakı istiqamətləri əhatə edirdi: Azərbaycan maarif sisteminin ştat heyətini yerli kadrlar hesabına milliləşdirir, respublikanın hər yerində, xüsusən kənd yerlərində məktəblər tikdirir, müəllimlərə qayğı göstərir, təyinat sistemini genişləndirir, təyinatla kənd yerində işləyən müəllimlərə mənzil kirayə haqqı verilir və digər güzəştlər edilir, gənclərin ali təhsil almalarına şərait yaradılır, kənd yerlərini mütəxəssislərlə təmin etmək məqsədilə gənclər ali məktəblərə müsabiqədənkənar qəbul etdirilir, ali məktəblərin sayını artırır, onların maddi-texniki bazasını gücləndirir, Azərbaycan təhsilinin qabaqcıl dünya ölkələrinin təhsil sistemi ilə əlaqəsini qurmaq üçün səylər göstərirdi.

H.Əliyev ilk növbədə Azərbaycan Maarif Nazirliyinin tərkibini milliləşdirməyə başlayaraq ona uğurla nail oldu. Kadrlara tələbat artırıldı. Azərbaycanlı təhsil işçilərinin nazirlik sistemində işə qəbulu gücləndirildi. İşdə nöqsanlara yol verənlər, o cümlədən qeyri azərbaycanlılar tutduqları vəzifədən azad edilirdilər. Məsələn, Azərbaycan KP MK-nın 1970-ci il 13 mart tarixli büro iclasında maarif nazirinin müavini R.A.Balayanın düzgün olmayan hərəkətləri müzakirə olundu və o, işdən azad edildi[2].

H.Əliyev hakimiyyətə gələrkən xalq maarifi müəssisələrinin saxlanılmasına çəkilən xərclər xeyli az olduğundan onun artırılmasına böyük səylə çalışır və buna nail olurdu. Xalq maarifi müəssisələrinin saxlanılmasına ayrılan xərclər 1969-cu ildən başlayaraq hər il daim artırılırdı. Məsələn, Azərbaycanın 1977-ci il Dövlət büdcəsində xalq maarifinin saxlanılmasına 377,1 mln. manat ayrıldı ki, bu da 1976-cı illə müqayisədə

[2] ARSPİHDA, f.1, siy.57, iş 27(28), pr. №122, § 29.

19,3 mln. manat çox idi[3]. 1978-ci ildə isə xalq maarifi müəssisələrinin saxlanılmasına Dövlət büdcəsindən 384,3 mln. manat ayrıldı. Bu da 1976-cı illə müqayisədə 8,9% çox idi[4]. Sonrakı illərdə də xalq maarifinin saxlanılması və inkişafına ayrılan xərclər artırıldı. Məsələn, 1981-ci ildə xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə əvvəlki illə müqayisədə 4,7% çox olmaqla 723,5 mln. manat ayrıldı. Sosial-mədəni xərclər bütün büdcənin 57,2%-ni və ya 1 mlrd. 235 mln. 200 manat təşkil edirdi. Bu isə 1980-ci il planından 5%, 1979-cu ildəkindən isə 10,8% çox idi[5]. 1982-ci ildə Azərbaycanda xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə 1980-ci illə müqayisədə 4% artımla 689,3 mln. manat vəsait ayrıldı. Xalq marifinin saxlanılmasına 46% və ya 1980-ci ilin hesabatına nisbətən 9,9% artımla 372,5 mln. manat yönəldildi[6].

Azərbaycan maarifini inkişaf etdirmək sahəsində fəaliyyətin başlıca istiqamətlərindən biri yeni məktəb binalarının tikintisi, məktəb yaşlı uşaqların təhsilə cəlb edilməsi, təhsilin kütləviləşdirilməsi idi. Nəticədə 1969-cu ildən 1982-ci ilədək olan dövrdə Azərbaycanda yeni məktəb binalarının tikilməsi və uşaqların məktəbə cəlb edilməsi daim yüksələn xətt üzrə getmişdi. Qeyd etmək lazımdır ki, 1920-ci ilin aprelinədək, yəni sovet hakimiyyəti qurulanadək Azərbaycanda cəmi 976 məktəb var idi[7]. Bu isə xeyli az olub xalqın maarifə olan tələbatını heç cür ödəmirdi. Sovet hakimiyyəti illərində başlayan məktəb binaları tikintisi mədəni inqilab illərində genişləndi-

[3] Azərbaycan SSR-in 1977-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1975-ci il Dövlət büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1976, 26 noyabr, №276 (16405).

[4] «Kommunist» qəzeti, 1976, 30 dekabr, №304 (16439).

[5] Azərbaycan SSR-in 1981-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1979-cu il Dövlət büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1980, 13 noyabr, №261 (17579).

[6] Azərbaycan SSR-in 1982-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1980-cu il Dövlət büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1981, 4 dekabr, №280 (17914).

[7] ARSPİHDA, f. 1, siy. 68, iş 400, v. 189.



rilsə də, Azərbaycanın bütün yaşayış məntəqələrini əhatə edə və tələbatı ödəyə bilməmişdi. 60-cı illərin sonunadək hətta bir çox məktəblər ayrı-ayrı vətəndaşların şəxsi evlərində yerləşirdi. Ayrıca məktəb binaları olmayan kəndlər miskin görünürdü. Xalq yeni məktəb binalarının tikintisinə böyük ehtiyac duyurdu. Məktəb tikintisi üçün ayrılan xərclərin artırılması və bu işin həyata keçirilməsi tələb olunurdu. Ona görə də H.Əliyev hakimiyyətə gələn kimi böyük enerji və həvəslə həmin prolemin həllinə girişdi.

1969-cu il sentyabrın 1-də respublikada 120 orta məktəb açıldı. Onların bir qismi yeni tikilmiş, bir qismi isə səkkizillik məktəbdən orta məktəbə çevrilmişdi. Beləliklə, H.Əliyev hakimiyyətə gəldikdən az sonra Azərbaycanda olan orta məktəblərin ümumi sayı 1130-a çatdırıldı. Həmin il sentyabrın 1-də 1 mln. 130 min şagird dərsə başladı. Bu da 1968-ci illə müqayisədə 70 min nəfər çox idi[8]. Başqa bir məlumatda isə göstərilir ki, 1969/70-ci tədris ilində Azərbaycanın gündüz ümumtəhsil məktəblərində 1 mln. 295 min şagird təhsil alırdı[9]. Hər bir şəxsin təhsil alması üçün yeridilən siyasət gücləndirildi. Məktəb yaşına çatmış uşaqların təhsilə cəlb olunması üçün ciddi işlər həyata keçirilirdi. Məktəb şəbəkəsi sürətlə genişləndirilirdi. Nəticədə 1970-ci ildə respublikada 4395 gündüz məktəbi, o cümlədən 1300 orta məktəb var idi. 1969-cu ilin sentyabr ayı ilə müqayisədə 1970-ci ildə 170 yeni orta məktəb açıldı. Bunun da 55-i Dövlət büdcəsi hesabına tikilən məktəb binası idi[10]. Bundan əlavə bir sıra məktəb binaları kolxoz və sovxozların, yerli büdcənin hesabına tikilmişdi. 1970-ci il sentyabrın 1-i üçün Azərbaycanda əhalinin hər üç nəfərindən biri təhsilin bütün növləri üzrə əhatə olunmuşdu[11].

[8] Azərbaycan məktəbi yubiley ilində. Azərbaycan SSR maarif naziri M.M.Mehdizadə ilə müsahibə. - «Kommunist» qəzeti, 1969, 22 avqust, №196 (14192).

[9] РГАНИ, ф.5, оп.61, д.69, л.209.

[10] «Kommunist» qəzeti, 1970, 6 sentyabr, №208 (14509).

[11] «Kommunist» qəzeti, 1970, 3 oktyabr, №231 (14532).

1971-ci ildə Azərbaycanda orta təhsil sahəsində yeni bir irəliləyiş əldə edildi. Təhsilə cəlb edilən uşaqların sayı xeyli artdı. Həmin ildə Azərbaycan məktəblərində 1 mln. 390 min şagird təhsil alırdı. Bu da ötən illə müqayisədə 60 min nəfər çox idi. Təkcə birinci sinfə gedən şagirdlərin sayı 170 min nəfər təşkil edirdi. Respublikada 1905 səkkizillik, 1303 orta və xeyli ibtidai məktəb fəaliyyət göstərirdi[12]. 1972-ci ilin sentyabr ayında isə Azərbaycandakı 4204 ümumtəhsil məktəbindən 1382-si orta (439-u şəhərdə, 943-ü kənddə), 1843-ü səkkizillik (299-u şəhərdə, 1544-ü kənddə), 979-u ibtidai məktəb idi. Güngüz məktəblərində 1 mln. 412 min 500 şagird təhsil alırdı[13]. Bu rəqəmlər əvvəlki illə müqayisədə xalq maarifi sahəsində böyük sıçrayış demək idi. Belə inkişaf respublika rəhbərinin xalq maarifinə bilavasitə qayğısının nəticəsində qazanılmışdı. Şagirdlərin sayının sürətlə artması bir tərəfdən, əhali artımı, demoqrafik inkişafla bağlı idisə, digər tərəfdən, əvvəlki illərdə təhsildən yayınanların, xüsusən qızların məktəbə cəlb edilməsinin nəticəsi idi. Əhali artımına isə başlıca olaraq insanların həyat səviyyəsinin getdikcə yaxşılaşması təsir edirdi.

Azərbaycanlı qızların məktəbə cəlb edilməsi məsələsinə xüsusi diqqət verilməsi nəticəsində təhsilli qadınların xüsusi çəkisi sürətlə artırdı. Azərbaycan qadını respublikanın ictimai-siyasi və təsərrüfat həyatında mühüm rol oynayırdı. Artıq 1978-ci ildə Azərbaycanda 770 min nəfər ali və orta təhsilli qadın var idi[14]. Bu isə qısa müddət ərzində Azərbaycan cəmiyyətində qadının rolunun artırılması sahəsində böyük uğur qazanılmasından xəbər verirdi. Lakin bu sahədə hələ 60-cı illərdən yığılıb qalan bir problem də həllini gözləyirdi. O da məktəbi bitirən gənclərin işsiz qalması idi. Müqayisə üçün belə bir fakt diqqəti çəkir ki, 1968-ci ildə

[12] Mehdizadə M. Mühüm vəzifələr. - «Kommunist» qəzeti, 1971, 31 avqust, №202 (14807).
[13] ARSPİHDA, f. 1, siy. 60, iş 162, v. 26-33.
[14] «Kommunist» qəzeti, 1978, 21 aprel, №94 (16834).



Azərbaycanda 8 illik məktəbi bitirmiş, lakin işə düzəlməmiş 749 nəfər (onların 404-ü şəhərdə, 345-i kənddə) var idi. Bu rəqəm ölkə üzrə 25 min nəfər təşkil edirdi. Azərbaycanda orta məktəbi bitirmiş 4684 nəfər (onların 3938-i şəhərdə 746-sı kənddə idi) işə düzəlmişdi. Bu rəqəm ölkə üzrə 63 min nəfər idi[15]. SSRİ Mərkəzi Statistika İdarəsinin rəisi V.Starovski Sov. İKP MK-ya yazdığı 1969-cu il 24 yanvar tarixli məktubunda müttəfiq respublikalara bu sahədə işi gücləndirməyi təklif edirdi[16]. H.Əliyev hakimiyyətə gələn kimi həmin problemin də həllinə girişdi. Bütün ölkədə olduğu kimi, Azərbaycanda da texniki-peşə təhsili şəbəkəsi genişləndirilməyə başlandı.

Məktəb tikintisinə qayğı göstərən H.Əliyev bu məsələni Azərbaycan KP MK-nın büro iclaslarında hərtərəfli, geniş müzakirə obyektinə çevirir və bununla bağlı qəti qərarlar qəbul edirdi. Onun sədrliyi ilə 1973-cü il avqustun 28-də keçirilən Azərbaycan KP MK bürosunun iclasında respublika ərazisində yeni məktəb binalarının tikintisinə dair qərar qəbul edildi. Bu qərara əsasən 1974-cü ildə 35, 1975-ci ildə 35, 1976-1980-ci illərdə 276 min şagird yeri olan məktəb binası tikilməli idi. Qərarın vaxtında və keyfiyyətlə yerinə yetirilməsini məsul şəxslərdən tələb edən H. Əliyev bu sahədə yol verilən hər hansı nöqsanın qarşısını qətiyyətlə alırdı.

İnternat məktəblərin tikintisinə də diqqət yetirilirdi. MK-nın qəbul etdiyi qərara əsasən dövlət vəsaiti hesabına 1974-cü ildə 2 min, 1975-ci ildə 3 min, 1976-1980-ci illərdə isə 10 min şagird yeri olan internat məktəb binaları tikilməli idi[17]. Bu qərarın icrasına ciddi nəzarət edilirdi. Məktəb tikintisi bütün respublika ərazisində genişləndirilmişdi. İnternat məktəblərə ayrılan diqqət nəticəsində təhsil alan şagirdlər az sonra Azərbaycanı ümumittifaq kimya, fizika, riyaziyyat və b. fənn olimpiadalarında uğurla təmsil etməyə başladılar. Bütün bunlar

[15] РГАНИ, ф.6, оп.61, д.18, л.31,34.
[16] Yenə orada, v.36.
[17] ARSPİHDA, f. 1, siy. 60, iş 57, pr. №73, v, 60.

Azərbaycanın istedadlı uşaqlarının, bütövlükdə xalqın intellektual səviyyəsinin ölkə miqyasında tanıdılmasında əlverişli vasitə idi.

1974-cü ildə respublikanın orta məktəblərini 103 min nəfərədək oğlan və qız bitirdi. Bu da 1973-cü illə müqayisədə 13 min nəfər çox idi. Həmin ildə respublikada fəaliyyət göstərən 1540 orta və 1890 səkkizillik məktəbdə 1 mln. 500 min şagird təhsil alırdı[18].

1974-1975-ci dərs ilində respublikada 147 məktəb binası tikilib istifadəyə verilmişdi[19]. Bu, Azərbaycan maarifi tarixində böyük irəliləyiş idi.

1976-1977-ci tədris ilində Azərbaycanın gündüz məktəblərində 1 mln. 464 min 400 şagird təhsil alırdı. Respublikada 1754 orta, 1743 səkkizillik məktəb fəaliyyət göstərirdi. Gərgin əməyin və ardıcıl işin aparılması nəticəsində qısa müddət ərzində məktəb şəbəkəsinin 75%-i artıq kəndlərdə yerləşmişdi. Azərbaycan kəndində məktəb tikintisi sürətlə aparılırdı[20].

1978-ci il üçün Azərbaycanın Dövlət büdcəsində əsaslı vəsait hesabına 48,7 min, o cümlədən 29,5 min yerlik orta məktəb binası tikmək nəzərdə tutulmuşdu[21]. Bu iş də uğurla yerinə yetirildi. Nəticədə icbari orta təhsilə keçid illərində Azərbaycanın butun əhalisinin 1 mln. 104 min 200 nəfəri və ya 18,8%-i tam orta təhsilli idi. Belə bir fakt əhəmiyyətlidir ki, 1968-1978-ci illərdə Azərbaycanda orta məktəblərin sayı 77% artmışdı. Ən vacib cəhət ondan ibarət idi ki, kənd məktəblərinin sayı 680-dən 1264-ə çatmışdı[22]. Bütün bunların nəticəsində Azərbaycan kəndinin siması sürətlə dəyişirdi. Elmə

[18] Mehdizadə. M. Xalq maarifinin yeni tərəqqisi uğrunda. - «Kommunist» qəzeti, 1974, 1 sentyabr, № 205 (15725).

[19] Daha çox məktəb tikək. - «Kommunist» qəzeti, 1975, 8 iyul, №157 (15983).

[20] «Kommunist» qəzeti, 1976, 31 avqust, №202 (16331).

[21] «Kommunist» qəzeti, 1977, 30 dekabr, №304 (16739).

[22] «Kommunist» qəzeti, 1978, 20 may, №118 (16858).



və təhsilə olan maraq artırdı. Məktəblər kənddə mədəniyyət mərkəzləri kimi formalaşırdı. 1979-cu il Dövlət planında nəzərdə tutulmuş 44,8 min yerlik ümumtəhsil məktəbi tikib istifadəyə vermək vəzifəsi uğurla həyata keçirildi[23].

Ümumiyyətlə, H.Əliyevin hakimiyyəti illərində Azərbaycan başdan-başa savadlılar diyarına çevrildi. Artıq 1979-cu il siyahıyaalınmasına görə şəhər əhalisinin savadlılığı 100%, kənd əhalisinin savadlılığı isə 99,9% təşkil edirdi. 1980-ci ildə Azərbaycanda fəaliyyət göstərən ümumtəhsil məktəblərində 1 mln. 400 min şagird təhsil alırdı[24]. Bu, Azərbaycanın bütün tarixi ərzində görünməmiş bir uğur idi. Moskva, Leninqrad və ölkənin başqa şəhərlərindəki ali məktəblərə qəbul olunmuş birinci kurs tələbələri ilə 1981-ci il avqustun 29-da keçirilən görüşdəki nitqində H.Əliyev deyirdi ki, indi Azərbaycanda təhsilin müxtəlif növləri uzrə 1 mln. 857 min nəfər əhatə olunub, onlardan 1,5 mln.-dan çoxu orta ümumtəhsil, qalanları isə ali məktəb və texnikumlarda oxuyur[25].

Müəllim hazırlığına, ali təhsilli müəllimlərin sayının artırılmasına və kənd məktəblərinin ixtisaslı müəllim kadrları ilə təmin edilməsinə xüsusi yer verilirdi. Qeyd etmək lazımdır ki, 1969-cu il sentyabrın 1-i üçün Azərbaycanın ibtidai, səkkizillik və orta məktəblərində işləyən 75 min müəllimin yalnız 50%-nin ali təhsili var idi. Azərbaycan rəhbəri bu vəziyyətin dərhal düzəldilməsi istiqamətində qətiyyətli addımlar ataraq təxirəsalınmaz tədbirlər həyata keçirməyə başladı[26]. Azərbay-

[23] 1979-cu ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planı və 1978-ci ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planının yerinə yetirilməsi gedişi haqqında. - «Kommunist» qəzeti, 1978, 16 dekabr, №267 (17027).

[24] «Kommunist» qəzeti, 1977, 13 avqust , №186 (17522).

[25] ARSPİHDA, f. 1, siy. 68, iş 204, v. 14-15.

[26] Azərbaycan məktəbi yubiley ilində. Azərbaycan SSR maarif naziri M.M.Mehdizadə ilə müsahibə. – «Kommunist» qəzeti, 1969, 22 avqust, №196 (14192).

can KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında respublikanın müxtəlif rayonlarından gənclərin ali məktəblərə müsabiqədənkənar qəbulu haqqında qərar çıxarıldı[27]. Sonrakı illərdə də uğurla davam etdirilən bu iş Azərbaycanın kənd yerlərini müxtəlif peşə sahibləri, o cümlədən müəllimlərlə təmin etmək məqsədi güdürdü. Həmin qərar eyni zamanda Azərbaycan kəndində ümumi mədəniyyətin və təhsilin inkişafına yönəlmişdi. Qərarın uğurla yerinə yetirilməsi 70-80-ci illərdə Azərbaycan kəndinin inkişafında müstəsna rol oynadı.

Bununla belə, qeyd etmək lazımdır ki, müsabiqədənkənar qəbul işində nöqsanlara da yol verilirdi. Bəzi rayonlardan ali məktəblərə planda nəzərdə tutulan qədər gənci tövsiyə etmirdilər, qəbula gələn abituriyentlərin hazırlıq səviyyəsi aşağı olurdu və s. H.Əliyev yol verilən mövcud qüsurların tezliklə və qətiyyətlə aradan qaldırılmasını tələb edir, müvafiq tövsiyələrini verirdi. Bununla bağlı olaraq o, 1982-ci ildə etdiyi nitqlərinin birində deyirdi ki, respublikanın 30 rayonuna müsabiqədənkənar 30 yer ayrılsa da, ali məktəblərə cəmi 7 nəfər qəbul edilib[28].

Kənd yerlərindən olan gənclərin Bakıya və digər şəhərlərə pedaqoji təhsil almağa gəlməsi digər bir problemin həllinin zəruriliyini irəli sürürdü. Həmin tələbələrin yaşaması üçün yataqxana şəbəkəsi çatışmırdı. Ev kirayəsi isə baha olduğundan rayonlardan gələnlər üçün çətinliklər yaranırdı. Buna görə də tələbə gənclərin məişət şəraiti probleminin həlli də H.Əliyevi düşündürür və müvafiq qərarlar qəbul etməsinə səbəb olurdu. 1973-cü il avqustun 28-də Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qəbul etdiyi qərara əsasən pedaqoji institutların və məktəblərin nəzdində 1975-ci ildə 4,7, 1976-1980-ci illərdə 50, 6 min kv. m-lik yataqxanalar

[27] ARSPİHDA, f. 1, siy. 56, iş 49 (50), pr. №107, v. 21.
[28] ARSPİHDA, f. 1, siy. 70, iş 203, v. 23-28.



tikilməli idi[29]. Rayonlardan pedaqoji təhsil almağa gələn gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına və kənd rayonlarında maarifin inkişafına xidmət edən bu qərarın icrasına şəxsən H.Əliyev nəzarət edirdi. Bütün bunların nəticəsində pedaqoji yönümlü institut və məktəbələrin tələbə yataqxanalarının tikintisi işi uğurla həyata keçirildi.

H.Əliyev kənd yerlərində işləməyə gedən gənc mütəxəssislərə və əvvəlki illərdən orada çalışan müəllimlərə xüsusi qayğı göstərməklə Azərbaycan maarifinin coğrafiyasını genişləndirir və təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olurdu. Kənd rayonlarında xalq maarifinin səviyyəsini yüksəltməkdən ötrü gənc mütəxəssislər təyinatla yerlərə göndərilirdi. 1969-cu ildə 4 min gənc müəllim təyinatla rayon yerlərinə işləməyə yola salındı[30]. Bu gənclərin bir qismi ikiillik təyinat müddəti başa çatdıqdan sonra işlədikləri yeri tərk etsələr də, bəziləri getdiyi yerdə ailə quraraq yerli camaatla qaynayıb-qarışırdı. Azərbaycan kəndində məktəbin yüksəlişinə və kənd əhalisinin maariflənməsinə yönəlik ümumi siyasətin həyata keçirilməsində həmin şəxslərin rolu heç şübhəsiz, böyük idi. 70-ci illərdə müəllim kənddə ən çox maaş alırdı, hörmətli şəxslərdən sayılırdı.

1971-ci ildə kənd yerlərində ümumtəhsil məktəblərinin, o cümlədən həmin məktəblərin pensiyaya çıxmış müəllimləri, üçillik kənd texniki peşə məktəblərinin ümumtəhsil fənləri üzrə müəllimləri kənd təsərrüfatı vergisindən azad edildilər[31]. Bu addım kənddə məktəb işinin canlanmasına, müəllimin həyat şəraitinin yaxşılaşdırılmasına və nüfuzunun yüksəlməsinə kömək edirdi.

Maarifin inkişafı respublikanın bütün coğrafiyasını uğur-

[29] ARSPİHDA, f.1, siy. 60, iş 57, v.64.
[30] Azərbaycan məktəbi yubiley ilində. Azərbaycan SSR maarif naziri M.M.Mehdizadə ilə müsahibə. - «Kommunist» qəzeti, 1969, 22 avqust, №196 (14192).
[31] «Kommunist» qəzeti, 1971, 3 yanvar, №2 (14607).

la əhatə edirdi. Azərbaycan rayonlarının, hətta ucqar dağ rayonu sayılan Yardımlının müəllim kadrları ilə təmin olunmasına xüsusi diqqət yetirilirdi. Belə bir fakt əhəmiyyətlidir ki, rayona təyinatla 1971-ci ildə 32, 1972-ci ildə 38, 1973-cü ildə 43, 1975-ci ildə 53, 1976-cı ildə 48, 1977-ci ildə 42, 1978-ci ildə 42, 1979-cu ildə 42, 1980-cı ildə 39 nəfər ixtisaslı müəllim göndərilmişdi. Həmin şəxslərin yarıdan çoxu Yardımlıda doğulanlar idi[32]. Göstərilən bu rəqəmlərin ildən-ilə azalmağa doğru getməsi məktəblərin kadrlarla tədricən təmin olunduğunu, müəllimə olan ehtiyacın azaldığını, bütövlükdə, maarifin inkişafını göstərirdi. Qeyd etmək lazımdır ki, 1980-ci ildə rayonda olan 66 məktəbin 17-si ibtidai, 27-si səkkizillik, 22-si orta məktəb idi. Həmin məktəblərdə oxuyan şagirdlərin sayı 10171 nəfərə çatırdı. Onlara dərs verən 848 nəfər müəllimdən 621 nəfərinin ali təhsili var idi[33]. Bütün bunlar Yardımlının tarixində görünməmiş hadisə olub böyük tərəqqini göstərirdi.

Təyinatla kənd yerlərinə göndərilən müəllimlər üçün yaşayış evlərinin tikintisinə və mənzillə təmin olunmalarına başlıca diqqət yetirilirdi. 1973-cü il avqustun 28-də keçirilən Azərbaycan KP MK burosunun iclasında kənd yerlərində ümumtəhsil məktəbləri müəllimləri üçün 1974-cü ildə 2200, 1975-ci ildə 2200, 1976-1980-ci illərdə 10200 kv. m-lik yaşayış evləri tikmək barədə qərar qəbul edildi[34]. Bu işin həyata keçirilməsi nəticəsində bir sıra kəndlərdə məktəb binalarına yaxın yerdə müəllim evləri tikildi.

1974-cü ildə 5800 nəfər gənc müəllim təyinatla rayonlara göndərildi. Onların 4 min nəfərindən çoxu ali təhsilli idi.

[32] Əkbərov F. Yardımlıda maarifin inkişafı. Bakı, Mütərcim, 1999, s.129.

[33] Yenə orada, s.130.

[34] ARSPİHDA, f. 1, siy. 60, iş 57, pr. № 73, v. 60.



Bütövlükdə, bu ildə Azərbaycanda 90 min müəllim işləyirdi[35]. Müəllimlərin təyinatla rayonlara göndərilməsi işi sonrakı illərdə də planlı şəkildə davam etdirildi. Məsələn, təkcə 1980-ci ildə məktəblərə 5500 gənc müəllim təyinatla göndərilmişdi[36].

Maarifə göstərilən qayğının daha bir nümunəsi «Xalq maarifi haqqında» qanun layihəsinin ümumxalq müzakirəsinə verilməsi və qəbul edilməsi oldu[37]. Qanunun qəbulu və həyata keçirilməsi Azərbaycan məktəbinin inkişafında əsaslı rol oynadı.

H.Əliyev ana dilində ibtidai və orta məktəb dərsliklərinin yaradılmasına böyük əhəmiyyət verirdi. 1970-ci ildə bütövlükdə, 86 adda 5 mln. nüsxə orta məktəb dərsliyi nəşr edildi[38]. 1974-cü ildə 5 mln. 600 min tirajla 100 adda dərs kitabı, 7 adda metodik vəsait, 10 adda əyani vəsait nəşr edilib məktəblərə göndərildi[39]. 1976-cı ildə ümumi tirajı 5 mln. 590 min nüsxə olan 93 adda dərslik nəşr edildi[40].

H.Əliyev Azərbaycan müəllimlərinin qurultayında iştirak edir və nitq söyləyirdi. Belə ki, Azərbaycan KP MK bürosunun 1978-ci il 25 mart tarixli iclasında Azərbaycan müəllimlərinin qurultayının çağırılması haqqında qərar qəbul edildi[41]. Büronun 17 may tarixli iclasında isə H.Əliyevin qurultay iştirakçılarına təbrik məktubunun və edəcəyi məruzənin layihəsi bəyənildi[42]. Həmin ilin may ayında keçirilən

[35] Mehdizadə M. Xalq maarifinin yeni tərəqqisi uğrunda. - «Kommunist» qəzeti, 1974, 1 sentyabr, № 205 (15725).

[36] «Kommunist» qəzeti, 1980, 13 avqust, №186 (17522).

[37] «Kommunist» qəzeti, 1974, 29 dekabr, № 304 (15824).

[38] «Kommunist» qəzeti, 1970, 30 avqust, №202 (14503).

[39] Mehdizadə. M. Xalq maarifinin yeni tərəqqisi uğrunda. - «Kommunist» qəzeti, 1974, 1 sentyabr, № 205 (15725).

[40] «Kommunist» qəzeti, 1976, 4 iyul, №155 (16284).

[41] ARSPİHDA, f.1, siy. 65, iş 43 (45) pr. №64, § 8.

[42] ARSPİHDA, f.1, siy. 65, iş 61 (65), pr. №70, § 1, 2.

Azərbaycan müəllimlərinin VI qurultayında iştirak edən H.Əliyev geniş nitq söylədi. Onun nitqində Azərbaycan məktəbinin keçdiyi tarixi inkişaf yolu, mövcud vəziyyəti dərindən təhlil edilir, perspektivləri və təhsil işçilərinin qarşısında duran vəzifələr müəyyənləşdirilirdi[43]. H.Əliyev Azərbaycan xalqının tərəqqisində təhsilin roluna xüsusi əhəmiyyət verdiyini vurğulayırdı.

H.Əliyev Azərbaycan müəlliminə, onun əməyinin qiymətləndirilməsinə diqqət və qayğı göstərirdi. Onun hakimiyyəti illərində müəllim Azərbaycanda ən hörmətli və nüfuzlu şəxslərdən hesab edilirdi. Yüzlərlə fakt H.Əliyevin Azərbaycanın orta məktəb müəllimlərinin fəxri adlar almasında, ölkədə tanıdılmasında müstəsna rol oynadığını sübut edir. Bununla bağlı olaraq o, Sov. İKP MK-ya dəfələrlə məktublar yazır və istəyinə çatmaqdan ötrü inadla təkid edirdi. Məsələn, 1981-ci il aprelin 23-də Z.Şöyübova SSRİ Xalq müəllimi fəxri adı verilməsi barədə MK-ya 233 №-li məxfi məktub yazmış[44] və az sonra bu istəyinə nail olmuşdu. Müəllimlərə fəxri adların verilməsindən ötrü Moskvaya edilən çoxsaylı müraciətlər Azərbaycan rəhbərinin müəllim əməyinin qiymətləndirilməsinə böyük diqqət yetirdiyini göstərirdi.

Müəllimə verilən qiymət Azərbaycanın bütün, hətta ən ucqar rayonlarını da əhatə edirdi. Məsələn, Yardımlı rayonunda Roza Qasımova, Fəzail Əkbərov, Məşi Qüdrətov, Qayda Babayeva, Qulam Qasımov, Gülhüseyn Məmmədov, Zakir İmanov, Müştəba Fəttayev, Mirhəqiqət Həsənov, Almas Rzayev, Heybət Mirzəyev, Əyyar İmanov, Heybət Gülümov, Məmmədhüseyn Lətifov və onlarla başqaları məhz onun sayəsində tanınmış, müxtəlif mükafatlar, fəxri fərmanlar və adlar almışdılar.

H.Əliyev Azərbaycan maarif işçilərinə mükafatları çox vaxt şəxsən özü təqdim edirdi. Belə mərasimlərdən biri 1981-

[43] «Kommunist» qəzeti, 1978, 20 may, №118 (16858).
[44] ARSPİHDA, f. 1, siy. 68, iş 362, v. 77-78.



ci ilin dekabr ayında keçirildi. Mükafatların təqdim olunma mərasimində H.Əliyevin söylədiyi nitq onun Azərbaycan müəlliminə və məktəbinə münasibətinin mahiyyətini tamamilə açır. O deyirdi: «Müəllim sənəti şərəfli və gözəl sənətdir. Qədimdən xalqımızın içərisində ən mötəbər və ləyaqətli adamları «müəllim» deyə çağırmışlar»[45].

H.Əliyev Azərbaycanda çoxillik tarixə malik olan məktəblərin yubileylərini keçirdirdi. Bundan ötrü Azərbaycan KP MK bürosunun müvafiq qərarları qəbul edilirdi. Məsələn, büronun 1982-ci il 12 yanvar və 9 fevral tarixli iclaslarında Şuşa və Şəkidəki orta məktəblərin 150, Lənkərandakı 1 №-li məktəbin 125 illiyinin qeyd olunması haqqında qərar qəbul edildi. Qərara müvafiq olaraq geniş tədbirlər keçirildi və həmin məktəblərin maddi-texniki bazası gücləndirildi[46]. Lakin yaranma tarixi çox olan məktəblərin sayı kifayət qədər olduğundan sonrakı illərdə belə yubileylərin keçirilməsi dayandırıldı.

H.Əliyev Azərbaycan üçün müxtəlif ixtisaslar üzrə ali təhsilli kadrların hazırlanmasından ötrü ayrılan xərcləri daim artırmağa çalışırdı. Müqayisə üçün qeyd etmək lazımdır ki, Birinci Ümumazərbaycan Sovetlər qurultayının materiallarında 1920-ci ilin aprelindən əvvəl Azərbaycanda yalnız 62 nəfər ali təhsilli şəxsin olduğu göstərilir. Bütün bunları yaxşı başa düşən H.Əliyev ali təhsilli mütəxəssis hazırlığına xüsusi diqqət yetirirdi. Məsələn, 1970-1974-cü illərdə kadr hazırlığına ayrılan xərclər 49,4% və ya 37 mln. manat artırıldı[47]. 1975-ci ildə Azərbaycanın xalq təsərrüfatının alacağı 37,2 min nəfər ali və orta ixtisas təhsilli gənc mütəxəssisin hazırlanması üçün 112 mln. manat vəsait ayrıldı[48]. Bu da

[45] «Kommmunist» qəzeti, 1981, 15 dekabr, № 289 (17922).
[46] ARSPİHDA, f. 1, siy. 70, iş 27, pr. № 41, § 12; pr. 43, § 20, 21.
[47] Yenə orada.
[48] 1975-ci ildə Azərbaycan SSR Xalq Təsərrüfatının inkişafına dair Dövlət planı haqqında. - «Kommunist» qəzeti, 1974, 28 dekabr, № 303 (15823).

əvvəlki illə müqayisədə 7,4% və ya 7,8 mln. manat çox idi.

1978-ci ildə ali və orta ixtisas məktəblərini 37262 nəfər bitirdi, ali məktəblərə 20750, orta ixtisas məktəblərinə isə 25805 nəfər qəbul edildi. Bu da 1977-ci ildəkindən 1180 nəfər çox idi[49].

H.Əliyev fəhlə və kəndli övladlarının təhsil almalarına əlverişli şərait yaradır, vəzifəli şəxslərin övladlarını ADU-nun hüquq fakültəsinə müxtəlif üsullarla düzəltmələrinə imkan vermirdi. Nəticədə 1978-ci ildə Azərbaycan ali məktəblərinə qəbul olan gənclər içərisində fəhlə və kəndli uşaqlarının xüsusi çəkisi 67%-dən çox təşkil edirdi. Bu, əvvəlki illə müqayisədə 13% artım demək idi[50]. Qeyd etmək lazımdır ki, tarixən Avropada millətin qanının qoruyucusu kimi adətən kəndlilər, kənd əhalisi qəbul edilirdi. Azərbaycanda müxtəlif sosial təbəqələrdən olan şəxslərin ali təhsil almalarına diqqət verilməsi təhsil, maarif və mədəniyyətin ümumi şəbəkəsini genişləndirir, respublikanın mədəni səviyyəsini yüksəldir, xalqın hakimiyyətə olan inamını artırırdı.

1979-cu ildə ali məktəblərə 21075 nəfər qəbul edildi ki, bu da 1978-ci ildəkindən 319 nəfər çox idi. 1977-ci illə müqayisədə kadr hazırlığına 1979-cu ildə 12, 9% çox və ya 161 mln. manat ayrıldı[51]. Artıq 1979-cu ildə Azərbaycanın 17 ali məktəbində 100 mindən çox tələbə təhsil alırdı[52]. Müqayisə üçün qeyd etmək lazımdır ki, 1969-cu ildə respublikada mövcud olan 13 ali məktəbin yalnız 70 min tələbəsi var idi. 1980-ci ildə Azərbaycan ali məktəblərinə 21325 nəfər, yəni 1979-

[49] «Kommunist» qəzeti, 1977, 30 avqust, №304 (16739).

[50] Yenə orada.

[51] 1979-cu ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planı və 1978-ci ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planının yerinə yetirilməsi gedişi haqqında. - «Kommunist» qəzeti, 1978, 16 dekabr, №267 (17027).

[52] Birinci kurs tələbələrinin respublika partiya və sovet fəalları ilə görüşündə H.Ə.Əliyevin nitqi. - «Kommunist» qəzeti, 1979, 30 avqust, №198 (17237).



cu ildəkindən 250 nəfər çox tələbə qəbul edildi[53]. 1981-ci ildə isə Azərbaycan ali məktəblərində 107 min tələbə təhsil alırdı. Həmin ildə ali məktəblərə 21400 nəfər, texnikumlara isə 87600 nəfər qəbul olunmuşdu[54]. 1982-ci ildə ali məktəblərə 21 450 nəfər qəbul edilmişdi[55]. Onların da 70%-i fəhlə və kəndli uşaqları idi[56].

H.Əliyev Azərbaycanda ali təhsilin inkişafına xüsusi diqqət yetirir, onun şəbəkəsini genişləndirir, tələbələrinin sayını artırır, müəllimlərinə qayğı göstərirdi. Artıq qeyd edildiyi kimi, H.Əliyev hakimiyyətə gələrkən respublikada cəmi 13 ali məktəb fəaliyyət göstərirdi[57]. Lakin o belə hesab edirdi ki, ali məktəblərin sayı Azərbaycan əhalisinin artan tələbatını ödəmir. Ona görə də Azərbaycan rəhbəri ali məktəblərin açılması işinə diqqət yetirirdi. Məhz onun sayəsində 1980-ci ildə ali məktəblərin sayı 17-yə çatdırıldı: Bakıda Rus Dili və Ədəbiyyatı İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvanda və Stepanakertdə institutlar açıldı. 1976-1980-ci illərdə ali məktəblərdə 23 yeni fakültə, 72 yeni kafedra yaradıldı. Artıq 1980-ci ildə respublikada 140-dan çox müxtəlif ixtisas üzrə mütəxəssislər hazırlayan 75 orta ixtisas məktəbi var idi. Əgər əvvəlki illərdə bu sahədə Azərbaycan qonşu respublikalardan geri qalırdısa, H.Əliyevin fəaliyyəti nəticəsində ali və orta ixtisas təhsilli kadrların hazırlanmasının səviyyəsinə və miqyasına görə nəinki onları, hətta Şərq ölkələrini xeyli geridə qoymuşdu. Artıq respublika əhalisinin hər 10 min nəfərindən 172-si tələbə idi. Lakin H.Əliyev bununla kifayətlənməyərək ali məktəblərin açıl-

[53] 1980-ci ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planı və 1979-cu ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planının yerinə yetirilməsi gedişi haqqında. - «Kommunist» qəzeti, 1979, 20 dekabr, №289 (17328).

[54] ARSPİHDA, f. 1, siy. 68, iş 204, v. 16.

[55] ARSPİHDA, f. 1, siy. 70, iş 203, v. 23-28.

[56] H. Ə. Əliyevin tələbə gənclərlə görüşündə nitqi. - «Kommunist» qəzeti, 1969, 29 avqust, №202 (18136).

[57] «Kommunist» qəzeti, 1970, 3 oktyabr, №231 (14532).

ması işini davam etdirirdi. Bilavasitə onun səyləri ilə 1981-ci ildə Azərbaycanda 18-ci ali məktəb olan Texnologiya İnstitutu açıldı[58]. Bu institutun yaradılması respublikada yeni ixtisaslar üzrə mütəxəssislərin hazırlanmasına imkan verirdi.

Ümumiyyətlə, H.Əliyevin hakimiyyəti illərində Azərbaycanda beş yeni ali məktəb açıldı, onların maddi-texniki bazası möhkəmləndirildi, cihazlar, müxtəlif ləvazimatlar alınıb gətirildi, yataqxanalar tikildi. Bütün bunlar Azərbaycanda təhsilin səviyyəsinin yüksəlməsinə kömək edirdi. Beləliklə, Azərbaycan bütün sovet hakimiyyəti illərində ilk dəfə olaraq Cənubi Qafqazda qabaqcıl təhsil mərkəzinə çevrildi.

H.Əliyev ali məktəblər içərisində Azərbaycanın ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetinə xüsusi qayğı göstərirdi. O, tələbələrin tərkibində qızların çox olmasına çalışırdı. Alimlərin sayının artırılmasına diqqət yetirirdi. Qeyd etmək lazımdır ki, 1920-ci ildə Azərbaycan Dövlət Universitetini bitirən 1412 nəfərin yalnız 259 nəfəri azərbaycanlı, o cümlədən 40 nəfəri qadın idi. 1939-1941-ci illərdə Universiteti 479 nəfər bitirmişdi. Universitet alimlərinin sayı da daim artırdı. 1938-1940-cı illərdə Universitetin elmi şurasında 1 doktorluq, 39 namizədlik dissertasiyası, 1941-1945-ci illərdə isə 13 nəfər, o cümlədən 8 nəfər azərbaycanlı doktorluq, 118 nəfər, o cümlədən 68 nəfər azərbaycanlı namizədlik dissertasiyası müdafiə etmişdi. 1945-ci ildən sonra Universiteti bitirənlərin sayı 21 min 928 nəfər olmuşdu. 1946-1969-cu illərdə isə əvvəlki 25 illə müqayisədə 8,3 dəfədən çox ali təhsilli mütəxəssis hazırlanmışdı[59]. Qeyd etmək lazımdır ki, 70-ci illərdə Universitetin tələbələrinin təxminən 75%-ni azərbaycanlı oğlan və qızlar təşkil edirdi.

Ali məktəblərin yubileylərinin keçirilməsi də H.Əliyevin fəaliyyətində başlıca yerlərdən birini tuturdu. O bu baxımdan Azərbaycan elm, təhsil və mədəniyyətinin

[58] ARSPİHDA, f. 1, siy. 68, iş 204, v. 14-15; «Kommunist» qəzeti, 1981, 25 iyul, №173 (17807).

[59] «Kommunist» qəzeti, 1969, 28 avqust, №201 (14197).



inkişafında müstəsna rol oynamış Bakı Dövlət Universitetinə xüsusi diqqət verirdi. Onun fikrincə, Universitetin auditoriyalarında, kafedralarında işləyənlər, dərs verən müəllimlər Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi sahəsində müstəsna rol oynayırdı. H.Əliyev 1969-cu il noyabr ayının 1-də Universitetin 50 illik yubileyi münasibətilə keçirilən təntənəli yığıncaqda ana dilində parlaq nitq söylədi[60]. H.Əliyev deyirdi ki, Azərbaycan Dövlət Universitetinin yaranması qabaqcıl qüvvələrin qələbəsi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elmi xəzinəsini onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunları idi[61]. O bu sözləri ilə Azərbaycan istiqlalına və onun uğrunda mübarizə aparan qüvvələrə, eyni zamanda Xalq Cümhuriyyəti xadimlərinə olan dərin ehtiramını açıq şəkildə bildirirdi. Nəzərdən qaçırmaq olmaz ki, Heydər Əliyev bu fikirlərini Universiteti yaratmış Azərbaycan Xalq Cümhuriyyətini düşmən sayan, həmin dövrü unutdurmağa çalışan Kommunist Partiyasının respublikadakı rəhbəri kimi çəkinmədən söyləyirdi.

O vaxt bəziləri belə düşünürdü ki, H.Əliyev ana dilində, Azərbacan dilində danışa bilmir. Lakin onun bu nitqi Azərbaycan cəmiyyətində əsl sensassiya oldu. Hətta bəziləri ona yaxınlaşaraq ana dilində danışdığı üçün təbrik edir və minnətdarlığını bildirirdilər. Ana dilini sevən, milli ruhla yaşayan adamlar üçün H.Əliyevin ana dilində danışması böyük bir hadisə idi. O isə həmin adamlarla söhbətində bildirdi ki, təəccüblənmək lazım deyil, bu dil mənim ana dilimdir və ana dilində danışmaq qəhrəmanlıq deyil. Amma əslində sovet sistemi şəraitində respublika rəhbərinin ana dilində, həm də yüksək milli ruhda nitq söyləməsinin özü və rəhbərlik üçün bir sıra arzuolunmaz nəticələri ola bilərdi.

[60] «Kommunist» qəzeti, 1969, 2 noyabr, №258 (14254).

[61] Məhərrəmov A. Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu, s.52.

H.Əliyev bu nitqi ilə ana dilinə sevginin və onu inkişaf etdirməyin vacibliyini tövsiyə edir, milli ənənələrin inkişafında rolunu qiymətləndirirdi. H.Əliyev gurultulu səslə deyirdi: «Azərbaycan xalqının ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir»[62]. O, Azərbaycan dilinin, xalqın milli ruhunun, milli şüurunun, vətənpərvərlik hisslərinin inkişafında Universitetin müstəsna rol oynadığını yüksək dəyərləndirirdi.

Universitetin yubileyində ölkənin müxtəlif şəhərlərindən, xarici dövlətlərdən - Bolqarıstan, Çexoslovakiya, Macarıstan və b. ölkələrdən qonaqların gəlməsi Azərbaycan elm və təhsilinin beynəlxalq aləmdə qəbul edilməsinin nümunəsi idi. Universitetin yubileyinin keçirilməsi Azərbaycan elm və mədəniyyətinin böyük bayramı oldu. Tədbirin keçirilməsi ilə kifayətlənməyən H.Əliyev Universitetin dövlət mükafatı ilə təltif edilməsi barədə məsələyə dair təşəbbüs irəli sürdü. Bilavasitə onun səyləri nəticəsində Universitet 1971-ci ildə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edildi[63]. Ordeni şəxsən H.Əliyev təqdim etdi.

Sonrakı illərdə də belə bayram tədbirləri keçirildi. 1980-ci ildə Azərbaycan KP MK bürosu ADU-nun 60 illik yubileyinin keçirilməsi barədə qərar qəbul etdi. Bu qərara müvafiq olaraq 1980-ci ilin əvvəllərindən etibarən yubiley tədbirləri keçirildi[64]. Yubiley tədbirində H. Əliyev iştirak edərək geniş nitq söylədi. Onun nitqində Azərbaycan aliminə yüksək qiymət verilir, ali təhsilin mövcud vəziyyəti təhlil edilir və inkişaf perspektivləri müəyyənləşdirilirdi. Bu nitq Azərbaycan rəhbərinin ali təhsilin inkişafına xüsusi diqqətinin təzahürü idi.

Dünya siyasətini və beynəlxalq münasibətlərdə baş verən prosesləri dərindən bilən H.Əliyev imkan düşdükcə inkişaf etmiş xarici ölkələrin qabaqcıl təhsil sistemi ilə Azərbaycan

---

[62] Yenə orada.

[63] «Kommunist» qəzeti, 1971, 13 fevral, №37 (14642).

[64] ARSPİHDA, f. 1, siy. 67, iş 111, pr. №155, § 14, v. 16; «Kommunist» qəzeti, 1980, 15 mart, №63 (17399).



Бүтүн өлкәләрин пролетарлары, бирләшин! | Пролетарии всех стран, соединяйтесь!

СОВЕТ ИТТИФАГЫ КОММУНИСТ ПАРТИЈАСЫ | КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ СОВЕТСКОГО СОЮЗА

АЗӘРБАЈЧАН КП МӘРКӘЗИ КОМИТӘСИ | ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ КП АЗЕРБАЙДЖАНА

ӘН МӘХФИ
СОВ. СЕКРЕТНО

П Р О Т О К О Л № 109

заседания Бюро Центрального Комитета Компартии Азербайджана

от 9 сентября 1969 года

Председательствовал тов.Алиев Г.А.

ПРИСУТСТВОВАЛИ:

Члены Бюро ЦК т.т.Амиров А.Д., Джафаров Д.Г., Ибрагимов А.И., Кадиров А.М., Козлов С.В., Кязимов Г.Х.

Члены ЦК КП Азербайджана т.т.Алиев А.М., Алиев Т.С., Бабаян Г.И., Багиров Т.М., Кирсанов Я.М., Мамедов М.М., Мамедов М.Р., Окунов М.А., Оруджев А.К., Рзаев А.С., Садыхов Р.Н.,

Кандидат в члены ЦК КП Азербайджана т.Мусабеков Ф.З.

Член Ревизионной комиссии КП Азербайджана т.Гасанов А.Г.

Заведующие отделами ЦК т.т.Али-заде Э.М., Мамедов А.Н., Шарифов А.А.

Заместители заведующих отделами ЦК т.т.Абдуллаева К.А., Глущенко И.В.

Корреспондент газеты "Правда" т.Таиров Д.Р.

Приглашенные по соответствующим вопросам:

Члены ЦК КП Азербайджана т.т.Мехти-заде М.М., Халилов М.Р.

Член Ревизионной комиссии КП Азербайджана т.Кардашев Р.Ш.

Председатель Исмаиллинского райисполкома т.Адилов Р.А.

30. Об организации в г.Баку американской выставки "Образование в США".

(т.т.Мамедов А., Джафаров, Амиров, Ибрагимов, Кадыров, Алиев).

1.Принять к сведению и руководству постановление Политбюро ЦК КПСС от 29 января 1969г. "Об организации в США советской выставки "СССР в художественных фотографиях" и о проведении в СССР американской выставки "Образование в США", в том числе в г.Баку с 26 декабря 1969г. по 9 февраля 1970г.

2.Поручить АСПС (т.Дадамову К.К.) для проведения в г.Баку выставки "Образование в США" предоставить помещение Дворца культуры им.[illegible].

3. ЦК ЛКСМ Азербайджана, министерствам иностранных дел, высшего и среднего специального образования, просвещения, здравоохранения, сельского хозяйства, Государственному комитету Совета Министров республики по профессионально-техническому образованию, Бакгорисполкому и Торговой палате Азербайджанской ССР разработать и осуществить мероприятия в связи с проведением данной выставки.



təhsil işçilərini tanış etmək fürsətini də əldən qaçırmırdı. 60-cı illərin sonundan etibarən iki müxtəlif sistemli dövlətlər arasında münasibətlərdə qarşıdurmadan gərginliyin zəifədilməsinə keçid prosesi başladıqda H.Əliyev SSRİ-ABŞ ikitərəfli münasibətlərində baş verən yaxınlaşmadan istifadə edərək mərkəzin tövsiyəsi ilə Azərbaycanda amerikan təhsil sisteminin tanıdılmasına və onun müsbət cəhətlərinin tətbiq edilməsinə çalışdı. Onun sədrliyi ilə keçirilən Azərbaycan KP MK-nın 1969-cu il 9 sentyabr tarixli büro iclasında «ABŞ-da təhsil» sərgisinin Bakıda keçirilməsi barədə qərar qəbul edildi[65]. 1969-cu il dekabrın 26-dan 1970-ci il fevralın 9-dək indiki Xətai sarayında uğurla keçən sərgiyə Azərbaycan təhsil işçiləri böyük maraq göstərdilər. Sərgiyə bütövlükdə, 10 minlərlə adam baş çəkdi[66]. Sərginin keçirilməsi heç şübhəsiz, sovet sistemi şəraitində Azərbaycan təhsil işçilərinin dünyanın qabaqcıl ölkələrindən birinin təhsil sistemi ilə tanış olmalarında müstəsna rol oynayırdı.

H.Əliyev respublika təhsilinin inkişafı məsələlərinə daha geniş yanaşır, iki sistem dövlətləri arasında müsəlman ölkələrində nüfuz qazanmaq uğrunda gedən mübarizədə Azərbaycanın rolunu qaldırmağa çalışırdı. O, müsəlman dünyası üçün Azərbaycanın nümunə rolunu oynamasının respublikada elm, təhsil və mədəniyyətin inkişafından keçdiyini, partiya və dövlət rəhbərlərinə inandıra bilmişdi. Bu məqsədlə o, təhsilin inkişafına böyük diqqət yetirir, Azərbaycan təhsilinin beynəlxalq əlaqələrinin qurulmasına və respublikanın xarici ölkələr, o cümlədən Şərq ölkələri üçün mütəxəssis hazırlayan mərkəzlərdən birinə çevrilməsinə çalışır və buna nail olurdu. Bu işdə heç şübhəsiz, sovet dövlətinin ümumi niyyətləri ilə yanaşı Azərbaycan elmi, mədəniyyəti və təhsilinin təbliği də nəzərdə tutulurdu. Məhz H.Əliyevin hakimiyyəti illərində Azərbaycan sovet dövlətinin xarici olkələr üçün mütəxəssis hazırlayan başlıca mərkəzlərindən birinə çevrilmişdi. Onun bilavasitə səyləri

---

[65] ARSPİHDA, f. 1, siy. 56, iş 53 (54), pr. №109, § 30.
[66] ARSPİHDA, f. 1, siy. 56, iş 53, pr. №109, § 30, v. 18.

nəticəsində Asiya, Afrika, Latın Amerikası, hətta Avropanın müxtəlif ölkələrindən gənclər Azərbaycan ali məktəbələrində təhsil almaq üçün gəlirdilər. Onların gəlişi ilə Azərbaycan ali təhsil sistemində işləyən şəxslərin məsuliyyəti artır, təhsilin keyfiyyətinə daha çox diqqət yetirilirdi. H.Əliyev xarici ölkələrdən Azərbaycana gələn tələbələrlə işin aparılmasını, o cümlədən respublikanın nailiyyətlərinin təbliğ edilməsini xüsusilə tövsiyə edirdi. Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında respublika ali məktəblərində təhsil alan xarici tələbələrlə işi yaxşılaşdırmaq haqqında qərar qəbul edildi[67]. Heç şübhəsiz, bu qərar dövlətin ümumi məqsədlərinə xidmət etsə də, Azərbaycanla əlaqələrin sıxlaşdırılmasına, xalqın tarixi, elmi və mədəniyyətinin təbliğinə yönəlmişdi. Azərbaycan ali məktəblərində təhsil alan xarici ölkə gənclərinin sayı ildən-ilə artırdı. Məsələn, Azərbaycan Dövlət Universitetinin 14 min tələbəsi arasında 52 ölkənin nümayəndəsi oxuyurdu[68]. 1974-cü ildə Azərbaycanın ali məktəbərində 55 ölkədən 1621 nəfər[69], 1975-ci ildə 64 ölkədən 1647 nəfər[70], 1976-cı ildə 61 ölkədən 2077 nəfər[71], 1977-ci ildə 1746 tələbə və aspirant[72], 1978-ci ildə 70 ölkədən 2417 nəfər[73], 1981-ci ildə isə 72 ölkədən 3 min nəfərə yaxın tələbə təhsil alırdı[74].

Gələn gənclərin sayının belə artım dinamikası respublikada elm və təhsilin keyfiyyətinin yüksək olması, xarici tələbələr üçün yaxşı məişət və təhsil şəraitinin yaradılması, Azərbaycanın qabaqcıl respublikaya çevrilərək nümunə rolu

---

[67] ARSPİHDA, f. 1, siy. 56, iş 50, pr. №107, § 20, v. 104.
[68] «Kommunist» qəzeti, 1980, 15 mart, №63 (17399).
[69] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 94.
[70] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v. 119.
[71] Yenə orada, v. 139.
[72] ARSPİHDA, f. 1, siy. 66, iş 177, v. 18.
[73] ARSPİHDA, f. 1, siy. 65, iş 176, v. 64.
[74] Əliyev Q. H. Tələbə qəbulu mütəşəkkil keçəcəkdir. - «Kommunist» qəzeti, 1981, 28 iyul, №175 (17809).



oynaması ilə bağlı idi. Bu sahədə Azərbaycan SSRİ-nin digər respublikalarını geridə qoya bilmişdi. Azərbaycan nümunəsində inkişaf etməkdə olan ölkələrə SSRİ-nin təsiri artdığından respublikanın hörməti və nüfuzu da güclənirdi.

Asiya, Afrika, Latın Amerikası və hətta Avropanın sosial-iqtisadi inkişaf istiqamətinə və səviyyəsinə görə müxtəlif olan ölkələri üçün Azərbaycanın təhsil ocaqlarında hazırlanan kadrlar təhsillərini başa vurduqdan sonra vətənlərinə qayıdaraq müxtəlif vəzifələrdə, bəziləri isə sonralar hətta dövlət başçıları kimi işləmişlər.

Azərbaycan rəhbəri eyni zamanda imkan daxilində azərbaycanlı tələbələrin xarici ölkələrin universitetlərində praktika keçmələrinə və mubadilə proqramları çərçivəsində təhsil almalarına da nail olurdu. Məsələn, təkcə 1979-cu ildə 122 nəfər azərbaycanlı tələbə Almaniya Demokratik Respublikası, Polşa, Çexoslovakiya, Macarıstan və Yuqoslaviyada təhsil almağa göndərilmişdi. Öz növbəsində həmin ölkələrdən də tələbələr Azərbaycana oxumağa gəlmişdilər[75]. Bu ölkələr sosialist dövlətləri olsalar da, hər halda Avropa ölkələri kimi onlarda elm, təhsil və mədəniyyətin yüksək səviyyəsi həmişə xüsusi vurğulanırdı.

Sovet sistemi şəraitində Azərbaycan xarici ölkələrlə birbaşa əlaqə yarada bilmədiyindən H.Əliyev azərbaycanlı gənclərin ölkənin qabaqcıl ali məktəblərində müxtəlif ixtisaslara yiyələnmələri üçün şərait yaradırdı. O, gənclərə dünya elminin ən son nailiyyətlərindən və təhsil aldığı şəhərin əhalisinin mədəniyyətindən xəbərdar olmağı tövsiyə edirdi.

Qabaqcıl dünya və Avropa elmi Azərbaycana Rusiyadan gəldyi üçün H.Əliyev azərbaycanlı gənclərin SSRİ-nin müxtəlif şəhərlərində ən nüfuzlu ali məktəblərdə təhsil almalarına çalışırdı. Bu da əbəs deyildi. Çünki sovet təhsil sistemi dünyanın qabaqcıllardan biri hesab edilirdi. Məsələn, ingilis tarixçisi C.Qrenvill də etiraf edir ki, SSRİ-də təhsilin səviyyəsi çox

---

[75] ARSPİHDA, f. 1, siy. 67, iş 185, v. 55.

yuksək idi[76]. H.Əliyev də məhz bundan istifadə etməyə başladı. Lakin savadlı olmalarına baxmayaraq, azərbaycanlı gənclərin bir çoxu, xüsusən kənd yerlərindən çıxanlar rus dilini bilmədikləri üçün ümumi müsabiqə yolu ilə ölkənin qabaqcıl ali məktəblərinə qəbul oluna bilmirdilər. Azərbaycan üçün yeni olan ixtisaslar üzrə mütəxəssis hazırlayan ali məktəbələrə daxil olmaq isə daha çətin idi. Bu ixtisasların bir çoxu, məsələn, informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. kadr çatışmazlığı, həm də mərkəzin yeritdiyi siyasət ucbatından Azərbaycanda hazırlanmırdı. Buna görə də H.Əliyev gənclərin ölkənin müxtəlif, ilk növbədə Moskva, Leninqrad, Kiyev, Minsk və başqa şəhərlərdəki ali məktəblərə müsabiqədənkənar qəbuluna icazə almağa başladı. Lakin hətta 1972-1973-cü illərdə azərbaycanlılar bu məktəblərdə oxumağa çox az gedirdilər. Belə vəziyyətin dərhal aradan qaldırılması tələb olunurdu. Qeyd etmək lazımdır ki, bu istiqamətdə H.Əliyevin aydın və konkret məqsədlər güdən fəaliyyət proqramı var idi. O, qabaqcıl dünya elminə çıxışı sovet sistemi şəraitində azərbaycanlı gənclərin ölkənin nüfuzlu ali məktəblərində mükəmməl təhsil almalarında görür, bu sahədə onlar üçün hər cür şərait yaradırdı. H.Əliyev ölkənin ali məktəblərində müsabiqədənkənar oxumağa gedən gənclərin sayının ildən-ilə artırılmasına Moskvadan böyük inadkarlıqla icazə alır, onların təhsilinin ümumittifaq büdcəsindən maliyyələşdirilməsinə nail olur, bu gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Azərbaycanlı gənclər qabaqcıl ali məktəblərdə təkcə elmlərə yiyələnmir, eyni zamanda yaşadıqları şəhərin bir çox tarix, mədəniyyət abidələri ilə tanış olur, xarici dövlətlərdən oxumağa gələn tələbələrlə əlaqələr qurur və respublikanı uğurla təmsil edirdilər. Ölkənin müxtəlif məktəblərinə oxumağa göndərilən gənclərin sayı əvvəllər ildə təxminən 400-600 nəfər idisə, sonralar 800-900-ə

[76] Гренвилл Дж. История XX века. Люди. События. Факты. Пер. с англ. М., 1999, с.755.



çatdırıldı. Artıq 70-ci illərin ortalarından başlayaraq ölkənin 40 şəhərində yerləşən ali məktəblərdə 1627 azərbaycanlı gənc müxtəlif ixtisaslar üzrə təhsil alırdı. 1977-ci ildə isə bu rəqəm 2500 nəfərə çatmışdı. Qeyd etmək lazımdır ki, həmin gənclər 244 ixtisas üzrə təhsil alırdılar. Bu ixtisasların çoxunda Azərbaycanın ali məktəblərində mütəxəssis hazırlanmırdı[77].

H.Əliyevin fəaliyyəti yuxarıda göstərilənlərlə məhdudlaşmırdı. Onun göstərişi ilə ölkənin müxtəlif ali məktəblərində təhsil alan gənclərlə müntəzəm olaraq görüşlər keçirilirdi. Həmin tələbə gənclərlə hər il Bakıda keçirilən təntənəli görüşdə H.Əliyev geniş nitq söyləyirdi. Bu görüşlər və onun nitqləri ölkənin nüfuzlu ali məktəblərində azərbaycanlı gənclərin təhsil almasına yönəldilən siyasətin, ona verilən diqqətin, şəxsi mövqeyinin mahiyyətini açır. Məsələn, 1977-ci ilin avqust ayında keçirilən görüşdəki nitqində H.Əliyev deyirdi: «Bu illərdən özünüz üçün faydalı istifadə edin. Teatrların, muzeylərin, qoruq yerlərinin, kitabxana salonlarının qapıları sizin üzünüzə açıqdır. Siz də mümkün qədər daha çox öyrənməyə, öz görüş dairənizi genişləndirməyə, məlumatınızı artırmağa çalışın»[78].

1978-ci ildə azərbaycanlı gənclərin qəbul olunduğu və təhsil aldığı ali məktəblərin sayı daha da artdı. Həmin ilin avqust ayında tələbə gənclərlə keçirilən görüşdəki nitqində H.Əliyev deyirdi: «Bu il... başqa şəhərlərin ali məktəblərinə 670 oğlan və qız qəbul edilmişdir»[79]. Bütövlükdə, həmin ildə 2200-dən çox gənc ölkənin 151 ali məktəbində 244 ixtisas üzrə təhsil alırdı[80].

1970-1979-cu illərdə ölkənin başqa ali məktəblərini 500 nəfər azərbaycanlı bitirmişdi. Bu illər ərzində həmin ali məktəblərə azərbaycanlı gənclərin qəbulu 10 dəfə artırılmışdı.

[77] «Kommunist» qəzeti, 1977, 28 avqust, № 201 (16636).

[78] Yenə orada.

[79] «Kommunist» qəzeti, 1978, 31 avqust, № 199 (16939).

[80] Yenə orada.

1979-cu ildə ölkənin digər şəhərlərində 2800 nəfər azərbaycanlı oğlan və qız 244 ixtisas üzrə təhsil alırdı[81].

H.Əliyev mərkəzi şəhərlərdə, xüsusən Moskvada təhsil alan tələbə və aspirantların təhsilinə, məişətinə başlıca diqqət yetirirdi. Onun təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1979-cu il 2 noyabr tarixli iclasında büro üzvlərinin Moskvada təhsil alan tələbə və aspirantlarla görüşünü keçirmək barədə qərar qəbul edildi[82]. Qərarın icrası uğurla həyata keçirildi. Həmin ilin dekabr ayında M.Qorki adına Moskva Akademik Bədaye teatrının yeni binasında Azərbaycandan Moskvada təhsil alan tələbə və aspirantlarla Azərbaycan KP MK bürosu üzvlərinin möhtəşəm görüşü keçirildi. Bu görüşə H.Əliyevin dəvəti ilə SSRİ-nin ali təhsil naziri, şəhərin rəhbərləri, Moskvadakı bütün institutların rektorları, tanınmış professorlar gəlmişdilər. Salon ağzınadək dolu idi. Görüşdə geniş nitq söyləyən H.Əliyev tələbə və aspirantlara elmlərə dərindən yiyələnməyi, Moskvanın tarix və mədəniyyət abidələri ilə yaxından tanış olmağı tövsiyə etdi. O, nitqində bildirirdi ki, təhsil almaq üçün hər il Moskvaya 270-280 nəfər göndərilir[83]. Qeyd etmək lazımdır ki, bu zaman SSRİ-nin 43 şəhərinin 152 ali məktəbində 3315 nəfər azərbaycanlı təhsil alırdı[84].

Bu istiqamətdə həyata keçirilən tədbirlər sonrakı illərdə də davam etdirildi. 1981-ci ildə başqa ali məktəblərə 853 nəfər oxumağa göndərildi. Onlardan 720 nəfəri birinci kursa daxil olmuşdu. Həmin ildə ölkənin müxtəlif ali məktəblərində 244 ixtisas üzrə 3600 nəfər azərbaycanlı təhsil alırdı[85].

1982-ci ildə ölkənin müxtəlif ali məktəblərinin birinci

[81] «Kommunist» qəzeti, 1979, 30 avqust, № 198 (17237).
[82] ARSPİHDA, f. 1, siy. 66, iş 98, pr. № 118, § 17.
[83] H.Ə.Əliyevin Moskvada təhsil alan Azərbaycan tələbələri və aspirantları ilə görüşdə nitqi. – «Kommunist» qəzeti, 1979, 5 dekabr, №277 (17316).
[84] Yenə orada.
[85] ARSPİHDA, f. 1, siy. 68, iş 204, v. 18.



kurslarına oxumağa 737 nəfər azərbaycanlı göndərildi[86]. Həmin gənclər tələbə təqaüdü ilə təmin olunurdular.

Onlarla keçirilən görüşlərdə geniş nitq söyləyən H.Əliyev elmlərə dərindən yiyələnməyi, rus dilini mükəmməl mənimsəməyi və Azərbaycanı layiqincə təmsil etməyi tövsiyə edirdi[87]. Qeyd etmək lazımdır ki, ölkənin başqa şəhərlərində təhsil alan azərbaycanlı gənclər həmin tövsiyələri yerinə yetirib kamil mütəxəssis kimi yetişirdilər. Minlərlə azərbaycanlı gənc ölkənin müxtəlif ali məktəblərində təhsil alaraq vətənə mütəxəssis kimi dönürdü. Dünyanın bir sıra qabaqcıl alimlərindən dərs alan bu gənclər özləri ilə Azərbaycana yeni bilik, yeni düşüncə, yeni nəfəs gətirirdilər. Ölkənin başqa şəhərlərində, uzaq vilayətlərində oxumaları, oraların mühiti, mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmaları onların hərtərəfli inkişafına kömək edirdi.

Ölkənin müxtəlif yerlərində çalışan gənc mütəxəssislər respublikanı bacarıqla təmsil edirdilər. Qeyd etmək lazımdır ki, yeridilən bu siyasətdə güdülən məqsədlərdən biri də azərbaycanlıları bütün ölkə ərazisinə səpələyərək SSRİ-də Azərbaycan diasporunu yaratmaq idi. H.Əliyev azərbaycanlıların harada yaşamalarından asılı olmayaraq, əhalinin aşağı və orta deyil, yüksək təbəqəsində mövqe tutmasını arzulayırdı. O belə hesab edirdi ki, azərbaycanlı mütəxəssislər Azərbaycanın milli sərvətidirlər.

Azərbaycan rəhbərinin bilavasitə gərgin fəaliyyəti nəticəsində respublika savadlılar diyarına çevrildi. Sonralar H.Əliyev deyirdi: «Azərbaycanda ən böyük nailiyyət ondan ibarətdir ki, bizdə savadsız adam yoxdur. Ölkəmizdə hansı bir kəndə, hətta hansı bir dağ kəndinə getsəniz, orada savadsız adam tapa bilməzsiniz. Azərbaycanda xalqın ümumi təhsil səviyyəsinin, mədəni səviyyənin yüksəlməsi XX əsrdə özünü

[86] ARSPİHDA, f. 1, siy. 70, iş 203, v. 23-28.
[87] H.Ə.Əliyevin tələbə gənclərlə görüşdə nitqi. – «Kommunist» qəzeti, 1982, 29 avqust, № 202 (18136).

çox bariz şəkildə göstərmişdir»[88]. Bütün bunlar heç şübhəsiz, H.Əliyevin tarixi xidməti idi.

H.Əliyev sonralar qeyd edirdi ki, 70 ildə ideologiyadan, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq Azərbaycan xalqının bir neçə nəsli təhsil almış, böyümüş, yüksək səviyyələrə çatmış, böyük elm və mədəniyyətə sahib olmuşlar. Bunların hamısı xalqımızın milli nailiyyətidir və indi bizim Azərbaycan respublikasının intellektual potensialını təşkil edir[89]. Onun fikrincə, mövcud təhsil sistemi Azərbaycan xalqına böyük uğurlar qazandırmışdı. O, xalqın tərəqqisinin mədəniyyətin və elmin inkişafından keçdiyini bilərək bu işə xüsusi diqqət verirdi.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov. İKP MK Siyasi bürosunun üzvü kimi Moskvada daimi işləməyə başladıqdan sonra da H.Əliyev Azərbaycan təhsilinə diqqətini zəiflətmədi. Təhsil sahəsinə də rəhbərlik edən baş nazirin birinci müavini kimi Azərbaycan təhsilinə xüsusi qayğı göstərirdi.

Qeyd etmək lazımdır ki, 70-80-ci illərdə ölkənin qabaqcıl məktəblərində təhsil almış azərbaycanlı gənclər sonradan Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdə quruculuğun müxtəlif sahələrində fəal iştirak etməyə başladılar. Onlar diplomat, hərbçi, təyyarəçi, mühəndis və başqa peşə sahibləri kimi Azərbaycan dövlətinə və xalqına xidmət etdilər.

## III. 2. Azərbaycan aliminə və elminə qayğı

Azərbaycan aliminə və elminə xüsusi qayğı göstərən H.Əliyev bu sahədəki fəaliyyətini ardıcıl və sistemli olaraq bir neçə istiqamətdə həyata keçirirdi: elmi-tədqiqat institutlarının və elmi işçilərin sayını artırırdı; Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səylər edirdi; görkəmli alimlərin dövlətin müxtəlif orden, medal və mükafatları ilə təltif edilməsinə

[88] Azərbaycan beynəlxalq aləmdə. I cild, s. 72.
[89] Əliyev H. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 167.



nail olurdu; Azərbaycan tarixi, dili və ədəbiyyatı üzrə tədqiqatların genişləndirilməsini təşviq edirdi; milli ruhlu alimləri təqib və təzyiqlərdən qoruyaraq himayə edir, onlara yaradıcılıq şəraiti yaradırdı və s.

Azərbaycan elmini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən, böyük məhəbbətlə sevən, onu uca tutan və yüksək qiymətləndirən H.Əliyev nitqlərinin birində deyirdi: «Azərbaycan xalqının qədim mədəniyyətinin, elmi təfəkkürünün kökləri onun tarixinin dərinliklərinə gedib çıxır. Bir çox əsrlər boyu Azərbaycan xalqı Şərq ədəbiyyatı və incəsənətinin, müxtəlif dövrlərin fəlsəfə və elminin ən yüksək nailiyyətlərini özündə təcəssüm etdirən zəngin, çoxcəhətli və orijinal mədəniyyət yaratmışdır. Ən qədim zamanlardan burada təbabət, astronomiya, riyaziyyat, coğrafiya, tarix, fəlsəfə, ədəbiyyat, musiqi mədəniyyəti və dekorativ sənət, bədii sənətlər inkişaf etmiş, gözəl memarlıq tikililəri yaradılmışdır»[90].

H.Əliyev Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına şalışır və onlara qayğı göstərirdi. Bu sahədə onun fəaliyyəti kifayət qədər uğurlu idi. Əgər 1969-cu ildə Azərbaycanda fəaliyyət göstərən 89 elmi-tədqiqat, layihə müəssisəsi, sahə institutu və ali məktəblərdəki problem laboratoriyalarında 12350 elmi işçi, o cümlədən Elmlər Akademiyasının 55 akademiki və müxbir üzvü, 329 elmlər doktoru və 300 elmlər namizədi var idisə, 1978-ci ildə elmi-tədqiqat, layihə, sahə institutlarının sayı 118-ə, elmi işçilərin sayı 21407 nəfərə, akademik və müxbir üzvlərin sayı 100 nəfərə, elmlər doktorlarının sayı 853 nəfərə, elmlər namizədlərinin sayı 7594 nəfərə çatdı[91]. 1980-ci ildə təkcə Elmlər Akademiyası sistemində 34 elmi və elm-istehsalat idarəsində 4000-dən çox şəxs, o cümlədən 245 elmlər doktoru və 1600 elmlər namizədi tədqiqat işi aparırdı. Respublika Elmlər Akademiyasının 56 həqiqi üzvü və 71 müxbir üzvü var idi. Ümumiyyətlə,

[90] Əliyev H. Ə. Sovet Azərbaycanı, s. 73.
[91] ARSPİHDA, f. 1, siy. 65, iş 51, v. 76.

həmin ildə Azərbaycan elmini 123 elmi idarə və 17 ali məktəbin kafedraları təmsil edirdi. Onlarda təqribən 22 min elmi əməkdaş, o cümlədən 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi işləyirdi[92].

Azərbaycan H.Əliyevin fəaliyyəti nəticəsində Cənubi Qafqazın qabaqcıl elm mərkəzinə çevrilərək digər respublikaları xeyli geridə qoymuşdu.

H.Əliyev elmi işçilər arasında azərbaycanlıların xüsusi çəkisinin artırılmasına ciddi şəkildə çalışırdı. Bu sahədə onun səyləri öz bəhrəsini verirdi. Müqayisə üçün bəzi faktların söylənilməsi deyilənlərə aydınlıq gətirir. Azərbaycandakı azərbaycanlı elmi işçilərin sayı 1947-ci ildə 48,6%, 1960-cı ildə 64,6% idisə, 1970-ci ildə 70,9%, 1971-ci ildə isə 71,3% oldu. Bundan fərqli olaraq zaman-zaman həm çarizm, həm də sovet dövründə Azərbaycana yerləşdirilmiş gəlmə xalqların nümayəndələrindən olan elmi işçilərin sayı azalmağa doğru gedirdi. Əlbəttə, bu proses onların əleyhinə siyasət yeridilməsi demək deyildi. Belə vəziyyətin yaranmasının bir sıra səbəbləri var idi: azərbaycanlılar arasında elmə və təhsilə olan maraq güclənirdi, elmi-tədqiqat institutlarında yüksək maaş verilirdi, eyni zamanda azərbaycanlı əhali sürətlə artırdı. Belə bir şəraitdə ölkə ictimai həyatının sürətlə beynəlmiləlləşdirilməsi, həmin xalqların nümayəndələrinin Azərbaycana gəlmə olduqlarını başa düşmələri onların respublikadan getmələrinə səbəb olurdu. Məsələn, Azərbaycanda ermənilərdən olan elmi işçilərin sayı 1970-ci ildə 6,2% idisə, 1971-ci ildə aşağı düşərək 6,1% oldu. Ruslardan olan elmi işçilərin sayı da azalmağa döğru getmişdi. 1963-cü ildə onların ümumi çəkisi 16,2%, 1970-ci ildə 14,5% idisə, 1971-ci ildə 14,4%-ə düşdü. Qeyd etmək lazımdır ki, yəhudilərdən olan elmi işçilər 1970-1971-ci illərdə olduğu kimi qalmişdı: 4,8%[93].

[92] Əliyev H. Ə. Sovet Azərbaycanı, s. 81.

[93] Бриан Д. Силвен. Population redistribution and the etnic balance in Trancaucasia. New York, Kennan Institute for Advanced Russian studies, The Wilson Center and American Assosiation for tne Advancment of Slavic Studies, 1980., c.13.



Bu faktlar həmçinin bir daha göstərir ki, ölkədə tüğyan edən antisemitizm H.Əliyevin hakimiyyəti illərində Azərbaycanda qətiyyən mövcud deyildi. Belə bir fakt da maraqlıdır ki, 1968-ci ildə SSRİ-dən yalnız 400 nəfər yəhudi xarici ölkələrə köçmüşdüsə, 1973-cü ildə onların sayı 35 min nəfərə çatmışdı[94]. 1979-cu ildə isə xarici ölkələrə köçən yəhudilərin sayı 50 min olmuşdu[95]. Ölkədə bu istiqamətdə sərt siyasət yeridilməsinə baxmayaraq, Azərbaycanda antisemitizmin təzahürləri yox idi. Yəhudilər Azərbaycanı özlərinin doğma vətəni hesab edirdilər.

Qeyd edildiyi kimi, H.Əliyevin səyləri hesabına azərbaycanlı elmi işçilərin sayı artır, alimlərin hazırlanmasına başlıca diqqət verilirdi. 1970-1980-cı illərdə Azərbaycanda 258 elmlər doktoru, 2677 elmlər namizədi hazırlanmışdı[96]. Bu, heç şübhəsiz, böyük uğur demək idi.

H.Əliyev elmin ən müasir sahələri uzrə elmi-tədqiqat işlərinin aparılmasına alimləri və elmi idarələrin rəhbərlərini yönəldirdi. Bilavasitə onun himayəsi altında Azərbaycanda elmin ən perspektivli sahələri üzrə geniş tədqiqat işləri aparılırdı. Təkcə 1979-cu il ərzində təbiət və ictimai elmlər sahəsində respublikada aparılan elmi-tədqiqatların 55 nəticəsi sovet elminin ən mühüm nailiyyətləri sırasında qeyd edilmişdi. Bu, Azərbaycan fundamental elminin böyük uğurundan xəbər verirdi. 1971-1980-ci illərdə Elmlər Akademiyası alimlərinin tədqiqatlarının istehsalata tətbiqi nəticəsində əldə edilən iqtisadi səmərə 570 mln. manatdan çox olmuşdu. Həmin illər ərzində akademiya alimləri etdikləri müxtəlif ixtiralar üçün mindən çox müəlliflik şəhadətnaməsi almışdılar ki, bu da əvvəlki bütün 25 ildəkindən 5 dəfə çox idi[97].

Neft elmləri üzrə nəinki ölkədə, o cümlədən dünyada xeyli məşhur olan Azərbaycanı obrazlı olaraq «Neft Akademiyası» adlandırırdılar. Neft kimyası və neftayırma Azərbaycan

[94] Киссинджер Г. Дипломатия. М., 1997, с.685.

[95] Хоскинг Д. История Советского Союза. 1917-1991. М., 1995, с.447.

[96] Əliyev H.Ə. Sovet Azərbaycanı, s.82.

[97] Yenə orada.

34

## ИНФОРМАЦИЯ

о ходе выполнения постановления ЦК КП Азербайджана от 27 августа 1981 года "О комплексных научно-технических программах на 1981-1985 гг.".

В соответствии с пунктом 3 вышеназванного постановления ЦК КП Азербайджана докладываем.

В 1981 году научно-исследовательские и проектные институты совместно с предприятиями республики, всего 30 организаций, (приложение I) принимали активное участие в разработке и реализации 25 целевых комплексных программ и программ по решению важнейших научно-технических проблем, включающих 62 задания, утвержденных Госкомитетом СССР по науке и технике, Госпланом СССР и Академией наук СССР.

Как показал анализ хода выполнения заданий научно-технических программ, из 30 организаций-исполнителей 25 или 83,3 процента выполнило годовое задание в полном объеме.

Этими заданиями предусмотрена разработка новых технических средств и методов, масштабная реализация наиболее эффективных научно-технических достижений, обеспечивающая широкое внедрение в народное хозяйство новых машин, оборудования, приборов, материалов, прогрессивных технологических процессов.

Так, в целях повышения нефтеотдачи пластов и интенсификации разработки нефтяных месторождений, по рекомендации Производственного объединения "Азнефть", проводившего испытание опытной партии насосов для нормальных условий длиной хода до 3,5 м., особым конструкторским бюро по нормированию нефтегазодобывающих машин и оборудования "Нефтемаш" изготовлена установочная серия, а заводом им. Дзержинского освоено их производство и выпущена первая про-

337



elminin aparıcı istiqamətlərinə çevrilmişdi. Buraya xeyli qüvvə və maddi vəsait cəmlənmişdi. Azərbaycanın neftçi alimləri bütün ölkədə və dünyada məşhur idilər. Bu sahə üzrə elmi məsələlərin müzakirəsi zamanı qərarlar adətən azərbaycanlı alimlərin yekun rəyindən sonra qəbul edilirdi. Azərbaycan alimlərinin dünyanın müxtəlif elmi mərkəzlərində və universitetlərində vaxtaşırı oxuduqları mühazirələr yüksək dəyərləndirilirdi.

Respublikada təbiətşünaslıq elmləri sürətlə inkişaf edirdi. 1978-ci ildə Elmlər Akademiyasında həmin istiqamətlərdə işləyən güclü elmi mərkəz olan Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu yaradıldı. Qisa müddət keçdikdən sonra institut alimlərinin tədqiqatları bütün ölkə miqyasında mötəbər olaraq qəbul edilirdi.

Neft kimyası prosesləri, aşqarlar kimyası, kimya texnologiyasının nəzəri problemləri, fizika, riyaziyyat institutları böyük tədqiqat mərkəzlərinə çevrilmişdilər.

Azərbaycanlı alimlər Volqaboyunun, Qərbi Sibirin, Türkmənistan, Qazaxıstan, Belorusiya, Ukrayna və başqa respublikaların neft yataqlarının işlədilməsində fəal iştirak edirdilər. Azərbaycan alimləri ADR, Rumınya, Əfqanistan, Hindistan, Əlcəzair, Kuba, İraq və Suriyada neft yataqlarının istifadə edilməsinə fəal kömək göstərirdilər. Onların ixtiraları ABŞ, AFR, Yaponiya, İngiltərə, Fransa və İtaliyada, bütövlükdə, 15 ölkədə patentlər almışdı[98].

Respublikada radiotexnika, elektronika və elektron sənayesinin inkişafı perspektivlərini nəzərə alan alimlər texniki fizika, tətbiqi riyaziyyat, kibernetika, radioelektronika sahələrində və elmin digər müasir istiqamətlərində fəaliyyətlərini genişləndirirdilər. Bütün bunlarla bərabər, xalq təsərrüfatının artıq təşəkkül tapmış, iqtisadiyyat üçün ənənəvi olan sahələrinin yenidən qurulması prosesi də gedirdi. Ekologiya sahəsində elmi-tədqiqatların aparılmasına xüsusi diqqət yetirilirdi. Müxtəlif elm sahəsində çalışan alimlərin səyləri birləşdirilirdi.

---

[98] Yenə orada.

Təkcə 1981-ci ildə Azərbaycanın elmi-tədqiqat və layihə institutları ölkə üzrə 25 kompleks proqramın işlənib hazırlanmasında iştirak etmişdilər[99].

H.Əliyev Elmlər Akademiyasının, onun institutlarının, görkəmli alimlərin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi önəm verirdi. Onun fikrincə, belə yubileylərin keçirilməsi respublikada elmə olan marağı daha da artırır, Azərbaycan elmini və alimlərini təkcə respublikada deyil, ölkədə və dünyada tanıdırdı. Bununla əlaqədar olaraq H.Əliyev ciddi qərarlar qəbul edirdi. Deyilən məsələyə dair onun həyata keçirdiyi tədbirlərin yalnız bəzisinin xronoloji ardıcıllıqla izlənilməsi fəaliyyət sahəsinin aydın mənzərəsini yaradır. H.Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın 1969-cu il 30 dekabr tarixli iclasında Azərbaycan EA-nın 25 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi barədə qərar qəbul olundu[100]. Qərara uyğun olaraq elmi konfrans və simpoziumlar keçirildi. Yubiley tədbirlərində ölkənin və xarici dövlətlərin müxtəlif elm ocaqlarının nümayəndələri iştirak edərək elmi nailiyyətlər haqqında fikir mübadiləsi apardılar, Azərbaycan xalqının qədim tarixi və zəngin mədəni irsi ilə tanış oldular.

1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının 30 illik yubileyi təntənə ilə qeyd edildi. H.Əliyev akademiyanın Xalqlar dostluğu ordeni ilə təltif edilməsi haqqında Sov. İKP MK-ya məktub yazaraq istəyinə nail oldu.

Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun 50 illiyi haqqında 1982-ci il sentyabr ayının 14-də Azərbaycan KP MK-nın qərarının qəbul edilməsi ədəbiyyat sahəsində tədqiqatların aparılmasına, ədəbi irsə, elmə verilən qiymətin və qayğının təzahürü idi[101].

H.Əliyevin təşəbbüsü ilə 1976-cı ilin yanvar ayında görkəmli alim Yusif Məmmədəliyevin Ordubadda ev muzeyi açıl-

[99] ARSPİHDA, f. 1, siy. 70, iş 382, v. 34-36.

[100] ARSPİHDA, f. 1, siy. 56, iş 71 (72), pr. №118, § 12.

[101] ARSPİHDA, f. 1, siy. 70, iş 112, pr. №67, § 23.



dı. Təntənəli açılış mərasimində respublikanın tanınmış alimləri və partiya işçiləri çıxış etdilər[102]. Bu tədbir Naxçıvanda elmə olan marağın artmasına kömək edir, elmi irsə və alimə olan qayğını göstərirdi.

H.Əliyev Azərbaycanda kütləvi nəşrlərə, xüsusən, ensiklopediyanın yaradılmasına diqqət verirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan sovet ensiklopediyasının yaradılması barədə hələ 1965-ci ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı qəbul edilmişdi. Bu qərara əsasən on cilddən ibarət ensiklopediyanın hər bir cildi 70 çap vərəqi həcmində olmalı idi[103]. Lakin ötən müddət ərzində bu sahədə çoxlu qüsurlara və səhvlərə yol verilmişdi. Ensiklopediyanın heç bir cildi nəşrə hazırlanmamışdı, alimlər arasında elmi müzakirələr intriqalara çevrilmişdi, xoşagəlməz mühit yaranmışdı. Ensiklopediyanın 1970-ci ilin sonunda hazırlanmış birinci cildi çoxlu səhvlər və qüsurlar ucbatından buraxılmamışdı. Buna görə də H.Əliyev Sov.İKP MK-ya 1974-cü il may ayının 23-də 252 №-li tam məxfi məktub yazaraq ensiklopediyanın birinci cildinin 1974-cü ildə, 10-cu cildinin isə 1980-ci ildə nəşr edilməsi barədə icazə istədi və Moskvanın razılığını aldı. Azərbaycan KP MK bürosunun 1976-cı il 10 fevral tarixli iclasında Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası və elmi-redaksiya şurası barədə qərar qəbul edildi[104]. H.Əliyevin səyləri sayəsində 3836 məqalə-termindən ibarət olan Azərbaycan Sovet Ensiklopediyasının birinci cildi nəşr olundu[105]. Bununla belə, qeyd etmək lazımdır ki, alimlər arasında intriqaların hökm sürməsi nəticəsində birinci cild Azərbaycan məqaləsi olmadan nəşr edilmişdi. Nitqlərinin birində H.Əliyev alimlərə irad tutaraq deyirdi ki, aranızda birliyin olmaması nəticəsində ensiklopediyanın birinci cildi Azərbaycan

[102] «Kommunist» qəzeti, 1976, 4 yanvar, №2 (16131).

[103] ARSPİHDA, f. 1, siy. 61, iş 148, v. 79-80.

[104] ARSPİHDA, f. 1, siy. 63, iş 28, pr. №1, § 15.

[105] «Kommunist» qəzeti, 1977, 25 yanvar, №20 (16445).

haqqında məqalə olmadan nəşr edildi. O, Azərbaycan alimləri arasında birliyə, əməkdaşlığa, yekdilliyə çalışır və buna da əsasən nail olurdu. H.Əliyev ensiklopediyanın sonrakı cildlərinin çapına da qayğı göstərdi. 1980-cı ildə ASE-nin dördüncü cildi çap edildi[106]. Ensiklopediyanın digər cildlərinin çapı işi sonrakı illərdə də davam etdirildi. Lakin müxtəlif elm sahələrinin adamları arasında hökm sürən yersiz mübahisələr ensiklopediyanın nəşrinə mənfi təsir edirdi.

H.Əliyevin hakimiyyəti illərində Azərbaycan tarixinə, Azərbaycan dilinə, mədəniyyətinə dair elmi tədqiqatların aparılması və monoqrafiyaların nəşri xeyli artırıldı. Yeni-yeni əsərlər yazılaraq nəşr edilirdi. Azərbaycan tarixi və dilçilik sahəsində yazılmış bir sıra əsərlərə dövlət mükafatları verilirdi. İctimai elmlər sahəsində araşdırmalar gücləndirilirdi. H.Əliyev alimlərə Azərbaycan tarixinin müxtəlif dövrlərinin dərindən araşdırılmasını tövsiyə edirdi. O, tarixçilərə müraciət edərək bildirirdi ki, qədim, orta əsrlər tariximiz, həmçinin XVIII, XIX, XX əsr tariximiz istənilən səviyyədə yazılmayıb. Tarixçilərlə dəfələrlə görüşən H.Əliyev bu sahədə öz dərin narahatlığını ifadə edirdi. Azərbaycan rəhbəri söhbətlərində başqa respublikaların tarixçilərinin öz tarixlərini yaxşı yazdığını açıq şəkildə azərbaycanlı alimlərin nəzərinə çatdırır, onları da buna səsləyirdi[107]. Heç şübhəsiz, bütün bu söhbət və nəsihətlərin ciddi təsiri olurdu. Azərbaycan tarixinə dair dəyərli əsərlər yazılaraq nəşr edilirdi.

H.Əliyev belə hesab edirdi ki, xalq tarixi kökünü bilməli, xatırlamalı, elm və mədəniyyətindən ayrılmamalıdır. Buna görə də Azərbaycan rəhbəri tarixçilərə tarixi düzgün yazmağı, obyektiv öyrənməyi və qiymət verməyi tövsiyə edirdi.

H.Əliyev Azərbaycanın zəngin tarix və mədəniyyətinin dərindən araşdırılmasına, təbliğinə diqqət yetirərək qədim əlyazmaların qorunmasına, öyrənilməsinə və dərindən tədqiqinə xüsusi fikir verirdi. O çox doğru olaraq qeyd edirdi ki, ayrı-ayrı

[106] «Kommunist» qəz. , 1980, 29 aprel, № 101 (17437).
[107] Əliyev H. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 154.





*Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli iclasda çıxış edir. 1969-cu il 1 noyabr*



*Heydər Əliyev Azərbaycan Dövlət Universitetinə Qırmızı Əmək Bayrağı Ordeninin təqdim olunma mərasimində. 1971-ci il 1 mart*



*Heydər Əliyev ölkənin başqa şəhərlərində təhsil alan tələbələrlə görüşdə. 1975-ci il 28 avqust*



*Heydər Əliyev mükafatlarla təltif edilmiş azərbaycanlı alimlərlə. 1975-ci il 23 sentyabr*



*Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasına Xalqlar dostluğu ordeni verilməsi münasibətilə keçirilən iclasda çıxış edir. 1975-ci il 23 sentyabr*



*Heydər Əliyev Azərbaycan müəllimlərinin VI qurultayında çıxış edir. 1978-ci il 18 may*



*Heydər Əliyev Azərbaycan müəllimlərinin VI qurultayının iştirakçıları arasında. 1978-ci il 18 may*



*Heydər Əliyev ali təhsil işçilərini qəbul edərkən. 1980-ci il 29 may*



*Heydər Əliyev elmi konfransın rəyasət heyətində. 1980-ci il 15 may*



*Heydər Əliyev Azərbaycan Politexnik institutunda qəbul imtahanında. 1981-ci il 1 avqust*



*Elmi seminarın iştirakçıları
Heydər Əliyevin qəbulunda.
1981-ci il 13 noyabr*



*Heydər Əliyev orta məktəbdə*



*Heydər Əliyev N.Tusinin 780 illiyinə həsr olunmuş
iclasın iştirakçılarını qəbul edir. 1981-ci il 26 noyabr*



*Heydər Əliyev Azərbaycan Dövlət Neft və Kimya institutunda
qəbul imtahanında. 1982-ci il 1 avqust*



*Heydər Əliyev ölkənin başqa şəhərlərində təhsil alan tələbələrlə görüşdə. 1982-ci il 29 avqust*



*Sov. İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Bakıda 84№-li texniki peşə məktəbində. 1984-cü il 6 sentyabr*

azərbaycanlılar yaxşı tarixi tədqiqat işləri yazsalar da, başqa xalqlardan fərqli olaraq Azərbaycan xalqında əvvəlki əsrlərdə sistemli tarixşünaslıq olmayıb. Hesab edirdi ki, belə tarixşünaslığın yaradılması üçün mənbələrin, qədim əlyazmaların öyrənilməsi xalqın tarixinin və mədəniyyətinin dərindən tədqiq edilməsində müstəsna rol oynadığından onların qorunması vacibdir. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının ən dəyərli tarixi əlyazmaları 30-cu illərdə kütləvi şəkildə məhv edilmiş, zərərli hesab edilərək yandırılmışdı. H.Əliyev hakimiyyətə gələnə qədər də Respublika Əlyazmalar Fondundakı əlyazmalar müvafiq binanın zirzəmisində bərbad halda saxlanılırdı. Azərbaycan xalqının tarixi keçmişini və mədəniyyətini özündə əks etdirən dəyərli əlyazmalar rütubətdə çürüyür, zay olub gedirdi. Onların yaxşı qorunmasına və bərpasına ehtiyac duyulurdu.

Azərbaycan tarixinə və mədəniyyətinə dair dünyanın müxtəlif arxiv və kitabxanalarında saxlanılan əlyazmaları toplanıb respublikaya gətirilmədiyindən alimlər onlardan istifadə edə bilmirdilər. Mövcud vəziyyətdən çıxmaqdan ötrü H.Əliyev böyük əzmlə mühüm qərarların qəbul edilməsinə nail oldu. 1981-ci ilin avqust ayında Azərbaycan KP MK «Azərbaycan SSR Elmlər Akademiyası respublika Əlyazmaları Fondunun fəaliyyətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» məsələ müzakirə edərək müvafiq qərar qəbul etdi. Mühüm elmi və siyasi əhəmiyyət daşıyan həmin qərarda deyilirdi ki, fondda müxtəlif dillərdə 40 mindən çox nadir yazılı abidə saxlanılır. Azərbaycan elmi, mədəniyyəti və tarixi üçün xüsusi əhəmiyyət daşıyan bu qərarın qəbul edilməsi ilə Əlyazmalar Fondu Əlyazmalar İnstitutuna çevrildi. Həmin qərarda abidələrin saxlanılması üçün əlverişli şəraitin yaradılması, fondun maddi-texniki bazasının möhkəmləndirilməsi, əlyazmaların axtarılıb tapılaraq mühafizə edilməsi nəzərdə tutulurdu. Qərara uyğun olaraq hələ XX əsrin əvvəllərində məşhur milyonçu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilmiş, sonralar Azərbaycan SSR Ali Sovetinin yerləş-

diyi və boşalan binasını müxtəlif nazirlik, idarə və təşkilatlar ələ keçirmək istəsələr də, H.Əliyev onların xahişlərini rədd edərək binanı Əlyazmalar İnstitutuna verdi[108]. H.Əliyev bu qərara gələrkən hesab edirdi ki, qədim kitablar Azərbaycan xalqının tarixi keçmişi və milli sərvətidir. Qərarın qəbul edilməsi Azərbaycan tarixinin və mədəniyyətinin araşdırılması istiqamətində mühüm mərhələnin başlanğıcını qoyurdu. Qərardan sonra bu binanın nəmli zirzəmisində pis vəziyyətdə olan kitablar çıxarılıb bərpa edilərək bir muzey nümunəsi kimi yaxşı saxlanılmağa başlandı.

Yaradıldıqdan sonra da Əlyazmalar İnstitutunun fəaliyyəti daim H.Əliyevin diqqət mərkəzində olmuşdu. Onun qayğısı sayəsində çoxlu qədim əlyazmalar tapılıb bərpa edilərək qorunmağa başlandı. Sonrakı illərdə qədim Azərbaycan əlyazmalarına dair bir sıra respublika və beynəlxalq elmi konfrans, seminar və simpoziumlar keçirildi.

H.Əliyev Azərbaycanın qədim dövrlərdən bəri elm və mədəniyyət mərkəzi olmasını təbliğ etmək, müxtəlif xarici ölkələrin alimlərinin respublika ilə tanış olmaları, əlaqələr yaratmaları məqsədilə tədbirlər keçirir, MK-nın müvafiq qərarlar qəbul etməsinə nail olurdu. Onun təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1981-ci il 14 iyul tarixli iclasında görkəmli alim Məhəmməd Nəsrəddin Tusinin 780 illiyinin qeyd edilməsi barədə qərar qəbul olundu[109]. Qərara əsasən Bakı və Moskvada şənliklər, elmi sessiyalar keçirilməli, Bakı və Naxçıvanda Tusinin abidəsi ucaldılmalı, xatirə medalı, poçt markası, döş nişanı, plakatlar buraxılmalı, monoqrafiya və kitablar

[108] Azərbaycan KP MK-nın «Azərbaycan SSR Elmlər Akademiyası respublika əlyazmaları fondunun fəaliyyətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərarı. - «Kommunist» qəzeti, 1981, 13 avqust, №189 (17823).

[109] ARSPİHDA, f. 1, siy. 68, iş 99 (100), pr. №18, § 11; Azərbaycan KP MK-nın «Məhəmməd Nəsrəddin Tusinin anadan olmasının 780 illiyinin bayram edilməsi haqqında» qərarı. - «Kommunist» qəzeti, 1981, 14 avqust, №190 (17824).



hazırlanıb nəşr edilməli, filmlər çəkilməli, yubiley sərgiləri açılmalı idi.

MK qərarına üyğun olaraq Tusinin möhtəşəm yubileyi, elmi sessiyalar keçirildi, kitablar nəşr olundu. Tusiyə həsr olunmuş təntənəli gecədə H.Əliyev şəxsən iştirak etdi[110].

H.Əliyev Azərbaycanı Şərqi öyrənməkdə sovet elminin qabaqcıl mərkəzinə çevirmək istiqamətində də əzmlə çalışırdı. Şərqdə baş verən proseslər, xüsusən İran inqilabı və Əfqanıstana sovet müdaxiləsi bu məsələnin həllini daha da aktuallaşdırırdı. Yaranmış şəraitdən Azərbaycanın mənafeləri naminə istifadə edən H.Əliyevin təşəbbüsü ilə Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda Cənubi Azərbaycan tarixi şöbəsi, 1982-ci ildə isə Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan şöbəsi təşkil edildi[111]. Elə həmin ildə görkəmli şərqşünas alim Mirzə Kazımbəyin anadan olmasının 180 illiyi qeyd olundu[112].

Respublika rəhbəri Azərbaycan folklorunun dərindən araşdırılması və öyrədilməsini tövsiyə edirdi. Bu barədə danışan H.Əliyev yazıçıların VII qurultayındakı nitqində deyirdi: «Yurdun folkloru, müxtəlif el sənətləri, etimologiya, dil tarixi, hamısı küll halında öyrənilməlidir»[113]. O bu istiqamətdə tədqiqat işlərinin aparılmasını təşviq edir və əlverişli şərait yaradırdı.

H.Əliyev Azərbaycan aliminə xüsusi diqqət yetirir, onları dövlətin yüksək orden və medalları ilə təltif olunmağa təqdim edirdi. O, görkəmli alimlərin yubileylərini keçirir və məişət şəraitini yaxşılaşdırırdı. Azərbaycan alimi onun qayğısı ilə əhatə olunmuşdu. Məhz Azərbaycan rəhbərinin sayəsində görkəmli elm xadimləri dövlətin orden və medallarına layiq görülür, fəxri adlar alırdılar. Bununla bağlı olaraq H.Əliyevin

[110] «Kommunist» qəzeti, 1981, 25 noyabr, №273 (17907); 26 noyabr, №274 (17908).

[111] «Kommunist» qəzeti, 1982, 9 oktyabr, №234 (17868).

[112] «Kommunist» qəzeti, 1982, 24 noyabr, №270 (18204).

[113] ARƏİDA, f. 340, siy. 1, bağ. 71, iş 1694, v.108.

təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun iclaslarında məsələlər müzakirə edilir, Sov. İKP MK-ya məktublar yazılırdı. Məsələn, görkəmli ədəbiyyatşünas alim, akademik M.A.Dadaşzadənin 70 illik yubileyi münasibətilə Oktyabr inqilabı ordeni ilə təltif edilməsi haqqında Azərbaycan KP MK bürosunun 1974-cü il 21 may tarixli qərarına uyğun olaraq H.Əliyev may ayının 24-də Sov. İKP MK-ya imzaladığı 253 №-li məxfi məktubda onu nüfuzlu, görkəmli alim kimi səciyyələndirir və mükafatın verilməsini xahiş edirdi[114]. H.Əliyev bu istəyinə nail oldu.

Azərbaycan KP MK bürosunun 1977-ci il yanvar ayının 11-də keçirilən iclasında tanınmış tarixçi alim, akademik Ə.Sumbatzadənin Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə müvafiq məktubla Sov. İKP MK-ya müraciət etmək haqqında qərar qəbul olundu[115]. H.Əliyev bu istəyinə çatdı. Azərbaycan alimi M.Qaşqayın təltif olunması barədə də məktub yazıldı[116]. Akademik Ə.Hüseynovun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə həmin ilin sentyabr ayının 13-də 394 №-li[117], M.Quluzadənin eyni ordenlə təltif edilməsi barədə oktyabr ayının 12-də 441 №li məxfi məktublarla Sov. İKP MK-ya müraciət edildi[118]. Həmin ildə görkəmli coğrafiyaşünas alim, akademik H.Əliyevin anadan olmasının 70 illik yubileyi qeyd olundu[119]. Sonrakı illərdə də bu iş davam etdirildi. H.Əliyev ədəbiyyatşünas alim H.Araslının anadan olmasının 75 illiyi münasibətilə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə 1979-cu il fevral ayının 8-də 59 №li məxfi məktubu imzaladı[120].

[114] ARSPİHDA, f. 1, siy. 61, iş 48, v. 82.
[115] ARSPİHDA, f. 1, siy. 64, pr. №29, § 19, v.30; iş 11 (12).
[116] ARSPİHDA, f. 1, siy. 64, iş 127, v. 2-5.
[117] Yenə orada, v. 65-66.
[118] Yenə orada, v. 81-82.
[119] Gerasimov İ., Budaqov B. Təbiət vurğunu. - «Kommunist» qəzeti, 1977, 16 dekabr, №292 (16727).
[120] ARSPİHDA, f. 1, siy. 66, iş 168, v. 7-8.



H.Araslı həmin ordenlə təltif edildi[121]. Görkəmli dilçi alim, akademik M.Şirəliyevin Lenin ordeni ilə təltif edilməsi haqqında həmin ilin iyun ayının 26-da 327 №-li məxfi məktubla Sov. İKP MK-ya müraciət edildi[122]. Bu xahiş də yerinə yetirildi. Yenə eyni ilin avqust ayının 22-də kimyaçı alim İ.Orucovanın Oktyabr inqilabı ordeni ilə təltif edilməsi haqqında 369 №-li məxfi məktubla Moskvaya müraciət edildi və bu istəyə də nail olundu[123].

H.Əliyevin hakimiyyəti illərində Azərbaycan müxtəlif ümümittifaq və beynəlxalq elmi məclislərin keçirildiyi yerə çevrilmişdi. Respublikada müntəzəm olaraq mötəbər konqreslər, məhəlli məsələlərə həsr olunmuş elmi konfrans və simpoziumlar keçirilirdi. Səfər edən sovet və xarici ölkələrin alimləri Azərbaycan elminin nailiyyətləri, tarixi və mədəniyyəti ilə yaxından tanış olurdular. Məsələn, 1973-cü ilin oktyabr ayında Bakıda 24-cü beynəlxalq astronavtika konqresinin keçirilməsi təkcə Azərbaycanın deyil, həmçinin bütün ölkənin elmi həyatında mühüm hadisəyə çevrildi. Konqresdə 25 ölkədən 560 alim, mütəxəssis, o cümlədən məşhur ABŞ astronavtı T.Stafford iştirak edirdi[124]. Azərbaycan rəhbəri tədbirin yüksək elmi və təşkilatçılıq səviyyədə keçirilməsindən ötrü göstəriş vermişdi. Tədbirin təşkili Azərbaycan elminin nailiyyətlərinin təbliğində və alimlər arasında beynəlxalq əlaqələrin qurulmasında mühüm rol oynadı. ABŞ və digər xarici ölkə alimlərinin bu tədbirdə iştirakı heç şübhəsiz, Azərbaycan elminin dünyanın qabaqcıl elmi dairələri tərəfindən qəbul olunmasına və respublikanın yüksək nüfuzuna dəlalət edirdi.

H.Əliyevin sayəsində Azərbaycan 70-80-ci illərdə inkişaf etməkdə olan ölkələrin xalqları üçün milli, mədəni və elmi inkişafda nümunə rolunu oynayırdı. Bir çox xalqların nüma-

[121] «Kommunist» qəzeti, 1979, 23 fevral, №45 (17084).
[122] ARSPİHDA, f. 1, siy. 66, iş 168, v. 70-72.
[123] Yenə orada, v. 73-74.
[124] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 98.

yəndələri Azərbaycana səfər edərək onun təcrübəsini öyrənirdilər. Həmin ölkələrin alimləri, ictimai və siyasi xadimlərinin iştirakı ilə Bakıda böyük elmi məclislər keçirilirdi. Məsələn, 1977-ci ilin may ayında Bakıda keçirilən Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı mövzusunda nüfuzlu beynəlxalq elmi konfransda 70-dən çox ölkənin siyasi və ictimai xadimləri, alimləri iştirak etdilər. Elmi konfransda geniş və dərin məzmunlu məruzə edən H.Əliyev bu ölkələrin xalqlarının milli azadlıq mübarizəsini yüksək qiymətləndirirdi. Bakıda belə bir tədbirin keçirilməsi və onda H.Əliyevin nitq söyləməsi Azərbaycan rəhbərinin nəinki türk və müsəlman dünyasında, eyni zamanda milli azadlıq mübarizəsi aparan ölkələrin xalqları, hökumət və ictimai dairələri arasında böyük nüfuza malik olan görkəmli dövlət xadimi, onların üzləşdikləri problemlərin həlli yollarını dərindən bilən dünya siyasətçisi olduğunu göstərirdi. Ümumiyyətlə, H.Əliyev sovet rəhbərləri arasında müsəlman Şərqi problemlərini ən mükəmməl bilən siyasi xadim sayılırdı.

H.Əliyev Azərbaycan alimlərinin beynəlxalq əlaqələrinin genişləndirilməsinə böyük əzmlə çalışırdı. Bilavasitə onun sayəsində azərbaycanlı alimlər beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış edir, Azərbaycan elmini dünyada tanıdır və xalqı ləyaqətlə təmsil edirdilər.

H.Əliyev Azərbaycan alimlərini sovet sisteminin təzyiqlərindən xilas edərək himayəsinə alır, dəyərli araşdırmalar aparmaları üçün şərait yaradırdı. Təqib olunanları bəzən özü tənqid edir, danlayır, sanki Moskvaya hər şeyin nəzarətdə olduğunu bildirir, az sonra isə yüksək elmi idarələrdə rəhbər vəzifələrə təyin edir, onlara hər cür şərait yaradır, gözüm-çıxdıya salınmaqdan qoruyurdu. Məsələn, 1964-cü ildə qərar qəbul edilmişdi ki, 150 il əvvəl Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olub. Bu münasibətlə bayram tədbirləri keçirilmiş və Azərbaycan Lenin ordeni ilə təltif olunmuşdu. Azərbaycan haqqında sovet rəhbərliyində tədricən müsbət fikir formalaşmağa başlamışdı. Lakin 1967-1968-ci illərdə tarixçi alim, Sovet



İttifaqı Qəhrəmanı Ziya Bünyadov heç nədən qorxmayaraq bildirirdi ki, Azərbaycan könüllü şəkildə deyil, zorla Rusiyaya birləşdirilib. Bu mövqe həqiqət olsa da, təbii ki, mövcud siyasi konyuktura onu qəbul etmirdi. Tarixçini hətta Elmlər Akademiyasının Partiya Komitəsinə də çağırıb müzakirələr aparmışdılar. Lakin yenə və sonrakı illərdə də Z.Bünyadov öz sözünün üstündə durmuşdu. Buna görə də onu cəzalandırmaq istəyirdilər. Amma Ziya Bünyadov Sovet İttifaqı Qəhrəmanı olduğu üçün ona xətər yetirə bilmirdilər. Bu məsələ şişərək sovet dövlət rəhbərliyi səviyyəsinə qalxmışdı. Vəziyyət getdikcə ağırlaşırdı. Ona görə də H.Əliyev Azərbaycan KP MK plenumunda bəzi tarixçi alimləri - Z.Bünyadov, M.İsmayılov və başqalarını Rusiyaya birləşdirilmə məsələsində açıq şəkildə tənqid etdi, eyni zamanda elə bununla da onların muhafizəsini öz üzərinə götürdü. H.Əliyev az sonra Z.Bünyadovu EA-nın Şərqşünaslıq İnstitutunun direktoru təyin etdi və akademik seçdirdi. Şahidlərin dediyinə görə Elmlər Akademiyasına tarix elmləri üzrə kimlərin seçilməsi məsələsi MK-da müzakirə edilərkən H.Əliyev «mən akademiklərin yerində olsaydım, Sovet İttifaqı Qəhrəmanı olan tanınmış tarixçi alimə səs verərdim» deyərək barmağını Z.Bünyadovun adının üstünə qoyur və onun seçilməsi problemini həll edir. Erməni alimləri tərəfindən «millətçi», «şovinist» adlandırılan və Moskvanın cəzalandırmaq istədiyi Ziya Bünyadovun «Azərbaycan Atabəylər dövləti» kitabına bir müddət sonra dövlət mükafatı verməklə H.Əliyev onu bütün hücumlardan qorudu, eyni zamanda bu məsələdə öz prinsipial mövqeyini qətiyyətlə ortaya qoydu. Bundan sonra ermənilər Heydər Əliyevdən Moskvaya daha çox məktublar yazırdılar ki, millətçidir, şovinistdir, millətçi tarixçiləri müdafiə edir. Sovet sistemi şəraitində H.Əliyev Z.Bünyadovu belə qoruyur və hesab edirdi ki, onun əsərləri xalqın tarixi ilə bağlı həqiqətlərin üzə çıxarılmasında, milli ruhun yüksəldilməsində mühüm rol oynayır.

Azərbaycan rəhbəri eyni münasibəti tənqid etdiyi M.İsmayılova da bəslədi. Sonralar M.İsmayılov EA-nın Tarix

İnstitutunun direktor müavini təyin edildi, akademiyanın müxbir üzvü seçildi.

Qeyd etmək lazımdır ki, sovet dövründə antisovet meylli müəllimlərin auditoriyalara girməsi SSRİ DTK-sı üçün arzuedilən deyildi. Həmin şəxslər daim nəzarət altında olur, gənclərlə ünsiyyət saxlamalarına imkan verilmirdi. SSRİ DTK-nın sədri Y.Andropov 1970-ci il 12 may tarixdə 1281-A №-li məxfi məktubla Sov.İKP MK-ya müraciət edərək bildirirdi ki, bir sıra orta və ali məktəblərdə əvvəllər antisovet fəaliyyət üstündə mühakimə edilmiş bəzi şəxslər müəllim işləyərək tələbə və gənclərə mənfi təsir edirlər. O belə şəxslərin tədris prosesindən uzaqlaşdırılmasını, işə götürülərkən isə həmin amilə diqqət yetirməyi tövsiyə edirdi[125]. Bundan sonra ölkədə həmin istiqamətdə fəaliyyətlər sərtləşdirilsə də, Azərbaycan rəhbəri rejimdən narazı olan müəllimləri Universitetdən uzaqlaşdırmağa meyl etmir, onlara toxunmurdu. Antisovet baxışları ilə tanınmış professor Abbas Zamanov, Xəlil Rza, Bəxtiyar Vahabzadə, Əbülfəz Əliyev və onlarla başqaları ali məktəb auditoriyalarında dərs verməkdə davam edirdilər. Rast gəlinən antisovet, millətçi təzahürlər çox vaxt elə yerindəcə ört-basdır olunur, profilaktik tədbirlərlə tərbiyə işləri görülür, alimlər, ziyalılar rejimin cəngindən xilas edilirdilər. 1975-ci ildə H.Əliyevə məlumat verirlər ki, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimi Əbülfəz Əliyev (Elçibəy) millətçilik üstündə həbs edilib. Bunu eşidən H.Əliyev DTK sədrinə həmin məsələni şişirtməməyi xahiş edir. DTK sədri onun bu xahişini yerinə yetirir. H.Əliyev məsələni araşdırdıqdan sonra öyrənir ki, Ə.Əliyev bir qrup şəxslə çayxanalarda, Universitet auditoriyalarında Rusiyanın Azərbaycanı işğal etməsi, müstəmləkəçilik siyasəti yeritməsi, xalqın ağır vəziyyəti barədə söhbətlər edir. Elə buna görə də onu həbs ediblər. H.Əliyev məsələni dərindən öyrənərək bu söhbətlərin dövlət üçün heç bir təhlükə törətmədiyi qənaətinə gəlir və bir müddət sonra

[125] РГАНИ, ф.89, оп.37, д.3, л.1-5.



СССР
КОМИТЕТ
ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ
при СОВЕТЕ МИНИСТРОВ СССР
«12» мая 1970 г.
№ 1281-А
гор. Москва

Рассекречено

Секретно

КОПИЯ

ЦК КПСС
15482
12.05.1970
320-А/4
ПОДЛЕЖИТ ВОЗВРАТУ
В ОБЩИЙ ОТДЕЛ ЦК КПСС

ЦК КПСС

По имеющимся в Комитете государственной безопасности данным, на педагогической работе в некоторых высших и средних учебных заведениях страны используются лица, в прошлом репрессировавшиеся за антисоветскую деятельность, скомпрометировавшие себя сотрудничеством с гитлеровцами, помогавшие националистическому подполью, и т.п. Отдельные из них и сейчас продолжают оставаться на политически вредных позициях и оказывают отрицательное влияние на учащуюся и студенческую молодежь.

...

поэтому результатом специального изучения. С учетом изложенного представляется целесообразным обратить внимание Министерства высшего и среднего специального образования СССР на необходимость более строгого отбора преподавательского состава в высшие и средние учебные заведения.

ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ

АНДРОПОВ

Ə.Əliyevin həbsdən azad edilməsi barədə göstəriş verir. Həbsdən azad edilən Ə.Əliyev Respublika Əlyazmalar Fondunda işlə təmin edilir. Bununla bağlı olaraq Ə.Elçibəy sonralar yazırdı: «Mən həbsxanaya getdim, həbsxanada onun (H.Əliyevin – M.Q.) əleyhinə oldum, çıxandan sonra da bir-iki il onun əleyhinə idim. Sonralar ki onun bəzi çıxışlarını, bəzi manevrlərini gördüm, inandım ki, o, çox idraklı adamdır, çox güclü şəxsiyyətdir, onun güclü şəxsiyyət olduğunu qəbul etdim. Doğrudan da, etiraf edirəm ki, Heydər Əliyevin təqribən 6 il, 7 il əleyhinə danışdığım halda sonradan elə olub ki, 6 il, 7 il də onu təripləmişəm, öz-özümə boynuma da almışam ki, səhv etmişəm»[126].

H.Əliyevin hakimiyyəti illərində alim cəmiyyətdə ən nüfuzlu və hörmətli şəxslərdən hesab edilirdi. Azərbaycan alimi maddi cəhətdən təmin olunmuşdu, onun yaşayış sarıdan sıxıntısı demək olar ki, yox idi, yaxşı məişət şəraitinə malik idi, bütün ölkədə professor yüksək rütbəli partiya işçisi qədər maaş alırdı. Elə buna görə də gənclər arasında elmə olan maraq güclənirdi. İstedadlı gənclər elmə həvəslə gələrək dissertasiya işlərini müdafiə edib elmi dərəcələr alırdılar. Elm Azərbaycanda ən hörmətli sahələrdən biri hesab edilirdi. Sonralar H.Əliyev deyirdi: «Azərbaycan elmi çox irəliyə getmiş və özünün nə qədər qüdrətli və güclü oldügunu bütün dünyaya göstərmişdir»[127].

H.Əliyev Azərbaycan elminin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirirdi. O, hakimiyyətə gələnədək Azərbaycanda qəribə bir «xəstəlik» əmələ gəlmişdi. Partiya, sovet, təsərrüfat işində işləyən çox adam vəzifə ilə yanaşı elmi dərəcələr almaq istəyir, vəzifələrindən və maddi imkanlarından istifadə edərək namizədlik və doktorluq dissertasiyaları yazdırırdılar. Bütün günü, səhərdən gecə

[126] Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, Gənclik, 1992, s.37.

[127] Azərbaycan beynəlxalq aləmdə. I cild, s. 72.



yarısınadək dövlət işində işləyən bu adamlar bir neçə ildən sonra müdafiə edərək alimlik diplomu alır və belə hesab edirdilər ki, vəzifədən çıxandan sonra onlara lazım ola bilər, gedib elmi müəssisələrin birində vəzifə tuta biləcəklər. Artıq qeyd edildiyi kimi, o dövrdə elm adamlarının maaşları xeyli yüksək idi. Məsələn, 70-ci illərdə Elmi Tədqiqat İnstitutu direktorunun aylıq maaşı MK katiblərinin, Nazirlər Soveti sədrinin muavinlərinin maaşından çox idi. Vəzifədən çıxan bu adamlar elmi idarələrdə özlərinə isti yerlər qazanaraq, rəhbər vəzifələr tutaraq durğunluq yaradırdılar. Bununla da Azərbaycanda elmi dərəcəlilərin sayı artır, elm isə inkişaf etmirdi, alimlər ölkədə və dünyada istənilən qədər tanınmırdılar. H.Əliyev hakimiyyət başına gələn kimi belə hallara qarşı amansız mübarizəyə başladı. Onun səyləri nəticəsində bu biabırçılığın qarşısı alındı, bir çox adamlar cəzalandırıldı. Elmlə müntəzəm məşğul olmayanların dissertasiya işlərini müdafiə etmələri qadağan olundu.

H.Əliyev Moskvada işləməyə getdikdən sonra da Azərbaycan elminə və aliminə olan qayğısını əsirgəmədi. O, görkəmli azərbaycanlı alimlərin nümayəndələrini səmimi şəkildə qəbul edir, tövsiyələrini verir, xalqın mənafelərində ayıq olmalarının gərəkliliyini bildirirdi. Məsələn, erməni tarixçilərinin düşmən hesab etdikləri akademik Ziya Bünyadova 80-ci illərin ortalarında da qayğı göstərir, qəbul edir, məsləhətlərini verirdi. Bu sətirlərin müəllifi ilə birlikdə xarici səfərlərdə olan Ziya Bünyadov H.Əliyevin Moskvadakı kabinetində onunla görüşdüyündən, dəyərli məsləhətlər aldığından, hətta «SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov. İKP MK Siyasi bürosunun üzvünün kabinetində iki fincan kofe içdiyindən və siqaret çəkdiyindən» fəxrlə danışar, bunun çoxlarına nəsib olmadığını deyərdi.

* * *

Beləliklə:

- Azərbaycan xalqının bütün tarixi ərzində məktəb və maarifin ən yüksək inkişafı 70-80-ci illərdə oldu. Xalqın maariflənməsinə xüsusi diqqət verən H.Əliyev sovet dövlətinin ümumi siyasəti fonunda başlıca səylərini məktəb tikintisinə, büdcədən təhsilə ayrılan xərclərin artırılmasına yönəldirdi. Onun hakimiyyəti illərində Azərbaycan məktəb binaları tikintisi meydanına çevrilmişdi. 1969-1982-ci illərdə Azərbaycanda 849 ümumtəhsil məktəbi, yəni ildə orta hesabla təxminən 7 məktəb tikilib istifadəyə verilmişdi. Azərbaycan məktəbinin maddi-texniki bazası, təchizatı yaxşılaşır, məktəb kitabxanaları fondları xeyli zənginləşirdı. Şagirdlərin əmək tərbiyəsinə diqqət yetirilir, məktəb emalatxanaları və müxtəlif peşə yönümlü sahələr inkişaf etdirilirdi;

- H.Əliyev Azərbaycan müəllimınə xüsusi qayğı göstərir, onlara müxtəlif fəxri adlar verir, ən qabaqcıllarını bütün ölkə miqyasında tanıdırdı. Onun hakimiyyəti illərində müəllim Azərbaycanda ən hörmətli şəxslərdən biri hesab edilirdi. H.Əliyevin müəllimə olan hörmətinin əsasında Azərbaycan xalqını savadsızlıqdan, gerilikdən, ətalətdən çıxarmaqda onların oynadıqları yüksək rol dayanırdı. O bildirirdi ki, hər bir savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında müəllimin oynadığı rolu daim yüksək qiymətləndirməlidir. H.Əliyevin özü orta məktəb müəllimlərini unutmur, onları hörmətlə yad edirdi;

- orta məktəblərin ana dilində dərslik, dərs vəsaiti və metodik göstərişlərlə təmin edilməsi məqsədilə fəaliyyət genişləndirilmişdi. Yeni dərslik və dərs vəsaitləri yazılırdı. Müvafiq elmi-tədqiqat institutlarının fəaliyyəti gücləndirilirdi;

- H.Əliyev Azərbaycan təhsilini kütləviləşdirdi. Məktəb yaşlı uşaqlar, xüsusən əvvəlki illərdə məktəbdən uzaq düşmüş qızlar kütləvi surətdə təhsilə cəlb edilmişdilər. Məktəbdən yayınma hallarına demək olar ki, yol verilmirdi. Təhsil sistemində ciddi qayda-qanun yaradılmışdı. Əvvəlki illərdə təhsil almaq imkanı olmayan orta məktəb yaşı keçmiş şəxslər üçün axşam məktəbləri təşkil edilmişdi;



- H.Əliyev hakimiyyətə gələrkən kənd məktəblərində orta ixtisas təhsilli müəllimlər üstünlük təşkil etdiyindən, ixtisası olmayan müəllimlər bir neçə fənni tədris etdiklərindən təhsilin keyfiyyəti də xeyli aşağı idi. Azərbaycan rəhbəri bu vəziyyəti düzəltmək üçün məktəblərin ali təhsilli müəllimlərlə təmin edilməsinə xüsusi qayğı göstərir, bir sıra tədbirlər həyata keçirirdi. Kənd yerlərindən olan abituriyentlərin ali təhsil almaları üçün müsabiqədənkənar qəbula yerlər ayrılırdı. Həmin gənclər təhsil aldıqdan sonra öz doğma yerlərinə qayıdaraq işləyirdilər. Azərbaycanın hətta ucqar kənd məktəblərində ali təhsilli müəllimlər üstünlük təşkil edirdi. Kəndin ümumi mədəni səviyyəsi yüksəlirdi;

- məktəbi ixtisaslı kadrlarla təmin etməkdən ötrü təyinat sistemi genişləndirilmişdi. Təyinatla yerlərə gedən başqa rayonlardan olan gənclər təyinat müddəti başa çatdıqdan sonra bəzən geri dönməyərək orada qalıb ailə qurur və yerli camaatla qaynayıb-qarışırdılar. 70-80-ci illər Azərbaycanın kənd məktəblərində bilik yarışı ilə yadda qalmışdı;

- təyinatla kəndə gedən müəllimlər mənzillə, mənzil kirayə haqqı ilə təmin olunur, kənd təsərrüfatı vergisindən azad edilirdilər. Müəllimlər özlərinə yaxşı evlər tikdirirdilər;

- 1969/1970-ci tədris ilindən başlayaraq respublikanın ali məktəblərində tələbələrin sayı 11%, orta ixtisas məktəblərində isə 14% artmışdı;

- H.Əliyev azərbaycanlı gənclərin dünyanın qabaqcıl elm və mədəniyyət nailiyyətlərini mənimsəmələrinə xüsusi diqqət yetirərək onların ölkənin nüfuzlu ali məktəblərində ümumittifaq büdcəsi hesabına təhsil almalarına nail olurdu. Həmin tələbələrə qayğı göstərilir, problemləri həll edilir, Bakıda və Moskvada onlarla müntəzəm görüşlər keçirilirdi;

- H.Əliyevin hakimiyyəti illərində Azərbaycan başdan-başa savadlılar diyarına çevrildi. Azərbaycan xalqı yüksək

elmə, biliyə, savada səmərəli təhsil sisteminin, zəhmətkeş, qabaqcıl müəllimlərinin və alimlərinin hesabına gəlib çatdı;

- H.Əliyev Azərbaycan aliminə və elminə diqqət yetirir, fundamental elmlərin inkişaf etdirilməsi üçün şərait yaradırdı. O, Bakını beynəlxalq elmi məclislərin keçirildiyi yerə çevirmişdi. Onun səyləri nəticəsində elmi tədqiqat unstitutlarının və azərbaycanlı elmi işçilərin sayı daim artırdı. H.Əliyev Azərbaycan alimlərinə tarix sahəsində ciddi araşdırmalar aparmağı məsləhət görürdü. Müstəqil fikirlərini söyləyən tarixçi alimləri sistemin cəza tədbirlərindən məharətlə qoruyur, onlara müxtəlif vəzifələr verirdi.

Beləliklə, Azərbaycan təhsili, yetişdirilmiş ixtisaslı kadrları və inkişaf etmiş elmi gələcək müstəqilliyin təməlini təşkil edərək onu hazırlamağa başladı. Bütün bunlar istiqlalın təməllərinin birinin yaradılması istiqamətində Heydər Əliyevin tarixi xidməti idi.



# IV FƏSİL

## TARİXİ-MƏDƏNİ, MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN MÜHAFİZƏSİ VƏ İNKİŞAF ETDİRİLMƏSİ

### IV. 1. Tarixi abidələrin mühafizəsi

Dünya təcrübəsindən məlumdur ki, müstəqil dövlətini tanıtmaq istəyən xalqın özünəməxsus tarixi-mədəni, milli-mənəvi xüsusiyyətləri, dəyərləri olmalıdır. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın qədim tarixi abidələrinin dağıdılması və xalqın milli-mənəvi kökündən qopardılması istiqamətində düşünülmüş siyasət yeridilirdi. Belə münasibət bütün 20-30, hətta 40-cı illərdə də davam etdirilmişdi. Həmin illərdə Azərbaycanda tarixi, milli, mədəni abidələrə biganəlik hökm sürürdüsə, məscidlər dağıdılırdısa, H.Əliyev hakimiyyətə gələn kimi bu münasibəti kökündən dəyişdirdi. 70-80-ci illərdə «abidələr tariximizdir» fikri mətbuatda, ictimai-siyasi həyatda daha geniş təbliğ edilməyə başlandı. Bununla bağlı olaraq bir sıra rəsmi qərarlar qəbul edildi. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının mədəni irsinin qorunması, bərpası və təbliği məqsədilə təkcə 1969-1973-cü illərdə partiya və hökumətin 15 qərar və sərəncamı verilmişdi.

H.Əliyev hakimiyyətə gələn kimi Azərbaycan xalqının tarixi-mədəni abidələrinin qorunması, bərpa etdirilməsi və ölkə miqyasında tanıdılması işinə böyük cəsarət və inadkarlıqla başladı. Birinci katib seçildikdən sonra heç bir ay keçməmiş Azərbaycan KP MK bürosunun 1969-cu il 9 sentyabr tarixli iclas qərarı ilə "Duvannı" stansiyasının "Qobustan" adlandırılması məsələsini öyrənmək müvafiq

strukturlara tapşırıldı[1]. Tezliklə bu məsələ öz həllini tapdı.

Azərbaycanda muzey işinə diqqət yetirildi, tarix və mədəniyyət abidələrinin təbliğat vasitəsinə çevrilməsi sahəsində mühüm qərarlar qəbul olundu. Azərbaycan KP MK bürosunun 1970-ci il 30 sentyabr tarixli iclasında Azərbaycan tarixini və mədəniyyətini SSRİ-nin əsas muzeyləri vasitəsi ilə təbliğ etmək barədə qərar qəbul olundu[2]. Bundan sonra qərarın yerinə yetirilməsi üçün geniş iş başladıldı.

KP MK bürosunun 1972-ci ildə keçirilmiş iclas qərarı ilə Azərbaycan tarixi muzeyinin 50 illiyi qeyd edildi. Bununla bağlı olaraq elmi konfrans keçirildi. Əgər həmin ildə muzeydə 170 min eksponat saxlanılırdısa, sonrakı illərdə onların sayı xeyli artırıldı[3]. Azərbaycanın hər yerində tarix və mədəniyyət nümunələrinin toplanılması və mühafizəsi işi yaxşılaşdırıldı.

Dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx mağarasının, açıq səma altında muzey olan Qobustanın tədqiqinə, alban məbədlərinin qorunmasına diqqət artırıldı, Beyləqan, Gəncə, Şamaxı, Naxçıvan və Şəmkirdəki tarixi abidələr, Qız qalası, Naxçıvandakı abidələr, Qarabağlar türbəsi, Bərdədə XVI əsrə aid minarə, Ağdamda Xaçın Dorbatlı kəndi yaxınlığında XIV əsrə aid məqbərə, Salyan rayonunda Pirsaat çayının sahilində XIII-XV əsrlərə aid Xanəgah kompleksi, Şəki xan sarayı, Şirvanşahlar sarayı, Atəşgah və onlarla başqa abidələr bərpa edildi. Təkcə 1973-cü ildə Azərbaycan xalqının zəngin tarixini özündə yaşadan 11 abidə eyni zamanda bərpa olunaraq istifadəyə verildi. Qeyd etmək lazımdır ki, həmin ildə respublika ərazisində 200 tarixi abidə dövlət xətti ilə mühafizə edilirdi[4].

---

[1] ARSPİHDA, f. 1, siy. 56, iş 54, pr. №109, § 36, v. 249.
[2] ARSPİHDA, f. 1, siy. 56, iş 57 (58), pr. № 111, § 12.
[3] ARSPİHDA, f. 1, siy. 59 iş 170, v. 53-57.
[4] Bağırov Z. Respublika ərazisində mədəniyyət abidələrinin vəziyyəti və onları qorumaq tədbirləri haqqında. - «Kommunist» qəzeti, 1973, 11 iyul, №160 (15375).



H.Əliyev tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpasına ayrılan büdcə xərclərinin ildən-ilə artırılmasına nail olurdu. 1973-cü ildə tarix və mədəniyyət abidələrinin bərpasına dövlət büdcəsindən 150 min manat vəsait ayrıldı[5]. Qafqaz Albaniyası dövrünün abidələrinin öyrənilməsinə və mühafizəsinə xüsusi diqqət yetirilirdi.

Həmin ildə Respublika Ali Sovetinin sessiyasında mədəniyyət abidələrinin mühafizəsi məsələsi geniş müzakirə edildi. Müvafiq qərarın qəbulundan sonra abidələrə qayğı daha da gücləndirildi. Heç şübhəsiz, həyata keçirilən tədbirlər yalnız bu abidələrin mühafizəsi ilə məhdudlaşmırdı. Onların tədqiqi, təbliği və tanıdılması sahəsində də ciddi işlər görülürdü. Qısa müddət ərzində Azərbaycanın tarixi abidələrinə dair rus, ingilis və ərəb dillərində 8 adda buklet nəşr edildi[6]. Bu bukletlər Azərbaycana səfər edən xarici qonaqlara və turistlərə paylanırdı. Azərbaycan abidələri haqqında Dövlət Kinematoqrafiya Komitəsi az vaxtda 9 sənədli film çəkmişdi. Həmin sənədli filmlər təkcə Azərbaycanda deyil, beynəlxalq festivallarda, sərgi və yarmarkalarda da uğurla nümayiş etdirilirdi.

Azərbaycan radio, televiziya və mətbuatı tarixi abidələrin təbliğinə xüsusi diqqət yetirirdi.

H.Əliyevin göstərişi ilə tarixi abidələrin öyrənilməsinə, tədqiqinə və arxeoloji qazıntılara diqqət artırıldı. Bu məqsədlə ayrılan vəsait çoxaldıldı. Arxeoloji ekspedisiyaların sayı əvvəlki illərlə müqayisədə xeyli artırıldı. Belə bir fakt əhəmiyyətlidir ki, təkcə 1974-cü ildə Azərbaycanın müxtəlif rayonlarında eyni zamanda 9 arxeoloji ekspedisiya, 4 arxeoloji dəstə işləyirdi. Həmin dəstələrdə arxeoloqlarla yanaşı etnoqraflar, sikkəşünaslar, toponimika və epiqrafika mütəxəssisləri, antropoloqlar, paleontoloqlar, paleobotaniklər, geoloqlar, memarlar və qədim dövr tarixçiləri də iştirak edir-

---

[5] Yenə orada.
[6] Yenə orada.

dilər[7]. Tədqiqat işləri kompleks olaraq aparılırdı. Həmin illərdə aparılan arxeoloji qazıntı işləri bütün əvvəlki illərlə müqayisədə xeyli çox idi. Abidələrin elmi cəhətdən öyrənilməsi genişləndirilirdi. Bütün tarixi ərzində İçəri şəhərdə ən mütəşəkkil, sistemli arxeoloji qazıntılara və bərpa işlərinə 70-ci illərin əvvəllərindən başlandı[8]. Qısa müddət ərzində bu sahədə böyük uğurlar əldə edildi.

Abidələrin qorunub-saxlanılması sahəsində Azərbaycanın qazanmış olduğu təcrübədən hətta ölkə miqyasında istifadə edilirdi. Yalnız 1976-cı il oktyabr ayının 29-da «Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında» SSRİ qanunu qəbul edildi[9]. Bu qanunun qəbulundan sonra Azərbaycanda qədim tarix və mədəniyyət abidələrinin mühafizəsi işi daha da gücləndirildi. Müqayisə üçün qeyd edək ki, Gürcüstanda tarix və mədəniyyət abidələrinin mühafizəsinin yaxşılaşdırılması və istifadə edilməsi tədbirləri haqqında Gürcüstan SSR Nazirlər Sovetinin qərarı yalnız 1978-ci il fevral ayının 24-də verildi[10].

H.Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi altında orta əsr Azərbaycan memarlarının irsinin öyrədilməsinə və təbliğinə xüsusi qayğı göstərilirdi. Görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin anadan olmasının 850 illiyi 1976-cı ildə böyük təntənə ilə qeyd edildi. Bu münasibətlə xüsusi elmi sessiya, konfrans və seminarlar keçirildi[11]. Onun irsi geniş təbliğ edilməyə başlandı.

---

[7] Mustafayev A. Abidələr tədqiq olunur. – «Kommunist» qəzeti, 1974, 8 dekabr, №287 (15807).

[8] Məmmədzadə K., Quliyev N. Xalqın sərvəti. – «Kommunist» qəzeti 1976, 10 avqust, №185 (16314).

[9] «Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında» SSRİ qanunu. - «Kommunist» qəzeti, 1976, 31 oktyabr, №255 (16384).

[10] Постановления Совета Министров Грузинской ССР за февраль 1978 г. Тбилиси, тип. Управделами СМ Груз. ССР, 1978, с.163-167.

[11] Əcəmi Naxçıvaninin yubileyi şərəfinə Bakıda elmi sessiya. – «Kommunist» qəzeti, 1976, 18 dekabr, № 295 (16424).



1976-1981-ci illərdə tarix və mədəniyyət abidələrinin qorunması, bərpası, tanıdılması və xalqın ixtiyarına verilməsi genişləndirildi. 1976-cı illə müqayisədə 1981-ci ildə abidələrin mühafizəsi və bərpası məqsədilə Dövlət büdcəsindən ayrılan vəsait dörd dəfə artırıldı. Həmin işlərə 6,8 mln. manat xərcləndi. Göstərilən illərdə qədim tarixi abidələrin aşkara çıxarılması, qeydə alınması və bərpa edilməsi işi daha da yaxşılaşdırıldı. Bakı şəhərində Əmircan qəsəbəsində, Gəncə, Lənkəran və Qubada tarixi-mədəni abidələr bərpa olunaraq xalqın istifadəsinə verildi.

Qeyd etmək lazımdır ki, 70-80-ci illərdə məscidlərin bərpa olunaraq dindarların ixtiyarına verilməsi sovet sisteminin şərtləri ucbatından mümkün olmadığından dağılmaqda olan məscidlər tarixi abidələr adı altında bərpa edilib muzeylərə çevrilərək xalqın istifadəsinə verilirdi. Bununla da həmin abidələrin dağılmasının qarşısı alınırdı.

Arxeoloji qazıntılar zamanı tapılan qiymətli əşyaların itib-batmasının qarşısının alınması, memarlıq və arxeologiya abidələrinin mühafizəsi məqsədilə H.Əliyev mühüm qərarların qəbuluna nail olurdu. Məsələn, 1981-ci ilin oktyabr ayında Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti «Azərbaycan SSR-də şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsini, bərpasını və onlardan istifadə olunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etdi[12]. Bu qərar Azərbaycan tarixinə, mədəni irsinə, onun mühafizəsinə və təbliğinə münasibətdə H.Əliyevin baxışlar sisteminin mahiyyətini, sovet sistemi şəraitində həmin istiqamətdə konkret və perspektiv planlarını özündə əks etdirirdi. Qərar başdan-başa Azərbaycan tarixinə, mədəni irsə sevgi və məhəbbətlə dolu idi. Sənəddə bu sahədə görülən

---

[12] Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin «Azərbaycan SSR-də şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsini, bərpasını və onlardan istifadə olunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərarı. – «Kommunist» qəzeti, 1981, 4 oktyabr, № 231 (17865).

işlər təhlil edilərək müsbət qiymətləndirilir, eyni zamanda tarixi abidələrin qorunması və bərpası zəruriliyi göstərilirdi. Qərarda birmənalı olaraq qeyd edilirdi ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında Qarabağlar türbəsi, Qusar rayonunda Həzrə kəndindəki məqbərə, Dəvəçi rayonunda Çıraqqala, Şamaxıda Cümə məscidi və bəzi başqa nadir abidələr bərbad haldadır. Hadrud rayonundakı Azıx mağarası, Qax rayonunun Ləkid kəndindəki alban monastırı kimi tarixi abidələr yarıtmaz vəziyyətdədir. Qərarda qeyd edilirdi ki, arxeoloji materialların saxlanılmasına xüsusi fikir verilmir. İçəri şəhərin bərpa planının hazırlanması, Qobustan tarix-mədəniyyət qoruğunun abadlaşdırılması, Qəbələ şəhər yerinin şərq hissəsində uçqunların qarşısının alınması sahəsində işlər görülmür, tarix-mədəniyyət abidələrinin pasportlaşdırılması və «Azərbaycan arxitektura abidələri toplusu»nun tərtib edilməsi işləri ləng aparılır, abidələrin bərpası yubadılır və s.

Qərarda bütün aidiyyatı orqanlara tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası məsələlərinə diqqətin gücləndirilməsi, tikinti, torpaq və kənd təsərrüfatı işləri görülərkən tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında qanuna əməl edilməsi, abidə olan ərazilərin müntəzəm surətdə təmizlənməsi, yerlərdə şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsi, bərpası və onlardan istifadə üzrə yerli orqanların, bu sahə üzrə Elmi-Bərpa idarəsinin, elmi-bərpa emalatxanalarının yaradılması nəzərdə tutulurdu. Nazirlər Soveti yanında Şəhərsalma, Arxitektura və Arxeologiya abidələrinin mühafizəsi, bərpası və onlardan istifadə üzrə baş idarə üç ay müddətində 1982-1985-ci illərdə və 1990-cı ilədək Azərbaycanda bu abidələrin mühafizəsi və istifadəsi üzrə planı işləyib hazırlamalı idi. Eyni zamanda nadir abidələrə xüsusi diqqət yetirilməli, qeydiyyatı aparılmalı, abidələrin üzərindəki mühafizə lövhələri təzələnməli, müxtəlif dillərdə elmi-kütləvi kitabçalar, bukletlər, xəritələr, plakatlar, sənədli filmlər hazırlanmalı,



Təhsil Nazirliyi sistemində ali və orta ixtisas məktəblərində bərpaçı arxeoloq, arxitektor, rəssam və başqa mütəxəssislər hazırlanmalı idi. 1982-ci ildən etibarən «Arxeologiya salnaməsi» məcmuəsi buraxılmalı, arxeoloji ekspedisiyaların işi yaxşılaşdırılmalı, qazıntı aparılan rayonlarda müvafiq bazalar yaradılmalı, çöl arxeoloji işləri başa çatdıqdan sonra hər il Bakıda sərgilər keçirilməli, «Azərbaycan tarix və mədəniyyət abidələrinin toplusu» tərtib edilməli, epiqrafika və daş heykəltaraşlığı abidələrinin aşkara çıxarılması və toplanması, mühafizəsi, pasportlaşdırılması və bərpası işləri gücləndirilməli, bu sahədə qanunları pozanlara qarşı ciddi tədbirlər tətbiq edilməli idi.

Qərarın qəbul edilməsindən sonra milli-tarixi və mədəni abidələrin mühafizəsi və bərpası işi daha da gücləndirildi. İçəri şəhər, Ordubad və Şuşa şəhərlərinin tarixən yaranmış hissələri tarixi memarlıq qoruqları elan edildi. Lahıc kəndi, Qafqaz Albaniyasının mərkəzi olmuş qədim Qəbələ şəhər yeri tarixi mədəniyyət qoruqlarına çevrildi. Respublika ərazisində 20-dən çox tarixi abidə qısa müddətdə bərpa edildi. Belə bir fakt əhəmiyyətlidir ki, 1981-ci ildə Azərbaycanda 47 abidə üzərində eyni zamanda bərpa işləri aparılmışdı[13]. Bununla yanaşı olaraq abidələr haqqında bukletlər və döş nişanları kütləvi şəkildə buraxıldı. Milli tarix və mədəniyyət abidələrinin bərpası məqsədilə Azərbaycanın Dövlət büdcəsindən ayrılan məsrəflər artırıldı. Konkret rəqəmlə deyilsə, bu sahəyə Dövlət büdcəsindən ayrılan xərclər 1981-ci ilin hesabatına nisbətən 1982-ci ildə 19,2% artımla 3,1 mln. manat olmuşdu[14]. Qeyd etmək lazımdır ki, bütün sovet tarixi ərzində o vaxtadək belə geniş əhatəli, mühüm tarixi əhəmiyyətli qərar qəbul edilməmişdi. Əslində bu qərar tarix və mədəniyyət abidələrinin bərpası, mühafizəsi və xalqın istifadəsinə verilməsində böyük addım olub Azərbaycan rəhbərinin qədim tarixi-mədəni irsə bağlılığını,

[13] «Kommunist» qəzeti, 1981, 29 noyabr, № 276 (17910).
[14] «Kommunist» qəzeti, 1981, 4 dekabr, № 280 (17914).

sədaqətini, qayğısını və təbliğinə diqqətini nümayiş etdirirdi.

H.Əliyev tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpasının yalnız dövlət və hökumət orqanları tərəfindən aparılması ilə kifayətlənməyərək geniş ictimaiyyəti də bu işə fəal qoşmağa səylər edirdi. O, abidələrin mühafizəsi və təbliğini ümumxalq işinə çevirməyə çalışır, bununla da xalqı öz tarixi keçmişini, köklərini öyrənməyə səsləyir, milli ruhu ölməyə qoymur, qan yaddaşını gücləndirirdi. Belə fəaliyyəti ilə H.Əliyev əsasən aşağıdakı strateji məqsədləri güdürdü: tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpa etdirilməsi ilə xalq öz tarixi keçmişindən ayrılmasın; maddi tarixi keçmişini yaxşı bilsin və onu təbliğ etsin. Azərbaycan rəhbəri bundan ötrü uğurlu yollar da axtarıb tapırdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1981-ci il 26 may tarixli iclasında Azərbaycan tarix və mədəniyyət abidələrini könüllü mühafizə cəmiyyətinin III qurultayını keçirmək barədə qərar qəbul olundu[15]. Bu qərara müvafiq olaraq həmin ilin noyabr ayında Azərbaycan tarix və mədəniyyət abidələrinin könüllü mühafizə cəmiyyətinin III qurultayı keçirildi. H.Əliyev həmin qurultayda iştirak etdi[16]. Azərbaycan rəhbərinin cəmiyyətin qurultayında iştirakı qədim tarix və mədəniyyət abidələrinin mühafizəsinə, bərpasına, xalq içində tanıdılmasına, mənsub olduğu xalqın tarixi kökündən ayrılmamasına xüsusi diqqət yetirdiyini göstərirdi. Qurultaydan sonra tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği işi həm rəsmi strukturlar, həm də ictimaiyyət tərəfindən daha da genişləndirildi. Sovet hakimiyyəti illərində ilk dəfə olaraq Azərbaycanın qədim tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası işinə yeni nəfəs verildi. Artıq Azərbaycanda tarixi abidələrin bərpa olunmadığı rayona rast gəlmək mümkün deyildi.

Ümumiyyətlə, 1982-ci ilə qədər 6571 tarix və mədə-

[15] ARSPİHDA, f. 1, siy. 68, iş 79, pr. №12).

[16] Xalqın tarixinin solmaz səhifələri. – « Kommunist» qəzeti, 1981, 29 noyabr, № 276 (17910).



niyyət abidəsi dövlət qeydiyyatına götürülmüş, 2000-ə yaxın abidə isə yeni aşkar edilmişdi.

H.Əliyev abidələrin yalnız bərpası ilə kifayətlənməyib rayonlarda tarixi və arxeoloji tapıntıların mühafizəsinə diqqət yetirərək tarix-diyarşünaslıq muzeylərinin yaradılması işinə başladı. Belə muzeylərin yaradılması həm yerli əhalinin regionun tarixini dərindən bilməsinə kömək edirdi, həm də yeni iş yerlərinin açılması, ayrı-ayrı ailələrin həyat şəraitinin yaxşılaşdırılması demək idi. Eyni zamanda məktəblilərin və yerli sakinlərin muzeylərə getməsi diyarın tarixinin öyrədilməsində müstəsna əhəmiyyət daşıyırdı. Azərbaycanın 1981-ci il Dövlət büdcəsində respublika ərazisində 55 tarix-diyarşünaslıq muzeyinin açılması nəzərdə tutulmuşdu. Bu məqsədlə 2,8 mln. manat vəsait ayrıldı. Qeyd etmək lazımdır ki, bu məbləğ 1979-cu illə müqayisədə 12% çox idi.

Azərbaycan KP MK bürosunun 1981-1982-ci illərdə keçirilmiş iclas qərarları ilə Azərbaycanın bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılmağa başlandı[17]. Məsələn, büronun 1982-ci il 12 yanvar tarixli iclasında Yardımlı, Dəvəçi və Kürdəmir rayonlarında tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında qərar qəbul edildi[18]. Tezliklə bu qərarın icrası yerinə yetirildi. Yardımlı rayonunda 1973-cü ildən 1982-ci ilin sonlarınadək mədəniyyət şöbəsinin müdiri işləmiş Balabəy Rzayevin inadlı fəaliyyəti və yorulmaz səyləri nəticəsində MK bürosunun həmin qərarı uğurla həyata keçirildi. Maşın gedə bilməyən ucqar dağ kəndlərində olan maddi-mədəniyyət abidələri, qədim eksponatlar toplanaraq, bəzən atlarla daşınaraq rayonda zəngin tarix-diyarşünaslıq muzeyi yaradıldı[19]. Muzeyin qurulması Yardımlı tarixində o vaxtadək görünməmiş bir hadisə idi. Ümumiyyətlə,

[17] ARSPİHDA, f. 1, siy. 68, iş 92, pr. №16, § 11; iş 127 (128), pr. №27, §17; siy. 70, iş 132, pr. №72, § 7.

[18] ARSPİHDA, f. 1, siy. 70, iş 21, pr. №41, § 9.

[19] İsgəndərov Ə., Babayev Ə. Mərd və sözü bütöv insan. – «Zirvə» qəzeti, 2003, 16 avqust, № 15-16 (5514).

70-ci illər-80-ci illərin ortaları Yardımlıda mədəniyyətin yüksək inkişafı illəridir. Muzeyin açılması isə rayonun mədəniyyət tarixində böyük və ən mühüm hadisələrdən hesab edilirdi. Əslində Yardımlı kimi «əlçatmaz» bir rayonda tarix-diyarşünaslıq muzeyinin yaradılması 60-cı illərin ortalarında Azərbaycan SSR DTK sədrinin müavini işləyərkən Yardımlıya səfər etmiş, rayonun coğrafiyasına, əhalisinin həyatına yaxşı bələd olan H.Əliyevin yardımlılara ən böyük hədiyyəsi idi. Muzeyin yaradılması rayonun ictimai-siyasi, mədəni və maarif həyatında mühüm hadisəyə çevrildi.

Tarix-diyarşünaslıq muzeyləri digər rayonlarda da yaradıldı. Bütövlükdə, 1969-1982-ci illərdə Azərbaycanda onlarla muzey tikilib istifadəyə verildi. Nəticədə yerli tarixın öyrənilməsi, öyrədilməsi və təbliği istiqamətində ciddi addım atıldı, eyni zamanda yeni iş yerləri yaradıldı, ailələrin şəxsi büdcəsinə pul vəsaitləri daxil olmağa başladı.

H.Əliyev tarixi abidələrin yalnız mühafizi deyil, eyni zamanda yenilərinin də qurucusu idi. Onun bilavasitə təşəbbüsü, göstərişi və rəhbərliyi altında Azərbaycanın görkəmli dövlət xadimlərinin heykəlləri yaradılır və qoyulurdu. Məsələn, Azərbaycan KP MK bürosunun 1972-ci il 24 may tarixli iclasında Azərbaycanın görkəmli dövlət və ictimai xadimi, sağlığında milli təmayüllü kommunist kimi müxtəlif təqiblərə, təzyiqlərə məruz qalan, ölümündən sonra isə unutdurulan Nəriman Nərimanovun Bakı şəhərində heykəlinin açılması barədə qərar qəbul edildi[20]. Lakin Moskvada bu heykəlin qoyulmasına mane olanlar var idi. H.Əliyev sovet rəhbərliyi ilə danışaraq məsələni həll etdi. Qərara müvafiq olaraq 1972-ci il iyun ayının 6-da Bakı şəhərində N.Nərimanovun abidəsinin açılışı oldu. Açılış mərasimində iştirak edən H.Əliyev geniş nitq söylədi. Nitqində o deyirdi: «Nərimanov qəlbinin bütün hərarəti ilə xalqa xidmət etmişdir», Nərimanov «... xalqla daim ünsiyyətdə olmağa böyük ehtiyac hiss

[20] ARSPİHDA, f. 1, siy. 59, iş 44 (45) pr. №38, § 4.



edirdi»[21]. İyun ayının 30-da isə N.Nərimanovun anadan olmasının 100 illiyi münasibətilə etdiyi məruzəsində H.Əliyev deyirdi: «N.Nərimanov ədəbi yaradıcılığa... nadanlığa, dini fanatismə və cəhalətpərəstliyə fəal müqavimət ruhunda tərbiyə etmək vasitəsi kimi baxırdı»[22]. Heç şübhəsiz, H.Əliyevin bu fəaliyyəti mahiyyətinə görə yalnız abidə açılışı anlamında qiymətləndirilərsə, yarımçıq olar. Əslində H.Əliyev həmin addımı ilə N.Nərimanova görkəmli dövlət adamı kimi bəraət verir, onun təbliğinə, tanıdılmasına başlayırdı. Çünki ölümündən keçən müddət ərzində N.Nərimanov əsasən yazıçı, dramaturq kimi təqdim olunur, Azərbaycan xalqının sanki böyük dövlət adamı yetişdirə bilməməsi fikri təlqin edilirdi. Belə bir fakt diqqəti cəlb edir ki, Sov.İKP MK rəyasət heyətinin hələ 1959-cu il 2 iyul tarixli iclasında qəbul edilən qərarda Nəriman Nərimanovun rolunu şişirtməmək barədə maddə də yazılmışdı[23]. H.Əliyev həmin qərara məhəl qoymayaraq və yanlış təbliğatı cəsarətlə darmadağın edərək yeni şəraitdə N.Nərimanovu dirçəltməklə özü daha da ucalırdı. Beləliklə, H.Əliyev Azərbaycan torpağında azərbaycanlı dövlət adamına abidə qoymaqla xalqında dövlətçilik, dövlət adamlarına rəğbət və hörmət hissini gücləndirirdi.

H.Əliyev bununla kifayətlənməyərək N.Nərimanovun abidəsinin SSRİ-nin başqa şəhərlərində də qoyulmasına səylər edirdi. Azərbaycan KP MK bürosunun 1977-ci il 8 dekabr tarixli iclasında Rusiyanın Ulyanovsk şəhərində N.Nərimanovun abidəsinin açılması haqqında qərar qəbul edildi[24]. O, Nərimanovun abidəsini hazırlatdı və həmin ilin dekabr ayında Ulyanovsk şəhərində açaraq geniş nitq söylə-

[21] Əliyev H. Ə. Nəriman Nərimanovun abidəsinin açılışında nitq. – «Kommunist» qəzeti, 1972, 7 iyun, №132 (15042).

[22] Əliyev H. Ə. Görkəmli partiya və dövlət xadimi. - «Kommunist» qəzeti, 1972, 30 iyun, №152 (15062).

[23] РГАНИ, ф.3, оп.12, д.1010, л.28-28об.

[24] ARSPİHDA, f. 1, siy. 64, iş 90 (91) pr. №52, § 7.

di[25]. Onun nitqi Azərbaycanın sovet dövrü tarixinə, milli təmayüllü kommunist olmuş N.Nərimanovun dövlət adamı kimi tanıdılmasına qayğının nümunəsi idi. Bununla, eyni zamanda H.Əliyev azərbaycanlı dövlət adamlarının ölkənin həyatında mühüm rol oynadığını qabardırdı. Görülən belə işlər sonrakı illərdə də davam etdirildi. Azərbaycan KP MK bürosunun 1980-ci il 10 mart tarixli iclasında N.Nərimanovun anadan olmasının 110-cu ildönümünün bayram edilməsi haqqında qərar qəbul olundu[26]. Qərara müvafiq olaraq həmin ilin aprel ayında təntənəli yığıncaq keçirildi[27]. Bundan bir neçə il sonra 1982-ci ilin noyabr ayında H.Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi altında N.Nərimanovun Moskvada yaşadığı evə xatirə lövhəsi asıldı[28]. H.Əliyevin N.Nərimanova belə diqqəti hansı rejimin mövcudluğundan asılı olmayaraq Azərbaycan xalqının dövlətçilik tarixinə və dövlət adamlarına ehtiramının nümunəsi idi.

H.Əliyev xalqının mədəniyyəti və tarixi ilə bağlı yerləri təkcə böyük məhəbbətlə sevmir, eyni zamanda tarixi adlarını özünə qaytarırdı. Onun bu fəaliyyəti özünü Gəncə şəhərinin adının işlədilməsinə nail olmaqda göstərdi. Məlumdur ki, Sergey Mironoviç Kirovun şərəfinə verilmiş Kirovabad şəhərinin adının dəyişdirilib yenidən Gəncə adlandırılması sovet sistemi şəraitində respublikanın kommunist rəhbəri üçün xeyli dərəcədə təhlükəli bir iş idi.

Tarix boyu hər bir azərbaycanlı üçün Gəncə şəhərinin adı milli qeyrət, mənəvi təmizlik və qəhrəmanlıq mənasını daşımışdı. Məlumdur ki, çarizmin işğalına qarşı mübarizədə Gəncə əhalisinin bir qismi Cavad xan başda olmaqla qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olsa da, təslim olmamışdı. İşğaldan sonra Rusiya imperatoru 1804-cü ildə şəhərin adını dəyişərək Yelizavetpol adlandırmışdı. Hətta Gəncə

[25] «Kommunist» qəzeti, 1977, 11 dekabr, № 288 (16723).
[26] ARSPİHDA, f. 1, siy. 67, iş 67, pr. №132, § 10.
[27] «Kommunist» qəzeti, 1980, 15 aprel, №89 (17425).
[28] «Kommunist» qəzeti, 1982, 27 noyabr, №273 (18207).



ifadəsini işlədən adam 1 manat gümüş pulla cərimə edilirdi. O dövrdə bu məbləğə yeddi baş qoyun almaq olardı. 1918-ci ildə Azərbaycanın dövlət müstəqilliyi respublika formasında bərpa edildikdən sonra milli hökumət Gəncə şəhərinin adını özünə qaytarmışdı. Bakı eser, menşevik, daşnak işğalçılarından azad edilənədək Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı müvəqqəti olaraq məhz Gəncə elan edilmişdi. 1920-ci ilin aprelində Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra Gəncə şəhərində bolşevik hökumətinə qarşı qalxan silahlı üsyan nəticəsində hakimiyyət müvəqqəti olaraq devrildi. Aprel ayında Bakıda işğal zamanı baş verən rüsvayçılığı, müqavimət göstərməməyi Gəncə şəhərinin əhalisi Azərbaycan milli ordusunun əsgər və zabitləri ilə birlikdə qanla yudu. Lakin üsyan amansızlıqla yatırıldı, əhaliyə qəddarlıqla divan tutuldu. Adamlar küçədə vəhşicəsinə güllələnirdi. Sovet hökuməti bununla kifayətlənməyərək bir neçə il sonra, 1935-ci ildə şəhərin adını da dəyişdirdi. Şəhərin adının rəsmi olaraq Kirovabad adlandırılmasına baxmayaraq, xalq içərisində Gəncə deyilir və yad olan «Kirovabad» ifadəsi əhali tərəfindən qəbul edilmirdi. Həm çar, həm də sovet hakimiyyəti Gəncənin adını dəyişərək unutdurulmasına, yaddaşlardan silinməsinə çalışsa da, xalq qəlbən bununla barışmırdı. Şəhərin adının bərpa edilməsinə dair müəyyən vaxtlarda səslənən bəzi təkliflərin də qarşısı amansızlıqla alınmışdı.

Sovet sistemi şəraitində bu məsələni böyük məharət və cəsarətlə həll edən siyasi, dövlət xadimi məhz H.Əliyev oldu. O, heyrətamiz ustalıqla Gəncə adının yenidən rəsmi səviyyələrdə işlədilməsi niyyətini reallaşdırdı. O zaman Azərbaycan Kommunist Partiyası Kirovabad şəhər partiya komitəsinin birinci katibi işləmiş Həsən Həsənov nəql edir ki, MK-nın təşkilat şöbə müdirinin millətcə rus olan müavini ona zəng edib Kirovabadda iki rayon partiya komitəsi yaradaraq birini Lenin və ya Kirov, o birini isə Sovet və ya Zavod adlandırmaq barədə qərar çıxarıb MK-ya göndərməyi tapşırır. H.Həsənov isə

bildirir ki, bu məsələ barədə təkliflərini şəhər partiya komitəsinə yazılı şəkildə, məktubla göndərsin. Şöbə müdirinin müavini isə təklifinin yerinə yetirilməsində israr edir. Şəhər partiya komitəsinin rəhbəri fikrindən geri çəkilmir. Nəticədə MK-nın şöbə müdirinin müavini ilə şəhər partiya komitəsinin birinci katibi arasında narazılıq yaranır. Bu vəziyyətdən xəbər tutan MK-nın təşkilat şöbə müdiri İ.İsmayılov H.Həsənova telefon açaraq yaranmış narazılığın səbəbini soruşur. H.Həsənov məsələnin mahiyyətini izah etdikdən sonra şöbə müdiri vəziyyəti H.Əliyevə məruzə edəcəyini söyləyir. Bundan sonra vəziyyətdən hali olan H.Əliyev H.Həsənova zəng edərək Kirovabad şəhərində iki rayon yaradılması barədə fikirlərini soruşur. H.Həsənov rayonlardan birinin adının Nizami, digərinin adının isə ya Kəpəz, ya da Yeni Gəncə adlandırılmasını təklif edir. H.Əliyev bildirir ki, Nizami təkcə Gəncənin deyil, bütün Azərbaycanındır, Bakıda onun adına rayon yaratmaq olar. Daha sonra H.Əliyev «Yeni Gəncə nə deməkdir» - deyə soruşur və «Yeni» sözünün çıxarılmasını, rayonlardan birinin Gəncə adlandırılmasını təklif edir. Bundan sonra Azərbaycan KP MK bürosunda bu məsələ ilə bağlı müzakirə keçirilərkən MK-nın millətcə rus olan ikinci katibi rayonların Gəncə və Kəpəz adlandırılmasının əleyhinə çıxır. Büro iclası başa çatdıqdan sonra H.Əliyev H.Həsənova zəng edərək vəziyyəti danışır. Məsələ ilə bağlı Moskvadan icazə alacağı üçün rayonların yaradılması və adları barədə geniş söz-söhbət açmamağı, məsələnin məxfi saxlanılmasının vacibliyini tapşırır. Bundan sonra H.Əliyev məsələni L.İ.Brejnevə danışaraq birdəfəlik uğurla həll edir. Azərbaycan KP MK bürosunun 1980-ci il 17 oktyabr tarixli iclasında Kirovabad şəhərində Gəncə və Kəpəz rayon partiya komitələrinin yaradılması barədə qərar qəbul edilir[29].

Bundan sonra H.Əliyevin sədrliyi ilə keçən MK bürosunun 1980-ci il 19 noyabr tarixli iclas qərarı ilə Kirovabadda Kəpəz və Gəncə rayonları yaradıldı[30]. Elə həmin büro

[29] ARSPİHDA, f. 1, siy. 67, iş 111, pr. №155, § 2.
[30] ARSPİHDA, f. 1, siy. 67, iş 120, pr. №158, § 11.



iclasında Bakı şəhərində Nərimanov və Şaumyan rayonları ərazisinin bir qisminin hesabına Nizami rayonunun yaradılması haqqında qərar qəbul edildi[31]. Tezliklə bu qərarların icrası yerinə yetirildi.

Kirovabad şəhəri Kəpəz və Gəncə rayonlarına elə bölündü ki, demoqrafik baxımdan Azərbaycanın milli və gələcək dövlətçilik maraqları tam şəkildə etibarla qorundu. Şəhər əhalisinin təxminən 50 min nəfərini təşkil edən qeyri azərbaycanlılar iki rayon ərazisində bərabər bölüşdürüldü. Beləliklə, onlar hər iki rayon ərazisində azlıqda qaldıqlarından nümayəndələri yerli dövlət və hökumət strukturlarında yüksək mövqe tuta bilmədilər, yalnız bəzi idarə və müəssisələrdə ikinci, üçüncü dərəcəli vəzifələrə yerləşdirildilər.

Gəncə adının bərpa edilməsi H.Əliyevin xalqının müstəmləkəçiliyə qarşı mübarizə tarixində qəhrəmanlıq ruhunun, qan yaddaşının, özünə inam hissinin dirçəldilməsi istiqamətində cəsarətli addımı, böyük tarixi xidməti idi. Bundan sonra məhz onun tapşırıqları əsasında Gəncəyə həsr olunmuş və xalq tərəfindən sevilən çoxlu mahnılar bəstələndi. Rus və müxtəlif xarici dillərdə bukletlər nəşr edildi, sənədli film çəkildi. Cavad xanın məzarı, şəhərdəki məscidlər, digər tarixi abidələr bərpa edildi. Gəncənin milli siması məhz H.Əliyevin hakimiyyəti illərində özünə qaytarıldı.

H.Əliyev Azərbaycan tarixinə və mədəniyyətinə dair sənədlərin saxlandığı arxivlərə xüsusi qayğı göstərilməsini tələb edir, lazım olan şəraiti yaradırdı. Arxiv fondlarının zənginləşdirilməsi və sənədlərin qorunması üçün tədbirlər həyata keçirilirdi. Məsələn, 70-ci illərin əvvəllərində Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivində 400-dən artiq fond təşkil edilmişdi ki, həmin fondlarda təxminən 50 minə yaxın sənəd saxlanılırdı[32].

[31] Yenə orada, § 10, v. 55.
[32] Quliyev R., Teymurov M. Mənəvi sərvətlər xəzinəsi. - «Kommunist» qəzeti, 1972, 2 aprel, №78 (14988).

Sovet hökumətinin düşmən bildiyi xarici ölkələrdə yaşamağa məcbur olan Azərbaycan elm, mədəniyyət, siyasi və ictimai xadimlərin əsərlərinin və irsinin Azərbaycana gətirilməsi sahəsində geniş iş başladıldı. Bu məqsədlə bəzi ziyalılar xaricə ezam edildilər.

Eyni diqqət digər arxivlərə də göstərilirdi. Arxivlərin yubileyləri keçirilir, fondları zənginləşdirilir, rəhbərliyinə azərbaycanlılar gətirilir, işçilərinin maaşları artırılırdı. Azərbaycan Dövlət Arxivinin 60 illiyi təntənə ilə qeyd edildi[33].

Ümumiyyətlə, H.Əliyevin fəaliyyətində milli tarixə, mədəni irsə qayğı, xalqın milli ruhunun, qan yaddaşının dirçəldilməsi mühüm yer tuturdu. Bu sahədəki fəaliyyəti onun böyük millətsevər olduğunu göstərir, gələcək müstəqil dövlətçiliyin təməllərini hazırlayırdı.

## IV. 2. Milli-mənəvi dəyərlərin qorunması

Ağır sovet sistemi şəraitində işləməsinə və Moskvanın təzyiqlərinə baxmayaraq, H.Əliyev Azərbaycanda həqiqi dini və mənəvi dəyərlərin qorunub-saxlanılması və inkişafına tərəfdar idi. Qeyd etmək lazımdır ki, mərkəz Azərbaycanda İslami dəyərlərin dirçəldilməsindən daim əndişə duyur və əleyhinə müvafiq tədbirlər həyata keçirirdi. Məsələn, SSRİ Nazirlər Soveti yanında dini işlər üzrə Şuranın sədri V.Kuroedov Sov.İKP MK-ya yazdığı 1969-cu il 25 mart tarixli arayışında (№79) Azərbaycanda dini bayramlar olan Qurban və Ramazanın keçirilməsini məhdudlaşdırmaq barədə təklif vermişdi[34]. Bu sahədə mərkəzin təzyiqlərinə baxmayaraq, H.Əliyev əsl İslami dəyərlərin qorunmasına mane olmurdu.

Azərbaycan rəhbəri dini abidələrə, məscidlərə ehtiyatla, böyük məharətlə qayğı göstərir, əsl funksiyalarını

[33] Əliyev F. Tarixi sənədlər xəzinəsi. - «Kommunist» qəzeti, 1981, 14 yanvar, №14 (17645).

[34] РГАНИ, ф.5, оп.61, д.32, л.96-97.



daşıtdırmaq çətin olduğundan onları tarixi-mədəniyyət abidələri kimi bərpa etdirərək xalqın ixtiyarına verirdi. Onun hakimiyyəti illərində Qurban və Ramazan bayramlarının qeyd edilməsinə əngəllər yaradılmırdı. Dindarlar bu bayramları sovet sistemi şəraitində keçirə bilirdilər. Azərbaycanlı dindarlar dini inanclarını və ayinləri icra etmələrini kommunist sistemi şəraitində qoruyub saxlamışdılar. H.Əliyev başa düşürdü ki, dövlət dinsiz ola bilər, lakin millət dinsiz olmaz. O, Azərbaycanda dünyəvi inkişafın qatı tərəfdarı kimi çıxış edirdi. Qeyd etmək lazımdır ki, belə mövqe xalqın ümumi niyyətlərini ifadə edirdi və gələcək müstəqil dövlətin inkişaf istiqamətinin əvvəlcədən müəyyənləşdirilməsi idi.

H.Əliyev dini fanatizmin, cəhalətin, mürtəce adət və ənənələrin əleyhinə qətiyyətlə və açıq şəkildə çıxırdı. Azərbaycan KP MK-nın 1971-ci il 29 oktyabr tarixli plenumundakı məruzəsində H.Əliyev deyirdi: «Xalqımızın ictimai fikrinin, mədəniyyətinin ən yaxşı nümayəndələrindən Nəsimi, M.F.Axundov, Sabir, C.Məmmədquluzadə, C.Cabbarlı və bir çox başqası cəhalətə, fanatizmə qarşı, geri qalmış mürtəce adət və ənənələrə qarşı ehtirasla çıxış edir, fikir azadlığını təbliğ edir, kütlələrin mənəvi azadlığının tərəfdarı olur, bilik məşəlini yüksəklərə qaldırırdılar»[35].

H.Əliyev müxtəlif vəzifələr daşıyan şəxslərin fəaliyyətinə mənəviyyatın və əxlaqın nüfuz etməsinə çalışırdı. Mənəvi tərbiyədə ziyalılara xüsusi yer verirdi. O deyirdi ki, əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın digər təbəqələrinə nümunə göstərməlidirlər. H.Əliyev deyirdi: «Mən Azərbaycanda ömrüm boyu təmizlik, düzlük, halallıq tərəfdarı olmuşam»[36].

Hakimiyyətə gələn kimi o, vəzifəli şəxslərdən əxlaqi

[35] «Kommunist» qəzeti, 1971, 2 noyabr, №256 (14861).

[36] Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). IV cild. Bakı, 1999, s. 66.

normalara uyğun davranmalarını tələb etməyə başladı. Azərbaycan KP MK-nın 1969-cu il 5 avqust tarixli plenumunda H. Əliyev vəzifənin əxlaqi normaları barədə deyirdi: «Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik»[37]. Nalayiq hallara və pozğunluğa qarşı amansız fəaliyyətini H.Əliyev bütün hakimiyyəti illərində qətiyyətlə davam etdirirdi. O, vəzifəli şəxslərin nalayiq hərəkətlərinə qarşı amansız, sərt və tələbkar idi. Onlarla vəzifə sahibi məhz əxlaqsız, mənəviyyatsız hərəkətlərinə görə ciddi şəkildə cəzalandırılmış və işdən azad edilmişdilər. Həmin məsələlərdə H.Əliyev əsl xalq adamı olmuşdu. Onun bu sahədəki fəaliyyəti xalq tərəfindən yüksək qiymətləndirilirdi. H.Əliyev ictimai həyatın bütün sahələrində əxlaqi normaların bərqərar olmasına çalışırdı. O, 1973-cü ildə keçirilən müşavirələrin birində deyirdi: «Mənəviyyət, əxlaq... bütün işimizə nüfuz etməlidir»[38].

Bütün SSRİ-də rüşvətxorluğa qarşı mübarizəni ilk dəfə olaraq Heydər Əliyev başlamışdı. Sovet rəhbərləri cəmiyyətdə mövcud olan rüşvətxorluğu ört-basdır etməyə meylli olsalar da, H.Əliyev onu gizlətməməyə, problemi kökündən həll etməyə tərəfdar idi. O, rüşvətxorluğu, oğruluğu, əliəyriliyi mənəviyyata zidd sayaraq belə təzahürlərə qarşı amansızlıqla mübarizə aparır, bu işlə məşğul olan şəxslərin cəzalandırılmasına və hətta həbsinə nail olurdu. Belə hesab edirdi ki, günahsıza cəza verilməməli, günahkar isə cəzasız qalmamalıdır. Çünki mənəviyyat pozularsa, hər şey pozular. O bütün fəaliyyətində həqiqəti sevir və həyatını həqiqət üzərində qururdu. H.Əliyevin başlıca şüarı «Qoy ədalət zəfər çalsın» idi. Azərbaycan xalqı ona ədalət rəmzi kimi baxırdı.

H.Əliyev Azərbaycan xalqının mənəvi həyatının və mədəniyyətinin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılması yolunda ciddi səylər göstərir, bu istiqamətdə konkret tapşırıqlar verir və onların yerinə yetirilməsinə nəzarət edirdi. Məsələn, Azərbaycan KP MK-nın 1970-ci il 20 mart tarixli plenumundakı məruzəsində H.Əliyev deyirdi: «... bəzən mətbuat, radio və televiziya işçiləri iqtisadiyyatın, mədəniyyətin və məişətin inkişafına, xalqın mənəvi həyatına aid mühüm məsələləri lazımınca işıqlandırmağı bacarmırlar»[39]. Məhz belə çıxışlardan sonra televiziya, radio və mətbuatda Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə həsr edilmiş proqramlar və məqalələr çoxaldı. Məsələn, müntəzəm olaraq televiziya ekranlarına çıxarılan «Klassik irsimizdən» adlı proqram əhalinin rəğbətini qazanmışdı. Azərbaycan dövlət radiosu dalğalarında səsləndirilən «Bulaq» verilişi xalqın milli-mənəvi dəyərlərinin toplanılması, qorunması və təbliğində mühüm rol oynayırdı. Həmin proqram xalqı tarixi keçmişinə, köklərinə qaytararaq özünə inam və milli hissini gücləndirirdi. H.Əliyev belə hesab edirdi ki, azərbaycanlıların mənəviyyatı nə qədər yüksək olarsa, onlar vətənə, Azərbaycana, öz amallarına sədaqətli olarlar.

Azərbaycan xalqının qədim milli bayramı olan Novruz onun hakimiyyəti illərində respublika miqyasında təntənəli şəkildə keçirilir və hətta Azərbaycan televiziyası ilə yayımlanırdı. Bütün sovet tarixi ərzində Novruz bayramının kütləvi şəkildə keçirilməsi və yayımlanması bilavasitə H.Əliyevin adı ilə bağlıdır. Novruz bayramının keçirilməsi Azərbaycan xalqının milli ruhunu dirçəldir, milli irsə, tarixə böyük məhəbbət yaradır, milli özünüdərki gücləndirirdi. H.Əliyev Novruz bayramını təbiətin və ana torpağın oyanması, baharın gəlişi olmaqla yanaşı, həm də sülh və saf niyyətlər bayramı kimi dəyərləndirirdi. Bildirirdi ki, Novruz milli bir bayram kimi hər bir azərbaycanlının anadan olandan qəlbində, ruhunda və fikrində yaşayan bayramdır. O, Novruz bayramının daha çox insani bayram olduğunu qeyd edirdi.

H.Əliyev xalqımızın mənəvi həyatında və cəmiyyətin

[37] «Kommunist» qəzeti, 1969, 7 avqust, №163 (14179).
[38] «Kommunist» qəzeti, 1973, 11 avqust, № 187 (15402).
[39] «Kommunist» qəzeti, 1970, 22 mart, №68 (14369).

inkişafında Azərbaycan qadınının rolunu, keçdiyi tarixi yolu yüksək qiymətləndirirdi. O, 1974-cü ilin may ayında «Azərbaycan qadını» jurnalının 50 illiyinə həsr edilmiş məruzəsində deyirdi: «Azərbaycan xalqının böyük oğulları Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və özünün diyarını xoşbəxt və azad görmək istəyənlər Şərq qadınının ağır həyatından kədər hissi ilə yazmışlar». Daha sonra o deyirdi: «Keçmişə bələd olmadan bu günü, Azərbaycan qadınının müqəddəratında baş vermiş böyük dəyişikliklərin əzəmətini düzgün qiymətləndirmək çətindir[40]. Məhz H.Əliyevin hakimiyyəti illərində Azərbaycan qadını ictimai, siyasi və mədəni həyatda daha fəal iştirak edirdi. Azərbaycan qadınının-aliminin, şairinin, fəhləsinin, kəndlisinin, ictimai-siyasi xadiminin nəinki respublikada, o cümlədən bütün ölkədə tanıdılması bilavasitə H.Əliyevin tarixi xidməti idi.

H.Əliyev ən kiçik məsələlərdə belə, Azərbaycan xalqının aşağılanmasına yol verməyərək qətiyyətlə onun qarşısını alır, böyüklüyünü, üstünlüyünü, güclülüyünü, bacarığını, yüksək mədəniyyətini və zəngin tarixə malik olduğunu göstərirdi. Məsələn, şahidlərin dediyinə görə bir dəfə respublikada futbolun vəziyyəti, «Neftçi» komandasinin pis oyunu müzakirə olunarkən H.Əliyev məşqçidən komandanın zəif çıxışlarının səbəbini soruşduqda o, azərbaycanlıların «sümüyünün kiçik olduğunu» bəhanə gətirir. H.Əliyev bildirir ki, sən, nə danışdığını bilirsənmi? Üzünü Azərbaycan KP MK-nın ikinci katibi Y.Puqaçova tutaraq deyir ki, belə çıxır, mənim sümüyüm bu Puqaçovun sümüyündən kiçikdir? Azərbaycanda Moskvanın adamı hesab olunan bir şəxsin üzünə belə sözləri açıq şəkildə yalnız böyük azərbaycansevər, millətsevər və öz şəxsiyyətinə hörmət edən şəxs söyləyə bilərdi. H.Əliyev öz şəxsiyyətini qorumaq və ucaltmaqla azərbaycanlıların mənəvi keyfiyyətlərini, özlərinə inamını

[40] «Kommunist» qəzeti, 1974, 15 may, №111 (15631).



gücləndirir və yüksəldirdi. H.Əliyev bütün azərbaycanlıların gözündə qeyrət rəmzi idi.

Ümumiyyətlə, H.Əliyev Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə hörmətlə yanaşır, onları gözbəbəyi kimi qoruyur, inkişaf etdirir, bununla da xalqının milli ruhunu, milli özünüdərkini gücləndirirdi. O, Azərbaycanın kommunist lideri olmasına baxmayaraq, eyni zamanda ən böyük millətsevəri olaraq qalırdı. Məhz onun qayğısı ilə qorunub saxlanılan və inkişaf etdirilən milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının müstəqilliyinin bərpasında əsas rollardan birini oynadı.

## IV. 3. Mədəni-maarif müəssisələrinin qurulması

H.Əliyevin fəaliyyətində başlıca yerlərdən birini xalqının mədəni səviyyəsinin yüksəldilməsi, mədəni-maarif müəssisələri şəbəkəsinin genişləndirilməsi, xüsusən kənd yerlərində klub və kitabxana binalarının tikintisi tuturdu. 30-cu illərdə mədəni inqilab dövründə bu sahədə böyük işlər görülsə də, Azərbaycanda mədəni-maarif müəssisələri çatışmırdı. Kəndlərin çoxunda kitabxanalar yox idi. Olan kitabxanaların da əksəriyyəti şəxsi evlərdə yerləşirdi. Beləliklə, vətəndaşlar, xüsusən gənclər kitabxanalardan ya zəif istifadə edir, ya da istifadə edə bilmirdilər. Kitabxana fondu çox kiçik idi. Kənddə yaşayanların evində yalnız bəzi dərs kitabları olurdu. Kitab və qəzet kənddə geniş yayılmamışdı. Belə vəziyyət kənddə ümumi mədəni inkişafa mane olurdu. Vaxtilə Yusif Vəzir Çəmənzəminli yazırdı: «Kitabxanamızın olmaması bizə çox zərər verir. Rusiyanın böyük şəhərlərində yaşadıqda və bir məsələ ilə maraqlandıqda o saat ümumi kitabxanaya gedirsən. Səni maraqlandıran məsələyə aid bir neçə cild kitab alıb çəkilirsən kitabxananın böyük salonuna, nə lazımdırsa, o kitablardan yazıb götürürsən. Bir şeyi yazmaq üçün nə məlumat lazım isə asanlıq ilə almaq mümkündür. Bizdə isə belə deyil... Hərgah milli fikrimizə, milli

sözümüzə meydan verilmək istəyiriksə, tezliklə ümumi kitabxana açılmalıdır»[41].

H.Əliyev cəmiyyətin tərəqqisində mədəni-maarif müəssisələrinin rolunu dərindən bilərək yeridilən ümumi sovet siyasəti fonunda bu sahədəki fəaliyyətini böyük əzmlə bir neçə istiqamətdə həyata keçirirdi: dövlət büdcəsindən mədəni-maarif müəssisələrinin saxlanılmasına və inkişafına ayrılan xərcləri artırırdı; yeni kitabxana və klub binaları tikintisini genişləndirirdi; kitabxana fondunun zənginləşdirilməsinə diqqəti artırmağı tövsiyə edirdi; mədəni-maarif işçilərinin, xüsusən kənd yerlərində işləyənlərin ali təhsil almalarına əlverişli şərait yaradırdı; böyük və tarixi qədim olan kitabxanaların yubileylərini keçirirdi və s.

Bilavasitə onun qayğısı nəticəsində mədəni-maarif müəssisələrinin saxlanılması üçün ayrılan xərclər ildən-ilə artırılır, yeni binalar tikilirdi. Məhz belə siyasətin nəticəsində Azərbaycan kəndi bütün tarixi ərzində mədəni cəhətdən ən yüksək inkişaf səviyyəsinə 70-80-ci illərdə çatdı. Hətta ən ucqar kəndlərdə kitabxana və klub binaları tikildi. Mədəni-maarif müəssisələrinin açılması ilə eyni zamanda kənddə maaş alan işçilərin sayı da artırdı. Bu isə əhalinin ümumi həyat səviyyəsinin yüksəlməsinə kömək edən amillərdən biri idi. H.Əliyevin hakimiyyəti dövründə Azərbaycanda demək olar ki, hər il kitabxana və klub binaları tikilirdi. Məsələn, 1975-ci ildə kitabxanaların sayı 110, klubların sayı isə 120 vahid artırıldı. Həmin məqsədlə büdcədən 14,2 mln. manat ayrıldı. Bu da 1974-cü illə müqayisədə 5,6% çox idi[42].

Sonrakı illərdə də həmin sahəyə diqqət xeyli gücləndirildi. Təkcə 1978-ci ildə Azərbaycanda klubların sayı 98 vahid artırıldı. Onların saxlanılmasına ayrılan məsrəflər çoxaldıldı. Məsələn, mədəni-maarif müəssisələrinin saxlanıl-

[41] Çəmənzəminli Y. V. Göstərilən əsəri, s. 4.

[42] Azərbaycan SSR-in 1975-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1973-cü il büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1974, 28 dekabr, №303 (15823).



ması üçün 1979-cu il planına nisbətən 1980-ci ildə 6,5% artımla 32, 9 mln. manat vəsait ayrıldı[43].

Həyata keçirilən tədbirlər nəticəsində 1976-1980-ci illərdə Azərbaycanda dövlət büdcəsi hesabına 415 kitabxana, 466 klub binası tikildi. Sosial-mədəni tədbirlər üçün ayrılan xərclər 11574 mln. manat artırıldı[44]. Qeyd etmək lazımdır ki, həmin illərdə klub və kitabxana binalarının tikintisi eyni zamanda kolxoz və sovxozların da vəsaiti hesabına aparılırdı.

1981-ci ildə mədəni-maarif müəssisələrinin saxlanılmasına Dövlət büdcəsindən 36,4 mln. manat ayrıldı. Həmin ildə təkcə Mədəniyyət Nazirliyinin xətti ilə 80 kitabxana açıldı.

1982-ci il üçün Dövlət büdcəsindən mədəni-maarif müəssisələrinin saxlanılması və inkişafı üçün 8,2 % artımla və ya 1980-ci ilin hesabatından 20% çox olmaqla 27,6 mln. manat ayrıldı[45]. Ümumiyyətlə, 70-80-ci illərdə Azərbaycanın bütün rayon mərkəzlərində vahid tipli kitabxana binaları tikildi.

H.Əliyevin hakimiyyəti illərində kitabxana fondlarının artırılmasına, xarici ölkələrdən kitab, jurnal və elmi məcmuələrin alınmasına xüsusi fikir verilirdi. Bütün bunların nəticəsində sovet hakimiyyəti illərində Azərbaycan kitabxanalarının fondlarının zənginləşdirilməsinin zirvə nöqtəsi məhz 70-80-ci illərdə oldu. Məsələn, müqayisə üçün belə fakt əhəmiyyətlidir ki, M.F.Axundov adına kitabxananın fondunda 1923-cü ildə əgər 20 min 441 nüsxə, 1940-cı ildə 612 min 207 nüsxə kitab var idisə, 1973-cü ildə bu rəqəm 3 mln. nüsxəyə çatdırıldı[46].

[43] Azərbaycan SSR-in 1980-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1978-ci il büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1979, 21 dekabr, №290 (17329).

[44] Azərbaycan SSR-in 1981-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1979-cu il büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1980, 13 noyabr, №261 (17597).

[45] «Kommunist» qəzeti, 1981, 4 dekabr, №280 (17914).

[46] «Kommunist» qəzeti, 1973, 27 dekabr, №302 (15517).

Azərbaycan rəhbəri kitabxanaların yubileylərinin keçirilməsi barədə də göstəriş verirdi. Azərbaycan KP MK bürosunun 1973-cü il 19 dekabr tarixli iclasında M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 50 illiyinin keçirilməsi barədə qərar qəbul edildi[47]. Yubiley tədbirinin keçirilməsi respublikada kitaba olan marağı daha da artıraraq xalqın mənəvi xəzinəsinin qorunması və inkişafına diqqət və qayğını göstərirdi.

H.Əliyev Azərbaycanda ali təhsilli kitabxanaçıların hazırlanmasına xüsusi önəm verirdi. Belə mövqe kəndin ali təhsilli kadrlarla təmin edilməsi və ümumi mədəni səviyyəsinin yüksəldiməsi məqsədini güdürdü. H.Əliyev hakimiyyətə gələrkən Azərbaycanda cəmi 3019 kitabxanaçı var idi. Onların da yalnız 1436 nəfəri ali təhsilli idi[48]. Azərbaycan rəhbəri bu vəziyyətin düzəldilməsi istiqamətində qətiyyətli tədbirlər həyata keçirdi. ADU-nun kitabxanaçılıq fakültəsinə tələbə qəbulu planı artırıldı. Kənd rayonları üçün müsabiqədənkənar qəbul yerləri ayrıldı. Artıq 80-ci illərin əvvəllərində Azərbaycanda ali təhsilli kitabxanaçıların ümumi çəkisi üstünlük təşkil edirdi. Hətta ən ucqar dağ kəndlərinin kitabxanaçıları ali təhsil almağa başlamışdılar. Kənddə kitabxanaların və ali təhsilli kitabxanaçıların sayının artması konkret ailənin sosial-iqtisadi vəziyyətinin yaxşılaşması, ailə büdcəsinə əlavə vəsaitlərin daxil olması, ümumi mədəni səviyyənin yüksəlməsi və inkişaf demək idi.

Bakıda, digər şəhər və rayonlarda kitab mağazalarının şəbəkəsi də genişləndirilirdi. H.Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda Kitab evi açıldı. Bu münasibətlə keçirilən tədbirdə H.Əliyevin iştirak etməsi onun kitaba, xalqın maariflənməsinə və mənəvi xəzinəsinə ciddi əhəmiyyət verdiyini göstərirdi. H.Əliyevin həmin məsələyə diqqəti sayəsində qısa müddətdə Azərbaycan rayonlarının siması başdan-başa dəyişmişdi. Heç əbəs deyil ki, Moskvada oxuyan tələbə və

[47] ARSPİHDA, f. 1, siy. 60, iş 90 (92), pr. №84, § 9.
[48] «Kommunist» qəzeti, 1970, 7 yanvar, №4 (14305).



aspirantlarla 1979-cu ilin dekabr ayında keçirilən görüşdəki nitqində H.Əliyev deyirdi: «Söhbət yeni müəssisələr, yollar, qaz və su kəmərləri, məktəblər, uşaq tərbiyə ocaqları, xəstəxanalar, mədəni-maarif və məişət obyektləri tikintisindən gedir... söhbət Azərbaycan kəndinin simasının əsaslı surətdə dəyişdirilməsindən gedir»[49]. Heç bir mübaliğəyə yol verməmədən demək olar ki, Azərbaycan kəndində ən yuksək mədəni inkişaf məhz H.Əliyevin hakimiyyəti illərində baş vermişdir. Məhz həmin dövrdə Azərbaycan kitabı kənddə yaşayan hər bir ailənin həyatına möhkəm daxil oldu. Azərbaycan xalqı daha çox mütaliə edən xalqa çevrildi.

Azərbaycanda baş verən yüksək mədəni tərəqqini hətta xarici ölkələrin tarixçiləri də qeyd edirdilər. Məsələn, tanınmış polyak tarixçiləri B.Baranovski və K.Baranovski Azərbaycanda yüksək mədəni inkişafın məhz 70-ci illərdə olduğunu xüsusi vurğulayırdılar[50].

H.Əliyev Azərbaycan rayonlarının mədəni inkişafını yüksəltmək üçün kinoya, kinoteatrların və kinoqurğuların tikilməsinə dair göstərişlər verir, MK-nın müvafiq qərarlar qəbul etməsinə nail olurdu. Belə bir fakt əhəmiyyətlidir ki, Azərbaycanda 1976-1980-ci illərdə 140, yalnız 1980-ci ildə isə 45 yeni kinoteatr və kinoqurğusu istifadəyə verilmişdi[51].

1981-ci il yanvar ayının 1-i üçün Bakıda 99 klub, 176 kütləvi və uşaq kitabxanası, 29 muzey və şəkil qalereyası, 8 dövlət teatrı, 9 mədəniyyət və istirahət parkı, 33 musiqi məktəbi, 25 kinoteatr, 6 yaradıcılıq ittifaqı, 2 yaradıcılıq cəmiyyəti var idi[52].

[49] H.Ə.Əliyevin Moskvada təhsil alan Azərbaycan tələbələri və aspirantları ilə görüşündəki nitqi. - «Kommunist» qəzeti, 1979, 5 dekabr, №277 (17316).
[50] Baranovski B., Baranovski B. Historia Azerbejdzani. Wroslaw, Zaklad Narodowy im Ossolinskich Wydawnietwo, 1987, p. 236.
[51] Kənddə kino xidməti. - «Kommunist» qəzeti, 1981, 3 iyul, №155 (17789).
[52] APSPİHDA, f. 1, siy. 68, iş 362, v. 128-129.

Ümumıyyətlə, H.Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982-ci illərdə respublikada 1155 kitabxana, 1316 klub tikilib xalqın istifadəsinə verilmişdi. Həmin illərdə mədəni-maarif müəssisələrinin tikintisi sovet hakimiyyətinin bütün əvvəlki illərindən dəfələrlə çox idi. H.Əliyev haqlı olaraq belə qeyd edirdi: «Əldə edilən nailiyyətlər o qədər böyükdür ki, bunlar mədəni inqilabın ilk addımlarının kiçicik göstəriciləri ilə müqayisəyə gəlməz»[53]. H.Əliyev Moskvaya işləməyə getdikdən sonra da həmin sahədəki fəaliyyətini dayandırmadı. Onun tövsiyə və göstərişləri əsasında bu sahədə quruculuq işləri davam etdirilirdi.

Beləliklə, bilavasitə H.Əliyevin sayəsində 70-80-ci illərdə Azərbaycanda mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradıldı, kəndin siması dəyişdi, mədəni səviyyəsi yüksəldi, kənd ali təhsilli mədəni-maarif mütəxəssisləri ilə təmin edildi, əhalinin həyat səviyyəsi yaxşılaşdı. Azərbaycan xalqının mənəvi həyatında, qəlbində və şüurunda əsl dəyişiklik baş verdi. H.Əliyev sonralar deyirdi: «... 70 il ərzində Azərbaycan xalqı öz milli mənliyini, dilini, hətta dini yasaq olunsa da, dinini də itirməmişdir. Bu quruluşun imkanlarından istifadə edən Azərbaycan xalqı elmini, təhsilini, mədəniyyətini yüksək zirvələrə qaldırmışdır»[54]. Heç şübhəsiz, bütün bunlar Azərbaycanın gələcək istiqlalının təməllərindən birini təşkil edirdi.

* * *

Beləliklə, H.Əliyev hesab edirdi ki, milləti dünya xalqları içərisində fərqləndirən başlıca xüsusiyyət onun mədəniyyətidir. Yüksək mədəniyyətə malik olan xalq daim inkişaf edir və irəli gedir. O, Azərbaycanın qədim tarix və mədəniyyət abidələrinin qorunmasında, bərpa edilməsində mühüm rol oynayaraq həmin məqsədlə dövlət büdcəsindən

[53] Əliyev H. Sovet Azərbaycanı, s. 81.
[54] Azərbaycan beynəlxalq aləmdə. I cild, s. 46-47.



ayrılan xərcləri daim artırırdı; tarixi yerlərin adlarını bərpa edirdi; arxeoloji qazıntı işlərini genişləndirir, onları maliyyə vəsaiti ilə təmin edirdi; görkəmli memarların yubileylərini keçirir, irsinin öyrənilməsi və təbliğini təşviq edirdi; muzeylərin eksponatlarla zənginləşdirilməsinə, arxivlərin fondlarının artırılmasına qayğı göstərir, yubileylərini keçirirdi; Azərbaycanda və ölkənin müxtəlif şəhərlərində xalqın müasir tarixi ilə bağlı yeni tarixi abidələr tikdirirdi; mədəni-maarif müəssisələrinin şəbəkəsini genişləndirirdi; onları ali təhsilli mütəxəssislərlə təmin edirdi; saxlanmalarından ötrü Dövlət büdcəsindən ayrılan məsrəfləri çoxaldırdı; Azərbaycan xalqının mənəvi dəyərlərinin qorunub-saxlanılması və inkişaf etdirilməsinə diqqəti artırırdı; Qurban və Ramazan kimi dini bayramlar keçirilirdi; Novruz bayramı H.Əliyevin hakimiyyəti illərində böyük təntənə ilə keçirilir, televiziya və radio ilə birbaşa translyasiya edilirdi.

Əvvəlki illərdə olduğu kimi, H.Əliyevin hakimiyyəti dövründə Azərbaycan sovetlər birliyinin tərkibində olsa da, mərkəzi hökumət onu bir çox şeylərdən məhrum etmək istəsə də, milli kökdən gələn mənəviyyatını, dəyərlərini məhv edə bilmədi. Nəticədə Azərbaycan xalqının mədəniyyəti, elmi, təhsili, milli-mənəvi dəyərləri ümumbəşəri və ümumdünya dəyərləri ilə qarşılıqlı əlaqədə inkişaf etdi. Azərbaycan sovet sistemi şəraitində milli, dünyəvi və qədim tarixə malik mədəniyyəti zənginləşən bir respublikaya çevrildi. H.Əliyevin tarixi-mədəni irsə xüsusi diqqət yetirməsi və mədəni-maarif müəssisələrini qurması nəticəsində xalqın özünə inam hissi artır, müstəqillik düşüncələri güclənirdi. Bütün bunlar heç şübhəsiz, Azərbaycanın gələcək müstəqilliyinin mənəvi təməllərinin qurulması istiqamətində böyük tarixi əhəmiyyət daşıyan mühüm fəaliyyətlər idi.

## V FƏSİL

## ƏDƏBİ İRSƏ VƏ ƏDƏBİYYATA QAYĞI

XIX-XX əsrlərdə Azərbaycan xalqının istiqlal fikri və ən dəyərli mənəvi sərvətləri ilk növbədə ədəbiyyatda qorunub saxlanılmış və inkişaf etdirilmişdi. İstiqlal fikrinin yayıcıları və azadlıq mübarizəsinin önündə gedənlər də məhz ziyalılar – jurnalistlər, yazıçılar, şairlər və alimlər idi. Bunu dərindən bilən H.Əliyev hakimiyyəti illərində ədəbiyyata və ədəbi irsə o vaxtadək heç bir zaman rast gəlinməyən qayğı göstərirdi. Ona yaxşı məlum idi ki, planetdə çoxlu xalqlar yaşasa da, bütün xalqların qəbul etdiyi dünya mədəniyyətini yaradan xalqlar azdır. Təbiidir ki, yer üzündəki bütün xalqların özünəməxsus mədəniyyəti var və mədəniyyəti olmayan xalq yoxdur. Bununla belə, bəşəriyyətin heyran qaldığı elm, incəsənət, mədəniyyət inciləri bütün deyil, yalnız bir qisim xalqların yaratdığıdır. Dünya mədəniyyətinin davamı və inkişafı da məhz həmin xalqlarla bağlıdır. Bu xalqlar yox olurlarsa, onların mədəniyyəti də tədricən sıradan çıxır. Deməli, millətin mədəniyyət inciləri yaratması üçün konkret məkan və zaman daxilində sosial-iqtisadi tərəqqisi və buna əlverişli şərat yaradan rəhbəri olmalıdır. H.Əliyev Azərbaycan mədəniyyətinin inkişafına xüsusi qayğı göstərən, onu zənginləşdirən, ölkədə və dünyada tanıdan bir rəhbər idi. Onun hakimiyyəti illərində Azərbaycan xalqı dünya mədəniyyəti yaradıcısı funksiyasını uğurla davam etdirirdi. H.Əliyev dönəmində Azərbaycanda hakim, dominant olan xalqın mədəniyyətinin respublika ərazisində yaşayan bütün etnik qrupların ümumi mədəniyyətinə çevrilməsi prosesi daha



da gücləndirildi, Azərbaycan mədəniyyəti hamını sıx birləşdirərək ümumi sərvətə çevrildi. Milli kimliyin müəyyənləşdirilməsində başlıca meyarlardan biri olan «millətini tanı, mədəniyyətini tanı» şuarı Azərbaycanda ziyalılar tərəfindən uğurla həyata keçirilirdi. Əslində mədəniyyəti inkişaf etdirmək istiqamətində özünün bütün möhtəşəm fəaliyyəti ilə H.Əliyev Azərbaycan sovet dönəminin kommunist liderləri içərisində ən böyük mədəniyyət milliyyətçisi idi. Çünki o, Azərbaycan xalqının tarixinin, hüququnun, iqtisadi həyatının, sosial quruluşunun, inanc dünyasının, şerinin, ədəbiyyatının, musiqisinin və b. araşdırılıb ortaya çıxarılması yolunda aparılan çalışmaları təşviq edir, onlara ən əlverişli şərait yaradırdı.

Məlum olduğu kimi, millətləri bir-birindən fərqləndirən başlıca cəhət onların arasında mədəniyyət müxtəlifliyidir. Əgər mədəniyyətlər arasında fərqlər olmasaydı, dünya yeknəsəq və cansıxıcı görünərdi. Kosmopolitizm mədəniyyət milliyyətiçiliyini rədd edərək bu və ya başqa ölkəni deyil, bütün dünyanı vətən hesab edən şəxsin-kosmopolit dünya vətəndaşının yaradılmasını irəli sürür[1]. H.Əliyevin dövründə Azərbaycan mədəniyyətinin yaradıcıları özlərini dünya vətəndaşı deyil, öz respublikalarının, torpaqlarının övladları hesab edir, mədəniyyətlərini, tarixi keçmişlərini sevir və onunla fəxr edirdilər. Əslində kosmopolitlik milliyyətçiliyin əleyhinə olub millətin, onun yaratdığı mədəniyyətinin əksinədir. H.Əliyev vahid sovet xalqı yaratmağı qarşısına məqsəd qoyan marksist-leninçi ideoloji sistem şəraitində həm Kommunist Partiyasının rəhbəri, həm də milli lider, mədəniyyət milliyyətçisi idi. Millətlər arasında fərqləri ləğv etməyi qarşıya qoyan kommunist ideologiyasından fərqli olaraq H.Əliyev Azərbaycan milli mədəniyyətinin qoruyucusu, inkişaf etdiricisi və zənginləşdiricisi funksiyasını sistemli şəkildə, qətiyyətlə həyata keçirirdi. Onun hakimiyyəti illərində Azərbaycan mədəniyyətini yaradan böyük sənətkarlar vətən

[1] Bilgic E. Kültür milliyyetçiliği ve kültür emperyalizmi. Ankara, 1977, s.2.

kimi Azərbaycanı görür, onu sevir və tərənnüm edirdilər. Azərbaycan və xalqı haqqında milli ruhu yüksəldən ən gözəl mahnılar və əsərlər məhz həmin illərdə yaradılmışdı. Bununla belə, H.Əliyev başqa xalqların mədəniyyətinə, tarixinə, milli sərvətlərinə hörmət və ehtiramla yanaşırdı, mədəniyyətlərin əlaqəsinə və qarşılıqlı inkişafına tərəfdar idi.

H.Əliyevin ədəbiyyata və ədəbi irsə qayğısı bir neçə istiqamətdə həyata keçirilirdi. O, yazıçıların qurultaylarında iştirak edir, ədəbiyyata dair geniş nitq söyləyir, xalqın tarixi keçmişi və bu günü ilə bağlı dəyərli əsərlər yazmağı onlara tövsiyə edirdi. H.Əliyev yazıçı və şairlərin əsərlərinin nəşri üçün xüsusi nəşriyyat açmışdı, yaradıcılıq evi tikdirmişdi, Şamaxıda Ədəbiyyat muzeyi yaratmışdı, şair və yazıçıların yubileylərini keçirir, onların dövlətin yüksək orden və medalları ilə təltif olunmalarına nail olur, mənzil şəraitlərini yaxşılaşdırır, Azərbaycan ədəbiyyatı klassiklərinin yubileylərini təntənəli şəkildə qeyd edir, adlarını əbədiləşdirirdi və s.

H.Əliyevin ədəbiyyata və ədəbiyyat xadimlərinə qayğı sahəsində fəaliyyətində mühüm yerlərdən birini Azərbaycan yazıçılarının qurultaylarında iştirak etmək və nitq söyləmək tuturdu. Qurultayların keçirilməsi, onlarda H.Əliyevin etdiyi nitqlər kommunist rəhbər olmasına baxmayaraq, eyni zamanda milli ruhlu, geniş düşünən və uzaqgörən bir dövlət xadimi olduğunu təsdiqləyirdi.

Yazıçıların qurultaylarının keçirilməsi ilə bağlı məsələləri H.Əliyev MK bürosunda müzakirəyə çıxarır və qərarların qəbul edilməsinə nail olurdu. Onun sədrliyi ilə keçirilən KP MK bürosunun 1976-cı il 20 aprel tarixli iclasında Azərbaycan yazıçılarının VI qurultayının çağırılması haqqında qərar qəbul edildi[2]. Həmin ilin may ayında keçirilən qurultayda iştirak edən H.Əliyev geniş nitq söylədi. Bu nitq bir neçə cəhətdən səciyyəvi idi. Hər şeydən əvvəl, respublika rəhbəri Azərbaycan ədəbiyyatının, onun inkişaf istiqamətlərinin, problemlərinin həlli yollarının dərin bilicisi olduğunu göstərdi.

[2] ARSPİHDA, f. 1, siy. 63, iş 41 (43), pr. №5, § 17.



O, xalqının qədim tarixi, soy-kökü ilə bağlı olan yazılı abidələrin dərindən öyrənilməsini tövsiyə edir, azərbaycanlıların dünya ədəbiyyatı ilə yaxından tanış olmaları üçün tərcümə işinin qaydaya salınmasının vacibliyini bildirirdi. Nitqində H.Əliyev deyirdi: «Azərbaycan ədəbiyyatı... çoxəsrlik tarixi «Kitabi-Dədə Qorqud» kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir»[3].

Məlum olduğu kimi, Azərbaycan xalqının türk mənşəyi daha çox qədim yazılı tarixi abidə olan «Kitabi-Dədə Qorqud»da öz əksini tapdığından onu sovet ideologiyası 20-50-ci illərdə yad hesab edərək öyrənilməsini qadağan etmişdi. Sonrakı illərdə yeridilən siyasət isə bu abidənin sakitcə unutdurulmasına yönəldilmişdi. Aparılan tədqiqat işləri yalnız məhdud elmi dairələrə bəlli olurdu. İrandakı şah rejimi də bu dastanın nəşrinə icazə vermirdi. Vətənin hər iki tayında dastana düşmən münasibət hökm sürürdü. H.Əliyev hakimiyyətə gəldikdən sonra böyük cəsarətlə bu tarixi abidənin daha geniş öyrənilməsini tövsiyə və təşviq etməyə başladı. Heç əbəs deyil ki, onun həmin nitqindən bir qədər sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində «Kitabi-Dədə Qorqud» dastanında Azərbaycan xalqının etnogenezis məsələlərinə dair ixtisas kursları tədris edilməyə başlandı. «Kitabi-Dədə Qorqud»la bağlı tarixi və ədəbi araşdırmaların sayı çoxaldı, bədii film çəkildi.

Qeyd olunduğu kimi, H.Əliyev nitqində Azərbaycanda bədii tərcümə işinin yaxşılaşdırılmasını da tövsiyə edirdi. Bununla əlaqədar olaraq o deyirdi ki, Azərbaycan oxucularını xarici ədəbiyyatın ən yaxşı nümunələri, dünya klassiklərinin şah əsərləri ilə tanış etmək tərcüməçilərin nəcib vəzifəsidir[4]. H.Əliyev mövcud sistemin şərtləri altında Azərbaycan xalqının

[3] H.Ə.Əliyevin Azərbaycan yazıçılarının VI qurultayında nitqi. - «Kommunist» qəzeti, 1976, 27 may, №122 (16251).
[4] Yenə orada.

dünya ədəbiyyatının yeni nümunələri ilə tanış olmasının və ədəbiyyatın zənginləşməsinin yollarından biri kimi bədii tərcümə işinin yaxşılaşdırılmasını görürdü. Bu məsələdə güdülən məqsədlər həmçinin Azərbaycana mövcud şəraitdə ehtiyac duyulan və gələcəkdə daha çox lazım olacaq peşəkar tərcüməçilərin hazırlanması idi. Ona görə də həmin sahəyə diqqət verən H.Əliyev az sonra Azərbaycanda bədii tərcümə işini qaydaya salaraq müvafiq mərkəz yaratdı. Mərkəz sonrakı illərdə bədii tərcümə sahəsində Azərbaycanın beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrində mühüm rol oynadı. Mərkəzdə peşəkar tərcüməçilər toplandı, gənc tərcüməçilər yetişməyə başladı, xarici ədəbiyyatın orijinaldan Azərbaycan dilinə tərcüməsi artdı. Azərbaycan oxucuları dünya ədəbiyyatının ən yaxşı nümunələri ilə tanış olmağa başladılar.

H.Əliyevin ədəbi irsə qayğı sahəsində fəaliyyətinin mühüm istiqamətlərindən biri böyük Azərbaycan şairi Məhəmməd Füzulinin qəbrinin qorunması və məqbərəsinin tikilməsi imkanlarının öyrənilməsi idi. Qeyd etmək lazımdır ki, 50-ci illərin sonu – 60-cı illərdə bu məsələ gündəliyə gəlsə də, həllindən ötrü ciddi addımlar atılmamışdı. H.Əliyev hakimiyyətə gəldikdən sonra həmin məsələ ilə yaxından maraqlanmağa başladı. O, MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdirinə Məhəmməd Füzuliyə İraqın Kərbəla şəhərində məqbərə tikilməsi imkanlarını öyrənmək barədə tapşırıq verdi. Bu tapşırığa əsasən MK-nın şöbə müdiri Sov. İKP MK-nın müvafiq şöbəsi ilə əlaqə yaradaraq məsələni müzakirə etdi. O, müzakirələrdən sonra tapşırığın necə yerinə yetirilməsi barədə H.Əliyevə 1977-ci il 2 sentyabr tarixli geniş arayış təqdim etdi. Həmin arayış ilk növbədə məsələnin tarixini izləmək baxımından əhəmiyyətlidir. Arayışda deyilirdi: «Sizin tarşırığınıza əsasən böyük Azərbaycan şairi və mutəfəkkiri Məhəmməd Füzulinin məqbərəsinin Kərbəlada tikiməsi mümkünlüyü haqqında məsələ öyrənilmişdir... ». Arayışdan aydın olur ki, MK-nın şöbə müdiri Sov. İKP MK-nın müvafiq şöbəsində İraqla əlaqələrə məsul olan



N.Q.Neçkinlə danışmışdı. O bildirmişdi ki, İraqın əlverişsiz daxili vəziyyəti ucbatından Füzulinin məzarının tikintisi məsələsini İraq hökuməti qarşısında qaldırmaq üçün şərait əlverişsizdir. Bununla belə, o, mütəxəssislərlə əlavə olaraq məsləhətləşəcəyini və tövsiyələrini bildirəcəyini söyləmişdi. Onun bu fikrini Sov. İKP MK-nın beynəlxalq əlaqələr şöbəsinin Yaxın Şərq bölməsinin müdiri Y.S.Qryadunov da təsdiq etmişdi. Bundan sonra H. Əliyevin təklifi ilə məsələnin həllinə Azərbaycanın Xarici İşlər Nazirliyi və Elmlər Akademiyası cəlb edilmişdi. Məsələ SSRİ XİN qarşısında qaldırılmışdı. Lakin SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri, nazirliyin kollegiya üzvü Sıtenko Sovet İttifaqının Bağdaddakı səfirinə istinadən Füzulinin məzarının bərpası fikrindən vaz keçməyi tövsiyə etmişdi. Motiv yenə də eyni idi: əlverişsiz siyasi şərait.

Bundan sonra H.Əliyevin tövsiyəsinə uyğun olaraq Azərbaycan Elmlər Akademiyasının prezidenti H.Abdullayev İraqın Bakıdakı baş konsulu Ədnan Qaydan Məhəmmədlə görüşürək Azərbaycan ictimaiyyəti və alimləri adından məsələnin müsbət həll olunması üçün hökuməti qarşısında vəsatət qaldırmasını xahiş etmişdi. Məsələni araşdıran İraq konsulu 1976-cı il iyul ayının 21-də Azərbaycanın Xarici İşlər Nazirliyinə cavab notası göndərmişdi. Notada deyilirdi: «İraq prezidenti dəftərxanasının rəhbərliyi bildirir ki, İraq ərazisində dəfn olunduğundan şair Füzulinin mavzoleyinin bərpası üçün hökumət məsuliyyət daşıyacaqdır»[5].

Notadan aydın olurdu ki, diplomatik kanallarla məsələnin həllinə cəhd edilməsi artıq heç bir nəticə verməyəcək. Çünki İraqın baş konsulu hökumətində kifayət qədər nüfuz sahibi idi və BƏƏS partiyasının rəhbər dairələri ilə sıx əlaqələr saxlayırdı. Onun fikri məsələnin həlli barədə İraq hökumətinin yekun rəyi kimi də qəbul edilə bilərdi.

Bütün bunlara baxmayaraq, H.Əliyev bu istiqamətdəki fəaliyyətini inadla davam etdirirdi. O, Azərbaycan KP MK-

[5] ARSPİHDA, f. 1, siy. 64, iş 163, v. 174-176.

nın beynəlxalq əlaqələr şöbəsinin müdirinə Sov. İKP MK ilə yenidən əlaqə saxlamağı tapşırdı. Tapşırığa əsasən MK-nın şöbə müdiri Sov.İKP MK-nın beynəlxalq şöbəsinin müdir müavini K.N.Brutenslə, Y.S.Qryadunovla və başqa məsul şəxslərlə bir neçə dəfə telefonla danışdı. Onlar Azərbaycan KP MK-nın fikirlərini, istəklərini başa düşdüklərini bildirsələr də, bu məsələni yaxın vaxtlarda qaldırmamağı tövsiyə etdilər. Qryadunov fikrini bununla əsaslandırırdı ki, indi İraqda milli məsələ kəskin xarakter alıb, uzun illər ərzində ABŞ, İran, Türkiyə və regionun başqa rejimləri kürd hərəkatından İraq hökumətinə qarşı istifadə edirlər, türkmən əhalisinin milli hisslərini qızışdırırlar. İraqdakı BƏƏS partiyası rejimi ölkədəki milli problemləri həll etmək iqtidarında deyil və bütün ərazilərdə ərəbləşdirməni həyata keçirir. O bildirirdi ki, İraqda müxtəlif dini təmayüllər arasında da münasibətlər kəskindir. Hətta Kərbəla şəhərində şiələrin hökumət əleyhinə olan mitinqlərini bomba ilə dağıtmağa da cəhd edilmişdi. Sov. İKP MK-nın beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları qeyd edirdilər ki, Füzulinin məzarının bərpası məsələsi gələcəkdə SSRİ-yə səfər edən BƏƏS partiyası nümayəndələri ilə danışıqlarda müzakirə obyekti ola bilər.

Bütün bu cavablardan sonra Azərbaycan KP MK-nın şöbə müdiri Füzulinin mavzoleyinin bərpası məsələsini müvəqqəti olaraq MK-nın nəzarətindən çıxarmağı və uzunmüddətli məsələlər cərgəsinə aid edib əlverişli şərait yarandıqda baxmağa icazə verməyi xahiş etdi. Sənədlə tanış olan H.Əliyev onunla razılaşsa da, fəaliyyətini başqa formalarda davam etdirməyə başladı. Onun təklifi ilə füzulişünasların beynəlxalq simpoziumlarının keçirilməsinə təşəbbüs edildi və buna uğurla nail olundu. Bu isə məsələnin unudulmadığını, Azərbaycan tərəfini daim narahat etdiyini göstərirdi.

H.Əliyev İraqdan SSRİ-yə gələn müxtəlif səviyyəli nümayəndə heyətləri qarşısında həmin məsələni cəsarətlə qaldıraraq həllinə çalışırdı. Dövlətlərarası münasibətlərdə



Первому секретарю ЦК КП Азербайджана товарищу Г.А.Алиеву

По Вашему поручению нами изучен вопрос о возможности строительства в г.Кербала гробницы великого азербайджанского поэта и мыслителя Мухаммеда Физули.

Старший референт Международного отдела ЦК КПСС т. Нечкин Н.Г., который ответственен за связи с Ираком, сообщил нам, что, учитывая внутриполитическую обстановку в Ираке, время для поднятия перед иракской стороной вопроса о строительстве гробницы Физули неблагоприятное. Вместе с тем он обещал дополнительно проконсультироваться со специалистами и высказать свои рекомендации. Эту же мысль подтвердил зав.сектором Ближнего Востока МО ЦК КПСС т. Грядунов Ю.С.

В ожидании мнения Отдела ЦК, мы по Вашему поручению подключили к решению вопроса Министерство иностранных дел и Академию наук республики. МИД СССР (зав.отделом стран Ближнего Востока, член коллегии т. Сытенко) со ссылкой на мнение Посольства СССР в Багдаде (т. Барковский) просил воздержаться с предложением о реставрации мавзолея Физули. Мотивы были те же: неблагоприятная политическая обстановка.

Президент Академии наук т. Абдуллаев встретился с Генеральным консулом Ирака в Баку т. Аднан Гайданом Мохаммедом и от имени общественности и ученых Азербайджана просил Генконсула ходатайствовать перед правительством Ирака о положительном решении вопроса. ... июля 1976 года Генконсул Ирака направил в МИД республики ответную ноту, в которой, в частности, отмечается: "... руководство канцелярии Президента Ирака сообщило, что правительство Ирака будет нести ответственность за восстановление мавзолея поэта Физули, так как он захоронен на территории Ирака".

Содержание ноты не оставляло сомнений в том, что повторная попытка использовать дипломатический канал не принесет нам ожидаемых результатов, ибо, насколько мы ориентированы, Генконсул Г.Мохаммед является достаточно авторитетной фигурой и имеет значительное влияние в МИДе и руководящих кругах БААС Ирака.

В последующем я неоднократно связывался по ВЧ и имел встречу с зам.зав. Международным отделом ЦК КПСС т. Брутенцом К.Н.,

müəyyən problemlərin yaranması təhlükəsi də onu dayandıra bilmirdi. H.Əliyev Azərbaycan şair və yazıçılarının diqqətini həmin məsələyə cəlb edərək məqsədə çatmaq üçün çalışırdı. O, məsələnin müzakirəsini hətta yazıçıların VII qurultayında da qaldıraraq nəinki ziyalıları, həmçinin ictimaiyyəti agah etdi. Qeyd etmək lazımdır ki, H.Əliyev qurultay ərəfəsində Azərbaycan yazıçılarına böyük bir hədiyyə verdi. Onun Azərbaycan ədəbiyyatına və ədəbi irsə münasibətinin, qayğısının daha bir təzahürü yazıçılar üçün Xəzər dənizi sahilində Şüvəlanda yaradıcılıq evinin istifadəyə verilməsi oldu[6].

H.Əliyev nitqində ədəbiyyatın qayğısına qalan, bütün buxovları, əngəlləri qıraraq nəinki yazıçıların himayəçisi olduğunu göstərir, eyni zamanda onları xalqı düşündürən Cənubi Azərbaycan məsələsindən, tarixdə muhum rol oynamış ziyalılardan yazmağa, tarixi romanlar yaratmağa, M.Füzulinin məqbərəsinin keşiyində durmağa, qorxmamağa, çəkinməməyə səsləyirdi. O deyirdi: «... milli mədəniyyətimiz dirçəlmişdir», «Azərbaycanın yaradıcı ziyalılarının xoşbəxt taleyi onların xalqla qırılmaz birliyindədir, xalq mənafeyinə... fədakarlıqla xidmət etmələrindədir», «poeziyamız Azərbaycan klassik... lirikasının ən yaxşı ənənələrini davam etdirərək fəal vətəndaşlıq mövqeyində dayanmaqdadır». O daha sonra qeyd edirdi: «Nizaminin və Füzulinin, Xaqaninin və Nəsiminin, Axundovun və Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçılarından və şairlərindən parlaq tarixi əsərlər gözləyir, Azərbaycan tarixinin, mədəniyyət və elminin görkəmli xadimlərinin bədii obrazlarını gözləyir», «... tarixi simaların obrazları yaradılan və tariximizin mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır»[7].

---

[6] ARƏİDA, f. 340, siy. 1, bağ. 55, iş 1445, v. 25-41; «Kommunist» qəzeti, 1981, 14 iyun, № 139 (17773).

[7] Azərbaycan yazıçılarının VII qurultayında H. Ə. Əliyevin nitqi. - «Kommunist» qəzeti, 1981, 14 iyun, №139 (17773).



H.Əliyev qurultaydakı nitqində M.Füzulinin qəbrinin bərpası məsələsini butun kəskinliyi ilə açıq şəkildə qaldırmağı yazıçılara tövsiyə etdi[8]. Füzulinin məzarının vəziyyəti barədə danışan şair Bəxtiyar Vahabzadəyə müraciətlə H.Əliyev deyirdi: «Bir neçə il bundan qabaq bizə məlum oldu ki, Kərbəlada Füzulinin qəbrini doğrudan sökublər və onun sümüklərini bir qutuya yığıb hansı bir məscidin zirzəmisində saxlayırlar. Biz öyrəndik ki, həqiqətən oranı söküblər, bu, plana düşübdür, başqa bir yerdə qəbri bərpa edəcəklər. Biz dövlət orqanları vasitəsi ilə müəyyən tədbirlər gördük. Bilirsinizmi, İraq hökuməti ilə bizim hökumət arasında müəyyən mürəkkəbliklər vardır. Mərkəzi Komitədə belə məsləhət gördük ki, əgər bu işə bizim elm xadimlərimiz, yazıçılarımız, dünyada tanınmış adamlarımız qarışsalar bu məsələni həll edərik. Dövlət xətti ilə yox. Bilirsiniz ki, Füzuli sovet vətəndaşı deyil. Füzuli bizim Azərbaycan şairidir. Ancaq yazıb-yaradıb və vəfat edibdir İraqda. Bu məsələni ayrı-ayrı alimlər vasitəsilə daha tez həll etmək olar. Ancaq burada S. Rustəm, M.İbrahimov və Sizə öz narazılığımızı bildiririk. Heç bir yoldaş bu sahədə ürəklə, canbaşla, patriotik hisslərlə çalışmır. H.Araslı məktub yazıb, İraq konsulu deyib ki, baxarıq. Həqiqətən bunu istəyirsənsə, gedib o konsulun boğazından tut və de ki, Füzuli mənimdir. Füzuli mənim tarixim, Füzuli mənim mənliyimdir. Siz niyə bu işə belə yanaşırsınız? Əgər siz belə bir iş tutsanız, heç kim sizi tutmaz. Niyə indiyə kimi İraq prezidentinə məktub yazmamısınız? Əgər Süleyman Rüstəm belə bir məktub yazsa, İraq prezidenti onu həbs edəcək?»[9]

H.Əliyev daha sonra üzünü M.İbrahimova tutaraq «Sizi Ümumittifaq Asiya və Afrika xalqları ilə həmrəylik təşkilatının sədri kimi böyük bir vəzifəyə qoymuşuq, bundan böyük daha nə istəyirsiniz» deyir və təşkilatın sədri kimi ona bu məsələ barədə YUNESKO-ya və BMT-yə məktublar yazmağı tövsiyə edirdi. O açıq şəkildə bildirirdi: «Bu işlərdə siz

---

[8] ARƏİDA, f. 340, siy. 1, bağ. 71, iş 1694, v. 60.

[9] Yenə orada, v. 61.

patriotizm hisslərinizi axıra çatdırmağa nail ola bilmirsiniz. Bu ümümi işlərdə siz istədiyiniz qədər ürəkdən çalışmalısınız. Danışmağa böyük ustalığınız vardır. Hətta Bəxtiyar Vahabzadə məclislərdə oturub Azərbaycan xalqının həyatı haqqında danışır. Bu işlərdə çalışmağı yoxdur. Bu barədə başqa qardaş respublikalardan dərs almaq, öyrənmək lazımdır. Yenə deyirəm, əgər bizim mədəniyyətimiz, tariximiz üçün siz belə hərəkətlər edərək müəyyən qədər cızığınızdan çıxsanız, qorxmayın... bizim respublikamızda heç vaxt, heç kimdən sizə xəta toxunmaz. Çünki bu, xalq mədəniyyəti üçündür. Bizim respublikamız üçündür»[10].

Göründüyü kimi, H.Əliyev yazıçı və şairləri ümümxalq mənafeyinə dair məsələlərdə kifayət qədər yekdil olmağa, başqa respublikalardan nümunə götürməyə çağırır, bu problemlə məşğul olan şəxsə xətər toxunmayacağına təminat verir, onları qoruduğunu rəsmi şəkildə bildirirdi. O özündən əvvəlki rəhbərlərdən fərqli olaraq Azərbaycan şair və yazıçılarına tam sərbəstlik verir, xalqın problemlərindən yazmağı təşviq və himayə edirdi. Bu, Azərbaycan tarixində, xüsüsən sovet tarixində o vaxtadək görünməmiş bir hadisə idi.

H.Əliyevin fikrincə, Füzuli istedad və yüksək sənətkarlıqla səciyyələnən yaradıcılığı ilə milii-coğrafi sərhədlər tanımayan, dünya mədəniyyətinin incisinə çevrilərək xalqlar arasında mənəvi-mədəni əlaqələrin möhkəmlənməsində, onların bir-birinə yaxınlaşmasında əvəzsiz rol oynayan bir mütəfəkkir idi. H.Əliyev Füzulini bütün Şərqin böyük korifeyi hesab edirdi.

H.Əliyevin Azərbaycan ədəbiyyatına və ədəbi irsinə göstərdiyi qayğı şair və yazıçıları ruhlandırır, onlar tərəfindən kifayət qədər yüksək qiymətləndirilirdi. Məsələn, xalqın milli ruhunun qorunması və inkişaf etdirilməsində əvəzsiz rol oynayan məşhur «Dəli Kür» romanının müəllifi, görkəmli yazıçı İsmayıl Şıxlı qurultaydakı nitqində deyirdi: «Heydər Əliyev yoldaşın bizə, Azərbaycan yazıçılarına, klassik irsimi-

[10] Yenə orada, v. 62.



zə xüsusi qayğı ilə yanaşması, Nizami, Mirzə Şəfi irsinin öyrənilməsinə, Nəsimi, S.Vurğun kimi sənət ustalarımızın geniş yubileylərinin keçirilməsinə xüsusi əhəmiyyət verməsi bizi sevindirməyə bilməz. Heydər Əliyev yoldaş düz bir həftədir ki, böyuk dövlət və təsərrüfat işlərindən ayrılıb ancaq bizlə-yazıçılarla məşğul olur, desəm mübaliğəyə yol vermiş olmarıq». İ.Şıxlının bu sözlərinə H.Əliyev dərhal reaksiya verərək belə deyirdi: «Əgər həqiqəti bilmək istəsəniz, qəlbimdə həmişə bu işlə məşğul olmuşam»[11].

İ.Şıxlı çıxışında daha sonra qeyd edirdi: «Heydər Əliyevin işi çoxdur. Lakin o vaxt taparaq bizim əsərləri oxuyur, öz fikirlərini söyləyir. Mən burada H.Ə.Əliyev yoldaşın icazəsi ilə bir sirri də açmaq istəyirəm. O ayrı-ayrı əsərləri oxuduqdan sonra şəxsən görüşə imkan tapmadıqda bizə-yazıçıların evinə zəng çalaraq, təşəkkürünü bildirir, mülahizələrini söyləyir, ağıllı məsləhətlərini verir. Əgər desəm ki, H.Əliyev yoldaş biz yazıçıların yaradıcılığı ilə şəxsən tanışdır, hamımızın haqqında təsəvvürü var, bizim əsərlərin zəif və yaxşı cəhətlərini bilir... bunu yalnız ədəbiyyatımızın qayğısını çəkən, onun dostu olan dövlət və partiya rəhbəri edə bilər»[12].

Şair N.Xəzri isə nitqində bildirirdi ki, Şüvəlandakı yaradıcılıq evinin açılışında H.Ə.Əliyev yoldaşın yüksək qayğı və humanizmin təzahürü olan açıq, mehriban, səmimi, prinsipial söhbətini, tövsiyələrini, məsləhətlərini xüsusi qeyd etməliyik. H.Əliyev yoldaşın sadəliyi və müdrikliyi, dözümü və səbri, valehedici yaddaşı, ürəklərdən keçənləri mahir bir sənətkar duyğusuyla oxumaq məharəti hamımızı qanadlandırır və ruhlandırır[13].

Yazıçı Mirzə İbrahimov qurultaydakı nitqində Şüvəlandakı yaradıcılıq evinin açılışı ilə bağlı deyirdi: «Qurultay qabağı olan bu tədbirdə Heydər Əliyev yoldaş bir şəxsiyyət, bir

[11] Yenə orada, v. 25.
[12] Yenə orada, v. 27.
[13] Yenə orada, v. 28.

partiya xadimi kimi bizim ədəbiyyatdan, Avestadan, Azərbaycan ədəbiyyatında Dədə Qorquddan, bizim, mütərəqqi, keçmiş Azərbaycanda yaşamış adamlardan, Zərdabi kimi adamlardan danışdı»[14]. O daha sonra deyirdi: «Respublikamızın, xalqımızın üzünü ağardan, başını uca edən bu böyük nailiyyətlərin qazanılmasında biz Azərbaycan KP MK-nın və onun birinci katibi H.Əliyev yoldaşın coşqun fəaliyyətini, böyük əməyini... xüsusi olaraq qeyd etməliyik»[15].

Məşhur ədəbiyyat tənqidçisi və yazıçı Qulu Xəlilov isə nitqində deyirdi: «Mən istəyirəm ki, hər kəs öz sahəsində, vətəndaşlıqda, cəsarətdə, milli təpərdə, geniş ürəklilikdə Sizə-Heydər Əliyevə oxşamağa çalışsın»[16]. Doğrudan da H.Əliyev öz yorulmaz fəaliyyəti ilə milli təpərə malik olan böyük dövlət xadimi idi.

H.Əliyevin ədəbiyyata və ədəbi irsə qayğısında şair və yazıçıların əsərlərinin çapı üçün şərait yaradılması mühüm yer tuturdu. O, kitab çapına və nəşriyyat işinə diqqət yetirirdi. Azərbaycan KP MK bürosunun onun sədrliyi ilə keçən 1974-cü il 30 avqust tarixli iclasında yarandığı vaxtdan bəri 25 min adda 200 mln. nüsxə kitab buraxan Azərnəşrin 50 illiyinin qeyd olunması barədə qərar qəbul edildi[17]. H.Əliyev nəşriyyatın təltif edilməsi haqqında sentyabr ayının 6-da Sov. İKP MK-ya 488 №-li məxfi məktubla müraciət etdi[18]. Bu müraciətin əsasında nəşriyyat Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edildi. MK qərarı yerinə yetirildi, nəşriyyatın geniş yubiley tədbiri keçirildi, maddi-texniki bazası möhkəmləndirildi, əməkdaşları mükafatlandırıldı.

Məlum olduğu kimi, Azərbaycanda kitab nəşri ilə məşğul olan nəşriyyatlar bu işi tam gücü ilə yerinə yetirə bilmirdilər, yazıçı və şairlərin əsərləri bəzən illərlə növbədə yatıb

---

[14] Yenə orada, v. 10.
[15] ARƏİDA, f. 340, siy. 1, bağ. 63, iş 1595, v. 53.
[16] ARƏİDA, f. 340, siy. 1, bağ. 71, iş 1694, v. 88.
[17] ARSPİHDA, f. 1, siy. 61, iş 69 (71), pr. №103, § 18.
[18] ARSPİHDA, f. 1, siy. 61, iş 148, v. 106-107.



qalırdı. H.Əliyev həmin problemi də cəsarətlə həll etdi. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi altında Azərbaycan KP MK bürosunun 1977-ci il 21 iyun tarixli iclas qərarı ilə «Yazıçı» nəşriyyatı yaradıldı[19]. Nəşriyyatın yaradılması Azərbaycanda bədii ədəbiyyatın nəşri sahəsində mövcud olan problemləri həll etmək istiqamətində ciddi bir addım idi. Çap edilən tarixi romanlar, müxtəlif bədii əsərlər xalqın milli kimliyini dərk etməsində və milli şüurunun güclənməsində mühüm rol oynayırdı. Bədii ədəbiyyatın nəşrinin çoxalması ana dilinin inkişafına, kitabın hər bir azərbaycanlı ailəsinə daxil olmasına kömək edirdi. H.Əliyev Azərbaycanda kitab çapına ayrılan vəsaitin artırılmasını diqqətdə saxlayırdı. Bilavasitə onun sayəsində Azərbaycanın bu sahədə başqa respublikalardan olan geriliyi aradan qaldırıldı.

H.Əliyevin fəaliyyətində şair və yazıçıların yubileylərinin təntənəli şəkildə keçirilməsi başlıca yerlərdən birini tuturdu. O, hakimiyyəti illərində demək olar ki, hər gün yaradıcı adamlara qayğı göstərir, onlarla maraqlanır, mövcud olan problemlərini dərhal həll edirdi. Azərbaycanın bütün sovet tarixi ərzində azərbaycanlı yazıçı və şairlər ilk dəfə olaraq belə yüksək qayğı ilə əhatə olunmuşdular. Onun rəhbərliyi altında şair və yazıçıların yubileylərinin keçirilməsindən ötrü rəsmi qərarlar qəbul edilirdi. Bəzi faktların gətirilməsi deyilənləri sübut edir. Məsələn, Azərbaycan KP MK bürosunun 1969-cu il 20 noyabr tarixli iclasında yazıçı Süleyman Rəhimovun 70 illik yubileyinin keçirilməsi barədə qərar qəbul olundu[20]. Büronun 1970-ci il 20 yanvar tarixli iclasında onun Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə təltif olunması barədə Sov.İKP MK qarşısında məsələ qaldırmaq haqqında qərar qəbul edildi[21]. Fevral ayının 20-də keçirilən büro iclasında yubileylə bağlı ədəbi, elmi və bədii tədbirlər

---

[19] ARSPİHDA, f. 1, siy . 64, iş 47 (48), pr. №39, § 10.
[20] ARSPİHDA, f. 1, siy. 56, iş 63, pr. № 114, § 16, v. 12.
[21] ARSPİHDA, f. 1, siy. 56, iş 23 (24), pr. №120, § 9-q.

planı bəyənildi[22]. Qərara müvafiq olaraq respublikada geniş yubiley tədbirləri keçirildi[23]. Lakin yazıçıya Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsi o zaman mümkün olmadı. Buna baxmayaraq, H.Əliyev sonrakı illərdə də həmin adın alınması üçün fəaliyyətini davam etdirdi. MK bürosunun 1975-ci il 17 mart tarixli iclasnda S.Rəhimovun Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə təltif edilməsi barədə təkrar məsələ qaldırmağa dair qərar qəbul edildi[24]. Lakin bu dəfə də istəyə çatmaq mümkün olmadı. Bununla belə, H.Əlliyev yenə də inadından dönmədi. S.Rəhimovun anadan olmasının 80 illiyi münasibətilə H.Əliyev həmin məsələni yenidən qaldırdı. MK bürosunun 1980-ci il 1 fevral tarixli iclasında S.Rəhimovun 80 illiyinin qeyd edilməsi barədə məsələ müzakirə edildi[25]. H.Əliyevin sədrliyi ilə Azərbaycan KP MK bürosunun 1980-ci il fevral ayının 13-də keçirilən iclasında S.Rəhimovun Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə təltif edilməsi barədə məsələni Sov. İKP MK qarşısında qaldırmaq haqqında qərar qəbul edildi. H.Əliyev qərara müvafiq olaraq S.Rəhimov haqqında hazırlanan 81 №-li məxfi məktubu imzaladı[26]. O, nəhayət, bu istəyinə nail oldu. S.Rəhimova Sosialist Əməyi Qəhrəmanı adı verildi və anadan olmasının 80 illiyi təntənə ilə qeyd edildi[27]. Göründüyü kimi, H.Əliyev təkcə bu istəyinə çatmaqdan ötrü on il çalışmışdı.

Azərbaycan KP MK bürosunun H.Əliyevin sədrliyi ilə keçirilən 1970-ci il 20 fevral tarixli iclasında yazıçı-dramaturq Sabit Rəhmanın anadan olmasının 60 illik yubileyinin keçirilməsi barədə qərar qəbul olundu və müvafiq tədbirlər

[22] ARSPİHDA, f. 1, siy. 56, iş 25 (26), pr. №121, § 47.
[23] ARƏİDA, f. 340, siy. 6, bağ. 1, iş 4.
[24] ARSPİHDA, f. 1, siy. 62, iş 30 (32), pr. №119, § 9.
[25] ARSPİHDA, f. 1, siy. 67, iş 26, pr. №126.
[26] ARSPİHDA, f. 1, siy. 67, iş 178, v. 31-32.
[27] ARƏİDA, f. 340, siy. 6, bağ. 8, iş 86, v. 1-56; «Kommunist» qəzeti, 1980, 26 mart, №72 (17408).



bəyənildi[28]. Büronun 9 oktyabr tarixli iclasında S.Rəhmanın xatirəsini əbədiləşdirmək barədə məsələ müzakirə olundu[29]. H.Əliyevin göstərişi ilə S.Rəhmanın 70 illik yubileyi təntənəli şəkildə keçirildi[30]. Onun əsərləri tamaşaya qoyuldu, nəşr edildi.

H.Əliyev görkəmli şair, müəyyən vaxtlarda rejimin basqılarından əziyyət çəkən, şerlərində türk sözləri axtarılan, pantürkist adlandırılan Rəsul Rzanın yubileylərinin keçirilməsini diqqətdə saxlayır, dövlətin orden və medalları ilə təltif edilməsi barədə Moskvaya məktublar yazırdı. Şairin anadan olmasının 60 illiyinin keçirilməsi və Lenin ordeni ilə təltif olunması barədə məsələ MK bürosunun 1970-ci il 31 mart tarixli iclasında müzakirə edildi[31]. Yubiley tədbirləri ilə bağlı məsələ büronun 5 may tarixli iclasında da müzakirə olundu[32]. R.Rzanın yubiley tədbirləri keçirildi. H.Əliyev səylərini davam etdirərək R.Rzanın anadan olmasının 70 illiyi münasibətilə MK bürosunun 1980-ci il fevral ayınının 1-də müvafiq qərarının qəbul edilməsinə nail oldu[33]. Aprel ayının 21-də isə 224 №-li məxfi məktubla Sov. İKP MK-ya müraciət edərək onun Sosialist Əməyi Qəhrəmanı fəxri adi ilə təltif edilməsi məsələsini qaldırıb istəyinə nail oldu[34]. R.Rzanın 70 illiyi qeyd edildi[35]. Şairin əsərləi çap edildi, şerlərinə mahnılar bəstələndi.

H.Əliyev yazıçı Əli Vəliyevin Lenin ordeni ilə təltif edilməsi barədə məsələni MK bürosunun 1970-ci il 4 dekabr tarixli iclasının gündəliyinə salaraq Sov.İKP MK-ya müvafiq məktub yazdı[36]. Bir neçə il sonra, 1974-cü ildə ona Xalq yazı-

[28] ARSPİHDA, f. 1, siy. 56, iş 5 (26), pr. №121, § 48.
[29] ARSPİHDA, f. 1, siy. 57, iş 94 (95), pr. №147, § 67.
[30] ARƏİDA, f. 340, siy. 6, bağ. 8, iş 87, v. 1-9.
[31] ARSPİHDA, f. 1, siy. 57, iş 33 (34), pr. №125, § 22.
[32] ARSPİHDA, f. 1, siy. 57, iş 58, pr. №129, § 45.
[33] ARSPİHDA, f. 1, siy. 67, iş 26, pr. №126.
[34] ARSPİHDA, f. 1, siy. 67, iş 178, v. 71-73.
[35] ARƏİDA, f. 340, siy. 6, bağ. 7, iş 84, v. 1-28; bağ. 8, iş 88, v. 1-19.
[36] ARSPİHDA, f. 1, siy. 57, iş 107, pr. №151, § 16, v. 195.

çısı fəxri adı verildi[37]. H.Əliyev Ə.Vəliyevin anadan olmasının 80 illiyinin keçirilməsi və dövlət mükafatına təqdim edilməsi barədə MK bürosunun 1981-ci il 26 yanvar tarixli iclas qərarını imzaladı və buna nail oldu[38]. Elə həmin ildə Ə.Vəliyev ordenlə təltif edildi[39]. Yazıçının geniş yubiley tədbirləri keçirildi.

Həmin iclasda yazıçı Həsən Seyidbəylinin yüksək mükafata layiq görülməsi haqqında Sov.İKP MK-ya məktubla müraciət etmək barədə qərar qəbul olundu. Bu barədə hazırlanan məktubu H.Əliyev dekabr ayının 7-də imzaladı[40]. Məktubda H.Seyidbəylinin filmlərinin Azərbaycan kinematoqrafiyasının inkişafına kömək etdiyi vurğulanır, onun yaradıcılığına yüksək qiymət verilirdi[41]. H.Əliyevin səyləri nəticəsində H.Seyidbəyli Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edildi[42]. Ona gözəl iş və yaşayış şəraiti yaradıldı.

Yazıçı, tanınmış tədqiqatçı Qulam Məmmədlinin anadan olmasının 75 illiyi[43], şairə Mirvarid Dilbazinin anadan olmasının 60 illiyi 1972-ci ildə keçirildi[44].

Hələ orta məktəb şagirdi ikən türk şairlərinin əsərlərini oxuduğu üçün sovet xüsusi xidmət orqanları tərəfindən təqib edilən, sonralar görkəmli şair Nigar Rəfibəylinin anadan olmasının 60 illik yubileyi 1973-cü ildə təntənə ilə qeyd edildi[45].

Görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin anadan olmasının 60 illiyi 1974-cü ildə keçirildi[46].

---

[37] «Kommunist» qəzeti, 1974, 10 sentyabr, №212 (15731).
[38] ARSPİHDA, f. 1, siy. 68, iş 37 (38), pr. №167, § 11, 12.
[39] «Kommunist» qəzeti, 1981, 27 fevral, №50 (17684).
[40] ARSPİHDA, f. 1, siy. 57, iş 107, pr. №151, § 17, v. 198-199.
[41] Yenə orada, v. 200.
[42] «Kommunist» qəzeti, 1971, 3 yanvar, №2 (14607).
[43] ARƏİDA, f. 340, siy. 6, bağ. 3, iş 27, v. 3.
[44] ARƏİDA, f. 340, siy. 6, bağ. 3, iş 18, v. 1-4.
[45] ARƏİDA, f. 340, siy. 6, bağ. 4, iş 40, v. 1-2.
[46] ARƏİDA, f. 340, siy. 6, bağ. 5, iş 51, v. 1-5.



Şair Nəbi Xəzrinin anadan olmasının 50 illiyilə əlaqədar olaraq Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi haqqında MK bürosunun həmin ilin 19 noyabr tarixli iclas qərarına əsasən H.Əliyev noyabr ayının 21-də Sov.İKP MK-ya yazdığı 609 №-li məxfi məktubunda onun yaradıcılığında xəlqiliyin, lirizmin olduğunu, istedadlı dramaturq kimi fəaliyyət göstərdiyini xüsusilə vurğulayırdı[47].

Azərbaycan rəhbəri şair Məmməd Rahimin Oktyabr inqilabı ordeni ilə təltif edilməsi haqqında 1977-ci il mart ayının 18-də 125 №-li məxfi məktubla Sov. İKP MK-ya müraciət etdi[48].

1978-ci ildə yazıçı İmran Qasımovun anadan olmasının 60 illik yubileyi qeyd olundu[49].

MK bürosunun 1979-cu il 27 fevral tarixli iclasında görkəmli yazıçı, əsərləri ilə milyonlarla oxucuların sevimlisinə çevrilmiş İsmayıl Şıxlının anadan olmasının 60 illik yubileyinin keçirilməsi və hökumət mükafatına təqdim edilməsi barədə qərar qəbul edildi[50]. H.Əliyev onun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə mart ayının 2-də Sov.İKP MK-ya 87 №-li məxfi məktubla müraciət etdi[51]. Məktubda İsmayıl Şıxlı yaradıcılığına yüksək qiymət verilir, o, müasir Azərbaycan nəsrinin ən görkəmli nümayəndələrindən biri kimi dəyərləndirilirdi. İ.Şıxlının anadan olmasının 60 illiyi böyük təntənə ilə qeyd edildi[52].

H.Əliyev yazıçı Xalidə Hasilovanın Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə Sov.İKP MK-ya 1980-ci il mart ayının 24-də 162 №-li məxfi məktubla müraciət etdi[53].

Elə həmin ildə görkəmli ədəbiyyatşünas alim Cəfər

---

[47] ARSPİHDA, f. 1, siy. 61, iş 148, v. 136-137.
[48] ARSPİHDA, f. 1, siy. 64, iş 127, v. 26-27.
[49] «Kommunist» qəzeti, 1978, 25 noyabr, №269 (17009).
[50] ARSPİHDA, f. 1, siy. 66, iş 22, pr. № 98, § 12, 13.
[51] ARSPİHDA, f. 1, siy. 66, iş 208, v. 20-21.
[52] ARƏİDA, f. 340, siy. 6, bağ. 7, iş 81, v. 1-18.
[53] ARSPİHDA, f. 1, siy. 67, iş 178, v. 55-56.

Xəndanın anadan olmasının 70 illiyi qeyd edildi[54]. H.Əliyev Azərbaycan şair və yazıçılarından Süleyman Rəhimova, İmran Qasımova, İlyas Əfəndiyevə, Nəbi Xəzriyə, Xalidə Hasilovaya və başqalarına dövlət mükafatlarını özü təqdim etdi[55].

Həmin ilin mart ayında görkəmli ədəbiyyat xadimi Əziz Şərifin 85 illiyi qeyd olundu[56].

Azərbaycan KP MK bürosunun 1981-ci il 21 iyul tarixli iclasında Mirzə İbrahimovun anadan olmasının 70 illiyinin qeyd olunması və Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülməsi barədə Sov. İKP MK-ya müraciət etmək haqqında qərar qəbul edildi[57].

Büronun H.Əliyevin sədrliyi altında keçən 1982-ci il 12 iyul tarixli iclasında Mirvarid Dilbazinin anadan olmasının 70 illiyinin keçirilməsi və təltif olunması barədə qərar qəbul edildi[58]. İyul ayının 20-də isə H.Əliyev Sov. İKP MK-ya 1/424 №-li məxfi məktub yazaraq onun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə məsələ qaldırdı və istəyinə nail oldu[59]. Dilbazinin yubileyi təntənə ilə qeyd edildi[60].

H.Əliyev 1982-ci il oktyabr ayının 16-da Sov.İKP MK-ya 8/614 №-li məxfi məktub yazaraq yazıçı Hüseyn Abbaszadənin anadan olmasının 60 illiyi münasibətilə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə xahiş etdi və buna nail oldu[61]. Onun da yubileyi təntənə ilə keçirildi[62].

---

[54] «Kommunist» qəzeti, 1980, 14 may, №112 (17448).
[55] «Kommunist» qəzeti, 1980, 18 may, №116 (17452).
[56] «Kommunist» qəzeti, 1980, 28 mart, №74 (17410).
[57] ARSPİHDA, f. 1, siy. 68, iş 102 (103), pr. №19, § 20, 21.
[58] ARSPİHDA, f. 1, siy. 70, iş 88, pr. №61, § 18, 19.
[59] ARSPİHDA, f. 1, siy. 70, iş 378, v. 129-131.
[60] «Kommunist» qəzeti, 1982, 16 avqust, №192 (18126) ; ARƏİDA, f. 340, siy. 6, bağ. 9, iş 105, v. 1-64.
[61] ARSPİHDA, f. 1, siy. 70, iş 378, v. 171-173.
[62] «Kommunist» qəzeti, 1982, 23 noyabr, №269 (18203).



H.Əliyev Azərbaycanın şair və yazıçılarını sovet sisteminin təzyiqlərindən böyük məharətlə, incə üsullarla və ustalıqla mühafizə edir, yaradıcılıqlarına əlverişli şərait yaradırdı. Bundan fərqli olaraq, Moskva ən xırda antisovet və millətçi təzahürlərə qarşı amansız olmağı tələb edirdi. Məsələn, Sov. İKP MK katibliyinin 1979-ci il 21 aprel tarixli iclasında «Gizli antisovet və siyasi baxımdan zərərli digər materialların yayılması əleyhinə tədbirlər haqqında» məsələ müzakirə edilmişdi. Pelşe, Demiçev, Andropov, Kapitonov və Ponamoryova katibliyin iclasında söylənən təklifləri təkmilləşdirmək tapşırılmışdı[63]. Təkliflər işlənilərək təkmilləşdirilmişdi. Bundan sonra SSRİ DTK sədri Y.Andropov 1979-cu il may ayının 23-də Sov. İKP MK-ya «Antisovet elementlərin bir qrupunun SSRİ-dən qovulmasına dair» qeydlərini göndərdi və bununla əlaqədar olaraq müvafiq qərar qəbul edildi[64]. Antisovet meylli bəzi adamlar ölkədən qovuldu.

Bütün bunlara baxmayaraq, H.Əliyev yaradıcı adamları qoruyur, mərkəzin ağır təzyiqlərinə tab gətirir, onları Moskvanın pəncəsinə vermirdi. Məsələn, əvvəlki illərdə Rusiya və İran arasında işğalçı müharibələr nəticəsində ikiyə bölüşdürülmüş Azərbaycanın dərdlərini ifadə edən «Gülüstan» poemasını yazdığına görə rejimin təqiblərinə məruz qalmış tanınmış şair Bəxtiyar Vahabzadə Yazıçılar İttifaqının qurultayında Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev başda olmaqla Sov.İKP MK Siyasi bürosunu fəxri rəyasət heyətinə seçməyi təklif edir, sonra isə yaradıcılığını daha da genişləndirir, xalqı düşündürən məsələləri daha qətiyyətlə qələmə alırdı. H.Əliyev belə üsullarla onu təzyiq və təqiblərdən qoruyurdu. Əslində rejim Azərbaycan şair və yazıçıları üçün yalnız bir dekorasiya idi.

Başqa bir misal. DTK sədri Krasilnikov MK-ya məktub yazaraq bildirir ki, şair Xəlil Rza məişət səviyyəsində həyatından narazılıq edir, rejimin əleyhinə danışır və ona qarşı

---

[63] РГАНИ, ф.89, оп.55, д.2, л.1.
[64] РГАНИ, ф.89, оп.25, д.38, л.1-3.

tədbir görmək lazımdır. Məsələ ilə tanış olan H.Əliyev cəzalandırmağı deyil, problemlərini, onu narahat edən məsələləri öyrənməyi tapşırır. Məlum olur ki, şairin evi yoxdur. Nəticədə H.Əliyevin bilavasitə göstərişi ilə Xəlil Rzaya ev verilir.

Bir dəfə H.Əliyevə Moskvadan olanlar deyirlər ki, «Qobustan» jurnalında yazılıb ki, Nəriman Nərimanov Lenindən böyükdür. Amma o, deyilənlərə inanmır. Jurnalı gətirib baxırlar. Görürlər ki, həqiqətən yazıçı İsa Hüseynov yazıb ki, Nərimanov Lenin deyil, ondan da böyükdür. H.Əliyev Moskvadan olanlara deyir ki, yazıçıdır da yazıb və onları bir təhər yola verir. Lakin sonradan jurnala məsul olanları yığıb danlayır və deyir ki, daha ağ etməyin də.

H.Əliyevin bu manevrləri xarici tədqiqatçıların da diqqətindən yayınmırdı. ABŞ tarixçiləri qeyd edirlər ki, H.Əliyev milli ruhlu şair və yazıçılara elə vəzifələr verirdi ki, senzura onların əsərlərinin nəşrinə mane ola bilmirdi.

H.Əliyev istedadlı yazıçı və şairlərin meydana çıxmasına sevinir, yaradıcılıqları üçün şərait yaradır, onları xalqla yaxın olmağa çağırırdı. O deyirdi: «Azərbaycan ədəbiyyatı, teatrı, kinosu, təsviri sənəti, musiqisi son illərdə sovet adamlarına bir çox yeni, maraqlı, istedadlı əsərlər bəxş etmişdir... xalqın çoxcəhətli həyatı ilə sənətkarın əlaqəsi nə qədər sıx olarsa, yaradıcılıq nailiyyətlərinə və uğurlarına aparan yol bir o qədər düzgün olar»[65].

H.Əliyev ədəbi irsin qorunmasına qayğı göstərərək Azərbaycanın klassik şair və yazıçıların ev muzeylərinin yaradılması, xatirələrinin əbədiləşdirilməsi üçün səylər edirdi. Hakimiyyətə gəldikdən dərhal sonra, Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında Qazaxda Molla Pənah Vaqifin ev muzeyini yaratmaq barədə qərar qəbul edildi[66]. Doğulduğu rayonda Vaqifin xatirə muzeyi yaradıldı.

---

[65] Əliyev H. Sovet Azərbaycanı, s. 97.

[66] APRSPİHDA, f. 1, siy. 56, iş 49 (50), pr. №107, § 24.



# Borders and Brethren

## Iran and the Challenge of Azerbaijani Identity

Brenda Shaffer

George Mason University
University Libraries

BCSIA Studies in International Security

The MIT Press
Cambridge, Massachusetts
London, England

Moscow when it sought to change the status of the local languages in the schools in the non-Russian republics. His stand on this issue may have been the reason for his dismissal by Moscow.[72] In addition, Azerbaijan Communist Party and later Politburo candidate member Heydar Aliyev at times tried to promote Azerbaijani interests within the limits of the Soviet system. He worked to create jobs inside the republic so that Azerbaijanis would not leave in search of work. He objected to Moscow's plans to move "surplus labor" from Azerbaijan to Siberia. Aliyev also brought the body of nationalist playwright Husein Javid to Azerbaijan for burial.[73]

Some Azerbaijanis interviewed stated that during the Soviet period, Azerbaijanis fiercely sustained their cultural traditions in their homes, which were seen as the only place Soviet and Russian culture could not permeate. For example, most Azerbaijanis devotedly prepared their traditional foods.

Throughout the 1960s and 1970s, the Azerbaijan SSR Writers' Union and intellectual groups continued to grapple with the issue of Azerbaijani cultural and national development. The Azerbaijani intelligentsia's writings of the 1960s and 1970s revealed a firm interest in Azerbaijani identity and culture and an effort to preserve that culture. For example, many works of traditional Azerbaijani *ashug* poetry were published.[74] Many Azerbaijani dictionaries and other philological works were produced throughout the 1960s and 1970s, and many literary works expressed identity with Azerbaijan. Azerbaijani literary journals published many works extolling the Azerbaijani homeland that had been written earlier by poets who were Communists who had been decorated by the regime. These works were not rejected by the censor due to the positions of the authors in the regime. Their poems included the obligatory praise of Communism, but also their love for Azerbaijan as their homeland. A posthumously published book on Samad Vurgun's poetry includes the following poem:

72. Yaroslav Bilinsky, "The Soviet Education Laws of 1958–59 and Soviet Nationalities Policy," *Soviet Studies* Vol. 14, No. 2 (October 1962), pp. 138–157.

73. Husein Javid was killed in 1937 in a Siberian labor camp during Stalin's purges. He was accused of being a "bourgeois nationalist" and "Pan-Turkist."

74. See, for instance, Muzäffär Shukur, ed., *Ashik Shämshir* (Baku: Azerbaijan State Publishers, 1973); "Ashik Ädäbiyyati," *Azärbayjan*, Vol. 12 (1964), pp. 72–74; and "Ashik Äläsgärin Anadan Olmasinin 150 Illiyi," *Azärbayjan*, Vol. 5 (1972), pp. 16–34.



H.Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1978-ci il 9 iyun tarixli iclasında Şamaxıda Ədəbiyyat muzeyi yaratmaq barədə qərar qəbul olundu[67]. Bu qərar yerinə yetirildi.

MK bürosunun 1980-ci il 11 dekabr tarixli iclasında Naxçıvan şəhərində H.Cavidin ev muzeyinin yaradılması barədə qərar qəbul edildi[68]. Həmin qərar da həyata keçirildi.

H.Əliyevin ədəbi irsin qorunmasında başlıca xidmətlərindən biri Azərbaycan ədəbiyyatı klassiklərinin yubileylərinin keçirilməsi, adlarının əbədiləşdirilməsi idi. Bu sahədəki fəaliyyətini o, inadla, ardıcıl və sistemli şəkildə həyata keçirirdi. Partiya və dövlət işlərinin çoxluğuna baxmayaraq, H.Əliyev böyük şövq və ehtiramla demək olar, hər il və hər ay həmin məsələyə diqqət yetirirdi. Onun şəxsi təşəbbüsü ilə Azərbaycan KP MK «Bədii ədəbiyyat klassikləri əsərlərinin tədqiqini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etdi. Qərardan sonra Azərbaycan klassiklərinin əsərlərinin nəşri və təbliği xeyli genişləndirildi.

H.Əliyev öz fəaliyyətində Nizami Gəncəvi irsinin öyrədilməsinə və təbliğinə xüsusi önəm verirdi. Onun sədrliyi ilə keçirilən MK bürosunun 1978-ci il 1 noyabr tarixli iclasında N.Gəncəvi irsinin öyrənilməsi və nəşri haqqında qərar qəbul edildi[69]. Bununla kifayətlənməyən H.Əliyev 1979-cu ildə Azərbaycan KP MK-nın «Azərbaycanın böyük şairi Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında» qərarının qəbul edilməsinə nail oldu. Qərara əsasən Azərbaycan Elmlər Akademiyasında «Nizami komissiyası» yaradıldı, əsərlərinin nəşri, elmi-tədqiqat işlərinin aparılması, əsərlərinin suvenir nəşri və b. tədbirlər həyata keçirildi[70]. Belə bir fakt maraqlıdır ki,

[67] ARSPİHDA, f. 1, siy. 65, iş 67 (69), pr. №72, § 21.

[68] ARSPİHDA, f. 1, siy. 67, iş 126, pr. №160, § 7.

[69] ARSPİHDA, f. 1, siy. 65, iş 113 (115), pr. №87, § 11.

[70] Mədəni irsə qayğı. - «Kommunist» qəzeti, 1981, 21 may, №120 (17754).

H.Əliyev Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi təklifini verəndə Sov. İKP MK-nın ikinci katibi M.Suslov ona bildirmişdi ki, bu tarix yuvarlaq tarix deyil, gərək ya 800, 850, ya da 900 olsun. H.Əliyev ona cavab vermişdi ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır. O vaxt H.Əliyevin bu tutarlı, cəsarətli cavabı Moskvada geniş yayılmışdı[71]. Nizami Gəncəvinin 840 illik yubileyi məhz H.Əliyevin inadı və qətiyyəti sayəsində qeyd edildi. MK bürosunun 1981-ci il 28 iyul tarixli iclasında Nizami Gəncəvinin anadan olmasının 840 illiyinin keçrilməsi barədə qərar qəbul edildi[72]. Həmin ilin avqust ayında isə Azərbaycan KP MK «Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında» qərar qəbul etdi[73]. MK-nın ideologiya katibi H.Həsənov başda olmaqla təşkilat komitəsi yaradıldı. Qərara uyğun olaraq Nizami poeziya günləri, ədəbi-bədii gecələr, sərgilər, elmi sessiyalar keçirildi, Nizami poeziya evi yaradıldı, əsərləri nəşr edildi, döş nişanları, əsərlərinin motivləri əsasında balet tamaşaları hazırlandı. Azərbaycanda geniş yubiley tədbirləri keçirildi. Yubiley şənliklərinə 20-yə yaxın xarici ölkədən qonaq gəlmişdi[74]. Xarici ölkələrdən gələn qonaqları qəbul edən H.Əliyev söhbətində onlara Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı barədə müfəssəl məlumat verdi[75]. H.Əliyev deyirdi: «Şərq öz poeziyası ilə ta qədim zamanlardan şöhrət qazanmışdır. Lakin Nizami poemaları kimi sanballı əsərləri yalnız dahi bir insan yarada bilərdi»[76].

[71] «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi. - «Dirçəliş-XXI əsr», 1999, №14, c.10.

[72] ARSPİHDA, f. 1, siy. 68, iş 102 (103), pr. №19, § 16.

[73] Azərbaycan KP MK-nın «Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərarı». - «Kommunist» qəzeti, 1981, 6 avqust, №183 (17817).

[74] ARƏİDA, f. 340, siy. 6, bağ. 8, iş 93, v. 1-98.

[75] «Kommunist» qəzeti, 1981, 7 oktyabr, №233 (17867).

[76] Yenə orada.



Respublika sarayında N.Gəncəvinin 840 illiyi təntənəli şəkildə keçirildi. Giriş sözü ilə çıxış edən təşkilat komitəsinin sədri H.Həsənov nitqində H.Əliyevin ədəbiyyata və ədəbi irsə göstərdiyi yüksək qayğıdan söhbət açdı. O deyirdi: «Bu gün Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev ölkəmizin hər yerindən və xaricdən şənliklərimizə gələn qonaqları qəbul edərkən Nizami Gəncəvi haqqında ... parlaq nitq söylədi. O, Nizami irsini bundan sonra da öyrənmək, xalqımızın bu dahisinin qələmə aldığı mənəvi meyarlardan gündəlik həyatımızda daha fəal istifadə etmək haqqında, 1991-ci ildə Nizami Gəncəvinin anadan olmasının 850 illiyi bayramına hazırlıq işlərini daha da genişləndirmək lüzumu haqqında mühüm və prinsipial vəzifələr irəli sürmüşdür»[77].

Diqqət yetirilsə, aydın olur ki, H.Əliyev on il sonranı düşünərək, əvvəlcədən görərək 1991-ci ildə N.Gəncəvinin yubileyinin keçirilməsi barədə tapşırıqlar vermişdi.

Tədbirdə çıxış edən xarici qonaqların təbrik nitqləri də H.Əliyevin ədəbi irsə verdiyi diqqətin, Azərbaycan ədəbiyyatına sevgisinin təsdiqi ilə dolu idi. Məsələn, Türkiyədən gələn şair Təhsin Sarac nitqində deyirdi: «Mən Nizaminin bu şanlı bayramının gözəl Bakı şəhərində təşkili üçün, bu bayramda iştirak etdiyimə imkan verildiyi üçün Azərbaycan Kommunist Partiyasına və onun hörmətli rəhbəri H.Ə.Əliyevə təşəkkür edirəm. Mən son dərəcə şadam ki, mənim arzum nəhayət, baş tutdu və mən burada sizin aranızdayam»[78].

Yubiley tədbirləri Azərbaycan ədəbiyyatının təbliğində, dünyada tanıtdırılmasında mühüm rol oynadı. Xarici qonaqlar Azərbaycan xalqının mədəniyyəti, incəsənəti və məişəti, azərbaycanlı ədəbiyyat xadimləri ilə yaxından tanış oldular.

H.Əliyev Nizami Gəncəvinin yubiley tədbirlərinin ölkə miqyasında da keçirilməsinə nail oldu. Məhz onun sayəsində

[77] «Kommunist» qəzeti, 1981, 9 oktyabr, №234 (17868).

[78] Yenə orada.

Leninqradda geniş tədbirlər təşkil edildi[79]. Həmin tədbirlərin keçirilməsi H.Əliyevin Azərbaycan ədəbiyyatının və mədəniyyətinin böyük qoruyucusu və təbliğatçısı olduğunu göstərirdi.

H.Əliyevin bilavasitə göstərişləri əsasında N.Gəncəvinin əsərləri rus dilinə tərcümə edilərək Moskvada nəşr edildi. Bunları etməklə H.Əliyev Azərbaycan xalqının nüfuzunu qaldırır, onu elm, mədəniyyət dairələrinə və ictimaiyyətə tanıdırdı.

Həmin ilin dekabr ayının 12-də keçirilən MK-nın büro iclasında görkəmli Azərbaycan şairi Xaqani Şirvaninin anadan olmasının 850 illiyinin keçirilməsi barədə qərar qəbul edildi[80]. Qərara uyğun olaraq elmi konfrans və seminarlar keçirildi.

H.Əliyevin fəaliyyətində dahi Azərbaycan şairi İmadəddin Nəsiminin həm ölkə miqyasında, həm də xarici ölkələrdə tanıtdırılması, əsərlərinin Azərbaycan dilində və xarici dillərdə nəşr edilməsi, abidə qoyulması mühüm yer tuturdu. Qeyd etmək lazımdır ki, Nəsiminin məzarını ilk dəfə Rəsul Rza Hələb şəhərinə səfərlərindən birində tapmışdı. 1970-ci ildə H.Əliyev İsrail-Suriya münaqişəsini dayandırmaq məqsədilə Dəməşqdə səfərdə olarkən Nəsiminin qəbrini ziyarət etmək üçün Hələb şəhərinə getmək istədiyini bildirmişdi. Onun Hələbə səfər etmək arzusunu yerinə yetirən prezident Hafiz Əsəd müvafiq göstəriş vermişdi. Hələb şəhərinin başçıları H.Əliyevə bildirmişdilər ki, səhər Nəsiminin qəbrini ziyarət edəcək. Ertəsi gün H.Əliyev bir neçə saat gözləmişdi. Çünki qəbri tapa bilmirdilər. Nəhayət, qəbrin yerini bilən bir nəfər tapılmışdı. H.Əliyev məzarı ziyarət etmişdi. Nəsiminin qəbri ümumi qəbiristanlıqda idi. Şairin nəslinin nümayəndələri də orada dəfn olunmuşdular. Qəbir yaxşı vəziyyətdə saxlanılırdı. Ona qulluq edən adam da var idi.

[79] «Kommunist» qəzeti, 1982, 2 fevral, №27 (17961).

[80] ARSPİHDA, f. 1, siy. 65, iş 119-121, pr. №89, § 13.



H.Əliyevin məzarı ziyarət etməsi bir sıra cəhətdən ibrətamiz və əhəmiyyətli idi. İlk növbədə, sovet, partiya xadimi olaraq ümumi dövlət məsələlərini həll etmək üçün Suriyaya səfər edən H.Əliyev bu ölkədə Azərbaycan tarixi-mədəni irsini unutmadığını, milli və dini köklərə bağlılığını göstərirdi. Heç şübhəsiz, H.Əliyevin Nəsiminin məzarını ziyarət etməsi göydəndüşmə olmamışdı. O hələ səfərə hazırlıq prosesində, vətənində bu barədə düşünmüş və görüşləri başa çatdıqdan sonra istəyinə nail olmuşdu. H.Əliyev sovet dövlətinin işlərini məharətlə yerinə yetirərkən paralel olaraq cəsarətlə Azərbaycanın adını ucaldır, qətiyyətlə milli mənafelərini qoruyur, böyük sevgi ilə hələ geniş tanınmayan Nəsimini dahi mütəfəkkir kimi Azərbaycan xalqına və dünyaya tanıdırdı. H.Əliyevin ziyarəti Nəsiminin məzarının gələcəkdə daha yaxşı qorunmasından ötrü Suriya tərəfə ciddi bir işarə etdi. H.Əliyev Moskvaya göstərirdi ki, Yaxın və Orta Şərq ölkələri ilə münasibətlərin qorunub saxlanılması və inkişafında Azərbaycan ən etibarlı vasitədir, onsuz bu siyasəti həyata keçirmək və uğur qazanmaq çətin olar. Eyni zamanda Suriya tərəfə SSRİ ilə münasibətlərində Azərbaycanın rolunu qiymətləndirməyi işarə edirdi. H.Əliyev ədəbiyyatdan və ədəbi irsdən məharətlə ümumi mənafelər naminə istifadə edir, Azərbaycan xalqının nüfuzunu gücləndirir, bununla da özü ucalırdı. Klassik irsə belə münasibəti yalnız fitri istedadlı, istiqlal fikrini özündə qoruyan ədəbiyyatı sevən böyük azərbaycansevər, dahi şəxsiyyət bəsləyə bilərdi.

H.Əliyev Azərbaycana qayıtdıqdan sonra məzarın köçürülməsi məsələsinə dair müxtəlif adamlarla məsləhətləşmələr apardı. Lakin məzarın köçürülməsi məqsədəuyğun sayılmadı. Bununla belə, o, İmadəddin Nəsiminin yubileyinin keçirilməsi məsələsinin təşəbbüsçüsü və təşkilatçısı oldu. Nəsiminin yubileyinin keçirilməsi barədə məsələ Azərbaycan KP MK bürosunun 1970-ci il 27 mart[81], 1971-ci il 24

[81] ARSPİHDA, f. 1, siy. 57, iş 31-32, pr. №124, § 9.

mart[82], 29 aprel[83], 23 iyul[84] tarixli iclaslarında müzakirə olundu. Bundan sonra H.Əliyev Sov. İKP MK-ya məktub yazdı. Məktubunda Azərbaycan rəhbəri Nəsiminin şerlərindən misraları dörd dəfə ana dilində verir və rus dilinə tərcüməsini nümunə gətirərək xahiş edirdi ki, yubileyin ümumittifaq, ümumdünya miqyasında qeyd edilməsindən ötrü Sov. İKP MK SSRİ Nazirlər Sovetinə müvafiq göstərişlər versin və yubiley komissiyası yaradılsın. H.Əliyev hətta SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin imzası ilə SSRİ Nazirlər Sovetinin qəbul olunacaq qərar layihəsini də məktuba əlavə etdi[85]. H.Əliyev böyük zəhmətlə Moskvadan bu barədə icazə ala bildi.

Yubileyin keçirilməsi ilə bağlı respublikada geniş işlər başladıldı. Azərbaycan alimləri, şair və yazıçıları öz səylərini birləşdirdilər. Akademik Həmid Araslı və filologiya elmləri namizədi Araz Dadaşzadə Azərbaycanın valyuta fondu hesabına Suriyaya ezam edildilər[86]. Onlar Nəsiminin məzarının üstünə gedərək vəziyyəti öyrəndilər və bərpası məsələsini qaldırdılar[87]. H.Əliyevin səyləri ilə məzar bərpa edildi.

Nəsiminin portretini yaratmaq üçün beynəlxalq müsabiqə elan edildi[88]. H.Əliyev MK bürosunun 1972-ci il 2 fevral[89], 1973-cu il 13 mart[90], 28 avqust[91] tarixli iclaslarında həmin məsələnin müzakirəsini keçirdi. Tədbirlərin keçirilməsi üçün hazırlanmış plan bəyənildi. Sentyabr ayında Bakıda təntənəli yubiley tədbiri keçirildi. Yubileyə 29 ölkədən alim və

[82] ARSPİHDA, f. 1, siy. 58, iş 70, pr. №2, § 39.
[83] ARSPİHDA, f. 1, siy. 58, iş 74-75, pr. №3, § 36.
[84] ARSPİHDA, f. 1, siy. 58, iş 111-113, pr. №15, § 7.
[85] ARƏİDA, f. 340, siy. 6, bağ. 1, iş 1, v. 106-109.
[86] Yenə orada, v. 114.
[87] Yenə orada, v. 115.
[88] Yenə orada, v. 142.
[89] ARSPİHDA, f. 1, siy. 59, iş 16-18, pr. №29, § 12.
[90] ARSPİHDA, f. 1, siy. 60, iş 19, pr. №61, § 8.
[91] ARSPİHDA, f. 1, siy. 60, iş 57-59, pr. №73, § 26.



ədəbiyyatçılar təşrif buyurmuşdular[92]. Tədbirdə H.Əliyev iştirak etdi. O, xarici qonaqları qəbul edərkən Azərbaycan klassik və müasir ədəbiyyatı, ədəbiyyatın inkişaf meylləri haqqında söhbətlər apardı[93]. Bu söhbətlər xarici qonaqlarda dərin iz qoymuşdu.

Qeyd etmək lazımdır ki, yubiley tədbirlərinə qədər Nəsimi kifayət qədər geniş tanınmırdı. Orta məktəb dərsliklərində Nəsiminin əsərləri verilməmişdi. Yubileyin keçirilməsi ilə Nəsimi bütün dünyaya tanıdıldı. Əsərləri ingilis və fransız dillərinə tərcümə edildi. Bununla da H.Əliyev təkcə Nəsimini deyil, bütün Azərbaycanı dünyaya tanıtmaqda ciddi bir addım atmış oldu.

Yubiley tədbirlərinin gedişində Nəsimi haqqında xarici ölkələrin və beynəlxalq təşkilatların mətbuat orqanlarında bir neçə məqalə çap olundu. YUNESKO-nun «Kuryer» jurnalında Nəsimi haqqında məqalə dərc edildi[94]. Müttəfiq respublikaların mətbuatı da bu hadisəyə biganə qalmadı. Məsələn, «Literaturna Ukraina» qəzetində Nəsimiyə həsr olunmuş böyük bir məqalə verildi[95].

H.Əliyev Nəsiminin yubileyinin təkcə Bakıda deyil, Moskvada da keçirilməsinə nail oldu. Sonrakı illərdə H.Əliyev Nəsiminin adının əbədiləşdirilməsi istiqamətindəki fəaliyyətini davam etdirdi. 1980-ci ilın fevral ayında Bakının mərkəzi parklarından birində Nəsiminin abidəsi qoyuldu[96]. Heykəlin açılış mərasimində H.Əliyev şəxsən iştirak etdi.

H.Əliyev Mirzə Fətəli Axundovun irsinin öyrənilməsi, təbliği və xatirəsinin əbədiləşdirilməsi sahəsində də geniş

[92] ARƏİDA, f. 340, siy. 6, bağ. 3, iş 23; iş 35, v. 1-30; bağ. 4, iş 39, v.37-39.
[93] «Kommunist» qəzeti, 1973, 11 sentyabr, №213 (15426).
[94] Халилов К. Имадеддин Насими. - «Курьер ЮНЕСКО» jurnalı, 1973, iyul, s. 33.
[95] Акперов З. Великий гуманист. - «Literaturna Ukraina» qəzeti, 1973, 11 veresnya, №71 (3078).
[96] «Kommunist» qəzeti, 1980, 21 fevral, №44 (17380).

fəaliyyət göstərirdi. Azərbaycan KP MK bürosunun 1982-ci il iyul ayının 19-da keçirilən iclasında M.F.Axundovun anadan olmasının 170 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi[97]. H.Əliyevin bilavasitə rəhbər təşkilatçılığı altında yubiley tədbirləri keçirildi[98]. Tədbirdə Azərbaycan rəhbərinin iştirakı, Sovet İttifaqının müxtəlif yerlərindən, 10-a yaxın xarici ölkədən gələn qonaqları qəbul etməsi, milli ədəbiyyat, ədəbiyyat xadimləri haqqında söhbətlər aparması ədəbi irsə böyük qayğısının və ədəbiyyat problemlərini dərindən bilməsinin nümunəsi idi[99].

H.Əliyev Azərbaycanın maarifpərvər şairi Mirzə Şəfi Vazehin irsinin öyrənilməsinə və təbliğinə də qayğı göstərirdi. 1981-ci ilin iyun ayında Azərbaycan KP MK bürosunun onun sədrliyi ilə keçən iclasında M.Ş.Vazeh irsinin öyrənilməsi haqqında qərar qəbul edildi[100]. Qərardan sonra şairin əsərləri nəşr olundu, yaradıcılığı haqqında mətbuatda məqalələr dərc edildi, radio və televiziyada proqramlar hazırlandı. Vazeh irsinin araşdırılması sahəsində elmi-tədqiqat işlərinin aparılması genişləndirildi.

Azərbaycan KP MK bürosunun 1970-ci il 7 dekabr tarixli iclasinda Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 100 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi[101]. Qərara uyğun olaraq Yazıçılar İttifaqı, Mədəniyyət Nazirliyi, Elmlər Akademiyası Azərbaycanın müxtəlif şəhər və rayonlarında elmi, mədəni və bədii tədbirlər keçirdilər[102].

H.Əliyev XX əsrin əvvəllərində erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri qələmə alan, Azərbaycan tarixi romanının banisi Məmməd Səid

[97] ARSPİHDA, f. 1, siy. 70, iş 92, pr. №62, § 13; «Kommunist» qəzeti, 1982, 30 iyul, №177 (18111).
[98] «Kommunist» qəzeti, 1982, 17 oktyabr, №240 (18174).
[99] «Kommunist» qəzeti, 1982, 19 oktyabr, №241 (18175).
[100] «Kommunist» qəzeti, 1981, 11 iyun, №136 (17770).
[101] ARSPİHDA, f. 1, siy. 57, iş 103 (104), pr. №151, § 15.
[102] Yenə orada, v. 190-192.



Ordubadinin yubileyinin keçirilməsinin təşəbbüsçüsü oldu. Azərbaycan KP MK bürosunun 1971-ci il 22 oktyabr tarixli iclasında M.S.Ordubadinin anadan olmasının 100 illiyi münasibətilə keçiriləcək tədbirlər planı təsdiqləndi[103]. Bu məsələ büronun 1972-ci il 2 fevral tarixli iclasında da müzakirə olundu[104]. Moskvada yubiley tədbirinin keçirilməsi barədə büronun 1972-ci il 10 iyun tarixli iclasında qərar qəbul edildi[105]. «Həyat yalnız öz qələmlərini və fırçalarını böyük tarixi döyüş günlərində süngülərlə yanaşı qoya bilən sənətkarları yaşatmışdır» - deyən böyük yazıçı M.S.Ordubadinin yubileyi həmin ilin noyabr ayında keçirildi[106]. Yubiley tədbiri eyni zamanda Moskvada da oldu[107]. Bütün bunlar Azərbaycan rəhbərinin ədəbi irsə qayğısının nümunəsi idi[108].

Sonrakı illərdə də yazıçının yubileyləri qeyd olundu. 1981-ci ilin aprel ayında M.S.Ordubadinin anadan olmasının 110 illiyi keçirildi[109].

H.Əliyevin tapşırığına əsasən 1971-ci ilin fevral ayında böyük Azərbaycan şairi Abdulla Şaiqin anadan olmasının 90 illiyi qeyd edildi[110]. Azərbaycan rəhbəri A.Şaiqin anadan olmasının 100 illiyinin qeyd edilməsi haqqında MK bürosunun 1981-ci il 10 fevral tarixli iclas qərarına imza atdı, əsərlərini çap etdirdi, elmi konfrans və simpoziumların keçirilməsinə göstəriş verdi və buna nail oldu[111]. MK bürosunun iclasında

[103] ARSPİHDA, f. 1, siy. 58, iş 133 (134), pr. № 22, § 7.
[104] ARSPİHDA, f. 1, siy. 59, iş 16 (18), pr. № 29,
[105] ARSPİHDA, f. 1, siy. 59, iş 59 (60), pr. № 43, § 10.
[106] «Kommunist» qəz., 1972, 17 noyabr, № 270 (15180); 18 noyabr, №271 (15181).
[107] «Kommunist» qəz. , 1972, 26 noyabr, № 278 (15188).
[108] ARƏİDA, f. 340, siy. 6, bağ. 3, iş 24, v. 1-88.
[109] ARƏİDA, f. 340, siy. 6, bağ. 9, iş 103, v. 1-25; «Kommunist» qəzeti, 1981, 7 aprel, №81 (18015).
[110] ARƏİDA, f. 340, siy. 6, bağ, 2, iş 15, v. 1-24.
[111] ARSPİHDA, f. 1, siy. 68, iş 46, pr. №2, § 46.

müvafiq tədbirlər planı bəyənildi[112]. Aktyor evində təntənəli yubiley tədbiri keçirildi[113]. Tədbirdə H.Əliyev iştirak etdi[114].

H.Əliyevin göstərişinə əsasən 1974-cü ildə görkəmli ədəbiyyatşünas alim Salman Mümtazın 90 illiyi qeyd olundu[115].

Büronun 1975-ci il 23 may tarixli iclasında Süleyman Sani Axundovun anadan olmasının 100 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi[116]. Qərar yerinə yetirildi.

MK bürosunun 1975-ci il 27 iyun tarixli iclasında görkəmli Azərbaycan şairi Səməd Vurğunun anadan olmasının 70 illiyinin keçirilməsi haqqında qərar qəbul olundu. Bu qərar uğurla, böyük təntənə ilə həyata keçirildi. Şairin şerlərinə mahnılar bəstələndi, teatrlarda əsərləri daha çox oynanılmağa başlandı. Bakıda S.Vurğunun övladları yaşadığı mənzildən köçürülərək yeni mənzillə təmin edildikdən sonra şairin ev-muzeyi yaradıldı. 1976-cı ildə böyük yubiley tədbirləri Bakıda və Moskvada keçirildi[117]. H.Əliyev belə hesab edirdi ki, Səməd Vurğun irsinə olan diqqət milli borcdur, çünki Səməd Vurğun ölkə və dünya miqyasında millətin başını uca edən şəxsiyyət olub. Ev muzeyinin yaradılması milli ənənələrin nə qədər dəyərli olduğunu yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün əhəmiyyətli idi. H.Əliyev Səməd Vurğunu dövrünün ən böyük şairlərindən biri hesab edirdi.

MK bürosunun 1976-cı il 10 sentyabr tarixli iclasında Azərbaycanın görkəmli satirik şairi Mirzə Ələkbər Sabirin

[112] «ARƏİDA, f. 340, siy. 6, bağ. 5, iş 44, v. 1-17.
[113] «Kommunist» qəzeti, 1974, 26 dekabr, №301 (15821).
[114] ARƏİDA, f. 340, siy. 6, bağ. 8, iş 94, v. 1-18; «Kommunist» qəzeti, 1981, 26 dekabr, №297 (17931).
[115] «Kommunist» qəzeti, 1974, 29 noyabr, №279 (15799).
[116] ARSPİHDA, f. 1. siy. 62, iş 47 (49), pr. №124, § 20.
[117] ARSPİHDA, f. 1, siy. 62, iş 53, pr. №126, § 29; «Kommunist» qəzeti, 1976, 19 noyabr, №270 (16399) ;1dekabr, №280 (16409).



xatirəsini əbədiləşdirmək barədə qərar qəbul edildi[118]. Qeyd etmək lazımdır ki, 70-ci illərə qədər Bakıda Sabirin adına hətta küçə yox idi[119]. Sabirin Şamaxı və Bakıda qoyulmuş, lakin baxımsız qalmış abidələrinin ətrafı abadlaşdırıldı. 1982-ci ildə M.Ə.Sabirin anadan olmasının 120 illiyi qeyd edildi[120]. Əsərləri təkrarən nəşr olundu. Bakıdakı küçələrin birinə şairin adı verildi. Böyük satirik şairin adını daşıyan Sabirabad rayonunda mədəni quruculuq işləri genişləndirildi.

Tanınmış yazıçı, ictimai xadim və diplomat Yusif Vəzir Çəmənzəminlinin anadan olmasının 90 illiyi 1977-ci ildə qeyd edildi[121]. Yenə həmin ildə görkəmli yazıçı Seyid Hüseynin 90 illiyi keçirildi[122].

1978-ci ildə Əli Nəzminin anadan olmasının 100 illiyi qeyd edildi[123].

Antisovet şair kimi 30-cu illərdə sovet repressiya maşınının qurbanı olmuş Mikayıl Müşfiqin anadan olmasının 70 illiyinin keçirilməsi barədə qərar H. Əliyevin təşəbbüsü ilə MK bürosunun 1978-ci il 9 mart tarixli iclasında qəbul edildi[124]. Onun bilavasitə göstərişi ilə tədbirlər yüksək səviyyədə keçirildi, əsərləri nəşr edildi, şerlərinə mahnılar bəstələndi.

Görkəmli dramaturq Cəfər Cabbarlının anadan olmasının 70 illik yubileyi 1969-cu ildə H.Əliyevin bilavasitə göstərişi ilə qeyd olundu. Bu münasibətlə oktyabr ayında keçirilən təntənəli yığıncaqda H.Əliyev iştirak etdi[125]. Tədbirdə C.Cabbarlının əsərləri «milli dramaturgiyanın şah əsəri» adlandırıldı. Əsərlərinin dram-teatrların səhnələrində

[118] ARSPİHDA, f. 1, siy. 63, iş 83 (85), pr. №19, § 16.
[119] ARƏİDA, f. 340, siy. 1, bağ. 67, iş 1597, v. 10.
[120] «Kommunist» qəzeti, 1982, 2 iyun, №129 (18063).
[121] ARƏİDA, f. 340, siy. 6, bağ. 6, iş 72, v. 1-32.
[122] Zamanov A. Unudulmaz sənətkar. - «Kommunist» qəzeti, 1977, 26 aprel, №97 (16532).
[123] «Kommunist» qəzeti, 1978, 22 dekabr, №292 (17032).
[124] ARSPİHDA, f. 1. siy. 65, iş 37 (39), pr. №62, § 16.
[125] «Kommunist» qəzeti, 1969, 11 oktyabr, №239 (14235).

oynanılması çoxaldı, nəşri artırıldı. Yubiley tədbirləri Moskvada İttifaqlar evinin sütunlu salonunda da keçirildi[126]. H.Əliyev hakimiyyətinin sonrakı illərində də C.Cabbarlının yubileylərinin keçirilməsini diqqətdə saxlayırdı. 1979-cu il iyun ayının 20-də MK bürosunun iclasında Cəfər Cabbarlının anadan olmasının 80 illiyini keçirmək barədə qərar qəbul edildi[127]. Bu məsələ büronun 6 avqust tarixli iclasında təkrarən müzakirə edildi, geniş tədbirlər planı işlənib hazırlandı[128]. Büronun 1982-ci il 16 mart tarixli iclasında isə keçiriləcək tədbirlər planı təsdiq edildi[129]. Həmin ildə H.Əliyev Bakı şəhərinin mərkəzində görkəmli yerdə C.Cabbarlının abidəsini açaraq parlaq nitq söylədi. Nitqində o deyirdi: «Azərbaycan kino sənətinin təşəkkülü, onillərin dram və opera səhnələrinin ən yaxşı tamaşaları, parlaq publisistika və dərin professional teatr tənqidi Cabbarlının adı ilə bağlıdır». H.Əliyev daha sonra qeyd edirdi: «O, xalqımızın qədim dövrünün, azadlıq mübarizəsi tarixinin parlaq lövhələrini» yaradıb[130]. H.Əliyev C.Cabbarlının xatirəsini əbədiləşdirmək istiqamətində də fəaliyyət göstərərək onun ev muzeyini yaratdı və açılışında geniş nitq söylədi. Bu parlaq nitq H.Əliyevin Azərbaycan dramaturgiyasını yüksək dəyərləndirdiyini, onu dərindən sevdiyini, təbliğ etdiyini özündə əks etdirirdi.

Büronun 1979-cu il 13 fevral tarixli iclasında görkəmli yazıçı Mehdi Hüseynin anadan olmasının 70 illiyinin keçirilməsi barədə qərar qəbul edildi[131].

MK bürosunun 1979-cu il 3 aprel tarixli iclasında böyük yazıçı, alim, əsərləri yüz minlərlə gəncin tərbiyəsində, dünyagörüşünün formalaşmasında müstəsna rol oynamış Mir

[126] «Kommunist» qəzeti, 1969, 22 oktyabr, №248 (14244).
[127] ARSPİHDA, f. 1, siy. 65, iş 71 (73), pr. №73, § 11.
[128] ARSPİHDA, f. 1, siy. 65, iş 86 (88), pr. №78, § 19.
[129] ARSPİHDA, f. 1, siy. 70, iş 39, pr. №47, § 18.
[130] C.Cabbarlının abidəsinin açılışında Heydər Əliyevin nitqi. - «Kommunist» qəzeti, 1982, 24 mart, №70 (18004).
[131] ARSPİHDA, f. 1, siy. 66, iş 29, pr. №97, § 11.



Cəlalın xatirəsini əbədiləşdirmək haqqında qərar qəbul edildi[132]. Bu qərar həyata keçirildi, yazıçının əsərləri nəşr olundu, adına kitabxanalar, küçələr, məktəblər verildi, əsərləri üzrə elmi-tədqiqat işlərinin aparılması genişləndirildi.

H.Əliyevin sədrliyi ilə büronun 1979-cu il 25 may tarixli iclasında Məhəmməd Hadinin anadan olmasının 100 illiyinin keçirilməsi barədə qərar qəbul edildi[133]. Bu qərar da uğurla yerinə yetirildi[134].

MK bürosunun 1979-cu il 13 dekabr tarixli iclasında görkəmli ədəbiyyatşünas alim Cəfər Xəndanın anadan olmasının 70 illiyinin keçirilməsi barədə qərar qəbul edildi[135].

1980-ci il oktyabr ayının 17-də keçirilən MK bürosunun iclasında satirik şair Əliqulu Qəmküsarın 100 illiyi barədə 6 maddədən ibarət qərar qəbul edildi[136]. Qərara uyğun olaraq şairin adına orta məktəb verildi, Naxçıvan şəhərində doğulduğu və yaşadığı evə xatirə lövhəsi vuruldu, haqqında məqalələr çap olundu[137].

1982-ci ilin iyul ayında nasir, jurnalist Tağı Şahbazinin anadan olmasının 90 illiyi qeyd olundu[138].

H.Əliyevin ədəbi irsə qayğısında xüsusi yerlərdən birini pantürkçü, turançı kimi təqsirli bilinərək sovet repressiya maşınının məhv etdiyi, «Şərqin Şekspiri» adlandırılan Hüseyn Cavidin adının əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi, məzarının uzaq Sibirdən Azərbaycana gətirilməsi, əsərlərinin nəşri tuturdu. 1974-cü ildə H.Cavidin anadan

[132] ARSPİHDA, f. 1, siy. 66, iş 42, pr. №101, § 21.
[133] ARSPİHDA, f. 1, siy. 66, iş 58, pr. №106, § 11.
[134] ARƏİDA, f. 340, siy. 6, bağ. 7, iş 80, v. 1-76; Zamanov A. Ülvi əməllər şairi. - «Kommunist» qəzeti, 1979, 7 dekabr, №279 (17318).
[135] ARSPİHDA, f. 1, siy. 66, iş 108, pr. №121, § 7.
[136] ARSPİHDA, f. 1, siy. 67, iş 111, pr. №155; pr. №20, § 20, v. 19-20.
[137] Ağayev İ. Satirik şair, ictimai xadim. - «Kommunist» qəzeti, 1980, 24 dekabr, №293 (17629).
[138] «Kommunist» qəzeti, 1982, 25 iyul, №173 (18107).

olmasının 90 illiyi qeyd edildi[139]. Azərbaycan KP MK bürosunun H.Əliyevin sədrliyi ilə keçən 1981-ci il 7 iyul tarixli iclasında H.Cavidin anadan olmasının 100 illiyinin qeyd olunması barədə qərar qəbul edildi[140]. Qərarda deyilirdi ki, H.Cavidin ədəbi irsini öyrənmək və xatirəsini əbədiləşdirmək üçün indiyədək müəyyən işlər görülmüş, onun həyat və yaradıcılığı haqqında monoqrafiyalar yazılmış, Bakı şəhərində 132№-li məktəbə və bir küçəyə, Naxçıvanda 5 №-li məktəbə, bir küçəyə, maarif işçiləri evinə, kino-teatra və b. onun adı verilmişdir.

Qərara əsasən MK katibi H.Həsənovun sədrliyi ilə təşkilat komitəsi yaradıldı[141]. Qərarın yerinə yetirilməsinə şəxsən H.Əliyev nəzarət edirdi. Azərbaycan Mədəniyyət Nazirliyinin xətti ilə 1982-ci ilin oktyabr-noyabr aylarında Bakı şəhərində və Moskvada təntənəli gecələr, Naxçıvan, Xankəndi, Gəncə, Sumqayıt, Qazax, Şəki, və Lənkəranda ədəbi-bədii gecələr keçirildi. Respublika Rəssamlar İttifaqı Azərbaycanda və Moskvada H.Cavidin həyat və yaradıcılığını əks etdirən səyyar sərgilər təşkil etdi. Azərbaycan Elmlər Akademiyası Bakıda və Naxçıvanda elmi sessiyalar keçirdi. Bakıda və Naxçıvanda H.Cavidin xatirə muzeyləri yaradıldı. Cavidin 1920-1937-ci illərdə yaşadığı evə xatirə lövhəsi vuruldu, xatirə medalı hazırlandı, əsərləri respublika teatrlarının repertuarına daxil edildi. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının ikinci səhnəsi kimi «Hüseyn Cavid poeziyası teatrı» yaradıldı. Pespublika Rabitə Nazirliyinin xətti ilə H.Cavidin təsviri olan poçt markası, zərflər, döş nişanları buraxıldı. Yazıçılar İttifaqı H.Cavidin əsərlərinin dörd cildlik külliyyatını, həyat və yaradıcılığı salnaməsini, portret-plakatını cap etdi, əsərlərini rus dilinə

139 ARƏİDA, f. 340, siy. 6, bağ. 3, iş 25, v. 1-8.

140 ARSPİHDA, f. 1, siy. 68, iş 95 (96), pr. №17, § 15.

141 Azərbaycan KP MK-nın «Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında» qərarı. - «Kommunist» qəzeti, 1981, 21 iyul, №169 (17803).



çevirdi, Kinematoqrafiya Komitəsi onun haqqında sənədli film çəkdi.

Cavidin məzarı Sibirdən vətəninə köçürüldü. Cənazəsi Bakıya gətirilərək yaşadığı evdə, EA-nın Əlyazmalar institutunda əhalinin vidalaşması üçün qoyuldu. Bundan sonra doğulduğu diyara aparıldı. H.Cavid müsəlman qayda-qanunu ilə Naxçıvanda torpağa tapşırıldı. Qeyd etmək lazımdır ki, həmin dövrdə bu işi həyata keçirmək böyük iradə və cəsarət tələb edirdi. H.Əliyevin xalqa, millətə, tarixə, mədəniyyətə, ədəbiyyata və mənəviyyata olan bağlılığı belə bir addımı atmağa imkan verdi. Cənazə Azərbaycana gətirilərkən onu Bakıda, yoxsa doğulduğu yerdə torpağa tapşırmaq barədə bir-birindən fərqlənən müxtəlif fikirlər var idi. H.Əliyevin mövqeyi bundan ibarət idi ki, cənazə Naxçıvana gətirilsin və Cavid doğulduğu yerdə dəfn edilsin. Böyük mütəfəkkirin cənazəsi ümumi qəbiristanlıqda deyil, Naxçıvan şəhərində, sonradan məqbərə tikilməsi məqsədilə dəfn edildi. Əslində bu addımı atmaqla H.Əliyev Cavidin ruhuna, Azərbaycanın ən böyük mütəfəkkirlərindən birinin irsinə, qədim türk yurdu Naxçıvana hörmət və ehtiramını göstərirdi.

H.Əliyevin bu möhtəşəm addımı bir sıra baxımdan maraqlı idi. Ali partiya tribunalarındakı nitqlərində «vahid sovet xalqından», «sovet xalqlarının bir-birinə yaxınlaşmasından», «vahid Vətəndən» danışan H.Əliyev ümumi vətən sayılan Sovet İttifaqının bir guşəsində dəfn olunmuş Hüseyn Cavidin məzarını Azərbaycana, Naxçıvana köçürməklə doğma torpağı ölkənin başqa yerlərindən üstün tutduğuna, Azərbaycana sıx bağlılığına işarə edir, respublikasının müstəqilliyini öncədən görür, başgicəlləndirici sözləri Moskva üçün söyləyir, konkret işləri Azərbaycan üçün həyata keçirir, milli ruhu gücləndirir, Naxçıvanın qədim türk yurdu olduğunu göstərir, 30-cu illərdə didərgin salınmış türkçülüyü vətənə qaytarırdı.

H.Əliyev belə hesab edirdi ki, Hüseyn Cavid Azərbaycan xalqı və milləti durduqca yaşayacaq sənətkar olduğu üçün onun irsinə xüsusi qayğı göstərilməli və öyrənilməlidir.

Qərara əsasən Bakıda və Naxçıvanda Cavidin abidəsi qoyulmalı və ədəbi irsinin tədqiqi gücləndirilməli idi. Qərardan sonra Cavid haqqında elmi-tədqiqat işləri genişləndirildi, irsinin təbliği gücləndirildi. H.Əliyev keçirilən tədbirlərdə şəxsən yaxından iştirak etdi. Lakin o, Moskvaya işləməyə getdikdən sonra Cavidə Bakıda abidə qoyulması işi unuduldu. Görkəmli heykəltaraş Ömər Eldarovun yaratdığı Cavidin abidəsi uzun illər emalatxanada yatıb qaldı.

H.Əliyev Azərbaycan mətbuatının inkişafına xüsusi diqqət verirdi. Qeyd etmək lazımdır ki, əvvəlki illərdə Azərbaycan mətbuatına ayrılan xərclər mərkəz tərəfindən azaldılmışdı. Məsələn, Sov.İKP MK 1959-cu ilin yanvar ayında Azərbaycanda qəzet və jurnalların nəşrinə ayrılan xərcləri azaltmaq barədə qərar qəbul etmişdi[142]. Bundan fərqli olaraq H.Əliyev hakimiyyətə gələn kimi qəzet və jurnalların maddi-texniki bazasını, yaradıcı kollektivini gücləndirməyə xüsusi diqqət yetirməyə başladı. Onun hakimiyyəti illərində, 70-ci illərdə Azərbaycanda 84 qəzet və 23 jurnal nəşr edilirdi[143]. H.Əliyev Azərbaycan milli mətbuatının əsasını qoyan «Əkinçi» qəzetinin yubileylərinin qeyd edilməsinə də diqqət verirdi. Onun sədrliyi ilə keçirilən Azərbaycan KP MK bürosunun 1976-cı il 10 fevral tarixli iclasında «Əkinçi» qəzetinin 100 illiyinin qeyd edilməsi haqqında qərar qəbul olundu[144]. Tədbirin keçirilməsi respublikanın ədəbi həyatında və mətbuat tarixində mühüm rol oynadı.

H.Əliyev jurnalistlər üçün əlverişli şəraitin yaradılmasına da qayğı göstərirdi. Büronun 1980-ci il 29 oktyabr tarixli iclasında Azərbaycanda Jurnalist evi yaratmaq barədə qərar qəbul edildi[145].

[142] РГАНИ, ф.5, оп.33, д.104, л.1-82.
[143] Qasımov M. Azerbaycan Cumhuriyeti. – Türkler, s. 144.
[144] ARSPİHDA, f. 1, siy. 63, iş 28, pr. №1, § 11.
[145] ARSPİHDA, f. 1, siy. 67, iş 114, pr. №156, § 11.





*Heydər Əliyev Nəsiminin 600 illiyinə həsr edilmiş təntənəli iclasın rəyasət heyətində. 1973-cü il 13 sentyabr*



*Heydər Əliyev Səməd Vurğunun ev muzeyinin açılışında 1975-ci il 6 oktyabr*



Heydər Əliyev
B. Vahabzadəyə
dövlət mükafatı laureatı
fəxri diplomunu təqdim edir.
1976-cı il 3 noyabr



Heydər Əliyev İ.Qasımova fəxri ad verir.
1979-cu il 10 aprel



Heydər Əliyev M.Dilbaziyə
Azərbaycanın xalq şairi fəxri adını verir.
1979-cu il 10 aprel



Heydər Əliyev Nəsiminin
heykəlinin açılışında.
1980-ci il 28 fevral



Heydər Əliyev xalq yazıçısı S.Rəhimovu
80 illik yubileyi münasibəti ilə təbrik edir. 1980-ci il 25 mart



Heydər Əliyev
xalq şairi R.Rzaya
orden təqdim edir.
1980-ci il 4 dekabr



Heydər Əliyev
İ.Əfəndiyevə xalq yazıçısı
fəxri adını təqdim edir.
1980-ci il 15 may



Heydər Əliyev Şüvəlan qəsəbəsində tikilmiş
yazıçıların yaradıcılıq evinin açılışında. 1981-ci il 7 iyun



*Heydər Əliyev təltif edilmiş şair və yazıçılarla.*
*1981-ci il 10 dekabr*



*Heydər Əliyev C.Cabbarlının ev muzeyinin açılışında.*
*1982-ci il 23 mart*



*Heydər Əliyev xalq yazıçısı Ə.Vəliyevə mükafat təqdim edir.*
*1982-ci il 15 may*



*Bakı hava limanında Hüseyn Cavidin cənazəsinin qarşılanması.*
*1982-ci il 26 oktyabr*



Heydər Əliyev Hüseyn Cavidin cənazəsi ilə vidalaşma mərasimində. 1982-ci il 2 noyabr

H.Əliyevin sədrliyi ilə büronun 1981-ci il 28 aprel tarixli iclasında Azərbaycan milli-demokratik mətbuatının ən gözəl nümunələrindən biri hesab edilən «Molla Nəsrəddin» jurnalının çapdan çıxmasının 75 illiyi haqqında qərar qəbul edildi və tədbirlər yüksək səviyyədə keçirildi[146]. Jurnalın yubileyinin qeyd edilməsi Azərbaycan jurnalistikası üçün əhəmiyyətli hadisəyə çevrildi[147]. MK bürosunun qərarında Cəlil Məmmədquluzadənin ev muzeyini yaratmaq nəzərdə tutulurdu. Yazıçının mənzilində yaşayan vətəndaşlara şəhərin başqa yerində mənzillər verildi. Mənzil boşalsa da, H.Əliyev Moskvaya işləməyə aparıldıqdan sonra həmin iş yerinə yetirilmədi. H.Əliyev hesab edirdi ki, Cəlil Məmmədquluzadə öz yaradıcılığı, əsərləri, publisistikası və böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynayıb, xalqın milli özünüdərkinin formalaşmasında «Molla Nəsrəddin» jurnalının və ədibin fəaliyyətinin rolu misilsizdir. Azərbaycan rəhbəri Mirzə Cəlili ana dilini inkişaf etdirən görkəmli ictimai və ədəbi şəxsiyyət sayırdı.

Azərbaycan rəhbəri həmçinin jurnalistlərin toplantılarına qatılır, onlarla canlı ünsiyyət yaradır, problemləri ilə maraqlanır və dərhal həll edirdi. H. Əliyevin hakimiyyəti illərində jurnalist peşəsi Azərbaycanda hörmətli və nüfuzlu sayılırdı. 1982-ci ilin yanvar ayında keçirilən Azərbaycan jurnalistlərinin qurultayında iştirak etməsi onun bu sahəyə olan diqqətini göstərirdi[148].

H.Əliyev Azərbaycanda qəzetlərin çapının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Sov.İKP MK-nın vəsaiti hesabına Bakı şəhərində «Azərbaycan» nəşriyyatını tikdirməyə başladı. Bundan ötrü o, Moskvadan minbir əziyyətlə icazə və maliyyə vəsaiti aldı.

---

146 ARSPİHDA, f. 1, siy. 68, iş 70 (71), pr. №9, § 10.

147 «Kommunist» qəzeti, 1981, 22 may, №121 (17755).

148 «Kommunist» qəzeti, 1982, 27 yanvar, №22 (17956).

Azərbaycan rəhbəri respublikada informasiya işini qaydaya salaraq AzərTAC-ın bina şəraitini, maddi-texniki bazasını yaxşılaşdırdı.

H.Əliyevin bu sahədə qəbul etdiyi qərarların və həyata keçirdiyi tədbirlərin miqyası xeyli geniş idi. Amma yuxarıda sadalanan yalnız bəzi faktlar onun milli ədəbiyyata, yaradıcı ziyalılara, ədəbi irsə isti münasibətinin göstəricisi sayıla bilər. H.Əliyev sanki Azərbaycana rəhbər təyin edilərkən Kommunist Partiyası və sovet dövlətinin siyasətini həyata keçirmək üçün deyil, xalqın tarixi, mədəni və mənəvi irsini inkişaf etdirmək, klassiklərin, alimlərin irsini qorumaq, təbliğ etmək, xatirələrini əbədiləşdirmək, yaradıcı adamlara hami olmaq, onların problemlərini həll etmək, o vaxtadək görmədikləri əlverişli şəraiti yaratmaq missiyasını yerinə yetirmək, milli hissləri gücləndirmək üçün gəlmişdi. H.Əliyev bu sahədə ona qədərki heç bir rəhbərin bacarmadığı işi böyük məharət və uğurla həyata keçirdi. Məhz bütün bunların sayəsində Azərbaycan ədəbiyyatı istiqlal fikrini tədricən yayır, şair və yazıçılar özlərini inamlı hiss edirdilər.

H.Əliyev Moskvaya işləməyə getdikdən sonra da Azərbaycan ədəbiyyatına olan qayğısını əsirgəmədi. Moskvada işləyərkən o, Azərbaycanın görkəmli şair və yazıçılarını, mədəniyyət xadimlərini qəbul edir, milli mədəniyyəti qoruyub inkişaf etdirməyə dair tövsiyələrini verirdi. Amerikan tarixçilərinin yazdığı kimi, Azərbaycan SSRİ-də yeganə bir respublika idi ki, burada rus mədəniyyəti qələbə çala bilməmişdi.

* * *

Beləliklə, H.Əliyevin fəaliyyətində Azərbaycan ədəbiyyatına və ədəbi irsinə qayğı mühüm yerlərdən birini tuturdu. Əgər əvvəlki dövrlərdə ziyalılarla dil tapmaq respublika rəhbərləri üçün başlıca problem olmuşdusa,



H.Əliyev ziyalıların, yaradıcı adamların dostuna, himayəçisinə, onlar isə Azərbaycan rəhbərinin fəal təbliğatçısına çevrilmişdilər. Yaradıcı ziyalıları mühafizə etməklə H.Əliyev istiqlal fikrini qoruyur və inkişaf etdirirdi. Onun bu fəaliyyəti əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilirdi: yazıçıların qurultaylarında iştirak edir, onlarla canlı ünsiyyət qurur, əsərlərini oxuyur, evlərinə zəng vuraraq yaradıcılıqları haqqında öz mülahizələrini söyləyir, xalqın tarixi keçmişi və bu günü barədə əsərlər yazmağı tövsiyə edir, xalqla canlı ünsiyyətləri, yaradıcılıqları üçün şərait yaradır, xüsusi olaraq nəşriyyat, yaradıcılıq evi açır, yubileylərini keçirir, dövlətin yüksək orden və medalları ilə təltif olunmalarına əzmlə nail olur, mənzillə təmin edirdi.

Azərbaycan rəhbəri xalqının klassik irsinə xüsusi qayğı göstərirdi. H.Əliyev Azərbaycan klassiklərinin yubileylərinin keçirilməsi barədə rəsmi qərarlar qəbul edir, onları təntənə ilə keçirir, əsərlərinin nəşrinə, səhnələşdirilməsinə, irslərinin təbliğinə nail olur, unutdurulmasına imkan vermir, adlarına küçələr, məktəblər, kitabxanalar verməklə, heykəllərini qoymaqla xatirələrini əbədiləşdirir, ədəbiyyat muzeyləri yaradırdı.

H.Əliyev Azərbaycan jurnalistikasına da qayğı göstərir, jurnalistlərin qurultaylarında iştirak edir, mənzil və yaradıcılıq şəraitlərini yaxşılaşdırır, milli mətbuatın yubileyini keçirirdi.

Onun hakimiyyəti illərində yazıçı, şair, jurnalist cəmiyyətdə nüfuzlu və hörmətli hesab edilirdi. Azərbaycan ədəbiyyatına, yazıçı və şairlərə xüsusi diqqət və qayğı göstərməklə H.Əliyev özündən əvvəlki rəhbərlərdən xeyli irəli getmişdi. Azərbaycan ədəbiyyatı özünün bütün sovet tarixi ərzində heç vaxt 70-80-ci illərdəki kimi qayğı ilə əhatə olunmamışdı. Bu dövr Azərbaycan ədəbiyyatının ölkədə və dünyada tanınması, yüksəlişi, tərəqqisi illəridir. Azərbaycan xalqının tarixi keçmişi ilə bağlı gözəl romanlar, poemalar, dram əsərləri yaradılaraq müxtəlif dillərə tərcümə edilirdi.

Xalqın ədəbiyyata həvəsi və ədəbi irsə qayğısı artırdı. Millətsevərlik təbliğatının ədəbiyyata, ictimai və siyasi mühitə sakitcə, ehtiyatla gətirilməsi, milli ruhun və milli hisslərin gücləndirilməsi H.Əliyevin tarixi xidmətlərindən biri idi.

H.Əliyevin ədəbiyyat sahəsində həyata keçirdiyi tədbirlər xalqın həyatında mühüm rol oynayaraq müstəqilliyin mənəvi və mədəni təməllərinin yaradılmasında əsas yerlərdən birini tutdu. Onun sovet rejiminin basqılarından qoruduğu yaradıcı adamlar özü ilə bərabər 90-cı illərin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinə cəsarətlə səs verdilər.



# VI FƏSİL

## MİLLİ İNCƏSƏNƏTİN TƏRƏQQİSİ

H.Əliyev milli incəsənətin inkişafına xüsusi qayğı göstərirdi. O belə hesab edirdi ki, milli incəsənətin dirçəldilməsi və tərəqqisi xalqın özünüdərkində, özünə inam hissinin güclənməsində əsaslı rol oynayır.

Azərbaycan rəhbərinin incəsənətə qayğısı bir neçə istiqamətdə həyata keçirilirdi: incəsənət xadimlərinin yubileylərini keçirir, dövlətin orden və medalları ilə təltif olunmalarına nail olur, xatirələrini əbədiləşdirir, musiqi ocaqlarının yubileylərini qeyd edir, bəstəkarların qurultaylarında iştirak edərək nitq söyləyir, respublikanın partiya və dövlət adamlarını klassik Azərbaycan musiqisini dinləməyə çağırır, gənc istedadların üzə çıxarılmasından ötrü festivallar keçirir, Azərbaycan musiqisinin problemləri barədə mətbuatda geniş müzakirələr açdırır, aşıq musiqisini təbliğ edir və tanınmış aşıqların yubileylərini keçirir, milli musiqi mədəniyyətinin ölkə daxilində və xaricdə tanınması üçün səylər göstərirdi. Məhz H.Əliyevin hakimiyyəti illərində Azərbaycan incəsənəti respublikanın və ölkənin hüdudlarını aşaraq dünyada daha geniş tanınmağa başladı.

H.Əliyev ziyalılarla söhbət edər, onların düşüncələrini, xalqın istəklərini öyrənər, suallar verər, sonra isə təhlil edərək təkliflərini irəli sürər, real olaraq həyata keçirərdi.

Xarakterinə görə yaradıcı, qurucu və birləşdirici şəxsiyyət olan H.Əliyev milli incəsənətin inkişaf etdirilməsindən ötrü bəstəkarlar arasında normal yaradıcılıq mühitinin formalaşmasına çalışırdı. O, hələ 20-30-cu illərdən sovet orqanlarının bəstəkarlar arasında yaratdığı intriqalar mühitinin ara-

dan qaldırılmasına çalışırdı. Azərbaycan rəhbəri bəstəkarlar arasında soyuqluğun, gərginliyin olmaması üçün səylər edir, onları yanına çağıraraq barışdırır, tövsiyələrini verirdi. Ayrı-ayrılıqda istedadlı olan Azərbaycan bəstəkarlarının münasibətlərinin yaxşı olmaması onların yaradıcılığına mənfi təsir edir, artıq söz-söhbətlər yaradırdı. Bu vəziyyəti aradan qaldırmaq məqsədilə H.Əliyev 1973-cü ildə bazar günü bəstəkarları Zuğulbada dəniz kənarındakı bağ evinə dəvət edərək süfrə arxasında və həyətdə söhbətlər etdi, fikirlərini dinlədi. Görüşə zəmanəsinin görkəmli bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Cahangir Cahangirov, Soltan Hacıbəyov həyat yoldaşları ilə gəlmişdi. Tofiq Quliyev, Arif Məlikov və başqaları da dəvət edilmişdilər. Azərbaycan rəhbəri bütün günü onlarla milli və dünya incəsənəti haqqında maraqlı söhbətlər etdi. H.Əliyevin təşəbbüsü ilə keçirilən bu görüş bəstəkarlar arasında münasibətləri xeyli yaxşılaşdırdı, soyuqluğu aradan qaldırdı. Məhz həmin görüşdən sonra Azərbaycan musiqi sənətinin ən parlaq əsərləri yaranmağa başladı. Fikrət Əmirovun dünya şöhrətli «Min bir gecə» baleti həmin vaxtlarda meydana çıxdı.

H.Əliyev dünyasını dəyişmiş Azərbaycan musiqi xadimlərinin, bəstəkarlarının yubileylərinin təntənəli şəkildə qeyd edilməsinə, xatirələrinin əbədiləşdirilməsinə, ev muzeylərinin yaradılması barədə qərarların qəbul edilməsinə və yerinə yetirilməsinə əzmlə nail olurdu. Azərbaycanda bəstəkarların ev muzeylərinin yaradılması ideyası bilavasitə H.Əliyevə məxsusdur. Xronoloji ardıcıllıqla gətirilən yalnız bəzi faktlar bu sahədəki fəaliyyətin əhatəli və əhəmiyyətli olduğunu göstərir. Onun təşəbbüsü ilə 1971-ci ildə görkəmli muğam ustası Xan Şuşinskinin 70 illiyi qeyd edildi[1].

Görkəmli bəstəkar, Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir Hacıbəyov 1949-cu ildə vəfat etsə də, 1974-cü ilədək onun ev muzeyi yaradılmamışdı. Belə acınacaqlı vəziyyəti H.Əliyev aradan qaldırdı. Bakıda Monolit adlandırılan binada

[1] «Kommunist» qəzeti, 1971, 25 dekabr, №301 (14906).



yaşadığı evdə Üzeyir Hacıbəyovun ev muzeyi yaradıldı. Bilavasitə onun rəhbərliyi və göstərişi ilə 1975-ci il noyabr ayının 20-də Üzeyir Hacibəyovun ev muzeyi açıldı. Bu, Azərbaycanda ilk ev muzey oldu. Ev muzeyin açılışında H.Əliyev iştirak edərək parlaq nitq söylədi. Onun nitqi Azərbaycan musiqi mədəniyyətinə sevgi və qayğının təzahürü idi. H.Əliyev hesab edirdi ki, belə ev muzeyləri incəsənət xadimlərinin yaradıcılığını təbliğ edir, böyük tərbiyə və mədəniyyət ocağıdırlar. Ev muzeylər həm də daha geniş məna daşıyaraq gələnlərdə, xüsusən məktəblilərdə özünə inam, milli kökə bağlılıq, milli hisslər və müstəqillik düşüncələrini oyadırdı.

H.Əliyev Ü.Hacıbəyovun əsərlərinin Azərbaycan xalqının istiqlal fikrinin inkişafında, milli kimliyinin dərk edilməsində oynadığı rolu yüksək dəyərləndirir və belə hesab edirdi ki, onun yaradıcılığı milli musiqi mədəniyyətində yeni bir dönəmin başlanğıcını qoyduğu üçün qiymətlidir.

MK bürosunun 1977-ci il 11 yanvar tarixli iclasında bəstəkarlar S.İ.Hacıbəyov və Ə.B.Bədəlbəylinin xatirəsini əbədiləşdirmək barədə qərarlar qəbul edildi[2]. Bakı şəhərində 23 №-li musiqi məktəbinə Bədəlbəylinin adı verildi. Onların yaşadığı evlərə xatirə lövhəsi vuruldu.

Cəmi 23 il yaşamış istedadlı bəstəkar Asəf Zeynallının anadan olmasının 70 illiyi 1979-cu ildə təntənə ilə qeyd edildi[3].

1980-ci ildə Ü.Hacıbəyovun və M.Maqomayevin anadan olmasının 95 illiyi keçirildi[4].

H.Əliyevin göstərişi ilə 1980-ci ilin dekabr ayında tarzən Q.Primovun anadan olmasının 100 illiyi qeyd edildi[5].

[2] ARSPİHDA, f. 1, siy. 64, iş 11 (12), pr. №29, § 26, 27.
[3] «Kommunist» qəzeti, 1979, 11 aprel, №83 (17122).
[4] Cahangirov C. Böyük vətəndaş, görkəmli sənətkar. - «Kommunist» qəzeti, 1980, 18 sentyabr, №216 (17552); Abbasova E. Coşğun ilham. - «Kommunist» qəzeti, 1980, 19 sentyabr, №217 (17553).
[5] Quliyev O. Ustad tarzən. - «Kommunist» qəzeti, 1980, 27 dekabr, №295 (17631).

Sonrakı illərdə də Azərbaycan rəhbəri bu sahədəki fəaliyyətini dayandırmadı. Onun təşəbbüsü ilə Bülbülün xatirə muzeyi yaradıldı. 1982-ci il iyun ayının 11-də H.Əliyev Bülbülün xatirə muzeyini açdı. Açılışa gələn mədəniyyət və incəsənət xadimləri ilə geniş söhbət etdi. Ekspozisiyalara tamaşa etdikdən sonra o dedi: «Bülbülün xatirə muzeyinin açılışı mədəni həyatımızda böyük hadisədir, şübhə yoxdur ki, muzey Azərbaycan musiqi sənətini... təbliğ edən mərkəzə çevriləcəkdir»[6].

Muzeylərin açılışı musiqi irsinin təbliğində mühüm rol oynayırdı. Əslində həmin ev muzeylər adamlarda, xüsusən məktəbli gənclərdə milli-mənəvi dəyərlərə dərin hörmət hissi tərbiyə edir, milli özünüdərki gücləndirir, müstəqillik duyğuları aşılayırdı.

Azərbaycan rəhbəri görkəmli incəsənət ustalarını yüksək dövlət mükafatlarına təqdim edir və onların təltif edilməsinə inadla nail olurdu. Azərbaycan KP MK bürosunun 1972-ci il 24 noyabr tarixli iclasında Müslüm Maqomayevə SSRİ xalq artisti fəxri adı verilməsindən ötrü Sov.İKP MK-ya müraciət etmək barədə qərar qəbul olundu[7]. H.Əliyev müğənniyə belə bir adın verilməsinə nail oldu.

H.Əliyev bəstəkar Süleyman Ələsgərovun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə MK bürosunun 1974-cü il 8 yanvar tarixli qərarına uyğun olaraq yanvar ayının 14-də Sov. İKP MK-ya 14 №-li məxfi məktubu imzaladı[8] və istəyinə çatdı.

Elə həmin ilin noyabr ayının 19-da MK bürosunun Rauf Hacıyevə SSRİ xalq artisti fəxri adı verilməsi barədə qərarına uyğun olaraq H.Əliyev noyabrın 24-də 610 №-li məxfi məktubla Sov. İKP MK-ya müraciət etdi. H.Əliyevin imzaladığı məktubda deyilirdi: «Azərbaycan SSR-in xalq artisti

[6] Azərbaycan xalqının nadir səsli Bülbülü. - «Kommunist» qəzeti, 1982, 11 iyun, №107 (18071).

[7] ARSPİHDA, f. 1, siy. 59, iş 92 (94), pr. №54, § 17.

[8] ARSPİHDA, f. 1, siy. 61, iş 148, v. 1-2.



Hacıyev Rauf Soltan oğlu istedadlı bəstəkarlardan biridir... əsərləri ... yüksək peşəkarlıqla, incə lirizmlə və bədiiliyi ilə seçilir. R.S.Hacıyevin əsərləri həm Sovet İttifaqında, həm də xaricdə geniş tanınır»[9]. Məktubda bəstəkarın əsərlərinin Bolqarıstan, Polşa, Əlcəzair və b. ölkələrdə ifa olunduğu xüsusi qeyd edilirdi. Azərbaycan rəhbərinin bu xahişi yerinə yetirildi.

H.Əliyev MK bürosunun 1976-cı il 30 dekabr tarixli iclas qərarına uyğun olaraq görkəmli sənətkar Lütfiyar İmanova SSRİ xalq artisti fəxri adı verilməsi barədə Sov.İKP MK-ya dekabr ayının 30-da 566 №-li məktubla müraciət etdi. Məktubda L.İmanov «milli opera musiqisinin mahir ifaçısı» kimi qiymətləndirilirdi[10]. H.Əliyevin səyləri sayəsində L.İmanova SSRİ xalq artisti fəxri adı verildi.

Azərbaycan rəhbəri bəstəkar Cövdət Hacıyevin Oktyabr inqilabı ordeni ilə təltif olunması haqqında 1977-ci il aprel ayının 11-də 168 №-li məxfi məktubu Sov. İKP MK-ya yazdı və istəyinə nail oldu.

Həmin ildə H.Əliyev bəstəkar Səid Rüstəmovun Xalqlar dostluğu ordeni ilə təltif edilməsi barədə sovet rəhbərliyinə müraciət etdi[11]. Onun bu istəyi də yerinə yetirildi. S.Rüstəmovun 70 illiyi təntənəli şəkildə keçirildi[12].

Bəstəkar Tofiq Quliyevin Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi haqqında MK bürosunun 1977-ci il 14 oktyabr tarixli iclasında qərar çıxarıldı və elə həmin gün Azərbaycan rəhbəri Sov. İKP MK-ya ünvanlanan 443 №-li məxfi məktubu imzaladı[13]. Bu istək də yerinə yetirildi.

H.Əliyev Qara Qarayevə xüsusi qayğı göstərir və ona böyük ehtiramla yanaşırdı. O, 1977-ci il noyabr ayının 29-da 505 №-li məxfi məktub yazaraq Q.Qarayevə Sosialist Əməyi

[9] Yenə orada, v. 129.

[10] ARSPİHDA, f. 1, siy. 63, iş 139, v. 117-118.

[11] ARSPİHDA, f. 1, siy. 64, iş 127, v. 40-41; 43-44.

[12] Abbasova E. Mahnıların qanadında. - «Kommunist» qəzeti, 1977, 12 may, №110 (16545).

[13] ARSPİHDA, f. 1, siy. 64, iş 127, v. 84-85.

Секретно

566о 30 декабря 6

ЦК КПСС

Народный артист Азербайджанской ССР Иманов Лютфияр Муслим оглы принадлежит к числу видных азербайджанских советских актеров. Являясь солистом Азербайджанского государственного академического театра оперы и балета им.М.Ф.Ахундова, он занял ведущее место в репертуаре театра, зарекомендовал себя как певец высокой профессиональной культуры.

Начав творческую деятельность в районном театре, Л.М.Иманов кропотливо и упорно работал над повышением своего профессионального уровня. Находясь в рядах Советской Армии с 1949 по 1952 год, он принимал активное участие в художественной самодеятельности и неоднократно награждался почетными грамотами.

После военной службы Л.М.Иманов закончил Бакинское музыкальное училище им.А.Зейналли и Азербайджанский государственный институт искусств им.М.А.Алиева.

В 1958 году Л.М.Иманов становится солистом Азербайджанского государственного академического театра оперы и балета им.М.Ф.Ахундова и сразу завоевывает широкую популярность.

Творчество актера многогранно, широк диапазон его художественных возможностей: будучи замечательным исполнителем народных песен и камерных произведений, он, прежде всего, является оперным певцом, артистом самобытным, глубоким интерпретатором национальной и мировой оперной классики.

На сцене театра Л.М.Иманов создал галерею интересных, запоминающихся образов. В репертуаре певца все ведущие роли азербайджанских опер: Кероглы ("Кер-оглы" Уз.Гаджибекова), Вагиф ("Вагиф" Р.Мустафаева), Балаш ("Севиль" Ф.Амирова), Нугар ("Ива не заплачет" А.Бадалбейли), Бахадур ("Бахадур и Сона" С.Алескерова) и др. Л.М.Иманов с большим успехом исполняет партии русской и западноевропейской оперной классики – арии Германа, Манрико, Фауста, Хозе, Радамеса, Каварадосси.





Творческую деятельность Л.М.Иманова характеризуют требовательное отношение к себе, высокие гражданские качества. Плодотворная сценическая деятельность и непрестанный труд отточили мастерство актера и выдвинули его в ряд лучших певцов нашей страны. Имя Л.М.Иманова хорошо известно самым широким кругам любителей музыки. В 1975 году по линии ЮНЕСКО он находился в творческой командировке во Франции, стажировался в Миланском театре "Ла Скала". Л.М.Иманов приглашался в Анкарский оперный театр, где с успехом исполнял партии Германа в опере "Пиковая дама", Радамеса в опере "Аида".

Творческая зрелость, художественно-исполнительские принципы, положенные в основу оперно-сценической работы, Л.М.Иманов переносит и на концертную эстраду. С большой и интересной программой он гастролировал в Индии, Норвегии, Японии, Чехословакии, Сирии, ФРГ, на Кубе и других странах.

Плодотворная деятельность Л.М.Иманова отмечена орденом Трудового Красного Знамени и присвоением ему звания народного артиста Азербайджанской ССР.

ЦК КП Азербайджана, учитывая большие заслуги Иманова Лютфияра Муслим оглы в развитии советского оперного искусства, просит ЦК КПСС о присвоении ему почетного звания народного артиста СССР.

Приложение: пост.Бюро ЦК от 30.XII-76г. и справка-объективка на 2 листах.

Секретарь ЦК КП Азербайджана

Г.Алиев

нх2

Qəhrəmanı fəxri adı verilməsi barədə müraciət etdi. Məktubda Qara Qarayev əsərlərində yüksək xəlqiliyin olduğu xüsusi vurğulanırdı[14]. 1978-ci ildə Qara Qarayevin 60 illiyi təntənə ilə qeyd edildi[15]. Ona Lenin ordeni və Sosialist Əməyi Qəhrəmanı fəxri adı verildi[16].

1980-ci il mart ayının 19-da keçirilən MK bürosunun iclasında Rəşid Behbudova Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsi barədə Sov.İKP MK-ya müraciət etmək haqqında qərar qəbul olundu. Elə həmin iclasda görkəmli müğənni Zeynəb Xanlarovaya Azərbaycanın xalq artisti fəxri adı verilməsi qərara alındı[17]. Bu qərarlar yerinə yetirildi.

H.Əliyev görkəmli drijor Niyaziyə qayğı göstərirdi. O hələ gənc yaşlarından Niyazını tanıyır və dostluq edirdi. Hakimiyyətə gəldikdən sonra Niyazi ilə daha sıx əlaqə saxlayaraq onun yaradıcılığı üçün yaxşı şərait yaratmışdı. H.Əliyev hesab edirdi ki, Niyazi Azərbaycan milli musiqisini zənginləşdirən, dünyada tanıdan bir sənətkardır. Azərbaycan bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxmasında, təqdim olunmasında Niyazinin böyük xidmətləri var idi. H.Əliyev Niyazi sənətinə pərəstiş edir, yaradıcılığının çiçəklənməsi üçün əlindən gələni əsirgəmirdi. O, Niyazini qeyri-adi insan və böyük drijor olaraq dəyərləndirirdi. H.Əliyevin tövsiyələri əsasında Türkiyə incəsənət xadimləri ilə əlaqələr saxlayan Niyazi böyük türk bəstəkarı Adnan Sayqunun «Koroğlu» operasını səhnəyə qoymuşdu, bu və ya başqa işlərlə bağlı dəfələrlə Türkiyədə səfərdə olmuşdu. Niyazini zəmanəsinin görkəmli drijoru hesab edən H.Əliyev onun dövlətin yüksək orden və medalları ilə təltif edilməsinə səylər edirdi. O, Sov.İKP MK-ya 1980-ci il mart ayının 15-də 147 №-li məxfi məktub yazaraq Niyaziyə Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi

[14] Yenə orada, 103-105.

[15] Zəmanəmizin qüdrətli sənətkarı. - «Kommunist» qəzeti, 1978, 4 fevral, №30 (16770).

[16] «Kommunist» qəzeti, 1978, 5 fevral, №31 (16771).

[17] ARSPİHDA, f. 1, siy. 67, iş 38, pr. №132.



məsələsini qaldırdı[18]. Lakin Sov.İKP MK-da ona demişdilər ki, ölkədə bəstəkarlardan, yazıçı və şairlərdən Sosialist Əməyi Qəhrəmanı var. Ancaq drijorlardan heç kim bu adı almayıb. Necə ola bilər ki, Rusiyanın, Ukraynanın və başqa böyük millətlərin nümayəndələrindən, Moskvanın simfonik orkestrlərinin drijorlarından heç kim bu adı almasın, amma bu ad ilk olaraq Niyaziyə verilsin. Bu cavabdan heyrətlənən H.Əliyev sovet dövlət rəhbərlərinə bildirmişdi ki, əgər indiyədək bu adı kiməsə verməyibsinizsə, bu, sizin bəlkə də səhvinizdir, öz işinizdir, özünüz bilərsiniz, amma Niyazi bu ada layiqdir. Bəlkə də təsadüfi deyil ki, indiyədək drijorlardan heç kim bu adı almağa təqdim edilməyib. Həmin vaxt H.Əliyev bu istəyinə çata bilməsə də, ruhdan düşmədi və inadından dönmədi. MK bürosunun 1982-ci il 10 aprel tarixli iclasında Niyazinin anadan olmasının 70 illiyinin keçirilməsi barədə qərar qəbul olundu[19]. Həmin il iyul ayının 22-də H.Əliyev təkrarən 1/428 №-li məxfi məktub yazaraq Niyaziyə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsini xahiş etdi[20]. H.Əliyev bu dəfə öz istəyinə çatdı. Niyazi bütün ölkədə Sosialist Əməyi Qəhrəmanı fəxri adını alan ilk drijor oldu. Bu adı türk və müsəlman dirijorun alması azərbaycanlıların özünə inam hissini gücləndirir, ölkə xalqları içərisində Azərbaycan xalqının və yaratdığı mədəniyyətin nüfuzunu artırır, respublikada incəsənətin inkişafı üçün stimul yaradırdı. Niyaziyə belə yüksək adın verilməsi Azərbaycan musiqi sənəti tarixində möhtəşəm hadisə idi.

Niyazinin anadan olmasının 70 illiyi[21] ilə əlaqədar olaraq yubiley komissiyası yaradıldı və tədbirlər yüksək səviyyədə keçirildi.

H.Əliyev Niyazini sovet sisteminin cəza tədbirlərindən də xilas etmişdi. Bir dəfə Niyazi Türkiyədə olanda sovet rezidenturası mərkəzə məlumat ötürür ki, guya drijor türk hakim

[18] ARSPİHDA, f. 1, siy. 67, iş 178, v. 49-51.

[19] ARSPİHDA, f. 1, siy. 70, iş 48, pr. №50, § 23, 24.

[20] ARSPİHDA, f. 1, siy. 70, iş 378, v. 134-137.

[21] Böyük sənətkar. - «Kommunist» qəzeti, 1982, 20 avqust, №194 (18128).

dairələrindən siyasi sığınacaq almaq istəyir. Sovet səfirliyi onu həyat yoldaşı Həcər xanımla birgə təcili olaraq SSRİ-yə geri göndərmək istəyirdi. Bu barədə məlumatı alan kimi H.Əliyev DTK sədri Y.Andropovla telefonla danışaraq problemi dərhal həll edir və beləliklə, Niyaziyə atılan böhtan, yalan ayaq tutub yerimir.[22]

MK bürosunun 1982-ci il 10 aprel tarixli iclasında bəstəkar Rauf Hacıyevin anadan olmasının 60 illiyinin qeyd edilməsi barədə qərar qəbul olundu[23].

H.Əliyevin sədrliyi altında MK bürosu 1982-ci il 19 iyul tarixli iclasında Fikrət Əmirovun anadan olmasının 60 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul etdi[24]. Bəstəkarın yubiley tədbirləri keçirildi[25]. Bu toplantıda Azərbaycan rəhbərinin iştirakı bəsəkarlara diqqət və qayğının nümunəsi idi.

H.Əliyev bəstəkarları rejimin təzyiqlərindən qoruyurdu. Onun dövründə Azərbaycan bəstəkarlıq sənəti özünün qızıl dövrünü yaşayırdı. Dünyanı heyran qoyan möhtəşəm əsərlər məhz həmin illərdə yarandı. Azərbaycan bəstəkarları tam sərbəst şəkildə yaşayıb-yaradırdılar.

Azərbaycan rəhbəri bəstəkarların dəfn mərasimlərində şəxsən iştirak edərək vida nitqi söyləyir, onlara sonuncu dəfə özünün ehtiramını bildirirdi. Məsələn, 1982-ci ilin may ayında Q. Qarayevin dəfn mərasimində çıxış edən H. Əliyev deyirdi: «Qara Qarayevin... əsərləri... Azərbaycan xalqının qədim musiqi mədəniyyətinin bütün zənginliyini ... özündə təcəssüm etdirir»[26]. O daha sonra deyirdi: «Qara Qarayev Azərbaycan xalqının zəngin tarixinə... neçə-neçə ilhamlı səhifələr həsr etmişdir»[27].

---

[22] Гусейнбейли А. Эмигранты (почти невыдуманные истории). Баку, Шарг, 1994, с. 145.
[23] ARSPİHDA, f. 1, siy. 70, iş 48, pr. №50, § 23, 24.
[24] ARSPİHDA, f. 1, siy. 70, iş 92, pr. №62, § 14.
[25] «Kommunist» qəzeti, 1982, 31 iyul, №178 (18112).
[26] H.Ə.Əliyevin Qara Qarayevin dəfnində nitqi. - «Kommunist» qəzeti, 1982, 20 may, №117 (18051).
[27] Yenə orada.



H.Əliyev tanınmış istedadlı bəstəkar, böyük gələcəyinə inandığı Arif Məlikova qayğı göstərir, onun «Məhəbbət əfsanəsi» baletini Azərbaycan xalqının milli musiqisini dünyaya tanıdan şah əsərlərdən biri hesab edirdi. Ümumiyyətlə, 70-ci illərdə Azərbaycan bəstəkarları üçün rejim bir dekorasiya idi. Onların əsərləri musiqi mədəniyyətini zənginləşdirməklə yanaşı, xalqda milli ruhu, özünə inam hissini gücləndirirdi.

H.Əliyev Azərbaycan peşəkar musiqi təhsili verən ocaqların yubileylərinin keçirilməsinə, maddi-texniki bazalarının gücləndirilməsinə xüsusi diqqət verirdi. Onun sədrliyi ilə keçirilən Azərbaycan KP MK bürosunun 1970-ci il 12 noyabr tarixli iclasında Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının 50 illiyinin qeyd edilməsi haqqında qərar qəbul olundu[28]. Qərara müvafiq olaraq geniş yubiley tədbirləri keçirildi. Konservatoriyanın maddi-texniki bazası yaxşılaşdırıldı.

MK bürosunun 1978-ci il 26 aprel tarixli iclasında Azərbaycanda bədii özfəaliyyətin genişləndirilməsi və A.Zeynallı adına Bakı musiqi məktəbinin yaradılmasının 80 illiyinin qeyd olunması haqqında qərar qəbul edildi[29].

1982-ci ilin iyul ayında Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin 60 illiyi ilə əlaqədar olaraq keçirilən təntənəli gecədə H.Əliyev iştirak edərək nitq söylədi. Onun nitqi Azərbaycan musiqi mədəniyyətinə qayğını və verilən yüksək qiyməti özündə əks etdirirdi. Orkestrin rəhbəri və drijoru Niyazi çıxış edərək musiqi mədəniyyəti irsinin qorunmasına, inkişafına göstərdiyi qayğıya və verdiyi qiymətə görə Azərbaycan rəhbərinə təşəkkür etdi. Hətta ölkənin başqa şəhərlərindən gələn qonaqlar da öz nitqlərində H.Əliyevin musiqi mədəniyyətinə verdiyi diqqəti qeyd edirdilər. Məsələn, Gürcüstan Dövlət Simfonik orkestrinin bədii rəhbəri C.Koxidze çıxışında deyirdi: «Bu işdə... şəxsən Heydər Əlirza oğlu Əliyevin xidməti böyükdür»[30].

---

[28] ARSPİHDA, f. 1, siy. 57, iş 100 (101, 102), pr. №120. § 36.
[29] ARSPİHDA, f. 1, siy. 65, iş 55 (57), pr. №68, § 13, 17.
[30] «Kommunist» qəzeti, 1982, 18 iyul, №168 (18102).

H.Əliyevin fəaliyyətində bəstəkarların qurultaylarında iştirak etmək, onlarla ünsiyyət qurub problemlərini öyrənmək, vacib olan məsələləri yerindəcə həll etmək mühüm yer tuturdu. O, Azərbaycan bəstəkarlarının 1973-cü ilin oktyabr ayında keçirilən IV, 1979-cu ilin sentyabr ayında keçirilən V qurultayında iştirak etdi[31]. Qurultay başa çatdıqdan sonra H.Əliyev onun nümayəndələrini MK-da qəbul etdi. Qəbul zamanı etdiyi söhbətində Azərbaycan rəhbəri deyirdi: «Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovun M.Maqomayevlə və bir neçə silahdaşı ilə birlikdə uzun müddət çox böyük çətinlikləri aradan qaldırmağa və güclü müqaviməti qırmağa məcbur olduğunu xatırlayanda musiqi mədəniyyətimizin bir neçə onillik ərzində keçdiyi diqqətəlayiq yol gözümüz qabağında xüsusilə qabarıq şəkildə canlanır.

Bu gün Azərbaycan professional musiqisi banilərinin, ilk növbədə, Üzeyir Hacıbəyovun fəaliyyətini böyük minnətdarlıq və iftixarla xatırlayırıq. Onlar xalqa nəinki gözəl musiqi əsərləri bəxş etmiş, həm də Azərbaycanda bəstəkarlıq məktəbinin təməlini qoymuş və bu məktəbi yaratmışlar»[32].

H.Əliyev Azərbaycan bəstəkarlarının ölkə və dünya miqyasında tanıtdırılması istiqamətində ciddi səylər edərək məqsədinə nail olurdu. Azərbaycan bəstəkarları SSRİ bəstəkarlarının qurultaylarında rəyasət heyətində əyləşir və əsas məruzəçilərdən olurdular. Onların məruzələrində Azərbaycan milli musiqisinə dərin qiymət verilirdi. Məsələn, Azərbaycan Bəstəkarlar İttifaqı idarə heyətinin sədri Qara Qarayev SSRİ Bəstəkarlar İttifaqının V qurultayındakı nitqində deyirdi: «Azərbaycanın müasir bəstəkarlıq... məktəbinin kökləri... Azərbaycanın böyük klassik bəstəkarı, alim və pedaqoqu, Azərbaycanda professional bəstəkarlıq sənətinin banisi Üzeyir Hacıbəyovun irsi və ənənələri ilə bağlıdır»[33].

---

[31] «Kommunist» qəzeti, 1979, 22 sentyabr, №217 (17256).
[32] Heydər Əliyevin bəstəkarlarla görüşdə nitqi. - «Kommunist» qəzeti, 1979, 2 oktyabr, №225 (17264).
[33] Qarayev Q. Həyatımızı ilhamla tərənnüm edək. - «Kommunist» qəzeti, 1974, 7 aprel, №82 (15602).





*Heydər Əliyev Azərbaycan akademik dram teatrının 100 illiyinə həsr olunmuş təntənəli iclasda çıxış edir. 1974-cü il 31 may*



*Heydər Əliyev Üzeyir Hacıbəyovun ev muzeyinin açılışında. 1975-ci il 20 noyabr*



*Heydər Əliyev Moskvada Üzeyir Hacıbəyovun 90 illiyinə həsr olunmuş təntənəli iclasın rəyasət heyətində. 1975-ci il 29 noyabr*



*Heydər Əliyev heykəltaraş M.Mirqasımovun emalatxanasında. 1979-cu il 7 aprel*



*Heydər Əliyev mədəniyyət və incəsənət xadimləri ilə birlikdə. 1978-ci il 4 fevral*



*Heydər Əliyev F.Əmirovun "Min bir gecə" baletinin tamaşasından sonra. 1979-cu il 16 iyun*



*Heydər Əliyev R.Behbudovu ordenlə təltif edir. 1980-ci il 15 may*



*Heydər Əliyev təltif olunmuş mədəniyyət və incəsənət xadimləri ilə. 1980-ci il 4 dekabr*



*Heydər Əliyev Zeynəb Xanlarovanı SSRİ xalq artisti fəxri adı alması münasibətilə təbrik edir. 1980-ci il 4 dekabr*



*Heydər Əliyev kinematoqrafçıların V qurultayının rəyasət heyətində. 1981-ci il 5 aprel*



*Heydər Əliyev incəsənət xadimlərini salamlayır.
1981-ci il 25 sentyabr*



*Heydər Əliyev İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" tamaşasından sonra. 1981-ci il 4 noyabr*



*Heydər Əliyev teatr cəmiyyətinin
VII qurultayının rəyasət heyətində.
1981-ci il 3 noyabr*



*Heydər Əliyev və rəssam Toğrul Nərimanbəyov.
1982-ci il 26 mart*



*Heydər Əliyev rəssam Mikayıl Abdullayevi təltif edir. 1982-ci il 19 may*



*Heydər Əliyev Azərbaycan Dövlət simfonik orkestrinin 60 illiyinə həsr olunmuş təntənəli iclasda. 1982-ci il 17 iyun*

H.Əliyev Azərbaycan bəstəkarlarının əsərlərinin ölkənin müxtəlif şəhərlərinin möhtəşəm salonlarında səsləndirilməsinə əzmlə nail olur, onları tanıdırdı. Məhz onun qayğısı nəticəsində 1981-ci ildə F.Əmirovun «Min bir gecə» baleti Moskvada oynanıldı və yüksək tamaşaçı rəğbəti qazandı[34].

Azərbaycan rəhbəri folklorun, muğam irsinin dirçəldilməsi barədə göstəriş verir və bundan ötrü lazım olan bütün əlverişli şəraiti yaradırdı. 70-80-ci illər Azərbaycan folklor musiqisinin inkişafında keyfiyyətcə yeni bir dövrdür. Bu da bilavasitə H.Əliyevin fəaliyyəti nəticəsində baş vermişdi. Həmin illərdə Azərbaycanda müxtəlif sahələr üzrə yüksək ixtisaslı kadrlar hazırlanır, xalq musiqisinin tarixi-nəzəri məsələləri müzakirə edilərək həll olunur, xalq mahnıları, muğam, oyun havaları ilə bərabər ənənəvi muğam sənətinin və aşıq musiqisinin özunəməxsusluqları araşdırılırdı. Xalq musiqisinin pərdə sistemi, muğam və aşıq sənətinin əsasları və şəkilləri tədqiq olunurdu.

H.Əliyev Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafına xüsusi diqqət yetirir, istedadlı uşaqların müsabiqəsinin keçirilməsi barədə göstərişlər verirdi. Bilavasitə onun təşəbbüsü ilə 1977-ci ilin sentyabr ayında Azərbaycan KP MK «Respublikada musiqi ifaçılığı sənətinin vəziyyəti və onu daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etdi. Azərbaycan xalq musiqisinin inkişafında yeni mərhələnin əsasını qoyan bu qərar istedadlı ifaçıların üzə çıxarılmasında müstəsna rol oynadı. H.Əliyev həmin qərarın yalnız qəbul edilməsi ilə kifayətlənmədi. O, Azərbaycan xalqının qədim irsini, tarixi keçmişini özundə saxlayan, milli ruhunu qoruyan xalq musiqisini dirçəldir, təşviq edir, istedadlı xalq musiqisi ifaçılarının üzə çıxarılmasına nəzarət edir, onların konsertlərinə gedirdi. Belə möhtəşəm tədbirlərdən biri 1982-ci ilin iyun ayında Bakıda keçirildi[35]. Azərbaycanın müxtəlif rayonlarından olan gənc istedadların konsertində H.Əliyevin iştirakı bu məsələyə onun

---

[34] «Kommunist» qəzeti, 1981, 26 aprel, №100 (17734).

[35] Gənc istedadların musiqi bayramı. - «Kommunist» qəzeti, 1982, 5 iyun, №132 (18066).

diqqət və qayğısının nümunəsi idi. Bütün möhtəşəm fəaliyyəti ilə H.Əliyev Azərbaycan milli musiqisini, onun zəngin ənənələrini dirçəldir, bununla da xalqın milli ruhunu, özünüdərkini yüksəldirdi. Məhz bu qayğının nəticəsində onlarla istedadlı Azərbaycan gənci peşəkar musiqi aləminə qədəm qoyaraq respublika miqyasında tanınıb şöhrət qazanmışdı.

H.Əliyevin hakimiyyəti illərində Azərbaycan muğamı, «Qarabağ şikəstəsi» Kremlin qurultaylar sarayında keçirilən ən yüksək məclislərdə ifa edilirdi.

H.Əliyev Azərbaycan muğam ifaçılığına xüsusi diqqət yetirərək qorunmasına, gənc ifaçıların yetişdirilməsinə qayğı göstərirdi. Gənc ifaçıların keçirilən festivallarının məqsədlərindən biri də məhz bu idi. Onun göstərişi ilə respublika mətbuatında, radio və televiziyasında Azərbaycan muğamının nəzəri problemləri müntəzəm olaraq geniş müzakirə edilir, seminar və konfranslar keçirilirdi[36].

H.Əliyev xalq musiqisini dirçəltmək və təbliğ etmək məqsədilə peşəkar müsiqiçiləri bədii özfəaliyyət kollektivlərinin inkişafına yardım etməyə çağırırdı. Bu isə Azərbaycanın bütün rayonlarında bədii özfəaliyyət kollektivlərinin yaradılmasına, xalq musiqisi və folklorun inkişafına, respublikada tanıdılmasına gətirib çıxarırdı. Məhz belə qayğı nəticəsində folklor musiqisi nəinki Azərbaycanda və ölkədə, həmçinin dünyada tanınırdı. Azərbaycan bəstəkarlarının 1973-cü ilin oktyabr ayında keçirilən IV qurultayında iştirak edən H.Əliyev onlara «xalq üçün yaratmağı», eyni zamanda peşəkar bəstəkarların xalq bədii kollektivlərinə, xalq musiqisinin inkişafına yardım göstərmələrini tövsiyə edirdi. Qurultaya göndərdiyi təbrik məktubunda H.Əliyev deyirdi: «Respublikanın professional musiqiçiləri... xalq bədii kollektivlərinin ustalıq səviyyəsinin yüksəlməsinə qayğı göstərməlidirlər»[37].

---

[36] Muğamın problemləri və gələcəyi. - «Kommunist» qəzeti, 1978, 17 noyabr, №262 (17002).

[37] «Kommunist» qəzeti, 1973, 28 noyabr, №278 (15493).



Onun bilavasitə qayğısı nəticəsində ölkədə yeganə olan Mahnı Teatrını SSRİ xalq artisti Rəşid Behbudov yaratdı. Azərbaycan milli xoreoqrafiyası məşhurlaşdı.

H.Əliyev Azərbaycan musiqisinin dünya miqyasında tanıdılması yönündə böyük işlər görürdü. Onun hakimiyyəti illərində Azərbaycan mədəniyyəti ölkə sərhədlərini sürətlə aşaraq dünya miqyasına daha geniş çıxırdı. Buna dair yüzlərlə misal göstərmək olar. 1973-cü ilın payızında SSRİ xalq artisti Rəşid Behbudovun rəhbərliyi altında Mahnı Teatrı Latın Amerikası ölkələrində uğurla konsertlər verdi[38]. Bu barədə tanınmış tənqidçi İlham Rəhimli yazırdı: «Rəşid Behbudov oxuyanda günəşli Azərbaycan məlahətli səslə sehrlənmiş nağıla çevrilir. Xalqımızın əzəməti, Xəzərin coşqunluğu, dağ çeşmələrinin saflığı, laləli düzlərin ətri, bərəkətli çöllərin, meyvəli bağların şirinliyi mahnılarla könüllərə hopur. Rəşid Behbudov Azərbaycanı tanıdıb. Səni tərənnüm edirəm, Azərbaycan! Qüdrətli sənəti, odlu-alovlu mahnıları ilə Azərbaycanı sönməz məşələ çevirib»[39].

70-80-ci illərdə Azərbaycan mədəniyyəti və incəsənətinin tərəqqisini hətta xarici ölkələrin siyasətçiləri, alimləri, diplomatları və jurnalistləri də etiraf edirdilər. SSRİ-də akkreditə olunmuş xarici olkələrin səfirləri Azərbaycana səfər edərək onun mədəniyyəti və incəsənəti ilə tanış olur, təəssüratlarını bölüşürdülər. Məsələn, 1971-ci ildə Azərbaycanda səfərdə olan Avstriyanın Moskvadakı səfiri Hayirix Haymerle öz təəssüratını belə ifadə edirdi: «Azərbaycan xalqının incəsənəti ilə tanışlıq mənə daha çox təsir bağışladı. Onun incəsənəti dərin milli təməli ilə, zəngin ənənələri və eyni zamanda son dərəcə müasirliyi ilə fərqlənir»[40]. Belə yüksək qiymət onlarla digər xarici qonağın müsahibələrində də əks olunmuşdu.

H.Əliyev Azərbaycan xalqının düşüncələrini, azadlıq ideyalarını özündə saxlayan aşıq musiqisinin dirçəldilməsinə

---

[38] «Kommunist» qəzeti, 1973, 14 noyabr, №266 (15481).

[39] Rəhimli İ. Nəğmələrlə döyünən ürək. - «Kommunist» qəzeti, 1976, 14 yanvar, №10 (16139).

[40] «Kommunist» qəzeti, 1971, 23 noyabr, №273 (14876).

diqqət yetirirdi. Onun təşəbbüsü ilə aşıq musiqisinin inkişafına yönəltmiş mühüm qərarlar qəbul olunmuşdu. Azərbaycan KP MK bürosunun 1972-ci il 7 dekabr tarixli iclasında Aşıq Şəmkirin (Ş.Q.Qocayev) anadan olmasının 80 illiyi haqqında qərar qəbul edildi[41]. Büro iclasının qərarı ilə o, hökumət mükafatına təqdim edildi[42]. H.Əliyev Aşıq Şəmşirin vəfatından sonra da adının əbədiləşdirilməsi sahəsində ciddi tədbirlər həyata keçirdi. Bilavasitə onun səyi ilə MK bürosu 1980-ci il 17 oktyabr tarixli iclasında Aşıq Şəmşirin adının əbədiləşdirilməsi haqqında qərar qəbul etdi[43]. Mədəniyyət evlərinə, klublara, küçələrə onun adı verildi.

Azərbaycan aşıq sənətinin korifeylərindən biri olan Aşıq Ələsgər irsinin mühafizəsi və təbliğinə diqqət verilirdi. Azərbaycan KP MK bürosunun 1971-ci il 24 may tarixli iclasında Aşıq Ələsgərin anadan olmasının 150 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi[44]. Yubiley tədbirinin vaxtı və tədbirlər kompleksi MK bürosunun 2 dekabr tarixli iclasında müəyyənləşdirildı və təsdiq olundu[45]. Onun xatirəsini əbədiləşdirmək haqqında MK bürosu 1972-ci il 10 iyun tarixli iclasında aşıq musiqisi tarixində o vaxtadək görünməmiş mühüm əhəmiyyət daşıyan bir qərar qəbul etdi[46]. Qərara uyğun olaraq yubiley tədbirləri keçirildi[47]. H.Əliyev bu tədbirlərin respublika sərhədlərindən kənara çıxmasına çalışaraq ona da nail oldu. Aşıq Ələsgərin yubiley tədbirləri Moskvada da qeyd edildi. İttifaqlar evinin sütunlu salonunda keçirilən bayram tədbirini açan SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi Mixail Lukon deyirdi: «... biz Azərbaycan poeziyasının milli ənənə-

[41] ARSPİHDA, f. 1, siy. 59, iş 97 (99), pr. №56, § 13.
[42] ARSPİHDA, f. 1, siy. 60, iş 13 (15), pr. №59, § 17.
[43] ARSPİHDA, f. siy. 67, iş 111, pr. 155, § 21.
[44] ARSPİHDA, f. 1, siy. 58, iş 70, pr. №2, § 18.
[45] ARSPİHDA, f. 1, siy. 58, iş 144 (146), pr. №26, § 4.
[46] ARSPİHDA, f. 1, siy. 59, iş 59 (60), pr. №43, § 11.
[47] ARƏİDA, f. 340, siy. 6, ; bağ. 2, iş 6, v. 4-63 ;bağ. 3, iş 19, v. 1-15.



lərindən danışarkən Aşıq Ələsgərin irsini nəzərdə tuturuq»[48].

Aşıq Ələsgərin yubileyinin zirvə nöqtəsi həmin ilin iyun ayının 9-da Azərbaycan Dövlət Opera və Balet Teatrında keçirilən tədbir oldu. Tədbirdə H.Əliyevin iştirak etməsi onun aşıq musiqisi irsinə qayğısını göstərirdi[49]. Tədbirə ölkənin müxtəlif şəhərlərindən qonaqların qatılması Azərbaycan aşıq musiqisinin ölkə miqyasında tanıdılması istiqamətində əhəmiyyətli addım idi.

H.Əliyev Aşıq Alı irsinin təbliğinə də qayğı göstərirdi. 1981-ci il iyul ayının 21-də MK bürosunun iclas qərarı ilə ustad aşığın anadan olmasının 180 illiyinin qeyd edilməsi haqqında qərar qəbul olundu[50]. Yubiley tədbirləri böyük təntənə ilə keçirildi[51]. Onun şerlərinə ən gözəl mahnılar bəstələndi, mədəniyyət saraylarına, klublara və küçələrə adı verildi.

Ümumiyyətlə, H.Əliyevin hakimiyyəti illərində Azərbaycan musiqisi yuksək inkişaf səviyyəsinə çataraq sovet dövründə çiçəklənmə, intibah mərhələsini yaşadı. O, Azərbaycan bəstəkarlarına, müğənnilərinə qayğı göstərir, qurultaylarında iştirak edir, problemlərini operativ həll edir, yubileylərini keçirir, yüksək dövlət mükafatlarına təqdim edir, klassik Azərbaycan bəstəkar və musiqiçilərinin ev, xatirə muzeylərini yaradır, milli musiqiyə, muğama, folklor musiqisinə, bədii özfəaliyyət kollektivlərinin yaradılmasına, aşıq musiqisinin dirçəldilməsinə çalışır, məşhur aşıqların yubileylərini keçirir, xatirələrini əbədiləşdirir, musiqinin problemlərinə dair ictimai və ciddi elmi müzakirələr açdırır, gənc istedadların üzə çıxmasına qayğı göstərir və bu barədə mühüm qərarların qəbul edilməsinə nail olurdu. Sonralar H.Əliyev nitqlərinin birində deyirdi: «Əsrin əvvəllərindən bu günədək olan müddəti götürsək, görərik ki, həmin dövrdə Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət

[48] «Kommunist» qəzeti, 1972, 26 may, №122 (15032).
[49] «Kommunist» qəzeti, 1972, 10 iyun, №135 (15045).
[50] ARSPİHDA, f. 1, siy. 68, iş 102 (103), pr. №19, § 22.
[51] «Kommunist» qəzeti, 1981, 22 dekabr, №294 (17928).

Hacıyev, Arif Məlikov, Tofiq Quliyev, Rauf Hacıyev kimi görkəmli bəstəkarlar yetişmişdir. Şərqdə ilk opera Üzeyir Hacıbəyovun dühası ilə yaranmışdır. Bir sözlə, Azərbaycanda professional musiqi mədəniyyəti təşəkkül tapmışdır. Demək istəyirəm ki, bu ictimai-siyasi quruluş, iqtisadi sistem xalqın mədəniyyətinə nəinki zərər vura bilməmiş, əksinə, bu sisitemdə mədəniyyətimiz çox inkişaf etmiş və irəliləmişdir»[52].

H.Əliyevin Azərbaycan incəsənətinə qayğısında kino sənəti xüsusi yer tuturdu. Onun bu sahədəki fəaliyyəti bir neçə istiqamətdə həyata keçirilirdi: kinostudiyanın fəaliyyətinə diqqət verərək işini gücləndirməyi tövsiyə edir, maddi-texniki bazasını möhkəmləndirir, Azərbaycan xalqının tarixi ilə bağlı bədii və sənədli kinofilmlərin çəkilişini təşviq edirdi və s.

Hakimiyyətə gəldikdən az sonra H.Əliyev «Azərbaycanfilm»in işinin yaxşılaşdırılması məsələsini gündəliyə gətirərək geniş müzakirəsini keçirdi və qısa müddətdə bu sahədə ciddi dönüşə nail oldu. Eyni zamanda, MK bürosunun 1969-cu il 21 oktyabr tarixli iclasında «Azərbaycanfilm» kinostudiyasında C.Cabbarlının büstünün qoyulması barədə qərar qəbul olundu. Az sonra bu qərar yerinə yetirildi[53].

1970-ci il mart ayının 13-də MK bürosu təkrarən «Azərbaycanfilm» kinostudiyasının işi haqqında məsələ müzakirə etdi[54]. Məsələ barəsində çıxış edən H.Əliyev deyirdi ki, mən düşünürəm, Azərbaycanda indi kifayət qədər kadrlar vardır, ola bilsin, böyük sıçrayış etmək üçün yoxdur, amma bizim kinematoqrafiyanı kinostudiyanın işi sayəsində böyük yüksəklikdə saxlamaq üçün kadrlarımız vardır. O daha sonra qeyd edirdi ki, studiyanın qarşısında duran mühüm problemlərdən biri kadrları böyük perspektivlə hazırlamaq olmalıdır, istedadlı adamlardan maksimum istifadə etmək lazımdır[55]. Məsələ barədə müvafiq qərar qəbul edildi. Kinostudiyanın fəaliyyətini yaxşılaşdırmaq tövsiyə olundu. Büronun 7 aprel tarixli iclasında da bu məsələ yenidən müzakirə edildi[56]. Qısa müddət ərzində kinostudiyanın işində dönüş yaradıldı.

[52] Azərbaycan beynəlxalq aləmdə. I cild, s. 72.
[53] ARSPİHDA, f. 1, siy. 56, iş 59 (60), pr. №59, § 16.
[54] ARSPİHDA, f. 1, siy. 57, iş 27 (28), pr. №122, § 9, v. 14.
[55] Yenə orada, v. 287-288.



Sonrakı illərdə də H.Əliyev kinostudiyaya olan qayğısını əsirgəmədi. Onun sədrliyi ilə MK bürosunun 1977-ci il 11 yanvar tarixli iclasında «Azərbaycanfilm»in maddi-texniki bazasının daha da inkişaf etdirilməsi barədə qərar qəbul olundu[57]. Qərara uyğun olaraq Buzovna qəsəbəsində yerləşən düşərgə kinostudiyanın balansına verildi. Kinostudiya yeni avadanlıq aldı, maddi-texniki bazası möhkəmləndirildi.

H.Əliyev Azərbaycan kinosunun yubileyinin keçirilməsinə də diqqət yetirirdi. MK bürosunun 1974-cü il 2 sentyabr tarixli iclasinda Azərbaycan kinosunun 60 illiyi barədə qərar qəbul olundu[58]. Qərara əsasən geniş yubiley tədbirləri keçirildi, studiyanın maddi-texniki bazası gücləndirildi. Yekun yubiley tədbirində H.Əliyev iştirak etdi[59].

H.Əliyev Azərbaycan tarixi ilə bağlı fimlərin çəkilişini tövsiyə edir, bu məsələni Moskvadakı müvafiq strukturlar qarşısında qətiyyətlə qaldırırdı. Heç şübhəsiz, onun bu istiqamətdə fəaliyyətinin əsas göstəricilərindən biri «Nəsimi» filmi sayıla bilər. H.Əliyev «Nəsimi» kinofilminin çəkilişi ilə əlaqədar olaraq SSRİ Nazirlər Soveti yanında Dövlət Kinematoqrafiya Komitəsinin sədri F.T.Yermaşa 1972-ci il avqust ayının 24-də 350 №-li məktub yazaraq Suriya və Türkiyəyə 10-12 nəfərin 1 ay müddətinə ezam edilməsi üçün icazə verilməsini xahiş etdi. Lakin regionda siyasi vəziyyət mürəkkəb olduğundan bu qədər şəxsin həmin ölkələrə ezam edilməsi mümkün olmadı. Bununla belə, kiçik bir nümayəndə heyəti 1973-cü ilin ortalarında 7-10 gün müddətində həmin ölkələrə

[56] ARSPİHDA, f. 1, siy. 57, iş 51 (52), pr. №126, § 5.
[57] ARSPİHDA, f. 1, siy. 64, iş 11 (12), pr. №29, § 9; iş 12, v. 150-151.
[58] ARSPİHDA, f. 1, siy. 63, iş 80 (82), pr. №18, § 20, 21.
[59] «Kommunist» qəzeti, 1976, 26 dekabr, №302 (16431).

səfər etdi[60]. H.Əliyevin bilavasitə qayğısı sayəsində «Nəsimi» kinofilminin bəzi kadrları dahi azərbaycanlı şairin edam edildiyi Hələb şəhərində çəkildi.

«Babək» kinofilminin çəkilişinin təşəbbüsçüsü də bilavasitə H.Əliyev oldu. Azərbaycan rəhbəri filmin çəkilişini nəzarətdə saxlayır və işlərin gedişi ilə yaxından maraqlanırdı. H.Əliyev bu məsələnin geniş müzakirəsini keçirərək filmin daha yaxşı alınmasından ötrü əlindən gələni edirdi. MK bürosunun 1978-ci il 14 aprel tarixli iclasında «Azərbaycan xalq kütlələrinin azadlıq hərəkatına həsr edilmiş iki seriyalı bədii filmin çəkilişinə kömək göstərilməsi haqqında məsələ» müzakirə olundu[61]. Müzakirə zamanı maliyyə çatışmazlığının olduğu fikri səsləndirildi. H.Əliyevin göstərişi ilə «Azərbaycanfilm» studiyasına əlavə maliyyə vəsaiti ayrıldı. Məsələnin müzakirəsi zamanı çıxış edən H.Əliyev deyirdi ki, mən bu filmə çox böyük əhəmiyyət verirəm. Burada xüsusi olaraq nəzərə almaq lazımdır, birinci, elmi mötəbərlik, ikinci, ideya-bədii tərəf və kinematoqrafiya dəyəri. Bu üç məsələ tam əksini tapmalıdır, ona görə də bu film sıradan biri olmamalıdır. Onu həqiqətən elə etmək lazımdır ki, ittifaq ekranında ən yüksək səviyyədə olsun[62].

H.Əliyevin tövsiyələri və tələbkarlığı öz bəhrəsini verdi. «Babək» filmi böyük ustalıqla çəkilərək 70-ci illərin sonunda ekranlara çıxarıldı və geniş tamaşaçı kütləsinin rəğbətini qazandı. Kinofilm Azərbaycan xalqında qəhrəmanlıq, milli mənlik, özünə inam hisslərini yüksəldir, işğalçılara qarşı qisas, nifrət aşılayırdı. Filmin çəkilişinin başa çatması və böyük ekrana çıxması, heç şübhəsiz, Azərbaycan kino sənəti tarixində mühüm hadisəyə çevrildi.

Əvvəlki illərdə «Kitabi-Dədə Qorqud» dastanına rəsmi səviyyədə türkçü, turançı damğası vurulmuşdusa, Azərbaycan xalqına yad hesab edilmişdisə H.Əliyev bu biabırçılığa cəsarətlə son qoydu. Onun bilavasitə göstərişi ilə Azərbaycan xalqında milli, tarixi köklərinə hörmət, torpaq, vətən sevgisi hissləri aşılayan «Dədə Qorqud» filmi yazıçı Anarın ssenarisi əsasında yaradıldı və böyük tamaşaçı rəğbəti qazandı.

Ümumiyyətlə, milli tarixlə bağlı ən gözəl bədii, sənədli filmlər bütün sovet dövrü ərzində məhz H.Əliyevin hakimiyyəti illərində cəsarət və sevgi ilə yaradılaraq ekranlara çıxarıldı. Azərbaycan kinosunun ən gözəl nümunələri olan «Babək», «Nəsimi», «Dədə Qorqud», «Ad günü», «İstintaq» və onlarla başqa bədii filmlər yaradılaraq xalqın istifadəsinə verildi. R.Təhmasib, Ə.İbrahimov, T.Tağızadə, H.Seyidbəyli, R.Ocaqov və b. kimi quruluşçu-rejissorlar bütün ölkə miqyasında məşhurlaşdılar. Belə bir cəhət də əhəmiyyətlidir ki, hətta uşaqlar üçün çəkilən cizgi filmləri də torpaq, yurd sevgisi, milli ruh aşılayırdı.

H.Əliyev Azərbaycan kinematoqrafçılarının qurultaylarında iştirak edir, onlarla görüşür, problemlərini öyrənir, yerindəcə həll edir, öz tovsiyələrini verirdi. Həmin tədbirlərdən biri kinematoqrafçıların 1981-ci ildə keçirilən V qurultayı oldu[63]. Belə bir fakt əhəmiyyətlidir ki, ötən qurultaydan keçən müddət ərzində Azərbaycanda 34 bədii, 86 sənədli, elmi-kütləvi, tədris, 15 cizgi filmi çəkilmişdi[64].

Ümumiyyətlə, H.Əliyevin hakimiyyəti illəri Azərbaycan kino sənətinin yüksəlişi illəridir. Çəkilən bədii, sənədli, cizgi filmlərinin sayına görə 1969-1982-ci illər sovet hakimiyyətinin əvvəlki dövrlərini xeyli geridə qoyurdu. Bütün janrlarda çəkilən kinofilmlər Azərbaycan xalqının milli ruhunu yüksəldir, tarixi keçmişinə qayıdışını, özünə inam hissini gücləndirirdi. Qeyd etmək lazımdır ki, belə məzmunlu kinofilmlər əvvəlki illərdə heç vaxt çəkilməmişdi.

H.Əliyev sovet cəmiyyətində mövcud olan mənfiliklərin ekranlaşdırılmasından nəinki qorxmur, hətta onları ekrana gətirmək barədə kino sənətçilərinə göstərişlər verirdi. Onun rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizəsi işinə bədii

---

[60] ARSPİHDA, f. 1, siy. 60, iş 168, v. 130-131.
[61] ARSPİHDA, f. 1, siy. 65, iş 49 (51), pr. №66, § 8, v. 9, 79, 118.
[62] Yenə orada.

[63] Dövrün kino salnaməsini yaratmalı. - «Kommunist» qəzeti, 1981, 7 may, №108 (17742).
[64] Yenə orada.

filmlər də kömək edirdi. SSRİ-də bu mübarizəni ilk dəfə olaraq məhz H.Əliyev başlamışdı.

H.Əliyevin həm DTK sədri, həm də respublikaya rəhbərlik etdiyi 14 il ərzində Azərbaycanda dissident olmamışdı. Əslində başqa cür düşünənlər olsa da, H.Əliyev onları dissident hesab etmirdi. Çünki həmin şəxslərə əlverişli yaradıcılıq şəraiti yaradır, problemlərini həll edərək dissident səviyyəsinə gəlib çıxmağa qoymurdı. Onları bəzən yüksək tribunalardan açıq tənqid də edirdi. Doğrudur, antisovetçi ovunda maraqlı olan bir sıra rəhbər işçilər 60-70-ci illərdə həmin şəxsləri bəzən dissident etmək istəyirdilər. H.Əliyev hələ DTK sədri işlərkən Rüstəm İbrahimbəyov və Eldar Quliyev «Bir cənub şəhərində» filmini çəkmişdilər. Lakin yerli hakimiyyət orqanları filmin ekrana çıxarılmasını qadağan etmişdilər. Mübahisələr qızışmışdı. Belə olduqda H.Əliyev kinostudiyaya gedərək filmə baxır və onun ekrana çıxarılmasını tövsiyə edir. SSRİ daxili işlər naziri Şelokov filmdə milis işçisinin rüşvət alması epizodunun olmasını əsas gətirərək onun ölkə ekranlarına çıxarılmasının qadağan edilməsinə çalışırdı. Şelokov bildirirdi ki, sovet milisində rüşvət yoxdur və milis işçisi rüşvət almır. Sonralar H.Əliyev Moskvada ən yüksək sovet rəhbərləri ilə görüşdə bu məsələnin müzakirəsi zamanı demişdi ki, Şelokovun dünyadan xəbəri yoxdur, əgər milisin aldığı rüşvət bir manatla qurtarsaydı, onda biz cənnətdə yaşayardıq[65]. Nəticədə bir müddət sonra film geniş ekrana çıxaraq böyük tamaşaçı rəğbəti qazandı.

H.Əliyev Azərbaycan rəhbəri olarkən Rüstəm İbrahimbəyov «İstintaq» filmini çəkmişdi. Filmə baxan rəhbər işçilər H.Əliyevə deyirlər ki, film onları gözdən salır, rüsvay edir, film əgər SSRİ-nin başqa şəhərlərində göstərilsə, deyiləcək ki, Azərbaycanda korrupsiya və rüşvətxorluq vardır. Onlar filmin ekranlara buraxılmamasını təklif edirdilər. Lakin H.Əliyevin

[65] Əliyev H. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. Bakı, 2000, s.264-265.



məsələyə yanaşması fərqli olur. O, həmin şəxslərə deyir ki, olan şeyi gizlətmək deyil, problemi həll etmək lazımdır. Etirazlara baxmayaraq film ekranlara çıxarıldı, dövlət mükafatına layiq görüldü, ölkənin demək olar ki, hər yerində nümayiş etdirildi. Film təkcə sənətkarlıq baxımından yenilik deyil, eyni zamanda sovet cəmiyyətinin eybəcərliklərini açmaqda cəsarətli addım idi.

H.Əliyev Sov.İKP MK Siyasi bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən də bu istiqamətdəki fəaliyyətini daha əzmlə davam etdirirdi. H.Əliyevə ölkə rəhbəri vəzifəsini tutmaqda rəqibi kimi baxan məhdud düşüncəli Qorbaçov hakimiyyətə keçdikdən sonra ona mənfi münasibət bəsləyir, əleyhinə müxtəlif əsassız ittihamlar səsləndirirdi. H.Əliyev isə həmin uydurmaları qətiyyətlə rədd edirdi. Siyasi büronun iclaslarının birində H.Əliyev Qorbaçova və Liqaçova məsləhət görür ki, «İstintaq» filminə baxsınlar. Bu zaman Nazirlər Soveti sədrinin birinci müavini kimi H.Əliyevə kinematoqrafiya da tabe idi. İclasdan sonra o, SSRİ Kinematoqrafiya Komitəsinin sədri Yermaşa bu filmin lentinin birinin Qorbaçova və digərinin isə Sov.İKP MK Siyasi bürosunun üzvü, MK katibi Y.Liqaçova göndərməyi tapşırır. Kino onlara göndərilsə də, vaxtları olmadığı üçün baxmamışdılar. Bəlkə də onlar vaxtı bəhanə gətirirdilər. H.Əliyev onların mühafizəçilərinə kinoya baxmağı xatırlatmağı tapşırır. Bazar günü bağda olan Qorbaçov və Liqaçov həmin filmə baxırlar[66]. Onlar Azərbaycanda belə neqativ meyllərə qarşı mübarizənin xeyli əvvəl başlanıldığının və hətta ekranlaşdırıldığının bir daha şahidi olurlar.

«Ad günü» filminə təsadüfən bazar günü baxan H.Əliyev Azərbaycan KP MK plenumunda bu filmə baxmağı tövsiyə etdikdən sonra film məşhurlaşdı. Hətta SSRİ-nin İrandakı səfiri Vinoqradov Tehrandan Moskvaya gedərkən yolüstü H.Əliyevlə görüşərkən Azərbaycan rəhbəri film haqqında söhbət açır. Qonaq evində filmi göstərirlər. Bundan sonra Vinoqradov filmi İranda göstərmək istədiyini bildirir və ona

[66] Əliyev H. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. Bakı, 1998, s. 189.

kinonun lenti verilir. Bir müddət sonra film İranda kino-teatrlarda nümayiş etdirilir[67] və uğur qazanır.

Azərbaycan teatrının keçdiyi tarixi yolu, teatrların səhnələrində oynanılan tamaşaları, dramaturqların yaradıcılığını dərindən bilən H.Əliyev fəaliyyətində teatra, teatr xadimlərinə qayğı göstərir və bu sahədə fəaliyyətini bir neçə istiqamətdə həyata keçirirdi: teatr xadimlərinin və teatrların yubileylərini keçirir, onların dövlət mükafatları ilə təltif edilmələrinə nail olur, adlarını əbədiləşdirir, ev muzeylərini yaradır, teatrın, o cümlədən opera sənətinin inkişafına diqqət yetirirdi.

Bu sahədə onun fəaliyyətinə dair yüzlərlə misal göstərmək olar. H.Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK bürosu 1970-ci il 30 sentyabr tarixli iclasında görkəmli aktyor Hüseyn Ərəblinskinin adının əbədiləşdirilməsi haqqında qərar qəbul etdi[68].

Büronun həmin ilin 6 oktyabr tarixli qərarına uyğun olaraq Aktyorlar evinə görkəmli aktyor Abbas Mirzə Şərifzadənin adı verildi[69].

1971-ci ildə böyük sənətkar M.Sənaninin 70 illik yubileyi təntənəli şəkildə keçirildi[70].

MK bürosunun 1974-cü il 8 yanvar tarixli iclas qərarı əsasında H.Əliyev tanınmış aktyor İsmayıl Dağıstanlıya SSRİ xalq artisti fəxri adı verilməsi barədə yanvar ayının 23-də Sov. İKP MK-ya 30 №-li məxfi məktuba imza atdı[71]. Həmin ilin 19 mart tarixli büro iclasında Azərbaycan teatr xadimlərindən olan Mehdi Məmmədovun SSRİ xalq artisti fəxri adı ilə təltif olunması haqqında qərar çıxarıldı və H.Əliyev mart ayının 22-də Sov. İKP MK-ya yazılmış 137 №-li məxfi məktubu imzaladı. Eyni tarixli iclas qərarı ilə İsmayıl Osmanlıya SSRİ xalq artisti fəxri adı verilməsi barədə Sov. İKP MK-ya

[67] Yenə orada, s. 190.

[68] ARSPİHDA, f. 1, siy. 56, iş 57 (58), pr. №111, § 25.

[69] ARSPİHDA, f. 1, siy. 58, iş 126 (128), pr. №20, § 18.

[70] «Kommunist» qəzeti, 1971, 25 dekabr, № 301 (14906); 22 may, №119 (14724).

[71] ARSPİHDA, f. 1, siy. 61, iş 148, v. 4-5.



136 №-li məxfi məktub göndərildi[72].

H.Əliyev İ.Dağıstanlının anadan olmasının 70 illiyi münasibətilə Oktyabr inqilabı ordeni ilə təltif edilməsi haqqında MK bürosunun 1976-cı il 7 dekabr tarixli iclas qərarına əsasən dekabrın 10-da Sov.İKP MK-ya 541 №-li məxfi məktubla müraciət etdi[73]. İ.Dağıstanlının yubileyi təmtaraqla keçirildi[74].

H.Əliyev böyük səhnə ustası Ağasadıq Gəraybəylinin Oktyabr inqilabı ordeni ilə təltif edilməsi barədə Sov.İKP MK-ya 1977-ci il fevral ayının 14-də 65 №-li məxfi məktubu imzaladı[75].

1980-ci il may ayının 20-də H.Əliyev Sov.İKP MK-ya 265 №-li məxfi məktub yazaraq M.Sənaninin Lenin ordeni ilə təltif edilməsini xahiş etdi[76]. Onun 80 illik yubileyi təntənə ilə keçirildi[77]. Azərbaycan rəhbəri istəklərini mərkəzdən inadla ala bildi. Dövlətin yüksək orden və medalları ilə təltif olunmaları həmin sənətkarları ədalətsiz tənqiddən kənar edir, hücumlardan qoruyur, Azərbaycan teatr sənətini və xadimlərini ölkədə tanıdır, xalqa olan etimadı möhkəmləndirir, milli özünüdərki, özünə inamı gücləndirirdi. Təltif olunan görkəmli sənətkarlar, eləcə də teatr kollektivləri H.Əliyevin yaxın dostuna və təbliğatçısına çevrilmişdilər.

Azərbaycan rəhbəri görkəmli teatr xadimlərinin xatirəsini ədəbiləşdirmək sahəsində də fəaliyyət göstərirdi. MK bürosunun 1981-ci il 10 mart tarixli iclasında görkəmli sənətkar Hüseynqulu Sarabskinin xatirəsinin əbədiləşdirilməsi haqqında qərar qəbul olundu[78]. Böyük səhnə ustasının 100 illik yubileyi təntənəli şəkildə keçirildi[79].

[72] Yenə orada, v. 53-54, 56-57.

[73] ARSPİHDA, f. 1, siy. 63, iş 139, v. 111-112.

[74] Bədəlbəyli Ş. Həmişə cavan sənətkar. - «Kommunist» qəzeti, 1977, 24 dekabr, №299 (16734).

[75] ARSPİHDA, f. 1, siy. 64, iş 127, v. 18-19.

[76] ARSPİHDA, f. 1, siy. 67, iş 178, v. 78-79.

[77] «Kommunist» qəzeti, 1980, 12 iyun, №136 (17472).

[78] ARSPİHDA, f. 1, siy. 68, iş 52, pr. №4, § 32.

[79] Bədəlbəyli Ş. Qüdrətli sənətkar. - «Kommunist» qəzeti, 1981, 13 mart, №63 (17697).

112

541с 10 декабря 6

Секретно

ЦК КПСС

6 января 1977 года исполняется 70 лет со дня рождения народного артиста СССР, лауреата Государственных премий СССР и Азербайджанской ССР т.Дагестанлы (Гаджиева) Исмаила Юсиф оглы.

Тов.Дагестанлы И.Ю. принадлежит к числу видных советских азербайджанских актеров. Являясь ведущим артистом Азербайджанского государственного академического драматического театра имени М.Азизбекова, он за 45 лет своей творческой деятельности создал замечательные образы классического и современного репертуара, проявил себя большим мастером сцены.

Дагестанлы И.Ю. первым на азербайджанской сцене создал образ В.И.Ленина по пьесе Каплера и Златогоровой "Грозовой год", который он успешно исполняет более 30 лет. Большим достижением в работе актера явилось исполнение роли Ленина в сценической композиции по трилогии Н.Погодина "Знамение века", которая была показана на Всесоюзном конкурсе на лучший спектакль, посвященный 100-летию со дня рождения В.И.Ленина и получила премию.

Работа над образом В.И.Ленина продолжает занимать важное место в сценической деятельности И.Дагестанлы. В 1975 году он блестяще сыграл роль Ленина в новой редакции спектакля "Кремлевские куранты" Н.Погодина.

В исполнении И.Дагестанлы с большой силой прозвучал ряд крупных образов, созданных им в пьесах классиков и современных азербайджанских, русских, зарубежных авторов. Значительным событием в творчестве актера явилась работа над образом С.М.Кирова в пьесе азербайджанского драматурга З.Мамедханлы "Утро Востока". Он является одним из лучших исполнителей роли Октая и Аюшина ("Октай эль оглы" и "Невеста огня Дж.Джабарлы), Вагифа и Каджара ("Вагиф" С.Вургуна), Бориса и Незнамова ("Гроза" и "Без вины виноватые" А.Н.Островского), Астрова ("Дяди Вани"



111



А.П.Чехова), Отелло ( "Отелло" Шекспира), Президента (Коварство и любовь" Шиллера) и многих других.

Большим мастером проявил себя Дагестанлы И. и в кино, где он сумел с большой убедительностью показать образ великого азербайджанского просветителя, основоположника азербайджанской драматургии М.Ф.Ахундова ( " Сабухи "), образ Везира ( " Кер-оглы") и другие.

Тов.Дагестанлы И.Ю. ведет большую общественную работу. Он неоднократно избирался секретарем партийной организации театра, является членом районного комитета партии г.Баку, кандидатом в члены Бакинского городского комитета партии, депутатом Бакинского Совета депутатов трудящихся. И.Дагестанлы в качестве пропагандиста часто выступает перед трудящимися республики. Он является автором пяти монографий, посвященных жизни и творчеству видных деятелей азербайджанского театра.

За достигнутые успехи в развитии азербайджанского советского театрального искусства т.Дагестанлы И.Ю. удостоен звания народного артиста Азербайджанской ССР, лауреата Государственной премии СССР (1948г.) и Государственной премии Азербайджанской ССР (1972г.),награжден двумя орденами Ленина ( 1949,1967 гг.), орденом Трудового Красного Знамени ( 1959г.) и медалями. В связи со 100-летием азербайджанского драматического театра в 1972 году удостоен звания народного артиста СССР.

Учитывая большие заслуги в развитии советского театрального искусства, и в связи с 70-летием со дня рождения ЦК КП Азербайджана просит наградить народного артиста СССР т.Дагестанлы ( Гаджиева) Исмаила Юсиф оглы орденом Октябрьской Революции.

Приложение: постановление бюро ЦК от 7.XII-76г. и справка-объективка – 2 листа.

Первый секретарь ЦК КП Азербайджана — [signature] — Г.Алиев

Azərbaycan rəhbəri teatrların yubileylərinin keçirilməsi sahəsində müstəsna rol oynayırdı. Onun fikrincə, belə yubileylərin keçirilməsi əhalinin ümumi mədəni səviyyəsinin yüksəlməsinə kömək edirdi. Bu sahədə H.Əliyevin fəaliyyətinin xronoloji ardıcıllıqla izlənilməsi məsələyə necə böyük əhəmiyyət verdiyini üzə çıxarır. MK bürosunun 1971-ci il 14 dekabr tarixli iclasında Kirovabad Dövlət Dram Teatrının 50 illiyinin qeyd olunması haqqında qərar qəbul edildi[80]. H.Əliyev sonrakı illərdə də həmin teatra xüsusi diqqət yetirərək yubileyinin keçirilməsinə göstəriş verdi. MK bürosunun 1981-ci il 27 avqust tarixli iclas qərarı ilə bu teatrın 60 illik yubileyinin keçirilməsi barədə qərar qəbul edildi[81]. Yubileylər münasibətilə teatrın aktyorlarına müxtəlif orden və medallar təqdim edildi, teatrın təchizatı yaxşılaşdırıldı.

H.Əliyev Azərbaycan Dövlət Akademik Dram Teatrının fəaliyyətinə xüsusi qayğı göstərirdi. Teatrın yaradılmasının 100 illiyinin möhtəşəm qeyd edilməsi bilavasitə onun xidməti idi. Məlumdur ki, böyük dramaturq, maarifçi-demokrat Mirzə Fətəli Axundovun «Lənkəran xanının vəziri» tamaşasının 1873-cü ildə oynanılması ilə Azərbaycan dram teatrının təməli qoyulmuşdu. Bu, müsəlman Şərqində ilk teatr idi. Azərbaycan teatrı Şərqin bir sıra ölkələrində mədəniyyətin inkişafına güclü təsir etmişdi. H.Əliyev həmin hadisəyə xüsusi önəm verir və nitqlərinin birində deyirdi ki, Azərbaycan teatrı zamanın qatı qaranlığını yararaq işıqlı gələcəyə yol açan, insanların şüurunu və qəlbini oyadan, onları azadlıq və səadət naminə hünərlər göstərməyə ruhlandıran bir məşəl idi. Onun fikrincə, teatr Azərbaycanda mütərəqqi ictimai fikrin təşəkkülü və inkişafında fəal iştirak etmiş, öz xalqının mənəvi xəzinəsini zənginləşdirmişdi[82].

H.Əliyev klassik Azərbaycan dramaturqlarının xidmətlərini daim hörmətlə xatırlayırdı. O deyirdi: «Görkəmli mədəniyyət xadimləri Mirzə Fətəli Axundov, Həsənbəy Zərdabi, Nəcəfbəy Vəzirov, Əbdürrəhim Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov ilk dərin şırım açaraq Azərbaycan teatr sənətinin toxumunu səpmiş, onun cücərtilərini mürtəce keçmişin şiddətli qasırğalarından hifz edib qorumuşdular. Azərbaycan teatrının beşiyi başında dahi mütəfəkkir, materialist filosof, Azərbaycan dramaturgiyasının atası Mirzə Fətəli Axundov dayanmışdı»[83]. H.Əliyev Azərbaycan teatrının lap əvvəldən realist teatr kimi təşəkkül tapdığını, həyat məktəbi, əxlaqı saflaşdırmaq vasitəsi olduğunu qeyd edirdi. O, Azərbaycan teatrının əsl vurğunu və himayəçisi idi.

MK bürosunun 1973-cü il 19 yanvar tarixli iclasında Azərbaycan teatrının 100 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi[84]. Bununla kifayətlənməyən H.Əliyev həmin il may ayının 22-də keçirilən büro iclasında məsələyə yenidən qayıdaraq yubiley tədbirlər planının müzakirəsini keçirdi. Müvafiq qərar qəbul edildi[85]. Onun bilavasitə nəzarəti və rəhbərliyi altında geniş bayram tədbirləri keçirildi. 1974-cü ildə Azərbaycan Dövlət Dram Teatrının 100 illiyi münasibəti ilə keçirilən təntənəli yığıncaqda H.Əliyev milli teatrın keçdiyi tarixi yolun təhlilini özündə əks etdirən dərin məzmunlu, əhatəli, parlaq, milli ruhlu nitq söylədi. Bu nitq onun Azərbaycan teatr tarixini mükəmməl bildiyini, milli teatra böyük sevgisini, teatrın mövcud problemlərini, həlli yollarını və inkişaf perspektivlərini gördüyünü sübut edirdi. H.Əliyev nitqində deyirdi ki, Azərbaycan xalqını düşmüş olduğu ağır vəziyyətdən çıxarmaqdan ötrü onun ən yaxşı övladları uzun müddət çıxış yolu axtardılar. Xalqı maarifləndirməkdə teatr müstəsna rol oynadı.

H.Əliyev nitqində teatrda oynanılan bir sıra tamaşaların «... Azərbaycanın qəhrəmanlıq tarixinə həsr olunduğunu» vur-

[80] ARSPİHDA, f. 1, siy. 58, iş 147 (148), pr. №27, § 7, 8.
[81] ARSPİHDA, f. 1, siy. 68, iş 115 (116), pr. №23, § 19.
[82] Əliyev H. Ə. Sovet Azərbaycanı, s. 88.

[83] Yenə orada, s. 89.
[84] ARSPİHDA, f. 1, siy. 60, iş 10 (12), pr. № 58, § 22.
[85] ARSPİHDA, f. 1, siy. 60, iş 35, pr. №66, § 11, v. 12.

ğulayır, «milli kadrların-rejissorların, bəstəkarların, baletmeysterlərin yetişdirilməsinə» xüsusi diqqət yetirməyi tövsiyə edirdi[86].

H.Əliyevin bu nitqi onun bütün əvvəlki çıxışlarından tamamilə fərqlənirdi. O, milli dəyərlərə sıx bağlılığını ortaya qoyurdu. Heç əbəs deyil ki, sonralar H.Əliyev Azərbaycan teatrının 100 illiyi münasibətilə keçirilən tədbirdə etdiyi nitqi haqqında deyirdi: «Həyatımda çox məruzələr etmişəm, mühazirələr oxumuşam, nitqlər söyləmişəm, amma teatr haqqında etdiyim məruzəni öz həyatımda xüsusi qiymətləndirirəm»[87].

Azərbaycan dram-teatrının yubileyinin keçirilməsini H.Əliyev respublikanın teatr, bütövlükdə, mədəni həyatında mühüm hadisə hesab edirdi. O bu tədbirin böyük ictimai-siyasi əhəmiyyətli hadisəyə çevrildiyini göstərirdi.

Belə bir cəhət əhəmiyyətlidir ki, H.Əliyev dövründə Azərbaycanda teatr sənəti respublikanın demək olar ki, bütün coğrafiyasını əhatə etmişdi. Onun səyləri nəticəsində 1973-cü ildə Lənkəran Dövlət Dram Teatrı yaradıldı.

H.Əliyevin milli teatrın inkişafına diqqəti öz bəhrəsini verirdi. Bilavasitə onun xidmətləri nəticəsində 80-ci illərin əvvəllərində Azərbaycanda 14 dövlət teatrı və 41 xalq teatrı fəaliyyət göstərirdi. Teatr tamaşaları hətta Azərbaycan kəndində də səyyar göstərilirdi.

Respublika rəhbəri teatr xadimləri ilə görüşür, onların tədbirlərinə qatılır, problemləri ilə maraqlanırdı. O, 1981-ci ilin noyabr ayında Azərbaycan Teatr Cəmiyyətinin VII qurultayında iştirak etdi[88].

H.Əliyev Azərbaycanda opera sənətinin tarixini gözəl bilir və onun inkişafına xüsusi önəm verirdi. O hesab edirdi ki, Azərbaycan teatr xadimləri bütün mütərəqqi düşüncəli ziyalılarla birlikdə həmişə xalqın milli azadlıq hərəkatının ön cərgə-

---

[86] «Kommunist» qəzeti, 1974, 1 iyun, №126 (15646).
[87] Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001, s.48.
[88] Yenə orada, s.46.



sində getmiş, xalqın ağır günlərində ona dayaq olmuş, qədim, zəngin mədəniyyətinin tanıdılmasında böyük işlər görmüşlər. Məlumdur ki, 1908-ci ildə Bakıda ilk milli operanın-Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının tamaşaya qoyulması ilə musiqili teatr, daha döğrusu, Opera və Balet Teatrı meydana gəlmişdi. H.Əliyev Opera Teatrının kollektivi üçün əlverişli iş şəraiti yaradır, yubileylərini keçirir, fəxri adlar verir, problemlərini həll edir, Azərbaycan operasının dünyada tanıdılmasına çalışırdı. Məsələn, 1969-cu il dekabr ayının 1-də Parisdə beynəlxalq rəqs festivalında M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının truppası Q.Qarayevin «Yeddi gözəl», «Leyli və Məcnun», R.Hacıyevin «Azərbaycan suitası», T.Bakıxanovun «Xəzər balladası», F.Qarayevin «Qobustan gölləri» əsərlərini oynadı[89]. Sonrakı illərdə də bu sahədə beynəlxalq əlaqələr uğurla davam etdirildi.

H.Əliyev partiya və sovet işçilərini, ali məktəb müəllimlərini opera tamaşalarına baxmağa çağırır, bu barədə tənqidi fikirlərini açıqca soyləyirdi. Məsələn, 1979-cu il yanvar ayının 24-də 43-cü Bakı partiya konfransındakı nitqində H.Əliyev deyirdi: «Ali məktəblərin professorları və müəllimləri tələbələrə pis nümunə göstərir, opera tamaşalarına və simfonik konsertlərə nadir hallarda gedirlər. Yeri gəlmişkən deyim ki, hörmətli nazirlərimiz, onların müavinləri, sovet və təsərrüfat orqanlarının rəhbərləri, elm sahəsində çalışan ziyalılarımızın nümayəndələri, partiya işçiləri də orada az olurlar. Biz istəyirik ki, bu yoldaşlar tamaşalara və konsertlərə yalnız rəsmi tədbirlər keçirilən zaman gəlməsinlər, - burada onsuz da iştirak etməlidirlər, - müntəzəm gəlsinlər, mədəni sərvətlərə qovuşmağa özlərində daxili bir tələbat yaratsınlar»[90]. H.Əliyevə görə partiya və sovet işçiləri xalqın yaratdığı mədəni sərvətlərə yiyələnməyi özlərinin daxili tələbatlarına çevirməli idilər.

---

[89] «Kommunist» qəzeti, 1969, 27 noyabr, №278 (14274).
[90] Əliyev H.Ə. Partiyanın irəli sürdüyü vəzifələri mübarizcəsinə yerinə yetirməli. - «Kommunist» qəzeti, 1979, 17 yanvar, №23 (17062).

Məhz onun belə tənqidi fikirlərindən sonra opera tamaşaçılarının sayı artmış, bu sahədə canlanma yaranmışdı.

Azərbaycan operasının yaradılmasının ildönümünün böyük coşqu ilə qeyd edilməsi də H.Əliyevin adı ilə bağlıdır. Onun təşəbbüsü və rəhbərliyi altında MK bürosu 1982-ci il iyul ayının 19-da Azərbaycan operasının 75 illiyi haqqında qərar qəbul etdi[91]. Qərara əsasən opera teatrının maddi-texniki bazası gücləndirildi, tanınmış opera sənətçilərinə fəxri adlar verildi, yeni tamaşalar səhnələşdirildi[92].

Qeyd etmək lazımdır ki, Moskvada işləyərkən H.Əliyev Bakıya gələn zaman tamaşalara getməyi, aktyorlarla görüşməyi də unutmurdu. Məsələn, 1984-cü ildə Bakıda olarkən o, Akademik Milli Dram Teatrda H.Cavidin «İblis» tamaşasına baxmış, tamaşadan sonra aktyorlarla söhbət etmişdı[93].

H.Əliyev Azərbaycanda radio və televiziyanın inkişafına diqqət yetirirdi. O, radio və televiziyanın maddi-texniki bazasını gücləndirir, yubileylərinin qeyd edilməsinə göstəriş verir, əməkdaşlarını dövlət mükafatlarına təqdim edir və s. tədbirlər həyata keçirirdi. MK bürosunun 1970-ci il 7 dekabr tarixli iclas qərarı ilə Azərbaycan SSR Nazirlər Soveti yanında radioverilişləri və televiziya dövlət komitəsi Azərbaycan SSR Nazirlər Soveti yanında televiziya və radio verilişləri komitəsinə çevrildi[94]. Bununla bağlı olaraq respublika Ali Sovetinin müvafiq fərmanı verildi. Komitəyə yeni avadanlıq alındı, ştat tərkibi artırıldı.

Xalqın mədəni inkişafında, maariflənməsində mühüm rol oynamış Azərbaycan radiosunun yubileylərinin keçirilməsinə önəm verən H.Əliyev müvafiq qərarlar qəbul edirdi. MK bürosunun 1976-cı il oktyabr ayının 5-də keçirilmiş iclasında Azərbaycan radiosunun 50 illiyinin keçirilməsi barədə qərar

[91] ARSPİHDA, f. 1, siy. 70, iş 92, pr. №62, § 12.
[92] ARƏİDA, f. 340, siy. 6, bağ. 9, iş 104, v. 1, 33-95; «Kommunist» qəzeti, 1982, 31 iyul, №178 (18112).
[93] Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab, s.44.
[94] ARSPİHDA, f. 1, siy. 57, iş 107, pr. №151, § 9, v. 157.



qəbul olundu[95]. Tədbirlər planı təsdiq edildi. Mətbuatda Azərbaycan radiosunun keçdiyi tarixi yol haqqında yazılar verildi. Bakıda, digər şəhər və rayonlarında geniş bayram tədbirləri keçirildi[96].

H.Əliyev Azərbaycanda televiziyanın inkişaf etdirilməsinə, verilişlərinin əhatə dairəsinin genişləndirilməsinə qayğı göstərir, bundan ötrü göstərişlər verir, müvafiq qərarların qəbuluna nail olurdu. Azərbaycan televiziyasının 25 illik yubileyinin keçirilməsi haqqında MK bürosunun 1981-ci il 16 dekabr tarixli iclasında qərar qəbul edildi[97]. Keçirilən bayram tədbirində H.Əliyev iştirak etdi[98]. Bakıda yerləşən radio-televiziya ötürücüsü respublika əhalisinin tələbatını ödəmədiyindən yeni qüllənin tikintisi üçün layihə H.Əliyevin göstərişinə uyğun olaraq hazırlandı. Az sonra qüllənin tikintisinə başlanıldı.

H.Əliyev Azərbaycan klassik memarlığının bərpasına, tanıdılmasına, nümayəndələrinin adlarının əbədiləşdirilməsinə diqqət yetirir, qərarlar qəbul edir, onlara dövlət mükafatlarını təqdim edirdi. Məlumdur ki, 1920-ci ilin aprelindən əvvəl Azərbaycanda yalnız bir nəfər azərbaycanlı memar var idi. 70-ci illərdə isə artıq respublikada tanınmış memarlar nəsli yetişmişdi.

Azərbaycan KP MK bürosunun 1976-cı il 12 mart tarixli iclasında təkcə Azərbaycanda deyil, bütün Şərqdə tanınmış görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin anadan olmasının 850 illiyini qeyd etmək barədə qərar qəbul olundu. Qərara uyğun olaraq elmi seminar və konfranslar keçirildi, xatirəsini əbədiləşdirmək üçün tədbirlər müəyyənləşdirildi[99]. Sonralar Bakı metrosu stansiyalarından birinə onun adı verildi.

[95] ARSPİHDA, f. 1, siy. 63, iş 86 (88), pr. №20, § 23.
[96] Yusifzadə Q. Yarım əsr efirdə. - «Kommunist» qəzeti, 1977, 29 iyun, №149 (16584) ;30 iyun, №150 (16585).
[97] ARSPİHDA, f. 1, siy. 68, iş 157 (158), pr. №37, § 7.
[98] «Kommunist» qəzeti, 1981, 31 dekabr, №300 (17934).
[99] ARSPİHDA, f. 1, siy. 63, iş 31, pr. №2, § 25.

H.Əliyev memar və heykəltaraşlara dövlətin yüksək mükafatlarını təqdim edirdi. Məsələn, 1982-ci ildə Azərbaycan Dövlət mükafatı alanlar içərisində Ömər Eldarov, Tokay Məmmədov, Mürsəl Nəcəfov kimi görkəmli sənətkarlar var idi[100].

H.Əliyevin hakimiyyəti illərində Azərbaycanda yeni memarlıq abidələri tikildi, paytaxt şəhəri olan Bakının siması dəyişdi, dağılmış tikililərin yerini gözəl memarlıq üslubunda tikilmiş binalar tutdu, parklar salındı. Görülən işlərdən şövqlə danışan H.Əliyev deyirdı: «... respublikanın paytaxtı gözəl Bakı şəhərinin küçə və meydanlarını gəzib... Lenin sarayına, «Gülüstan» şənlik sarayına, görkəmli partiya və dövlət xadimlərinin, böyük yazıçı və şairlərin çoxlu abidəsinə tamaşa etsən, Bakı metropoliteninin yeraltı saraylarına ensən, Azərbaycan memarlarının nailiyyətlərini öz gözlərinlə görüb yəqin edərsən»[101]. O daha sonra deyirdi: «Öz mənbəyini xalq yaradıcılığının, milli memarlığın zəngin xəzinəsindən, əlvan divar rəsmlərindən, ağac və daş üzərində naxışlardan, xalçaçılıq sənətindən, tətbiqi sənət nümunələrindən alan Azərbaycan təsviri sənəti və arxitekturası indi yüksək bədii, professional yetkinlik zirvəsinə çatmış, böyük mənəvi təsir qüvvəsi kəsb etmişdir»[102].

Məşhur sənətkarlar S.Salamzadənin, T.Məmmədovun, Ö.Eldarovun yaratdıqları heykəllər, M.Hüseynov və başqalarının əsərləri Bakını bəzəyirdi. Bütün bunlar memarlığı dərindən bilən və qurub-yaratmaq həvəsi olan H.Əliyevin bilavasitə rəhbərliyi altında baş vermişdi.

H.Əliyev Azərbaycanda rəngkarlıq sənətinin inkişafına diqqət verərək rəssamlara qayğı göstərir, onların iş və məişət şəraitlərini yaxşılaşdırır, yubileylərini keçirir, xatirələrini əbədiləşdirir, fəxri adlarla təltif edir, ölkədə və xaricdə tanınmalarına yardım göstərirdi. H.Əliyev Azərbaycan rəssamlıq sənətində yeni bir məktəb yaradan, milli mədəniyyəti zənginləşdirən Səttar Bəhlulzadə ilə hələ hakimiyyətə gəlməmişdən əvvəl şəxsən tanış idi, onunla görüşür və əlaqələr saxlayırdı. Onun qeyri-adiliyi, yaratdığı möhtəşəm əsərlər H.Əliyevi özünə cəlb etmişdi[103]. Hətta bəziləri Bəhlulzadənin əleyhinə çıxanda H.Əliyev onu müdafiə etmişdi. Hakimiyyətə gəldikdən sonra H.Əliyev rəssama daha yaxından kömək etməyə başladı. Azərbaycan rəhbərinin Sov.İKP MK-ya ünvanladığı məktub əsasında S.Bəhlulzadə 1970-ci ildə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edildi[104]. 1973-cü ildə rəssamın əsərlərindən birinə Dövlət mükafatı verildi. Yaratdığı gözəl əsərləri ilə Azərbaycan mədəniyyətini və incəsənətini dünyaya tanıdan S.Bəhlulzadə vəfat etdikdən sonra MK bürosu 1977-ci il aprel ayının 19-da keçirilən iclasında onun xatirəsini əbədiləşdirmək haqqında qərar qəbul etdi. Qərara əsasən Bakı şəhərində Vaqif küçəsində və Əmircan qəsəbəsində daim fəaliyyətdə olan ekspozisiya yaradıldı, yaşadığı evə xatirə lövhəsi vuruldu, küçələrdən birinə adı verildi[105].

H.Əliyev digər rəssamlara da qayğı göstərirdi. Azərbaycan KP MK bürosunun 1972-ci il 24 noyabr tarixli qərarı ilə T.T.Salahova SSRİ xalq rəssamı fəxri adı verilməsi barədə Sov. İKP MK-ya ünvanlanan rəsmi müraciəti H.Əliyev imzaladı və istəyinə nail oldu[106].

H.Əliyev görkəmli karikaturaçı rəssam Əzim Əzimzadənin anadan olmasının 100 illiyinin keçirilməsi barədə göstəriş verdi və tədbirlər yüksək səviyyədə keçirildi[107].

Azərbaycan rəhbəri eyni zamanda tanınmış rəssamlar M.Abdullayevə, T.Nərimanbəyova, M.Rəhmanzadəyə və onlarla başqalarına qayğı və diqqət göstərirdi.

---

[100] ARSPİHDA, f. 1, siy, 70, iş 56, v. 25.
[101] Əliyev H. Ə. Sovet Azərbaycanı, s. 94.
[102] Yenə orada.



[103] Əliyev H. Müstəqilliyimiz əbədidir.·Üçüncü kitab, s. 43.
[104] «Kommunist» qəzeti, 1970, 10 yanvar, №7 (14308)
[105] ARSPİHDA, f. 1, siy. 64, iş 32, pr. №35, § 23, v. 19.
[106] ARSPİHDA, f. 1, siy. 59, iş 92 (94), pr. №54, § 16.
[107] Abdullayev M. XX əsr Şərqinin böyük satira ustası. - «Kommunist» qəzeti, 1980, 27 sentyabr, №223 (17559).

Azərbaycan rəssamlarına hörmət və ehtiram əlaməti olaraq H.Əliyev onların qurultaylarında iştirak edir, ünsiyyət qurur, problemlərini öyrənir və çox vaxt həmin problemləri yerindəcə həll edirdi. 1982-ci ildə keçirilən Azərbaycan rəssamlarının IX qurultayında H.Əliyevin iştirakı rəssamlıq sənətinə qayğısının nümunəsi idi[108].

H.Əliyev Azərbaycan rəssamlıq sənətini tanıtmaq, inkişaf etdirmək və əlaqələrini genişləndirmək məqsədilə ölkə rəssamlarının toplantılarını imkan yarandıqda Bakıda keçirirdi. Məsələn, 1981-ci ildə SSRİ Rəssamlıq Akademiyasının qurultayı Moskvada deyil, Bakıda keçirildi. H.Əliyev qurultay nümayəndələri qarşısında parlaq nitq söylədi. Bu nitq onun rəssamlıq sənətinin mövcud vəziyyətini, inkişaf yollarını dərindən bildiyini göstərirdi. Heç əbəs deyil ki, bir müddət sonra H.Əliyev Moskvada olarkən SSRİ Memarlar İttifaqının sədri ondan xahiş etmişdi ki, memarların da qurultayında iştirak edib nitq söyləsin.

H.Əliyev incəsənət sahəsində kadrlar hazırlayan ali və orta ixtisas məktəblərinin fəaliyyətinə xüsusi diqqət yetirir, onların maddi-texniki bazasını gücləndirir, qədim el sənətlərini bərpa və inkişaf etdirmək üçün mütəxəssis hazırlığına ciddi fikir verirdi. Onun bilavasitə göstərişi ilə Azərbaycan Dövlət İncəsənət institutunda bədii parça, xalçaçılıq, teatr-dekorativ sənət sahələrində mütəxəssislər, sənətşünaslar hazırlayan şöbələr açıldı[109]. H.Əliyevin bu sahədəki fəaliyyəti qətiyyətli, prinsipial və ardıcıl idi. Məsələn, 1977-ci il iyun ayının 6-da MK bürosunun iclasında M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət institutunun işində ciddi nöqsanlar haqqında məsələ müzakirə edilərək müvafiq qərar qəbul edildi[110]. Qərardan sonra institutun fəaliyyəti yaxşılaşdırıldı, nöqsanlar düzəldildi, kadr hazırlığı gücləndirildi[111].

---

[108] «Kommunist» qəzeti, 1982, 10 oktyabr, №235 (18169).

[109] Azərbaycan rəssamlarının VIII qurultayı. - «Kommunist» qəzeti, 1977, 12 mart, №59 (16494).

[110] ARSPİHDA, f. 1, siy. 64, iş 43, pr. №38, § 6.

[111] «Kommunist» qəzeti, 1977, 6 iyul, №155 (16590).



H.Əliyevin rəhbərliyi altında MK bürosu 1980-ci il yanvar ayının 25-də Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinin 60 illiyinin qeyd olunması haqqında qərar qəbul etdi[112]. Qərar yerinə yetirildi, məktəbin maddi-texniki bazası gücləndirildi, rəssamların iş şəraiti yaxşılaşdırıldı. Bundan sonra respublikanın orta məktəblərində rəssamlığa olan maraq daha da artdı.

Moskvada işlərkən də H.Əliyev Azərbaycan incəsənətinə olan diqqət və qayğısını əsirgəmirdi. O, görkəmli azərbaycanlı incəsənət xadimlərini qəbul edir, onlara qayğı göstərir, problemlərini həll edir, tövsiyələrini verir, daha gözəl əsərlər yaratmağa ruhlandırırdı.

* * *

Beləliklə, Azərbaycan incəsənəti sovet hakimiyyəti illərində ilk dəfə olaraq ən yuksək inkişaf mərhələsinə məhz Heydər Əliyevin hakimiyyəti illərində, onun həyata keçirdiyi tədbirlər nəticəsində çatdı. 70-ci illər-80-ci illərin ortaları sovet dövründə Azərbaycan incəsənətinin tərəqqisi illəridir. H.Əliyevin bilavasitə səyləri və qayğısı nəticəsində Azərbaycan musiqisi, teatrı, kinosu, rəssamlığı, memarlığı, radio və teatrı inkişaf etdi. Həmin illərdə Azərbaycan musiqi sənəti klassiklərinin xatirələri əbədiləşdirilir, ən parlaq nümayəndələrinə dövlətin orden və medalları, fəxri adlar verilir, mənzil və yaradıcılıq şəraitləri yaxşılaşdırılır, əsərləri ölkə və xarici dövlətlərin səhnələrində oynanılır, xalq musiqisi və folklor dirçəldilir, bədii özfəaliyyət kollektivlərinin fəaliyyəti gücləndirilir, aşıq musiqisinin inkişafına diqqət verilirdi. Bəstəkarların qurultaylarında iştirak edən H.Əliyev onların problemlərini yerindəcə həll edirdi. O, Azərbaycanda kino sənətinin inkişafına xüsusi önəm verir, kinostudiyanın maddi-texniki bazasını möhkəmləndirir, milli tarixlə bağlı ən yaxşı bədii

---

[112] ARSPİHDA, f. 1, siy. 67, iş 23, pr. №127, § 22.

filmlərin çəkilişini tövsiyə edir, aktyorları dövlətin ali mükafatlarına və fəxri adlara təqdim edir, Azərbaycan kinosunun yubileyini keçirir, teatrın inkişafına başlıca diqqət yetirir, teatr xadimlərinin, milli teatrın və digər teatrların yubileylərini keçirir, onlara fəxri adların, dövlətin orden və medallarının verilməsinə nail olur, milli tarixlə bağlı əsərlərin səhnələşdirilməsini tövsiyə edirdi. Azərbaycan incəsənət xadimlərinə isti münasibət bəslənilməsi azadlıq ideyalarını yayan, milli özünüdərki, özünə inamı gücləndirən əsərlərin yaranmasına kömək edirdi. H.Əliyev onları xalqın tarixinə, gerçək həyatına nüfuz etməyə səsləyir, gözəl əsərlər yaratmağa ruhlandırırdı. H.Əliyevin hakimiyyəti illərində Bakının siması yeni memarlıq binalarının tikilməsi ilə dəyişdi, onlarla yeni memarlıq abidələri, heykəllər tikildi, Azərbaycan memarları məşhurlaşdı, rəssamlıq sənəti inkişaf etdi, sənətkarlar dövlətin ən yüksək mükafatlarını aldılar, radio və televiziya inkişaf etdirildi. Bütün bunlar heç şübhəsiz, Azərbaycan xalqında milli hissləri, milli özünüdərki və özünə inamı gücləndirirdi.



# VII FƏSİL

## ANA DİLİNƏ QAYĞI

Ölkədə güclü ruslaşdırma və milli dillərin sıxışdırılması siyasətinin yeridildiyi bir zamanda H.Əliyevin fəaliyyətində ana dilinə – Azərbaycan dilinə qayğı xüsusi yer tuturdu. Xalqın milli-mənəvi dəyərlərinin yaşadılması və inkişaf etdirilməsində ana dilinin müstəsna rol oynadığını başa düşən, onu bilməyənləri şikəst sayan Azərbaycan rəhbərinin fəaliyyəti, bu məsələyə münasibəti əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilirdi: Azərbaycan dilinin dövlət dili statusunu qoruyur, zənginləşdirməkdən ötrü şərait yaradır, saflığını mühafizə edir, dilçi alimlərə qayğı göstərir, ana dilində dərslik, dərs vəsaiti və kitabların nəşrini genişləndirmək üçün imkan yaradır, Azərbaycan dilinə həsr olunmuş kitablara dövlət mükafatları verirdi və s.

Sovet hakimiyyəti illərində, xüsusən 20-ci, 30-cu, 40-cı, 50-ci, hətta 60-cı illərdə əhalisinin əksəriyyətinin azərbaycanlılardan ibarət olmasına baxmayaraq, respublikada Azərbaycan dili hakim bir dil deyildi. Üstünlük rus dilinə məxsus idi. Azərbaycan dilinin inkişaf etdirilməsi və zənginləşdirilməsi üçün dövlət tərəfindən lazımi işlər görülmürdü. Qeyd etmək lazımdır ki, hökumətin laqeyd münasibət bəsləməsinə baxmayaraq, Azərbaycan alimləri, yazıçıları və şairləri başlarını aşağı salıb sakitcə öz işlərini görürdülər. Bu sahənin adamları ilə hakimiyyət arasında uçurum yaranmışdı. Onların əməyinə qiymət verilmirdi. Ana dilinə dair aparılan tədqiqatlara ikinci dərəcəli baxılırdı. Bəzən heç xatırlanmırdı da. Bütün sovet dövrü ərzində yalnız 60-cı illərin sonundan

etibarən Azərbaycanın dilçi alimləri respublikanın yeni rəhbərinin dəstəyini alaraq rahat işləməyə başladılar. Məhz bu vaxtdan Azərbaycan dilinə həsr edilmiş tədqiqatların sayı artmağa başladı. Lakin heç də hər şey rəvan getmirdi. Mərkəz tərəfindən milli dillərin inkişafı qarşısında çoxlu əngəllər törədilir, rus dilinin rolu gücləndirilir, fəal ruslaşdırma siyasəti həyata keçirilirdi.

70-ci illərin ortalarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında milli dil məsələsi yenidən müzakirə obyektinə çevrildi. 1977-ci ildə Oktyabr inqilabının 60-cı ildönümündə SSRİ Konstitusiyasının qəbulundan sonra rus dilinin hüquqlarının daha da genişləndirilməsi, milli dillərin tədricən sıxışdırılması gücləndirildi. «Vahid sovet xalqı», «vahid dil» siyasəti nəinki geniş təbliğ olunmağa, hətta güclü şəkildə tətbiq edilməyə başlandı. Kommunist ideologiyasının hakim olduğu bir şəraitdə dil məsələsi əslində xalqların və milli respublikaların rəhbərlərindən ötrü bir tale məsələsi idi. Əvvəlki illərin təcrübəsi göstərirdi ki, bir çox siyasi xadimlər üçün bu problem faciə ilə nəticələnmiş və onlara millətçi damğası vurulmuşdu. Bütün bunlara baxmayaraq, H.Əliyev dil məsələsində mövqeyini hələ Azərbaycan Konstitusiyası hazırlanmazdan əvvəl, SSRİ Konstitusiyası barədə cəsarətlə söylədiyi fikirlərində bildirmişdi. O, SSRİ Konstitusiyası haqqında danışarkən xüsusi vurğulayırdı ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur[1]. Belə mövqe əslində dil məsələsi ilə bağlı gözlənilən təhlükənin qarşısını almaq, çətin şəraitdə ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü.

SSRİ Konstitusiyası qəbul edildikdən sonra müttəfiq respublikaların Konstitusiya layihəsi dərc olunaraq ümumxalq müzakirəsinə verildi. Heç şübhəsiz, daha çox sovet rəhbərliyinin hökmü və göstərişi ilə hazırlanmış bu layihələrdə milli dillər haqqında heç bir şey deyilmir və müttəfiq

[1] «Kommunist» qəzeti, 1977, 14 mart, № 64 (16679).



respublikaların hüquqları məhdudlaşdırılırdı. Məsələn, Ukrayna kimi böyük bir respublikada faktiki olaraq iflic hala salınan ukrayn dili ikinci dərəcəli funksiya daşıyırdı.

Qeyd etmək lazımdır ki, Azərbaycanın hələ 1921-ci ildə qəbul edilmiş Konstitusiyasına dövlət dili haqqında heç bir maddə salınmamışdı. 1937-ci ildə qəbul edilmiş Azərbaycan Konstitusiyasının layihəsində nəzərdə tutulmuşdu ki, Azərbaycanda dövlət dili türk dilidir. Lakin sovet rəhbərləri Azərbaycan başçılarını Moskvaya çağırdıqdan sonra bu maddə layihədən nəinki tamamilə çıxarılmış, hətta unutdurulmuşdu. Beləliklə, bu Konstitusiyaya da dövlət dili haqqında heç bir maddə daxil edilməmişdi.

Stalinin ölümündən sonra ölkədəki inzibati-amirlik sistemində baş verən yumşalma öz təsirini dil məsələsinə də göstərdi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti heç şübhəsiz, Moskvanın razılığı ilə 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya əlavə edərək Azərbaycanda dövlət dilinin Azərbaycan dili olması haqqında maddəni daxil etdi.

Azərbaycan SSR Ali Sovetinin 1956-cı il 21 avqust tarixli iclasında qəbul etdiyi respublika Konstitusiyasının 128-ci maddəsində deyilirdi ki, Azərbaycan SSR vətəndaşları təhsil hüququna malikdirlər, bu hüquq ana dilində icbari yeddillik təhsil almaq, orta təhsilin geniş inkişafı, təhsilin bütün növlərinin, o cümlədən orta və ali təhsilin pulsuz olması ilə təmin edilir[2]. Elə həmin gün Ali Sovet «Azərbaycan SSR Konstitusiyasına (əsas qanununa) Azərbaycan SSR-in dövlət dili haqqında maddənin əlavə edilməsi barədə qanun» qəbul etdi. Bu qanun əsasında Konstitusiyanın 151-ci maddəsi belə yazıldı: «Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir». Azərbaycan SSR ərazisində məskunlaşan

[2] Азербайджанская ССР. Верховный Совет. Созыв 4-й, сессия 53-я. Стенографический отчет. Баку, 1956, с.154; Закон о дополнении Конституции (Основного Закона) Азербайджанской ССР статьей о Государственном языке Азербайджанской ССР. – Газ. «Бакинский рабочий», 1956, 24 августа, №198 (10756).

milli azlıqlara öz ana dillərindən mədəniyyət və dövlət müəssisələrində sərbəst istifadə etmək və onu inkişaf etdirmək hüququ verilirdi[3]. Eyni zamanda Konstitusiyanın on üçüncü fəsli «Dövlət dili, gerb, bayraq, paytaxt» adlandırıldı.

Bundan sonra iclaslar tərkibində müxtəlif xalqların nümayəndələrinin iştirakı nəzərə alınmadan yalnız Azərbaycan dilində aparılırdı. Azərbaycan rəhbərləri ana dilindən daha geniş istifadə etməyə başlamışdılar. Respublikada millətçilik əhval-ruhiyyəsi, hay-küy güclənmişdi. Belə vəziyyət isə Moskvanı narahat edirdi. O vaxt bu maddə qəbul edilərkən respublikada müəyyən mübahisələr də yaranmışdı. Müvafiq maddənin qəbul edilməsindən sonra həyata keçirilən gurultulu tədbirlər cəmiyyətdə narahatlıq yaradır, narazılıqlar doğururdu. Respublikada çətin vəziyyət yaranmışdı. Çünki bu maddə qəbul edilən kimi bəzi adamlar özlərini yersiz yerə vətənpərvər və millətsevər kimi göstərməyə başlamışdılar. Bütün idarə və təşkilatlarda yazışmaların ancaq Azərbaycan dilində aparılması barədə göstərişlər verilmişdi. Makinalar dəyişdirilirdi. Lakin gerçəklik bundan ibarət idi ki, o zaman Azərbaycan KP MK katibliyində və kargüzarlıq işlərində rus dili üstünlük təşkil edirdi. İşçilərin çoxu da rus dilli adamlar idi. Onlar ya rusdilli azərbaycanlı, ya rus, erməni və ya yerli olmayan digər xalqların nümayəndələri idi. Azərbaycan dilini bilmyən bəzi şəxslər hətta işdən azad edilmişdilər. Bütün bunlar Azərbaycanda ciddi narazılığa səbəb olmuşdu. O zaman Azərbaycanda bəzi şəxslər belə hesab edirdilər ki, artıq 20-ci illər deyil, ona görə də qeyri azərbaycanlı kadrları dəyişmək lazımdır. Sovet rəhbərliyinin göstərişi əsasında tərtib edilən arayışdan aydın olur ki, yazıçı, Azərbaycan SSR Ali Soveti rəyasət heyətinin sədri Mirzə İbrahimov demişdi: «Qoy ruslar bizim 35 il əvvəl xəstəlik tarixi vərəqini rus dilində yazdığımız vəziyyətə düşsünlər»[4]. Azərbaycan KP MK-nın birinci katibi İmam Mustafayev Azərbaycan Dövlət

[3] Yenə orada.

[4] РГАНИ, ф.3, оп.12, д.997, л.1-69.



Universitetində etdiyi nitqində guya demişdi ki, birdən-birə adamları Azərbaycan dilində öyrətmək olmaz, onları işə düzəldib, tədricən dəyişmək lazımdır.

Nəticədə Azərbaycana düşmən münasibət bəsləyən qüvvələr yaranmış bu vəziyyətdən istifadə etdilər. Belə şəraitdə ölkə rəhbərliyi qəti addımlar atdı. M.Ə.İbrahimovun işdən azad edilməsi haqqında ərizəsinə baxan Azərbaycan SSR Ali Soveti onu «ədəbi yaradıcılığına şərait yaratmaq məqsədi ilə» rəyasət heyətinin sədri vəzifəsindən çıxardı[5]. Sov.İKP MK rəyasət heyətinin 1959-cu il iyul ayının 1-də «Şişkin yoldaşın Azərbaycan partiya təşkilatının işinin yoxlanılması nəticələri haqqında «İnformasiyası»»nın müzakirəsi zamanı ölkə başçısı N.S.Xruşşov bildirirdi ki, bu ilin əhalinin siyahıyaalınmasına görə Bakıda yaşayan 968 min nəfərin 36,9%-i azərbaycanlı, 63%-i isə qeyri azərbaycanlıdır. Bunun da 600 mini ruslar, ermənilər, ukraynlar, beloruslar və başqa xalqların nümayəndələridir[6]. Xruşşov deyrdi: «Azərbaycanın dövlət dili haqqında məsələ aydın deyil. Mən, məsələn, düşünürəm ki, Azərbaycanda dövlət dilinin Azərbaycan dili hesablanması haqqında qərar doğrudur. Ona görə ki, bu, Azərbaycandır, Azərbaycan respublikasıdır və dövlət dili Azərbaycan dili, yerli əhalinin dili olmalıdır. Lakin sadəcə demək azdır ki, Azərbaycan dili dövlət dilidir və Bakıda 63% təşkil edən digər millətləri inkar etməyək. Düşünmək lazımdır ki, kargüzarlığı necə aparmaq lazımdır, dil hansı olmalıdır[7]. Xruşşov müzakirənin gedişində Azərbaycan rəhbərliyində niyə görə erməninin və rusun təmsil olunmadığını inadla soruşur və bunu ciddi nöqsan hesab edirdi[8].

Rəyasət heyətinin iclası növbəti gün də davam etdirildi. Sov.İKP MK rəyasət heyətinin 1959-cu il 2 iyul tarixli iclasında (protokol №226[a]) 34-cü məsələ kimi «Azərbaycana

[5] Газ. «Бакинский рабочий», 1958, 24 января, №21 (11187).

[6] РГАНИ, ф.3, оп.12, д.997, л.1-69.

[7] Yenə orada.

[8] Yenə orada.

dair məsələlər»in müzakirəsi keçirildi. İclasda Kiriçenko, Voroşilov, İqnatov, Kuusinen, Mikoyan, Furçeva, Xruşşov, Muhitdinov, Pospelov, Korotenko, Kirilenko, Kosıgin, Polyanski iştirak edirdilər. Məsələ barəsində Kiriçenko, Xruşşov, İqnatov, Mustafayev, Polyanski, Kuusinen, Orucov, Axundov, Yakovlev, Furçeva və Mikoyan çıxış etdilər. Xruşşov bu məsələ ilə bağlı iki dəfə danışır[9]. Müzakirələrin nəticəsində belə bir qərar qəbul edilir: «Mustafayev yaramır, ümidləri doğrultmadı, işi bacarmadı. Milli məsələni qabartmamaq (vurğulamamaq). Ona yeni iş verilsin. Mühitdinovu Azərbaycanı yoxlayan yoldaşlarla birlikdə Azərbaycan KP MK plenumuna göndərmək. Tarix məsələləri üzrə: Şaumyanın rolunu azaltmamaq, Nərimanovun rolunu şişirtməmək, onları qarşı-qarşıya qoymamaq».

Qərarda daha sonra deyilirdi: «Qətnamə qəbul edilməsin ki, özləri qərar qəbul etsinlər»[10].

Göründüyü kimi, dil məsələsi Moskvada narahatlıqla qarşılansa da, ağır nəticələri ola biləcəyindən sovet rəhbərləri milli məsələni qabartmamaq qərarına gəlmişdi. Moskva eyni zamanda İ.Mustafayev haqqında necə qərarın qəbul edilməsi barədə qeyri-rəsmi göstəriş verərək məsuliyyəti respublika partiya təşkilatının üstünə qoydu. Azərbaycan KP MK-nın 1959-cu il iyul ayının 8-9-da keçirilən plenumu İ.D.Mustafayev yoldaşın respublika partiya təşkilatlarında işlərin vəziyyəti, Azərbaycan KP MK bürosunun və MK-nın birinci katibi işində ciddi nöqsanları və səhvləri haqqında məsələni müzakirə etdi. İ.D.Mustafayev vəzifəsindən azad edildi və bundan sonra elmi işlə məşğul olmağa başladı[11]. Plenumda bir sıra yazıçı, rəssam və bəstəkarların yaradıcılığında keçmişin bəzi təzahürlərinin ideallaşdırılması nöqsan

[9] РГАНИ, ф.3, оп.12, д.1010, л.28-28об.
[10] Yenə orada.
[11] Архива Кремля, с.1057; Пленум Центрального Комитета Компартии Азербайджана. – Газ. «Бакинский рабочий», 1959, 11 июля, №161 (11634).



olaraq göstərilirdi. Bəzi azərbaycanlı xadimlərin rolunun tarixi əsərlərdə qeyri-obyektiv işıqlandırıldığı qeyd olunurdu. Həmin xadimlərin adı çəkilməsə də, söhbətin Nəriman Nərimanovdan getdiyi aydın idi. Əvvəlcədən qeyd edək ki, gözüm-çıxdıya salınan İ.Mustafayevi H.Əliyev hakimiyyətə gəldikdən sonra elmi-tədqiqat institutunun rəhbəri vəzifəsində işlətdi, M.İbrahimovu isə Asiya və Afrika xalqları ilə sovet həmrəylik komitəsinin sədri seçdirdi. Onların üzərinə olan hücumların qarşısını aldı. Mərkəzin qəbul etdiyi qərardan sonra dil məsələsi ətrafında yaranmış gərginlik bir qədər sakitləşdi. Bununla belə, ölkə rəhbərliyinin Azərbaycana olan inamı xeyli azalmışdı.

70-ci illərdə dil məsələsinin yenidən gündəliyə gəlməsi ilə çoxlu problemlər yarandı. Azərbaycanda yeni Konstitusiyanı hazırlayan komissiyanın sədri H.Əliyev idi. MK bürosunun 1978-ci il 14 mart tarixli iclasında onun sədrliyi ilə Azərbaycan Konstitusiyası haqqında məsələ müzakirə edildi[12]. Müzakirə zamanı çıxış edən H.Əliyev mövqeyini yenidən aydın şəkildə ortaya qoydu. Öz nitqində 1922-ci ildə respublikaların birləşdirilməsi məsələsini xüsusi vurğulayan H.Əliyev birmənalı olaraq qeyd edirdi ki, bunu əsaslandırmaq lazımdır, aydın olsun, respublikalar niyə birləşmişlər. O daha sonra davam edərək bildirirdi ki, yeri gəlmişkən, bu əsaslandırma 1922-ci ildə imzalanmış sənəddən götürülmüşdür[13].

Azərbaycan rəhbərinin nitqi əslində məsələyə yanaşmanın prinsipial hüquqi, siyasi tərəflərini bütün cəhətləri ilə əks etdirirdi. Sovet sisteminin mahiyyətini dərindən bilən H.Əliyev ikinci, üçüncü dərəcəli deyil, ən başlıca məsələ olan SSRİ-nin yaradılmasının təməl prinsiplərini xatırladır, müttəfiq respublikanın hüquqlarının və milli dilin məhdudlaşdırılmasının, bu sahədə buraxılan səhvlərin ağır nəticələnəcəyini öncədən deyirdi. Belə mövqe əslində Moskva-

[12] ARSPİHDA, f. 1, siy. 65, iş 40 (42), pr. № 64, § 1.
[13] Yenə orada, v. 100.

nın istəklərinin əleyhinə getmək demək idi. H.Əliyev nitqində SSRİ-nin yaradılması haqqında müqaviləyə əməl edilməsinin zəruriliyini xatırladırdı.

Ondan fərqli olaraq məsələnin müzakirəsi zamanı Azərbaycan KP MK-nın ikinci katibi Y.P.Puqaçov RSFSR Konstitusiyasının layihəsini əsas götürməyi təklif edirdi[14].

Layihə ümumxalq müzakirəsinə verildi. Təbii ki, Konstitusiya layihəsində Azərbaycan dilinin hansı status daşıması məsələsi öz əksini tapmamışdı. Beləliklə, ilk mərhələdə sovet rəhbərliyi öz istəyinə çatmışdı. Dil məsələsinin layihəyə salınmamasında Moskvanın başlıca məqsədi milli dili sıxışdırmaq və rus dilinin tam hökmranlığını bərqərar etmək idi. Heç şübhəsiz, bu məsələdə respublika rəhbərliyinin etibarlılığını üzə çıxarmaq və yerli əhalinin əhval-ruhiyyəsini öyrənmək niyyətləri də güdülürdü. Belə vəziyyətdə dil məsələsində Moskvanın iradəsinin əleyhinə getmək yüksək vəzifələrdə işləyən şəxslər, xüsusən türk, müsəlman respublikasının rəhbəri üçün təkcə karyeranın məhvi və şəxsi talenin faciəli qurtarması deyil, bütövlükdə, xalqın taleyi məsələsi idi. Yaranmış şəraitdən minimum itki ilə çıxmaq üçün böyük məharət tələb olunurdu.

Ümumxalq müzakirəsinə verilən Azərbaycan Konstitusiyası layihəsinin 73-cü maddəsində yazılmışdı: «SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburidir»[15]. Bu maddə ilə əslində SSRİ-nin yaradılmasının hüquqi-siyasi əsasları birbaşa təftiş edilir, dövlətin quruluşu federativ olsa da, unitar dövlətin yaradılmasına doğru addım atılır, Azərbaycan hökumətinin hüquqları əlindən alınırdı.

Formalaşmış ənənəyə görə Azərbaycan Konstitusiyası layihəsinin geniş ümumxalq müzakirəsi keçirildi. Qeyd etmək lazımdır ki, bu zaman ölkədə əhalinin iştirakı ilə keçirilən müzakirələr adətən formal xarakter daşıyırdı. Bunun la belə, əhalinin geniş təbəqələri layihənin müzakirəsində iştirak

[14] Yenə orada, v. 96.
[15] Yenə orada.



edərək öz münasibətlərini bildirdilər. Milli ruhlu ziyalılar və tələbələr layihəyə Azərbaycan dilinin salınmamasından narazılıq etməyə başladılar. Həmin dövrdə MK-nın ideologiya katibi işləmiş R.Məmmədzadə nəql edir ki, yaranmış belə bir vəziyyətdə H.Əliyev ona Sov.İKP MK-nın müvafiq sahəyə məsul olan katibi ilə danışmağı tapşırır. Göstərişə əməl edən MK katibi Kremlə telefon açıb məsələni qaldıraraq bildirir ki, Konstitusiya layihəsinə Azərbaycan dilinin dövlət dili kimi salınmasını həll etmək lazımdır. Lakin Sov.İKP MK katibi bu məsələnin həllində səlahiyyət sahibi olmadığını söyləyir. MK katibi telefon danışığının nəticəsi barədə H.Əliyevə məruzə edir. Bundan sonra H.Əliyev sovet rəhbərləri ilə danışıqlar aparmağa başlayır. Bu zaman Moskvadakı rəhbər xadimlər Azərbaycan dilinin Konstitusiyaya salınmasına müxtəlif motivlərə əsaslanaraq etiraz edirdilər. Onların bir qismi deyirdi ki, SSRİ Konstitusiyasında dövlət dili haqqında maddə olmadığı üçün Azərbaycan Konstitusiyasına belə maddənin salınması artıqdır. Hətta bəzi müttəfiq respublikaların başçıları da dil məsələsində Azərbaycan rəhbərinin mövqeyinə etiraz edirdilər. Məsələn, Ukrayna KP MK-nın birinci katibi Şerbitski H.Əliyevə qarşı çıxaraq deyirdi ki, Siz Konstitusiyanıza belə bir maddə yazdıqda gərək biz də dövlət dili haqqında maddə əlavə edək. H.Əliyev isə ona bildirir ki, sizə heç kim mane olmur, böyük respublikasınız, ölkədə sizin xüsusi çəkiniz vardır, istəsəniz yaza bilərsiniz, kimsə sizə mane olmaz. Çox ağır vəziyyət yaranmışdı. Belə olduqda H.Əliyev sovet rəhbəri L.İ.Brejnevlə danışaraq vəziyyəti bütün tərəfləri ilə geniş və dərin məntiqlə izah edib, Azərbaycan dilinin dövlət dili statusunun Konstitusiyaya salınması məsələsini birdəfəlik həll edir. Yeri gəlmişkən, şahidlərin dediyinə görə, bu məsələdə H.Əliyev Gürcüstan rəhbəri E.Şevardnadzeyə də öz tövsiyələrini vermişdi.

Brejnevlə danışığında H.Əliyev təkcə ana dili məsələsinin taleyini uğurla həll etmədi, eyni zamanda layihədəki 73-cü maddənin ləğvinə nail oldu. Bu isə heç şübhəsiz, Azərbaycan rəhbərinin xalqı qarşısında tarixi xidməti idi.

Bundan sonra Konstitusiya layihəsinin ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş iclas keçirildi. Həmin iclasda etdiyi məruzəsində H.Əliyev birmənalı şəkildə bildirirdi: «73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunur: «Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir» [16]. Əslində, bu, yeni redaksiya deyil, Konstitusiyaya tamamilə yeni bir maddənin salınması demək idi. Bununla sovet sistemi şəraitində SSRİ qanunlarının Azərbaycan ərazisində məcburi olmasına dair maddə ləğv edilirdi. Nəticədə Konstitusiya layihəsi H.Əliyevin təklif etdiyi redaksiyada qəbul olundu. Onun sayəsində Konstitusiyanın 73-cü maddəsində Azərbaycan SSR-də dövlət dili olaraq Azərbaycan dili təsbit edildi[17]. Qeyd etmək lazımdır ki, sovet respublikaları içərisində yalnız Azərbaycan, Gürcüstan və Ermənistanın konstitusiyalarına dövlət dili haqqında maddə daxil edildi.

Azərbaycan dilinə dövlət dili statusunun verilməsi H.Əliyevin xalq qarşısında şəxsi, tarixi xidməti olub, gələcək müstəqil dövlətçiliyin mühüm atributlarından birini məharətlə qoruduğunu göstərirdi. Bu məsələdə heç şübhəsiz, SSRİ rəhbərliyinin yaranmış vəziyyəti düzgün qiymətləndirməsi, beynəlxalq şəraitin əlverişli olması, xarici ideolji-siyasi təzyiqlər də öz təsirini etmişdi.

H.Əliyevlə L.Brejnev arasında olan yaxşı münasibətlər, sovet dövlət başçısının Azərbaycan rəhbərinə etimad bəsləməsi də məsələnin uğurla həll olunmasında rol oynadı. Sovet tarixi üzrə amerikan tədqiqatçısı C.Dornberq bununla əlaqədar olaraq yazır ki, Brejnev H.Əliyevə inanır və onu himayə edirdi[18].

[16] Əliyev H.Ə. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (əsas qanunu) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında. – «Kommunist» qəzeti, 1978, 21 aprel, № 94 (16834).

[17] Azərbaycan SSR Konstitusiyası (əsas qanunu). – «Kommunist» qəzeti, 1978, 23 aprel, № 96 (16836).

[18] Dornberg J. Brezhnev. The Masks of Power. New York, Basic Books inc., Publishers, p. 255.



Dil məsələsi ətrafında yaranmış vəziyyət xarici ölkələrin Azərbaycan üzrə mütəxəssislərinin də diqqətindən yayınmamışdı. Tarixçilər sovet rəhbərlərinin bu problemə münasibətdə tutduğu mövqenin mahiyyətini araşdıraraq onu ölkədə yeridilən ruslaşdırma siyasəti ilə əlaqələndirirdilər. Məsələn, görkəmli ABŞ tarixçisi F.Kazımzadənin yazdığına görə Moskvada belə hesab edirdilər ki, Transqafqaz xalqları öz tarixləri və mədəniyyətləri ilə çox məşğul olurlar. Ona görə də mərkəz ruslaşdırmaya daha geniş yer verməyə başladı. Bu, respublikaların Konstitusiyası qəbul edilərkən özünü göstərdi. Respublikaların 1978-ci ildə qəbul edilən Konstitusiya layihəsi yalnız üç respublikada çap edildi. Layihə milli dilin dövlət dili olmasını rədd edirdi. Bu isə əhali tərəfindən dəyişiklik və milli dilin rus dili ilə əvəz edilməsi kimi qiymətləndirildi. Bakıda etiraz aksiyaları ucaldı. Hökumət etiraz aksiyalarını yatırmaq üçün layihədə dəyişiklik etdi. Konstitusiyanın son mətni dərc olunanda milli dil dovlət dili kimi qəbul edildi[19].

Əlbəttə, H.Əliyevin ana dili məsələsində prinsipial, qəti və barışmaz mövqe tutması rus dilinin əleyhinə getməsi demək deyildi. O yaxşı başa düşürdü ki, Sovet İttifaqı xalqlarının elmi, mədəni tərəqqisi, dünyaya çıxışı əsasən rus dili vasitəsilə həyata keçirilir və onun köməyilə mümkündür. Dünyanın ən son elmi və mədəni nailiyyətləri ölkədə məhz ilk olaraq rus dilinə, sonra isə milli dillərə çevrilirdi. Buna görə də H.Əliyev azərbaycanlıların ikinci dil kimi rus dilini mükəmməl bilmələrinin qəti tərəfdarı olaraq çıxış edirdi. O, azərbaycanlıların Azərbaycan dili çərçivəsində məhdudlaşıb qalmasının əleyhinə idi.

Eyni zamanda Moskva rus dilinin geniş yayılmasından

[19] Kazemzadeh F. The Caucasus region and relations with the central covernment. Prepared for the conference on the Soviet Caucasus co-sponsored by the U.S. International Communication Agency and the Kennan Institute for advanced Russian Studies. № 60, Washington DC, The Wilson Center, may 15, 1979, p. 10.

ötrü sərt qərarlar qəbul edirdi. Ona müqavimət göstərmək də ziyanlı olardı. Məsələn, Sov.İKP MK 1978-ci il avqust ayının 29-da «Müttəfiq respublikalarda rus dilinin öyrədilməsi və tədrisinin daha da təkmilləşdirilməsi haqqında» st-122/1 s №-li qərar qəbul etmişdi[20]. Bu zaman SSRİ-də 45 xalqın dilində təhsil aparılırdı. Qərarda əhalinin rus dilinə yiyələnməsinin qənaətbəxş olmadığı, müəllimlərin çatışmadığı qeyd edilir, müttəfiq respublikaların kommunist partiyalarına bu məsələyə xüsusi diqqət yetirmək tövsiyə olunurdu. Hətta qərarın 11-ci maddəsində deyilirdi ki, hərbi xidmətə çağırılan, lakin rus dilini zəif bilən şəxslər 2-3 ay dil kursu keçməlidir[21].

H.Əliyevin ana dilinə münasibətində Azərbaycan ədəbi dilinin saflığının qorunması və inkişaf etdirilməsi xüsusi yer tuturdu. O, ana dilinin saflığına calışaraq bunu alim, şair, yazıçılardan, bütövlükdə, ziyalılardan qətiyyətlə tələb edirdi. Azərbaycanın kommunist rəhbəri hətta rəsmi toplantılarda bu məsələ barədə öz prinsipial, qəti mövqeyini açıq-aydın, birbaşa bildirirdi. Məsələn, Azərbaycan yazıçılarının VII qurultayındakı nitqində H.Əliyev ana dili haqqında gurultulu səslə, çəkinmədən deyirdi: «Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir»[22]. «...Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək

[20] РГАНИ, ф.89, оп.23, д.13, л.1-6.

[21] Yenə orada, v.5.

[22] Azərbaycan yazıçılarının VII qurultayında H.Ə.Əliyevin nitqi – «Kommunist» qəzeti, 1981, 14 iyun, № 139 (17773).



lazımdır... Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə gaim qayğı göstərilməlidir. Dilimizin dialekt ifadələrlə zibillənməsinə yol vermək olmaz. Yazılı dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır. Təəssüf elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər. Üstəlik ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər»[23].

Azərbaycan dilinin mükəmməl kargüzarlıq dilinə çevrilməsi nəticəsində dövlət müstəqilliyinin bərpasından sonra digər türk və müsəlman respublikalarının üzləşdiyi çətinliklərin yaranmaması H.Əliyevin xalq qarşısında heç vaxt silinməyəcək, Azərbaycan xalqı və yaratdığı dövlət durduqca daim yaşayacaq tarixi xidmətidir.

H.Əliyev dilçi alimlərə xüsusi diqqət yetirirdi. Onun göstərişi və rəhbərliyi altında dilçi alimlərin yubileyləri keçirilir, dövlətin müxtəlif orden və medalları ilə təltif olunur, mənzil və iş şəraitləri yaxşılaşdırılırdı. Dilçi alimlərə hökumətin və respublika partiya təşkilatının heç bir basqısı yox idi. Onlar Azərbaycan rəhbərinin qayğısı altında yaşayıb işləyirdilər. Bununla bağlı yüzlərlə misal gətirmək olar. Məsələn, böyük dilçi alim M.Ş.Şirəliyevin anadan olmasının 60 illiyinin keçirilməsi haqqında Azərbaycan KP MK bürosunun 1969-cu il 9 sentyabr tarixli iclasında qərar qəbul edildi[24]. Yubiley tədbiri böyük təntənə ilə keçirildi. Belə münasibət dilçi alimlərin daha yaxşı çalışmalarına və nüfuzlarının artmasına təsir edirdi.

Bütün bunlarla bağlı olaraq sonralar Ə.Elçibəy yazırdı: «O zaman bir çox şeylərin – vətənpərvərliyin, milləti sevməyin hələ ana xətləri tamam qırılmamışdı, qalırdı, onu müdafiə edirdilər... Birincisi, Azərbaycan dilinin təbliğatı genişlənirdi. Azərbaycan dili müəllimləri kitablar buraxırdılar, bir yerdə çıxış edirdilər. Heydər Əliyevin böyük işlərindən birisi

[23] ARƏİDA, f. 340, siy. 1, bağ. 71, iş 1694, v. 394.

[24] ARSPİHDA, f. 1, siy. 56, iş 53 (54), pr. № 109, § 34.

bu idi... İlk dəfə olaraq bir neçə dilçi alimə (yeddi nəfərdi, ya altı nəfərdi) bir yerdə dövlət mükafatı verdirdi»[25].

Dövlət mükafatının verilməsi ilə Azərbaycan dilçilərinin nüfuzu qalxır, onlar ruhlanır və toxunulmaz olurdular. Mükafatların verilməsi ana dilinin istifadə dairəsinin genişlənməsinə kömək edirdi.

H.Əliyev yalnız bununla kifayətlənmir, əvvəlki illərdə müəyyən təzyiqlərə məruz qalmış alimlərə qayğı göstərirdi. Məsələn, 1970-ci ildə Azərbaycanın tanınmış dilçilərindən Ə.Dəmirçizadə və M.Hüseynzadənin[26] yubileyləri keçirildi.

H.Əliyev Azərbaycan dili və ədəbiyyatı üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqət verirdi. 70-ci illərdə ADU-nun və başqa ali məktəblərin filologiya fakültələrinə tələbə qəbulu planı artırıldı. Azərbaycan dilinin məktəblərdə tədrisi, ana dilində dərsliklərin yazılması diqqət mərkəzində saxlanılırdı. H.Əliyev çalışırdı ki, Azərbaycan dili bütün məktəblərdə keyfiyyətli tədris olunsun, gənc nəsil məktəblərdə ilk təhsil addımını atarkən öz dilini-ana dilini, milli dilini yaxşı bilsin. Bu sahədə Azərbaycanın dilçi alimlərinin xidməti əvəzsiz idi. Məhz onların, yazıçı, şair, ədəbiyyatşünasların sayəsində Azərbaycan dili daha zəngin, səlis və cazibədar olmuşdu. H.Əliyev Azərbaycan dilinin zənginliyi, şirinliyi və böyük söz ehtiyatı ilə daim fəxr edirdi.

Onun hakimiyyəti illərində terminologiyaya xüsusi diqqət yetirilir və mükəmməl lüğətlər hazırlanırdı[27]. 1979-cu ildə «Rusca-Azərbaycanca lüğət»in üçüncü nəşri çapdan çıxdı[28]. Azərbaycan-ingilis, Azərbaycan-alman, Azərbaycan-türk, Azərbaycan-fransız dilləri lüğətləri nəşr edildi və s. 1981-ci ildə «Azərbaycan dilinin izahlı lüğəti»nin ikinci cildi çap edildi. Qeyd etmək lazımdır ki, kitabın birinci cildi hələ

[25] Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq, s.42.
[26] «Kommunist» qəzeti, 1970, 28 mart, № 73 (14374).
[27] «Kommunist» qəzeti, 1977, 27 fevral, № 49 (16484).
[28] «Kommunist» qəzeti, 1979, 30 mart, № 73 (17112).



1966-cı ildə nəşr edilmişdi[29]. Azərbaycan dilinin qrammatikası, qanunları haqqında mükəmməl əsərlər yarandı.

H.Əliyevin ana dilinə qayğısı nəticəsində Azərbaycanda milli dildə nəşr edilən kitabların tirajı artırılırdı. Məsələn, belə bir fakt əhəmiyyətlidir ki, 1979-cu ildə Azərbaycanda nəşr edilən 1300 adda 13 milyon 800 min nüsxə kitabın 11 milyon 100 min nüsxəsi ana dilində idi[30].

H.Əliyevin hakimiyyəti illərində Azərbaycan dili Bakıda hakim rol oynamağa başladı. Qeyd etmək lazımdır ki, 20-60-cı illərdə Bakıda küçədə ana dilində danışan azərbaycanlılara geri qalmış, mədəni səviyyəsi aşağı olan şəxslər kimi baxılır, hətta bəzən təhqiramiz ifadələr işlədilirdisə, H.Əliyevin ana dilinə göstərdiyi qayğı nəticəsində bu vəziyyət kökündən dəyişdi. Azərbaycan dili 70-80-ci illərdə paytaxtda dominant oldu. Bakıya müəyyən tarixi dövrlərdə köçürülərək yerləşdirilən xalqlar da hətta tədricən Azərbaycan dilində danışmağa başlamışdılar. Bu məsələdə heç şübhəsiz, Bakıda azərbaycanlıların ümumi sayının ildən-ilə artması da öz təsirini göstərirdi. Sonralar H.Əliyev deyirdi: «Azərbaycanın böyük tarixi var. Bu tarix çox mərhələlərdən keçmişdir. Lakin bunlar Azərbaycanın nə mədəniyyətini, nə elmini, nə də ənənələrini heç vaxt sarsıda bilməmişdir. Bir təsəvvür edin, 70 il ərzində Azərbaycan Sovetlər Birliyinin tərkibində olmuş, kommunist ideologiyası ilə yaşamış, hətta inkişaf edib zənginləşmişdir. Mədəniyyətimiz yüksək zirvələrə qalxmışdır»[31]. Daha sonra H.Əliyev deyirdi: «Bizim Azərbaycan dili, ana dilimiz cari əsrdə çox zənginləşmiş, çox inkişaf etmişdir»[32].

Ana dilinə göstərilən qayğı nəticəsində azərbaycanlı-

[29] Axundov A. Xalqımıza dəyərli hədiyyə. – «Kommunist» qəzeti, 1981, 11 iyul, № 161 (17795).
[30] Əliyev H.Ə. Xalqların dostluğu ədəbiyyatların dostluğudur. – «Kommunist» qəzeti, 1980, 29 oktyabr, № 249 (17585).
[31] Azərbaycan beynəlxalq aləmdə. I cild, s. 71.
[32] Yenə orada, s. 72.

ların milli ruhu yüksəlir, özlərinə inamı artır və müstəqillik düşüncələri güclənirdi.

H.Əliyevin ana dilinə və doğma torpağa sıx bağlılığı Azərbaycanın yeni himninin müzakirəsi zamanı özünü bir daha göstərdi. O, Azərbaycana diyar, region kimi deyil, SSRİ-nin bərabərhüquqlu müttəfiq respublikası kimi baxır, onun hüquqlarını qətiyyətlə qoruyur, hətta hər ifadə üstündə təkidlə israr edirdi. Onun sədrliyi ilə keçirilən Azərbaycan KP MK-nın 1978-ci il 14 aprel tarixli iclasında respublikanın yeni himni haqqında məsələ müzakirə edilərkən məlum oldu ki, himnin mətnində «respublika» sözü yoxdur. Müzakirə zamanı H.Əliyev mətnə «respublika» sözünün salınmasının vacibliyini söyləyir. Çıxış edən bəzi şəxslər himnin mətninə «respublika» sözünün salınmasının heç cür alınmadığını deyirlər. H.Əliyev isə israrla və açıq şəkildə deyir: «Mən çox istərdim ki, «respublika» sözü mətndə olsun. Mənə deyirlər ki, heç cür alınmır. Mən hesab edirəm ki, belə sözün olmasına nail olmaq lazımdır. Biz Azərbaycan, dövlət, diyar haqqında danışırıq, amma bura respublikadır. Yaxşı olardı ki, burada «respublika» sözü olsun».

İlk baxışda «respublika» ifadəsi sadə məsələ olub elə bir anlam kəsb etmirdi. Lakin məsələnin H.Əliyev tərəfindən qaldırılması dərin məna daşıyırdı. O hesab edirdi ki, Azərbaycan əyalət deyil, SSRİ-ni təşkil edən bərabərhüquqlu müttəfiq respublikalardan biridir. «Respublika» ifadəsi siyasi, dövlət anlamını verir və mustəqillik haqqında düşüncələri şüurlardan silməyə imkan vermirdi. Belə mövqe eyni zamanda H.Əliyevin respublika quruluşuna dərin bağlılığını göstərirdi. Təkidlərdən sonra mətnə «respublika» ifadəsi daxil edildi və bəyənilərək Azərbaycan Ali Soveti rəyasət heyəti tərəfindən təsdiq olundu. Bununla bağlı olaraq Azərbaycan rəhbəri deyirdi: «Himn bizim ümumi iftixarımız, ümumi qürurumuzdur, sərvətimizdir. Mən özümü də hansısa dərəcədə bu himnin müəllifi hesab edirəm»[33].

[33] ARSPİHDA, f. 1, siy. 65, iş 49, § 1, pr. № 66, v. 2, iş 51, v. 111-112.



Moskvada daimi işləməyə getdikdən sonra da H.Əliyev Azərbaycan dilinə olan qayğısını əsirgəmir, dilçi alimlərə diqqət yetirməyi respublika rəhbərlərinə tövsiyə edirdi. Lakin belə mövqe az sonra onun özünə qarşı çevrilmiş oldu. Ana dilinin, milli dillərin hüquqlarını müdafiə etməsi Sov. İKP MK Siyasi bürosunun bəzi üzvlərinin ona qarşı çıxmasına gətirdi. Bununla bağlı olaraq ABŞ tarixçiləri yazırlar ki, Moskva qeyri-rus respublikalarında yerli dillərin statusunu dəyişdirmək istədikdə, H.Əliyev inadkarlıq göstərdi və bu, onun Siyasi bürodan uzaqlaşdırılmasının səbəblərindən biri oldu.

* * *

Beləliklə, respublikanın kommunist rəhbəri olmasına, ölkədə hökm sürən sovet sisteminin ağır şərtlərinə, yeridilən güclü ruslaşdırma siyasətinə baxmayaraq, H.Əliyevin fəaliyyətində Azərbaycan dili məsələsi mühüm yer tuturdu. Onun ana dili siyasəti müxtəlif istiqamətlərdə həyata keçirilirdi:

- H.Əliyev hesab edirdi ki, hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. O, Azərbaycan ədəbi dilinə gələcək dövlət müstəqilliyinin təməllərindən biri kimi baxırdı. Azərbaycan ədəbi dilini kitablarda yaşadanlar, zənginləşdirənlər alimlər, şairlər və yazıçılar olduğundan H.Əliyev onlara xüsusi qayğı göstərirdi;
- H.Əliyev mərkəzi hakimiyyətin bütün müqavimətinə və təzyiqlərinə baxmayaraq, böyük zəhmət və əmək sərf edərək Azərbaycan dilinin respublika Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail oldu;
- bütün sovet tarixi ərzində ilk dəfə olaraq Azərbaycan dili məhz 70-80-ci illərdə mükəmməl kargüzarlıq dilinə çevrildi. Bilavasitə yeridilən bu siyasət nəticəsində dövlət müstəqilliyi bərpa edildikdən sonra digər türk və müsəlman respublikalarında dil məsələsində meydana çıxan problemlər Azərbaycanda yaranmadı;

- H.Əliyev ana dilinin saflığı uğrunda ardıcıl və qətiyyətlə çalışır, yaradıcı adamları buna əməl etməyə açıq-aşkar çağırırdı;

- Azərbaycan rəhbəri dilçi alimlərə xüsusi qayğı göstərir, onları mənzil və yaşayış şəraiti ilə təmin edir, dövlətin orden və medallarına layiq görür, ölkədə tanıdırdı;

- ana dilinin zənginləşməsinə calışaraq müxtəlif kitabların nəşrinə nail olurdu;

-sovet tarixi ərzində ilk dəfə olaraq məhz H.Əliyevin hakimiyyəti illərində Azərbaycan dilinə həsr edilmiş əsərlər dövlət mükafatına layiq görüldülər;

- Azərbaycan dilinin inkişafına, zənginləşməsinə xüsusi fikir verməsi H.Əliyevin rus dilinin əleyhinə çıxması demək deyildi. O belə hesab edirdi ki, Azərbaycanın inkişafı son iki əsrə yaxın dövrdə Rusiya ilə bağlı olub, Avropa mədəniyyəti Rusiya vasitəsi ilə Azərbaycana gəlib, öz növbəsində Azərbaycan dünya mədəniyyətinə, elminə Rusiya və rus mədəniyyəti vasitəsi ilə çıxıb. H.Əliyev Azərbaycan dilini zənginləşdirən, saflaşdıran bütün vasitələrdən məharətlə istifadə edirdi;

- H.Əliyevin ana dilinə qayğısı nəticəsində Bakıda milli dildə danışanların sayı sürətlə artmağa doğru gedirdi. Sovet hakimiyyətinin əvvəlki dövrlərindən fərqli olaraq 70-80-ci illərdə Bakı küçələrində danışan şəxslərə artıq geridə qalmış kimi baxılmırdı. Ana dilinə göstərilən qayğının nəticəsində xalqın özünə inam hissi güclənir və müstəqillik ideyaları insanların şüurlarına hakim olurdu;

- H.Əliyev bu sahədəki fəaliyyəti ilə təkcə kommunist rəhbər deyil, əslində milli ruhlu, millətsevər bir dövlət və siyasi xadimi idi. Onun ana dilinin hüquqlarını açıq-aşkar və qətiyyətlə qoruması Sov. İKP MK Siyasi bürosundakı bəzi şəxslərin ona qarşı çıxmasına, böhtan dolu hücumlara səbəb oldu.



# VIII FƏSİL

## DEMOQRAFİK İNKİŞAF

Tarixi təcrübə sübut edir ki, müstəqil dövlət qurmaq üçün tələb olunan zəruri amillərdən biri kifayət qədər əhalinin mövcud olmasıdır. Bunu dərindən başa düşən H.Əliyev hakimiyyəti illərində azərbaycanlıların həyat şəraitini yaxşılaşdırmaq yolu ilə demoqrafik inkişafına xüsusi diqqət yetirirdi. O, problemin həllini azərbaycanlı əhalinin artımının təkcə tarixən formalaşmış adət-ənənələrlə bağlılığında deyil, eyni zamanda qeyri-neft sahələrinin inkişaf etdirilməsi yolu ilə həyat səviyyəsinin daim yaxşılaşdırılmasında görürdü. Azərbaycan rəhbərinin baxışlarına görə güzəranın yaxşılaşdırılması istər-istəməz əhalinin təkrar istehsalına, əhali artımına kömək etməli idi. Bu məqsədlə H.Əliyev respublikanın sosial-iqtisadi inkişafına xüsusi önəm verirdi. Onun rəhbərliyi altında ümumittifaq büdcəsindən respublika üçün ayrılan vəsaitlər ildən-ilə artırılır, tikinti işləri genişləndirilir, yeni iş yerləri açılırdı və s. 70-ci illərdə – 80-ci illərin ortalarında Azərbaycanda sosial-iqtisadi, mədəni və siyasi sahələrdə qazanılan uğurlar demoqrafik inkişafa müsbət təsir edirdi. Bəzi tarixi müqayisələrin aparılması bu məsələyə aydınlıq gətirir. Əgər 1897-ci ildə Şimali Azərbaycanda azərbaycanlılar cəmi 1 mln. 475 min 600 nəfər idisə, 1913-cü ildə onların sayı 2 mln. 339 min nəfər təşkil edirdi. Birinci dünya müharibəsi illərində Cənubi Qafqazda baş verən proseslər, xüsusən erməni silahlı dəstələri tərəfindən türk və müsəlmanların kütləvi surətdə qırılması əhalinin azalmasına gətirib çıxarmışdı. Nəticədə azərbaycanlıların sayı 1914-1917-ci illərdə 1 mln. 995 min 600 nəfərə enmişdi. Azərbay-

canlıların sayı 1918-1920-ci illərdə artsa, qeyri azərbaycanlıların sayı azalsa da, bu proses yalnız qısa müddətli olmuşdu. 1920-ci ilin aprelində bolşevik Rusiyası tərəfindən Azərbaycan işğal edildikdən sonra azərbaycanlı əhalinin sayı azalmağa doğru getmişdi. Bunun da bir sıra səbəbləri var idi: bolşevik hökuməti işğaldan, xüsusən Gəncə üsyanından sonra antisovet qüvvələrin kütləvi surətdə məhvini həyata keçirir, onları küçələrdə adamların gözü qarşısında amansızlıqla öldürür, həbsxanalara salır, sürgünə göndərir, doğma yerlərindən köçürür, malını-mülkünü müsadirə edərək ac vəziyyətə salırdı. Yeni hökumətdən narazı olan, lakin müqavimət göstərməyə gücü çatmayan əhalinin kütləvi surətdə mühacirəti başlamışdı. Nəticədə azərbaycanlıların sayı azalaraq 1926-cı ildə 1 mln. 706 min 600 nəfər təşkil etmişdi. Qısa müddətdə azərbaycanlı əhalinin sayı təxminən 289 min nəfər azalmışdı. Bütövlükdə, 1920-1940-cı illərdə Azərbaycanda əhalinin sayı 700 min nəfər aşağı düşmüşdü. Bu illərdə əhalinin kütləvi surətdə xaricə qaçması, qəddar repressiyalar, sosial-iqtisadi vəziyyətin ağırlığı azalmanın başlıca səbəblərindən idi.

1939-cu il yanvar ayının 17-də keçirilən əhalinin siyahıyaalınmasına görə azərbaycanlıların sayı 3 mln. 205 min nəfər olmuşdu. 1941-1945-ci illər müharibəsində Azərbaycandan cəbhəyə çağırılan 600 min nəfərin təqribən yarıdan çoxunun həlak olması da əhali artımına mənfi təsir etmişdi. 1948-1953-cü illərdə Ermənistandan azərbaycanlıların öz tarixi-etnik torpaqlarından Azərbaycanın fərqli iqlim və təbii şəraiti olan ərazilərinə köçürülməsi nəticəsində ölüm hallarının artması da ölkə miqyasında azalmaya müəyyən təsir etmişdi.

Bütün sovet hakimiyyəti illərində Azərbaycanda əhali artımı ilk dəfə olaraq yalnız müharibədən sonrakı illərdən başlayaraq qeydə alındı. Müharibə illərində əhalinin həlak olması nəticəsində yaranmış gərgin demoqrafik vəziyyəti düzəltmək məqsədilə bir sıra rəsmi qərarlar qəbul edildi. Çoxuşaqlı ailələrə müavinət verilməsi artırıldı, 1956-cı ildə «Qəhrəman ana» fəxri adı təsis olundu, başqa imtiyazlar verildi. Bütün



bunlar qısa müddətdə demoqrafik inkişafa öz təsirini göstərdi. 1959-cu il yanvar ayının 15-də aparılmış əhalinin siyahıyaalınmasına görə Azərbaycanda 3 mln. 698 min, 1970-ci il yanvar ayının 15-də keçirilmiş siyahıyaalmaya görə 5 mln. 117 min, 1979-cu il siyahıyaalınmasına əsasən isə 6 mln. 28 min nəfər yaşayırdı. Göründüyü kimi, 1970-ci ildən keçən 9 il ərzində Azərbaycan əhalisi təxminən 911 min nəfər və ya 18% artmışdı. Bu artımın başlıca səbəbi əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşması ilə əlaqədar idi.

Həmin illərdə Azərbaycanda şəhər əhalisi 636 min nəfər çoxalmışdı. O cümlədən təbii artım 429 min nəfər təşkil etmişdi. Şəhərlərə köçmə, qəsəbələrin şəhər məntəqələrinə, Azərbaycanın aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrilməsi nəticəsində şəhər əhalisi 207 min nəfər çoxalmışdı. Bu isə Bakının və digər şəhərlərin çarizm dövründə və sovet hakimiyyətinin ilk illərində itirilmiş milli simasının bərpası demək idi. Qeyd etmək lazımdır ki, həmin dövrdə Azərbaycan əhalisinin 3 mln. 200 min nəfəri şəhər, 2 mln. 828 min nəfəri isə kənd əhalisi idi. Əhalinin 52%-i şəhərdə, 47%-i kənddə yaşayırdı. Bu isə Azərbaycanda mədəni inkişafdan, urbanizasiyadan, sənayenin yüksək inkişafından xəbər verirdi[1]. 1979-cu ildə Bakıda 1 mln. 550 min nəfər əhali yaşayırdı[2]. ABŞ tarixçilərinin yazdığına görə bu, 1970-ci illə müqayisədə 22, 5% çox idi. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi[3]. 1981-ci il yanvar ayının 1-i üçün Bakının əhalisi 1 mln. nəfər, ərazisi isə 2. 248 kv. km idi[4].

---

[1] Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin məlumatı. - «Kommunist» qəzeti, 1979, 16 may №111 (17150).

[2] Brian D. Silven. Population redistribution and the ethnic balance in Trancaucasia. New York, Kennan Institute for Advanced Russian studies, The Wilson Center and American Assosiation for tne Advancment of Slavic Studies, 1980, p. 7.

[3] Bennigsen A., Wimbush S. Enders. Muslims of the Soviet Empire. A Guide, p.128.

[4] ARSPİHDA, f. 1, siy. 68, iş 362, v. 128-129.

Əgər 1939-cu ildə bütün əhalinin 51,2%-i qadınlar, 48,8%-i kişilər idisə, 1959-cu ildə 47,5%-ni kişilər, 52,9%-ni isə qadınlar təşkil edirdilər. 1970-ci ildə kişilər 48,5%, qadınlar 51,5% idilərsə, 1979-cu ildə kişilər 48,8%, qadınlar isə 51,2% oldu[5].

H.Əliyev Azərbaycan cəmiyyətində qadının roluna yüksək qiymət verir, onları vəzifələrdə irəli çəkir, azərbaycanlı qadınların yüksək intellektual səviyyəsini, mədəniyyətini, bacarığını nümayiş etdirmələrinə imkan yaradırdı. Məhz onun qayğısı sayəsində Azərbaycan cəmiyyətində qadınların rolu güclənirdi. Vaxtilə böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə deyirdi: «Millətin gələcəyi anaların əlindədir». Azərbaycan xalqının mənəvi irsinin və inanclarının qoruyub inkişaf etdiricisi olan azərbaycanlı qadın öz həyatı və fəaliyyəti ilə yeni nəsil yetişdirərək onu milli adət-ənənələri, sərvətləri göz bəbəyi kimi qorumağa, inkişaf etdirməyə və vətənin istiqlalına hazırlayırdı.

Beləliklə, XX əsrdə yalnız 1959-1989-cu illər ərzində azərbaycanlıların artımı 130,3% təşkil etmişdi. Artım sürətinə görə azərbaycanlılar SSRİ-nin türk və müsəlman xalqları arasında yalnız qazaxlardan və özbəklərdən cüzi şəkildə geri qalırdı. Qeyd etmək lazımdır ki, həmin xalqlarda artım sürəti göstərilən dövrdə 130,7% olmuşdu. Azərbaycanlıların sayı 1970-1979-cu illərdə 1926-cı illə müqayisədə 25% artmışdı. Belə bir fakt maraqlıdır ki, 1979-1989-cu illərdə bu artım 1926-cı illə müqayisədə 23,6% təşkil etmişdi[6].

Azərbaycanda müsəlmanların sayı da artırdı. Bir sıra faktların müqayisəli təhlili deyilənləri təsdiq edir. Müsəlmanlar 1959-cu ildə 2 mln. 653 min və ya bütün əhalinin 71,7%-ni, 1970-ci ildə 4 mln. nəfər və ya 78,1%-ni təşkil edirdi. Bu illər ərzində onlar 50,6% artmışdılar. ABŞ tədqiqatçıları A.Benniqsen və S.E.Uimbuş yazırlar ki, 1979-cu ildə respublikada müsəlmanlar 4 mln. 960 min nəfər və ya bütün əhalinin 82,3%-ni təşkil edirdilər, onlar 1970-ci illə müqayisədə 24% artmışdılar[7].

1959-cu ildə azərbaycanlılar Azərbaycanda 2 mln. 497 min nəfər idilər və ya bütün respublika əhalisinin 67,5%-ni, 1970-ci ildə isə 73,8%-ni təşkil edirdilər[8]. Bununla əlaqədar olaraq başqa bir ABŞ tarixçisi A.L.Alstadt yazır ki, azərbaycanlılar 1959-cu ildə Azərbaycan əhalisinin 67%-ni, 1970-ci ildə 74%-ə qədərini, 1979-cu ildə 78%-ni təşkil edirdilər[9]. Bu, heç şübhəsiz, yüksək demoqrafik inkişaf demək idi.

Əlbəttə, yuxarıda göstərilən rəqəmlərin bir-birindən müəyyən qədər fərqlənməsi aydın görünür. Bununla belə, bütün statistik məlumatlar azərbaycanlı əhalinin yüksək artım dinamikasını sübut edir.

Məlum olduğu kimi, türk və müsəlmanlara etibar etməyən həm çar, həm də sovet hakimiyyəti Azərbaycanda demoqrafik vəziyyəti dəyişmək məqsədilə müəyyən dövrlərdə müxtəlif adlar altında başqa xalqları tarixi azərbaycanlı torpaqlarına yerləşdirmişdi. Klassik rus müstəmləkəçiliyi təkcə Azərbaycanın sərvətlərini daşıyıb aparmır, eyni zamanda azərbaycanlıların dilini, dinini, ədəbiyyatını dəyişdirirdi. Digər respublikalar kimi Azərbaycanda da ruslaşdırma başqa amillərlə yanaşı yerli olmayan əhalinin sayının süni surətdə artırılması hesabına aparılırdı. Ruslaşdırma yerli əhalinin milli duyğularına, özünə inamına, milli şüuruna mənfi təsir edirdi. Müəyyən tarixi dövrlərdə məskunlaşdırılan xalqların núma-

[5] Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin məlumatı. - «Kommunist» qəzeti, 1979, 16 may №111 (17150).

[6] «Azərbaycan» qəzeti, 2004, 3 mart, №52 (3667).

[7] Bennigsen A., Wimbush S. Enders. Muslims of the Soviet Empire. A Guide, p.128-130.

[8] Bennigsen A. Azerbaidzhan. Prepared for the Converence on the Soviet Caucasus co-sponsered by the U.S International Communication Agensy, and the Kennan Institute for Advansed Russian Studies. The Wilson Center, May 15, 1979, № 61, p. 1.

[9] Alstadt A. L. Göstərilən əsəri, s. 184.

yəndələri Azərbaycanda özlərini təkəbbürlü aparır, azərbaycanlılara yuxarıdan baxırdılar. Məsələn, 1959-1970-ci illər ərzində Azərbaycanda yaşayan 510 min nəfər rus artaraq 566 min 488 nəfərə çatmış və ya bu illər ərzində 1,7% çoxalmışdı[10]. Ruslar 1959-cu ildə Azərbaycanda bütün əhalinin 13,5%-ni təşkil edirdilər.

H.Əliyev hakimiyyətə gələndən sonra Azərbaycanda əhalinin demoqrafik vəziyyətində ciddi dəyişiklik baş verdi. A.Benniqsen yazır ki, 1970-ci ildən etibarən Azərbaycanda vəziyyət dəyişməyə başladı. Belə ki, həmin ildə ruslar bütün Azərbaycan əhalisinin 9,9%-ni, 1979-cu ildə isə yalnız 7,9%-ni təşkil edirdilər. 1970-1979-cu illər ərzində Azərbaycandakı rusların sayı 5,6% azalmışdı[11]. Sovet hakimiyyəti illərində milli respublikalarda ruslaşdırmanın gücləndirildiyi bir zamanda belə bir hal müttəfiq respublikalar üçün nadir hadisə idi.

Qeyd etmək lazımdır ki, bu illərdə Azərbaycana çarizm dövründə və sovet hakimiyyəti dövründə yerləşdirilmiş digər xalqlar da azalmağa doğru getmişdi. Məsələn, əgər ermənilərin sayı 1959-cu ildə 442 min 100 nəfər idisə, 1970-ci ildə onların sayı artaraq 483 min 500 nəfərə çatmışdı. Buna baxmayaraq, onların sayı 1970-1979-cu illərdə azalaraq 475 min nəfər oldu. Başqa sözlə, 1959-1970-ci illərdə Azərbaycandakı ermənilərin sayı 9,4% artmışdısa, 1970-1979-cu illərdə əksinə olaraq 1,8% azalmışdı[12]. 1979-cu ildə Azərbaycanda yaşayan 6 mln. 27 min nəfər əhalinin 4 mln. 709 min nəfəri azərbaycanlılar, 475 mini ermənilər, 475 mini ruslar, 158 mini ləzgilər, 36 mini avarlar, 8,5 mini çaxurlar, 35

[10] Bennigsen A. Azerbaidzhan, p. 2.

[11] Bennigsen A., Broxup V. The Islamic Threat to the Soviet State, New York, St. Martin's Press, 1983, p. 127.

[12] Brian D. Silven. Population redistribution and the ethnic balance in Transcaucasia// Transcaucasia nationalism and sosial change. Essays in the history of Armenia, Azerbaijan, and Georgia. Edited by Ronald Grigor Suny. The University of Michigan, 1983, p. 3, p. 374.



mini yəhudilər, 31 mini talışlar, 26 mini ukraynlar, 11 mini gürcülər, 8,8 mini tatlar, 5,8 mini udinlər idi. Başqa xalqların nümayəndələri 45 min nəfər təşkil edirdilər[13].

H.Əliyevin hakimiyyəti illərində azərbaycanlı əhalinin yüksək demoqrafik inkişafının nəticəsində Bakı öz milli simasını bərpa etdi. Azərbaycanlıların öz güclərinə inamı, milli şüuru qüvvətləndi. Bəzi tarixi müqayisələrin aparılması Bakının milli simasının bərpa olunması məsələsini qiymətləndirməyə imkan verir. Məsələn, Bakıda azərbaycanlılar 1897-ci ildə 40 min 148 nəfər, 1903-cü ildə 44 min 257 nəfər, 1913-cü ildə 45 min 962 nəfər, ruslar müvafiq illər üzrə 37 min 399 nəfər, 56 min 955 nəfər, 76 min 288 nəfər, ermənilər 19 min 60 nəfər, 26 min 151 nəfər, 41 min 680 nəfər, gürcülər 1897-ci ildə 971 nəfər, 1913-cü ildə 9 min 690 nəfər, İran təbəələri göstərilən illər üzrə 9 min 426 nəfər, 11 min 132 nəfər, 25 min 96 nəfər idi. Bütövlükdə, şəhərdə 1897-ci ildə 110 min 904 nəfər, 1903-cü ildə 155 min 876 nəfər, 1913-cü ildə 214 min 672 nəfər əhali yaşayırdı[14]. 1918-ci ildə Bakıda təxminən 280-300 min əhali yaşayırdı ki, bunun da 100 min nəfərdən çoxu azərbaycanlı idi[15]. 1926-cı ildə azərbaycanlıların 44%-i şəhərlərdə yaşayırdı. O dövrdə Transqafqazın ən böyük şəhəri əhalisi 446 min 800 nəfər olan Bakı idi.

ABŞ tarixçisi A.Benniqsen yazır ki, artıq 1970-ci ildə Bakıda müsəlmanlar 52%, müsəlman olmayanlar isə 48%

[13] Naumkin V. V. Central Asia and Transcaucasia. London, Greenwood Press, 1994 p. 27.

[14] Население империи по переписи 28-го января 1897 года по уездам. Санкт-Петербург, И.А.Яковлев, 1897; Перепись население города Баку. 1903. Баку, Каспий, 1905; Перепись население города Баку. 1913. Баку, Каспий, 1916.

[15] Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. (1914-1918-ci illər). 3 hissədə. II hissə (1917-ci il noyabr- 1918-ci il noyabr). Bakı, 2001, s. 211.

təşkil edirdilər. Onun qeyd etdiyi kimi, bu dəyişiklik Azərbaycan türklərinin özlərinə inamını artırdı və onlar özlərini güclü hiss etməyə başladılar[16]. Bütün sovet hakimiyyəti illərində Bakıda azərbaycanlıların ilk dəfə özlərini qeyri-yerli əhalidən güclü hiss etdikləri dövr yalnız Heydər Əliyevin hakimiyyəti illərində olub.

1959-cu ildə Bakıda yaşayan 987 min 228 nəfər əhalinin 372 min 676 nəfəri və ya 37,7 %-i azərbaycanlı idisə, 1970-ci ildə şəhərdə yaşayan 1 mln. 265 min 515 nəfərin 586 min 52 nəfəri və ya 46,3 %-i azərbaycanlı idi. Həmin illərdə respublika şəhərlərində azərbaycanlıların sayı 57,3% artmışdı[17].

H.Əliyevin hakimiyyəti illərində Naxçıvanda azərbaycanlı əhalinin xüsusi çəkisi də sürətlə artırdı. Naxçıvan Muxtar Respublikasında 1959-cu ildə yaşayan 141 min 351 nəfər əhalinin 127 min 508 nəfəri, 1970-ci ildə 202 min 187 nəfərin 189 min 679 nəfəri azərbaycanlı idi və ya bu illər ərzində onlar 48,7% artmışdılar. 1979-cu ildə Muxtar Respublikada yaşayan 240 min 459 nəfər əhalinin 229 min 968 nəfəri azərbaycanlı idi. Və ya azərbaycanlılar 1970-1979-cu illərdə 21,2% artmışdılar. Bundan fərqli olaraq əgər ermənilər 1959-cu ildə 9 min 519 nəfər idisə, 1970-ci ildə 5 min 828 nəfər olmuş və ya 38,8% azalmışdılar. 1979-cu ildə isə Naxçıvan Muxtar Respublikasında ermənilərin sayı 3 min 406 nəfər idi və ya 1970-1979-cu illərdə 58, 4% azalmışdı.

Bu azalma ermənilərin əleyhinə siyasətin aparılması ilə bağlı deyildi. Azərbaycanda belə bir siyasət yeridilmirdi və əslində, sovet dövründə heç mümkün də deyildi. Azalmanın bir sıra səbəbləri var idi. İlk növbədə ölkədə yeridilən güclü beynəlmiləlçilik, xalqlar dostluğu, inteqrasiya siyasəti fonunda Naxçıvanda ermənilərin sayı azalmağa doğru gedirdi. Digər tərəfdən, H.Əliyevin Naxçıvan tarixini, ermənilərin bu türk torpağına olan əsassız iddialarını dərindən bilərək şüarlar

[16] Bennigsen A. Azerbaidzhan, p. 2.

[17] Bennigsen A., Wimbush S. Enders. Muslims of the Soviet Empire. A Guide, p. 135.



söyləmədən praktik addımlar atması, Naxçıvan əhalisinin xarakterindəki mərdlik, qəhrəmanlıq, torpaq sevgisi, milli qürur, milli və dini adət-ənənələrə sıx bağlılığı, ermənilərin gəlmə olduqlarını başa düşərək ümidlərinin qırılması onların köçüb getmələrinə, azalmalarına səbəb olmuşdu.

Maraqlıdır ki, Naxçıvandan köçüb gedənlər təkcə ermənilər deyildi. Bütün ölkədə hakim xalq hesab edilən ruslar da H.Əliyevin hakimiyyəti illərində muxtar respublikada azalmışdılar. Əgər Naxçıvan Muxtar Respublikasında rusların sayı 1959-cu ildə 3 min 161 nəfər idisə, 1970-ci ildə 3 min 919 nəfər olmuş və ya 23,9% artmışdı. 1970-ci ildən sonra isə vəziyyət əsaslı şəkildə dəyişilməyə başladı. Onların sayı azalmağa doğru getdi. Konkret olaraq 1979-cu ildə Naxçıvan MSSR-də rusların sayı 3 min 807 nəfər təşkil edirdi və ya onlar 1970-ci illə müqayisədə 0,03% azalmışdılar[18].

H.Əliyevin hakimiyəti illərində bütün SSRİ ərazisində azərbaycanlıların sayı sürətlə artırdı. Sovet dövründə Azərbaycan bütün SSRİ ərazisinin 0,35%-ni, azərbaycanlılar isə ölkə əhalisinin 2,4%-ni təşkil edirdi[19]. Müqayisə üçün qeyd edilməlidir ki, SSRİ-də azərbaycanlıların sayı 1939-cu ildə 2 mln. 275 min, 1959-cu ildə isə 2 mln. 929 nəfər olmuşdu[20]. Onların sayı artaraq 1970-ci ildə 4 mln. 379 min 900 nəfər, 1979-cu ildə 5 mln. 477 min nəfər oldu. Bütövlükdə, 1959-1979-cu illərdə azərbaycanlılar 49%, 1970-1979-cu illərdə isə 25% artmışdı[21]. Artıq 1970-ci ildə azərbaycanlılar bütün sovet müsəlmanlarının 17,5%-ni təşkil edirdi[22].

[18] Yenə orada, s.136.

[19] Charles van der Leeuw. Azerbaijan a quest for identity. A short history, p.30.

[20] Bennigsen A. Islamic or Local consglousness among Soviet nationalities? // Soviet nationality problems. New York, Columbia University Press, 1961, p. 169.

[21] Brian D. Silven. Göstərilən əsəri, s. 3.

[22] Bennigsen A., Wimbush S. Enders. Muslims of the Soviet Empire. A Guide, p. 145.

Ümumiyyətlə, müharibədən sonrakı illərdə bütün SSRİ-də müsəlmanlar sürətlə artırdı. Ölkənin müsəlman əhalisi 1959-cu ildə 22,5 mln. nəfər və ya bütün əhalinin 10,7% -ni təşkil edirdisə, 1979-cu ildə 42 mln. nəfərə çatdı və ya 16,5% oldu[23]. Əlbəttə, bu artım sadəcə əhalinin sayının çoxalması demək deyil, eyni zamanda həmin xalqların mədəni təsir dairəsinin güclənməsi idi. Müsəlmanların sayının artması ilə onların mədəniyyəti müttəfiq və ya muxtar respublika formasında siyasi quruluşları olmayan digər müsəlman, türk etnik qrupların dini və milli hisslərinin güclənməsinə təsir edirdi.

Ermənistanda da azərbaycanlıların sayı artırdı. Məsələn, azərbaycanlılar əgər 1959-cu ildə 107 min 700 nəfər idisə, 1970-ci ildə 148 min 200 nəfər, 1979-cu ildə isə 161 min nəfər oldu. 1959-1970-cu illərdə bu respublikadakı azərbaycanlıların sayı 37,6%, 1970-1979-cu illərdə isə 8,6% artmışdı[24].

Gürcüstanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar da özlərini daha inamlı hiss edirdilər. Belə bir fakt maraqlıdır ki, Gürcüstan SSR-də 1970-1971-ci illərdə Azərbaycan dili ilə yanaşı başqa dillərdə təhsil alan azərbaycanlı şagirdlərin sayı I-IV siniflərdə 27 min 339 nəfər, V-VIII siniflərdə 19 min 803 nəfər, IX-XI siniflərdə 52 min 231 nəfər, cəmi 52 min 373 nəfər idi. Bir dildə – Azərbaycan dilində təhsil alan azərbaycanlıların sayı I-IV siniflərdə 25 min 710 nəfər, V-VIII siniflərdə 18 min 476 nəfər, IX-XI siniflərdə 4 min 890 nəfər, cəmi 49 min 76 nəfər idi. Gürcüstanda 170 Azərbaycan dilli məktəb fəaliyyət göstərirdi[25].

Azərbaycanlıların ölkə miqyasında demoqrafik inkişafı müxtəlif vəzifələr tutmasına, rütbələr qazanmasına təsir edirdi.

[23] Верт Н. История советского государства, с. 457.
[24] Brian D. Silven. Göstərilən əsəri, s. 3.
[25] GRDƏYTA, f.300, siy.8, iş 1347, v.1.



Azərbaycanlıların yüksək demoqrafik inkişafı bir sıra amillərlə bağlı idi. Bu prosesə ilk növbədə sosial-iqtisadi amillər təsir edirdi. Görkəmli amerikan demoqrafı Frenk Houtştaynın nəzəriyyəsinə əsasən iqtisadi və sosial tərəqi əhali artımına təsir göstərir, «demoqrafik keçid» adlandırılan prosesi təmin edir[26]. Doğrudan da, XX əsrdə ölkədə ilk dəfə olaraq ikinci dunya müharibəsindən sonrakı illərdə, xüsusən 50-ci illərin ortalarından etibarən nisbi sosial-iqtisadi sabitlik yarandı. 70-ci illərdə - 80-ci illərin əvvəllərində respublikada yeni iş yerləri açıldı, işsizlik aşağı düşdü, əhalinin həyat şəraiti yaxşılaşdı. Azərbaycanda neft sənayesi ilə yanaşı alternativ sənaye sahələrinin yaradılması, kənd təsərrufatında üzümçülük və pambıqçılığın inkişafı əhalinin işlə təmin edilməsinə, ailələrin qazanclarının artmasına, həyat şəraitinin yaxşılaşmasına, beləliklə, demoqrafik inkişafa gətirib çıxardı. Şəhər və qəsəbələrdə yeni-yeni fabrik və zavodlar, sexlər, istehsal sahələri açıldı. Yeni yaşayış binaları tikildi. Əhalinin pul gəlirləri artdı. Məsələn, Azərbaycanın milli gəliri 1975-ci ildən sonra ötən beş ildə 1,5 dəfə artaraq 1979-cu ildə 6 milyard 900 milyon manat təşkil etmişdi. Adambaşına düşən real gəlir 21% çoxalmışdı[27]. Kənd əhalisinin mədəni səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli yüksəlmişdi. Azərbaycan kəndində ən yaxşı yaşayış evləri və inzibati binalar məhz 70-ci illərdə - 80-ci illərin əvvəllərində tikildi.

Bütün ölkədə yeridilən siyasət fonunda doğulan uşaqlara görə analara müavinətin verilməsi, çoxuşaqlı analara xüsusi qayğı göstərilməsi, müxtəlif orden və medalların, o cümlədən «Qəhrəman ana» fəxri adının verilməsi kənddə demoqrafik inkişafa müsbət təsir edirdi. Azərbaycanlı olmayan əhalinin sayının azalmağa doğru getməsi onlara qarşı yeridilən

[26] Голубев Г.Н. Геоэкология. М., ГЕОС, 1999, с.59.
[27] «Kommunist» qəzeti, 1979, 7 fevral, №31 (17070).

siyasətlə bağlı deyildi. Azərbaycan rəhbərliyi onlara qarşı ayrı-seçkilik siyasəti yeritmirdi. Azərbaycanlılar böyük qonaqpərvərliklə həmin xalqların nümayəndələrinə öz cəmiyyətinin bir hissəsi kimi baxır, xoş münasibət bəsləyirdilər. Əvvəlcə çarizm, sonra isə sovet hakimiyyəti illərində Azərbaycana yerləşdirilmiş xalqlar gəlmə olduqlarını dərk edərək sovet cəmiyyətində yeridilən beynəlmiləlçilik və inteqrasiya siyasəti fonunda öz vətənlərinə köç etməyə başlamışdılar. Digər tərəfdən, tarixən azərbaycanlılarda çoxuşaqlı ailə həmişə qonşu xalqlarla müqayisədə çox olmuşdu.

* * *

Beləliklə, H.Əliyevin hakimiyyəti illərində Azərbaycanda demoqrafik inkişaf baş verdi; yeridilən sosial-iqtisadi və mədəni siyasət nəticəsində respublikada demoqrafik vəziyyət yerli əhalinin xeyrinə sürətlə dəyişirdi; müxtəlif tarixi dövrlərdə Azərbaycana göçürülmüş və yerləşdirilmiş xalqlar tədricən azalmağa doğru gedirdilər; Bakıda azərbaycanlı əhali dominantlıq təşkil edirdi, bu amil azərbaycanlıların özlərinə olan inam hissini, milli ruhunu gücləndirirdi; Bakı öz milli simasını sovet hakimiyyəti illərində ilk dəfə olaraq məhz H.Əliyevin hakimiyyəti illərində bərpa etdi; bu, H.Əliyevin Azərbaycan xalqı qarşısında böyük tarixi xidməti idi; çoxuşaqlı ailələrə xüsusi qayğı göstərilir, müavinətlər, çoxuşaqlı analara müxtəlif fəxri adlar, dövlətin orden və medalları verilirdi; onlar cəmiyyətdə xüsusi hörmət sahibi olmuşdular; Azərbaycanın dövlət müstəqilliyini qurmaq üçün tələb olunan şərtlərdən biri – əhali məsələsi əsaslı surətdə həll edilmiş və möhkəmləndirilmişdi. Nəticədə bütün respublika ərazisində sayca tam hökmran olan azərbaycanlılar 90-cı illərin əvvəllərində dövlət müstəqilliyini bərpa etdilər. Bütün bunlar Azərbaycan tarixində mühüm əhəmiyyət daşıyan tarixi proseslər idi.



H.Əliyev Azərbaycanda əhalinin mütləq əksəriyyətinin azərbaycanlılardan ibarət olmasına sevinir, «azərbaycanlı» adı ilə fəxr edir, bu adın hamını uğurla birləşdirdiyindən qürur duyurdu. Demoqrafik inkişaf Azərbaycan xalqının inteqrasiyasını sürətləndirir, qaynayıb qarışmasını, özünü təşkil etmə niyyətlərini və bacarığını gücləndirirdi.

## IX FƏSİL

## HƏRBÇİ KADRLARIN HAZIRLANMASI VƏ HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

XX əsrin əvvəllərində azərbaycanlı hərbçi kadrların olmaması və ya az olması milli ziyalıları düşündürən məsələlərdən biri idi. Çarizmin azərbaycanlılara etibar etməyərək onları hərbi xidmətə çağırmaması başlıca problemlərdən biri olaraq qalırdı. Yalnız yüksək təbəqəyə mənsub, çarizmə sədaqətini sübut etmiş şəxslərin övladları hərbi xidmətə yaxın buraxılırdılar. Belə şəxslər sayca az olsalar da, onlar hərbi bilik və bacarıqları ilə məşhurlaşaraq Rusiya ordusunda ən yüksək rütbələr qazanmış, hərb tarixində şərəfli yer tutmuşdular. Azərbaycanlı generallar – Ə.Şıxlinski, S.Mehmandarov, Naxçıvan xanlarının övladlarından çar ordusunda general rutbəsi alan 6 nəfər – H.Naxçıvanski, K.Naxçıvanski, C.Naxçıvanski və başqaları böyük şöhrət qazanmışdılar. Buna baxmayaraq, etimadsızlıq davam edirdi. Hətta birinci dünya müharibəsi başladıqda çarizm müsəlmanlara yenə də etibar etməyərək hərbi xidmətə çağırmadı. Çarizmin belə ayrı-seçkilik siyasəti müsəlmanların kəskin narazılığına səbəb oldu. 1916-cı ildə cəbhələrdə rus ordusunun vəziyyəti ağırlaşdıqda hərbi xidmət yaşı çatmış müsəlmanların mülki işlərə cəlb edilməsi məsələsi gündəliyə gəldi. İmperatorun müsəlman əhalidən yolların çəkilişində, körpülərin tikintisində və s. istifadə etmək barədə həmin ilin iyun ayının 25-də sərəncam verməsi müsəlmanların narazılığını daha da gücləndirdi. Bəzi müsəlmanlar nəinki döyüşmək, hətta mülki işlərdə işləmək istəməyərək bildirirdilər ki, onlar tikinti işlərinə cəlb edilsələr, qadınlar şəriətə uyğun olaraq təsərrüfat işlərini görə bilməyəcəklər, maddi çətinlik yaranacaq, belə şəraitdə İslam dininin yol vermədiyi bəzi əxlaqsızlıq halları da ola bilər. Hakimiyyət əhalinin bu məsələdə mövqeyini xüsusi xidmət orqanları vasitəsilə öyrəndikdən sonra qərarından geri çəkildi. Bakı şəhər rəisi vəzifəsini icra edən Kovalyov Qafqaz canişininin mülki işlər üzrə köməkçisinə 1916-cı il 11 iyul tarixli 4049№li tam məxfi məktub yazaraq 19 yaşdan 45 yaşadək olan müsəlmanların (onların sayı təxminən 80 min nəfər idi) cəbhəni möhkəmləndirmək üçün işlərə cəlb edilməsi barədə 25 iyun tarixli sərəncamın xüsusi göstəriş olana qədər təxirə salındığını bildirdi. O qeyd edirdi ki, müsəlmanlar orduya çağırılmamalarını onlara olan inamsızlıq kimi qiymətləndirirlər. Kovalyov eyni zamanda arzu edən müsəlmanların döyüşən orduya çağırılması barədə göstəriş verilməsini xahiş edirdi[1]. Bundan sonra müsəlmanların mülki işə çağırılması dayandırıldı. Azərbaycanlıların orduya səfərbərliyə alınmamaları bir sıra mənfi nəticələr doğururdu. Onlar hərbi işi bilmir, döyüş texnikasından və əməliyyatların aparılmasından xəbərsiz qalırdılar. Bu azmış kimi, azərbaycanlılar xanlıqlar dövründə mövcud olmuş özünümüdafiə qabiliyyətini unudurdular. Azərbaycan xalqına qarşı etimadsızlıq dərinləşirdi. M.Rəsulzadə bununla əlaqədar olaraq sonralar yazırdı: «Qonşuları ermənilərlə gürcülər mükəlləfiyyəti-əsgəriyyədə bulunduqlarından müdafiənəfs üçün əsgərliyin əski üsulları ilə amma buluşuyorlardı. Halbuki müsəlmanlar təşkilatı-əsgəriyyəcə xanlıqlar dövründəki üsuli – müdafiələrini belə unutmuşlardı. Xristian generallar, miralaylar məbzul ikən, azərbaycanlı bulunan zabitləri barmaqla saymaq mümkündür»[2].

Etirazlardan sonra çarizm azərbaycanlı könüllüləri



---

[1] Документы по русской политике в Закавказье. Выпуск первый. Издание особой Комиссии при Министерстве Иностранных Дел Азербайджанской Республики, Баку, 1920, с.218-219.

[2] Rəsulzadə M. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s. 50-51.

hərbi xidmətə çağırmağa başladı. Lakin yenə də onlara etibar etməyərək Qafqaz cəbhəsində Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlarda istifadə etməyib Qərb cəbhəsinə göndərdi. Döyüş meydanlarında azərbaycanlı hərbçilər misilsiz qəhrəmanlıqlar göstərdilər. Müsəlmanlardan ibarət yaradılan və hərbi əməliyyatlarda fərqlənən diviziyaya bəzən həqarətlə «Vəhşi diviziya» da deyirdilər. Müharibənin gedişində Rusiya imperatorluğunun dağılması nəticəsində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra həmin diviziya milli ordunun əsasını təşkil etdi.

Bolşevik işğalı ilə Azərbaycanın dövlət müstəqilliyi itirildikdən bir müddət keçdikdən sonra milli ordu hissələri təcavüzlə barışmayaraq antisovet silahlı üsyanlarda, istiqlalın bərpası uğrunda mübarizədə fəal iştirak etdilər. Elə buna görə də azərbaycanlı hərbçilərə qarşı amansız cəza tədbirləri həyata keçirildi. Sovet hakimiyyəti bir neçə il sonra Azərbaycan diviziyasını ləğv etdi. Ölkədə vahid ordu sistemi yaradıldı. 20-30-cu illərdə onlarla yüksək rütbəli azərbaycanlı zabit təqiblərə məruz qaldı, həbsxanalara salındı, sürgün edildi və güllələndi.

İkinci dünya müharibəsinin gedişində yüksək rütbəli azərbaycanlı hərbçilərin yetişməsi üçün şərait yaransa da, sovet hökuməti onlara general rütbəsinin verilməsinə xəsislik edirdi. Azərbaycanlıların çatdıqları ən yüksək hərbi rütbə adətən, polkovnik olurdu. İkinci dünya müharibəsindən sonra da sovet ordusunda xidmət edən azərbaycanlı generalları barmaqla saymaq olardı.

Azərbaycanın öz ordusunu yaratması barədə söhbət gedə bilməzdi. Azərbaycanlı hərbçilərin hazırlanması yalnız sovet ordusu tərkibində mümkün idi. Lakin bu da problemlərsiz deyildi. Çünki azərbaycanlılar sovet ordusu sıralarında tank, raket, aviasiya və s. kimi hərbi-texniki sahələrdə deyil, əsasən tikinti batalyonlarında xidmətə çağırılırdılar. Əslində çarizm dövründə azərbaycanlılara bəslənən münasibətlə sovet hökumətinin münasibəti arasında mahiyyətcə elə



də ciddi fərqlər yox idi. Bunu xarici ölkələrin, o cümlədən ABŞ tarixçiləri əsərlərində xüsusi olaraq vurğulayırlar.

Qeyd etmək lazımdır ki, 60-cı illərdə Azərbaycan sovet ordusuna ildə təxminən 60 min əsgər verirdi. H.Əliyev hakimiyyətə gələnə qədər azərbaycanlıların yalnız 15%-i döyüş hissələrində, qalan 85%-i isə tikinti və digər hərbi hissələrdə xidmət edirdilər. Döyüş hissələrində xidmət edən 15%-in də yarıdan çoxu həmin hissələrin yeməkxanalarında, bərbərxanalarında, ümumiyyətlə, xidmət sahələrində işləyirdi. Sovet rəhbərliyi ölkənin türk və müsəlman əhalisindən olan yüksək rütbəli hərbçilərin orduda çoxluq təşkil edəcəyindən əndişə duyurdu. Bununla bağlı olaraq ingilis tarixçisi Cefri Hoskinq yazır ki, sovet ordusunda yüksək rütbəli zabitlər içərisində müsəlmanlar, gürcülər və pribaltikalılar yox idi[3].

Yaranmış belə acınacaqlı vəziyyətin düzəldilməsinə, azərbaycanlılara olan münasibətin yaxşılaşdırılmasına, Moskvanı şübhələndirməmək şərti ilə milli hərbçi kadrların hazırlanması üçün baza yaradılmasına, dövlətin hərb sistemində azərbaycanlıların irəli çəkilməsinə, yüksək rütbələr verilməsinə və vəzifələrdə yerləşdirilməsinə ehtiyac duyulurdu. Bu məqsədin həyata keçirilməsi böyük məharət və ustalıq tələb edirdi.

Belə şəraitdə H.Əliyevi düşündürən başlıca məsələlərdən biri azərbaycanlılar arasından hərbçi kadrların yetişdirilməsi idi. O vaxt təbii ki, çoxları bir neçə on ildən sonra Azərbaycanın müstəqil olacağını düşünmürdü. Lakin H.Əliyevin sonralar etiraf etdiyi kimi, o, bu fikir ilə yaşayır və düşünürdü ki, gərək Azərbaycanın milli hərbçi kadrları olsun. Sovet ordusunda azərbaycanlı zabitlərin azlığı, generalların və marşalların olmaması onu narahat edir və daxilən incidirdi.

Bu dövrdə Bakıda iki ali hərbi məktəb var idi. Biri Ali Ümumqoşun Komandirləri Məktəbi, o birisi isə Hərbi Dəniz

---

[3] Хоскинг Д. История Советского Союза. 1917-1991. Пер. с англ., с.441.

# THE AZERBAIJANI TURKS

## Power and Identity under Russian Rule

Audrey L. Altstadt

HOOVER INSTITUTION PRESS
Stanford University
Stanford, California



# 11 The Era of Heydar Aliyev (1969–1987)

## STATE AND PARTY POLITICS

Heydar Ali Rzaoglu Aliyev (born 10 May 1923) became first secretary of the Azerbaijan Communist party at the July 1969 plenum. He held that post until his 1982 promotion to first deputy chairman of the USSR Council of Ministers. A native of Nakhjivan, Heydar Aliyev's education was interrupted by World War II. According to one report, he was a member of the military counterintelligence group SMERSH on the Ukrainian front.[1] He joined the CPSU and the KGB in 1945; after 1953, he worked in the KGB's Eastern Division, traveling to Pakistan, Iran, Afghanistan, and Turkey. He attended the evening division of the history faculty of Azerbaijan State University and graduated in 1957.[2] During the 1960s he advanced to the rank of major-general in the KGB.

Aliyev's boss in the Azerbaijan KGB was Semyon Tsvigun, a longtime associate and Brezhnev's brother-in-law. Tsvigun reportedly helped Aliyev to succeed him as KGB chief when Tsvigun was promoted by Brezhnev to be

ian, especially among the indigenous population.[36] The population wn from 3,697,717 in 1959 to 5,117,081 in 1970 and to 6,028,253 . For the first time the republic had a larger urban (53 percent) than pulation. More than 1.5 million lived in Ba , and though the 1979 id not reveal the national composition of ci , the local Azerbaijani elites believed they had regained their majority in the capital. Indeed, re to publish these data was regarded as confirmation of that. y the republic as a whole was more native. In 1959 Azerbaijani Turks over 67 percent of the republic's population; according to the 1970 hey had grown to nearly 74 percent, and by 197 were over 78 he high birthrate and the emigration of Russians and other nation- unted for the shift. In 1979 Russians accounted for only 7.9 of the population, the same as Armenians, down from 10 percent 1970; in 195 14 percent were Russians and nearly 12 percent ns.[37]

"re-Turkization" of Azerbaijan has far-reaching implications for social structure, and cultural policy. The "revenge of the cradles" ected by Western scholars and perhaps by local elites to translate ter power in politics and the economy and to facilitate the reassertion al dominance.[38]

## AZERBAIJANI TURKS IN THE SOVIET MILITARY

In the aftermath of the 1979 census, political and military analysts estions about the national composition of future draftees for the niversal male military service. At the root of their concern was the f "Muslims" (Azerbaijanis, Tatars, Kazakhs, Uzbeks, and others) experienced population explosions and whose homelands in many dered Ayatollah-ruled Iran or Soviet-occupied Afghanistan. The as a tacit recognition of the discriminatory and repressive treatment t to these nationalities during the years of Soviet rule. Traditional ears of the descendants of the Golden Horde and Timur (Russia's lers and adversaries) came to the fore.

roubles within the Soviet Armed Forces (SAF) could not be papered baijanis, like other Turkish and traditionally Muslim nationalities, willing to serve in the Russian-dominated SAF where they were harassed and injured. Their republics' preinduction programs were ven if the Turks had a good command of Russian (which Azerbai- Baku often do), they were assigned the worst duty, especially in





*stroibat* or construction battalions, where conscripts were denied weapons and received no specific military training.[40] These practices recall tsarist-era warnings against training "colonials" to use weapons, for after completing their service, they would form a pool of trained men who were potentially hostile to the regime and who outnumber the active-duty forces stationed in their region.[41] The recruits from these republics were beaten and robbed by senior, or second-year, recruits, were fed substandard food, and received brutal punishments for trivial transgressions.

Specific information from Azerbaijan is lacking in studies of émigrés, probably because of the low rate of emigration by Azerbaijani Turks; émigrés from the republic are usually members of other nationalities. Despite reports of Georgian-Armenian and occasionally Armenian-Azerbaijani violence,[42] several Azerbaijani Turks interviewed in the USSR said there was a tendency for all recruits from Caucasia to band together against Slav officers or noncommissioned officers.[43]

Some Azerbaijanis who had completed Russian-language schooling were assigned to noncombat duties, though they did not lack langauge facility, education, or ability. Other reports of recruits returning from active duty (before 1979) with total hair loss, greatly aged, or impotent fostered rumors that the army was using them for experiments with chemical weapons. These claims were later sustained by the Soviet use of such weapons in Afghanistan. In one case an Azerbaijani recruit was beaten so severely that the victim was hospitalized for several months and never recovered. Despite rumors of the ease of bribing officials to secure exemptions,[44] some Azerbaijanis report the near impossibility of bribing recruiters and the extreme difficulty of securing exemptions even for medical reasons.

Donanmasının Ali Hərbi Dənizçilik məktəbi idi. Bu məktəblərin hər birinə ildə 300 nəfər gənc qəbul edilirdi. Lakin Ümumqoşun Komandirləri Məktəbində azərbaycanlıların sayı 5-6 nəfər, Dənizçilik Məktəbində isə 2-3 nəfər idi. Bakıda yerləşməsinə baxmayaraq, məktəblərdə Azərbaycandan təhsil alanlar demək olar ki, yox dərəcəsində idi. Ukrayna, Belorusiya, Rusiya, Gürcüstan, hətta Ermənistandan gəlib Bakıda oxusalar da, azərbaycanlılar məktəblərə qəbul oluna bilmirdilər.

H.Əliyev belə biabırçı vəziyyətə son qoymaq üçün geniş fəaliyyətə başladı. Məsələ barəsində o dəfələrlə Moskvaya məktublar yazaraq nəhayət, problemin həllinə nail oldu. Bilavasitə onun xidmətləri sayəsində artıq 70-ci illərdə hərbi xidmətə çağırılan azərbaycanlılarn demək olar ki, 95%-i döyüş hissələrində xidmət edirdi.

H.Əliyev çağırış yaşlı gənclərin sağlamlığına qayğı göstərilməsi barədə göstəriş vermişdi. Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında gündəlikdə duran ikinci məsələ kimi çağırış yaşına çatmamış və çağırışçı gənclərin müalicə-sağlamlıq işlərinin yaxşılaşdırılması haqqında ən məxfi qrifi ilə qərar qəbul edildi və müvafiq göstərişlər verildi[4].

Qeyd etmək lazımdır ki, iki dünya sistemi arasında soyuq müharibənin getdiyi bir şəraitdə hərbiləşdirmə xəttini seçən sovet dövlətinin siyasətindən H.Əliyev Azərbaycanın mənfəətləri üçün istifadə etməyə çalışırdı. O, hakimiyyətə gələndən sonra dövlətin ümumi siyasəti fonunda orta məktəblərdə İbtidai hərbi hazırlıq fənni tədris edilməyə başlandı, hərbi kadrların hazırlanmasına, hərbçilərə, hərbi vətənpərvərlik tərbiyəsinə diqqət yetirildi.

H.Əliyevin Azərbaycanda hərbi məktəbin yaradılması istiqamətində fəaliyyəti öz nəticəsini verdi. Bakıda 1971-ci ilin noyabr ayında gəncləri ali hərbi məktəblərə hazırlayan ilk ümumtəhsil məktəbi olan ixtisaslaşdırılmış internat mək-

[4] ARSPİHDA, f. 1, siy. 56, iş 49, pr. № 107, § 2, v. 2.



təbi açıldı. Yeddinci sinfi bitirən gənclər orada təhsillərini davam etdirməklə yanaşı hərbi təhsil alır, fiziki cəhətdən mətinləşir, rus dilini öyrənir, ali hərbi məktəblərə daxil olmaq üçün imkan qazanırdılar. Bu addımı atmaqla H.Əliyev iki problemi böyük məharətlə həll etdi. Bir tərəfdən, Azərbaycan və azərbaycanlılar üçün tarixi əhəmiyyət daşıyan hərbi məktəbi heyrətamiz bacarıqla yaratdı, digər tərəfdən, 1976-1977-ci illərdən başlayaraq SSRİ-nin ali· hərbi məktəblərinə ildə 800-900 nəfər gəncin göndərilməsinə nail oldu. Əlbəttə, həmin gənclərin hamısı bu məktəbləri bitirə bilməsə də, hər halda bir qismi rütbəli hərbçilər olurdular. Məktəblərdə ildə təxminən 700 nəfər zabit hazırlanırdı. Bu, H.Əliyevin böyük tarixi xidməti idi.

Bir müddət keçdikdən sonra hərbi məktəbə görkəmli Azərbaycan generalı Cəmşid Naxçıvanskinin adı verildi. Qeyd etmək lazımdır ki, C.Naxçıvanski çar ordusunun generalı, Azərbaycan Xalq Cümhuriyyəti ordusunda isə süvari hissəsinin komandanı olmuş, 1920-ci ilin aprel işğalı zamanı bolşeviklərin tərəfinə keçmiş, 20-ci illərdə baş verən antisovet üsyanların yatırılmasında fəal iştirak etmişdi. 1921-1931-ci illərdə Azərbaycan diviziyasına komandanlıq etmişdi. Bir neçə dəfə sovet orqanları tərəfindən həbs edilsə də, azad olunmuşdu. Lakin qardaşı Kəlbalı xan Naxçıvanskinin mühacirət edərək İranda antisovet fəaliyyətlə məşğul olduğu bəhanə gətirilərək 1938-ci ildə həbs olunub repressiya edilmişdi. Antisovet damğası uzun müddət onun üzərində qalırdı. Stalinin ölümündən sonrakı illərdə bəraət alsa da, onun unutdurulması davam edirdi. Yeridilən belə siyasəti cəsarətlə dayandıran H.Əliyev hərbi məktəbə onun adının verilməsindən ötrü Moskvaya məktub yazaraq istəyinə çatdı. Lakin Azərbaycan rəhbərinin hərbi məktəb açmasına və azərbaycanlı gənclərin hərbi məktəblərə qəbul olunmalarına maneçilik törədən bir sıra obyektiv və subyektiv amillər var idi. Bəzi gənclər uzunmüddətli hərbi qulluğa getmək istəmir, bəziləri isə istəsələr də, rus dilini bilmədiklərindən arzularını

həyata keçirə bilmirdilər. Hərbi məktəbə getmək istəyən gənclərin bir qisminin isə fiziki hazırlığı zəif idi.

Hərbi məktəbi açmağın başqa çətinlikləri də var idi. Bu da əsasən ölkədə yeridilən rəsmi siyasətlə bağlı idi. Əvvəla, belə bir məktəbin açılmasına Moskvada bəzi qüvvələr isti yanaşmır, «məqsədəuyğun deyildir» deyə açıqcasına mane olurdular. Digər tərəfdən, Azərbaycanda bu sahədə kifayət qədər təcrübə toplanmamışdı. Yerli peşəkar hərbçi müəllimlər azlıq təşkil edirdi. Maddi-texniki bazanın yaradılması işində də xeyli çətinliklər mövcud idi. H.Əliyev bu barədə 1981-ci ildə açıq şəkildə belə deyirdi: «... biz məktəbin təşəkkülü və inkişafı dövründə qarşıya çıxan və aradan qaldırılan çətinliklər barədə də danışmalıyıq. Açıq deyək ki, bu yol asan olmamışdır. Qarşımıza aydın məqsəd qoymuş olsaq da, on il bundan əvvəl müvafiq təcrübəmiz, praktikamız yox idi. Bir çoxlarını ixtisaslaşdırılmış məktəbin məqsədəuyğunluğuna inandırmaq lazım gəlirdi, orta məktəbin adi kollektivindən bir qədər fərqlənən müəllim kollektivi açıb toplamaq, müvafiq maddi-texniki baza yaratmaq və başqa tədbirlər həyata keçirmək lazım idi»[5].

Bütün çətinlikləri aradan qaldıran H.Əliyev məktəbi yaratmaqla istəyinə uğurla nail oldu.

Məktəbin yaradılmasının böyük tarixi əhəmiyyəti var idi. Azərbaycanlıların hərb elminə olan maraqları artır, peşəkar hərbçilərin sistemli hazırlanması üçün fəaliyyətin əsası qoyulurdu. Məktəbin açılmasından sonra həyata keçirilən tədbirlər deyilənləri aydın şəkildə təsdiq edirdi.

H.Əliyev məktəbin yubileyinin keçirilməsinə də xüsusi önəm verirdi. Azərbaycan KP MK və Nazirlər Soveti 1981-ci ildə C.Naxçıvanski adına hərbi məktəbin 10 illiyinin qeyd olunması haqqında qərar qəbul etdi. Qərardan məlum olur ki,

[5] H.Ə.Əliyevin C.Naxçıvanski adına internat məktəbin 10 illiyinə həsr edilən təntənəli yığıncaqda nitqi. – «Kommnist» qəzeti, 1981, 11 dekabr, № 285 (17919).



həmin ilin yayınadək məktəbi 433 nəfər bitirmişdi. Onlar ölkənin 44 ali məktəbinə daxil olmuşdular. Məktəbin yetirmələrinin 62 nəfəri zabit kimi orduda xidmət edirdi. Ən başlıcası o idi ki, azərbaycanlılar arasında məktəbə daxil olmaq istəyən yeniyetmələrin sayı getdikcə artırdı.

MK və Nazirlər Sovetinin qərarına əsasən 250 nəfər üçün əlavə yataq korpusu ilə birlikdə internat məktəbin üçüncü növbəlilik tikintisini 1982-ci ildə başa çatdırmaq nəzərdə tutulmuşdu. İnternat məktəbin yeni obyektlərinin: iki yataq korpusunun, idman kompleksinin, qazanxana və b. lazımi layihə-smeta sənədlərini işləyib hazırlamaq barədə Dövlət Layihə İnstitutuna göstəriş verildi. Qərarda şagirdlərə göstərilən məişət, tibbi və mədəni xidmətin daha da yaxşılaşdırılması nəzərdə tutulurdu[6].

1981-ci ilin dekabr ayında H.Əliyevin iştirakı ilə C.Naxçıvanski adına internat məktəbin 10 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaq keçirildi. Tədbirdə H.Ə.Əliyev geniş nitq söylədi və müdavimlər üçün yaradılan məişət şəraiti ilə tanış oldu. Dərin məzmun daşıyan bu nitq onun Azərbaycanda hərb elminə və azərbaycanlılardan ibarət peşəkar hərbçi kadrların hazırlanmasına böyük önəm verdiyini göstərir, eyni zamanda həyata keçirilən tədbirlərin inkişaf dinamikasını sübut edirdi. H.Əliyevin məruzəsindən aydın olur ki, 1971-1981-ci illərdə məktəbin 540 nəfər yetirməsi akademiyalara, məktəblərə və ya hərbi məktəblərə daxil olmuşdu. Onlar 47 ali məktəbdə təhsil alırdılar. Bu gənclərin 130 nəfəri zabit olmuşdu. 1981-ci ildə hərbi məktəbdə 500-dən artıq şagird oxuyurdu. Onların 310 nəfəri hərbi məktəbə yalnız 1981-ci ildə qəbul edilmişdi[7]. Bütün bunlar bilavasitə H.Əliyevin qayğısı sayəsində qısa müddət ərzində məktəbin nüfuzunun artdığını, onun açılışına mane

[6] «Kommunist» qəzeti, 1981, 19 iyul, № 165 (17799).

[7] H.Ə.Əliyevin C.Naxçıvanski adına internat məktəbin 10 illiyinə həsr edilən təntənəli yığıncaqda nitqi. – «Kommunist» qəzeti, 1981, 11 dekabr, № 285 (17919).

olanların «məqsədəuyğun deyildir» kimi iddialarını puça çıxardığını göstərirdi. Əslində bu, H.Əliyevin hərbçi kadrların yetişdirilməsi sahəsində fəaliyyətinin təntənəsi idi. H.Əliyev bununla bağlı olaraq deyirdi: «Bu müddət ərzində onun nüfuzu istər Azərbaycanda, istərsə də ölkədə artmışdır, respublikanın ictimaiyyəti məktəbin yaradılması faktının özünü də, onun kollektivinin müvəffəqiyyətli işini də yüksək qiymətləndirir»[8].

Qısa müddət ərzində Azərbaycanda gənclərin hərb elminə olan marağı heyrətamiz dərəcədə artdı, məktəbə daxil olmaq istəyənlərin sayı çoxaldı. Məsələn, 1981-ci ildə C.Naxçıvanski adına hərbi məktəbə planda nəzərdə tutulan 300 yerə 650 nəfər qəbul üçün ərizə vermişdi[9]. Nəticədə məktəbə qəbul zamanı müsabiqə yüksək olur və yalnız istedadlılar qəbul olunurdu. Şagird heyətinin bilik keyfiyyəti də yüksəlirdi. Bu isə H.Əliyevin fəaliyyətinin uzaqgörənliyini və doğruluğunu təsdiqləyirdi. Belə vəziyyət Azərbaycan rəhbərini sevindirirdi. O, nitqlərinin birində aydın şəkildə deyirdi: «...ixtisaslaşdırılmış internat məktəb yaradılmaqla 1971-ci ildə necə yüksək bir iş başlanmışdır»[10].

H.Əliyev məktəbə qəbul planının ildən-ilə artırılmasına çalışır və buna uğurla nail olurdu. Məsələn, artıq 1985-ci ildə hərbi məktəbə 500 nəfərin qəbul edilməsi nəzərdə tutulmuşdu[11]. Qeyd etmək lazımdır ki, məktəbi bitirmiş peşəkar hərbçilər Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra milli ordunun nüvəsini təşkil edərək ərazi bütövlüyü uğrunda döyüşlərdə fəal iştirak etdilər.

H.Əliyev azərbaycanlıların təkcə C.Naxçıvanski adına hərbi məktəbdə təhsil almaları ilə kifayətlənmir, onların SSRİ-nin ali hərbi məktəblərində oxumasına xüsusi diqqət yetirir, bunun üçün Moskvadan böyük iradə və inadla icazə

[8] «Kommunist» qəzeti, 1981, 11 dekabr, № 285 (17919).
[9] Yenə orada.
[10] Yenə orada.
[11] Yenə orada.



alır, istəyinə nail olurdu. Məsələn, əgər 1971-ci ildə SSRİ hərbi məktəblərinə 71 azərbaycanlı daxil olmuşdusa, 1974-cü ildə onların sayı 149 nəfərə çatdırıldı. Bu isə başlanmış işin böyük uğurundan xəbər verirdi. SSRİ Müdafiə Nazirliyi hərbi-təhsil müəssisələri baş idarəsinin rəisi, tank qoşunları general-leytenantı V.Makarov Azərbaycan KP MK-ya yazdığı 1975-ci il 14 mart tarixli 207/163 №-li məxfi məktubunda «yerli azərbaycanlı millətindən olan gənclərin hərbi təhsil müəssisələrinə cəlb edilməsini müsbət iş» hesab edir və respublika rəhbərliyinə təşəkkürünü bildirirdi[12].

Artıq qeyd edildiyi kimi, 70-ci illərin sonunda baş verən İran inqilabı və Əfqanıstana sovet hərbi müdaxiləsindən sonra SSRİ-nin beynəlxalq mövqelərinə ağır zərbə vurulmuşdu. Sovet dövləti üçün həm Qərbdə, həm də müsəlman ölkələrində çox ağır vəziyyət yaranmışdı. Sovet dövlətinin bu ölkələrə münasibətdə yeritdiyi siyasət əhali tərəfindən etirazla qarşılanırdı. Müsəlman dünyasında təkcə sovet siyasətini yeridən xadimlər deyil, eyni zamanda praktik işləri həyata keçirən, müsəlman xalqları arasında pis qarşılanmayan, İslam dininə itaət edən əsgər və zabitlər də lazım idi. H.Əliyev məhz bu məqamdan böyük məharətlə istifadə edərək azərbaycanlıların hərbi işlərə daha geniş şəkildə cəlb edilməsinə başladı. Bundan sonra SSRİ-nin türk, müsəlman xalqlarının nümayəndələrindən olan peşəkar hərbçi kadrların hazırlanması işi əvvəlki illərlə müqayisədə xeyli genişləndi. Belə şəraitdə H.Əliyev azərbaycanlı gənclərin hərbi məktəblərə daha çox qəbul edilməsinə nail oldu. Məsələn, belə bir fakt əhəmiyyətlidir ki, artıq 1982-ci ildə ölkənin hərbi məktəblərinə Azərbaycandan 1000 nəfər daxil olmuşdu. Onların da 550 nəfəri yerli millətin, azərbaycanlıların nümayəndəsi idi[13].

H.Əliyevin peşəkar hərbçilər hazırlanması istiqamətində tarixi əhəmiyyət daşıyan fəaliyyəti öz bəhrəsini uğurla

[12] ARSPİHDA, f. 1, siy. 62, iş 138, v. 177.
[13] ARSPİHDA, f. 1, siy. 70, iş 203, v. 27.

verirdi. Azərbaycanlılardan olan yüksək rütbəli zabitlərin sayı sovet ordusunun döyüş hissələrində artmağa başlamışdı. Hərbi texniki hissələrdə xidmət edən yüksək rütbəli azərbaycanlı zabitlərin sayı bütün sovet hakimiyyəti illəri ilə müqayisədə heç vaxt 70-80-ci illərdəki qədər olmamışdı. Bu isə H.Əliyevin Azərbaycan xalqı qarşısında tarixi xidməti olub, gələcək müstəqilliyin təməllərindən birinin hazırlanması demək idi.

H.Əliyev hakimiyyətdə olduğu illərdə azərbaycanlılardan peşəkar hərbi dənizçilərin yetişdirilməsinə də diqqət yetirirdi. Doğrudur, yuxarıda qeyd edildiyi kimi, H.Əliyev hakimiyyətə gələrkən Azərbaycan paytaxtında Qafur Məmmədov adına Bakı Dənizçilik Məktəbi fəaliyyət göstərirdi. Bu məktəb hələ çarizm dövründə yaradılmışdı. Azərbaycanın sovetləşməsindən əvvəlki illərdə məktəbin müdavimləri sırasında azərbaycanlılar demək olar ki, yox dərəcəsində idi. Məsələn, 1920-ci ilin aprelinədək həmin məktəbi bitirən 1000 nəfərin əsasən hamısı başqa xalqların nümayəndələri olmuşdu[14]. Belə acınacaqlı siyasət sovet hakimiyyəti illərində də davam etdirilirdi. H.Əliyev bu vəziyyətin dəyişdirilməsi istiqamətində geniş fəaliyyətə başlayaraq məktəbə diqqət yetirməyə, ilk növbədə maddi-texniki bazasını möhkəmləndirməyə səylər etdi. Onun təşəbbüsü ilə Dənizçilik Məktəbinin fəaliyyətinə dair məsələlər MK bürosunda müzakirəyə çıxarılır və müvafiq qərarlar qəbul edilirdi[15]. Məsələn, MK bürosu məktəbin yubileyini keçirmək barədə qərar qəbul etdi. Bundan sonra H.Əliyev məktəbin yaradılmasının 100 illiyi münasibəti ilə 1981-ci il sentyabr ayının 29-da Sov.İKP MK-ya 20/518 №-li məxfi məxfi məktub yazaraq yubileyin keçirilməsini və maddi-texniki bazasının möhkəmləndirilməsini xahiş etdi və bu istəyinə nail oldu. Bundan sonra məktəbə diqqət daha da artırıldı[16]. Məktəbin

[14] ARSPİHDA, f. 1, siy. 68, iş 362, v. 167-168.
[15] «Kommunist» qəzeti, 1981, 13 dekabr, № 287 (17921).
[16] ARSPİHDA, f. 1, siy. 68, iş 362, v. 167-168.



təchizatı yaxşılaşdırıldı, təntənəli yubiley tədbiri keçirildi, dənizçilər haqqında mahnılar bəstələndi, mətbuatda məqalələr dərc olundu. Heç şübhəsiz, bütün bu tədbirlərin ciddi nəticələri olurdu: azərbaycanlı gənclərin dənizçilik peşəsinə olan maraqları daha da artır, məktəbin müdavimləri arasında onların sayı çoxalırdı. Azərbaycanlı dənizçilər artıq nəinki Xəzər dənizində, həmçinin dünya dəniz və okeanlarında üzən sovet gəmilərində işləməyə başlamışdılar. Hərbi dəniz donanmasında qulluq edən azərbaycanlı zabitlərin sayı da çoxalırdı. Heç əbəs deyil ki, Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa edərkən və milli dövlət quruculuğu illərində Xəzər dəniz donanması respublikanın su sərhədlərinin qorunmasında başlıca rol oynadı.

Ümumiyyətlə, Azərbaycanda bütün sovet dövründə peşəkar hərbi dənizçilərin hazırlanması sahəsində ən yüksək inkişaf məhz H.Əliyevin hakimiyyəti illərində olmuşdur.

Azərbaycan rəhbəri kosmonavtlar içərisində azərbaycanlıların olmaması faktı ilə barışa bilmir, bu sahədə geriliyin aradan qaldırılmasına çalışırdı. Lakin kosmonavtların cərgəsinə yalnız təyyarəçilik məktəbini bitirənləri götürürdülər. Həmin məktəblərdə isə azərbaycanlıların nümayəndələri təhsil almırdı. Buna görə də H.Əliyev azərbaycanlılardan ibarət təyyarəçilərin hazırlanması məsələsinə də strateji önəm verir, problemi qaldırır, həllindən ötrü mühüm addımlar atırdı. Ali məktəblərə qəbulla bağlı Mərkəzi Komitədə keçirilən müşavirələrdən birində H.Əliyev Bakı Ümumqoşun Komandirləri Məktəbinin rəisindən aviasiya məktəblərində azərbaycanlıların təhsil alması məsələsi ilə maraqlanır. Məlum olur ki, vəziyyət acınacaqlıdır, azərbaycanlılardan bu məktəblərdə oxuyan yoxdur. Belə olduqda H.Əliyev məktəbin rəisindən problemin həllini qətiyyətlə tələb edərək açıq şəkildə bildirir ki, yerli əhalinin nümayəndələrini həmin məktəblərə təhsil almağa göndərmək lazımdır.

H.Əliyev Ümumqoşun Komandirləri Məktəbinin rəisindən vəziyyətin düzəldilməsini tələb etsə də, özü bi-

lavasitə bu məsələnin həllinə girişdi. Məhz onun inadlı təkidləri nəticəsində ölkənin aviasiya məktəblərinə azərbaycanlı gənclər təhsil almağa göndərildi. Məsələn, H.Əliyevin göstərişi əsasında Kiyev Mülki Aviasiya institutuna 42 nəfər azərbaycanlı gənc oxumağa göndərildi[17]. Bu təyyarəçilərin böyük əksəriyyəti Azərbaycan mülki aviasiyasında, müstəqillik illərində isə respublikanın hərbi hava qüvvələrində xidmət etdilər.

Göründüyü kimi, H.Əliyev böyük ustalıqla hərbi məktəb açır, onun maddi-texniki bazasını gücləndirir, azərbaycanlı gəncləri hərbi təhsilə və hərb elminə cəlb edirdi. Hərbçi kadrların hazırlanması H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi. Lakin o, Moskvaya işləməyə getdikdən sonra bu məktəblərə diqqət azaldı, bəziləri hətta onun gərəksizliyi barədə fikirlər də səsləndirməyə başladılar. Amma Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra ordu quruculuğuna olan tələbat H.Əliyevin milli hərbçi kadrların hazırlanması sahəsində fəaliyyətinin uzaqgörənliyini və doğruluğunu göstərirdi.

Məlumdur ki, vətənpərvərlik olmadan milliyyətçilik və millətsevərlik mümkün deyil. Fəaliyyəti ilə ən böyük vətənsevər, vətənpərvər, Azərbaycansevər olan H.Əliyev azərbaycanlı gənclərin məhz bu ruhda tərbiyə edilməsinə xüsusi diqqət yetirirdi. Onun fikrincə, hər bir azərbaycanlı əsl vətənpərvər olmalı idi. Azərbaycan rəhbəri bu məqsədə nail olmaqdan ötrü müxtəlif vasitələrdən geniş istifadə edirdi. Həmin vasitələrdən biri ikinci dünya müharibəsi illərində nasist Almaniyası, faşist İtaliyası və militarist Yaponiyası üzərində qazanılmış qələbənin ildönümlərinin bütün ölkədə olduğu kimi Azərbaycanda da bayram edilməsi idi. Yubiley tədbirlərində iştirak edərək nitq söyləyən H.Əliyev SSRİ-nin müharibədə qələbə qazanmasına Azərbaycan xalqının həm arxa cəbhədə fədakar əməyi, maddi sərvətləri, nefti və b. ilə, həm ön cəbhədə hərbi hissələrdə, həm də partizan və

[17] ARSPİHDA, f. 1, siy. 68, iş 204, v. 18.



Avropa xalqlarının antifaşist müqavimət hərəkatında heyrətamiz qəhrəmanlıq nümunələri göstərməklə böyük töhfə verdiyini qürur hissilə vurğulayır, azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasının döyüş şücaətlərini xüsusi qeyd edirdi. O, Azərbaycan hərb sənətinə böyük hörmət və ehtiramla yanaşırdı. H.Əliyev belə hesab edirdi ki, Azərbaycan xalqı öz qəhrəman oğullarını cəbhədə itirməklə qələbənin qazanılmasında böyük xidmətlər göstərib, qələbədə onun da payı var, eyni zamanda faşist təcavüzünə qarşı mübarizəyə qalxmış butun ölkənin, xalqların neft və neft məhsulları ilə təmin olunmasında, arxa cəbhədə əmək rəşadəti ilə xüsusi xidmət göstərib. Azərbaycan rəhbəri bu tarixi xidməti əbədiləşdirməyə çalışır və konkret işlər görürdü. Həmin tədbirlərin yalnız bir neçəsinin sadalanması məsələnin mahiyyətini açmağa kömək edir. Məsələn, H.Əliyevin sədrliyi ilə keçirilən MK bürosunun 1970-ci il 13 mart tarixli iclasında Hitler Almaniyası üzərində qələbənin 25 illiyi münasibətilə Bakıdakı meydanlardan birinə «Qələbə meydanı» adı verməк qərara alındı[18]. Həmin qərar yerinə yetirildi.

Azərbaycan KP MK bürosunun 1971-ci il 23 iyun tarixli iclasında Bakıda Böyük Vətən müharibəsi iştirakçıları üçün abidə-lövhə qoyulması barədə qərar qəbul edildi[19]. Bu qərar da yerinə yetirildi.

Müharibədə qazanılan qələbənin 30 illiyi münasibətilə Azərbaycanın demək olar ki, bütün rayonlarında xatirə abidələri ucaldıldı. Müharibə iştirakçılarının şərəfinə Bakı, Gəncə, Lənkəran, Cəlilabad, Yardımlı və onlarla başqa şəhər və rayonlarda xatirə kompleksləri tikilidi[20]. Məktəbli gənclərin and yerinə çevrilən həmin komplekslər hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayırdı. Həmin iş bütün 70-80-ci illərdə uğurla davam etdirildi.

[18] ARSPİHDA, f. 1, siy. 57, iş 27, pr. № 122, § 9, v. 71.
[19] ARSPİHDA, f. 1, siy. 18, iş 111 (113), pr. № 15, § 14.
[20] ARSPİHDA, f. 1, siy. 65, iş 188, v. 39-49.

Müharibə illərində qələbəyə böyük töhfə vermiş, həlak olmuş Xəzər dənizçilərinin xatirəsini unutmayan H.Əliyev onların şərəfinə ucaldılmış memorialın 1979-cu il fevral ayının 23-də keçirilən açılış mərasimində şəxsən iştirak edərək nitq söylədi. Onun nitqi Xəzər hərbi dəniz donanmasının və azərbaycanlı dənizçilərin xidmətlərinə verilən yüksək qiyməti özündə əks etdirirdi.

H.Əliyev ayrı-ayrı azərbaycanlı hərbi xadimlərin, əfsanəvi qəhrəman partizanların xatirəsini əbədiləşdirmək və hərbi vətənpərvərlik tərbiyəsini gücləndirmək məqsədilə abidələr qoyulmasının təşəbbüskarı və rəhbəri idi. Belə qəhrəmanlardan biri Mehdi Hüseynzadə idi. Hərbi məktəbdə oxuduqdan sonra sovet ordusunun tərkibində Stalinqrad döyüşlərində yaralı olaraq almanlara əsir düşən, Almaniyada Vermaxt məktəbində oxuyaraq hərbi andını içən, zabiti olan, silahını gəzdirən, legioner kimi əsirlikdəki sovet vətəndaşlarını bolşevizmə qarşı mübarizəyə səsləyən, İtaliya məğlub olduqdan sonra Almaniya komandanlığı tərəfindən Balkanlara döyüşmək üçün göndərilən, lakin məqam düşən kimi partizanlara qoşularaq antifaşist hərəkatda iştirak edib qəhrəmancasına həlak olan M.Hüseynzadə barəsində SSRİ-də cinayət işi açılmışdı. Cinayət işində deyilirdi ki, o, vətən xaini kimi legioner olub, faşistlərlə əməkdaşlıq edib. Acınacaqlı bir tale idi. Partizan kimi Almaniya hərbi hissələrinə qarşı keçirilən əməliyyatlarda heyrətamiz qəhrəmanlıqlar göstərmiş, düşmənə qənim kəsilmiş, buna görə hətta başı üçün külli miqdarda pul ayrılmış Mehdi Hüseynzadə barəsində legioner olduğu üçün cinayət işi açılması yaxşı heç nəyi vəd etmirdi. Özü həlak olsa da, qohumlarının sıxışdırılması təhlükəsi şəksiz idi. Bütün bunlara yol verməyən, işləri yoluna qoyan şəxs gənc DTK zabiti Heydər Əliyev oldu. Məsələ belə olmuşdu: 50-ci illərdə SSRİ-yə səfər edən Yuqoslaviya rəsmi numayəndə heyəti hansı millətdən oduğunu bilmədən M.Hüseynzadənin partizan kimi qəhrəmanlıqlarından sovet rəhbərlərinə söz açmışdı. İlk vaxtlar Mehdinin Orta Asiya respublikalarının birindən - Türkmənistandan olduğu güman edilirdi. Lakin uzun axtarışdan sonra onun azərbaycanlı olduğu müəyyənləşdirilmişdi. Məsələnin araşdırılması məqsədilə göstərişlər verilmişdi. O vaxt DTK əməkdaşı olan H.Əliyev həmin məsələni hərtərəfli təhqiq edərək M.Hüseynzadənin əsl qəhrəman olduğuna dair tutarlı rəy hazırlamışdı. Bundan sonra onun haqqında açılmış cinayət işi dayandırılmış və o, bəraət almışdı. Lakin Azərbaycan xalqı M.Hüseynzadənin qəhrəmanlıq şücaətlərindən xəbərsiz idi. Buna görə də H.Əliyev onun tanıdılması istiqamətində fəaliyyətini davam etdirdi. Bu məqsədlə DTK əməkdaşlarından bir neçəsi məxfi materiallar əsasında qəzet məqalələri hazırlayaraq çap etdirdilər. Lakin peşəkar olmadıqları üçün qarşıya qoyulan məqsədə nail olmaq çətin idi. Buna görə də H.Əliyev materialları Azərbaycan komsomolunun Mərkəzi Komitəsinə təqdim etdi ki, M.Hüseynzadə haqqında əsər yazılsın. Məhz onun təqdim etdiyi sənədlər əsasında Mehdi haqqında roman yazıldı və bədii film çəkildi.

Azərbaycana rəhbər seçildikdən sonra da H.Əliyev bu istiqamətdəki fəaliyyətini daha böyük şövqlə davam etdirdi. Onun tapşırığına uyğun olaraq yazıçı İ.Qasımov 1970-ci il may ayının 12-dən iyunun 2-dək İtaliya, Yuqoslaviya və İsveçrədə səfərdə oldu. O, M.Hüseynzadənin döyüşdüyü Triestdə, Adriatik dənizi sahillərinə baş çəkdi, qəbrini ziyarət etdi[21]. Qəhrəmanın məzarından Azərbaycana torpaq da gətirdi. Respublikada Mehdinin tanıdılması yönündə fəaliyyətlər genişləndirildi. Mətbuatda onun haqqında yazılar, partizan yoldaşlarının xatirələri çap edildi. Lakin H.Əliyev bununla da kifayətlənmədi. Onun təşəbbüsü ilə M.Hüseynzadənin abidəsinin yaradılması işinə başlandı. Belə bir heykəl hazırlandı. Azərbaycan KP MK bürosunun 1973-cü il 13 mart tarixli iclasında abidənin açılması barədə qərar qəbul edildi[22] və həmin ilin may ayında açıldı[23]. Mərasimdə iştirak

---

[21] ARSPİHDA, f. 1, siy. 57, iş 159, v. 91.

[22] ARSPİHDA, f. 1, siy. 60, iş 19, pr. № 61, § 14.

edən H.Əliyev parlaq məruzə etdi. Bu nitq Azərbaycan rəhbərinin böyük vətənpərvər olduğunu, azərbaycanlı partizanların keçdiyi döyüş yoluna hörmətlə yanaşdığını özündə əks etdirirdi.

H.Əliyev digər azərbaycanlı hərbçilərin də xatirəsinin əbədiləşdirilməsinə çalışır və buna nail olurdu. O, 1975-ci il avqust ayının 22-də 14/415 №-li məktubla SSRİ müdafiə naziri A.A.Qreçkoya müraciət edərək tank qoşunları general-mayoru, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adının Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin daimi siyahısına salınmasını xahiş edərək onun haqqında geniş arayış da verdi. Həmin arayışda H.Aslanov görkəmli sərkərdə olaraq qiymətləndirilir, xidmətləri vurğulanırdı. Məktubda qaldırılan məsələlər yerinə yetirildi[24].

Azərbaycan rəhbəri Həzi Aslanovun abidəsinin yaradılması barədə də göstəriş verdi və bu, yerinə yetirildi. H.Əliyev belə hesab edirdi ki, Həzi Aslanovun həyat yolu, qəhrəmanlığı, ikinci dünya müharibəsi illərində xidmətləri bütün Azərbaycan gəncləri üçün örnəkdir. Onun fikrincə, hər bir azərbaycanlı vətənini Həzi Aslanov kimi sevməli idi. H.Əliyev Stalinqrad müdafiəçilərinin şərəfinə qoyulmuş abidəni ziyarət edərkən orada adları həkk olunmuş Sovet İttifaqı qəhrəmanları arasında Həzi Aslanovun da adını iftixarla oxumuş, özünün dediyi kimi, «ürəyi dağa dönmüşdü».

H.Əliyev müharibədə düşmən üzərində qələbəyə töhfə vermiş azərbaycanlıların təkcə Azərbaycanda deyil, həmçinin bütün ölkə miqyasında tanıdılması istiqamətində də fəaliyyət göstərirdi.

Müstəqilliyin çətin yol olduğunu bilən H.Əliyev Azərbaycan xalqının zəngin hərb tarixinin dirçəldilməsinə çalışır, görkəmli azərbaycanlı hərbçilərin qəhrəmanlığının bütün ölkədə təbliğ edilməsinə böyük diqqət yetirirdi. Onun təşəbbüsü ilə Moskva, Taqanroq və b. şəhərlərdə Azərbaycan xadimlərinə və hərb tarixinə həsr olunmuş abidələr qoyuldu. Həmin abidələrin bir çoxunun açılışında H.Əliyev şəxsən iştirak edərək nitq söyləmişdi. Məsələn, Taqanroq şəhərini faşist işğalçılarından azad etmiş döyüşçülərin şərəfinə bilavasitə onun təşəbbüsü və rəhbər təşkilatçılığı altında 1980-ci il may ayının 8-də abidə ucaldıldı. Abidənin açılışında iştirak edən H.Əliyev nitq söyləyərək müharibədə düşmən üzərində qələbə qazanılmasında azərbaycanlıların iştirakına, 416-cı Azərbaycan Taqanroq diviziyasının döyüş şücaətlərinə yüksək qiymət verdi. Bu nitq Azərbaycan xalqının təkcə təbii sərvətləri deyil, həmçinin qəhrəman oğulları ilə düşmən üzərində qələbəyə töhfə verməsinin qiymətləndirilməsi və təsdiqi idi.

H.Əliyev sovet dövlətinin yeritdiyi ümumi siyasət fonunda müharibə iştirakçılarına və əlillərinə xüsusi qayğı göstərirdi. Qeyd etmək lazımdır ki, 1972-ci ildə Azərbaycanda 26617 nəfər müharibə əlili var idi. Onların 941 nəfəri birinci, 11012 nəfəri ikinci və üçüncü qrup əlil idi[25]. Həmin şəxslər bəzi vergilərdən azad edilmişdilər. Hər il Qələbə bayramı günü ərəfəsində onlarla gənclərin görüşü keçirilir, müxtəlif mükafatlarla təltif olunurdular. Müharibə iştirakçıları cəmiyyətdə böyük hörmət və nüfuz sahibi idilər. 1981-ci ilin iyun ayında keçirilən Azərbaycan KP MK bürosu iclasının qərarı ilə Böyük Vətən müharibəsi əlillərinin, iştirakçılarının və həlak olmuş hərbi qulluqçuların ailələrinin maddi-məişət şəraitinin yaxşılaşdırılmasına dair qərar qəbul edildi[26]. Ümumiyyətlə, müharibə iştirakçıları H.Əliyevin hakimiyyəti illərində bütün ölkədə olduğu kimi Azərbaycanda da xüsusi hörmət sahibi idilər.

H.Əliyev görkəmli Azərbaycan sərkərdələrinin yubileylərinin qeyd edilməsinə diqqət yetirir və hesab edirdi ki, belə tədbirlərin keçirilməsi gənclərin hərbi vətənpərvərlik

[23] «Kommunist» qəzeti, 1973, 11 may, № 109 (15324).
[24] ARSPİHDA, f. 1, siy. 62, iş 138, v. 127-129.

[25] ARSPİHDA, f. 1, siy. 59, iş 142, v. 90-95.
[26] «Kommunist» qəzeti, 1981, 25 iyun, № 148 (17782).

tərbiyəsində mühüm rol oynayır. Məsələn, 1978-ci ildə general-mayor M.Ə.Əbilovun anadan olmasının 80 illiyi qeyd edildi[27]. H.Əliyevin sədrliyi ilə MK bürosunun 1980-ci il 16 yanvar tarixli iclasında H.Aslanovun anadan olmasının 70 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi[28]. Qərara uyğun olaraq istedadlı sərkərdənin yubileyi təntənə ilə qeyd olundu[29]. Paytaxtdakı H.Aslanov adına Zabitlər evi təmir etdirildi, yeni avadanlıq verildi.

Azərbaycan KP MK bürosunun 1981-ci il 28 iyul tarixli iclasında Azərbaycan sovet atıcı diviziyasının ilk komandanı olmuş general Cəmşid Cəfər oğlu Naxçıvanskinin anadan olmasının 85 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi[30]. Qərarda deyilirdi ki, onun adı Bakı şəhərində 2 №-li ixtisaslaşdırılmış internat məktəbə, Bakı və Naxçıvan şəhərlərində küçələrə verilsə də, bu tədbirlər kifayət etmir. Qərara müvafiq olaraq yubiley münasibətilə təntənəli yığıncaqlar, elmi sessiyalar keçirilməli, Bakı və Naxçıvan şəhərlərində abidə qoyulmalı, Naxçıvan şəhərində məktəblərin birinə onun adı verilməli, üzərində rəsmi olan zərflər, poçt markaları, kitablar buraxılmalı, bədii və sənədli filmlər yaradılmalı idi[31]. Geniş yubiley tədbirləri həyata keçirildi. Qərara əsasən generalın adına olan məktəbin həyətində onun büstü qoyulmalı idi. Lakin abidə qoyulması işi H.Əliyev Moskvaya işləməyə aparıldığından həyata keçirilmədi.

Qeyd etmək lazımdır ki, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlərkən də H.Əliyev müharibədə düşmən üzərində qələbəyə töhvə vermiş hərbçilərin xatirəsinin bütün ölkə ərazisində əbədiləşdirilməsi məsələsinə diqqət yetirirdi.

[27] «Kommunist» qəzeti, 1978, 15 oktyabr, № 237 (16977).
[28] ARSPİHDA, f. 1, siy. 67, iş 17, pr. № 125, § 6; 5.
[29] «Kommunist» qəzeti, 1980, 23 yanvar, № 19 (17355).
[30] ARSPİHDA, f. 1, siy. 68, iş 102 (103), pr. № 19, §15.
[31] Azərbaycan KP MK-nın «C.C.Naxçıvanskinin anadan olmasının 85 illiyi haqqında» qərarı. – «Kommunist» qəzeti, 1981, 8 avqust, № 185 (17819).





*Heydər Əliyev C.Naxçıvanski adına respublika ixtisaslaşdırılmış internat məktəbində. 1973-cü il 7 aprel*



*Heydər Əliyev C.Naxçıvanski adına respublika ixtisaslaşdırılmış internat məktəbinin şagirdləri arasında. 1973-cü il 7 aprel*



Heydər Əliyev C.Naxçıvanski adına respublika ixtisaslaşdırılmış internat məktəbinin şagirdlərini salamlayır. 1973-cü il 7 aprel



Heydər Əliyev C.Naxçıvanski adına respublika ixtisaslaşdırılmış internat məktəbinin yataqxanasında. 1973-cü il 7 aprel



Heydər Əliyev C.Naxçıvanski adına respublika ixtisaslaşdırılmış internat məktəbinin yeməkxanasında. 1973-cü il 7 aprel



*Heydər Əliyev Mehdi Hüseynzadənin abidəsini açarkən.*
*1973-cü il 9 may*



*Heydər Əliyev Bakı Ali Ümumqoşun Komandirlər məktəbində.*
*1978-ci il 23 iyul*



*Heydər Əliyev Bakı Ali Hərbi Dənizçilik məktəbində. 1979-cu il 29 iyun*



Heydər Əliyev Bakı Ali Hərbi Dənizçilik məktəbində.
1979-cu il 29 iyun



Heydər Əliyev Bakı Ali Hərbi Dənizçilik məktəbində.
1979-cu il 29 iyun



Heydər Əliyev C.Naxçıvanski adına ixtisaslaşdırılmış
internat məktəbində. 1980-ci il 9 may



Heydər Əliyev Bakı Ali Ümumqoşun Komandirlər məktəbinin
məzunlarına diplomlar təqdim edir. 1981-ci il 18 iyun



*Heydər Əliyev C.Naxçıvanski adına ixtisaslaşdırılmış internat məktəbin 10 illiyinə həsr olunmuş təntənəli iclasda çıxış edir. 1981-ci il 10 dekabr*



*Heydər Əliyev C.Naxçıvanski adına ixtisaslaşdırılmış internat məktəbində. 1982-ci il 9 may*

Məsələn, o, 1986-cı ilin aprel ayında hərbçilərin xatirəsini əbədiləşdirmək haqqında müvafiq qərarları imzalamışdı[32].

H.Əliyev dönəmində Azərbaycanda hərbi idman oyunları da geniş yayılmışdı. Heç şübhəsiz, bu işlər ölkədə yeridilən ümumi siyasətə uyğun həyata keçirilirdi. Silahlı qüvvələr üçün mütəxəssislər hazırlamaq məqsədilə Azərbaycan KP MK bürosunun 1976-cı il 5 oktyabr tarixli iclasında respublikada idmanın hərbi-texniki növünün inkişaf etdirilməsi haqqında qərar qəbul edildi. Qərarda tədris və avtomobil məktəblərinin və s. yaradılması nəzərdə tutulurdu[33]. Bu addım respublikada həm yeni iş yerlərinin açılmasına gətirib çıxarır, həm də gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsinə, hərb elminə marağı gücləndirirdi.

H.Əliyev azərbaycanlı gənclərin ordu sıralarından yayınmasının qarşısını almaq və hərbi komissarlıqların işini yaxşılaşdırmaq barədə göstərişlər verirdi. Onun şəxsi təşəbbüsü və MK bürosunun 1973-cü il 3 aprel tarixli iclas qərarı ilə Azərbaycanın hərbi komissarlıqlarının 25%-nə 19 birbaşa əlaqə kanalı verildi. Azərbaycanın xalq təsərrüfatı ehtiyacları üçün hərbi tipli 15 avtokalon ayrıldı[34].

Biləcəri çağırış məntəqəsinin yenidən tikilməsi və işinin yaxşılaşdırılması da H.Əliyevin adi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, 70-ci illərin sonunda Azərbaycandan ordu sıralarına hər il təxminən 13-15 min gənc çağırılırdı. 60-cı illərlə müqayisədə orduya çağırılan gənclərin sayının azalması əsasən beynəlxalq aləmdə baş verən proseslərlə, orduda aparılan islahatlarla və ixtisarlarla bağlı idi. Həmin dövrdə Biləcəri toplanış məntəqəsində lazımi şərat yox idi, antisanitariya, darisqallıq toplanışın mütəşəkkil keçirilməsinə mane

---

[32] Постановление Совета Министров СССР за апрель 1986 г. М., Тип. Изд. Совмина СССР, 1986, с. 5, 9, 10-14.

[33] ARSPİHDA, f. 1, siy. 63, iş 86, pr. № 20, § 20, v. 83-86.

[34] ARSPİHDA, f. 1, siy. 61, iş 155, v. 48-55.

olurdu. Toplanış məntəqəsinin tikilməsi barədə təşəbbüs irəli sürən H.Əliyev məsələni Azərbaycan KP MK bürosunun iclasında müzakirəyə cıxardı. Büronun qəbul etdiyi qərara uyğun olaraq toplanış məntəqəsi yenidən tikildi.

Əlverişli coğrafi-siyasi mövqedə yerləşən Azərbaycan SSRİ-nin Yaxın və Orta Şərq siyasətinin həyata keçirilməsində mühüm rol oynadığından respublika rəhbəri bundan xalqının mənafeləri naminə bacarıqla istifadə etməyə çalışır, ən xırda imkanı əldən buraxmırdı. İran inqilabı və Əfqanıstana sovet hərbi müdaxiləsindən sonra yaranmış vəziyyətdən H.Əliyev Azərbaycanda hərbi aerodromların, hərbi strateji əhəmiyyətli yolların, mülki müdafiə məqsədləri ilə sığınacaqların tikintisi üçün istifadə etdi. H.Əliyev 1979-cu il 31 yanvar tarixdə Zaqafqaziya hərbi dairəsinin komandanı general-polkovnik O.F.Kulşnova yazdığı 48ss №-li tam məxfi məktubunda Azərbaycanda mülki müdafiə məqsədləri ilə sığınacaqların tikintisi məsələsini qaldırdı. Buna müvafiq olaraq Giləzi və Səngəçalda ümumi sahəsi 1800 kv m olan sığınacaqlar tikildi. Yevlax və Kürdəmirdə yerləşən hərbi aerodromlar yeniləşdirildi, Gəncədə 300 yerlik hərbi qospital tikilib istifadəyə verildi. Hərbi strateji əhəmiyyətli yollar qaydaya salındı[35]. Respublikada Müdafiə Nazirliyi və milli ordu olmasa da, onların qurulması üçün maddi-texniki baza formalaşdırılırdı.

H.Əliyev Sov.İKP MK Siyasi bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlərkən də azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarına qayğı göstərir, onlarla Moskvada və Bakıda görüşür, problemlərini həll edirdi. Sovet dövlət rəhbərlərindən biri kimi SSRİ-nin siyasətində azərbaycanlıların və Azərbaycanın rolunu gücləndirməyə çalışırdı.

[35] ARSPİHDA, f. 1, siy. 66, iş 176, v. 34-36.



Heç şübhəsiz, artıq qeyd edildiyi kimi, həmin tədbirlərə Yaxın və Orta Şərq regionunda baş verən proseslərə münasibətdə sovet dövlətinin yeritdiyi siyasət, xüsusən İran inqilabından və Əfqanıstana hərbi müdaxilədən sonra həyata keçirilən ümumi siyasət təsir etsə də, hər halda H.Əliyev yaranmış şəraitdən Azərbaycanın mənfəətləri üçün bacarıqla istifadə etdi. Hərbi tikililər SSRİ dağıldıqdan sonra Azərbaycana qaldı və dövlət müstəqilliyinin möhkəmləndirilməsində, ordu quruculuğunda onlardan istifadə edildi.

* * *

Beləliklə, H.Əliyevin fəaliyyətində azərbaycanlı hərbçi kadrların hazırlanması və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi mühüm yer tuturdu. Azərbaycan rəhbəri bu sahədəki fəaliyyətini bir neç istiqamətdə həyata keçirirdi: C.Naxçıvanski adına hərbi məktəbi yaratdı; azərbaycanlıları hərbi işə daha çox cəlb edirdi; ölkənin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin göndərilməsinə nail olurdu; ikinci dünya müharibəsində iştirak edən yüksək rütbəli azərbaycanlı hərbçilərin tanıtdırılmasına, adlarının əbədiləşdirilməsinə nail olurdu; görkəmli hərbçilərin yubileylərini, Qələbə bayramını bütün ölkədə olduğu kimi təntənəli keçirirdi; məktəblərdə hərbi idman oyunlarının keçirilməsini genişləndirirdi; hərbi komissarlıqların iş şəraitini yaxşılaşdırırdı; sovet ordu sıralarına çagırılan gənclərin döyüş hissələrində qulluq etmələrinə nail olurdu; Azərbaycanda mülki müdafiə məqsədləri üçün sığınacaqlar tikdirir, hərbi strateji yollar çəkdirir və təmir etdirirdi; hərbi qospitallar, hərbi toplanış məntəqəsi tikdirir, hərbi aerodromları yeniləşdirirdi; hərbi dənizçilərin yetişdirilməsinə xüsusi qayğı göstərirdi.

H.Əliyevin hərbçi kadrların hazırlanması və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində gərgin əməyi öz

bəhrəsini verirdi. Ordu sıralarında azərbaycanlıların çəkisi artır, hərb elminə maraq güclənir, yüksək rutbəli zabitlərin yetişdirilməsi genişləndirilir, peşəkar hərbçilər nəsli hazırlanır, xalqın özünümüdafiə qabiliyyəti formalaşırdı. Ölkə miqyasında Azərbaycan xalqına olan münasibət yaxşılaşırdı. Heç əbəs deyil ki, 70-80-ci illərdə hazırlanmış, Əfqanıstan müharibəsində iştirak etmiş, sovet ordusunda xidmət keçmiş müxtəlif rütbəli azərbaycanlılar dövlət müstəqilliyi bərpa edildikdən sonra yaradılmış milli ordunun nüvəsini təşkil etdilər, Azərbaycanın əleyhinə törədilən hərbi təcavüzə və işğala qarşı mübarizənin önündə getdilər.



# X FƏSİL

## ERMƏNİ İDDİALARINA QARŞI MÜBARİZƏ

DTK əməkdaşı, bu orqanın sədr müavini və sədri vəzifələrində işləyərkən H.Əliyevin başlıca fəaliyyət istiqamətlərindən biri ölkə daxilində və xaricdə daşnaklara, erməni millətçilərinə qarşı amansız mübarizə aparmaq idi. Hakimiyyətə gəldikdən sonra da H.Əliyevin fəaliyyətində antiazərbaycan qüvvələrin, ilk növbədə müəyyən erməni dairələrinin iddialarının qətiyyətlə kəsilməsi mühüm yer tuturdu. Sovet hakimiyyətinin əvvəlki illərində olduğu kimi, H.Əliyev hakimiyyətə gələn zaman da bədxah erməni dairələri Azərbaycanın tarixi-etnik torpağı olan Dağlıq Qarabağa əsassız iddialarından nəinki əl çəkməmişdilər, hətta onu müxtəlif üsullarla genişləndirməyə cəhd etmək istəyirdilər. Lakin H.Əliyev Azərbaycan xalqının düşmənlərinin niyyətlərini puça çıxararaq onların istəklərinin həyata keçirilməsinə imkan vermir, həm Ermənistanla Azərbaycan, həm də Dağlıq Qarabağda ermənilərlə azərbaycanlılar arasında normal münasibətlərin formalaşmasına çalışır, bundan ötrü bütün vasitələrdən istifadə edirdi. Qeyd etmək lazımdır ki, hakimiyyətdə olduğu illərdə H.Əliyev yüksək kürsülərdən heç vaxt ermənilər və erməni millətçiləri əleyhinə danışmasa da, bütün fəaliyyəti onların əsassız iddialarının qarşısını müxtəlif yollarla almağa yönəlmişdi.

Heydər Əliyev dönəmində Azərbaycan torpaqlarının bir qarışı da Ermənistana verilmədi və bədxah erməni dairələrinin istəkləri sabun köpüyünə döndü. H.Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Azərbaycanla sərhəddə olan

bəzi əraziləri özününkü kimi ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri hətta 20-ci illərin xəritələrini ortaya çıxarmışdılar. Ərazi məsələsinə dair danışıqlar iki-üç il getmişdi. Bu danışıqları Azərbaycanın o vaxtkı rəhbərləri Vəli Axundov, Məmməd İsgəndərov, Ənvər Əlixanov və MK-nın ikinci katibi Pyotr Yelistratov aparırdılar. Erməni rəsmi dairələri iki respublika arasında sərhədlərin girintili-çıxıntılı olmasını məqsədəuyğun saymayaraq hamarlanmasını təklif edirdilər. Danışıqların nəticəsində xəritələr hazırlanmışdı. Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri M.İsgəndərov və katibi Z.Şükürovanın 1969-cu il may ayının 7-də imzaladıqları «Azərbaycan SSR ilə Ermənistan SSR arasındakı sərhəddin qrafik təsvirinin təsdiq edilməsi haqqında» iki maddədən ibarət qərarda (№805-VII) deyilirdi ki, Azərbaycan SSR ilə Ermənistan SSR arasında Zaqafqaziya MİK tərəfindən təsdiq edilmiş sərhədin göstərilən respublikaların Paritet komissiyası tərəfindən 1:25.000 miqyaslı topoqrafik xəritələrin vərəqələrinə keçirilmiş və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təqdim olunmuş qrafik təsviri bəyənilsin; Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, respublika sərhəddi təsvirinin müvafiq sahələrdə Ermənistan SSR nümayəndələri ilə birlikdə naturaya keçirilməsini 1969-cu il noyabrın 1-dək təmin etsin[1].

Azərbaycan KP MK bürosunun 1969-cu il 21 may tarixdə keçirilən iclasında (pr. №100, 4-q) iki respupkblika arasında sərhədlərin coğrafi təsvirini təsdiq etməyə dair Azərbaycan Ali Sovetinin qərar layihəsi bəyənildi[2]. Heç şübhəsiz, bu qərarın qəbul edilməsinə Moskvadan edilən təzyiqlər də təsir göstərmişdi. Azərbaycanın rəhbərləri Moskvanın mövqeyini itaətkarcasına yerinə yetirmiş, milli mənafeləri qoruya bilməmişdilər. H.Əliyev həmin ilin iyul ayında Azərbaycana rəhbər seçilən kimi bu məsələni cəsarətlə qaldırdı.

[1] Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin məlumatı. 1969-cu il 15 may. Bakı, 1969, № 9 (310), s.5-6.
[2] ARSPİHDA, f.1, siy.56, iş 35, v.9.



O, məsələyə yenidən baxmağı Moskva qarşısında inadla qoydu. Belə sərt mövqe respublikanın gənc, mövqelərini hələ möhkəmləndirməmiş rəhbəri üçün təhlükəli olsa da, Azərbaycan xalqının mənafelərini hər şeydən üstün tutan H.Əliyev təzyiqləri rədd edərək inadından dönmədi. Onun məntiqi, biliyi, bacarığı Moskvanı geri çəkilməyə vadar etdi. Erməni rəsmi dairələri yerində oturduldu. H.Əliyev bu məsələni bir ay müddətində uğurla həll etdi. O həmin qərarı yerinə yetirməkdən imtina etdi. Moskvadakı bəzi qüvvələr və Ermənistan rəhbərləri qərarın həyata keçirilməsinə çox cəhd etsələr də, H.Əliyev buna imkan vermədi.

Ermənistan dairələri Azərbaycanın digər sərhəd rayonlarına qarşı da əsassız iddialar irəli sürürdülər. Lakin onların bu niyyətləri də puça çıxdı. Sov.İKP MK-nın 1969-cu il 5 avqust tarixli «Ermənistan SSR Şəmşədil rayonunun və Azərbaycan SSR Gədəbəy rayonunun bəzi kolxozları arasında qeyri-normal qarşılıqlı münasibətlər haqqında» qərarı Azərbaycan KP MK bürosunun H.Əliyevin sədrliyi ilə keçirilən 1969-cu il 17 avqust tarixli iclasında müzakirə edildi[3]. İki qonşu xalq arasında normal münasibətlərin yaradılması zəruri sayıldı.

Torpaqların verilməsi barədə qərarın icrası dayandırılsa da, erməni dairələrində ümidsizlik yaratsa da, onlar fəaliyyətlərindən imtina etmədilər. Bəzi erməni dairələri imkan düşdükcə Azərbaycan torpaqlarına olan əsassız iddialar irəli sürür, düşmənçiliklərini daha məkrli yollarla davam etdirirdilər. H.Əliyev isə konkret, aydın və strateji niyyətlər güdən fəaliyyət göstərirdi. O bu fəaliyyətini bir neçə istiqamətdə və çox incə üsullarla həyata keçirirdi. H.Əliyev ilk növbədə iki xalq arasında münasibətlərin yaxşılaşdırılmasına çalışır, soyuqluğa yol verilməməsi üçün konkret işlər görür, münaqişələrin yaranmasına imkan vermir, mənfi hallar baş verdikdə isə onun qarşısını təxirəsalmadan, dərhal alırdı. Azərbaycan rəhbəri iki xalqın dostluğuna çalışırdı.

[3] ARSPİHDA, f. 1, siy. 56, iş 49, pr. № 107, § 3, v. 3.

H.Əliyev Dağlıq Qarabağın tarixini, coğrafiyasını, iqtisadiyyatını, orada yaşayanların düşüncələrini gözəl bilirdi. Hələ DTK sədri olarkən erməni millətçilərinin hərəkətlərinin qarşısını dəfələrlə qətiyyətlə almışdı. O, erməni daşnak, millətçi dairələrinin qənimi idi. Bu baxımdan H.Əliyevin 1967-ci il iyun ayının 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Y.Axundova yazdığı 10/579 №-li məxfi məktub diqqəti cəlb edir. O, məktubda yazırdı ki, iyun ayının 23-dən 24-ə keçən gecə Stepanakertdə bəzi küçələrdə erməni dilində 8x9 sm ölçüdə 300 vərəqə yayılıb. Həmin vərəqələrdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Vərəqənin müəlliflərini axtarıb tapmaq və digər lazımi tədbirləri görmək üçün Stepanakertə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışdılar.[4]

H.Əliyev ilk dəfə Şuşada hələ 1967-ci ildə olmuşdu. O vaxt Stepanakertdə azərbaycanlılarla ermənilər arasında münaqişə olmuş və qan tökülmüşdü. Dağlıq Qarabağda olan bəzi quldurlar, Azərbaycan xalqına düşmən münasibət bəsləyən adamlar həbsdə olan iki-üç nəfər azərbaycanlını aparan dustaq maşınını dağıdıb yandırmışdılar. Hadisə belə olmuşdu. 1967-ci il iyul ayının 3-də Ərşad, Ələmşad və Zöhrab Məmmədovlara Stepanakertdə Yay estrada parkında məhkəmə hökmü oxunduqdan sonra öldürülmüş N.B.Movsesyanın valideynləri və başqa ermənilər konvoya hücum edərək Məmmədovları vəhşicəsinə öldürmüş, onların hətta başlarının dərisini soymuşdular. Bu vəhşiliyə əvvəlcədən hazırlaşan qatillər daşları şəhərə maşınlarda gətirmişdilər. İstintaq materiallarından aydın olur ki, daşların çəkisi 260 qramdan 14 kq-dək idi. Cinayətkarlar haqqında istintaq işi açıldı[5]. Onlar layiqli cəzalarını aldılar. Həmin məsələni dərindən araşdırmaq üçün H.Əliyev 15 gün Dağlıq Qarabağda qalmış,

[4] Алиев Г. Первому секретарю ЦК КП Азербайджана тов. Ахундову В.Ю. - AR MTN muzeyinin materialları.

[5] AR MTN muzeyinin materialları.




10/579

/ Г.АЛИЕВ /

Şuşanı ətraflı gəzmiş, Şuşada olarkən 1905-1907, 1920-ci illərdə erməni-azərbaycanlı münaqişəsi zəminində dağıdılmış və yandırılmış evlərin hələ də bərpa edilmədiyini görmüşdü. O, Şuşa şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlmişdi. Bakıya qayıtdıqdan sonra H.Əliyev şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə mülahizələrini Azərbaycan rəhbərlərinə söyləmişdi. Lakin bu niyyətləri həyata keçirmək mümkün olmadı. Çünki o dövrdə H.Əliyev Azərbaycanda birinci şəxs deyildi.

70-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən gündəliyə gətirsələr də, onların bu istəklərinin qarşısı alındı[6]. 1977-ci ildə SSRİ Konstitusiyası, 1978-ci ildə isə Azərbaycan Konstitutisiyası qəbul edilərkən ermənilər müxtəlif mərkəzi orqanlara müraciət edərək Dağlıq Qarabağ məsələsini yenidən qaldırdılar. Lakin H.Əliyev bu zaman Krımda istirahət edən Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevlə görüşüb məsələni həll edərək erməni avantüristlərinin iddialarını puça çıxardı. Artıq onun Dağlıq Qarabağa yönəlik siyasətində həyata keçirdiklərinin qarşısını kimsə almaq iqtidarında deyildi. Bundan sonra H.Əliyev Dağlıq Qarabağdakı fəaliyyətini daha da genişləndirərək erməni iddialarını əməli işləri ilə puça çıxardı.

H.Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri 70-ci illərdə Dağlıq Qarabağa milli ruhun qaytarılması oldu. O bu istiqamətdə güclü, sistemli və əhatəli çalışırdı. Hər şeydən əvvəl, Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən H.Əliyev onu böyük coşqu ilə ölkədə və xaricdə tərənnüm etdirirdi. Görkəmli Azərbaycan arxeoloqu M.Hüseynov tərəfindən 1969-cu ildə kəşf edilən, öz qədimliyinə görə dünyada dördüncü, SSRİ-də birinci olan, Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olduğunu sübut edən Azıx

[6] Qasımov M. Azerbaycan Cumhuriyeti. – «Türkler». 19, s. 145.



mağarası haqqında sənədli film çəkdirərək dünyanın müxtəlif ölkələrində göstərdirdi. 70-80-ci illərdə xarici ölkələrdə keçirilən demək olar ki, bütün Azərbaycan mədəniyyəti günlərində «Azıx mağarası» adlı sənədli film nümayiş etdirilirdi[7]. Məsələn, 1977-ci ildə İtaliyada nümayiş etdirilmək üçün göndərilən sənədli filmlər içərisində «Azıx mağarası» filmi də var idi[8].

H.Əliyev Azıx mağarasında Azərbaycan Dövlət Universiteti tarix fakültəsinin tələbələrinin arxeoloji praktika keçmələrini, qazıntı işlərində iştirakını tövsiyə edirdi. Bu məqsədlə ayrılan məsrəflər ildən-ilə artırılırdı. Azıx mağarasında arxeoloji ekspedisiyalarda iştirak edən tələbələr praktika müddətində Dağlıq Qarabağın kəndlərində olur, həm azərbaycanlı əhali, həm də erməni icması ilə ünsiyyət qururdular. Onların Dağlıq Qarabağın azərbaycanlı kəndlərinə gedərək əhali ilə söhbətlər etməsi yerli camaatın özünə inamını, milli ruhunu yüksəldirdi. Tələbələrin Dağlıq Qarabağa səfərləri vilayətə yeni ab-hava gətirirdi.

H.Əliyev Azıx mağarasının nəinki elmi-tarixi cəhətdən öyrənilməsinə, həmçinin qorunub-saxlanılmasına da diqqət verirdi. 1981-ci ilin oktyabr ayında Azərbaycan KP MK və Nazirlər Sovetinin qəbul etdiyi «Azərbaycan SSR-də şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsini, bərpasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərarında deyilirdi ki, Hadrut rayonunda Azıx mağarası yararsız haldadır[9]. Məhz bu qərardan sonra Azix mağarasının mühafizəsi gücləndirildi.

Şuşa şəhərinin tarixi keçmişini yaxşı bilən H.Əliyev ona Azərbaycanın qədim mədəniyyət guşəsi kimi qayğı göstərir və inkişafına çalışırdı. O, Şuşaya adi bir şəhər deyil,

[7] Гасымов М. Азербайджан в международных культурных связях (1946-1990 гг. ). Докторская диссертация. Баку, 1992.
[8] ARDA, f. 2693, siy. 1, iş 185, v. 81.
[9] «Kommunist» qəzeti, 1981, 4 oktyabr, № 231 (17865).

zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı.

Azərbaycana rəhbər seçiləndən sonra o, Şuşanı abadlaşdırmaq, şəhərin başına gətirilən müsibətlərin izlərini ləğv etmək, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq, yenidən həyata qaytarmaq, böyük bir muzeyə çevirmək üçün ilk addımlarını atdı. H.Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə bir neçə xüsusi qərar qəbul edildi. Qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, çoxlu yeni binalar inşa olundu. Şuşada böyük mehmanxana kompleksləri, çoxmərtəbəli yaşayış binaları, ayrı-ayrı inzibati binalar tikildi. Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, onlar doğma diyara daha sıx bağlanırdılar. Azərbaycanlıların milli ruhu güclənirdi. Ölkənin müxtəlif yerlərindən buraya istirahətə gələnlər eyni zamanda Azərbaycan tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

Qeyd etmək lazımdır ki, 1920-ci ildən 1970-ci ilə qədər Şuşada heç vaxt belə geniş miqyaslı tikinti işləri aparılmamışdı. Şəhərdəki «Qala divarları»nın və «Gəncə qapısı»nın bərpasına təkcə 1975-ci ildə 25 min manat vəsait xərcləndi. Azərbaycan mədəniyyəti, incəsənəti və elm xadimlərinin, o cümlədən XIX əsrin görkəmli ədibi Qasım bəy Zakirin məzarı qaydaya salındı[10].

H.Əliyev diyarın mədəni simasının dəyişdirilməsi məqsədilə Şuşada, vilayətin rayonlarının demək olar ki, hamısında klub, kitabxana binaları, mədəniyyət evləri tikdirdi. Dağlıq Qarabağda həyata keçirilən bu tədbirlərin gedişində azərbaycanlılar yaşayan kəndlərə diqqət yetirilirdi. Uzun illər

[10] «Kommunist» qəzeti, 1976, 20 yanvar, № 15 (16144).



boyu maşın işləməyən kəndlərə yollar çəkilir, məktəblər, klub və kitabxanalar, digər sosial-məişət obyektləri tikilirdi. Bütün bu tədbirlər vilayətin azərbaycanlılar yaşayan kəndlərində yeni iş yerlərinin açılmasına, ailələrin pul gəlirlərinin çoxalmasına, həyat şəraitinin yaxşılaşdırılmasına, demoqrafik inkişafa səbəb olurdu.

Bütün bunlarla yanaşı H.Əliyev Qarabağın dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Məlumdur ki, bəzi erməni dairələri Dağlıq Qarabağın Azərbaycanın digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını bildirərək, əhalinin ümumi sayında ermənilərin çoxluğunu əsas gətirərək vilayətin Ermənistana birləşdirilməsini tələb edirdilər. H.Əliyev onların bu niyyətlərinin qarşısını qətiyyətlə kəsmək, Yuxarı Qarabağın Aran Qarabağla və digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq məqsədilə «Ağdam – Stepanakert» dəmiryolunun tikintisi üçün Moskvadan icazə alaraq 1979-cu ilin yanvar ayında onu istifadəyə verdi[11]. Tədbirdə Azərbaycan rəhbəri iştirak etdi. Dəmiryol xəttinin işə düşməsi nəticəsində muxtar vilayətin iqtisadi cəhətdən respublikanın digər məntəqələri ilə daha sıx əlaqəsi yaradıldı. «Ağdam-Stepanakert» dəmiryolunun istifadəyə verilməsi H.Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi.

«Ağdam-Stepanakert» dəmiryolunu açdıqdan sonra Şuşaya gedən Azərbaycan rəhbəri şəhəri gəzdi, onun tarixi abidələrinə tamaşa etdi, Azərbaycan xalqının Qarabağdakı tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə qəti göstəriş verdi. H.Əliyev eyni zamanda Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlandı, Azərbaycan poeziyasının klassikləri Vaqifin və Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış oldu. Şuşa şəhərinin və

[11] «Kommunist» qəzeti, 1979, 13 yanvar, № 11 (17050).

rayonunun rəhbərləri ilə keçirdiyi görüşdə H.Əliyev tövsiyə edərək deyirdi: «Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır»[12]. H.Əliyevin bilavasitə səyləri nəticəsində az sonra Şuşa şəhərinin tarixi yaranmış hissəsini tarix-memarlıq qoruğu elan edən qərar qəbul olundu.

SSRİ-İran münasibətlərinin pisləşməsindən istifadə edən H.Əliyev o vaxtadək Azərbaycan tarixində görünməmiş bir işi məharətlə həyata keçirərək 1982-ci ilin yanvar ayında yağan güclü qarın altında, soyuqda Şuşada görkəmli Azərbaycan şairi, Ağa Məhəmməd şah Qacarın yürüşü zamanı Qarabağ xanının xarici məsələlərə baxan vəziri işləmiş, Rusiyaya xoş münasibət bəsləmiş Molla Pənah Vaqifin məqbərəsini böyük təntənə ilə açdı. Onun Vaqifə bu münasibəti bir tərəfdən, milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Artıq qeyd edildiyi kimi, hələ 1967-ci ildə Şuşada olarkən H.Əliyev Vaqifin məzarını ziyarət etmək istəmişdi. Lakin axtarsalar da, məzarı tapa bilməmişdilər. Onun xahişindən sonra məzarı tapmışdılar. H.Əliyev dağılmış, bərbad halda olan məzarı ziyarət etmişdi. Sonralar o, nitqlərinin birində deyirdi ki, gördüyü bu məzar Vaqifə layiq deyildi. O, məzarın Vaqifə layiq tikilməsi qərarına gəlsə də, respublikanın birinci şəxsi olmadığı üçün istəyini reallaşdıra bilməmişdi. H.Əliyev bu barədəki düşüncələrini yalnız 70-ci illərdə həyata keçirməyə başladı. Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, türbə tikildi. Əslində bu, eyni zamanda gözəl memarlıq abidəsi idi. H.Əliyev abidənin tikintisini öz həyatında böyük, əlamətdar hadisə hesab edirdi. Ona görə də açılışa gedərkən yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu aparmışdı. Bu addımı ilə Azərbaycan rəhbəri ziyalıları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, vilayətə tez-tez səfərə çıxmalarını tövsiyə edirdi.

[12] Yenə orada.



H.Əliyev türbəni açaraq parlaq nitq söylədi. Bu nitq Azərbaycan rəhbərinin Dağlıq Qarabağa qayğısının göstəricisi idi.

Səfər zamanı Əliyev eyni zamanda Şuşada Poeziya evini açdı və Vaqif poeziya günlərində iştirak etdi. Poeziya evinə toplaşanlarla keçirilən görüşdə H.Əliyev deyirdi: «Əlamətdar haldır ki, Şuşada Vaqifin məqbərəsinin təntənəli surətdə açıldığı gün Poeziya evi də açılmışdır»[13]. O daha sonra deyirdi: «Şuşanın zəngin tarixi vardır...»[14].

Şuşanı gəzərkən abidələrin bərpa işləri ilə maraqlanan H.Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini söylədi. O, Şuşa məscidinə də getdi. Azərbaycanın kommunist rəhbərinin məscidə baş çəkməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramını və dərin bağlılığını göstərirdisə, digər tərəfdən, azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə ciddi işarə idi. H.Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı tövsiyə edirdi. Qeyd etmək lazımdır ki, N.Nərimanovdan sonra Azərbaycanın heç bir rəhbəri Şuşa məscidinə girməmişdi. Məsciddə ona 1920-ci ildə N.Nərimanovun Şuşada məsciddə olarkən çəkdirdiyi şəkli göstərdilər. H.Əliyev məscidə toplaşanlara tövsiyə etdi ki, yeni binalar tikməklə yanaşı qədim şəhərin qorunub saxlanmasına, tarixi abidələrinə də fikir vermək lazımdır[15].

Şuşada təkcə yazıçı və şairlər uçun deyil, bütün mədəniyyət işçiləri üçün yaradıcılıq evinin tikintisi ideyasını irəli sürən H.Əliyev vurğulayırdı: «Burada mədəniyyət ustaları üçün yaradıcılıq evi tikmək məqsədə uyğun olardı»[16].

Azərbaycan rəhbəri Üzeyir Hacıbəyovun və Bülbülün

[13] Xalq sənətkarlarının xatirəsi əbədidir – «Kommunist» qəzeti, 1982, 16 yanvar, № 13 (17947).
[14] Yenə orada.
[15] Yenə orada.
[16] Yenə orada.

Şuşadakı ev muzeylərinə baş çəkərək eksponatları ilə tanış oldu, qorunmasına dair tövsiyələrini verdi.

H.Əliyev Dağlıq Qarabağda yaşamış digər yaradıcı adamların da xatirəsini əbədiləşdirirdi. O, 1982-ci ildə Şuşada şairə Xurşudbanu Natəvana abidə qoydurdu[17]. Məhz onun hakimiyyəti illərində Şuşa şəhərinin və Dağlıq Qarabağın azərbaycanlılar yaşayan digər məntəqələrinin siması əsaslı şəkildə dəyişdi, yeni iş yerləri açıldı, yerli əhalinin milli ruhu yüksəldi.

H.Əliyev Xankəndində (Stepanakertdə) Pedaqoji İnstitutu açmaq və orada Azərbaycan bölməsi yaratmaqla azərbaycanlı ziyalıları daimi iş yeri ilə təmin edir, diyarda yeni elmi-mədəni mühitin formalaşmasına, yerli əhalinin təhsil almasına və doğma yerlərə daha sıx bağlanmasına əlverişli imkan yaradırdı.

Azərbaycan rəhbəri təkcə Dağlıq Qarabağın deyil, onun qonşuluğunda yerləşən rayonların da inkişafına diqqət yetirir, bununla da əhalinin həyat səviyyəsini yaxşılaşdırır və özünə inamını gücləndirirdi. Məsələn, o, Laçın rayonunun inkişafına xüsusi qayğı göstərirdi. Azərbaycan KP MK bürosunun hələ 1974-cü il 6 avqust tarixli iclasında Laçın şəhərinin 50 illiyinin qeyd edilməsi qərara alınmışdı[18]. Yubiley tədbiri böyük təntənə ilə keçirilmişdi. Büronun 1979-cu il 5 dekabr tarixli iclasında Laçında tarix-diyarşünaslıq muzeyi yaratmaq barədə qərar qəbul edildi[19]. Bu qərar uğurla yerinə yetirildi. Tarix-diyarşünaslıq muzeyi yerli şagirdlərin və əhalinin yurd, vətən sevgisini, ana torpağa bağlılığını gücləndirirdi.

H.Əliyevin Dağlıq Qarabağa yönəlik fəaliyyətində yeni iş yerlərinin açılması, həyat səviyyəsinin yüksəlməsi nəticəsində burada yaşayan azərbaycanlıların sayının artırılması başlıca yerlərdən birini tuturdu. O, ermənilərin əsassız iddialarını rədd edərək Dağlıq Qarabağın milli diyara çevrilməsindən ötrü qətiyyətli addımlar atırdı. H.Əliyevin bu sahədə ən böyük

[17] «Kommunist» qəzeti, 1982, 3 avqust, № 180 (18114).
[18] ARSPİHDA, f. 1, siy. 61, iş 60 (62), pr. №100, § 20.
[19] ARSPİHDA, f. 1, siy. 66, iş 105, pr. № 120, § 11.



xidmətlərindən biri vilayətdə azərbaycanlıların üstün demoqrafik inkişafı oldu. Nəticədə 70-80-ci illərdə Dağlıq Qarabağda azərbaycanlı əhalinin ümumi çəkisi artmağa, ermənilərin sayı isə azalmağa doğru getmişdi. Bununla bağlı olaraq ABŞ tarixçiləri A.Benniqsen və S.E.Uimbuş yazırlar ki, Dağlıq Qarabağda 1959-cu ildə yaşayan 130 min 406 nəfər əhalinin 17 min 995 nəfəri, 1970-ci ildə isə 150 min 313 nəfər əhalinin 27 min 179 nəfəri azərbaycanlı idi. 1959-1970-ci illərdə vilayətdə əhali ümumən 15,2% artmışdısa, azərbaycanlıların xüsusi çəkisi 51% artmışdı. Bu artım 70-ci illərdə daha yüksək oldu. Belə ki, artıq 1979-cu ildə vilayətdə yaşayan 162 min 181 nəfər əhalinin 37 min 264 nəfərini azərbaycanlılar təşkil edirdi. Belə bir fakt əhəmiyyətlidir ki, 1970-1979-cu illərdə Dağlıq Qarabağda əhali ümumən 7,9%, azərbaycanlılar isə 37,7% artmışdı. Azərbaycanlılarla müqayisədə ermənilər 1959-cu ildə 110 min 53 nəfər, 1970-ci ildə 121 min 68 nəfər olmuşdular və ya bu dövr ərzində yalnız 10,1% armışdılar. 1979-cu ildə isə vilayətdə ermənilərin sayı 123 min 76 nəfər olmuşdu və ya bu artim 1970-ci illə müqayisədə cəmi 1,6% təşkil edirdı[20]. Həmin illər ərzində Dağlıq Qarabağda ermənilərin ümumi çəkisi 95%-dən 75%-ə düşdüyü halda, azərbaycanlıların xüsusi çəkisi 5%-dən 23%-ə qalxmışdı[21]. ABŞ tarixçisi A.D.Ağostino yazır ki, H.Əliyevin hakimiyyəti altında sovet Azərbaycanı Dağlıq Qarabağa azərbaycanlıları yerləşdirirdi[22]. Qeyd etmək lazımdır ki, bəzi xarici ölkə tarixçiləri həyata keçirilən tədbirlərin antierməni xarakteri daşıdığını yazırlar. Onlar bildirirlər ki, H.Əliyevin sovet rəhbəri ilə yaxın olması antierməni siyasətinə göz yumulmasına gətirirdi. Məsələn, ABŞ tarixçisi A.Benniqsen yazırdı ki, Azərbaycan Kommunist Partiyasının antierməni siyasətinə mərkəzi sovet hökuməti laqeyd yanaşırdı[23].

[20] Bennigsen A., Wimbush S.E. Muslim of the Soviet Empire. A Guide, p.136.
[21] Naumkin V.V. Central Asia and Trancaucasia . Ethnicity and Conflict, p.6.
[22] D'Agostino A. Gorbachev's revolution, p. 103.
[23] Bennigsen A. Azerbaidzhan, p. 12.

Əlbəttə, Azərbaycan rəhbərliyi antiermәni siyasəti yeritmirdi. Ermənilər Azərbaycanda müxtəlif vəzifələr tutur, orden və medallara, fəxri adlara təqdim olunurdular. Diyarda ermənilərin sayının azalmağa doğru getməsinin əsas səbəbləri ölkədə gedən güclü inteqrasiya və beynəlmiləlləşmə prosesləri fonunda mərkəzi şəhərlərə köç etmələri, əvvəlki tarixi dövrlərdə diyara gəlmə və köçürülmə olduqlarını başa düşmələri ilə bağlı idi. Məsələn, 1970-ci ildə Azərbaycan Xarici İşlər Nazirliyi əvvəllər respublikaya köçürülmüş 75 nəfər erməniyə xarici ölkələrdə daimi yaşamaq üçün viza verdi. Onların 24 nəfəri Fransaya, 21 nəfəri Livana, 10 nəfəri ABŞ-a, 10 nəfəri Kiprə və b. ölkələrə köçdülər[24].

Qeyd etmək lazımdır ki, müəyyən tarixi dövrlərdə vilayətə köçürülmüş başqa xalqların da sayı həmin illərdə azalmağa doğru getmişdi. Məsələn, vilayətdə yaşayan rusların sayı 1959-cu ildə 1790 idisə, 1970-ci ildə 1310 nəfər olmuş və ya 26,8% azalmışdı. 1979-cu ildə vilayətdə yaşayan rusların sayı 1265 nəfər olmuş və ya 1970-ci illə müqayisədə 3,56% azalmışdı[25].

Qeyd etmək lazımdır ki, H.Əliyev hələ 1965-ci ildə DTK sədrinin müavini işlərkən Yerevanda bir qrup azğınlaşmış erməninin keçirdiyi mitinqlərdə Türkiyə və Azərbaycan əleyhinə əsassız ərazi iddiaları irəli sürməsini[26] yaxşı bilirdi. Buna görə də hakimiyyəti illərində xalqlar arasında nifaq yaradan erməni millətçi dairələrinə «göz açmağa» imkan vermir, onlara sarsıdıcı zərbələr endirirdi. Bütün bu fəaliyyətin nəticəsində 70-ci illərdə erməni millətçiliyi böhrana düşmüşdü. Erməni millətçi qrupları hər hansı qanuna zidd hərəkətlərinə görə sərt şəkildə cəzalandırılırdılar. Məsələn, Azərbaycan DTK-nın 5-ci şöbəsi 1973-cü ilin avqust ayında «Erməni millətçiləri» adı altında əməliyyat işini apardı və Daşnaksütyunla əlaqədar olan

[24] ADRA, f. 28 s, siy. 1s, iş 17, v.2.

[25] Bennigsen A., Wimbush S.E. Muslim of the Soviet Empire. A Guide, p.136.

[26] Strnayer R. Why did the Soviet Union Collapse Understanding Historical Change, p.76.



şəxslər həbs edildilər[27]. Gənc DTK əməkdaşlığından Sov.İKP MK Siyasi bürosu üzvlüyünə qədər H.Əliyevin keçdiyi həyat yolu eyni zamanda xalqlar arasında düşmənçilik toxumu səpən, qana susayan erməni millətçiliyinə, daşnaklara öldürücü zərbə vurulması, Dağlıq Qarabağda antiazərbaycan fəaliyyətlərinin heçə endirilməsi tarixidir.

H.Əliyev özünün nəhəng fəaliyyəti ilə sosial-iqtisadi, mədəni və b. sahələrdə Ermənistanı Azərbaycandan xeyli geridə qoymuşdu. Buna görə də qatı millətçi ermənilər qısqanclıq və paxıllıq hissləri içərisində boğulurdular.

H.Əliyevin Dağlıq Qarabağda yeritdiyi cəsarətli siyasət, o cümlədən Azərbaycan naminə bütün fəaliyyəti müəyyən erməni dairələri tərəfindən qəzəblə qarşılanırdı. Ona qarşı həm Ermənistandakı rəsmi dairələr, ziyalılar, həm də xaricdəki daşnaklar, müxtəlif təşkilatlar gizli və ya açıq şəkildə birləşmişdilər. Məqsədə nail olmaqdan ötrü bütün vasitələr məqbul hesab olunurdu. Onlar H.Əliyevə qarşı müxtəlif vasitələrdən, məkr və böhtanlardan istifadə edirdilər. H.Əliyevin Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd seçilməsi, Azərbaycanın yüksək inkişafı, azərbaycanlıların ölkədə və xaricdə nüfuzunun artması erməni dairələri tərəfindən məğlubiyyətləri kimi qiymətləndirilirdi.

H.Əliyevin hakimiyyəti illərində Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan torpaqlarına gəlmə olduqlarını başa düşmüşdülər. Nəinki başa düşmüşdülər, hətta diyara köçürülmələrinin 150 illiyi münasibəti ilə abidə də qoymuşdular. Bütün bunların sayəsində çoxlu erməni Dağlıq Qarabağı özünə doğma torpaq hesab etməyərək köçüb gedirdi. Amma bəzi erməni alimləri, siyasətçiləri, yazıçı, şair və publisistləri antiazərbaycan siyasətlərindən heç cür əl çəkmir, özlərini qəzəbli, kinli aparır, Dağlıq Qarabağdakı təsərrüfat, mədəni quruculuq işlərini, görülən işlərin mətbuatda əks olunmasını qısqanaraq əsassız iddialarını daha məkrlə davam etdirirdilər. Onların H.Əliyevin əleyhinə müxtəlif mərkəzi

[27] AR MTN arxivi, iş L-164.

# Gorbachev's Revolution

Anthony D'Agostino

GEORGE MASON UNIVERSITY
UNIVERSITY LIBRARIES

NEW YORK UNIVERSITY PRESS
Washington Square, New York





GORBACHEV AND LIGACHEV VERSUS ALIEV

Too great a gulf had been assumed to have opened between him and Ligachev, who was in fact at this time only seeking a pause. And Gorbachev's supporters, with the exception of Boris Yeltsin, did not immediately set out after Ligachev with fire in their eyes. There was in fact much evidence of continued cooperation between Gorbachev and Ligachev alongside the mounting tension.

The two men were united in their attitude toward Aliev. On Gorbachev's election in 1985, Aliev had appeared to many to be the new second secretary. He had delivered the Lenin Day speech, which indicates authority in ideological matters. Then with the emergence of Ligachev as second secretary, Aliev had to take a back seat. It would be anomalous for there to be no residue of antagonism and jealousy between these two men. Here Gorbachev had a card to play in encouraging Ligachev to press on with the personnel changes, which would most likely result in the eventual retirement of Ligachev's rival. Indeed, Aliev would be out of the leadership by autumn.

The campaign against him had other implications for Soviet policy on the Central Asian and Caucasian republics. Aliev was an Azeri, born in the Moslem enclave of Nakhichevan, who had risen to the rank of KGB general, thence to first secretary in Azerbaijan in 1969, a post that he held until 1982. Soviet Azerbaijan under Aliev made a point of settling Azeris in Nagorno-Karabakh, the mountainous area around which a situation of near civil war between Azeris and Armenians was to develop in 1988.[3] Appeals were issued to the ethnic Azeris in Persian Azerbaijan, calling for their 'national liberation' in a united Azerbaijan. This was in line with a policy of encouraging separatism in Mazanderan and other Iranian districts on the southern shore of the Caspian Sea. Aliev made himself a symbol of ambitions of the Brezhnev leadership in the Moslem world. He promoted the idea that the Soviet Central Asian republics, with their enlightenment and freedom from traditional customs, would be a magnet for the peoples of the Middle East and would give the Soviet Union extra prestige and influence there. He championed the notion, as once expressed by French Marxist Roger Garaudy, that the revolution would advance with a copy of *Capital* in one hand and the *Koran* in the other. Brezhnev and his associates had been in a revolutionary mood in 1979, closely supporting Khomeini with their Tudeh party comrades in Iran, at the moment when they decided to invade Afghanistan. Although the course of the Iranian revolution and the war in Afghanistan were to prove the undoing of this policy, the Soviets thought, at least for a time, that they could manage the situation and expand their influence. But they were engaged in what Alexandre Bennigsen has called 'the dangerous

and stagnation of the Brezhnev and Stalin eras, so that Bromlei's views on the nationalities seemed to mesh with the political campaign against the opponents of reform in the party leadership in the Union republics. No one in Moscow appeared to be frightened by the apparent explosion of nationalist sentiment in the Alma-Ata events. Their local apparatus organizers must have thought that the outpouring would send a chill up the spines of Gorbachev and the other purgers. But they were wrong. Neither Gorbachev nor his closest supporters gave evidence of being much bothered by nationalism.

In April, in the midst of the party discussion on nationalism, an Armenian academic by the name of Souren Aivazyan sent a letter to Gorbachev on the baneful condition of the Armenians in Nagorno-Karabakh, an Armenian autonomous *oblast* in Azerbaijan. They had been victims, he said, of the 'Pan-Turkism' of Aliev (Azerbaijan First Secretary from 1969–82) and his successors. This letter marked the opening of a local effort that was to result by August in a petition from Armenia on ecological and nationalist themes bearing 400 000 signatures. Gorbachev could not have believed the bizarre claim that Aliev had actually been promoting Pan-Turkism, but the allegation made by someone else was useful. It was now possible to blame (or to permit others to blame) the Aliev line for many things, including even the quagmire in Afghanistan.

So Gorbachev chose to encourage the Armenians in their dispute. The effect on Aliev's political career was immediate. He disappeared from view in May, missing conferences on consumer goods and transportation in which his participation would have been expected, and absenting himself from the Politburo grouping that saw Gorbachev off on a trip to Romania. He was nevertheless bitingly criticized in his areas of competence by Ligachev. By fall Aliev would be out of the Politburo. Encouraging the Armenian claims in Karabakh formed part of a broader pattern of response to the challenge made by Gorbachev's opponents, one that would be more generally applied in 1988. The idea was to cheer on 'national fronts for *perestroika*' against local officials, usually the first secretaries who had put obstacles in the path of the leader at the January 1987 plenum. Thus was Gorbachev playing the sorcerer's apprentice in nationality matters that would put the Soviet Union itself into mortal danger.



From the standpoint of linguistic self-determination it would seem that if Nakhichevan were administered by Azerbaijan, then Karabakh should be ruled from Erevan. That was the opinion of the delegation of Armenians from Karabakh that visited Moscow three times between November 1987 and February 1988 to lobby for the transfer to Armenia. The case they made was essentially that of Souren Aivazyan in his letter to Gorbachev in March 1987.[30] They complained that Gaidar Aliev, head of the Azerbaijan party from 1969 to 1982, had actively worked to settle Azeris in Karabakh in order to reverse the linguistic balance, something that had earlier occurred in his native Nakhichevan. Aliev had some credence on this issue, having already convinced the Brezhnev Politburo that Soviet Moslems could play a role in the extension of Communist influence in the Middle East.[31] Aliev took advantage of their temptation to think that Shia Azeris could have some influence in Iran, at a time

orqanlara göndərdikləri şər, böhtan dolu, heç bir əsası olmayan şikayət məktublarının və teleqramlarının ardı-arası kəsilmirdi. Buna dair çoxlu misallardan biri nümunə kimi maraqlı olub həm erməni dairələrinin antiazərbaycan siyasətinin, həm də H.Əliyevin onlara qarşı fədakar mübarizəsinin mahiyyətini açır. Xankəndindən olan iki nəfər qocaman erməni bolşevikinin xahişi ilə müxbir İ.Y.Mesxinin «Oqonyok» yurnalının 1979-cu il 34-cü nömrəsində Dağlıq Qarabağa həsr edilmiş «Biz Qarabağdanıq» adlı oçerki dərc olunmuşdu. Oçerkdə Dağlıq Qarabağın sosial-iqtisadi və mədəni həyatında qazanılan uğurlardan, millətlərarası dostluqdan söhbət açılırdı. Jurnalın işıq üzü görməsindən az sonra erməni ziyalılarının bəzisi oçerkdə əksini tapan məsələlərə etiraz etməyə başladı. Belələrindən biri əslən Qarabağdan olan, atası Bakı fəhləsi olmuş, Yerevan şəhər sakini, ikinci dunya müharibəsinin iştirakçısı, istefada olan zabit, həkim Georgi Karapetoviç Ter-Akopov idi. O, 1980-ci ilin mart ayında redaksiyaya beş səhifəlik məktub göndərərək oçerkdə göstərilən məsələlərə etirazını qəzəblə bildirirdi. Onun məktubunda irəli sürdüyü əsassız və uydurma iddialar əsasən aşağıdakılardan ibarət idi: müxbir İ.Y.Mesxi öz oçerki ilə oxucuları çaşdırır; müharibə illərində SSRİ-nin əhalisi azalsa da, müharibədən sonrakı dövrdə ölkə əhalisi təxminən iki dəfə artıb, çarizm zülmü altında inləyən xalqlar daha çox artıb; Azərbaycanın əhalisi 1920-1978-ci illərdə 3,1 dəfə, Naxçıvan MSSR-in əhalisi 2,7 dəfə, Ermənistanın əhalisi isə 4,2 dəfə artıb; lakin Dağlıq Qarabağda tam tərsinə olan vəziyyət yaranıb, burada əhali heç 1913-cü il səviyyəsinə çatmayıb; 1913-cü ildə burada 176 min, 1923-cü ildə 158 min, 1979-cu ildə 161 min əhali yaşayırdı; Dağlıq Qarabağ yeganə milli qurumdur ki, orada «yerli əhali» olan ermənilər azalmağa doğru gedib; bütün ölkədə iqtisadiyyat geniş inkişaf edir, fabrik-zavodlar tikilir, yollar çəkilir, 40 min əhalisi olan Stepanakert üçün 26 kilometrlik «Ağdam-Stepanakert» dəmiryolunun çəkilişi isə şişirdilir, axı hələ müharibə dövründə Stepanakertə kiçik



dəmiryolu var idi, «Bakı-Ağdam» dəmiryolu isə çoxdan işləyir; Qarabağın istedadlı adamları öz istəklərini illərlə yerinə yetirə bilmədiklərindən çıxıb gedirlər, onları iri şəhərlər özlərinə çəkir; Stepanakeptdə çoxdandır ki, yaşayış evləri tikilmir, adamlar üzun illərdir mənzil növbəsində gözləyirlər; buna baxmayaraq, xan sarayının şairi Vaqifə 18 metlik mavzoley ucaldılır, xan qızı şairə Natəvan mədh edilir, ermənilərdən olan 15 akademik, 16 bəstəkar və 23 general unudulur; muxtar vilayət yaradılarkən əhalinin 94%-ni təşkil edən erməni xalqı özünün çoxəsrlik tarixində məgər öz sırasından xatirəsinin əbədiləşdirilməsinə layiq olan adamlar yetişdirə bilməyibmi; xalq məktəbə, üşaq müəssisələrinə ehtiyac duyduğu və erməni memarlıq abidələri bir-birinin ardınca dağıdıldığı bir zamanda belə tikililər lazımdırmı; erməni əhalisinin yaratdığı iki milli ərazidən biri olan Ermənistan SSR-də əhali artdığı, elm, təhsil, mədəniyyət inkişaf etdiyi halda, Dağlıq Qarabağda bütün bunlar geriyə gedir; indiyədək heç bir respublikada yerli əhalinin köçməsinə rast gəlinməyib; yerli erməni əhalisi sıxışdırılır, Azərbaycan xalqının mədəni sərvətləri dirçəldilir, diyarın əhalisinin çox hissəsini təşkil edən yerli erməni xalqının mədəni irsi barədə isə susulur. Məktub müəllifi 4,5 min kvadrat kilometr ərazisi olan Dağlıq Qarabağın Azərbaycan tərkibinə ədalətsiz yerə qatıldığını iddia edirdi[28].

Həmin məktubu jurnalın baş redaktoru A.Safronov 1980-ci il mart ayının 28-də Azərbaycan KP MK-nın birinci katibi, Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd H.Ə.Əliyevə göndərərək, redaksiyanın müəllifə cavab verərkən istifadə etməsi üçün imkan olarsa, öz mülahizələrini söyləməyi xahiş etdi[29]. Safronovun məktubu Azərbaycan KP MK-da 1980-ci il aprel ayının 8-də 1569 №-lə qeydiyyatdan keçdi. H.Əliyev aprel ayının 10-da məktubla tanış olaraq dərhal «Mənimlə danışın. B.S.Gevorkovu tanış edin»

---

[28] APSPİHDA, f. 1, siy. 67, iş 196, v. 131-135.

[29] Yenə orada, v. 136.

dərkənarı yazıb MK-nın ideologiya katibi K.Bağırova göndərdi. Bundan sonra Azərbaycan KP Dağlıq Qarabağ vilayət partiya komitəsinin katibi B.S.Gevorkovla əlaqə saxlanıldı, müvafiq tövsiyələr verildi və ondan kifayət qədər əsaslandırılmış 11 may tarixli 59s №-li məxfi arayış alındı[30]. Həmin arayış may ayının 13-də Azərbaycan KP MK-da 1569 №-lə qeydiyyatdan keçirildi. Arayışda Ter-Akopovun məktubunda irəli sürülən iddiaların əsassızlığı zəngin fakt və materiallarla təkzib olunurdu.

H.Əliyev bundan sonra iyun ayının 23-də A.V.Safronova ünvanlanan 252 №-li məktubu imzalayaraq ona 7 səhifəlik müvafiq arayışı da əlavə etdi[31]. Məktubda deyilirdi ki, Ter-Akopovun Yerevandan redaksiyaya göndərdiyi məktubla tanış olduq. Müəllifin söylədikləri əsassız və saxta olduğundan onları təkzib etməyin heç mənası da yoxdur. Bununla belə, redaksiyanın məktub müəllifinə müvafiq cavab verməsi üçün Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağın sovet hakimiyyəti illərində keçdiyi inkişaf yolu barədə kifayət qədər faktiki material olan arayışı Sizə göndəririk. Dəqiq və təkzibolunmaz sənədlər əsasında hazırlanmış arayışda Ter-Akopovun adı çəkilmədən, məktubundakı iddiaları qətiyyətlə və tutarlı faktlarla rədd olunurdu. Böyük siyasi, elmi-tarixi ustalıqla hazırlanmış arayışın əsas müddəaları aşağıdakılardan ibarət idi:

Birincisi, arayışda Dağlıq Qarabağın yaradılması və statusuna dair hüquqi və siyasi məsələlər rəsmi partiya, dövlət sənədləri və arxiv materialları əsasında, istinad göstərilməklə tutarlı şəkildə izah olunurdu. Deyilirdi ki, Azərbaycanla iqtisadi və daimi əlaqəsini, azərbaycanlılarla ermənilər arasında daimi sülhün zəruriliyini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılıb, 1923-cü ildə partiyanın qərarı ilə Muxtar Vilayət yaradılıb və bu qərar yekdilliklə qəbul edilib[32].

---

[30] Yenə orada, v. 119-130.
[31] Yenə orada, v. 137-144.
[32] ARSPİHDA, f. 1, siy. 125, iş 107, v. 107.



İkincisi, arayışda deyilirdi ki, Dağlıq Qarabağda əhalinin azalmasının 1913-cü illə müqayisə edilməsinin heç bir əsası yoxdur. Çünki həmin dövrdə muxtar vilayət mövcud deyildi. Onun ərazisinə Yelizavetpol quberniyasınından (Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzaları) və respublikanın indiki rayonlarının bəzisi də daxil olmuşdu. Ona görə də müqayisənin istinad nöqtəsi kimi Müxtar Vilayətin yaradılması ili götürülməlidir. 1923-cü ildə vilayətin əhalisi 158 min nəfər idi. Böyük Vətən müharibəsi illərində vilayətin əhalisi təbii olaraq azalmışdı. 1980-ci il aprel ayının 1-nə olan məlumata görə vilayətin əhalisi 163,1 min nəfər olub. Bu isə vilayət əhalisinin azalmadığını göstərir. Arayışdan aydın olur ki, vilayətdə obyektiv miqrasiya prosesləri getdiyindən, əhalinin və ölkənin həyatında beynəlmiləlləşmə baş verdiyindən burada 49 millətin nümayəndəsi yaşayırdı. Əhalinin 76%-ni ermənilər təşkil edirdi.

Üçüncüsü, arayışda Dağlıq Qarabağın iqtisadi inkişafı məsələlərinə aydınlıq gətirilirdi. Göstərilirdi ki, inqilabadək Dağlıq Qarabağın sənayesi kiçik yarımkustar emalatxanalardan ibarət olub. 70-ci illərdə isə vilayətdə yüzlərlə məhsul istehsal edən və malları nəinki ölkənin müxtəlif yerlərinə göndərilən, eyni zamanda xaricə ixrac olunan 45 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində vilayətdə sənaye məhsulu istehsalı 724 dəfə artmışdı. Əvvəlki beşillikdə vilayətdə sənaye məhsulu istehsalının həcmi 24%, 1976-1980-ci illərdə isə 50,3% artmışdı. Əmək məhsuldarlığı 17,1% əvəzinə 37,6 % olmuşdu. Bu müddət ərzində 80-dən çox yeni sənaye məhsulu buraxılmağa başlanmışdı. Stepanakertdə ildə 6 min maşın təmir edən zavod yaradılmışdı. Vilayətdə aqrar-sənaye kompleksi də inkişaf edirdi. 1976-1979-cu illərdə kənd təsərrüfatı məhsullarının orta illik məcmu artımı planda nəzərdə tutulan 16,8% əvəzinə 49,1% olmuşdu. Bu illərdə əmək məhsuldarlığı beşillik planda nəzərdə tutulmuş 15,6% əvəzinə 42,8% artmışdı. Üzümçülük, maldarlıq, bağçılıq inkişaf etmişdi. Bütün bu

**ОГОНЁК**

**ЕЖЕНЕДЕЛЬНЫЙ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЙ И ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННЫЙ ЖУРНАЛ**

…ЛЬСТВО «ПРАВДА» … А-15, Бумажный пр., 14. Тел. 253-38-61.

"28" марта 1980 г.

КАНДИДАТУ В ЧЛЕНЫ ПОЛИТБЮРО ЦК КПСС,
ПЕРВОМУ СЕКРЕТАРЮ ЦК КПА
тов. Г.А.АЛИЕВУ

Уважаемый Гейдар Алиевич!

В "Огоньке" (№ 34 за 1979 г.) по просьбе двух читателей журнала, старых большевиков, жителей Степанакорта, армян по национальности был опубликован очерк о Нагорно-Карабахской автономной области.

Прилагаемое письмо Г.К. Тер-Акопова из Еревана получено редакцией в ответ на эту публикацию.

Прошу Вас ознакомиться с этим письмом. Мы были бы признательны Вам, если найдете возможным высказать свои соображения, которые редакция могла бы учесть в своем ответе автору письма.

С уважением

ГЛАВНЫЙ РЕДАКТОР
ЖУРНАЛА "ОГОНЕК"
А.СОФРОНОВ

ЦК КП Азербайджана
Вх. № 1569
8.IV 1980 г.



копия № 2426 " " марта 1980 г.

Уважаемая редакция!

Освещение на страницах вашего журнала успехов в экономике, науке и культуре в бывших окраинах царской России очень полезно для многочисленных ваших читателей.

Колоссальный прогресс во всех областях нашей многогранной жизни относится почти ко всем союзным, автономным республикам и областям. Почти, но к сожалению, не ко всем...

Вашего специального корреспондента И.Я.Месхи явно ввели в заблуждение, а он, в свою очередь, ввел в заблуждение читателей в статье "Мы – из Карабаха", за № 34 1979 г.

Хотя в начале статьи он взял под сомнение, что Н.К.А.О. является образцом ленинской национальной политики, считая, что "надо основательно повариться в Карабахском соку", но даже о "некоторых впечатлениях об увиденном" надо было писать объективно, осмысливая отдельные факты и статистический материал.

За весь период Советской власти, несмотря на огромные потери во время Великой Отечественной войны, численность населения в СССР возросла примерно вдвое. Еще более возросла численность населения ранее угнетенных национальностей бывшей царской России.

За период с 1920 по 1978 гг. население Азербайджанской ССР увеличилось в 3,1 раза, в Нахичеванской АССР (в составе Азербайджана с преимущественным азербайджанским населением) в 2,7 раза, в Армянской ССР в 4,2 раза.

Но самым парадоксальным является то, что население Н.К.А.О. (Нагорно-Карабахской автономной области) даже не достигло уровня 1913 года.

В 1913 году население составляло там 176 тысяч, в год образования области, 1923 году – 158 тысяч, а в 1979 году –

...ММУНИСТИЧЕСКАЯ ПАРТИЯ СОВЕТСКОГО СОЮЗА
...РНО-КАРАБАХСКИЙ ОБКОМ КП АЗЕРБАЙДЖАНА

...ՌՐԴՈՒԹՅԱՆ ԿՈՄՈՒՆԻՍՏԱԿԱՆ ԿՈՒՍԱԿՑՈՒԹՅՈՒՆ
...ՋԱՆԻ ԿԿ ԼԵՌՆԱՅԻՆ
...ՂԻ ՄԱՐԶԱՅԻՆ ԿՈՄԻՏԵ

СОВЕТ ИТТИФАГЫ КОММУНИСТ ПАРТИЈАСЫ
АЗӘРБАЈЧАН КП
ДАГЛЫГ ГАРАБАГ ВИЛАЈӘТ КОМИТӘСИ

...Октјабр күч., 13 Тел. 30-21, 34-36. 374470 г. Степанакерт, ул. Октябрьская, 13

« 11 » мая 1980 г.

ЦК КП Азербайджана

Посылаю составленный на основе статистических сведений и фактических данных материал, который можно было бы использовать для ответа редакции журнала "Огонек" в связи с письмом Г.К.Тер-Акопова по поводу очерка о Нагорно-Карабахской автономной области (№ 34 за 1979г.).

<u>Приложение</u>: упомянутое на II листах.

Секретарь Нагорно-Карабахского обкома КП Азербайджана — Б.Кеворков

ЦК КП Азербайджана
Вх. № 1569
13 V 80



128

Письмо Г.К.Тер-Акопова, не оставляет сомнения на тот счет, что его автор либо совершенно не знает сегодняшнюю жизнь Нагорно-Карабахской автономной области, либо, что еще хуже, нарочито пытается приподнести положение дел в области в явно тенденциозном свете. К этому следовало бы добавить, что Г.К.Тер-Акопов, судя по его письму, плохо разбирается в вопросах теории и практики национальных отношений, в связи с чем допускает несостоятельные утверждения и ошибочные выводы.

Нельзя, например, согласиться с ничем необоснованным заявлением автора о том, что "колоссальный прогресс во всех областях нашей многогранной жизни относится почти ко всем союзным, автономным республикам и областям. ПОЧТИ, НО К СОЖАЛЕНИЮ НЕ КО ВСЕМ..." (выделено нами). Почему же прав автор, делая оговорку, что этот прогресс относится "не ко всем?" Да потому, что ликвидация фактического неравенства наций и народностей, выравнивание уровней их экономического, социального и культурного развития - объективная закономерность, присущая социализму. Осуществляя ленинскую национальную политику, Коммунистическая партия внимательно учитывает интересы и нужды каждого народа, каждой союзной республики, автономной республики, автономной области, автономного округа, последовательно проводит курс на правильное сочетание национальных и интернациональных интересов каждого национально-государственного образования и всей страны в целом.

Наша партия добилась в основном выравнивания уровней социально-экономического и культурного развития республик. Все социалистические нации и народности СССР, все союзные республики, автономные республики, автономные области и автономные округа, благодаря бескорыстной помощи русского рабочего класса, братской взаимопомощи и дружбе всех народов СССР во главе с великим русским народом, достигли высокого уровня развития, грандиозных по масштабам и коренных по содержанию изменений во всех сферах жизни.

Убедительно подтверждает это и пример Нагорного Карабаха. До революции промышленность Нагорного Карабаха была представлена небольшими мастерскими полукустарного типа, в которых работало несколько сотен рабочих. Ныне индустриальный облик Нагорного Карабаха воплощен в 45 промышленных предприятиях, выпускающих сотни видов изделий, многие из которых поставляются в различные районы страны и за рубеж. Сложился многотысячный рабочий класс области, большой отряд квалифицированных специалистов-инженеров и техников. За годы

1569

119

- II -

И, наконец, последнее. Нагорно-Карабахская автономная область в составе Азербайджанской ССР была образована в 1923 году на основе ленинских принципов решения национального вопроса, на разработанных В.И.Лениным принципах советской автономии и федерации. Вопрос этот обсуждался в июле 1921 года на пленуме Кавказского бюро Центрального Комитета нашей партии. По предложению членов Кавбюро ЦК Г.К.Орджоникидзе и А.М.Назаретяна было принято решение: "Исходя из необходимости национального мира между мусульманами (азербайджанцами) и армянами и экономической связи верхнего (Нагорного) и нижнего (Низменного) Карабаха, его постоянной связи с Азербайджаном, Нагорный Карабах оставить в пределах Аз.ССР, предоставив ему широкую автономию..." (ПААФ ИМЛ, ф.I, оп.125, д.107, л.107). За это решение голосовали все члены Кавбюро ЦК РКП(б), участвовавшие в обсуждении вопроса, в том числе и С.М.Киров. I июля 1923 года Президиум ЦК Азербайджанской Коммунистической партии (большевиков) под председательством С.М.Кирова постановил декретировать автономию Нагорного Карабаха в составе Азербайджанской ССР. Таким образом, желание автора письма придать своим, весьма далеким от интернационалистской позиции намерениям, кажущуюся весомость ссылкой на якобы мнение Г.К.Орджоникидзе и С.М.Кирова, является совершенно несостоятельным.

В заключении хотелось бы отметить, что наша партия, на протяжении всей своей истории последовательно осуществляющая национальную политику в духе марксистско-ленинского учения, на основе ленинских заветов, - единственный подлинный выразитель коренных интересов всех наций и народностей страны, всех классов и социальных слоев нашего общества. И поэтому в советском обществе нет нужды в самозванных лжепатриотах и путаниках наподобие Г.К.Тер-Акопова.

11/X 80г.



144

352 23 [illegible] 80

Главному редактору журнала "Огонёк"
тов.Софронову А.В.

Уважаемый Анатолий Владимирович!

Мы ознакомились с присланным Вами письмом Г.К.Тер-Акопова, поступившего в редакцию "Огонька" из Еревана. В связи с этим можем сказать, что автор письма допускает голословные утверждения по поводу сегодняшней жизни трудящихся [illegible]-Карабахской автономной области, сознательно [illegible] [illegible] положение дел. Поэтому нет никакой [illegible] [illegible] в письме бесконечные рассуждения, доказывать их [illegible] характер.

Посылаем Вам справку о развитии Нагорно-Карабахской автономной области в составе Азербайджанской ССР за годы Советской [illegible]сти, в которой достаточно фактического материала для того, [illegible]тобы редакция "Огонька" могла дать соответствующий ответ [illegible]втору вышеуказанного письма.

С уважением

[illegible]вый секретарь ЦК КП
Азербайджана Г.Алиев

Нагорно-Карабахская автономная область в составе Азербайджанской ССР была образована в 1923 году на основе разработанных В.И.Лениным принципов советской автономии и федерации. Этот вопрос обсуждался в июле 1921 года на пленуме Кавказского бюро Центрального Комитета нашей партии. По предложению членов Кавбюро ЦК товарищей Г.К.Орджоникидзе и А.М.Назаретяна было принято решение: "Исходя из необходимости национального мира между мусульманами (азербайджанцами) и армянами и экономической связи верхнего (Нагорного) и нижнего (Низменного) Карабаха, его постоянной связи с Азербайджаном, Нагорный Карабах оставить в пределах Аз.ССР, предоставив ему широкую автономию..." (ПААФ ИМЛ, ф.1,оп.125,д.107,л.107). За это решение проголосовали все члены Кавбюро ЦК РКП(б), участвовавшие в обсуждении вопроса. 7 июля 1923 года Президиум ЦК Азербайджанской Коммунистической партии (большевиков) под председательством С.М.Кирова постановил декретировать автономию Нагорного Карабаха в составе Азербайджанской ССР. Таким образом, решение о образовании Нагорно-Карабахской автономной области в составе Азербайджанской ССР было принято единогласно.

Данные о резком сокращении численности населения в НКАО по сравнению с 1913 годом нельзя признать достоверными, поскольку в тот период автономной области не существовало, а территория, совпадающая с ее нынешними границами, была рассредоточена в нескольких уездах Елизаветпольской губернии (Шушинском, Джеванширском, Джебраильском, Зангезурском), куда входили и территории многих других нынешних районов республики. Поэтому исходными могут служить лишь данные на 1923 год - год образования Нагорно-Карабахской автономной области.





...ично в г.Шуше, населенном в основном азербайджанцами, ...ится мавзолей классику азербайджанской литературы Вагифу (около 1717-1797 годы). Вагиф был везиром карабахского ханства (должность, соответствующая министру иностранных дел), а ...ле придворным поэтом. Его внешнеполитическая деятельность увенчалась заключением оборонительного союза закавказских правителей против шахского Ирана и ориентировалась на установление прочных связей с Россией. Как поэт Вагиф внес значительный вклад в развитие азербайджанской литературы, открыв новую страницу в национальной поэзии, приблизив ее к народу. Стихи Вагифа и поныне любимы народом, поются ашугами и певцами, а сама его жизнь нашла художественное воплощение в одноименной поэме Самеда Вургуна.

На доме, где жила талантливая поэтесса Натаван, чья лирика занимает заметное место в азербайджанской поэзии XIX века, установлена мемориальная доска.

Проводя работы по увековечению, местные партийные и советские органы исходят из степени вклада этих людей в дело победы Октября, установления и упрочения Советской власти, защиты социалистических завоеваний советского народа, развития экономики и культуры, значимости их вклада в духовную сокровищницу нашего народа.

sahələr üzrə inkişaf baxımından Dağlıq Qarabağ Cənubi Qafqazda yaradılmış muxtar vilayətlərin hamısını geridə qoyurdu.

Dördüncüsü, arayışda «Ağdam-Stepanakert» dəmiryolunun çəkilişi barədə də tutarlı fakt və materiallar verilirdi. Göstərilirdi ki, dəmiryol xəttinin çəkiliş xərclərinin 50%-ni SSRİ Dəmiryol Nazirliyi, 50%-ni isə Azərbaycan SSR hökuməti ayırıb. Bu isə Dağlıq Qarabağın Azərbaycanla əlaqəsini gücləndirir, nəqliyyatın inkişafına, vilayətdə istehsal edilən məhsulların ölkənin müxtəlif şəhərlərinə daşınmasına müsbət təsir edir.

Beşincisi, arayışda deyilirdi ki, son illərdə vilayət əhalisinin sosial-iqtisadi həyatı da xeyli yüksəlib. Onuncu beşillikdə əhalinin pul gəlirləri doqquzuncu beşilliyin müvafiq dövrü ilə müqayisədə 39,1% artıb. Pərakəndə ticarət 18,3%, əhaliyə göstərilən məişət xidməti 52% çoxalıb. Əhalinin təbii qazla təmin edilməsi 1980-ci il yanvar ayının 1-i üçün 95% olub. Yevlax-Stepanakert-Şuşa qaz kəmərinin çəkilişi vilayət mərkəzinin və Şuşa kurort şəhərinin problemlərinin həllinə kömək edib.

Altıncısı, arayışdan aydın olur ki, vilayətdə mənzil tikintisinə xüsusi diqqət yetirilirdi. Doqquzuncu beşilliyin ilk dörd ilində dövlət vəsaiti hesabına 93,7 min kvadrat metr ev, 2000-dən çox mənzil tikilmişdi. 16681 şagird yeri olan ümumtəhsil məktəbləri, 1590 yerlik uşaq məktəbəqədər müəssisələri tikilib istifadəyə verilmişdi. Stepanakertin su təchizatının genişləndirilməsi vilayət mərkəzinin təminatının yaxşılaşdırılmasına imkan vermişdi.

Yeddincisi, arayış vilayətin mədəni inkişafı haqqında geniş təsəvvür yaradırdı. Göstərilirdi ki, inqilabadək bu ərazidə şəxsi adamlara məxsus olan yalnız üç mədəni-maarif müəssisəsi fəaliyyət göstərib. Əhalinin 90%-dən çoxu savadsız idi. 70-ci illərdə isə vilayətin əhalisi başdan-başa savadlı olub. Vilayətdə 193 ümumtəhsil məktəbi, o cümlədən 147 erməni məktəbi fəaliyyət göstərirdi. Stepanakert



Pedaqoji İnstitutunda dərslər Azərbaycan, rus və erməni dillərində keçirilirdi. Vilayətdəki 5 texnikumdan və 5 texniki-peşə təhsili məktəbindən 4-ündə dərslər erməni dilində keçirilirdi. Burada kitab fondu 1,5 mln. olan 196 kütləvi kitabxana, 202 klub, mədəniyyət evi, 195 kinoteatr və kinoqurğusu, M.Qorki adına Stepanakert dram teatrı, Dövlət mahnı və rəqs ansamblı, erməni dilində və rus dilində dublyajı nəşr olunan «Sovetakan Karabax» qəzeti, 5 rayon qəzeti (4-ü erməni dilində, 1-i Azərbaycan dilində) var idi. Vilayətdə 2,5 saat yayımlanan radio verilişlərindən 2 saatdan çoxu erməni dilində idi. Erməni dilində yazan şair və yazıçılar 95% təşkil edirdilər.

Səkkizincisi, arayışda vilayətdə abidələrin qoyulması sahəsində həyata keçirilən tədbirlərə də aydınlıq gətirilirdi. Erməni xadimlərinə də abidələr qoyulduğuna dair faktlar sadalandıqdan sonra göstərilirdi ki, əhalisi əsasən azərbaycanlılardan ibarət olan Şuşada indi Azərbaycan ədəbiyyatının klassiki Vaqifə abidə qoyulur. Arayışda deyilirdi ki, Vaqif Qarabağ xanının vəziri-xarici işlər naziri vəzifəsinə uyğun gələn vəzifədə işləyib və onun xarici siyasət fəaliyyəti Zaqafqaziya hakimlərinin İran şahına qarşı mübarizəsinə dair müqavilənin imzalanması ilə nəticələnib. O, Rusiya ilə əlaqələrin qurulmasına və inkişafına üstünlük verib.

Heç şübhəsiz, H.Əliyev Vaqifin məqbərəsini ucaltmaqdan ötrü regionda, xüsusən İran inqilabından sonra yaranmış vəziyyətdən Azərbaycan xalqının mənafeləri naminə məharətlə istifadə etmişdi. Məlumdur ki, İranın bütövlüyünü qorumaq və ayrılmanın qarşısını almaq məqsədilə Azərbaycana yürüş edən Ağa Məhəmməd şah Qacar Şuşa qalasını tutsa da, burada qətlə yetirilmişdi. O vaxt Qarabağ xanının xarici məsələlərə baxan vəziri Rusiya ilə münasibətləri qurmaq və inkişaf etdirməyin tərəfdarı olan Molla Pənah Vaqif olmuşdu.

Göründüyü kimi, yaranmış vəziyyətdən H.Əliyev Azərbaycan xalqını konkret şəraitdə düşündürən və gələcəkdə narahat edə biləcək problemin həlli üçün məharətlə istifadə etmişdi.

H.Əliyevin bu məsələyə münasibətindən bir sıra nəticələr çıxarmaq olar:

Birincisi, Azərbaycan rəhbəri redaksiyanın məktubunu alan kimi ona operativ münasibət bəslədi. Əlbəttə, jurnalda dərc olunmuş oçerkin əleyhinə kin və hiddət dolu məktub yazan bir erməni həkiminin boş, cəfəng iddialarına cavab verməmək də olardı. Sovet sistemi şəraitində Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, müttəfiq respublikanın rəhbəri olan nüfuzlu bir şəxsiyyətə redaksiyanın məktubuna cavab verməmək üstündə kimsə nəinki heç bir söz deməz, hətta buna cəsarət də etməzdi. Lakin H.Əliyev Azərbaycan xalqının həyati mənafeləri ilə bağlı olan bütün məsələlərdə olduğu kimi, bu məktuba da dərhal münasibət bəsləyərək mərkəzi mətbuat orqanları ilə ünsiyyət yaratmaqda özündən əvvəlki rəhbərlərdən xeyli irəli getdi, özündən sonra gələnlərə isə yaxşı ibrət verdi. Məktuba cavab verməklə Azərbaycan rəhbəri ölkədə tanınmış jurnalist olan Safronovu özünə daha da yaxınlaşdırırdı. Bu isə Safronov üçün böyük şərəf idi. Belə operativlik H.Əliyevin Dağlıq Qarabağ məsələsinə çox ciddi, fövqəladə dərəcədə əhəmiyyət verdiyini göstərirdi.

İkincisi, məsələyə yanaşma tərzi, redaksiyanın və Ter-Akopovun məktubunun B.Gevorkova göndərilərək ondan məsələyə dair geniş arayış alınması, bir erməninin əli ilə digər erməninin iddialarına cavab verilməsi H.Əliyevin mahir, uzaqgörən siyasətçi və diplomat olduğunu göstərirdi. Bununla o həm yerli partiya orqanının rəyini almaqla məsələnin həllində mövqeyini xeyli gücləndirir, həm də cavabını tutarlı və təkzibolunmaz edirdi. Belə bir cavaba etiraz etmək artıq mümkün deyildi.

Üçüncüsü, zəngin fakt və materiallar, arxiv sənədləri əsasında yazılaraq redaksiyaya göndərilən arayış H.Əliyevin tariximizi, xüsusən Dağlıq Qarabağ tarixinin mahiyyətini dərindən bildiyini göstərirdi.



Dördüncüsü, arayış H.Əliyevin kommunist rəhbər olmasına baxmayaraq, əsl milli lider olduğunu, milli-mənəvi dəyərlərə möhkəm sadiq qaldığını, Azərbaycan xalqının mənafelərini hər şeydən üstün tutduğunu, bu məsələlərdə güzəştə getmədiyini göstərirdi. O, erməni həkiminin bütün böhtanlarını qətiyyətlə rədd edərək Moskvaya yazdığı məktubunda Vaqifi «Azərbaycan milli poeziyasında yeni səhifə açan, onu xalqa yaxınlaşdıran şair» kimi cəsarətlə, fəxrlə dəyərləndirir, Natəvanın müdafiəsinə qalxır və öz prinsiplərindən geri çəkilməyərək, qorxmayaraq zəmanəsinin böyük azərbaycanlısı olduğunu təsdiq edirdi. Arayışda göstərilirdi ki, XIX əsr Azərbaycan ədəbiyyatında mühüm yer tutan istedadlı şairə Natəvanın yaşadığı evə xatirə lövhəsi vurulmuşdur.

H.Əliyev Moskvaya işləməyə gedərkən Azərbaycan rəhbərlərinə Dağlıq Qarabağa qayğı, qonşu Ermənistanla münasibətlərə xüsusi diqqət yetirməyi tövsiyə etmişdi. Lakin bu tövsiyələr yetərincə nəzərə alınmadı. Nəticədə erməni dairələri yenidən Azərbaycan üzərinə ayaq açdılar. 1983-cü ildən etibarən ermənilərin Azərbaycana münasibətləri soyuqlaşmağa başladı. Onlar yeni-yeni ərazi iddiaları irəli sürdülər. Respublika rəhbərlərinin zəifliyi erməni planlarının genişləndirilməsinə rəvac verirdi. 1983-cü ildə iki respublika arasında baş verən münaqişənin əsas səbəbi Qazax rayonunun Kəmərli kəndində 1,675 ha meşə massivindən istifadə etmək üstündə idi. Ermənilər həmin ərazini tutmaq istəyirdilər. Kəmərli kəndinin nümayəndələri hətta Sov. İKP MK-da şikayətdə olmuşdular. 1984-cü ilin oktyabr ayında torpaq məsələsini öyrənmək üçün Azərbaycan rəsmi şəxslərinin bir neçəsi rayona getdilər. Qazax camaatı oktyabr ayının 24-də onları döyərək qovdu. Ermənilər də xəsarət aldılar. Lakin xalqın etirazının elə bir nəticəsi olmadı. Azərbaycan KP MK bürosunun 12 noyabr tarixli iclasında «Qazax rayonunun Kəmərli kəndində münaqişə haqqında» məsələ müzakirə

edildi (pr. №150, s.9)[33]. Geniş müzakirələrdən sonra on bənddən ibarət büro qərarı qəbul olundu[34]. Rayon rəhbərlərinin bir neçəsi vəzifəsindən və partiya üzvlüyündən azad edildi, rəhbər işçilərin bəziləri cəzalandırıldı. Belə vəziyyət Azərbaycan rəhbərliyinin zəifliyini göstərirdi. Bundan sonra ermənilər daha da şirnikləşdilər.

H.Əliyev isə Kremldə dövlətin, Azərbaycanın mənafelərini qətiyyətlə qoruyur və erməni iddialarının reallaşmasına imkan vermirdi. Sov.İKP MK Siyasi bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işlədiyi zaman H.Əliyevin imzaladığı qərarlarla işdə yol verdiyi nöqsanlara görə bir sıra şəxslər, o cümlədən bəzi ermənilər vəzifələrindən azad edilmişdilər. Onun imzaladığı SSRİ Nazirlər Sovetinin 1984-cü il 20 iyun tarixli 620 №-li qərarı ilə R.B.Avdalyan SSRİ-nin Anqoladakı ticarət nümayəndəliyinin müavini vəzifəsindən azad edilərək yerinə V.İ.Petrov təyin olunmuşdu[35]. Heç şübhəsiz, belə sənədləri imzalamazdan əvvəl H.Əliyev sovet rəhbərləri ilə razılaşdırır, ona milli don geyindirilməsinə imkan vermir, ön yerə dövlətin ümumi mənafelərini qoyurdu.

Belə bir fakt diqqəti cəlb edir ki, 1985-ci ilədək H.Əliyevin iştirakı ilə keçirilən Sov.İKP MK Siyasi bürosunun və SSRİ Nazirlər Sovetinin iclaslarında Azərbaycan əleyhinə olaraq ermənilərin xeyrinə qərar qəbul edilməyib.

80-ci illərin ortalarından etibarən erməni dairələri öz fəaliyyətlərini bir neçə istiqamətdə daha da genişləndirdilər. İlk növbədə Ermənistanın millətçi alim, yazıçı, şair və jurnalistlərinin Azərbaycan, Türkiyə əleyhinə yazdıqları kitabların nəşri çoxaldı. Antiazərbaycan əhval-ruhiyyə gücləndi.

İkincisi, erməni rəsmi dairələri sovet rəhbərliyindən 24 apreli «Genosid qurbanlarının xatirə günü» kimi qeyd etməyə

[33] ARSPİHDA, f. 1, siy. 73, iş 160, v. 57-87.
[34] ARSPİHDA, f. 1, siy. 73, iş 157, v. 10-15.
[35] Постановление Совета Министров СССР за июнь 1984 г. М., Тип. Совмина СССР, 1984, с.139.



icazə almağa çalışırdılar. Bu məqsədlə Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan Sov.İKP MK-ya müraciət edərək Ermənistan SSR Ali Sovetinin müvafiq fərmanına Siyasi büronun razılıq verməsini xahiş etmişdi. Həmin müraciət 1985-ci il fevral ayının 21-də keçirilən Siyasi büro iclasının gündəliyinə daxil edildi və «Erməni genosidinin 70 illiyi ilə əlaqədar tədbirlər haqqında» məsələ müzakirə olundu. Sov.İKP MK-nın Baş katibi K.Çernenko xəstə olduğundan iclası M.S.Qorbaçov aparırdı. O bu məsələ barədə qərarın qəbul edilməsinə canfəşanlıq göstərirdi. Siyasi büronun bəzi üzvləri də ona tərəfdar çıxırdılar. Lakin SSRİ xarici işlər naziri A.Qromıko çıxışında məsələnin müzakirəsinin hissə qapılmadan keçirilməsini təklif edir və bildirir ki, genosidin törədilməsinə Osmanlı Türkiyəsi ilə yanaşı çar Rusiyasının da günahı vardır. O, məsələyə dair qərar qəbul edilməsinin əleyhinə çıxır. Çıxış edən SSRİ Nazirlər Sovetinin sədri N.Tixonov isə Ermənistan KP-nin təkliflərini oxuyanda həyəcanlandığını söyləyir. Bildirir ki, SSRİ-nin Türkiyə ilə münasibətləri yenicə qaydaya düşür, Türkiyə rəhbərləri SSRİ-ni dost ölkə adlandırırlar. Tixonov eyni zamanda qeyd edir ki, Türkiyəyə səfəri zamanı türk dövlət və hökumət başçıları Ermənistandakı antitürk əhval-ruhiyyəni onun diqqətinə çatdırıblar. SSRİ Nazirlər Sovetinin sədri türklərin Bosfor və Dardanel boğazlarından «qıfıl asmaq» imkanları olduğunu da xatırladır, qərar qəbul edilməsinin əleyhinə çıxır.

Gərgin müzakirələrdən sonra Ermənistan rəhbərliyinin təklifləri qəbul edilmədi. Lakin M.Qorbaçov yenə də ermənipərəst mövqeyindən əl çəkmədi. Onun göstərişləri ilə sovet mətbuatında antitürk yazıları çap edilməyə başlandı. Məsələn, Sov.İKP MK-nın orqanı olan «Pravda» qəzetində 1985-ci il aprel ayının 24-də erməni istəklərinə uyğun gələn məqalə çap edildi. Xüsusən ədəbi jurnallarda antitürk əhval-ruhiyyəsi gücləndi.

Ermənipərəst, məhdud düşüncəli dövlət xadimi M.S.Qorbaçov hakimiyyətə gəldikdən sonra erməni dairələri

xeyli fəallaşdılar. Qorbaçov erməniləri ruhlandırır və müdafiə edirdi. Onu əhatə edən ermənilər daim təzyiqlər göstərirdilər. Lakin H.Əliyev Kremldə işlədikcə erməni iddialarının reallaşdırılması mümkün deyildi. Ona görə də H.Əliyev tədricən sıxışdırılmağa başlanmışdı. Qorbaçov onu ölkənin rəhbərliyinə ən potensial namizəd hesab etdiyindən qısqanırdı. Qeyd etmək lazımdır ki, H.Əliyevin işgüzarlığı, məsələləri və həlli yollarını dərindən bilməsi Kremldəki bəzi şəxslərdə paxıllıq yaradırdı. Görkəmli tarixçi alim, Rusiya EA-nın müxbir üzvü Əhməd İsgəndərov bununla əlaqədar olaraq yazır: «O vaxtlar mən Siyasi büronun bir çox üzvlərini yaxşı tanıyırdım. Çoxları işləməyi sadəcə bacarmırdı. Heydər Əliyev isə tamam başqa idi, bax, buna görə də Moskvada ona ehtiyatla, qısqanclıqla yanaşırdılar. Onun işgüzarlığı, həll etməli olduğu bütün məsələlərin mahiyyətinə varması nadir hadisə idi»[36]. Qorbaçov və erməni xadimlər H.Əliyevə qarşı müttəfiq kimi çıxış edirdilər. Nəticədə ermənilər öz istəklərinə çatmaq yolunda cəhdlərini getdikcə gücləndirirdilər.

Üçüncüsü, 80-ci illərin ortalarında erməni rəsmi dairələri iddialarını həyata keçirmək məqsədilə başqa bir varianta əl atdılar. Onlar xarici ölkələrdəki ermənilərin Ermənistana köçürülməsi məsələsini qaldırdılar. Bu dəfə sovet hökuməti onların istəklərini yerinə yetirdi. SSRİ Nazirlər Soveti 1985-ci il iyun ayının 20-də «1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında» qərar qəbul etdi. Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan 1986-cı ilin noyabr ayında Sov.İKP MK-ya məxfi qeydlərini yazaraq bu müddətin 1990-cı ilədək uzadılmasını xahiş etdi. Məktubdan aydın olur ki, sovet hakimiyyəti illərində partiya qərarları ilə xarici ölkələrdən Ermənistana 230 min nəfərdən çox erməni

[36] Rusiya EA-nın müxbir üzvü Əhməd İsgəndərovla müsahibə. – «Xalq qəzeti», 2004, 16 dekabr, №290(24857).



repatriasiya edilib. Yaxın və Orta Şərq ölkələrində (İran, Suriya, Livan, İraq, İordaniya) yaşayan ermənilərdən hələ də SSRİ-yə gəlmək istəyənlər var idi[37].

Qeyd etmək lazımdır ki, Ermənistana köçmək istəyən ermənilər siyasi baxışlarına görə kommunist, sosialist deyil, daşnak idilər. Onların bir çoxu SSRİ-ni milli münasibətlərin qızışdırılması yolu ilə dağıtmaq istəyən xarici ölkələrin xüsusi xidmət orqanlarının agentləri idi.

Qeydlərlə tanış olan Sov.İKP MK katibi Y.Liqaçov 1986-cı il noyabr ayının 11-də «MK-ya təklif hazırlayan» dərkənarı yazaraq N.İ.Savinkin və P.Razumovskiyə göndərdi[38]. Sov.İKP MK-nın inzibati orqanlar şöbəsinin müdiri N.Savinkin, MK-nın təşkilat-partiya şöbəsi müdirinin müavini N.Zolotaryov 1987-ci il may ayının 8-də Sov.İKP MK-ya məxfi təqdimat məktubu hazırladılar. Təqdimat məktubunda deyilirdi ki, Sov.İKP MK-nın şöbələri tərəfindən sovet əhalisi içərisində mühacirət əhval-ruhiyyəsi probleminin olmasını xəbərdar edən təkliflər MK-ya hazırlanmışdır. Bu materiallarda ermənilərin SSRİ-yə repatriasiya edilməsi məsələsinə də toxunulur. Bütün bunları nəzərə alan təqdimat müəllifləri təklif edirdilər ki, Ermənistan KP MK-nın qeydlərinə yuxarıda deyilən məsələyə dair Sov.İKP MK-nın qərarı qəbul edildikdən sonra son olaraq baxmaq mümkündür. Təkliflə tanış olan Liqaçov, Lukyanov, Yakovlev, Razumovski, Medvedev və b. «razılaşılsın» kimi dərkənar yazdılar[39].

Bundan sonra erməni dairələrinin əl-qolu daha geniş açıldı. Xarici ölkələrdən ermənilər gəlməyə başladılar. Onlar özləri ilə Cənubi Qafqaza qatı millətçilik, düşmənçilik, kin-küdurət gətirdilər.

Lakin ermənilər bununla kifayətlənməyərək H.Əliyevin üzərinə total böhtan dolu hücuma keçdilər. Onlar başa düşürdülər

[37] РГАНИ, ф.89, оп.11, д.40, л.3.

[38] Yenə orada, l.2.

[39] Yenə orada, l.1.

РАССЕКРЕЧЕНО

Պրոլետարներ բոլոր երկրների, միացե՛ք

ՍՈՎԵՏԱԿԱՆ ՄԻՈՒԹՅԱՆ ԿՈՄՈՒՆԻՍՏԱԿԱՆ ԿՈՒՍԱԿՑՈՒԹՅՈՒՆ

ՀԱՅԱՍՏԱՆԻ ԿՈՄԿՈՒՍԻ ԿԵՆՏՐՈՆԱԿԱՆ ԿՈՄԻՏԵ

Пролетарии всех стран, соединяйтесь!

КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ СОВЕТСКОГО СОЮЗА

ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ КП АРМЕНИИ

г. Ереван, ул. Маршала Баграмяна № 19

2 декабр. ноября 1986 г.

№ ______

24.НОЯ.86 33579
КОНТРОЛЬ
ПОДЛЕЖИТ ВОЗВРАТУ
В ОБЩИЙ ОТДЕЛ ЦК КПСС

Секретно

ЦК КПСС

В соответствии с решениями ЦК КПСС с первых лет установления Советской власти в Армении начала осуществляться репатриация армян из различных зарубежных стран, где они оказались в качестве беженцев в годы первой мировой войны. В Армянскую ССР из-за границы было репатриировано свыше 230 тысяч армян.

По имеющимся данным, среди армян, живущих в странах Ближнего и Среднего Востока (Иран, Сирия, Ливан, Ирак, Иордания) имеются желающие приехать на постоянное жительство в Армянскую ССР.

Учитывая важное политическое значение репатриации, ЦК КП Армении просит рассмотреть вопрос о продлении до конца 1990 года срока действия Постановления Совета Министров СССР от 20 июня 1985 года "О продолжении репатриации армян из зарубежных стран в СССР в 1986-1986 годах".

СЕКРЕТАРЬ ЦК КП АРМЕНИИ

К.Демирчян

К.ДЕМИРЧЯН



Тт. Савинкину Н.И.
Разумову Е.З.

Внести предложения в ЦК.

33579

22.11. Лигачев

КОПИЯ

Секретно

ЦК КПСС

В соответствии с поручением по записке ЦК Компартии Армении о продолжении репатриации армян из зарубежных стран в Советский Союз докладываем следующее.

Отделами ЦК КПСС подготовлены предложения в ЦК КПСС по проблеме предупреждения эмиграционных настроений среди части советского населения. В этих материалах затрагивается и вопрос о репатриации армян в СССР.

Учитывая изложенное, полагали бы возможным записку ЦК Компартии Армении окончательно рассмотреть после принятия решения ЦК КПСС по указанным выше материалам.

Просим согласия.

Зав.Отделом административных органов ЦК КПСС (Н.Савинкин)

Зам.зав.Отделом организационно-партийной работы ЦК КПСС (Н.Золотарев)

" 1 " мая 1987 года

2528с
09 МАЙ 1987



ki, H.Əliyev Sov.İKP MK Siyasi bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində qaldıqca Dağlıq Qarabağ məsələsində öz istəklərinə çata bilməyəcəklər. H.Əliyevin Dağlıq Qarabağda həyata keçirdiyi tədbirləri və bütün fəaliyyətini bəzi erməni alimləri və ziyalıları antierməni, panturanizm, pantürkizm kimi dəyərləndirərək təkcə ölkə daxilində deyil, eyni zamanda xaricdə də qatı antiazərbaycan siyasətini və təbliğatını gücləndirdilər. 400 min erməni H.Əliyevin əleyhinə olan məktuba imza ataraq Moskvaya göndərmişdi. Erməni xadimləri H.Əliyevi ən qatı türkçü, turançı adlandırır, onun hakimiyyətdən uzaqlaşdırılmasını, hətta müttəhimlər kürsüsündə oturdulmasını tələb edirdilər. Onlar və himayəçiləri H.Əliyevi Azərbaycanı türkləşdirməkdə ittiham edirdilər. H.Əliyevə qarşı təbliğat kampaniyası bütün istiqamətlər üzrə getdikcə şiddətlənirdi. Əleyhinə kampaniya aparan erməni alimləri onu antierməni siyasəti yeritməkdə, pantürkist məktəb, millətçi azərbaycanlı gənclər və alimlər yaratmaqda ittiham edərək Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçova şikayət məktubları göndərirdilər. Məsələn, İ.Muradyan adlı bir erməni məktub yazaraq H.Əliyevin müttəhimlər kürsüsündə oturdulmasını tələb edirdi. Onun məktubunda deyilirdi: «Əliyev, siz mənim tərəfimdən Naxçıvanda, Dağlıq Qarabağda və Azərbaycan SSR-də erməni əhalisinin soyqırımında iştirak etməkdə ittiham edilirsiniz. Respublika KP MK-nın birinci katibi vəzifəsində işlədiyiniz müddətdə Müsavat hökumətinin, sonradan isə Azərbaycan SSR-in partiya-hökumət rəhbərliyinin 1920-1987-ci illərdə həyata keçirdiyi erməni əhalisinin soyqırımı siyasəti indiyədək görünməyən qüvvə ilə güclənmişdir.

BMT Baş Assambleyasının qəbul etdiyi «Soyqırımın qarşısının alınması və ona görə cəza» Konvensiyasında deyilir: «Soyqırım xalqın, yaxud onun bir hissəsinin təkcə fiziki məhvi deyil, həm də onun üçün elə bir dözülməz həyat şəraiti yaratmaqdır ki, yerli sakinlər öz doğma yerlərini tərk etməyə məcbur olsunlar».

Siz və tərəfdarlarınız durğunluq dövründə mümkün olan bütün üsullardan istifadə edərək bu deyimi Azərbaycan SSR partiya-hökumət rəhbərliyinin antiermәni, Türkiyəyönümlü münasibətilə tam döğrultmusunuz.

Hakimiyyətiniz dövründə və sonrakı illərdə (1967-1987-ci illər) on minlərlə erməni Sizin pantürkist kadr siyasətindən xilas olaraq respublikanı tərk etmişdir. Qədim erməni vilayəti Naxçıvan demək olar ki, tam şəkildə erməni əhalisindən məhrum olmuşdur. Dağlıq Qarabağda (Arsaxda) isə əhali praktik olaraq artmır. Erməni vilayətinin sosial-iqtisadi inkişafına hər vasitələrlə mane olunur, erməni mədəniyyəti və memarlıq abidələri vəhşicəsinə məhv edilir, tarixin misilsiz saxtalaşdırılması həyata keçirilir, dövlət səviyyəsində antierməni və Türkiyəyönümlü təbliğat təşkil edilir. Erməni vilayətləri sovet Ermənistanından keçilməz sədlərlə ayrılmışdır.

Sizə sovet Azərbaycanının hökumətini təşkil edən N.Nərimanovdan və onun pantürkist komandasından miras qalmış qədim erməni torpaqlarında bütün erməni adları məhv edilir. Bu komandanın üzvlərindən biri, hökumətin naziri Ə.Qarayev öz əlaltılarına deyirdi: «Erməniləri zəiflətmək məqsədilə sizə tanış olan və çoxlu qoşun olan yerlərdə bir rus əsgərini öldürün və bu cinayətdə erməniləri ittiham edin. Bilirsiniz, ruslar nə edəcək?! Bu lənətə gəlmiş qəbilə ayağa qalxa bilməsin deyə üzdə olan heç bir insanı, yaxud varidatı salamat qoymayın». XI Qırmızı ordu Zaqafqaziyaya gəldikdən dərhal sonra Müsavat Partiyasının məxfi şəkildə yoxa çıxmasına təəccüblənmək lazım deyil. Bu sizin sələflərinizdir, Əliyev!

Sizin hakimiyyətiniz dövründə slavyanlara və ermənilərə nifrət hissi və milli təkəbbürlü və müştəbeh tərbiyə almış yeni gənc ziyalı nəsli yaranmışdır. Bu, Sizin demək olar ki, ən böyük cinayətinizdir: «intellektualların» mənəviyyatını müalicə etmək üçün onilliklər lazımdır. Məsələn, yuxusunda nə Ermənistana, nə ermənilərə və hətta ruslara





Heydər Əliyev Qarabağda.
1976-cı il 30 avqust



Heydər Əliyev
"Ağdam-Stepanakert"
dəmiryolunu açır.
1979-cu il 12 yanvar



*Heydər Əliyev "Ağdam-Stepanakert" dəmiryolunun açılış mərasimində nitq söyləyir. 1979-cu il 12 yanvar*



*Heydər Əliyev Şuşada. 1979-cu il 12 yanvar*



Heydər Əliyev Qarabağda. 1981-ci il 10 iyul



*Heydər Əliyev Qarabağda ağsaqqallar arasında. 1981-ci il 10 iyul*



*Heydər Əliyev Şuşada Vaqifin mavzoleyini açır. 1982-ci il 14 yanvar*



*Heydər Əliyev Şuşada Vaqifin mavzoleyinin açılışında. 1982-ci il 14 yanvar*



*Heydər Əliyev Şuşada Vaqifin mavzoleyinin açılışında əhali arasında. 1982-ci il 14 yanvar*




*Heydər Əliyev Şuşada Vaqif poeziya bayramında. 1982-ci il 2 avqust*



*Heydər Əliyev Şuşada Vaqif poeziya bayramı günlərində. 1982-ci il 2 avqust*

yer olmayan Bosfordan Baykaladək böyük Turan görən Sizin və Azərbaycan SSR Elmlər Akademiyasının akademiki Z.Bünyadovun yaratdığı pantürkist tarix məktəbini necə zərərsizləşdirmək olar?

Sizin Siyasi bürodakı uzunömürlülüyünüz yenidənqurma və aşkarlığın fenomenidir. Dörd ay müddətində olmamağınız Sizin siyasi ölümünüzün tezliklə baş verəcəyinə ümid yaradırdı. 1985-ci ilin aprel plenumundan sonra hər bir ağlıkəsən adama aydın oldu ki, sovet cəmiyyətimizin sağlamlaşmasına bağladığı minlərlə ümidləri həyata keçirəcək adamlar arasında Sizə yer yoxdur. Siz yenidənqurma və aşkarlıq ifadələri ilə uyğun gəlmirsiniz. Sizi Qorbaçov, Rıjkov, Yakovlev, Razumovski, Medvedyev, Dobrının və digər siyasi xadimlərlə müqayisə etmək olmaz.

Sizin Azərbaycan üçün heç bir siyasi, tarixi ... dəyərinizin olmadığı onunla sübuta yetirilir ki, Azərbaycan millətindən olan bir çox layiqli insanlar sizi cinayətkar hesab edir və bu barədə bəyanat verirlər.

Bəs sizinlə qalanlar kimlərdir? Sizinlə bir yerdə olanlar yenidənqurmaya və aşkarlığa nifrət edən bütün səviyyədəki funksionerlər, habelə ölkənizdəki pantürkist qüvvələrdir. Heç də az qüvvə deyil! Bəs necə...

1987-ci il aprelin 10-da vətəndaşlar Z.S.Məlikşahnazaryan və İ.M.Muradyan SSRİ Prokurorluğuna ərizə və müvafiq materiallar göndərmişlər. Materiallarda sizə qarşı Azərbaycan SSR-də erməni əhalisinin «Milli və irqi bərabərliyinin pozulması»nda (Azərbaycan SSR Cinayət Məcəlləsi, maddə 67) iştirak etməkdə ittiham var. Bu isə əslində soyqırım həyata keçirilməsidir. Sizin müdafiənizə bütün kral ordusu qalxmışdır-partiya və hüquq-mühafizə orqanlarının funksionerləri. Sizi xilas etməkdən ötrü onlar nə qədər demaqoqiya və digər uydurmalar işlətməli oldular. Lakin nəyə görə? Güman ki, ancaq tarix üçün.

SSRİ Prokurorluğuna bir neçə dəfə müraciət etdikdən sonra mən aşağıdakı məktubu aldım:

SSRİ Prokurorluğu Dövlət təhlükəsizliyi orqanlarında istintaqa nəzarət şöbəsi. 103793, Moskva, K-9, Puşkinskaya, 15A. 22. 09. 87 №13q.

Sizin 27. 07. 87 tarixli ərizənizə baxılmışdır. Ərizədə göstərilən məsələlər prokurorluq orqanlarının səlahiyyətlərinə daxil deyil.

Şöbənin baş prokuroru
Üçüncü dərəcəli dövlət müşaviri
Y. E. Ovçarov
MV. 2 22. 09. 87

Mən hətta bu cavaba görə də SSRİ Prokurorluğuna minnətdaram. Hətta prokurorluq də sizin cinayətlərə qarşı gücsüzdür.

Düşünmək uçun informasiya:

Erməni xalqının soyqırımına görə erməni qisasçıları tərəfindən Türkiyənin və Müsavat Azərbaycanının aşağıdakı görkəmli dövlət xadimləri qətlə yetirilmişdir:

1. 1918-ci ilin sentyabrında Bakı şəhərində erməni qırğınını təşkil edən Müsavat Azərbaycanının prezidenti Xan Xoyski Tbilisi şəhərində Aram Yerkanyan tərəfindən öldürülmüşdür.

2. 1915-ci ildə erməni soyqırımını təşkil edənlərdən biri, Türkiyənin daxili işlər naziri Tələt Paşa 1921-ci il martın 15-də Berlin şəhərində Soqomon Teyleryan tərəfindən öldürülmüşdür.

3. 1918-ci ilin sentyabrında Bakıda erməni qırğınında günahkar olan Müsavat Azərbaycanının daxili işlər naziri Xan Cavanşirov 1921-ci il iyulun 19-da İstanbul şəhərində Misak Talvakyan tərəfindən öldürülmüşdür.

4. 1915-ci il erməni soyqırımında günahkar olan Türkiyə prezidenti Səid Hilmi 1921-ci il dekabrın 6-da Roma şəhərində Arşavir Şirakyan tərəfindən öldürülmüşdür.

5. Qara dənizdə minlərlə erməni uşağını batırmaq əmrini vermiş Türkiyə hökumətinin üzvü Bahəddin Şakir 1922-ci il aprelin 17-də Berlin şəhərində Aram Yerkanyan və Arşavir Şirakyan tərəfindən öldürülmüşdür.



6. 1915-ci il erməni qırğınının təşkilatçılarından biri, Türkiyənin dəniz naziri Camal Paşa 1922-ci il iyulun 25-də gündüz saat 5-də Tbilisi şəhərində Petros Ter-Petrosyan və Zare Məlikşahnazaryan tərəfindən öldürülmüşdür. Qətlin təşkilatçısı Artaşes Gevorkyandır.

7. 1915-ci il erməni soyqırımının təşkilatçılarından biri, sonradan Buxara əmirinin qoşunlarının komandanı olmuş, Türkiyənin hərbi naziri Ənvər Paşa 1922-ci il avqustun 5-də Buxara əmirliyində məsciddən çıxarkən öldürülmüşdür. Ənvər Paşanın məhvini Dağlıq Qarabağın Taqavert kəndindən olan Akop Yakovleviç Melkumyanın (sonradan komandir olmuşdur) başçılığı ilə Qırmızı ordunun eskadronu həyata keçirmişdir. Ənvəri bilavasitə Dağlıq Qarabağdan olan Saruxanyan qətlə yetirmişdir.

Bununla bağlı olaraq sovet Ermənistanı hökumətinin rəhbəri Aleksandr Fyodoroviç Myasnikyan bəyan etmişdir ki, erməni soyqırımının təşkilatçılarından sonuncusu məhv edilmişdir. Aleksandr Fyodaroviç ancaq bir şeydə səhv etmişdir ki, Ənvər heç də sonuncu deyildi.

1956-cı ildə Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırov xalq düşməni kimi sovet məhkəməsinin hökmü ilə güllələnməyə məhkum edilmişdir. Məlum olduğu kimi, ittihamda M.C.Bağırovun pantürkist fəaliyyəti göstərilməmişdir.

Son illərdə erməni terrorçuları Türkiyə diplomatlarına 130 sui-qəsd törətmişlər...

Siz isə Əliyev, hələ sağ-salamat yaşamalısınız ki, nəhayət, müttəhimlər kürsüsündə əyləşəsiniz.

Pantürkizm və panislamizmə qarşı sadiq mübariz, kommunistlərin oğlu və nəvəsi, bitərəf, məhdud erməni çərçivəsində geniş tanınmış İ.Muradyan. Yerevan şəhəri, 375091, Kanaker, 131, mənzil 10. Tel: 28-52-79»[40].

Bu məktubdan bir sıra nəticələr çıxarmaq olar: ermənilər H.Əliyevi hakimiyyət olimpindən düşürməyə və həb-

---

[40] «Azərbaycan» qəzeti, 2004, 16 sentyabr, №216 (3831).

sinə çalışır, onu sovet dövlətinin düşmən saydığı pantürkizmdə, turançılıqda, millətçilikdə ittiham edir, bütün bunlara nail ola bilmədikdə terror yolu ilə öldürməklə hədələyirdilər.

Qeyd etmək lazımdır ki, Türkiyə və Azərbaycan xadimlərinə qarşı terroru həyata keçirən qatillərin bəzilərinin adları məktubdakı kimi deyil, mötəbər mənbələrdə başqa cür göstərilir. Məsələn, Camal Paşanı Tiflisdə Böyük Pyotr küçəsində Gürcüstan Fövqəladə Komissiyasının agenti, keçmişdə məşhur quldur olmuş Serqo Labadze qətlə yetirsə də, qətlin üstünü ört-basdır etmək, Türkiyə ilə sovet Rusiyası arasında normal münasibətlərə xələl gətirməmək üçün sovet hakimiyyət orqanları onu Daşnaksütyun partiyasının üstünə atmışdılar[41]. Eyni zamanda Behbud xan Cavanşiri İstanbulda öldürən erməni terrorçusu Toplaqyan olub[42].

Qeyd etmək lazımdır ki, 80-ci illərin ortalarında ABŞ rəhbərləri M.S.Qorbaçovla görüşlərində yenidənqurma və aşkarlıq siyasətinin daha uğurla həyata keçirilməsindən ötrü Sov. İKP MK Siyasi bürosundan DTK zabitlərinin və köhnə kadrların uzaqlaşdırılmasını tövsiyə edirdilər. ABŞ tarixçiləri yazırlar ki, 1985-ci ildə Cenevrədə keçirilən sovet-amerika görüşü zamanı ABŞ prezidenti R.Reyqan M.S.Qorbaçovun diqqətinə Sov. İKP MK Siyasi bürosundan DTK generallarının uzaqlaşdırılmasının vacibliyini çatdırmışdı. Bundan sonra bəzi xadimlərə qarşı böhtan və hücum kampaniyası daha da gücləndi. Nəticədə Sov.İKP MK-nın 1987-ci il oktyabr plenumunda H.Əliyev, Sov.İKP MK Siyasi bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən öz ərizəsi ilə istefa verdi. H.Əliyevin vəzifələrdən getməsi respublika üçün fəlakətlər doğurdu, Azərbaycana münasibət dəyişdi, hər şey qarışdı, azərbaycanlılar sıxışdırılmağa başlandı, düşmən vətən üzərinə ayaq açdı. Sonralar H.Əliyev bu barədə danışarkən deyirdi: «Azərbaycan üçün bəla ondan

---

[41] ARMTN arxivi, iş PR-41065, 4-cü cild, v.183-184.
[42] ARDA, f.28, siy.1, iş 68, v.81.



Фонд № 2
Опись № 5
Дело № 81

КОПИЯ

РАССЕКРЕЧЕНО
СЕКРЕТНО

Дело №

**Внутренняя опись ДЕЛА**

XXVII созыв
Октябрьский Пленум ЦК КПСС
(21 октября 1987 г.)

| №№ п/п. | Дата и № документа | ОТ КОГО И КРАТКОЕ СОДЕРЖАНИЕ ДОКУМЕНТА | №№ листов | Примечание |
|---|---|---|---|---|
| 1. | 21.X.87г. | Повестка для Пленума ЦК КПСС | 1 | |
| 2. | 21.X.87г. Пл.5/1 | Постановление Пленума ЦК КПСС – О докладе на совместном Торжественном заседании ЦК КПСС, Верховного Совета СССР и Верховного Совета РСФСР, посвященном 70-летию Великой Октябрьской социалистической революции | 2 | |
| 3. | 21.X.87г. Пл.5/2 | Постановление Пленума ЦК КПСС – О выступлении т.Ельцина Б.Н. на Пленуме ЦК КПСС (2 экз.) | 3-5 | |
| 4. | 21.X.87г. Пл.5/3 | Постановление Пленума ЦК КПСС – О просьбе т.Алиева Г.А. | 6 | |

25 апреля 1988 г. Ковалева

2-па

О выступлении т. Ельцина Б.Н.

– ~~Пленум~~ ~~признает~~ ЦК КПСС

1. Признать выступление тов. Ельцина Б.Н. политически ошибочным.

2 – Поручить Политбюро ЦК КПСС, московскому горкому партии рассмотреть вопрос о заявлении тов. Ельцина Б.Н. об освобождении его от обязанностей первого секретаря МГК КПСС с учетом состоявшегося обмена мнений на Пленуме ЦК КПСС

О просьбе т. Алиеве Г.А.



Сов.секретно

ПОСТАНОВЛЕНИЕ

ПЛЕНУМА ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КПСС

О просьбе т.Алиева Г.А.

Удовлетворить просьбу т.Алиева Г.А. об освобождении его от обязанностей члена Политбюро ЦК КПСС в связи с уходом на пенсию по состоянию здоровья.

СЕКРЕТАРЬ ЦК

Пл.5/3
21.X.87г.

Запас

1-св

КОПИЯ

Фонд № 2
Опись № 5
Дело № 83

XXVII созыв

Октябрьский Пленум ЦК КПСС
(21 октября 1987 г.)

ЗАСЕДАНИЕ
21 октября 1987 г.

После перерыва

Стенограмма - Неправленый экз.
Том II (последний)

Председательствующий : М.С.Горбачев

| | | №№ листов |
|---|---|---|
| А.Я.Колесников | - Бригадир комплексной бригады горнорабочих шахты "Молодогвардейская" производственного объединения "Краснодонуголь", Украинская ССР | 1 |
| В.М.Чебриков | - Член Политбюро ЦК КПСС, председатель Комитета государственной безопасности СССР | 2-9 |
| А.Н.Яковлев | - Секретарь ЦК КПСС | 10-13 |
| Г.И.Марчук | - Президент Академии наук СССР | 14-17 |
| Э.А.Шеварднадзе | - Член Политбюро ЦК КПСС, министр иностранных дел СССР | 18-24 |
| В.С.Мураховский | - Первый заместитель Председателя Совета Министров СССР, председатель Государственного агропромышленного комитета СССР | 25-30 |
| А.А.Громыко | - Член Политбюро ЦК КПСС, Председатель Президиума Верховного Совета СССР | 31-34 |



23

228.

ГОРБАЧЕВ М.С. Что сказать можно, товарищи, прежде чем перейти к существу вопроса, я лишь скажу вот о чем. У нас это очень важный Пленум Центрального Комитета партии, поскольку, проходя через его работу, и мы, кстати, еще не успели выяснить отношение членов ЦК к докладу, выводам, позициям, вот перешли в другую плоскость. Поэтому я бы даже сейчас так сказал: у нас был первый вопрос, и давайте мы вернемся к нашему докладу, который мы представили от имени Политбюро. Это главная тема сегодняшнего дня. Доклад, как вы видите, принципиальный, а последующие события еще раз показали, насколько он принципиальный, этот доклад.

Я встретился с группой секретарей Нечерноземья, кое-кому персонально прямо сказал. В присутствии, по-товарищески, по-партийному, как положено. Не потому, что если я сказал, то завтра его снимать с работы будут. У нас бывало и так: покритиковали - завтра сняли. Это не годится. Не об этом идет речь, товарищ Ельцин, речь идет о том, что вы, понимаете, авантюристически, хотели дезориентировать Центральный Комитет партии, характеризуя работу Политбюро, Секретариата по существу. Вот ведь о чем идет речь. Это надо отвергнуть.

Я не скажу, что у меня легкие обязанности. И не так просто сейчас в Политбюро работать, тем более Генеральному секретарю. И другого пути все-таки нет. Политбюро должно быть жизнеспособным органом, динамичным органом, коллективным органом, постоянно действующим, принципиальным, политическим органом, настоящим штабом. Я вкусил с Андреем Андреевичем, с Владимиром Васильевичем, с Михаилом Сергеевичем, с Гейдаром Алиевичем. Ну, он пришел уже... Вкусил эту работу на последних этапах работы Леонида Ильича. Знаю всё, товарищи. Это была беда нашей партии. И на глазах многих товарищей, секретари знают, как мы все делали в последние годы, чтобы через Секретариат как-то и партия действовала, и все... Это не все так просто. И поэтому мы сейчас работаем, уроки извлекаем и из далекого прошлого, и не из столь прошлого. И из того, и из другого все надо извлекать и действовать именно на основе уроков. И главное, на основе ленинских уроков.

Так и действует, в главном и в основном так и действует Политбюро и Секретариат. Это я заявляю перед Центральным Комитетом партии





ответственно, потому что и несу ответственность за это заявление. И тем не менее, и Политбюро, и Секретариат открыты для критики. Открыты. И вот мы говорили, кстати, с Егором Кузьмичом, при случае, не зная этого, и говорили, что надо подумать. А потом я и говорил на Политбюро: вот мы прошли этот этап, нужно заменить бы эти решения, всю базу новую под перестройку подвести, политическую. Сейчас надо центр тяжести переводить на организаторскую, на контроль за выполнением решений. Сейчас меньше решений, меньше решений, а только контроль. И особенно Секретариат, особенно Секретариат. А значит, раз он будет контролировать - он будет спрашивать, повышать требовательность. Нравится это или нет - ну, товарищи, мы же решили перестройку вести. Трудно? Да. Но не может стоят вопрос о политически: нравится или не нравится? Устраивает кого или не устраивает?

Второй пункт. Поручить Политбюро ЦК КПСС, Московскому горкому партии рассмотреть вопрос о заявлении т.Ельцина об освобождении от обязанностей первого секретаря МГК КПСС с учетом состоявшегося обмена мнениями на Пленуме ЦК.

Ну сразу давайте договоримся, что это все провести после праздников. Ну некогда нам просто заниматься, товарищи. Так, да?

Подходящее решение? Правильное? Москвичи? Правильное.

ГОЛОСА: Правильное.

Ставлю на голосование проект этого постановления. Прошу поднять руки кто за, кто против, кто воздерживается - нет.

Вот такое решение приняли.

Еще раз хочу закончить с того, с чего начал. При всей горечи, понимаете, о том, что это оказалось возможным на этом этапе вот такое выступление т.Ельцина, я считаю, что мы прошли через такой этап в работе Центрального Комитета партии, который его поднимает еще выше и повышает его значение как руководящего центра нашей партии и страны. (Аплодисменты).

Теперь, товарищи, я вот по ходу упомянул Гейдара Алиевича Алиева. Гейдар Алиевич несколько месяцев назад перенес тяжелую болезнь, наша болезнь,как говорят, тяжелый инфаркт. Ну врачи его, так сказать, выручили, сейчас помогают. Но сейчас ситуация такая, что реально он не может выполнять этот объем работы, который на него возложен, огромные обязанности у него. Поэтому он обратился с просьбой в Политбюро, мы рассмотрели. Вот. И вносим такое предложение - его освободить от обязанностей члена Политбюро. Решить все вопросы, которые из этого вытекают в связи с уходом на пенсию. Но в связи с тем, чтобы он вот в ЦК от партии, ну,естественно,





в ЦК остается, депутат, ну в смысле конкретной работы Политбюро признало необходимым утвердить его государственным советником при Президиуме Совета Министров. Вот так решили.

Гурина

263.

Поэтому я перед тем, как поставить на голосование этот вопрос – вопрос об освобождении, хочу сказать, что здесь, в Москве, в Политбюро, мы видели в натуре и особенно на последнем этапе т.Алиева в работе. Работал он активно, самоотверженно, не жалел ни сил, отдавал много и в разработку многих вопросов внес довольно существенный такой вклад. Но вот так жизнь поворачивается – делать вот так. Поэтому, отмечая вот эту активную работу в Политбюро, вместе с тем ставлю вопрос на голосование, если не возникает вопросов к т.Алиеву. Я думаю, что тут надо идти навстречу и решать этот вопрос. Вот. Ставлю на голосование этот вопрос об освобождении т.Алиева от обязанностей члена Политбюро. Кто за принятие этого решения, прошу голосовать. Прошу опустить. Кто против? Кто воздержался? Принято.

Ну, и желаем Гейдару Алиевичу крепкого здоровья. (Аплодисменты.)

Пленум завершаем. Думали мы его завершить сегодня до обеда, но к вечеру завершаем. Ну, что же, такова задача ЦК – всегда ничего не оставлять без внимания.

Товарищи! У кого какие есть по завершению Пленума замечания или суждения? Нет.

Пленум объявляется закрытым. Для объявления Егору Кузьмичу слово.



**КОПИЯ**

Фонд № 2
Опись № 5
Дело № 86

XXVII созыв

Октябрьский Пленум ЦК КПСС
(21 октября 1987 г.)

ЗАСЕДАНИЕ
21 октября 1987 г.
После перерыва

Стенограмма – Авторский экз.
Том III (последний)

Председательствующий: М.С.Горбачев.


| | | №№ листов |
|---|---|---|
| А.Я.Колесников | – Бригадир комплексной бригады горнорабочих шахты "Молодогвардейская" производственного объединения "Краснодонуголь", Украинская ССР | 1 |
| В.М.Чебриков | – Член Политбюро ЦК КПСС, председатель Комитета государственной безопасности СССР | 2-9 |
| А.Н.Яковлев | – Секретарь ЦК КПСС | 10-13 |
| Г.И.Марчук | – Президент Академии наук СССР | 14-17 |
| Э.А.Шеварднадзе | – Член Политбюро ЦК КПСС, министр иностранных дел СССР | 18-29 |
| В.С.Мураховский | – Первый заместитель Председателя Совета Министров СССР, председатель Государственного агропромышленного комитета СССР | 30-39 |
| А.А.Громыко | – Член Политбюро ЦК КПСС, Председатель Президиума Верховного Совета СССР | 40-43 |

Я встретился с группой секретарей Нечерноземья. Кое-кому персонально прямо сказал: В присутствии, по-товарищески, по-партийному, как положено. Но потому, что я сказал, то завтра его снимать будут. У нас бывало и так: покритиковали – завтра сняли. Это не годится. Не об этом идет речь, товарищ Ельцин, речь идет о том, что вы, по-моему, извращенно, хотели дезориентировать Центральный Комитет партии, характеризуя работу Политбюро, Секретариата по существу. Вот ведь о чем идет речь. Это надо отвергнуть.

Я не скажу, что у меня легкие обязанности. И не так просто сейчас Политбюро работать, тем более Генеральному секретарю. И другого пути все-таки нет. Политбюро должно быть жизнеспособным органом, динамичным органом, коллективным органом, постоянно действующим, принципиальным, политическим органом, настоящим штабом ЦК.

Я вкусил с Андреем Андреевичем, с Владимиром Васильевичем, с Михаилом Сергеевичем, с Гейдаром Алиевичем. Ну, он пришел уже... Вкусил эту работу на последних этапах работы Леонида Ильича. Знаю всё, товарищи. Это была беда нашей партии. И не глазами многих сокращенной секретарей знает, как мы все делали в последние годы, чтобы через Секретариат как-то и партия действовала, и все... Это не все так просто. И поэтому мы сейчас работаем, уроки извлекаем и не далеко из прошлого, и не не столь прошлого. И из того, и из другого все надо извлекать и действовать именно на основе уроков. И главное, на основе ленинских уроков.

Так и действует. В главном и в основном так и действует Политбюро и Секретариат. Это я заявляю перед Центральным Комитетом партии.





Второй пункт. Поручить Политбюро ЦК КПСС, Московскому горкому партии рассмотреть вопрос о заявлении т.Ельцина об освобождении от обязанностей первого секретаря МГК КПСС с учетом состоявшегося обмена мнениями на Пленуме ЦК.

Ну сразу давайте договоримся, что это все провести после праздников. Ну некогда нам просто заниматься, товарищи. Так, да?

Подходящее решение? Правильное? Москвичи? Правильное?

ГОЛОСА: Правильное.

Ставлю на голосование проект этого постановления. Прошу поднять руки кто за, кто против, кто воздерживается – нет.

Вот такое решение приняли.

Еще раз хочу закончить с того, о чем начал. При всей горечи, понимаете, о том, что это оказалось возможным на этом этапе, вот такое выступление т.Ельцина, я считаю, что мы прошли через такой этап в работе Центрального Комитета партии, который его поднимает еще выше и повышает его значение как руководящего центра нашей партии и страны. (Аплодисменты).

Теперь, товарищи, я вот по ходу упомянул Гейдара Алиевича Алиева. Гейдар Алиевич несколько месяцев назад перенес тяжелую болезнь, наша болезнь, как говорят, тяжелый инфаркт. Ну врачи его, так сказать, выручили, сейчас помогают. Но сейчас ситуация такая, что реально он не может выполнять этот объем работы, который на него возложен, огромные обязанности у него. Поэтому он обратился с просьбой в Политбюро. Мы рассмотрели. Вот. И вносим такое предложение – его освободить от обязанностей члена Политбюро. Решить все вопросы, которые из этого вытекают в связи с уходом на пенсию. Но в связи с тем, чтобы он вот в ЦК от партии, ну естественно,

258

252.

в ЦК ~~остается~~, депутат, ~~ну в смысле конкретной работы~~ Политбюро признало ~~необходимым~~ утвердить его государственным советником при Президиуме Совета Министров. Вот так решили.



259

Гурина

263.

~~Поэтому и~~ Перед тем, как поставить на голосование ~~этот вопрос –~~ ~~вопрос об освобождении~~, хочу сказать, что здесь, в Москве, в Политбюро, мы видели ~~в натуре и особенно на последнем этапе~~ т.Алиева в ~~работе~~! Работал он активно, самоотверженно, не жалел ни сил, ~~отдавал много и~~ в разработку многих вопросов внес довольно существенный ~~такой вклад~~. ~~Но вот так жизнь поворачивается – делать все сам~~. Поэтому, отмечая ~~вот эту~~ активную работу в Политбюро, вместе с тем ставлю вопрос на голосование, ~~если не возникает вопросов к т.Алиеву. Я думаю, что тут надо идти навстречу и решить этот вопрос. Все. Ставлю на голосование этот вопрос~~ об освобождении т.Алиева от обязанностей члена Политбюро. Кто за принятие этого решения, прошу голосовать. Прошу опустить. Кто против? Кто воздержался? Принято.

~~Ну, и пожелаем~~ Гейдару Алиевичу крепкого здоровья. (Аплодисменты.)

Пленум завершаем. Думали мы его завершить сегодня до обеда, но ~~к вечеру завершаем. Ну~~, что же, такова задача ЦК – ~~всегда~~ ничего не оставлять без внимания.

Товарищи! У кого какие есть по завершению Пленума замечания или суждения? Нет.

Пленум объявляется закрытым. ~~Для объявления Егору Кузьмичу слово.~~

başladı ki, 1987-ci ildə ermənilər, bizim azərbaycanlıların bəziləri ilə birlikdə yığışdılar, mənim Kremldən istefa verməyimə nail oldular. Mən istefa verəndən cəmi 20 gün sonra Dağlıq Qarabağ məsələsi ortaya atıldı. Aqanbeqyan adlı bir erməni var. O, ömründə nə Ermənistanda, nə də Dağlıq Qarabağda yaşayıbdır, həmişə Moskvada yaşayıbdır, alimdir. Həmin Aqanbeqyan o vaxt gəlib Fransada bəyanat verdi ki, Dağlıq Qarabağ Ermənistana bağlanmalıdır və o, bu məsələni Qorbaçovla razılaşdırıbdır. Bundan iki ay sonra Dağlıq Qarabağda üsyan, münaqişə başlandı. Azərbaycanın bəlaları o vaxtdan başlandı. O vaxtdan ermənilərin bir məqsədi var idi ki, Heydər Əliyevi Kremldən uzaqlaşdırsınlar. Çünki bilirdilər ki, mən Moskvada oturmuşam və belə bir məsələnin qaldırılmasına yol verməyəcəyəm. Məni Kremldən kənarlaşdırdılar. Amma təkcə onlar yox, bizim bəzi bədxah azərbaycanlılar da bu işə kömək etdilər. Onlar birləşdilər, məni Kremldən kənarlaşdırdılar. Bundan sonra Azərbaycan nə günlərə düşdü»[43].

* * *

Beləliklə, H.Əliyevin bu istiqamətdəki fəaliyyətindən aşağıdakı nəticələr çıxarmaq olar:

- H.Əliyev hakimiyyətdə olduğu illərdə Azərbaycanla Ermənistan arasında mehriban qonşuluq münasibətlərinin saxlanılmasına, iki xalqın dost kimi yaşamasına çalışırdı. Baş verən xoşagəlməzliklərin qarşısı dərhal alınırdı;
- özündən əvvəlki rəhbərlər Azərbaycanın bəzi torpaq ərazilərini Ermənistana güzəştə getsələr də, H.Əliyev hakimiyyətə gəldikdən sonra həmin qərarların yerinə yetirilməsindən imtina etdi. Onun hakimiyyəti illərində Ermənistana ərazi verilmədi;
- H.Əliyev hakimiyyəti illərində Azərbaycana ermənilər nəinki yerləşdirilmədilər, əksinə ölkədə gedən beynəlmiləlləşmə və inteqrasiya prosesləri fonunda köçüb gedirdilər;
- H.Əliyevin fəaliyyətində Dağlıq Qarabağın sosial-iqtisadi və mədəni inkişafı mühüm yer tuturdu. Dağlıq Qarabağın tarixini, mədəniyyətini və incəsənətini, əhalisinin düşüncələrini dərindən bilən Azərbaycan rəhbəri diyarda milli sülhün və əmin-amanlığın qorunması istiqamətində çalışır, hamının, o cümlədən azərbaycanlı əhalinin hüquqlarının qorunmasına xüsusi fikir verirdi;
- müəyyən erməni dairələrinin təhlükəli antiazərbaycan siyasətini dərindən bilən H.Əliyev Azərbaycanın ümummilli mənafelərini qoruyarkən fəaliyyətində sözçülükdən istifadə etmir, qətiyyətli prarktik işlər görərək ona qarşı amansızlıqla mübarizə aparırdı. Bu fəaliyyətində o, daha çox beynəlmiləlçilik şüarlarından istifadə edir, başlıca olaraq Azərbaycan xalqının mənafelərini qoruyurdu;
- H.Əliyevin hakimiyyəti illərində Dağlıq Qarabağda yeni iş yerləri açılır, ali məktəbin Azərbaycan bölməsi yaradılır, mədəni-maarif müəssisələri, məktəb binaları tikilir, yollar salınır, dəmiryolu, su kəmərləri çəkilir, əhalinin həyat səviyyəsi yaxşılaşırdı. Belə şəraitdə azərbaycanlı əhali, ziyalılar Dağlıq Qarabağda açılan iş yerlərində çalışır və burada daha çox məskunlaşır, ermənilər isə diyara yad, gəlmə olduqlarını başa düşərək köçməyə başlayırdılar. Ermənilər hətta Dağlıq Qarabağa 150 il əvvəl köçürülmələrinin şərəfinə abidə də ucaltmışdılar;
- 70-ci illərdə Dağlıq Qarabağda azərbaycanlı əhalinin xüsusi çəkisi artmağa, ermənilərin və rusların sayı isə azalmağa doğru getmişdi;
- H.Əliyev Dağlıq Qarabağda milli ruhun güclənməsinə çalışır, azərbaycanlı dövlət adamlarına, mədəniyyət və incə-

[43] Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə dair səfərlərinə dair materiallar). III cild. Bakı, 1998, s.571-572.

sənət xadimlərinə abidələr qoyur, Azərbaycan xalqının tarix və mədəniyyət abidələrinin mühafizəsinə xüsusi diqqət yetirərək onları bərpa etdirir, yenilərini böyük həvəs və inadla tikdirirdi;

- Azərbaycan rəhbərinin belə fəaliyyəti müəyyən erməni dairələri tərəfindən qəzəblə qarşılanır, haqqında müxtəlif şər, böhtan və iftiralarla dolu məktubları Moskvaya göndərirdilər. Erməni xadimləri H.Əliyevi turançı, pantürkçü adlandırır, ölkənin sovet və partiya rəhbərliyindən onun barəsində tədbir görülməsini tələb edir, Sov.İKP MK Siyasi bürosundan uzaqlaşdırmaqdan ötrü dəridən-qabıqdan çıxırdılar. Azərbaycanın inkişafını, xalqının nüfuzunun artmasını qısqanan, paxıllıq hisslərinin bürüdüyü bəzi ermənilər onu hətta terrorla, öldürməklə hədələyirdilər. Lakin H.Əliyev həmin iddiaların qarşısını təkbaşına böyük ağıl, məharət və qətiyyətlə kəsirdi. Heç əbəs deyil ki, H.Əliyevin dönəmində ermənilər Dağlıq Qarabağ məsələsində öz istəklərinə çatmayaraq ümidsizliyə düçar olmuşdular. Erməni millətçiliyi böhrana düşmüşdü;

- H.Əliyev Moskvada işləməyə gedərkən Azərbaycan rəhbərlərinə Daqlıq Qarabağ məsələsinə diqqət yetirməyi tövsiyə etsə də, bir müddət sonra bu məsələ onlar tərəfindən az qala unuduldu;

- H.Əliyev Sov. İKP MK Siyasi bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən qısa müddət sonra ermənilər Dağlıq Qarabağ məsələsini qaldırdılar, bununla da Azərbaycan böyük fəlakətlərə düçar oldu.



# XI FƏSİL

## AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMDƏ TANIDILMASI

60-cı illərin sonundan iki dünya sistemi arasında başlayan gərginliyin zəiflədilməsi prosesi beynəlxalq münasibətlərdə tamamilə yeni şərait yaratdı. Bu isə müttəfiq respublikaların beynəlxalq əlaqələrinin genişləndirilməsinə müəyyən qədər təsir edirdi. H.Əliyev yaranmış əlverişli beynəlxalq siyasi konyukturadan, ən kiçik imkanlardan Azərbaycan xalqının mənafeləri naminə məharətlə istifadə etməyə başladı. Beləliklə, onun xalq naminə çalışmalarında yeni bir fəaliyyət sahəsi yarandı. Bu da Azərbaycanın beynəlxalq aləmdə tanıdılması idi.

Sovet sistemi şəraitində müttəfiq respublikaların xarici ölkələrlə birbaşa əlaqələr qurmaq imkanı olmadığından H.Əliyev müxtəlif yollar arayıb axtarırdı. Bu sahədə Azərbaycan rəhbərinin fəaliyyəti əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilirdi: onun hakimiyyət başına keçməsindən sonra ölkəyə gələn muxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana səfərləri artdı; Azərbaycanın mərkəz vasitəsilə həyata keçirilən beynəlxalq iqtisadi əlaqələri genişləndirildi; Azərbaycan beynəlxalq və ümumittifaq elmi, mədəni və siyasi tədbirlərin keçirildiyi mərkəzə çevrilməyə başladı; xarici ölkələrdə işləməyə göndərilən ixtisaslı azərbaycanlıların sayı artırıldı; beynəlxalq mədəni əlaqələr genişləndirildi; Azərbaycan üçün diplomat kadrların hazırlanmasına başlıca diqqət yetirilirdi; Xarici İşlər Nazirliyi, Xarici Ticarət Nazirliyi və xarici turizm təşkilatlarının funksiyaları tədricən artırılırdı və s.

H.Əliyev hakimiyyətə gələn kimi Azərbaycanın beynəlxalq əlaqələrinin yaxşılaşdırılması məqsədilə rəsmi qərarların qəbul edilməsinə və problemlərin həllinin Moskva qarşısında qaldırılmasına nail oldu. O, Azərbaycanda xarici turizmin inkişafına, xarici ölkələrə azərbaycanlıların daha çox işləməyə göndərilməsinə çalışaraq respublikanın beynəlxalq aləmdə tanıdılmasına səylər edirdi. 1969-cu il avqust ayının 12-də Azərbaycan KP MK bürosunun iclasında respublikada turizmin inkişafı barədə qərar qəbul edildi. Bununla kifayətlənməyən H.Əliyev məsələyə daha geniş yanaşmağa başlayaraq yeni qərarların qəbuluna çalışırdı[1]. Məsələn, büronun 1970-ci il 27 yanvar tarixli iclasında xarici turizmin təşkilinin yaxşılaşdırılması haqqında qərar qəbul edildi[2]. 1973-cü ildə Azərbaycan KP MK «Respublikaya gələn xaricilərin qəbul edilməsi, xidmətinin vəziyyəti və daha da yaxşılaşdırılması tədbirləri haqqında», «Azərbaycan SSR mütəxəssislərinin xaricdə hərəkəti və işi haqqında» qərarlar qəbul etdi[3]. MK bürosunun 1974-cü il may ayının 21-də keçirilən iclasında Azərbaycanda xarici turizmin daha da inkişaf etdirilməsi tədbirləri haqqında[4] və 1977-ci il fevral ayının 11-də isə xarici turizm idarəsinin işində ciddi nöqsanlar haqqında qərarlar qəbul edildi[5].

Bu qərarların qəbulunun mühüm tarixi əhəmiyyəti var idi. Onların yerinə yetirilməsi ilə Azərbaycan büdcəsinə əlavə valyuta daxil olurdu; respublikaya səfər edənlər onun haqqında obyektiv təsəvvürə malik olaraq ölkələrinə dönürdülər; yeni turist mərkəzləri yaradılırdı və s.

H.Əliyev Azərbaycan üçün yüksək ixtisaslı peşəkar diplomat kadrların hazırlanmasına calışırdı. Sovet dövründə Azərbaycanda diplomat kadrlar hazırlayan ali təhsil ocaqları olmadığından azərbaycanlıların SSRİ Diplomatiya Akademiyasında, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, Kiyev Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsində təhsil almaları üçün mərkəzdən icazə alır, müvafiq orqanlara yazılan məktublara imza atır, qəbula ayrılan yerləri artırırdı.

[1] ARSPİHDA, f. 1. siy. 56, iş 49 (50), pr. №107, § 7.
[2] ARSPİHDA, f. 1, siy. 57, iş 23 (24), pr. №120, §1.
[3] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 103.
[4] Газ. «Бакинский рабочий», 1974, 22 мая, №117 (17034).
[5] ARSPİHDA, f. 1, siy. 64, iş 17, pr. №31, § 18.



Xarici İşlər Nazirliyinin əməkdaşları ixtisaslarını artırmaq üçün SSRİ XİN-ə və başqa respublikalarin xarici işlər nazirliklərinə göndərilir, ali diplomatik təhsil almağa tövsiyə olunur, xarici ölkələrdə işləməyə ezam edilirdilər. Onların ikinci xarici dil almaları üçün şərait yaradılır və diplomatik rütbələrin verilməsi barədə məsələ qaldırılırdı. Azərbaycan rəhbəri respublika XİN-in səlahiyyətlərinin və ştat heyətinin artırılmasına çalışırdı. Bütün bunlardan ötrü çətinliklə olsa da, mərkəzdən icazə alınırdı. Məsələn, 1973-cü ildə Xarici İşlər Nazirliyinin dörd nəfər əməkdaşı ixtisaslarını artırmış, bir nəfər SSRİ Diplomatiya Akademiyasına, üç nəfər isə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna təhsil almaq üçün tövsiyə edilmişdi. Üç nəfər əməkdaşa diplomatik rütbə verilmişdi. İki nəfər azərbaycanlı – biri Vyetnam Demokratik Respublikasına, digəri isə Misir Ərəb Respublikasına işləməyə göndərilmişdi[6].

1975-ci ildə respublika Xarici İşlər Nazirliyinin tərkibi 75% yeniləşdirildi. Bir nəfər azərbaycanlı diplomat xaricdəki SSRİ səfirliyində işləməyə göndərildi. Artıq bu zaman 8 nəfər azərbaycanlı Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil alırdı. Həmin ildə respublika Xarici İşlər Nazirliyinin 2 nəfər əməkdaşı diplomatik, 4 nəfəri isə ixtisas artırma kurslarına göndərildi, XİN-nə əlavə olaraq 2 diplomat ştatı alındı[7].

H.Əliyev nazirliyin təchizatını yaxşılaşdırmaq işini də diqqətdə saxlayırdı. 1976-cı ildə respublika Xarici İşlər Nazirliyinin müraciəti yerinə yetirilərək əlavə maşınla təmin olundu[8].

[6] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 94.
[7] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v. 134-135.
[8] Yenə orada, v. 74.

112

Азэрбајҹан
Совет Сосиалист Республикасы
ХАРИЧИ ИШЛӘР
НАЗИРЛИЈИ

Азербайджанская
Советская Социалистическая Республика
МИНИСТЕРСТВО
ИНОСТРАННЫХ ДЕЛ

№ 55 8 февраля 1972 г.

СЕКРЕТНО

ПЕРВОМУ СЕКРЕТАРЮ ЦК КП АЗЕРБАЙДЖАНА

тов. АЛИЕВУ Г.А.

За последние годы заметно расширились экономические, научно-технические и культурные связи республики с зарубежными странами.

На работу в развивающиеся страны Азии, Африки, Латинской Америки в порядке технической помощи из республики командированы свыше 500 специалистов из различных отраслей народного хозяйства.

Кроме того, ежегодно, в соответствии с заданием Совета Министров СССР, из республики в страны Ближнего и Среднего Востока направляются на работу в качестве переводчиков арабского, фарсидского и турецкого языков десятки специалистов, окончивших восточный факультет Азгосуниверситета им.С.М.Кирова.

Наряду с этим, на дипломатической работе в посольствах и консульствах СССР в зарубежных странах работают всего 7 человек, которые направлены в последние 2-3 года (сведения прилагаются).

Как видно из приведенных данных, из 7 человек только один работает консулом в г.Асуане и один - директором культурного центра в Адене, остальные 5 человек занимают низкие дипломатические должности - атташе и секретарей-переводчиков посольств.

251с
9 II 72



Müharibədən sonrakı illərdə Azərbaycan XİN-in xarici dil bilən əməkdaşlarının maaşlarına əlavə verilirdi. Lakin 1965-ci il may ayının 31-də SSRİ Nazirlər Sovetinin 424 №-li sərəncamı ilə verilən bu məbləğin ödənilməsi dayandırılmışdı. Bundan fərqli olaraq Ukrayna və Belorusiya XİN-in əməkdaşlarına həmin məbləğ verilirdi. Respublika XİN SSRİ XİN və Azərbaycan SSR Nazirlər Soveti qarşısında məsələnin həllini dəfələrlə qaldırsa da, heç bir nəticəsi olmamışdı. Bu vəsaitin dayandırılmasının əvəzində başqa respublikaların xarici işlər nazirliklərinə ödəmək üçün müəyyən limit ayrılmışdı. Məsələn, Özbəkistan, Türkmənistan, Latviya, Litva və Estoniyada nazirlik əməkdaşlarının maaşına əlavə olaraq 30% verilirdi. Gürcüstan və Ermənistanda Xarici İşlər Nazirliyinin əməkdaşlarına iki ildə bir dəfə əlavə olaraq 500 rubl ödənilsə də, Azərbaycan Xarici İşlər Nazirliyinin əməkdaşlarına bu məbləğ verilmirdi. Maaşlar da aşağı idi. Belə ki, nazirliyin birinci katibi 135 rubl, ikinci katibi isə 110 rubl maaş alırdı. Bilavasitə H.Əliyevin sayəsində bu problem həll edildi. Onun müdaxiləsi nəticəsində Xarici İşlər Nazirliyinin əməkdaşlarının maaşı 25% artırıldı[9]. H.Əliyevin göstərişi ilə Azərbaycan SSR Nazirlər Soveti 1976-cı il may ayının 17-də sərəncam verərək Xarici İşlər Nazirliyinin ştat heyətini və nümayəndəlik xərclərini artırdı[10].

1976-cı ildə Azərbaycan XİN-in 5 nəfər əməkdaşı SSRİ XİN-də öz ixtisaslarını artırmış, 2 nəfər əməkdaşı isə SSRİ-nin xarici ölkələrdəki səfirliklərində diplomatik işə göndərilmişdi[11]. Artıq 1979-cu ildə XİN-in 6 nəfər əməkdaşı xaricdəki sovet səfirliklərində işləyirdi. 3 nəfər SSRİ Diplomatiya Akademiyasına qəbul edilmişdi. 5 nəfər Moskva Beynəlxalq münasibətlər İnstitutunda təhsil almaq üçün tövsiyə olunmuşdu[12].

---

[9] Yenə orada, v. 68-69.

[10] Yenə orada, v. 73.

[11] ARSPİHDA, f. 1, siy. 65, iş 176, v. 63.

[12] ARSPİHDA, f. 1, siy. 67, iş 185, v. 7-20.

H.Əliyevin hakimiyyəti illərində Azərbaycan xarici ölkə rəsmilərinin və kütləvi informasiya vasitələrinin diqqətini daha çox cəlb etməyə başlamışdı. Respublikaya xaricilərin səfərləri çoxalmışdı. 70-80-ci illərdə ABŞ, Türkiyə, Böyük Britaniya, İsveç, İtaliya, Bolqarıstan, Finlandiya, Avstraliya, YXDR, Banqladeş, Suriya və başqa ölkələrdən partiya, dövlət xadimləri və digər rəsmi şəxslər Azərbaycana səfər etdilər. Finlandiya prezidenti İ.Kekkonen Azərbaycanda oldu. H.Əliyev onu qarşıladı və qəbul etdi.

Moskvada akkreditə olunmuş xarici ölkələrin səfirlərinin Azərbaycana səfərləri artdı. Onlar Heydər Əliyevlə görüşməyə, tanış olmağa can atırdılar. Məsələn, ABŞ-ın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Uolter Stessel 1975-ci ildə Azərbaycana səfər edərkən Heydər Əliyevlə görüşmək istəmiş və onun bu arzusu yerinə yetirilmişdi. Səfiri həmin ilin may ayının 5-də qəbul edən H.Əliyev ona Azərbaycanın uğurlarından, zəngin tarixi və mədəniyyətindən söhbət açmışdı. Görüşdən məmnun qalan ABŞ səfiri Azərbaycan rəhbərini geniş dünyagörüşlü, təcrübəli, bilikli, ünsiyyətcil, nüfuzlu, yüksək təşkilatçılıq bacarığı olan siyasi xadim kimi qiymətləndirmişdi[13].

Azərbaycana səfər edən Türkiyə, Böyük Britaniya və başqa ölkələrin SSRİ-dəki səfirləri də H.Əliyevlə görüşdən sonra ona eyni qiyməti vermişdilər. Qeyd etmək lazımdır ki, müsəlman ölkələrindən Azərbaycana səfər edən partiya, dövlət və hökumət başçıları Heydər Əliyevə müsəlman dünyasının görkəmli siyasi xadimi kimi baxır, onun məsləhətlərini qəbul edirdilər. Əslində Azərbaycan rəhbəri sovet dövlətinin müsəlman dünyasına münasibətdə yeritdiyi siyasətin həyata keçirilməsində, münaqişələrin dayandırılmasında başlıca rol oynayan nüfuzlu xadim idi. Sovet dövləti Suriya ilə İsrail arasında müharibənin dayandırılması və sülhün bərqərar olmasında Heydər Əliyevin nüfuzundan istifadə edərək onu Dəməşqə səfərə göndərmişdi. Azərbaycan rəhbərinin apardığı danışıqların nəticəsində hərbi əməliyyatlar dayandırılmışdı.

[13] ARDA, f. 28, siy. 12, iş 86, v. 13-14.



H.Əliyev Bakıda xarici ölkələrin konsulluqlarının açılmasına və fəaliyyət göstərməsinə böyük əhəmiyyət verirdi. Bununla da Azərbaycandakı müvafiq strukturlar xarici dövlətlərin diplomatik və konsulluq orqanları ilə işləmək təcrübəsi qazanırdılar. Azərbaycan sovet dövlətinin müsəlman ölkələrinə münasibətdə yeritdiyi siyasətdə mühüm yer tuturdu. H.Əliyev hakimiyyətə gəldikdən bir neçə il sonra, 1971-ci ildə Bakıda İranın baş konsulluğu fəaliyyətə başladı[14]. Azərbaycan rəhbəri Bakıdakı İran və İraq konsulluqları əməkdaşlarının iş, məişət və yaşayış şəraitlərini yaxşılaşdırmaq barədə 1976-cı il aprel ayının 14-də müvafiq strukturlara göstəriş verdi[15]. Bundan sonra Nazirlər Soveti 1976-cı il may ayının 17-də sərəncam verərək Bakıda akkreditə olunmuş diplomatların mənzil-məişət şəraitini, otel xidmətlərini yaxşılaşdırmaq üçün lazım olan tədbirləri müəyyənləşdirdi[16].

H.Əliyevin hakimiyyəti illərində Azərbaycanın xarici ölkələrlə iqtisadi və ticarət əlaqələri daim genişlənməyə doğru gedirdi. Azərbaycanın birbaşa beynəlxalq iqtisadi əlaqələrinə mərkəz tərəfindən icazə verilməsə də, 1970-ci ildə respublikanın 70 müəssisəsi dünyanın 56 ölkəsinə 1413 mln. rubl dəyərində məhsul göndərmişdi[17]. 1971-ci ildə 1615 mln., 1972-ci ildə 1753 mln., 1973-cü ildə isə dünyanın 60 ölkəsinə 2156 mln. rubl məbləğində mal göndərilmişdi[18]. Azərbaycan məhsulları Fransa, AFR, Böyük Britaniya, Finlandiya və b. dövlətlər tərəfindən alınırdı.

70-ci illərdə Azərbaycan beynəlxalq sərgi-yarmarkalarda daha fəal iştirak etməyə başlamışdı. Azərbaycan, İzmir, Bağdad, Qahirə və Plovdivdə keçirilən yarmarkalarda

[14] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 98.
[15] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v. 71.
[16] Yenə orada, v. 73.
[17] Yenə orada, v. 128.
[18] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 90-91.

yüzlərlə eksponatla iştirak etdi[19]. 1975-ci ildə Azərbaycanın 100 müəssisəsinin 350 adda 2443 mln. rublluq məhsulu dünyanın 65 ölkəsinə göndərildi. Bu da əvvəlki illə müqayisədə 73% çox idi[20]. 1977-ci ildə Azərbaycanın 120 müəssisəsi dünyanın 65 ölkəsinə 2208348 min rubl məbləğində 21 adda məhsul göndərdi[21]. Azərbaycan Polşada keçirilən sərgi-yarmarkada da fəal iştirak etdi.

1978-ci ildə respublikanın 110 müəssisəsi dünyanın 65 ölkəsinə 2184643 min publ dəyərində 26 adda məhsul ixrac etmişdi[22]. Bunun 185820 rublu Xarici Ticarət Nazirliyinin payına düşürdü. Respublikanın xarici iqtisadi əlaqələrində Xarici Ticarət Nazirliyinin rolu artırılırdı. Həmin ildə Azərbaycanda dünyanın 78 şirkətinin iştirak etdiyi beynəlxalq neft-qaz sərgi-yarmarkası keçirildi. 1975-1978-ci illərdə respublikanın ixracının azalması təkcə məhsulların miqdarının aşağı düşməsi ilə deyil, eyni zamanda neft məhsullarının və pambıq-parça məmulatlarının satışının azaldılması, bəzi nazirlik, idarə və müəssisələrin xarici iqtisadi əlaqələrin əhəmiyyətini lazımınca qiymətləndirə bilməməsi, mərkəzi hökumətin Azərbaycanın valyuta ehtiyatını artırmasında maraqlı olmaması ilə bağlı idi. H.Əliyev bu problemi də qətiyyətlə həll etdi. Bir sıra nazirlik, idarə, müəssisə rəhbərləri tənbeh edildikdən sonra əlaqələr xeyli canlandırıldı. 1979-cu ildə xaricə 2094372 min rublluq məhsul göndərildi[23]. Bunun 180603 min rublu Xarici Ticarət Nazirliyinin payına düşürdü. 1980-ci ildə Azərbaycanın 110 müəssisəsi dünyanın 85 ölkəsinə 350 adda 2057137 min rubl dəyərində məhsul göndərmişdi[24]. Məbləğin azalmasına baxmayaraq, əvvəlki illə müqayisədə 9 yeni məhsul xarici bazara çıxarılmışdı.

---

[19] Yenə orada, v. 87-88.
[20] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v. 128.
[21] ARSPİHDA, f. 1, siy. 65, iş 176, v. 58.
[22] ARSPİHDA, f. 1, siy. 66, iş 177, v. 20.
[23] ARSPİHDA, f. 1, siy . 68, iş 369, v. 23.
[24] ARSPİHDA, f. 1, siy. 67, iş 185, v. 56.



Digər tərəfdən, bu məbləğin 201724 min rublu Xarici Ticarət Nazirliyinin payına düşürdü[25]. Beləliklə, mərkəzin bütün əngəllərinə baxmayaraq, H.Əliyev respublika Xarici Ticarət Nazirliyinin fəaliyyətinin genişləndirilməsinə, əməkdaşlarına iş təcrübəsi qazanmalarına çalışır və buna uğurla nail olurdu.

H.Əliyev Azərbaycanın beynəlxalq elmi-texniki əlaqələrinin genişləndirilməsinə səylər edir, alimlərin əməkdaşlığının qurulması və inkişafı üçün mümkün olan şəraiti yaradırdı. Məsələn, təkcə 1973-cü ildə 139 nəfər azərbaycanlı alim beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirak etmiş, araşdırma aparmış və xarici ölkələrdə işləmişdi[26]. Onlar Paris, Berlin, Hamburq, Mədrəs, Bağdad və b. şəhərlərdə keçirilən elmi məclislərdə məruzələrlə çıxış etmişdilər. Respublika Elmlər Akademiyası dünyanın 53 ölkəsinin 535 elmi müəssisəsi ilə əməkdaşlıq edirdi. Azərbaycan alimləri ixtisas artırma kurslarına gedir, mühazirələr oxuyur, xarici qonaqları qəbul edir, müştərək elmi araşdırmalar aparırdılar. Bu zaman 49 nəfər azərbaycanlı müəllim inkişaf etməkdə olan ölkələrdə işləyirdi. Dünyanın 7 ölkəsindən 10 nəfər müəllim Azərbaycan ali məktəblərində elm və təhsil mübadiləsi keçmişdi[27]. 1973-cü ildə sənaye, elm, mədəniyyət, idman təşkilatlarının, həmkarlar ittifaqlarının, gənclərin 447 nəfər nümayəndəsi 37 ölkəyə ezam edilmişdilər[28].

H.Əliyevin bilavasitə səyləri nəticəsində təkcə 1973-cü ildə Azərbaycandan 300 nəfərdən çox müəllim, mühəndis, tərcüməçi mütəxəssis onlarla ölkədə işləyirdi[29]. 1974-cü ildə dünyanın 20 ölkəsində 309 nəfər azərbaycanlı müəllim, elmi işçi və tərcüməçi işləyirdi[30]. 1974-cü ildə EA-nın 37, 1975-ci

---

[25] ARSPİHDA, f. 1, siy. 68, iş 369, v. 23.
[26] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 87.
[27] Yenə orada, 82.
[28] Yenə orada, v. 51.
[29] Yenə orada, v. 100.
[30] Yenə orada, v. 86-87.

ildə isə 45 alimi xarici ölkələrdə ezamiyyətdə olmuşdu[31]. 1975-ci ildə Azərbaycanın 465 alim və mütəxəssisi 35 ölkədə 47 konqres, konfrans və simpoziumda iştirak etmişdilər[32]. Öz növbəsində dünyanın müxtəlif ölkələrindən olan 47 alim Azərbaycanda elmi-tədqiqat işləri aparmışdı[33]. Həmin ildə Azərbaycandan olan 13 müəllim xarici ölkələrdə dərs vermişdi. 1976-cı ildə dünyanın 28 ölkəsində 370 nəfər azərbaycanlı işləyirdi. Onların da 70%-ə qədəri ali təhsilli idi[34]. 1977-ci ildə elmi müəssisələrin 244 mütəxəssisi 28 ölkədə ezamiyyətdə olmuşdu[35]. 1978-ci ildə dünyanın 34 ölkəsində 435 nəfər diplomlu azərbaycanlı müxtəlif vəzifələrdə işləyirdi. Onların 72 nəfəri mühəndis, 87 nəfəri müəllim, 86 nəfəri tərcüməçi, 12 nəfəri həkim, aqronom, diplomat və b. idi[36]. Həmin ildə Azərbaycanın nazirlik, müəssisə, idarə və ali məktəblərinin 946 işçisi dünyanın 42 ölkəsində, təkcə elmi müəssisələrinin 249 mütəxəssisi 28 ölkədə elmi ezamiyyətdə olmuşdu, 120 nəfər azərbaycanlı alimin əsəri xarici ölkələrdə nəşr edilmişdi[37]. 1979-cu ildə dünyanın 36 ölkəsində 482 nəfər diplomlu azərbaycanlı işləyirdi. Bu isə 1977-ci illə müqayisədə 47 nəfər cox idi. Həmin şəxslərin 63%-i ali təhsilli idi. Onların 66 nəfəri mühəndis, 85 nəfəri müəllim, 126 nəfəri tərcüməçi, 29 nəfəri həkim, aqronom, diplomat, 18%-i orta təhsilli, 17%-dən çoxu isə ixtisaslı fəhlə idi[38]. Respublika nazirlik, idarə, müəssisə və təşkilatlarının 974 əməkdaşı dünyanın 50 ölkəsində ezamiyyətdə olmuşdu. Bütövlükdə, respublikadan 1456 nəfər xarici ölkələrə qısa müd-

[31] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v. 123.
[32] Yenə orada, v. 125.
[33] Yenə orada. v. 121.
[34] Yenə orada, v. 81.
[35] ARSPİHDA, f. 1, siy. 64, iş 176, v. 56.
[36] ARSPİHDA, f. 1, siy. 65, iş 176, v. 60.
[37] ARSPİHDA, f. 1, siy. 66, iş 177, v. 17.
[38] Yenə orada, v. 6.





*Almaniya nümayəndə heyəti Heydər Əliyevin qəbulunda. 1973-cü il 4 oktyabr*



*ABŞ-ın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Uolter Con Stessel Heydər Əliyevin qəbulunda. 1975-ci il 5 may*



Amerika gənc siyasi xadimlər şurasının icraçı direktoru Oliver Spenser (bir müddət sonra ATƏT-in Parlament Assambleyasının baş katibi) Heydər Əliyevin qəbulunda. 1975-ci 1 noyabr



ABŞ nümayəndə heyəti Heydər Əliyevin qəbulunda. 1979-cu il 20 oktyabr



Finlandiya nümayəndə heyəti Heydər Əliyevin qəbulunda. 1975-ci il 15 dekabr



Polşanın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Kazimeoy Olşevski Heydər Əliyevin qəbulunda. 1979-cu il 24 oktyabr



*Almaniya nümayəndə heyəti Heydər Əliyevin qəbulunda. 1980-cı il 19 may*



*Heydər Əliyev Finlandiya Respublikasının prezidenti Urxo Kekkoneni qəbul edərkən. 1980-ci il 18 noyabr*



*Heydər Əliyev Finlandiya Respublikasının prezidenti Urxo Kekkoneni Bakı hava limanında qarşılayır. 1980-ci il 17 noyabr*



*Yuqoslaviyanın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Marko Orlandiç Heydər Əliyevin qəbulunda 1980-ci il 15 dekabr*



*Almaniya nümayəndə heyəti Heydər Əliyevin qəbulunda.*
*1981-ci il 23 mart*



*İordaniya milli məsləhət şurasının sədri Süleyman Ararın başçılığı ilə nümayəndə heyəti Heydər Əliyevin qəbulunda.*
*1982-ci il 28 may*



*Heydər Əliyev Norveç alimi Tur Heyerdalı qəbul edir.*
*1981-ci il 31 avqust*



*Fransa nümayəndə heyəti Heydər Əliyevin qəbulunda.*
*1982-ci il 16 iyul*



*Finlandiya nümayəndə heyəti Heydər Əliyevin qəbulunda. 1982-ci il 22 oktyabr*

dətli ezamiyyətə getmişdi[39]. EA-nın 69 nəfər alimi xarici ölkələrə elmi səfərlər etmişdi[40]. Bu isə əvvəlki illərlə müqayisədə çox idi. 1979-cu ildə xarici ölkələrin 84 nəfər alimi Azərbaycanda araşdırma aparmışdı. Onların 35-i inkişaf etmiş ölkələrin nümayəndələri idi[41]. Bütövlükdə, EA-ya xarici ölkələrdən 280 nəfər alim gəlmişdi. Onlar azərbaycanlı alimlərlə əməkdaşlıq edir, Azərbaycan tarixi, elm və mədəniyyətinin nailiyyətləri ilə yaxından tanış olurdular.

1980-ci ildə bu sahədə olan əlaqələr daha da genişləndi. Həmin ildə dünyanın 39 ölkəsində 486 nəfər azərbaycanlı mütəxəssis işləyirdi. Artıq onların 76%-i ali təhsilli idi. Həmin şəxslərin 94 nəfəri mühəndis, 112 nəfəri müəllim, 130 nəfəri tərcüməçi, 33 nəfəri aqronom, həkim və diplomat idi. Ali təhsilli mütəxəssislərin sayının artımı mühəndis və müəllimlərin hesabına baş vermişdi[42]. Qeyd etmək lazımdır ki, xarici ölkələrdə işləyən azərbaycanlı fəhlələrin sayı isə azalmağa doğru getmişdi. Bütün bunlar bir tərəfdən, Azərbaycan elm və təhsilinin yüksək inkişafını, digər tərəfdən isə H.Əliyevin xarici ölkələrdə işləyənlər içərisində azərbaycanlı ali təhsilli mütəxəssislərin sayının çoxalmasına, fəhlələrin sayının isə getdikcə azalmasına xüsusi fikir verdiyini göstərirdi. Həmin ildə EA xətti ilə 97 alim xarici ölkələrdə səfərdə olmuşdu[43]. Onlar 18 beynəlxalq elmi məclisdə məruzələrlə çıxış etmişdilər. Öz növbəsində EA-ya 52 ölkədən 409 nəfər alim səfər etmişdi. Azərbaycanda keçirilən beş böyük beynəlxalq elmi məclisə 26 xarici ölkədən alim gəlmişdi[44]. Bütün bunlar eyni zamanda Azərbaycanın beynəlxalq elmi məclislərin keçirildiyi mərkəzə çevrildiyini göstərirdi.

---

[39] Yenə orada, v. 5.
[40] ARSPİHDA, f. 1, siy. 67, iş 185, v. 56.
[41] Yenə orada, v. 55.
[42] Yenə orada, v. 46.
[43] ARSPİHDA, f. 1, siy. 68, iş 369, v. 22.
[44] Yenə orada, v. 21.

H.Əliyev Azərbaycanın mədəniyyət, səhiyyə, idman, ictimai və yaradıcı təşkilatlarının beynəlxalq əlaqələrinin qurulması və inkişafı yolunda səylər edirdi. Bu sahədə əlaqələrin inkişafının yalnız bəzi illər üzrə xronoloji ardıcıllıqla izlənilməsi onun öz istəklərinə qətiyyətlə nail olduğunu göstərirdi. 1973-cü ildə Azərbaycan inçəsənət ustaları dünyanın 12 ölkəsində konsertlər vermişdilər. Azərbaycan bəstəkarları AFR, Türkiyə, Bolqarıstan və b. ölkələrə səfər etmişdilər. Öz növbəsində dünyanın 10-dan çox ölkəsinin musiqi kollektivləri Azərbaycanda coşqu ilə qarşılanan konsertlər vermişdilər[45]. Azərbaycan rəssamları 10 beynəlxalq sərgidə uğurla iştirak etmişdilər. 19 azərbaycanlı rəssam xarici ölkələrdə səfərdə olmuşdu. Azərbaycan yazıçıları ABŞ, Polşa, Finlandiya, Türkiyə, Misir, Suriya, İran, Hindistan və b. ölkələrə səfər etmişdilər. Bu zaman Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti artıq dünyanın 60 ölkəsi ilə əlaqə saxlayırdı. Səhiyyə sahəsində də əlaqələr genişləndirildi. Həmin ildə 4 xarici ölkənin nümayəndə heyəti Azərbaycana səfər etdi[46]. 1973-cü ildə Azərbaycana 12 idman nümayəndə heyəti gəlmişdi, 1 nümayəndə heyəti isə xaricə göndərilmişdi. Qardaşlaşmış şəhərlər hərəkatında Azərbaycan yaxından iştirak etməyə başlamışdı. Xarici turizm genişlənirdi. Əgər 1972-ci ildə Azərbaycana 6364 nəfər turist gəlmişdisə, 1973-cü ildə onun coğrafiyası və gələn turistlərin sayı da artmışdı. Belə ki, onların sayı 32 ölkədən 10146 nəfərə çatmışdı. Bu isə əvvəlki illə müqayisədə 60% çox idi[47]. Öz növbəsində Azərbaycandan xarici ölkələrə əgər 1972-ci ildə 92 qrupda 2750 nəfər turist göndərilmişdisə, 1973-cü ildə 107 qrupda 3135 nəfər göndərilmişdi[48]. 1974-cü ildə Azərbaycandan xaricə 3600 nəfər turist yola salınmışdı[49].

[45] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 78-79.
[46] Yenə orada, v. 73-77.
[47] Yenə orada, v. 70-73.
[48] Yenə orada, v. 68.
[49] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v. 104.



1975-ci ildə Azərbaycandan 3 nümayəndə heyəti Hindistan, VDR və Monqolustana, 3 turist qrupu Çexoslovakiya, Yuqoslaviya və Macarıstana göndərilmişdi. Eyni zamanda Azərbaycana 11 ölkədən turist heyətləri gəlmişdi[50]. Həmin ildə Azərbaycanda 19 ölkədən 42 musiqi kollektivi konsertlər vermişdi. Öz növbəsində Azərbaycandan 65 nəfər mədəniyyət və incəsənət xadimi 19 ölkədə keçirilən mədəniyyət günlərində iştirak etmişdi[51]. Azərbaycan yazıçıları 4 xarici ölkəyə səfər etmiş, Azərbaycana isə 13 ölkədən şair və yazıçı gəlmişdi. Azərbaycan rəssamları 2 ölkədə səfərdə olmuşdular. Respublikaya isə ABŞ və Yaponiya rəssamları gəlmişdilər. Azərbaycanın 5 nəfər jurnalisti xaricdə olmuş, 4 xarici ölkə nümayəndə heyəti respublikaya gəlmişdi. Azərbaycanlı bəstəkarlar 9 xarici ölkəyə səfər etmişdilər. Respublikada 13 ölkədən idman nümayəndə heyəti qəbul edilmiş, 6 xarici ölkəyə 6 idman nümayəndə heyəti göndərilmişdi. Azərbaycana gələn turistlərin sayı 28252 nəfərə çatmış və ya 1974-cü illə müqayisədə 148% artmışdı[52]. Azərbaycandan xaricə gedən turistlərin sayı isə artaraq 4,5 min nəfər olmuşdu[53].

1976-cı ildə Azərbaycana tərkibində 231 nəfər olan 18 idman nümayəndə heyəti, 1977-ci ildə isə 21 nümayəndə heyətinin tərkibində 352 nəfər idmançı gəlmişdi[54]. Həmin ildə 119 nəfərin daxil olduğu 7 idman numayəndə heyəti Azərbaycandan xarici ölkələrə getmişdi.

1977-ci ildə Azərbaycana 38 ölkədən 24322 turist gəlmişdi[55]. Azərbaycandan isə 5 min nəfər xarici ölkələrə turist səfərinə getmişdi[56]. Azərbaycan bəstəkarları, rəssamları, şair, yazıçı və jurnalistləri dünyanın onlarla ölkəsində səfərdə ol-

[50] Yenə orada, v. 114.
[51] Yenə orada, v. 112.
[52] Yenə orada. v. 105.
[53] Yenə orada, v. 104.
[54] ARSPİHDA, f. 1, siy. 65, iş 176, v. 49.
[55] Yenə orada, v. 50.
[56] Yenə orada.

muşdular. Bakı şəhəri ilə Bordo və Hyuston şəhərləri arasında əlaqələrin qurulmasına başlanılmışdı. Dünyanın müxtəlif ölkələrində Azərbaycan mədəniyyəti günləri uğurla keçirilirdi. Bu tədbirlərdə Azərbaycan mətbəxi nümunələri nümayiş etdirilir, tarixi, mədəniyyəti və incəsənətinə həsr edilmiş kitabçalar, bukletlər yayılırdı.

1978-ci ildə Azərbaycana Xarici turizm idarəsinin xətti ilə 30-dan çox ölkədən 20590 turist gəlmiş, Azərbaycandan isə xarici ölkələrə 157 qrupda 5280 nəfər turist getmişdi. Şair və yazıçılar 10-dan yuxarı ölkədə olmuşdular. Azərbaycana 7 idman nümayəndə heyəti gəlmiş, xarici ölkələrə isə 12 heyət göndərilmişdi[57].

1979-cu ildə Azərbaycana 26226 xarici gəlmişdi ki, onların da 21426 nəfəri turist idi. Ötən illə müqayisədə turistlərin sayının artması daha çox inkişaf etmiş ölkələrdən gələnlərin hesabına olmuşdu[58]. Azərbaycan Avropa ölkələrinin diqqətini daha çox cəlb etməyə başlamışdı. Turistlər Azərbaycanın tarixi yerləri, mədəniyyəti, incəsənəti ilə yaxından tanış olurdular. Azərbaycandan isə xarici ölkələrə 5935 turist getmişdi. Azərbaycan rəssamları, jurnalistləri, şair və yazıçıları da xarici ölkələrdə olmuşdular. Həmin ildə Azərbaycana 23 idman nümayəndə heyəti gəlmiş, Azərbaycandan isə xaricə ölkələrə 5 nümayəndə heyəti göndərilmişdi[59].

H.Əliyev Azərbaycanın ümumittifaq və beynəlxalq turist mərkəzlərindən birinə çevrilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirirdi. Bundan ötrü mühüm qərarlar qəbul edilmişdi. Abşeronda, Zuğulbada möhtəşəm «Gənclik» kompleksi tikildi. Xəzər sahili boyu turist komplekslərinin yaradılmasına başlanıldı.

1980-ci ildə Azərbaycan rəssamları, jurnalistləri, kinematoqrafçıları, şair və yazıçıları xarici ölkələrə səfər etdilər.

[57] ARSPİHDA, f. 1, siy. 66, iş 177. v. 10 -11.
[58] ARSPİHDA, f. 1. siy. 67, iş 185, v. 27.
[59] Yenə orada, v. 48.



Həmin ildə respublikaya 18017 nəfər xarici turist, 18 idman nümayəndə heyəti gəlmişdi. Öz növbəsində xaricə 6184 nəfər turist, 5 idman nümayəndə heyəti göndərilmişdi[60]. 1982-1987-ci illərdə də turist səfərləri xeyli çoxaldı.

Respublikanın beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində H.Əliyevin apardığı sistemli və məqsədyönlü fəaliyyət öz bəhrəsini uğurla verirdi. Azərbaycan beynəlxalq aləmdə tanınır, elmi, mədəni, siyasi tədbirlərin keçirildiyi yerə çevrilir, xarici ölkələrdə Azərbaycan xalqının tarixi və mədəniyyəti haqqında yazılar dərc edilirdi. Beynəlxalq əlaqələrin qurulması sahəsində Azərbaycan təcrübə qazanır, müxtəlif sahələrin mütəxəssisləri dünyanın qabaqcıl ölkələrinin təcrübəsini öyrənirdi. H.Əliyev respublikanın beynəlxalq mədəni əlaqələrinin genişləndirilməsinə sevinir və onu yüksək dəyərləndirirdi. O deyirdi: «Respublikanın xarici ölkələrlə mədəni əlaqələri getdikcə daha böyük vüsət alır. İndi Azərbaycanın mədəni əlaqələrinin coğrafiyası bütün beş qitənin 90-dan çox ölkəsinin ictimaiyyətini təmsil edən təşkilatları əhatə edir. Azərbaycan incəsənətinin xadimləri inkişaf etməkdə olan ölkələrə milli mədəniyyətin təşəkkülündə və inkişafında xeyli yardım göstərirlər. Azərbaycanın bir sıra görkəmli incəsənət ustaları beynəlxalq və milli mükafatlara layiq görülmüşlər.

Sovet Azərbaycanının bədii kollektivlərinin və incəsənət ustalarının xaricdə çıxışları daim müvəffəqiyyətlə keçir... Son illər ərzində Danimarka, Fransa, İtaliya, Portuqaliya, Belçika, Əlcəzair, Avstriya, AFR, Qvineya-Bisau kimi ölkələrdə keçirilmiş Azərbaycan SSR günləri zamanı respublikanın mədəniyyət və incəsənətinin yüksək nüfuzu əyani şəkildə təzahür etmişdir»[61].

H.Əliyev Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasının yollarından biri kimi mərkəzi və xarici ölkələrin mətbuat orqanlarında respublika haqqında məqalələrin çap edilməsini

[60] ARSPİHDA, f. 1, siy. 68, iş 369. v. 16.
[61] Əliyev H. Sovet Azərbaycanı, s. 97.

173

Азербайджан ССР
Дөвләт Тәһлүкәсизлији
КОМИТӘСИ

КОМИТЕТ
государственной безопасности
Азербайджанской ССР
3/XI № 10/1224

СЕКРЕТНО
Экз. № 1

ЦК КП АЗЕРБАЙДЖАНА

[illegible]

[illegible]

[illegible]

[illegible]

[illegible]



görürdü. Ona görə də həmin orqanlarla yaxşı münasibətlər quran və digər strukturlara da bunu tövsiyə edən H.Əliyev belə yazıların verilməsinə nail olurdu. Qeyd etmək lazımdır ki, 70-ci illərdə - 80-ci illərin ortalarınadək mərkəzi mətbuatda Azərbaycana dair tənqidi yazılar verilməmişdi, xarici ölkələrin qəzet və jurnallarında isə xoşməramlı məqalələr çap olunmağa başlamışdı. H.Əliyev Azərbaycana mehriban münasibət bəsləyən jurnalistləri respublikaya dəvət etdirirdi. Belə səfərlər nəticəsiz qalmır, Azərbaycan xalqının tarixi və mədəniyyəti haqqında dərc olunan məqalələrin sayı artırdı. Azərbaycana başqa ölkələrdə də olan jurnalist marağı artır, səfərlər çoxalırdı. Belə bir fakt əhəmiyyətlidir ki, H.Əliyevin göstərişi ilə dünyanın müxtəlif ölkələrindən 100-dən çox jurnalist Azərbaycanda qəbul edilmişdi. Onlar Azərbaycanda böyük qayğı ilə əhatə olunurdular. Vətənlərinə dönən jurnalistlər Azərbaycan haqqında maraqlı məqalələr dərc etdirirdilər.

Azərbaycanın beynəlxalq aləmdə təbliğ edilməsində türk jurnalistləri xüsusi rol oynayırdılar. Türk qəzet və jurnalların redaksiyaları ilə Azərbaycan tərəfi xoş münasibətlər yaratmışdı. Məsələn, 1979-cu ilin aprel ayından etibarən İstanbulda tirajı 15 min nüsxə olan aylıq «Xəzər» jurnalı nəşr edilməyə başlamışdı. Jurnalın birinci nömrəsində deyilirdi ki, onun əsas məqsədi türk oxucularını Azərbaycan ədəbiyyatı, mədəniyyəti, onun qədimliyi və kökləri ilə tanış etməkdir. Jurnalda elmi məqalələr də dərc olunurdu. Naşirlər siyasi diskussiyalar aparmaqdan uzaq qaçırdılar. Vaqif, Füzuli, Natəvan, Sabir, M.F.Axundov, C.Məmmədquluzadə və b. klassiklərin əsərləri ilə yanaşı jurnal Cənubi və Şimali Azərbaycan yazıçı, şair və alimlərinə – H.Cavid, M.Müşviq, S.Vurğun, Rəsul Rza, S.Rüstəm, B.Vahabzadə, N.Xəzri, Şəhriyar yaradıcılığına, professor A.Zamanovun məqalələrinə yer verirdi. Onların əsərləri orijinalda verilir, yalnız bəzi ifadələr türk dilinə uyğunlaşdırılırdı. Azərbaycan DTK-nın 1982-ci il 3 noyabr tarixli 10/1224 №-li məxfi məlumatından

aydın olur ki, məqalələr əsasən obyektiv yazılırdı. Jurnalın sahibi və naşiri olan 53 yaşlı karslı, azərbaycanlı Həmid Turan millətçi idi. O, bildirirdi ki, SSRİ, İran və Türkiyədəki azərbaycanlılar birləşəndə əsl azadlığa nail olacaqlar. Onun xaricdəki azərbaycanlılarla geniş əlaqələri var idi. Bu jurnal Azərbaycanın Türkiyədə və türk dünyasında tanıdılmasında mühüm rol oynayırdı[62].

70-80-ci illərdə Türkiyədə Azərbaycanı tanıdan bir neçə belə jurnal nəşr olunurdu, azərbaycanlı ziyalılar isə respublika orqanlarının himayəsi altında onlara köməklərini əsirgəmir, məqalələr, digər materiallar göndərirdilər. Həmin jurnallarla işgüzar əlaqələr qurulmuşdu.

* * *

Beləliklə:

- hakimiyyətə gələn kimi Azərbaycan xalqının tarixini, elmini, mədəniyyətini, incəsənətini, idmanını beynəlxalq aləmdə tanıtmaq sahəsində geniş fəaliyyətə başlayan H.Əliyev mühüm qərarların qəbul edilməsinə nail oldu;
- o, respublika Xarici İşlər Nazirliyinin funksiyalarını genişləndirməkdən ötrü mərkəzi orqanlarla yazışmalar aparır, azərbaycanlılardan ibarət peşəkar diplomat kadrların hazırlanmasına Moskvadan qəbul üçün yerlər alır, onların ixtisaslarını artırmalarına, xarici ölkələrdəki sovet səfirliklərində diplomatik işdə çalışmalarına nail olur, nazirliyin ştat heyətini və əməkdaşlarının maaşlarını artırır, maddi-texniki bazasını möhkəmləndirirdi;
- H.Əliyevin hakimiyyəti dövründə Azərbaycana xarici ölkələrin rəsmi nümayəndə heyətlərinin və diplomatlarının səfərləri əvvəlki illərlə müqayisədə xeyli artmışdı. Avropa ölkələrinin və ABŞ-ın rəsmi dairələri, diplomatları Azərbaycanla daha yaxından maraqlanmağa başlamışdılar. H.Əliyevlə tanış olmaq üçün Bakıya gələn həmin şəxslər Azərbaycan rəhbərini geniş dünyagörüşlü, bacarıqlı, nüfuzlu siyasi xadim kimi qiymətləndirirdilər;
- Azərbaycan milli azadlıq mübarizəsi aparan xalqlar, xüsusən türk və müsəlman xalqları üçün nümunə rolunu oynamağa başlamışdı. Azərbaycan rəhbəri «Kreml üçün Heydər Əliyev, türk, müsəlman dünyası üçün isə sadəcə Heydər Əliyev deyil, Heydər, Əli, Əlizadə idi». Heydər Əliyev Yaxın və Orta Şərq xalqları və dövlət başçıları içərisində ən hörmətli, görkəmli, nüfuzlu dövlət adamı olaraq qəbul edilirdi. Regionun nəinki dövlətləri arasında gedən münaqişələrin, eyni zamanda bəzi ölkələrin daxilində davam edən şiddətli vətəndaş müharibələrinin dayandırılmasında onun nüfuzundan istifadə olunmuşdu;
- H.Əliyev respublika Xarici Ticarət Nazirliyinin səlahiyyətlərinin artırılmasına, əlaqələrinin genişləndirilməsinə çalışır və buna nail olurdu. Onun hakimiyyəti illərində Xarici Ticarət Nazirliyinin səlahiyyətləri tədricən genişləndirilmiş, ticarət-iqtisadi əlaqələrdə rolu xeyli artırılmışdı. Nazirlik Azərbaycanın xarici ölkələrdə keçirilən sərgi-yarmarkaların əsas təşkilatçısına çevrilmiş, beynəlxalq əlaqələr sahəsində təcrübə toplamışdı;
- Azərbaycanın birbaşa, müstəqil beynəlxalq ticarət-iqtisadi əlaqələri olmasa da, mərkəzi orqanlar vasitəsi ilə əlaqələr saxladığı ölkələrin coğrafiyası genişlənir və miqyası ildən-ilə artırdı. Azərbaycanda istehsal olunan məhsullar dünya bazarında özünəməxsus yer tuturdu. Xaricə mal göndərən müəssisələrin sayı artırdı. Onların nümayəndələri xarici ölkələrə səfər edərək təcrübəni öyrənir və respublikada tətbiq etməyə çalışırdılar. Azərbaycanda istehsal olunan məhsulların keyfiyyəti yaxşılaşırdı. Ən başlıcası isə Azərbaycan beynəlxalq ticarət-iqtisadi əlaqələr sahəsində təcrübə toplayır və peşəkar mütəxəssislər yetişirdi. Məhz həmin mütəxəssislər Azərbaycanın dövlət müstəqilliyi bərpa

[62] AR MTN arxivi, iş 497, v.178.

edildikdən sonra beynəlxalq ticarət-iqtisadi əlaqələrdə mühüm rol oynadılar;

- H.Əliyev Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasının yollarından biri kimi xarici ölkələrlə qarşılıqlı turist əlaqələrinin genişləndirilməsini görürdü. Bu sahədə qazanılan uğurlar Azərbaycanı dünyada tanıdır, respublikaya valyuta gətirir, yeni iş yerləri açılır, turist kompleksləri tikilir, Xəzər sahili turist mərkəzinə çevrilirdi. Ona görə də hakimiyyətdə olduğu illər ərzində H.Əliyev turist əlaqələrinin genişləndirilməsinə çalışırdı. Xarici ölkələrə səfər edən azərbaycanlılar dünyanı görür, dünyagörüşləri artır, ayrı-ayrı ölkələrin həyatında və beynəlxalq aləmdə baş verən dəyişiklikləri, ümumi istiqaməti başa düşürdülər;

- H.Əliyevin hakimiyyəti illərində Azərbaycan bir çox beynəlxalq elmi, mədəni və b. tədbirlərin keçirildiyi yerə çevrilmişdi. Respublika alimlərinin, mədəniyyət, incəsənət və ədəbiyyat xadimlərinin xarici ölkələrə səfərləri genişlənirdi. Azərbaycanın elmi idarələri ilə dünyanın qabaqcıl elmi mərkəzləri arasında əlaqələr qurulur və inkişaf etdirilirdi. Azərbaycan alimləri dünya elminin nailiyyətləri ilə yaxından tanış olurdular. Onların xarıcı ölkə alimləri ilə birgə apardıqları elmi-tədqiqat işlərinin həcmi artırdı. Respublikaya səfər edən xarici ölkə alimləri Azərbaycan xalqının tarixi keçmişi, mədəniyyəti, incəsənəti, sosial-iqtisadi və b. sahələrdə qazandığı uğurlarla tanış olur, öz ölkələrindəki həmkarları arasında doğru ictimai rəyin formalaşmasında mühüm rol oynayırdılar;

- H.Əliyevin hakimiyyəti dövründə xarici ölkələrdə işləyən azərbaycanlı mütəxəssislərin sayı artmağa doğru getmişdi. Həmin mütəxəssislər içərisində ali təhsilli müəllim, həkim, mühəndis və b. peşə sahiblərinin xüsusi çəkisi ildən-ilə artır, fəhlələrin sayı isə azalırdı. Azərbaycanlı mütəxəssislər inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının, xüsusən neft sənayesinin inkişafında iştirak edirdilər. Bunun-



la da xarici ölkələrdə Azərbaycan xalqının yüksək elmi və mədəni inkişafı təbliğ edilirdi;

- Azərbaycan idmançılarının, ictimaiyyətinin beynəlxalq əlaqələri, Bakı ilə bir sıra şəhərlər arasında qardaşlaşmış şəhərlər hərəkatı çərçivəsində əməkdaşlıq genişlənirdi;

- SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlərkən H.Əliyev azərbaycanlıların xarici ölkələrdə müxtəlif sahələrdə çalışmasına yaxından kömək edir, onlara qayğı göstərirdi.

# XII FƏSİL

## XARİCDƏ YAŞAYAN HƏMVƏTƏNLƏRLƏ ƏLAQƏ

H.Əliyev hakimiyyətə gələnədək xaricdə yaşayan azərbaycanlılarla demək olar ki, əlaqə saxlanılmır, onlara vətən xaini kimi baxılırdı. Xüsusən, 1920-ci ilin aprelindən sonra xarici ölkələrə mühacirət etmiş şəxslərə, onların övladlarına, Böyük Vətən müharibəsinin gedişində əsir düşdüklərindən qəddar Stalin repressiyalarından qorxaraq Azərbaycana dönməyənlərə münasibət olduqca pis idi. Mətbuatda onlar haqqında təhqiramiz yazılar dərc olunurdu. Belə şəraitdə həmin şəxslər SSRİ-də mövcud olan rejimə daha kəskin münasibət bəsləyir, hətta imkan düşdükdə Azərbaycandakı vəziyyəti qara rəngdə qələmə verərək əks-təbliğat aparırdılar. Azərbaycan mühacirəti vətəndən aralı düşmüşdü. Mərkəzdəki bəzi antiazərbaycan qüvvələr də xaricdəki azərbaycanlılar haqqında mənfi rəy yaradırdılar. Nəticədə zərbə bütövlükdə Azərbaycan xalqına dəyirdi. 20-30-cu illərdə Azərbaycandan qovulan və ya mühacirət edən antisovet qüvvələrə, şəxslərə qarşı müharibə dövründə təqibləri həyata keçirən sovet xüsusi xidmət orqanları müharibədən sonrakı illərdə sovet dövlətinin ən qorxulu, təhlükəli saydığı adamları terrorla aradan götürmək, oğurlamaq, zəhərləmək praktikasını genişləndirmişdi. Stalinin ölümündən sonra inzibati-amirlik sistemində müəyyən dəyişiklik baş versə də, mühacirətə münasibətdə ciddi dəyişiklik olmadı. Məsələn, A.Düdənginski Azərbaycan DTK-nın xəbəri olmadan Moskva tərəfindən Almaniya Federativ Respublikasında 1954-cü ildə qəddarlıqla qətlə yetirildi[1].

[1] AR MTN arxivi, iş 813, v.1-3.



Qətllər, repressiyalar insanları hiddətləndirirdi. Eyni zamanda xarici dövlətlər sovet siyasətini, antisovet şəxslərə qarşı mübarizədə terrordan istifadə olunması metodunu kəskin tənqid edirdilər. Dünya mətbuatında «Kreml terror yolunu tutur» başlıqlı məqalələr verilirdi. Siyasi mühacirətə münasibətdə belə acınacaqlı vəziyyətin təcili düzəldilməsi lazım idi. Bu problemin həllinə böyük şövqlə, cəsarətlə və sistemli şəkildə yanaşan ilk azərbaycanlı rəhbər məhz Heydər Əliyev oldu. O, problemə fərqli yanaşmağa başladı. H.Əliyev mühacirətin izlənilməsi, nümayəndələrinin qətlə yetirilməsi praktikasına qarşı çıxaraq, onunla işləmək, əməkdaşlıq etmək yolunu tutaraq xaricdə yaşayan siyasi mühacirət xadimlərini xilas etdi. Əlbəttə, 20-50-ci illərlə 70-80-ci illərin beynəlxalq münasibətləri xarakterinə görə bir-birindən kifayət qədər fərqlənirdi. 60-cı illərin sonlarından başlayaraq iki sistem arasında münasibətlərdə qarşıdurmadan gərginliyin zəifləmədilməsinə keçid prosesi humanitar sahədə əlaqələrə də müsbət təsir edirdi. Respublikanın kommunist rəhbəri olmasına baxmayaraq, Heydər Əliyev belə hesab edirdi ki, harada doğulması və yaşamasından asılı olmayaraq Azərbaycanı sevən hər bir azərbaycanlı əzizdir və onlar Azərbaycanla müntəzəm, həm də sıx əlaqə saxlamalı, vətənə gəlmək imkanına malik olmalıdır. H.Əliyev xaricdə yaşayan mühacirəti və Azərbaycan xalqını humanitar, mədəniyyət, ədəbiyyat, ortaq dəyərlər əsasında birləşdirdi, siyasi mühacirətin milli-mədəni inkişafa dair söylədiklərini Azərbaycanda real işlərlə həyata keçirməyə başladı. Bununla da harada yaşamasından asılı olmayaraq azərbaycanlıları birləşdirdi. H.Əliyev xaricdə yaşayan azərbaycanlılara Azərbaycan xalqının dayağı kimi baxır, vətənə dəvət edilmələrinə şərait yaradır və qayğı göstərirdi. O həmçinin çalışırdı ki, xarici ölkələrdə yaşayan həmvətənlər Azərbaycan haqqında düzgün təsəvvürə malik olsunlar, Qərbdə aparılan güclü antisovet təbliğatda iştirak etməsinlər, sovet sistemi şəraitində Azərbaycan xalqının qazandığı nailiyyətləri əyani şəkildə görsünlər, vətənpərvər olsunlar və onu təbliğ etsinlər.

Belə yanaşma yeni şəraitdə sovet dövlətinin ümumi siyasətinin tərkib hissəsi idi. Azərbaycan rəhbəri xarici ölkələrdə yaşayan azərbaycanlılarla sistemli əlaqələrin qurulması məsələsini sovet dövlət rəhbərləri qarşısında qaldıraraq Sov. İKP MK-ya dəfələrlə məktublar yazmışdı. O belə hesab edirdi ki, azərbaycanlıların dünyaya yayılması tarixi-siyasi şərait ucbatından baş verib, buna baxmayaraq, onlarla əlaqələrin qurulması, əməkdaşlıq edilməsi vacibdir.

Qeyd etmək lazımdır ki, 70-ci illərdə beynəlxalq gərginliyin zəifləədilməsi şəraitində xarici ölkələrdə yaşayan həmvətənlər də ana vətənlə əlaqələr qurmaq üçün yollar axtarmağa başlamışdılar. Onlar bu məqsədlə müxtəlif vasitələrdən - məktublaşmalardan, turist səfərlərindən istifadə edərək qohumları ilə əlaqələr qururdular. Eyni zamanda onların yaşadıqları ölkələrin xüsusi xidmət orqanları mühacir azərbaycanlıların milli hisslərini gücləndirir, bu hissləri xüsusilə gənclər arasında geniş yayırdılar. Siyasi mühacirətin bəzi nümayəndələri Kommunist Partiyasına, movcud sovet sisteminə Azərbaycanın istiqlalına son qoyan kimi baxaraq nifrətlərini gizlətmirdilər. Nifrət hissini zəiflətmək məqsədilə onlarla əlaqələrin qurulmasına, vətənə dəvət edilmələrinə, sovet sistemi şəraitində Azərbaycan xalqının həyatında baş verən dəyişiklikləri görmələrinə ehtiyac yaranmışdı. Bunu həmçinin olkədə yeridilən ümumi siyasət də tələb edirdi. Ona görə də xarici ölkələrdə yaşayan həmvətənlərlə əlaqələrin qurulması və saxlanılması işi ilə sistemli və müntəzəm məşğul olan ictimai təşkilatın yaradılması zərurəti meydana çıxmışdı. Heç şübhəsiz, bu sahədəki fəaliyyətlər ümumi sovet siyasətinin tərkib hissəsi idi. Bütün bunları nəzərə alan H.Əliyev təşkilati işlərə başladı. Onun təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1973-cü il 28 avqust tarixli iclas qərarı əsasında Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti nəzdində xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradıldı[2]. Büronun H.Əliyev tərəfindən təklif

[2] ARSPİHDA, f. 1, siy. 60, iş 57 (59), pr. № 73, § 25.



edilən və qəbul olunan qərarında deyilirdi: «1. Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin nəzdində tərkibi üç nəfərdən ibarət olan xaricdəki həmvətənlərlə əlaqə şöbəsi yaradılsın. 2. Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, şöbənin yaradılması və saxlanılması ilə bağlı məsələlərə baxsın və həll etsin»[3].

Beləliklə, cəmiyyətin nəzdində tərkibində üç nəfər əməkdaşın çalışdığı müvafiq şöbə yaradıldı. Şöbə xaricdəki azərbaycanlıları vətənə dəvət etməyə, onların ünvanlarına məlumat-təbliğat materialları göndərməyə başladı. Lakin şöbənin ştat heyəti kiçik olduğundan səmərəli iş apara bilmirdi. Hətta şöbənin qeydiyyatı məsələsi də problemlərlə üzləşmişdi. Şöbə Ümumittifaq Vətən cəmiyyətinin nəzdində qeydiyyata alınmamışdı. İş o yerə çatmışdı ki, şöbənin nümayəndələrini xaricdə yaşayan həmvətənlərlə əlaqələrə dair Ümumittifaq cəmiyyətinin 1975-ci ilin dekabr ayında Moskvada keçirilən təsis konfransına dəvət etməmişdilər. Şöbənin müstəqilliyi, kargüzarlığı və hətta blankları yox idi. Bütün məsələlər xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin vasitəçiliyi ilə həll edilirdi. Onun da konkret məqsədi xarici ölkələrin ictimaiyyəti ilə dostluq və mədəni əlaqələri qurmaqdan ibarət idi. Cəmiyyət xarici ölkələrdə yaşayan həmvətənlərlə əlaqələrin qurulması məsələsi ilə bilavasitə məşğul olmurdu. Buna görə də hələlik şöbənin fəaliyyətini gücləndirmək, təcrübə qazanmaq və xarici ölkələrdə yaşayan həmvətənlər haqqında mükəmməl məlumatlar toplamaq lazım gəlirdi.

Yaranmış vəziyyəti dərindən bilən H.Əliyev mühacirət tarixinin öyrənilməsi və xaricdə yaşayan azərbaycanlıların sayının müəyyənləşdirilməsi barədə müvafiq orqanlara qəti tapşırıq verdi. Lakin mühacirətin yayıldığı coğrafiya və xarici ölkələrdə yaşayan həmvətənlər barədə dəqiq məlumat yox idi. Həm də bu barədə informasiya toplamaq işi çoxlu çətinliklərlə üzləşirdi. Azərbaycanlılar Amerika, Avropa və Asiyada, hətta Afrikanın şimal ölkələrində yaşayırdılar.

[3] Yenə orada, v. 32.

Azərbaycan mühacirəti həmin dövrdə əsasən üç kateqoriyaya bölünmüşdü: sovet hakimiyyəti qurulduqdan sonra xarici ölkələrə mühacirət edənlər; 30-cu illərdə İrana və xarici ölkələrə qovulan milliyyətcə azərbaycanlı olan İran təbəələri; ikinci dünya müharibəsindən sonra müxtəlif səbəblər üzündən, xüsusən Stalin repressiyasından qorxaraq Azərbaycana qayıtmayan şəxslər[4].

Qeyd etmək lazımdır ki, SSRİ Ali Soveti rəyasət heyətinin sədri M.Kalininin və rəyasət heyətinin katibi M.Qorkinin 1943-cü il 19 aprel tarixdə təqdim etdikləri «Alman-faşist caniləri, sovet mülki əhalisinə işgəncə vermәkdə və öldürməkdə təqsirli olanlar, casuslar, sovet vətəndaşları içərisindən vətən xainləri və onların əlaltıları üçün cəza tədbirləri haqqında» fərmanı ÜİK(b) P MK Siyasi bürosunun həmin gün keçirilmiş iclasında (protokol №40) təsdiq edilmiş və bunun əsasında qəbul olunmuş qərar (p 40/112)[5] müharibədən sonra sovet vətəndaşlarının bir qisminin vətənə dönməməsinin başlıca səbəblərindən olmuşdu.

Problemin həllinə girişən H.Əliyev xaricdə yaşayan azərbaycanlıların sayının dəqiqləşdirilməsi barədə yeni tapşırıqlar verdi. Lakin bu işdə çoxlu problemlər mövcud idi. Dövlət orqanları onların haqqında dəqiq məlumata malik deyildilər. Rəqəmlər ziddiyyətli idi. Bəzi məlumatlara görə bu zaman xarici ölkələrdə təxminən 100 min nəfərdən çox azərbaycanlı mühacir yaşayırdı[6].

H.Əliyevin göstərişinə əsasən Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi xarici ölkələrdə yaşayan azərbaycanlıların sayı barədə müvafiq arayış hazırlayaraq təqdim etdi. DTK sədri Krasilnikovun imzaladığı 1974-cü il 19 aprel tarixli 10/378 №-li məxfi məktubla tanış olan H.Əliyev MK-nın ideologiya katibi R.Məmmədzadəyə belə bir dərkənar yazdı: «Xahiş edirəm, MK-nın büro üzvlərini tanış edin. Baxın və

[4] ARSPİHDA, f. 1, siy. 63, iş 139, v. 82.

[5] РГАНИ, ф.89, оп.73, д.163, л.1-5.

[6] ARSPİHDA, f. 1, siy. 60, iş 57, v. 81.



büroya təkliflər hazırlayın». Arayışdan aydın olur ki, bütövlükdə, xarici ölkələrdə yaşayan azərbaycanlıların, o cümlədən, ikinci dünya müharibəsindən sonra vətənə qayıtmayan azərbaycanlıların sayı təxminən 6 mln. nəfərdən çox idi və onlar dünyanın müxtəlif ölkələrində məskunlaşmışdılar[7]. Məlumata görə azərbaycanlılar İranda təxminən 5 mln.-dan çox, həmçinin Türkiyə, İraq, bir neçə Qərbi Avropa ölkəsində və ABŞ-da yaşayırdılar. Təkcə Türkiyədə 500 min nəfərdən çox azərbaycanlı var idi. Onların təxminən 4-5 min nəfəri müharibədən sonra Azərbaycana dönməyənlər idi. Türkiyədəki azərbaycanlılar əsasən Ankara, İstanbul və İzmir kimi böyük şəhərlərdə yaşayır və işləyirdilər. Onların arasında tanınmış həkim, jurnalist, dövlət məmuru, tacir, elmi və pedaqoji ziyalılar var idi. Türkiyədə azərbaycanlıların iki cəmiyyəti - «Azərbaycan kültür dərnəyi» və «Azərbaycanlılara yardım cəmiyyəti» fəaliyyət göstərirdi. Həmin cəmiyyətlər sağ partiyaların himayəsi altında açıq antisovet təbliğat aparır və Türkiyədə yaşayan azərbaycanlılara xeyriyyə yardımları edirdilər.

AFR, Fransa, İsveç və ABŞ-da bir neçə min azərbaycanlı yaşayırdı. AFR-də 2, ABŞ-da isə 1 mühacir azərbaycanlı təşkilatı fəaliyyət göstərirdi. Qeyd etmək lazımdır ki, ABŞ-dakı müacir azərbaycanlı təşkilatını H.Əliyev hələ DTK sədri olarən qurmuşdu. Xarici ölkələrdə yaşayan azərbaycanlıların fəaliyyəti geniş olmayıb, əsasən «Azadlıq» radiostansiyası ilə əməkdaşlıq etməklə məhdudlaşırdı. Onlar həmin radiostansiya ilə etdikləri çıxışlarında milli və mənəvi dəyərlərin sovet hökuməti tərəfindən sıxışdırılaraq sıradan çıxarıldığını söyləyir, azərbaycanlılar arasında istiqlal fikrinin yayılmasına çalışır, xalqı öz milli köklərini və dini inanclarını mühafizə etməyə çağırırdılar. Nitqlərində həmin şəxslər pantürkçü və turançı şüarlar söyləyir, xalqı rus zülmünü devirməkdən ötrü açıq silahlı mübarizəyə səsləyir, xaricə səfər edən bəzi azərbaycanlıların vətənə dönməmələri üçün təbliğat aparırdılar. Belə vəziyyətin davam etməsi Azərbaycan xalqı və rəhbərliyi üçün arzu edilən deyildi.

[7] ARSPİHDA, f. 1, siy. 63, iş 139, v. 76-78.

78

Азәрбајҹан ССР
Назирләр Совети јанында
Дөвләт Тәһлүкәсизлији
КОМИТӘСИ

КОМИТЕТ
ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ
при Совете Министров
Азербайджанской ССР

№ 10/378
г. Баку

9 апреля 1976 г.

[redacted]

Экз. № 1

Ознакомить членов бюро ЦК

тов. Мамедзаде Р.Г.
Пр. рассмотреть и внести на бюро предложения.

ЦК КП АЗЕРБАЙДЖАНА

20/IV 76.

КОНТРОЛЬ

По имеющимся у нас данным, в настоящее время за пределами Советского Союза проживает, примерно, свыше шести миллионов азербайджанцев, в том числе эмигрантов, невозвращенцев второй мировой войны и их детей. Большая часть азербайджанцев проживает в Иране (более пяти миллионов), Турции, Ираке, а также в некоторых западноевропейских странах и США.

В Турции проживает свыше пятисот тысяч наших соотечественников, среди них эмигрантов и невозвращенцев около 4-5 тысяч. Определенное положение в общественной жизни страны занимают азербайджанцы в Анкаре, Стамбуле и Измире – это врачи, коммерсанты, журналисты, чиновники госучреждений, представители научной и педагогической интеллигенции. Отдельные азербайджанцы являются депутатами и сенаторами турецкого парламента. В настоящее время в Турции существуют две эмигрантские организации – "Общество азербайджанской культуры", руководители которого при покровительстве правых партий и нынешнего правительства ведут открытую антисоветскую пропаганду, искажают положение в Советском Азербайджане, а также

ЦК КП Азербайджана
ВХ. № 277с 3 листы
19 IV 1976 г.



76

- 3.

части не имеют достаточной информации о жизни в Советском Азербайджане, о достижениях республики.

В целях усиления внешнеполитической пропаганды, расширения патриотической работы среди азербайджанцев, проживающих за пределами Советского Союза, укрепления контактов и культурных связей с соотечественниками за рубежом, доведения до них правдивой информации о советских людях по нашему мнению целесообразно: учредить в г.Баку Азербайджанское общество по культурным связям с соотечественниками за рубежом – Общество "Родина", как общественную республиканскую организацию на базе имеющегося при Азербайджанском обществе дружбы и культурной связи с зарубежными странами Отдела по культурным связям с соотечественниками за рубежом. На Общество "Родина" возложить задачи по расширению контактов и культурных связей с соотечественниками за рубежом и их организациями, выступающими за дружбу и сотрудничество с советским народом, а также по ознакомлению зарубежных соотечественников о успехах советского народа в строительстве коммунизма, достижениями социалистического строя, советским образом жизни.

Просим рассмотреть.

İraqda 500 min nəfər azərbaycanlı yaşayırdı. Onlar tarixi Azərbaycan torpaqlarında yaşayanlar və ya bir neçə əsr əvvəl Şimali və Cənubi Azərbaycandan köçənlər idi. İraq azərbaycanlıları ana dillərini, adət-ənənələrini qoruyub saxlamışdılar. Əsasən Türkiyənin təsiri altında olan və 60-cı illərin sonundan etibarən Azərbaycanla maraqlanmağa başlayan həmin azərbaycanlılar da elmi və mədəni əlaqələr qurmaq üçün münasib yollar axtarırdılar[8].

Xaricdə yaşayan həmvətənlər haqqında məlumat aldıqdan sonra H.Əliyev Vətən cəmiyyətinin yaradılması məqsədilə müvafiq strukturlara tapşırıqlar verdi. Moskva ilə danışıqlar aparılmağa başlandı. Xaricdə yaşayan həmvətənlərlə əlaqələr üzrə respublika cəmiyyətinin yaradılmasına dair məsələləri öyrənməkdən ötrü Azərbaycan KP MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdiri Ə.Cəbrayılov Sov.İKP MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdiri V.M.Çubarovla görüşdü. Məsələlərin müzakirəsi zamanı aydın oldu ki, şöbəni yaratmaq üçün Sov. İKP MK-nın razılığı alınmalıdır. Ə.Cəbrayılov məsələ barədə şöbənin arayışını 1976-cı il 21 iyun tarixdə iki səhifədən və bir nüsxədən ibarət olmaqla hazırlayaraq Azərbaycan KP MK-ya təqdim etdi[9]. Cəmiyyəti yaratmaqdan ötrü Sov. İKP MK-dan icazə almaq, Azərbaycan büdcəsi hesabına təşkilati məsələləri həll etmək lazım gəlirdi. MK-nın beynəlxalq əlaqələr şöbəsi cəmiyyətin yaradılması haqqında MK bürosunun qərar layihəsini və Vətən cəmiyyətinin təşkilati quruluşunun layihəsini işləyib hazırladı. Layihəyə görə cəmiyyətin ştat heyəti 11 nəfərdən ibarət olmalı idi[10]. Cəmiyyətin sədri ictimai əsaslarla işləməli, müavini 240 rubl, məsul katibi 180 rubl, baş referenti 140 rubl, 2 nəfər referentinin hər biri 120 rubl, mühasibi 90 rubl, katibə-makinaçısı 80 rubl, 2 nəfər xadiməsinin hər biri 70 rubl, sürücüsü 80 rubl maaş almalı idilər.

---

[8] Yenə orada, v. 75.
[9] Yenə orada, v. 81-82.
[10] Yenə orada, v. 80.



84

8150 15 июня 76

[redacted]

ЦК КПСС

В настоящее время за пределами Советского Союза проживают несколько миллионов азербайджанцев, в том числе свыше ста тысяч эмигрантов и их детей. Значительная часть эмигрантов находится в Турции, где существуют две эмигрантские организации: "Общество азербайджанской культуры", руководители которого при покровительстве правых сил ведут открытую антисоветскую пропаганду, а также "Общество взаимопомощи азербайджанцев", занимающееся в основном благотворительной деятельностью. Азербайджанцев, проживающих в Западной Европе (ФРГ, Франция, Швейцария) и в США, насчитывается несколько тысяч. Они также имеют свои организации, две из них действуют в ФРГ.

Успехи Советского Союза на международной арене, осуществление выработанной XXV съездом КПСС Программы дальнейшей борьбы за мир и международное сотрудничество, за свободу и независимость народов оказывает решающее влияние на рост самосознания среди различных групп населения во всех континентах земного шара, в том числе это относится и к лицам азербайджанской национальности, проживающим в капиталистических странах. Они стали больше контактироваться со своими родственниками в СССР путем переписки, туристских и частных поездок, больше проявлять стремление к духовному общению со своей Родиной.

Определенную работу среди эмигрантов проводит Азербайджанское республиканское общество дружбы и культурной связи с зарубежными странами. В 1975 году им был установлен контакт с руководителями обществ азербайджанских эмигрантов в ФРГ,

2. 83

Швейцарии и других странах. В адрес этих организаций регулярно высылается газета "Ветэнин сеси" ("Голос Родины"), различная информационно-пропагандистская и художественная литература, кинофильмы, грампластинки. Однако указанные мероприятия не могут охватить всех сторон работы с эмиграцией, так как в современных условиях требуется осуществлять их во всем комплексе и целенаправленно.

В целях усиления внешнеполитической пропаганды и патриотического движения среди соотечественников за рубежом, использования возможностей прогрессивных эмигрантских организаций и отдельных эмигрантов в разоблачении враждебных действий антисоветской эмиграции, распространения правдивой информации о жизни Советского Азербайджана считали бы целесообразным учредить в г.Баку республиканскую общественную организацию – общество "Родина". На общество "Родина" возложить задачи по расширению контактов и культурных связей с соотечественниками за рубежом и их организациями, выступающими за дружбу и сотрудничество с советским народом, а также по ознакомлению зарубежных соотечественников с успехами советского народа в строительстве коммунизма, достижениями советского строя.

Расходы, связанные с созданием названного общества можно было бы отнести за счет бюджета Азербайджанской ССР.

Просим рассмотреть.

Секретарь ЦК КП Азербайджана [signature] Г.Алиев



Qeyd etmək lazımdır ki, bu zaman Ukrayna, Litva, Latviya, Estoniya, Belorusiya, Qazaxıstan, Özbəkistan, Ermənistan və Gürcüstanda, hətta Kabarda-Balkariya muxtar respublikasında müvafiq cəmiyyət fəaliyyət göstərirdi. Bütövlükdə, xarici ölkələrdə yaşayan sovet xalqlarının nümayəndələrinin sayı 70-ci illərdə təxminən aşağıdakı kimi idi: ukraynlar 2,5 mln., ruslar 1,5 mln., ermənilər 1,5 mln., litvalılar 850 min, beloruslar 700 min, çərkəzlər 500 min, özbəklər 400 min, latışlar 120 min, estonlar 100 min, gürçülər 10 min (1 mln. laz nəzərə alınmadan). MK-nın beynəlxalq əlaqələr şöbəsinin arayışında mühacir azərbaycanlıların cayı 100 min nəfərdən çox göstərilirdi. Görünür, Ə.Cəbrayılov bu rəqəmi gostərməklə əsasən Avropa və Amerika qitəsində yaşayan azərbaycanlıları nəzərdə tuturdu. Sovet mühacirətinin ən çox cəmləşdiyi ölkələr ABŞ (3 mln.), Kanada (1 mln.-dan çox), Fransa (200 min), Avstraliya (200 min) və b. idi.

H.Əliyev Sov. İKP MK-dan icazə almaq, Azərbaycan büdcəsi hesabına təşkilati məsələləri həll etməyə girişdi. Onun imzası ilə Sov. İKP MK-ya 1976-cı il iyul ayının 15-də 315№-li məxfi məktub göndərildi[11]. Məktubda deyilirdi ki, hazırda SSRI hüdudlarından kənarda bir neçə milyon azərbaycanlı, 100 mindən çox mühacir və onların övladları yaşayır. Məktubda daha sonra xaricdəki azərbaycanlıların təşkilatları barədə məlumat verilərək qeyd olunurdu ki, son illərdə azərbaycanlılar yazışmalar, turist səfərləri və şəxsi səfərləri vasitəsilə vətənlə əlaqə saxlayıb mənəvi ünsiyyətə girirlər. H.Əliyev məktubda xaricdəki azərbaycanlı mühacir təşkilatları ilə əlaqələrə toxunaraq AFR, İsveçrə və başqa ölkələrdəki müvafiq qurumlara «Vətənin səsi» qəzetinin, müxtəlif məlumat-təbliğat materiallarının, bədii ədəbiyyatın, kinofilmlərin və plastinkaların göndərildiyini qeyd edirdi. Cəmiyyətin xətti ilə AFR, İsveçrə, Türkiyə, Fransa və b. ölkələrdə yaşayan azərbaycanlıların cəmiyyətlərinə müxtəlif ədəbiyyat,

[11] Yenə orada, v. 83-84.

[redacted] 82

**ЦК КП Азербайджана**

**По поводу записки т.Красильникова В.С. об учреждении в г.Баку республиканской общественной организации по связям с соотечественниками за рубежом.**

Тов.Красильников В.С. обратился в ЦК Компартии Азербайджана с предложением об учреждении в Баку республиканской общественной организации по связям с соотечественниками за рубежом – Общества "Родина".

Азербайджанскую эмиграцию исторически можно разбить на три категории: лица, бежавшие за границу после установления Советской власти в Азербайджане; лица, выдворенные в Иран из Азербайджанской ССР в 30-е годы как иранопoданные, и так называемые "перемещенные" лица – невозвращенцы периода второй мировой войны. По своей политической ориентации значительная часть этой эмиграции настроена прогрессивно и испытывает потребность духовного общения со своей Родиной.

Созданный в I974 году при Азербайджанском обществе дружбы и культурной связи с зарубежными странами Отдел по связям с соотечественниками за рубежом, поддерживает контакты с соотечественниками, приглашает их посетить Советский Азербайджан, направляет в их адрес различную информационно-пропагандистскую литературу, газету "Голос Родины". Однако в указанном Отделе работают всего три человека, Отдел при союзном Обществе "Родина" не зарегистрирован, его представители не были даже приглашены на учредительную конференцию Общества, которая проводилась в Москве в декабре I975 года. Возможности Отдела сдерживаются еще и потому, что он не имеет своей самостоятельности и общественного статуса, своих бланков и делопроизводства, решает все вопросы через посредство Общества дружбы, которое, как известно, имеет свои конкретные цели и задачи.

ЦК КП Азербайджана
Вх. № 277с на 3 листах
22 VI 1976 г.
[illegible]



2. 81

С учетом консультаций, которые мы имели в Международном отделе ЦК КПСС (т.Чубаров В.М.), считали бы целесообразным поддержать предложение т.Красильникова и учредить в г.Баку республиканскую общественную организацию – Общество "Родина". Для осуществления этого необходимо:

– Получить согласие ЦК КПСС;

– Расходы, связанные с созданием и работой организации, отнести за счет бюджета Азербайджанской ССР;

На рассмотрение ЦК КП Азербайджана вносится соответствующий проект постановления.

Докладываем для сведения, что в настоящее время республиканские отделения Общества "Родина" созданы на Украине, Белоруссии, Казахстане, Узбекистане, Армении, Грузии, Латвии, Литве, Эстонии, а также в Кабардино-Балкарской автономной республике. Из общего числа эмиграции лица украинского происхождения составляют более 2,5 млн., русской национальности – около I,5 млн., армян – I,5 млн., литовцев – 850 тыс., белорусов – 700 тыс., черкесов – 500 тыс., узбеков – 400 тыс., латышей – I20 тыс., азербайджанцев – более I00 тыс., эстонцев – I00 тыс., грузин– I0 тысяч (без лазов, которых насчитывается более I млн.). Странами наибольшего сосредоточения эмиграции являются США (3 млн.) Канада (более I млн.), Франция (200 тыс.), Австралия (200 тыс.) и др.

22.VI.76г.

Э.Джебраилов
21/VI.76г.

отп.I экз.
мв

80

ПРИМЕРНОЕ ШТАТНОЕ РАСПИСАНИЕ

Азербайджанского отделения Общества по культурным связям с соотечественниками за рубежом (Общество "Родина").

| | |
|---|---|
| Председатель (на общественных началах) | - |
| Заместитель председателя | - 240 руб. |
| Ответственный секретарь | - 180 руб. |
| Старший референт | - 140 руб. |
| референт | - 120 руб. |
| референт | - 120 руб. |
| Бухгалтер | - 90 руб. |
| Секретарь-машинистка | - 80 руб. |
| 2 уборщицы | по 70 руб. |
| Шофер | - 80 руб. |

II человек



qrammafon valları, konofilmlər, milli tətbiqi incəsənət nümunələri, bədii özfəaliyyət kollektivləri üçün milli kostyumlar və s. göndərilirdi[12]. H.Əliyev aydın şəkildə göstərirdi: «Lakin bu tədbirlər mühacirətlə işin bütün tərəflərini əhatə edə bilməz, çünki müasir şəraitdə onları bütün kompleksi ilə və məqsədəuyğun həyata keçirmək tələb olunur». Məktubda daha sonra deyilirdi ki, xarici ölkələrdəki həmvətənlər arasında xarici siyasətin təbliği və vətənpərvərlik hərəkatını yüksəltmək məqsədilə mütərəqqi mühacir təşkilatlarının və ayrı-ayrı mühacirlərin imkanlarından istifadə edərək sovet Azərbaycanının həyatı haqqında həqiqi informasiyanı yaymaqdan ötrü Bakıda Vətən cəmiyyətinin yaradılması məqsədəuyğun olardı. H.Əliyevin mövqeyinə görə Vətən cəmiyyətinin əsas vəzifəsi xaricdə yaşayan həmvətənlərlə, onların sovet xalqı ilə dostluq və əməkdaşlığa tərəfdar olan təşkilatları ilə əlaqə saxlamaq, xaricdəki həmvətənləri sovet quruluşunun uğurlarıyla tanış etmək olmalı idi. Cəmiyyətin yaradılması üçün bütün xərclərin Azərbaycan SSR büdcəsindən ödənilməsi nəzərdə tutulmuşdu.

H.Əliyev müvafiq məsələyə baxılmasını Sov. İKP MK-dan xahiş etdi. Amma Vətən cəmiyyətinin yaradılması işinə Sov. İKP MK-da mane olan bir sıra qüvvələr fəaliyyət göstərirdilər. Məsələn, SSRİ xarici işlər naziri A.A.Qromiko Azərbaycanda belə bir cəmiyyətin yaradılmasının əleyhinə çıxırdı. Göstərirdi ki, Azərbaycanda Vətən cəmiyyəti yaradılarsa, İran hökuməti bunu Cənubi Azərbaycana olan iddia kimi qəbul edər, SSRİ-İran münasibətlərinə xələl gələr.

H.Əliyev isə bildirirdi ki, Vətən cəmiyyəti öz torpağı və vətənində yaşamayan azərbaycanlılarla əlaqə quracaq, işləyəcək. Əslində bu mövqeyi ilə H.Əliyev Cənubi Azərbaycana dair baxışlarını ortaya qoyur, onu ümumi vətənin, ana torpağın, Bütöv Azərbaycanın bir hissəsi hesab edirdi.

---

[12] ARSPİHDA, f. 1, siy. 65, iş 176, v. 13.

Принято 5 октября 1976 г. прот. № 20 § 5 5-н

# ПОСТАНОВЛЕНИЕ

## БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

**О мерах по улучшению работы Азербайджанского общества дружбы и культурной связи с зарубежными странами**

(Идрисов, Хаджиев, Козлов, Ибрагимов Ф., Крашенинников, ИАК, Гусейнов, Алиев Т.)

ЦК КП Азербайджана отмечает, что республиканское Общество дружбы и культурной связи с зарубежными странами проводит определенную работу по ознакомлению общественности зарубежных стран с внутренней и внешней политикой КПСС и Советского государства, успехами советского народа в области экономики и культуры, создания материально-технической базы коммунизма. Большое внимание уделяется пропаганде достижений Азербайджанской ССР, рассказу о преимуществах советского образа жизни, социалистической демократии, торжестве ленинской национальной политики КПСС.

Общество поддерживает связи с 354 организациями и многими видными общественными деятелями 75 стран мира. В 1975 году в их адрес направлено около 100 тысяч экземпляров книг, журналов, проспектов и других информационно-пропагандистских материалов, сотни грампластинок с записями азербайджанской музыки, кино- и телефильмы, фотовыставки и фотоподборки, работы азербайджанских живописцев и графиков.

С большим успехом прошли организованные Обществом во Франции, Дании, Португалии и Бельгии Дни Советского Союза на примере Азербайджанской ССР, Дни итальянской культуры в Азербайджане. Оживилась работа Дома дружбы, восстановлена периодичность информационного бюллетеня "Советский Азербайджан сегодня".

Вместе с тем в работе Азербайджанского общества дружбы и культурной связи с зарубежными странами имеются и существенные недостатки. Не всегда еще на должном уровне проводятся массово-политические мероприятия, не полностью удовлетворяются запросы советских представительств за рубежом на различные выставки, рекламно-информационные материалы. Дальнейшего





прогрессивных представителей науки и культуры Турции из числа соотечественников для ознакомления их с достижениями азербайджанского народа за годы Советской власти. Добиваться усиления влияния на деятельность азербайджанских эмигрантских организаций и их руководителей с целью снижения и ограничения их антисоветской направленности. Подготовить и выпустить в 1976-1980 г.г. для направления в советские посольства и культурные центры ССОД за рубежом, где имеется компактное население азербайджанской национальности:

а) адаптированную литературу и дискотеки с записями азербайджанских народных сказок;

б) учебники азербайджанского языка, словари, сборники диктантов и другие методические и наглядные пособия для изучения азербайджанского языка.

Подготовку материалов возложить на Общество дружбы, Министерство просвещения и Академию наук республики, издание - на Госкомиздат Азербайджанской ССР.

6. Гостелерадио совместно с Обществом дружбы и культурной связи с зарубежными странами регулярно готовить программы радиовещания для передачи за рубеж, рассказывающие об успехах азербайджанского народа в братской семье советских народов, преимуществах социалистического строя, советской демократии. Повысить идеологический уровень и политическую заостренность передач, предназначенных для соотечественников за рубежом, сделать их более доходчивыми и убедительными.

7. Азеринформу, редакциям республиканских газет, Гостелерадио республики широко освещать зарубежные связи республики. Ввести в программу телевидения регулярную рубрику "Международные связи Азербайджана".

8. Госплану республики, Союзу журналистов Азербайджанской ССР, Азербайджанскому обществу дружбы и культурной связи с зарубежными странами в двухмесячный срок изучить и внести на рассмотрение Совета Министров республики предложение о создании в Баку фотокомбината на хозрасчетных началах для подготовки различных выставок, диапозитивов, изданий на иностранных языках

Bununla belə, Moskva Azərbaycanda belə bir cəmiyyətin qurulmasında maraqlı deyildi. Əslində bu məsələdə SSRİ XİN ilə SSRİ DTK-sı arasında fikir ayrılığı hökm sürürdü. Belə şəraitdə DTK-nın mövqeyi Azərbaycan xalqının maraqlarına daha çox uyğun gəlirdi.

Bütün müqavimətlərə baxmayaraq, H.Əliyev bu sahədə fəaliyyətini genişləndirərək xaricdəki həmvətənlərlə əlaqələrin qurulması işinə daha sistemli, miqyaslı və mükəmməl yanaşmasını davam etdirirdi. O, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin istiqamətlərini müəyyənləşdirir və həyata keçirmək üçün müvafiq göstərişlər verirdi. Həmin istiqamətlər əsasən aşağıdakı kimi müəyyənləşdirilmişdi: xaricdə yaşayan azərbaycanlıların vətənə dəvət edilməsi; onlara müxtəlif kitab, qəzet, jurnal, kasset və b. göndərilməsi; xaricdəki həmvətənlərin ana dilini unutmamaları üçün Azərbaycanda radio verilişlərinin artırılması və s.

Moskvanın Azərbaycanda Vətən cəminyyətinin yaradılmasına etiraz etməsinə baxmayaraq, H.Əliyev bu sahədə fəaliyyətini dayandırmadı. Onun sədrliyi ilə keçirilən Azərbaycan KP MK bürosunun 1976-cı il 5 oktyabr tarixli iclasında xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin işini yaxşılaşdırmaq tədbirləri haqqında qəbul edilən qərarın 5-ci bəndində deyilirdi: «Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti xaricdəki həmvətənlərlə aparılan işi canlandırsın. Türkiyədə yaşayan mütərəqqi həmvətənlərin sırasından elm və mədəniyyət xadimlərinin SSRİ-yə dəvət olunması və onların sovet hakimiyyəti illərində Azərbaycan xalqının nailiyyətləri ilə tanış edilməsi praktikasını tətbiq etmək. Azərbaycan mühacirət təşkilatları və rəhbərlərinin fəaliyyətinə... təsirin güclənməsinə nail olmaq. Azərbaycan millətinin kompakt əhalisinin olduğu ölkələrdəki sovet səfirliklərinə, dostluq və mədəni əlaqələr cəmiyyətinin mədəniyyət mərkəzlərinə 1976-1980-cı illərdə göndərmək üçün hazırlansın və buraxılsın: a) uyğunlaşdırılmış ədəbiyyat və Azərbaycan xalq nağılları yazılmış disklər; b) Azərbaycan dilini öyrənmək üçün Azərbaycan dilində dərsliklər, lüğətlər, imla məcmuələri və digər əyani vəsaitlər. Materialların hazırlanması Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinə, Maarif Nazirliyinə və respublika Elmlər Akademiyasına, nəşri isə Azərbaycan SSR Dövlətnəşrkoma tapşırılsın»[13].

Bu qərar xaricdə yaşayan həmvətənlərlə əlaqələrin sistemli qurulması məqsədilə atılan böyük tarixi addım kimi əhəmiyyətli idi. Qərarın yerinə yetirilməsinə başlanıldı. Xaricdəki azərbaycanlı cəmiyyətlərinə materialların, qrammafon vallarının, bukletlərin, kinofilmlərin göndərilməsi çoxaldı. Bundan sonra xaricdə yaşayan azərbaycanlılar vətənə daha çox dəvət edilməyə başlandı. İdeoloji fərqlərə baxmayaraq, Azərbaycana gələnlərə hər cür qayğı göstərilirdi. Bu isə onlarda Azərbaycana olan rəğbəti və məhəbbəti daha da artırır, antisovet əhval-ruhiyyənin aşağı düşməsinə kömək edirdi. Belə vəziyyət xaricdə yaşayan həmvətənlər tərəfindən rəğbətlə qarşılanır, Azərbaycana və rəhbərinə olan hörməti artırırdı. Məsələn, AFR-in Münhen şəhərində yaşayan Əhməd Şmidenin 1977-ci il sentyabr ayının 15-də H.Əliyevə yazdığı məktub Azərbaycan rəhbərinin xaricdəki azərbaycanlılarla əlaqələrin qurulmasına verdiyi diqqətin mahiyyətini açır. O bir qədər əvvəl H.Əliyevdən Azərbaycana gəlməkdən ötrü xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin xəttilə dəvət göndərilməsini xahiş etmişdi. Şmide eyni zamanda Azərbaycan dilindən alman dilinə çevirdiyi «Azərbaycan xalq nağılları»nı da respublika rəhbərinə hədiyyə olaraq göndərmişdi. Ə.Şmide məktubunda açıq-aşkar yazırdı ki, ideoloji fərqlərə baxmayaraq, H.Əliyevə böyük etimadı var. Eyni zamanda bildirirdi ki, kommunist deyil, müsəlmandır. Şmide özünün yazdığı kimi, dünyagörüş fərqlərinə baxmayaraq, hamının səadətinin əmin-

---

[13] ARSPİHDA, f. 1, siy. 63, iş 86, pr. № 20, § 5, v. 13-18.

amanlıqda olduğunu görur[14]. Bu məktubdan sonra H.Əliyevin göstərişi əsasında Əhməd Şmide Azərbaycana dəvət olundu və səfərinin gedişində ona hər cür qayğı göstərildi. O, Azərbaycanın tarixi yerlərinə səyahət etdi, görkəmli elm, mədəniyyət, incəsənət adamları ilə görüşdü, azərbaycanlıların həyatı ilə yaxından tanış oldu. Almaniyaya döndükdən sonra Ə.Şmide Azərbaycan tarixi və mədəniyyəti haqqında dəyərli məqalələr yazdı. O, Azərbaycan rəhbərini geniş dünyagörüşlü, mütərəqqi, milli ruhlu, mədəni inkişafa xüsusi diqqət verən şəxs kimi dəyərləndirir, həyata keçirdiyi tədbirlərdən şövqlə bəhs edirdi.

Qeyd etmək lazımdır ki, MK-nın yuxarıda göstərilən qərarından sonra təkcə 1979-cu ildə AFR, ABŞ, Türkiyə, Fransa və ABŞ-da yaşayan 16 nəfər azərbaycanlı Azərbaycana səfər etdi[15]. Onlar qohumları ilə görüşür, ailələrə qonaq gedir, tarixi abidələrlə tanış olur, müxtəlif səviyyəli görüşlər keçirirdilər.

1980-ci ildə İsveçrə və AFR-də fəaliyyət göstərən azərbaycanlıların cəmiyyətlərinə, Türkiyə, Fransa və b. ölkələrdəki azərbaycanlılara «Vətənin səsi» qəzetindən 3500 nüsxə, «Sovet Azərbaycanı bu gün» bülleteninin 6300 nüsxəsi Azərbaycan, rus və türk dillərində göndərildi[16].

Azərbaycan SSR DTK sədrinin müavini Q. Yusifzadənin Azərbaycan KP MK-ya yazdığı «Ayrı-ayrı düşmən antisovet və dini mərkəzlərin Azərbaycan SSR-ə qarşı təxribatçılıq fəaliyyəti haqqında» 7 səhifəlik tam məxfi arayışda geniş məsələlər şərh edilir, göstərilirdi ki, ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi Azadlıq radiostansiyası vasitəsi ilə zərərli siyasi təsir edir, Azərbaycan dilində gün ərzində 4 dəfə verilişlər verir, qeyri-leqal qrupların yaradılmasını təbliğ edir. Radio verilişlərində dini mövzulara da geniş yer ayırırdı. Qeyd edilirdi ki, Türkiyədə yaşayan azərbaycanlılar Azərbaycanla

---

[14] ARSPİHDA, f. 1, siy. 64, iş 163, v. 161-162.
[15] ARSPİHDA, f. 1, siy. 67, iş 185, v. 52.
[16] ARSPİHDA, f. 1, siy. 68, iş 369, v. 19.



вз-I

[redacted] 15
Экз.№ I

**С П Р А В К А**

о подрывной деятельности против Азербайджанской ССР со стороны отдельных враждебных антисоветских и религиозных центров

В условиях обострения идеологической борьбы империализм стремится подорвать и ослабить социалистические страны путем идеологического разоружения их граждан, оказания на них враждебного политического влияния. Среди многочисленных зарубежных антисоветских центров и организаций, специализирующихся на проведении акций идеологической диверсии против СССР ведущее место занимает один из органов Центрального разведывательного Управления США "Комитет радио "Свобода", который был создан в США в начале 1961 г. в период разгара холодной войны и имел первоначальное название "Американский Комитет освобождения от большевизма".

Наиболее враждебные против СССР передачи в системе "КРС" ведет созданная в 1953 г. американцами радиостанция "Освобождение", а затем переименованная в "Свобода", расположенная в г.Мюнхене (ФРГ). По замыслу противника "Свобода" должна заниматься пропагандой, которая была бы прямо направлена на активное вмешательство во внутренние дела Советского Союза, и осуществлением идеологической диверсии против СССР. Главное при этом - поиск среди советских людей политически заблуждающихся и враждебных элементов, склонение их к созданию нелегальных антиобщественных и антисоветских групп и организаций с целью создания "оппозиции".

В настоящее время антисоветское вещание через р/с "Свобода" осуществляется на 22 языках народов СССР, в т.ч. на азербайджанском. Программы на азербайджанском языке составляются ее азербайджанской редакцией и передаются 4 раза в сутки на различных волнах (с 6 до 6.30 и с 7.30-8.00 утра на коротких волнах 25, 31, 41; с 10.00 до 11.00 и с 1.00 до 2.00 ночи на коротких волнах 19, 25, 31 метров).

151

Кадры национальной редакции в основном укомплектованы из числа изменников Родины периода второй мировой войны и укрепляются за счет выходцев из СССР по различным политическим мотивам. С помощью этих лиц через р/с "Свобода" передаются комментарии, сообщения о решениях и постановлениях ЦК КПСС и Советского правительства, смысл и значение которых явно извращаются, подвергаются тщательному ревизионизму почти все партийно-политические мероприятия, проводимые в республике. В подготовленных передачах берется под сомнение успехи Азербайджана за годы Советской власти, выполнение народно-хозяйственных планов, улучшение благосостояния народов, культурное обслуживание населения и т.д.

Особой враждебностью отличались передачи в период подготовки к Белградской встрече, 60-летия установления Советской власти, принятия новой Конституции СССР.

Много передач посвящается азербайджанской редакцией "Свобода" религиозным темам, в которых они стараются развивать у молодежи догмы ислама, критикуя при этом политику атеизма в СССР. В этих передачах явно чувствуется стремление отвлечь внимание молодежи от научно-политических принципов марксизма-ленинизма и привлечь ее к пустым по своему содержанию принципам ислама.

О враждебных передачах на азербайджанском языке радиостанций, расположенных на территории Турции и Ирана, не располагаем.

Однако, исходя из большого сходства турецкого и азербайджанского языков, а также наличия в республике многотысячной иранской колонии, нами принимаются меры по нейтрализации негативных явлений, возможно возникающих под их влиянием.

Известно, что в некоторых капиталистических странах, в частности, в Турции, проживает значительное количество азербайджанцев, оказавшихся там по различным причинам. Анализ поступивших материалов в отношении азербайджанцев свидетельствует о том, что отдельные антисоветски настроенные главари и их приспешники предпринимали попытки к созданию в стране проживания различного рода антисоветских обществ и организаций. Наиболее враждебно настроенным к СССР и питающимся объединить в своих рядах всех азербайджанцев, проживающих в Турции, является "Общество азербайджанской культуры", с центром в г.Анкаре,





которое открыто призывает всех тюркоязычных народов, проживающих на территории Советского Союза, в частности, азербайджанцев, на вооруженную борьбу против русских.

"Общество"имеет свой печатный орган - журнал "Азербайджан", в котором публикуются антисоветские статьи, извращающие положение, жизнь трудящихся в Советском Азербайджане, утверждающие наличие в республике "сопротивления", предсказывающие "близкий конец владычеству русского империализма".

Отмечаются факты засылки в адреса отдельных научных учреждений, библиотек, а также ученых литературы антисоветского, националистического, пантюркистского и панисламистского характера. На проходивших в Турции международных конгрессах ученых, а также в период гастрольных поездок представителей азербайджанской культуры, со стороны спецслужб и представителей эмиграции неоднократно отмечались попытки обработки советских граждан в антисоветском, националистическом духе, склонению к невозвращению на Родину.

В настоящее время под влиянием роста международного авторитета Советского Союза, тенденции к улучшению Советско-Турецких отношений, большинство азербайджанцев, проживающих в Турции, стало проявлять интерес к нашей стране, у которых появились признаки роста патриотического самосознания, нежелание участвовать в антисоветской деятельности. В этих условиях реакционное руководство "Общества" ищет какие-то условия для своего "утверждения", пытается удержать наиболее отсталых и колеблющихся соотечественников под своим влиянием.

Имеющиеся материалы также свидетельствуют о том, что противник, используя реакционных лидеров некоторых арабских и афроазиатских государств, предпринимают активные меры по укреплению и распространению исламской религии в странах этого региона, возведению ислама в ранг государственной религии, а принципы мусульманского права - в основу законодательства. При этом ислам рассматривается реальной силой, способной противостоять влиянию коммунистической идеологии, принципам научного социализма, ослабить национально освободительное движение, продлить существование прогнивших государственных режимов. Этой работе делаются попытки придать антисоветскую и антикоммунистическую направленность. В целях протаскивания идей панисламизма про-

регулярному проведению лекций о деятельности исламских центров и враждебно настроенных духовников, мулл-самозванцев, усилить политико-воспитательную работу среди молодежи, школьников, особенно в период отправления религиозных обрядов "магеррам" и "ураза".

Комитет государственной безопасности проводит определенную работу по локализации подрывной деятельности указанных выше центров и организаций на каналах радиопропаганды, научного, культурного и молодежного обмена.

рег.№ 430



143

СЕКРЕТНО
Экз.№ 2

18/11.1982 г. 10/1493 29/XII

ЦК КП АЗЕРБАЙДЖАНА

К № 10/1136 от 30.IX.1982 г.

Турецкий журналист Ирфан Унвер Насреттиноглу, который находился в Баку с 28 мая по 3 июня с.г. вместе со своим коллегой Гюнером Сезеном, недавно издавшим в Турции книгу "Азербайджан", в свою очередь опубликовал в двенадцати своих номерах за сентябрь и октябрь месяц в измирской газете "Анадолу" серию репортажей, о своем пребывании в нашей республике под общим заголовком "Азербайджан-82" (прилагаются).

И.Унвер (Насреттиноглу – это его литературный псевдоним) впервые посетил Советский Союз, поэтому свой репортаж он начинает словами:

"Москва...Азербайджан...Советский Союз... Смысл этих слов ассоциировался с загадочными чувствами и мыслями. Я прочитал о нашем соседнем соседе Советском Союзе, о его столице Москве и об Азербайджане множество статей, брошюр и книг. Однако все, что мы читали о стране Советов не дает возможность прийти к какому-либо окончательному выводу, т.к. эти публикации и сведения в них постоянно противоречили друг другу. Лучше всего было найти возможность поехать в эту страну и самому сделать вывод. И мне была предоставлена такая возможность Союзом журналистов Азербайджана".

Далее автор репортажей описывает путь до Москвы, а затем до Баку, о людях, с которыми он встречался в Советском Азербайджане, о его успехах в различных областях народного хозяйства, науки и культуры, о своих визитах на предприятиях, в колхозах, в высших учебных заведениях, музеях и театрах.

149

Репортажи И.Уикера – это не только наблюдения объективного человека об увиденном. В них он дает исторические сведения о путях развития советской республики, на ее примере показывает грандиозные достижения и подвиг всего советского народа, рассказывает о его интернациональной дружбе, миролюбии, гостеприимстве, трудолюбии и искреннем желании поддерживать связи со всеми странами. Много места в репортажах уделено повествованию о встречах с деятелями культуры и искусства, такими, как [illegible], Н.Бадалбейли, [illegible] Бадалбейли, Н.Гаджибеков, Н.Хазри, Анар, Р.Бабаев и другими. В этих повествованиях он с увлечением подчеркивает то большое внимание, какое уделяется в советской стране развитию национального творчества, преемственности поколений, воспитанию молодежи. С особой теплотой И.Уикер рассказывает об азербайджанских актерах.

Называя себя азербайджанцем и будучи женатым на азербайджанке, автор репортажей не скрывает, что гордится достижениями Советского Азербайджана и сравнивая его с Южным Азербайджаном, горестно восклицает о том, что в отличие от Советского Союза в Иране противостоят развитию самобытности этого народа, его языка, культуры и литературы. Следует отметить, что в других номерах газеты "Анкоду", а также в ежемесячной антологии поэзии, издаваемой в Турции, Уикер поместил ряд стихотворений азербайджанских поэтов, которые он получил в Баку (прилагаются).

Большим уважением во всех слоях населения республики, пишет в репортаже И.Уикер, пользуется ее лидер тов.Алиев Г.А., "[illegible] Первый человек Азербайджана". В одном из номеров газеты опубликована фотография тов.Алиева Г.А.

Репортажи И.Уикера [illegible] иллюстрируются множеством фотоснимков, сделанных им самим и переданных ему советскими представителями, о которых он [illegible] в нашей республике.

Завершается репортаж словами "Всей душой я страстно желаю, чтобы в дальнейшем будущем я [illegible] в Турции группы туристов из Азербайджана и чтобы все турецкие граждане могли, когда она этого пожелают, свободно ездить в Азербайджан и даже по всему Советскому Союзу. Вероятно, что такие поездки будут возможны тогда, когда будет установлена дружба между нашими странами, основанная на взаимной выгоде и уважении."



yaxından maraqlanmağa başlamışlar, onlar respublikada qazanılan uğurlara sevinirlər[17]. Həqiqətən də xarici ölkələrdə yaşayan azərbaycanlılar respublikada milli mədəniyyətin, milli-mənəvi dəyərlərin inkişafına, xalqın zəngin tarixi keçmişinin öyrənilməsinə H.Əliyevin verdiyi diqqətdən və bu sahədə qazanılan müvəffəqiyyətlərdən məmnun olurdular. Türkiyədə yaşayan azərbaycanlılar Azərbaycan rəhbərinin karyerada qazandığı uğurlara səmimi qəlbdən sevinirdilər. Məsələn, 1979-cu il oktyabr ayının 25-də Türkiyədən H.Əliyevin ünvanına göndərilən məktubda Sosialist Əməyi Qəhrəmanı fəxri adı alması münasibətilə təbrik edilir, türk mətbuatında bu barədə yazılar verildiyi, azərbaycanlıların həmin hadisədən qürur duyduğu göstərilirdi[18].

Türkiyəyə elmi konfransa gedən alimlərin və konsertlər verən müğənnilərin vətənə qayıtmamalarına cəhdlərin edilməsi çoxlu çətinliklər yaradırdı. H.Əliyev Türkiyədə fəaliyyət göstərən «Azərbaycan kültür dərnəyi»nin açıq antisovet fəaliyyət göstərməsini arzulamırdı. Çünki bu dərnəyin nəşr etdiyi «Azərbaycan» jurnalında Sovet İttifaqının bütün türkdilli xalqlarının ruslara qarşı silahlı üsyana çağırılması, rus imperializminin sonunun çatacağının fəal surətdə təbliğ olunması Moskvanı şübhələndirir, bundan sonra Azərbaycana münasibət daha da sərtləşdirilir, nəticədə milli ruhlu ziyalıları rejimin fəsadlarından qorumaq çətinləşirdi.

Bununla belə, həmin dövrdə Türkiyə və İran ərazisində qatı antisovet radiostansiyalar fəaliyyət göstərmirdi. Azərbaycan rəhbərliyi mühacirətlə işləməklə qatı antisovet təzahürləri yumşaltmağa, sovet sistemi şəraitində qazanılan uğurları təbliğ etməyə çalışırdı.

H.Əliyev xaricdə yaşayan azərbaycanlıların vətən haqqında doğru məlumat almaları, antisovet meylləri zəiflətmək məqsədilə radio verilişlərinin yayılması üçün səylər edirdi. Qeyd etmək lazımdır ki, xaricdə yaşayan azərbaycanlılar

[17] ARSPİHDA, f. 1, siy. 66, iş 168, v. 9-15.
[18] ARSPİHDA, f. 1, siy. 66, iş 208, v. 169.

üçün Moskvadan iki ayda bir dəfə ana dilində verilişlər yayımlansa da, 1970-ci ildə nədənsə mərkəzi hökumət bunu dayandırmışdı. Belə vəziyyətdən xəbər tutan H.Əliyev etiraz edərək məktub yazıb məsələni qətiyyətlə həll etdi. Onun təkidi ilə həmin verilişlərin yayımlanması mərkəzi Bakıya keçirildi. Bundan sonra Azərbaycan radiosu ilə xarici ölkələrə ana dilində verilişlər yayımlanmağa başlandı[19].

H.Əliyevin xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurulması məsələsinə münasibəti daha geniş və əhatəli idi. O, xaricdəki azərbaycanlıları şimallılara və cənublulara ayırmır, onlara eyni münasibət bəsləyir, nəinki mənəvi, bəzilərinə isə hətta maddi yardımlar edilməsi üçün göstərişlər verirdi. Məsələn, 1975-ci ildə Qərbi Avropa ölkələrində təhsil alan cənubi azərbaycanlıların bir qisminə maddi yardımlar edilmişdi[20]. Heç şübhəsiz, bu yardımlar dövlətin ümumi siyasi məqsədlərinə xidmət etsə də, eyni zamanda xarici ölkələrdə Azərbaycan diasporunun yaradılmasına, Azərbaycan haqqında xoşməramlı məlumatların yayılmasına yönəlmişdi.

Ümumiyyətlə, H.Əliyev xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulmasına, Azərbaycanın beynəlxalq əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirir, məsələ barədə Sov. İKP MK-ya müraciətlər edirdi. Bu məsələdə o, hətta bəzən partiyanın respublika daxilində təbliğat və təşviqat işini Azərbaycanın beynəlxalq əlaqələrindən arxa plana keçirirdi. Məsələn, H.Əliyev Sov. İKP MK-nın İşlər İdarəsinə 1975-ci il 13 noyabr tarixli 504 №-li məxfi məktubunda yazırdı ki, 482-2774 №-li VÇ əlaqə aparatı Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsindən alınıb «işin xarakterinə görə daha zəruri» olaraq beynəlxalq

[19] ARSPİHDA, f. 1, siy. 64, iş 163, v. 180.
[20] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v. 112.



əlaqələr şöbəsinə verilsin[21]. Bu istək Moskva tərəfindən yerinə yetirildi.

H.Əliyev Moskvaya işləməyə getdikdən sonra da Vətən cəmiyyətinin yaradılması istiqamətində fəaliyyətini dayandırmadı. Bilavasitə onun köməyi sayəsində 80-ci illərin ortalarında Azərbaycanda Vətən cəmiyyəti yaradıldı.

* * *

Beləliklə, H.Əliyevin xarici ölkələrdə yaşayan həmvətənlərlə əlaqələrə verdiyi diqqətin öyrənilməsindən aşağıdakı ümumiləşdirilmiş nəticələr çıxarmaq olar:

- xaricdə yaşayan həmvətənlərlə sistemli əlaqələrin qurulması və həyata keçirilməsində rəhbər təşkilatçılıq bilavasitə H.Əliyevə məxsus olub;
- xarici ölkələrdə yaşayan azərbaycanlıların sayının müəyyənləşdirilməsi və mühacirət tarixi barədə müfəssəl arayışın hazırlanmasına dair göstərişi H.Əliyev verib;
- H.Əliyevin təşəbbüsü ilə Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin nəzdində xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradıldı;
- xaricdə yaşayan həmvətənlərlə əlaqələr üzrə Vətən cəmiyyətinin yaradılması istiqamətində H.Əliyev məqsədyönlü fəaliyyət göstərirdi;
- Azərbaycan rəhbəri xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulmasının istiqamətlərini müəyyənləşdirir və müvafiq göstərişlər verirdi;
- H.Əliyev xaricdəki azərbaycanlıları şimallılara və cənublulara ayırmır, onları vəhdətdə görür, ana dilini, Azərbaycan tarixi və mədəniyyətini unutmamaları üçün ciddi əməli işlər həyata keçirir, maddi və mənəvi yardımlar edirdi;
- Azərbaycan rəhbəri xarici ölkələrdə yaşayan azərbay-

[21] ARSPİHDA, f. 1, siy. 62, iş 132, v. 66.

canlıların vahid təşkilatda birləşməsinə və həmrəy olmasına çalışırdı;

- H.Əliyev xarici ölkələrdə yaşayan həmvətənlərin Azərbaycanı təbliğ etməsinə, qatı antisovet və dini təmayüllərdə iştirak etməməsinə çılışırdı. Çünki onların qatı antisovet mövqeyi ölkə daxilində Azərbaycan xalqına qarşı mərkəzdə mənfi münasibət yaradırdı. Bu isə Azərbaycanın bədxahlarına sərfəli idi;

- həyata keçirilən tədbirlərin nəticəsində xarici ölkələrdə yaşayan həmvətənlər Azərbaycana maraq göstərir, sovet sisteminin mövcud olmasına baxmayaraq, vətənə səfər edir, mədəniyyət, elm, təhsil və iqtisadiyyat sahəsindəki inkişafa sevinirdilər;

- xaricdə yaşayan azərbaycanlılar H.Əliyevi bütün dünya azərbaycanlılarının rəhbəri olaraq qəbul edir, onun Moskvaya daimi işləməyə aparılmasından qürur duyurdular;

- H.Əliyev çalışırdı ki, dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı özünü azərbaycanlı kimi hiss etsin, vətənlə əlaqə saxlasın, Azərbayanda qazanılan uğurları təbliğ etsin, antisovet fəaliyyətdə iştirak etməsin. Bundan ötrü Azərbaycana isti münasibət bəsləyən jurnalistlərdən daha çox istifadə edilirdi. Onlar Azərbaycana dəvət olunurdular;

H.Əliyev Azərbaycan rəhbəri olarkən Vətən cəmiyyətinin yaradılmasına nail ola bilməsə də, Moskvada işlərkən həmin cəmiyyətin qurulmasına və fəaliyyətinə bilavasitə kömək etdi;

- 70-80-ci illərdə xarici ölkələrdə yaşayan həmvətənlərlə işin aparılması təcrübəsi əsasında Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra diasporun yaradılması sahəsində fəaliyyətlər başladıldı.



# XIII FƏSİL

## CƏNUBİ AZƏRBAYCAN MƏSƏLƏSİ

XIX əsrdə Azərbaycanın işğalçı müharibələr nəticəsində bölüşdürülməsindən sonra keçən bütün tarixi dövr ərzində milli ruhlu adamları Cənubi Azərbaycan məsələsi daim düşündürmüşdü. Qeyd etmək lazımdır ki, 1813-1828-ci illərə qədər Bütöv Azərbaycanın ərazisi 410 min kv. km. təşkil edirdi. 1813-1828-ci illərdə Azərbaycan əraziləri cənubda, İran tərkibində 280 min kv. km., işğal edilmiş Rusiya əsarətində isə Şimali Azərbaycanın sahəsi 130 min kv. km. idi[1]. «Cənubi Azərbaycan» adı altında İran ərazisində müasir dövrdə aşağıdakı regionlar var: Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil, Zəngan, Həmədan, Qəzvin əyalətləri, Savə mahalı, Astara şəhristanı (mahalı). Bu ərazilərin sahəsi 174 min kv. km-dir. İranda yaşayan 29 mln. azərbaycanlı ölkə əhalisinin 41, 42%-ni təşkil edir[2].

Rusiya və İran arasında imzalanan 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay sülh müqavilələri[3] ilə Azərbaycan bölüşdürüldükdən, şimal hissə çarizm tərəfindən işğal edilib ilhaq olunduqdan sonrakı bütün tarixi dövr ərzində Azərbaycanın qabaqcıl ziyalılarının başlıca qayğılarından biri Cənubi Azərbaycan məsələsi, cənubda yaşayan soydaşlarımızın hüquqlarının qorunması, vətənin yenidən birləşdirilməsi, bütövləşdirilməsi idi. Tarixən həm də türk ölkəsi olan İranı XX

[1] Tağıyeva Ş., Rəhimli Ə., Bayramzadə S. Güney Azərbaycan (məlumat kitabı). Bakı, 2000, s. 68.

[2] Yenə orada, s. 63.

[3] ARDA, f. 202, siy. 1, iş 25, s. 279-284.

əsrin 20-ci illərin ortalarınadək azərbaycanlı sülalələr idarə ediblər. Səttarxan və Bağırxan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin rəhbərliyi altında müxtəlif dövrlərdə baş verən hərəkatlar eyni zamanda Azərbaycan xalqının zəngin tarixinin mühüm hadisələridir. İkinci dünya müharibəsi illərində sovet ordu hissələri tərkibində azərbaycanlıların Cənubi Azərbaycana getməsi, soydaşlarımızın arasında hərbi, siyasi, ideoloji və mədəni tədbirlər həyata keçirmələri Azərbaycan tarixinin ayrılmaz bir hissəsidir. Şimaldan gedənlərin cənubdakı fəaliyyətləri Vahid Azərbaycan uğrunda gərgin səylərin və sevginin nümunəsi idi. Müharibə illərində Cənubi Azərbaycanda fəaliyyət göstərən tanınmış ictimai-siyası və ədəbiyyat xadimlərindən Ə.Əliyev, M.İbrahimov, S.Rüstəm, R.Rza və onlarla başqalarının geri dönərək uzun illər boyu yüksək dövlət və ictimai vəzifələrdə işləməsi Şimali Azərbaycanda Cənub mövzusunun müxtəlif orqanlarda çalışanların şüurunda və fəaliyyətində müəyyən yer tutmasına təsir etmişdi. Eyni zamanda müharibə dövründə xüsusi xidmət orqanlarının əməkdaşları kimi cənubda işləyən, məhdud dairədən kənarda tanınmayan bəzi gənclər də az sonra Azərbaycanda vəzifələr tutaraq müharibə illərində gördükləri işi artıq formalaşmış yeni şəraitə uyğun olaraq həyata keçirməyə çalışırdılar.

Hələ 20-ci illlərdə tələbə ikən Cənubi Azərbaycanda olan Əziz Əliyev buranın tarixini, coğrafiyasını və əhalisinin vəziyyətini dərindən bilirdi. İkinci dünya müharibəsinin gedişində Cənubi Azərbaycanda sovet ordu hissələri tərkibində siyasi təbliğatçılar qrupunun rəhbəri işləyən Ə.Əliyev, heç şübhəsiz, bu problemə azərbaycanlılar içərisində ən yaxşı və incəliyinə qədər bələd olan dövlət xadimi idi. Qeyd etmək lazımdır ki, kommunist və qeyri kommunist olmasından asılı olmayaraq bütün azərbaycanlıların qəlbində İran Azərbaycanını Şimali Azərbaycana birləşdirmək istəyi həmişə olub[4].

Artıq qeyd edildiyi kimi, müharibə illərində xüsusi xidmət orqanlarında işə başlayan H.Əliyev Cənubi Azərbaycanda fəaliyyət göstərərək azərbaycanlıların siyasi və ictimai təşkilatlarının yaradılmasında, onlarda arasında müstəqillik, birlik ideyalarının formalaşmasında, Şimali Azərbaycana birləşmə istəklərinin gücləndirilməsində mühüm rol oynamışdı. H.Əliyev Cənubi Azərbaycan problemini həm nəzəri-tarixi, həm də praktiki baxımdan dərindən bilirdi. H.Əliyev lap gənc yaşlarından cənubi azərbaycanlıların hüquqları, istiqlalı uğrunda mübarizə aparmış bir şəxs idi. O, Təbrizdə işlərkən cənublu gənclərin Pişəvəri hərəkatında iştirak etmələri, Azərbaycan Demokrat Partiyasına üzv olmaları yolunda fəal təbliğat aparmış və bu partiyada çalışmışdı.

Buna görə də hakimiyyəti illərində H.Əliyevin Cənubi Azərbaycan məsələsinə münasibəti bir neçə istiqaməti əhatə edirdi: Cənubi Azərbaycandan olan ziyalılara xüsusi qayğı göstərir, Cənub mövzusunun unutdurulmamasına çalışır, elmi araşdırmaların aparılmasını təşviq edir, ağır sovet rejimi şəraitində nəinki böyük ustalıqla bu işin öhdəsindən gəlir, eyni zamanda həmin ideyanın yayılmasına kömək edir, alim, yazıçı və şairləri Cənub mövzusundan yazmağa çağırır, Cənubi Azərbaycandan olan şair və yazıçıların məişət şəraitinin yaxşılaşdırılması məqsədilə sərəncamlar verir, onları mənzillə təmin edir, İrana və Cənubi Azərbaycan şəhərlərindəki kitabxanalara nəşrlər göndərilməsini artırırdı və s.

H.Əliyev hakimiyyətə gələn kimi ilk növbədə İrana Azərbaycan ədəbiyyatının göndərilməsi işi genişləndirildi. Qeyd etmək lazımdır ki, 70-ci illərin əvvəllərindən etibarən İranda Azərbaycan kitabına olan ehtiyac xeyli artmışdı. Ona görə də Azərkitab İrana 5 min nüsxə kitab göndərmək barədə İran naşirləri ilə müqavilə imzaladı[5]. Təbriz, Urmiya, Zəngan və b. şəhərlərdəki ali məktəb kitabxanalarına çoxlu Azərbaycan kitabı göndərildi. Bunların içərisində Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyətinə, digər elm sahələrinə dair kitablar üstünlük təşkil edirdi. Kitab göndərilməsi işində Azərbay-

[4] AR MTN arxivi, PS 7525, III cild, v. 129.

[5] ARDA, f. 28, siy. 12, iş 56, v. 71.

can kitabxanaları da fəal iştirak etməyə başlamışdılar. 1971-1973-cü illərdə Azərbaycan EA kitabxanası və M.F.Axundov adına kitabxana İrana 900-dən çox kitab və jurnal göndərmişdi[6].

H.Əliyev belə hesab edirdi ki, SSRİ-nin İranla normal münasibətlərinin qurulması, inkişaf etdirilməsi, rəsmi nümayəndə heyətlərinin və ictimaiyyətin səfərləri cənubi azərbaycanlıların öz problemlərini başa düşmələrinə, həlli yolları barədə düşünmələrinə kömək edər.

H.Əliyev dönəmində İrandan gələn butun qonaqlara, xüsusən azərbaycanlılara böyük ehtiram göstərilirdi. Məsələn, Azərbaycan KP MK bürosunun 1970-ci il 4 dekabr tarixli iclasında İran şahının həyat yoldaşı Fərəh Pəhləvi və onun anası Fəridə Dibanın Azərbaycana səfəri haqqında məsələ müzakirə edildi[7]. Müzakirə nəticəsində beş maddədən ibarət qərar qəbul edildi. Qərarda eyni zamanda deyilirdi ki, təsdiq edilmiş proqram qonaqların istəyinə uyğun olaraq dəyişdirilə bilər[8].

Dekabr ayının 9-11-də keçirilən səfərdə Fərəh xanımı və anasını 7 nəfər rəsmi, 5 nəfər şəxs isə qeyri-rəsmi şəkildə müşayiət edirdi. İranın SSRİ-dəki səfiri və həyat yoldaşı da onu müşayiət edənlərin arasında idi[9]. Qonaqlara Azərbaycanda böyük hörmət və ehtiram göstərildi. Onlar Azərbaycan Dövlət Opera və Balet Teatrında, Bakı şəhərinin tarixi yerlərində, Azərbaycan Dövlət Konservatoriyasında, Azərbaycan tarixi muzeyində, C.Qaryağdının emalatxanasında[10] oldular. Səfər qonaqlarda Azərbaycan haqqında dolğun təsəvvürün yaradılmasında mühüm rol oynadı.

1972-ci ildə İran şahı Məhəmməd Rza Pəhləvinin SSRİ-yə, həmin ildə SSRİ Ali Soveti rəyasət heyətinin sədri

[6] ARDA, f. 28, siy. 12, iş 75, v. 68.
[7] ARSPİHDA, f. 1, siy. 57, iş 103 (104), pr. № 151, § 10.
[8] ARSPİHDA, f. 1, siy. 57, iş 103, pr. № 151, § 10, v. 14-15.
[9] ARSPİHDA, f. 1, siy. 57, iş 107, pr. № 151, § 9, v. 168.
[10] Yenə orada, v. 59-60.



N.V.Podqornının, 1973-cü ilin mart ayında isə SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin İrana səfərləri təkcə münasibətlərdə istiləşmə yaratmadı, eyni zamanda ölkə haqqında geniş informasiyanın yayılmasına kömək etdi[11]. Yenə həmin ilin avqust ayında İranın baş naziri Əmir Abbas Hüseyni SSRİ-də səfərdə oldu[12]. İki ölkə arasında siyasi münasibətlərin inkişafı digər sahələrdə də əlaqələrə təsir edirdi.

Bu dövrdə sovet rəhbərliyi ümumi siyasi, strateji və hərbi məqsədləri naminə İranda yaşayan azərbaycanlılar barədə dəqiq informasiyalar alırdı. SSRİ-nin İrandakı səfirliyinin birinci katibi V.Baranov 1978-ci il 30 iyul tarixli «İranda azərbaycanlıların vəziyyəti haqqında məsələyə dair (informasiya)» adlı iki nüsxədən ibarət olan məlumatında yazırdı ki, azərbaycanlılar İranın türkdilli xalqları arasında ən çoxsaylıdır və farslardan sonra ikinci yeri tuturlar. 1976-cı ildə əhalinin siyahıyaalınmasına görə azərbaycanlılar Şərqi Azərbaycanda 3,2 mln., Qərbi Azərbaycanda 1,4 mln., Zənganda 0,6 mln. nəfər yaşayırdılar. Həmədan, Qəzvin və b. şəhərlərdə də azərbaycanlılar çox idi. Məlumatdan aydın olur ki, İranda yaşayan 33,6 mln. əhalinin 7 mln. nəfərini azərbaycanlılar təşkil edirdi[13]. Bütün ölkə miqyasında əhalinin ümumi artımı 2,7% olsa da, bu, İran Azərbaycanında 3,1% təşkil edirdi. Məlumatda deyilirdi ki, yaxın illərdə azərbaycanlıların sayı 8 mln. nəfərə çatmalıdır. Azərbaycanlı əhalinin 65%-i kənd yerlərində yaşayır, əsasən maldarlıq, üzümçülük, əkinçilik və bağçılıqla məşğul olurdu. Şəhərlərdə yaşayan azərbaycanlıların 10%-ə qədəri dövlət qulluğunda və şirkətlərdə çalışırdı. Böyük bizneslə məşğul olan azərbaycanlılar da var idi. Təbrizdən çıxan bir neçə milyonçu ailə Tehran bazarına nəzarət edirdi. İranın sənaye-ticarət burjuaziyasını əsasən azərbaycanlılar təşkil edirdilər. İranın din xadimləri içərisində çoxlu azərbaycanlı var idi.

[11] «Kommunist» qəzeti, 1973, 17 mart, № 64 (15279).
[12] «Kommunist» qəzeti, 1973, 9 avqust, № 165 (15400).
[13] ARSPİHDA, f. 1, siy. 65, iş 176, v. 80-85.

Birinci katibin məlumatında deyilirdi ki, azərbaycanlılar qədim və özünəməxsus mədəniyyəti olan xalqdır. Onların mənşəyi manna, kadusi, kaspi, alban və başqalarından törəyir, türkdilli kimer, skif, hun, bulqar, xəzər, oğuz, peçeneq və digərləri ilə qaynayıb qarışmışlar. O daha sonra yazırdı ki, hələ XVI əsrdə Səfəvilər zamanında Azərbaycan dilində ədəbiyyat yaranıb. XIX əsrin ikinci yarısından Azərbaycan millətinin formalaşması başlayıb, lakin İranda qəbul olunmuş rəsmi doktrinaya görə bütün əhali iranlı adlanır.

Səfirliyin birinci katibinin məlumatında qeyd edilirdi ki, İranda azərbaycanlıların hüquqları daim kobud surətdə pozulur. Göstərilirdi ki, hələ 1971-ci ilin sonunda Şəfi Cavadinin çap olunmuş «Təbriz və onun çevrəsi» adlı kitabında azərbaycanlıların guya midiyalıların varisləri, Azərbaycan dilinin isə qədim fars dilinin dialektlərindən biri olduğu yazılır[14]. İranda dərslər yalnız farsca keçilirdi. Azərbaycan dilində hətta ibtidai məktəblər də fəaliyyət göstərmirdi. Təbrizdə müəllimlər ana dilində dərs verdikləri üçün işdən azad edilmişdilər. Təbrizdəki Azarbedaqan Universitetində dərslər farsca verilirdi. Təbriz televiziyası hər gün Azərbaycan dilində yalnız 30 dəqiqə xalq musiqisi, folklor və dini mövzuda verilişlər verirdi. Təbriz radiosunda isə Azərbaycan dilində hər gün 2 saat veriliş yayımlanırdı. Ana dilində təhsil almaq imkanlarının olmaması ucbatından Azərbaycanda kəndlilər savadsız qalırdılar. Belə acınacaqlı vəziyyət azərbaycanlı etnik qruplar olan şahsevənlər, qarapapaqlar, əfşarlar, qaradağlılar arasında da hökm sürürdü. Azərbaycan dilində kitabların nəşrinə icazə verilmirdi. Sovet səfirliyinin birinci katibi yazırdı ki, müasir görkəmli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar şerlərinin çoxunu fars dilində çap etməyə məcburdur, onun Azərbaycan dilində olan şerləri ayrı-ayrı adamlar tərəfindən yarımkustar formada hazırlanıb yayılır.

Azərbaycanın Vəli, Xaqani, Qarçarlı (ləqəbi Səhənd) kimi şairləri də belə ağır vəziyyətdə yaşayıb yaradırdılar.

---

[14] Yenə orada, s. 84.



ПОСОЛЬСТВО СССР
В ИРАНЕ

Копия:

СЕКРЕТНО. Экз.№ 2

Вх.№ 161
"9" VIII 1978г.

Исх.№ 301
"30" июля 1978г.

К ВОПРОСУ О ПОЛОЖЕНИИ АЗЕРБАЙДЖАНЦЕВ В ИРАНЕ
(Информация)

Иран представляет собой многонациональное государство, в котором господствующая нация – персы – по своей численности составляет менее половины населения. Другую, большую половину образуют национальные меньшинства, говорящие как на языках иранской группы, отличающихся от персидского (курды, луры, бахтиары, белуджи, мазендеранцы, гилянцы и т.д.), так и на тюркских языках (азербайджанцы, туркмены, кашкайцы и др.), а также на семитских языках (арабы, евреи, ассирийцы).

Наиболее многочисленным из тюркоязычных народов Ирана являются азербайджанцы, которые составляют более одной пятой части всего населения страны и по своей численности занимают второе место после персов. Компактной массой они живут в провинциях Восточный Азербайджан (по переписи населения 1976 года здесь проживало 3,2 млн. человек).

Западный Азербайджан (1,4 млн. чел.) и Зенджан (0,6 млн. чел.) составляют значительную часть населения городов Хамадан, Казвин, Саве, Арак и т.д., расселены и в других, преимущественно северных, провинциях Ирана. Около 1 млн. азербайджанцев проживает в столице страны – Тегеране. Таким образом, общая численность азербайджанского населения Ирана может быть оценена примерно в 7 млн. человек (всего в Иране, по переписи 1976 года, проживало 33,6 млн. чел.). Известный азербайджанский ученый-историк С.Джавид считает, что в ближайшие годы оно составит не менее 8 млн. чел., если нынешние темпы прироста населения в Иранском Азербайджане (3,1%), которые выше, чем в среднем по стране (2,7%), сохранятся.

Классовый состав иранских азербайджанцев неоднороден. Большая их часть – крестьяне. По официальным данным, 65% населения Иранского Азербайджана живет в сельской местности. Основное занятие азербайджанских крестьян – оседлое земледелие и скотоводство, а также садоводство и виноградарство. Идет активный процесс классового расслоения в деревне, сопровождаемый растущей миграцией разорившихся, безземельных крестьян в города в поисках работы. В Тебризе, Мараге, Ардебиле, Ахаре, Миане, Хальхале, Мешкиншахре, Резайе, Махабаде, Хое, Маку и

141

85

2.

других городах северо-западных провинций Ирана, а также в Тегеране, азербайджанцы составляют значительную часть рабочих мелких промышленных предприятий (с числом рабочих менее 100 человек), ремесленников, розничных торговцев, а также низших чинов армии, полиции и жандармерии. Около 10% городского азербайджанского населения принадлежит к числу служащих государственных и частных организаций и компаний, в основном малооплачиваемых (мелкие клерки, разносчики, сторожа, уборщики и т.п.), а также мелких розничных торговцев.

Вместе с тем, среди иранских азербайджанцев есть и представители крупного торгового капитала. Тегеранский базар, например, держат в своих руках несколько семей крупных оптовиков-миллионеров, выходцев из Тавриза. В народе их называют "гярдан-колофт", что значит "толстошеие". Лицами азербайджанской национальности представлена и значительная часть иранского мусульманского шиитского духовенства, причем не только в Тебризе, но и в Куме и даже в Мешхеде.

Шовинистический, великодержавный курс правящих кругов Ирана в национальном вопросе проявляется, в частности, в том, что за национальными меньшинствами, в том числе за азербайджанцами, не признается права не только на самостоятельное национальное развитие, но и на культурную автономию.

Азербайджанцы - народ древней и самобытной культуры. Они ведут свое происхождение от коренного населения Восточного Закавказья (манней, кадуссии, каспии, албаны и т.д.), которое в течение веков смешивалось с вторгавшимися сюда многочисленными ирано- и тюркоязычными племенами (киммерийцы, скифы, гунны, булгары, хазары, огузы, печенеги и т.д.). Формирование азербайджанской народности в основном завершилось в XI-XIII в.в. в результате вторжения и оседания в Азербайджане новой большой волны тюркоязычных народов, особенно сельджуков. С тех пор азербайджанцы прошли большой путь в направлении развития своей национальной культуры. Ещё при Сефевидах (XVI в.) зародилась литература на азербайджанском языке. Со второй половины XIX века начался процесс консолидации азербайджанской нации.

Однако официально принятая и пропагандируемая в Иране доктрина отвергает многонациональный характер состава



82

5.

чувства населения".

Начальник личной канцелярии шахини, руководитель группы по изучению проблем Ирана в свете "революции шаха и народа" Х.Нахаванди публично признал, что волнения в Тебризе были вызваны "ошибками", которые не должны быть допущены в будущем. ("Кейхан Интернэшнл", 14.6.1978г.). Правительство Ирана, предпринимая меры по стабилизации положения в Азербайджане, сменило руководство обеих провинций, ректоров университетов, объявило об активизации выполнения программ развития, строительства культурных объектов и т.д. Однако в целом причины социального, экономического и национального порядка, вызывающие недовольство азербайджанского населения Ирана своим положением, продолжают сохраняться. Среди них - рост инфляции, дороговизны, скрытая безработица, слабость системы здравоохранения в Азербайджане, постоянная нехватка продуктов питания, воды, электроэнергии, загрязненность городов и т.д.

Иранские азербайджанцы в своем подавляющем большинстве с большой симпатией относятся к советским людям, в частности, к советским азербайджанцам. Многие из них регулярно слушают радио Баку на азербайджанском языке, записывают и распространяют азербайджанскую музыку, стихи, произведения классиков азербайджанской литературы и современных писателей. Иранские азербайджанцы благодарны советским людям за их активный вклад в экономическое развитие северо-западных провинций Ирана, в том числе электрификацию железной дороги Джульфа-Тебриз.

Первый секретарь
Посольства СССР в Иране подпись (В.Баранов)

Копия верна: [подпись]
10.8.78.

Çoxsaylı xahişlərə baxmayaraq, Səhəndə «Kitabi-Dədə Qorqud»u çap etməyə icazə verilməmişdi. Aryanpurun «Azərbaycan ədəbiyyatı tarixi» kitabını yalnız fars dilində çap etmək mümkün olmuşdu. 1977-ci ildə nağıllar məcmuəsini Azərbaycan dilində nəşr etdiyi üçün Tehrandaki «Fərzane» nəşriyyatı cərimə edilmişdi. Bundan fərqli olaraq, «Quran»ın Azərbaycan dilində təfsirinə icazə verilmişdi. Azərbaycanlı əhali mərkəzi hakimiyyətin yeritdiyi siyasətdən kəskin surətdə narazı idi. Ona görə də 1978-ci ilin fevral və may aylarında Təbrizdə keçirilən mitinqlərdə Azərbaycan mədəniyyətinin inkişafına mane olan əngəllərin aradan qaldırılması, farsların «türke xare» («türk uzunqulaqdır») kimi təhqiredici ifadələrinin rəsmi surətdə qadağan edilməsi qətiyyətlə tələb olunmuşdu. Şərqi Azərbaycan ostanının milliyyətcə azərbaycanlı olan general-qubernatoru general Şəfaqət mənşəcə fars olan polis və jandarma məmurlarına yerli əhalinin milli və dini hisslərini təhqir etməyi qadağan etmişdi

Şahın həyat yoldaşının şəxsi dəftərxanasının müdiri, İran problemlərini öyrənən qrupun rəhbəri X. Nəhavəndi isə Təbrizdə şah əleyhinə baş verən mitinqləri hökumətin buraxdığı səhvlərin nəticəsi hesab edərək gələcəkdə onların düzəldilməsini tövsiyə edirdi[15]. Bundan sonra hökumət Azərbaycanda vəziyyəti sabitləşdirməkdən ötrü hər iki ostanın general-qubernatorunu, ali məktəblərin rektorlarını dəyişərək mədəni proqramları həyata keçirəcəyini bəyan etmişdi.

V.Baranov yazırdı ki, İran azərbaycanlıları sovet azərbaycanlılarına rəğbət bəsləyir, Azərbaycan dilində Bakı radiosunu dinləyir, Azərbaycan musiqisini kassetlərə yazıb yayır, Azərbaycan klassik ədəbiyyatını və müasir yazıçıları oxuyurlar[16].

O zaman Avropadan İrana gələn qonaqlar belə deyirdi ki, İranın böyük şəhərlərində bazarlarda Azərbaycan dilində danışmaq fars dilindən daha münasibdir.

---

[15] "Keyhan International", 1978, 16 June.
[16] ARSPİHDA, f. 1, siy. 65, iş 176, v. 80-85.



Cənub məsələsini incəliklərinə qədər dərindən bilən H.Əliyevin azərbaycanlıların belə vəziyyətinə sovet dövlətinin ümumi siyasəti çərçivəsində biganə qalması mümkün deyildi. Buna görə də H.Əliyev Cənubi Azərbaycan məsələsində geniş fəaliyyətə başladı. Bu fəaliyyət möhtəşəm olub bir neçə istiqaməti əhatə edirdi. Cənubi Azərbaycan problemini, orada yaşayan xalqın vəziyyətini, düşüncələrini və istəklərini yaxşı bilən Heydər Əliyev Azərbaycan SSR-də yaşıyan cənublulara xüsusi diqqət yetirməyə başladı. Qeyd etmək lazımdır ki, 1969-cu il yanvarın 1-ə olan məxfi məlumata əsasən SSRİ-də 12 min 212 nəfər siyasi mühacir, 5 min 431 nəfər onlara bərabər tutulan şəxs yaşayırdı. Onların 16 min 749 nəfər övladı var idi ki, bunların da 15 min 538 nəfəri SSRİ-də doğulmuşdu[17]. Bu mühacirlərin 5 min 109 nəfəri Azərbaycanda idi[18]. 1970-ci il yanvarın 1-də Azərbaycanda 4670[19], 1971-ci il yanvarın 1-də 4614 nəfər[20], 1973-cü ildə 4617 siyasi mühacir yaşayırdı[21]. Onlara hüqüqca bərabər olan adamların sayı 1836 nəfər idi. Həmin ildə siyasi mühacirlər üçün 142. 500 rubl daimi yardım ayrıldı[22]. Siyasi mühacirlər İrandakı qohumlarına 12480 publ pul baratı göndərmişdilər[23] 1974-cü ildə isə bu məbləğ 13960 rubl təşkil etmişdi[24]. MK-nın göstərişi ilə Azərbaycanda olan cənublu mühacirlərə əlavə olaraq maddi yardımlar göstərildi[25].

H.Əliyevin tapşırığına uyğun olaraq mühacirlərin mənzil problemlərinin həlli sahəsində ciddi addımlar atılırdı. Azərbaycan SSR Nazirlər Sovetinin 1971-ci il iyul ayının 28-də

---

[17] РГАНИ, ф.5, оп.61, д.71, л.135.
[18] Yenə orada, v.136.
[19] ARSPİHDA, f. 1, siy. 57, iş 143, v. 100.
[20] ARSPİHDA, f. 1, siy. 58, iş 199, v. 25-28.
[21] ARSPİHDA, f. 1, siy. 60, iş 143, v. 41.
[22] ARSPİHDA, f. 1, siy. 61, iş 160, v. 6, 36.
[23] Yenə orada, v. 21.
[24] ARSPİHDA, f. 1, siy, iş 133, v. 22.
[25] ARSPİHDA, f. 1, siy. 20, iş 188, v. 37.

qəbul etdiyi 184/ 9 №-li qərara uyğun olaraq ehtiyacı olan mühacirlərin mənzillə təmin edilməsinə başlanıldı[26]. 1973-cü ildə Bakıda 76, Sumqayıtda 15, Gəncədə 15, Şəkidə 5, Əli Bayramlıda 5 mühacir ailəsinə mənzil verildi[27].

1974-cü ilin üçüncü kvartalında cənublu siyasi mühacirlərə 115. 469 rubl daimi, 39. 368. 70 rubl məbləğində müvəqqəti yardım edildi[28].

H.Əliyevin cənublulara göstərdiyi qayğı və respublikada qazanılan uğurlar onlar tərəfindən rəğbətlə qarşılanırdı. Azərbaycan Demokrat Partiyası MK-nın sədri Q.Y.Danişyan H.Əliyevə ünvanladığı 1974-cü il oktyabr ayının 3-də 109 №-li məktubunda yazırdı ki, partiya adından qan qardaşlarımızın əldə etdikləri yüksək nailiyyətlər münasibətilə Sizi təbrik edirik. Bu nailiyyətlər bizi İranın imperializm və irtica əsarətindən azad olmaq uğrunda mübarizəyə ruhlandırır[29].

Azərbaycan rəhbəri Azərbaycan Demokrat Partiyasının yaradılmasının ildönümünün hər il qeyd olunmasını təşviq edir və buna əlverişli şərait yaradırdı[30]. 21 Azər hərəkatının 30 illiyi münasibəti ilə Danişyan 1975-ci il 5 noyabr tarixli 45 №-li məktubunda H.Əliyevdən bir sıra şəxslərin orden və medallarla təltif olunması, müxtəlif vəzifələrdə irəli çəkilməsi məsələsini xahiş etdi[31]. Onun bu istəkləri yerinə yetirildi. Cənubluların nümayəndələri müxtəlif sovet və təsərrüfat vəzifələrində irəli çəkildi. Bu addım cənubluların idarəetmə işlərinə yaxından bələd olmalarına, peşəkar kadr kimi yetişmələrinə kömək edirdi.

Cənubi Azərbaycandan olanlar Şimali Azərbaycana nümunə, örnək kimi baxırdılar. Danişyan 1975-ci il noyabr ayının 3-də H.Əliyevə göndərdiyi 42 №-li məktubunda yazırdı ki,

---

[26] ARSPİHDA, f. 1, siy. 61, iş 160, v. 34.
[27] Yenə orada, s. 31.
[28] ARSPİHDA, f. 1, siy. 61, iş 16, v. 82-83.
[29] Yenə orada, v. 85-86.
[30] ARSPİHDA, f. 1, siy. 62, iş 133, v. 64.
[31] ARSPİHDA, f. 1, siy. 63, iş 151, v. 145-148.



83

COMITE CENTRAL DU PARTI D'EMOCRAT D'AZERBAIDJAN— ORGANISATION DU PARTI TOUDE D'IRAN EN AZERBAIDJAN

حزب توده ایرانین آذربایجان تشکیلاتی– آذربایجان دموکرات فرقه‌سینین مرکزی کمیته‌سی

№ 42
D 3.XI-75

10/XI-75

АЗӘРБАЈҸАН КОММУНИСТ ПАРТИЈАСЫ МӘРКӘЗИ
КОМИТӘСИНИН БИРИНҸИ КАТИБИ
ҺӨРМӘТЛИ ҺЕЈДӘР ӘЛИРЗА ОҒЛУ ӘЛИЈЕВ ЈОЛДАША

Әзиз јолдаш Әлијев!

Бәшәријјәт тарихиндә јени дөвр ачан Бөјүк Октјабр социалист ингилабынын 58-чи илдөнүмү мүнасибәтилә Сизи, Азәрбајҹан Коммунист Партијасынын Мәркәзи Комитәсини вә Сизин симанызда гардаш Азәрбајҹан халгыны һизби Тудеји Иранын Азәрбајҹан тәшкилаты-Азәрбајҹан Демократ фиргәси вә иранлы сијаси пәнаһәндәләр адындан үрәкдән тәбрик едир, мәһтәшәм коммунизм гуруҹулуғунда Сизә јени-јени гәләбәләр арзулајырыг.

Иран халглары вә илк нөвбәдә Иран Азәрбајҹаны халгы өлкәмизин истиглалијјәти вә өз милли варлығы үчүн Бөјүк Октјабр социалист ингилабына вә Ленин дүһасына миннәтдардыр. Бөјүк Октјабрын гәләбәси сајәсиндә Азәрбајҹан Совет Социалист Республикасынын кечдији шанлы гәләбәләр јолу вә әлдә етдији әзәмәтли наилијјәтләр бүтүн Шәрг, хүсусилә Иран вә Иран Азәрбајҹаны үчүн ҹазибәли өрнәк вә нүмунә олмушдур.

Һазырда ган гардашларымыз тәрәфиндән сәнаје вә тәсәррүфат үзрә бешиллик планын вахтындан әввәл јеринә јетирилмәси, хүсусилә памбыг вә үзүм планынын јеринә јетирилмәси, Сизин рәһбәрлијинизлә сон илләрдә әлдә едилмиш бир чох бөјүк мөһтәшәм гәләбәләр бизләри үрәкдән севиндирир вә бүтүн фиргә үзвләри вә иранлы сијаси пәнаһәндәләри јени әмәк наилијјәтләри үчүн руһландырыр. Онлар Бөјүк Октјабр социалист ингилабынын 58-чи илдөнүмү шәрәфинә, доггузунҹу бешиллик планын һәлледиҹи илини, Сов.ИКП-нын XXV гурултајыны вә 21 Азәр нәһзәтинин 30-чу илдөнүмүнү даһа кәркин әмәк наилијјәтләрилә гаршыламаг үчүн бир күн имәчилик е'лан едирләр.

Вх. 881с
11 нояб. 75

82

2.

Ичазә верин, бу бөјүк бајрам күнүндә Совет Иттифагы Коммунист Партијасынын вә ган гардашларымызын бизә көстәрдикләри гајғы вә мәһәббәт мүгабилиндә үрәк миннәтдарлығымызы билдирәк, Сизә чан сағлығы вә мәс'улијјәтли ишиниздә јени-јени мүвәффәгијјәтләр, коммунизм гуручулугунда даһа әзәмәтли наилијјәтләр арзулајаг.

Һизби Тудеји Иранын Азәрбајҹан тәшкилаты-Азәрбајҹан Демократ Фиргәси Мәркәзи Комитәсинин сәдри:

Г.Ј.ДАНИШЈАН.



Azərbaycan Respublikasının keçdiyi şanlı qələbələr yolu və əldə etdiyi əzəmətli nailiyyətlər bütün Şərq, xüsusilə İran və İran Azərbaycanı üçün cazibəli örnək və nümunə olub. Hazırda qan qardaşlarımız tərəfindən sənaye və təsərrüfat üzrə beşillik planın vaxtından əvvəl yerinə yetirilməsi, Sizin rəhbərliyinizlə son illərdə əldə edilmiş belə möhtəşəm qələbələr bizləri ürəkdən sevindirir, bütün firqə üzvləri və iranlı siyasi pənahəndələri yeni əmək nailiyyətləri üçün ruhlandırır[32].

1975-ci il yanvar ayının 1-ə olan məlumata görə Azərbaycanda 4639 cənubi azərbaycanlı siyasi mühacir yaşayırdı[33]. Həmin ildə Cənubi Azərbaycandan olan siyasi mühacirlərə 119. 637 rubl daimi, 35. 523 rubl isə müvəqqəti yardım verildi[34]. 313 siyasi mühacir İrandakı qohumlarına 12. 520 rubl pul baratı göndərmişdi[35]. 1976-cı il yanvar ayının 1-ə olan məlumata görə Azərbaycanda 4587 siyasi mühacir yaşayırdı[36]. Həmin ildə Azərbaycan Qırmızı Aypara cəmiyyətinin xətti ilə siyasi mühacirlərə ayrılan yardımlar artırıldı[37].

H.Əliyev Q.Y.Danişyanın özünə xüsusi qayğı göstərirdi. Onun anadan olmasının 70 illiyi münasibətilə Xalqlar dostluğu ordeni ilə təltif edilməsi haqqında Azərbaycan KP MK bürosunun 1976-cı il 10 sentyabr tarixli B-19/14 №-li iclas protokoluna uyğun olaraq sentyabr ayının 17-də 433 s №-li məxfi məktubla H.Əliyev Sov. İKP MK-ya müraciət etdi. Məktubda deyilirdi ki, Danişyan 1941-1945-ci illərdə İran Azərbaycanında milli demokratik hərəkatda fəal iştirakına görə İran Azərbaycanı milli hökumətinin Səttarxan ordeni və 21 Azər medalı ilə təltif olunub, general rütbəsi alıb, 1946-cı ildən

---

[32] ARSPİHDA, f. 1, siy. 62, iş 133, v. 82-83.
[33] Yenə orada, v. 37.
[34] Yenə orada, v. 102-103.
[35] ARSPİHDA, f. 1 , siy. 63, iş 151, v. 35.
[36] Yenə orada, v. 48.
[37] Yenə orada, v. 130-131.

SSRİ-də mühacirətdədir[38]. H.Əliyevin bu xahişi yerinə yetirildi.

Azərbaycan rəhbəri digər mühacirləri də dövlət mükafatlarına təqdim edirdi. Qeyd etmək lazımdır ki, 1976-cı ilədək 479 siyasi mühacir istehsal göstəricilərinə görə müxtəlif orden və medallarla təltif olunmuşdu. Cənubi Azərbaycandan olan 3 nəfərə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilmişdi[39].

H.Əliyevin bilavasitə qayğısı ilə 21 Azər günü həmişə qeyd edilirdi[40]. Cənubi Azərbaycandan olan siyasi mühacirlərə yaxşı şərait yaradılmışdı. 1981-ci ildə siyasi mühacirlər üçün 142. 500 rubl daimi yardım ayrıldı[41]. Mühacirət cəmiyyətinin yerləşdiyi bina təmir etdirildi[42]. Azərbaycan Demokrat Partiyasının birinci katibi Ə.Ə.Lahrudi 1981-ci il oktyabr ayının 28-də H.Əliyevə yazdığı məktubunda mühacirlərə göstərdiyi qayğıya görə təşəkkür edirdi[43].

H.Əliyev əsərləri həm cənubda, həm də şimalda tanınan, lakin Azərbaycan SSR-də yaşamağa məcbur olan cənublu alim, şair, yazıçı və publisistlərə qayğını daha da gücləndirirdi. Onların əsərlərinin nəşri genişləndirilir, mənzil şəraitləri yaxşılaşdırılır, yubileyləri qeyd edilir, müxtəlif mükafatlara layiq görülürdülər və s. Məsələn, Cənubi Azərbaycanın Mərənd mahalının Zunuz kəndində anadan olmuş dilçi alim M.Hüseynzadənin 80 illiyi 1980-cı ildə qeyd edildi[44]. Bu tədbirin keçirilməsi həm ana dilinə, həm də cənublu alimlərə qayğının nümunəsi idi.

Cənubi Azərbaycanda milli hökumət məğlubiyyətə uğradıqdan sonra siyasi motivlər ucbatından Şimali Azərbaycana

[38] ARSPİHDA, f. 1, siy, 63, iş 139, v. 92-93.
[39] Yenə orada, v. 92.
[40] ARSPIHDA, f. 1, siy. 57, iş 143, v. 103.
[41] ARSPİHDA, f. 1, siy . 61, iş 160, v. 6.
[42] ARSPİHDA, f. 1, siy. 68, iş 372, v. 9.
[43] Yenə orada, v.66.
[44] Axundov A. Əsrin yaşıdı. - «Kommunist» qəzeti, 1980, 26 mart, №72 (17408).



pənah gətirmiş şair və yazıçılara H.Əliyev xüsusi diqqət yetirirdi. Onun hakimiyyəti illərində Bakıda Cənubi Azərbaycan Yazıçılar Cəmiyyəti fəaliyyət göstərirdi. Cəmiyyət üçün normal iş şəraiti yaradılmışdı. Azərbaycan rəhbəri bu təşkilatın müraciətlərinə diqqətlə yanaşaraq istəklərini yerinə yetirirdi. Məsələn, cəmiyyətin 1971-ci il 20 aprel tarixli müraciətinə əsasən tanınmış şair Balaş Azəroğlunun anadan olmasının 50 illiyi təntənəli şəkildə qeyd edildi[45]. Bu tədbir təkcə Balaş Azəroğluna deyil, bütün cənublu yazıçı və şairlərə qayğının, diqqətin nümunəsi idi. Heç əbəs deyil ki, Azərbaycan yazıçılarının 1971-ci ilin iyun ayında keçirilən V qurultayının materiallarında deyilirdi: «Ölkəmizdə İran Azərbaycanından bir qrup yazıçı yaşayıb-yaradır». Qurultayda cənublu yazıçı və şairlərin adından Balaş Azəroğlu çıxış etdi[46]. O, cənublu qələm sahiblərinə Şimali Azərbaycanda göstərilən diqqət və qayğıya görə Azərbaycan rəhbərinə dərin təşəkkürünü bildirdi. Qurultayda H.Əliyev geniş nitq söylədi. Onun nitqi təkcə ədəbiyyatı və ədəbi yaradıcılıqda gedən prosesləri dərindən bilməsi ilə deyil, eyni zamanda xalqla yaradıcı adamların arasında səmərəli, səmimi əlaqələrin qurulması yolları barədə aydın milli proqramının olması ilə səciyyələnirdi. H.Əliyev deyirdi: «Yazıçı xalq üçün yaradır, öz kitablarını xalqa təqdim edir, buna görə kütlələrlə, oxucularla yaxınlıq ona xüsusilə coşqun ilham verir»[47]. O bütün yazıçıları, o cümlədən cənubluları xalqla daha yaxın olmağa və xalqın həyatından yazmağa səsləyirdi.

70-ci illərin sonlarından etibarən H.Əliyevin Cənubi Azərbaycan məsələsinə münasibətində keyfiyyətcə yeni bir mərhələ başladı. Əgər şah rejimi azərbaycanlıları iranlı deyərək assimilyasiya edirdisə, İran inqilabından sonra qurulan yeni hakimiyyət hamını müsəlman adlandırırdı. Bu mərhələnin başlıca səciyyəvi cəhəti İran inqilabından sonra beynəl-

[45] ARƏİDA, f. 340, siy. 6, bağ. 2, iş 12, v. 1.
[46] «Kommunist» qəzeti, 1971, 3 iyun, № 129 (14734).
[47] «Kommunist» qəzeti, 1971, 4 iyun, № 130 (14735).

xalq aləmdə və regionda yaranmış mürəkkəb vəziyyətlə bağlı idi. ABŞ-da nəşr olunan kitablarda deyildiyi kimi, H.Əliyevin fəaliyyətində İran şahının qovulması mühüm yerlərdən birini tuturdu. İnqilabın qalib gəlməsi ilə onun liderləri tərəfindən SSRİ, ABŞ və İsrailin dünyada üç şeytan elan edilməsi İranda həm ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin, həm də SSRİ DTK-sının məğlubiyyətə uğraması demək idi. Bundan sonra sovet-İran münasibətləri xeyli soyuqlaşdı. İranda nüfuz uğrunda sovet-ABŞ mübarizəsi gücləndi. Çarizm dönəmindən sonra birinci dəfə olaraq Moskvanın bu ölkə üzərində təsiri azaldığından sovet rəhbərliyi İrana öz gücünü göstərmək üçün yeni yollar və təzyiq vasitələri axtarmağa başladı[48]. Belə güclü təzyiq vasitələrindən biri cənubi azərbaycanlılar idi.

Bu zaman azərbaycanlılar ana dilinin, mədəniyyətinin qorunması şüarları ilə daha fəal çıxış etməyə başlamışdılar. İnqilabdan sonra nəşrə başlayan bir sıra qəzet və jurnalların adları da həmin istəyi ifadə edirdi. Məsələn, görkəmli həkim Cavad Heyətin nəşr etdirdiyi jurnalın adı "Varlıq" qoyulmuşdu. Bu ad azərbaycanlıların var olmaq istəyini ifadə edirdi. Qeyd etmək lazımdır ki, bu nəşr Bakıda rəğbətlə qarşılanır və təşviq edilirdi.

Yaranmış belə vəziyyətdən məharətlə istifadə edən H.Əliyev Azərbaycan xalqının mənafeləri naminə onu uzun illər boyu düşündürən problemin həlli uğrunda fəaliyyətini genişləndirdi. O vaxtadək bədii ədəbiyyatda əks olunan Cənubi Azərbaycan mövzusu artıq ictimai-siyasi həyatda geniş yer tutmağa başladı. Çünki bu zaman Cənubi Azərbaycanda yaşayan xalqın hüquqlarının müntəzəm olaraq pozulması və bundan törənən narazılıq gücləndi. Beləliklə, müharibədən sonrakı dövrdə ilk dəfə olaraq Heydər Əliyevin hakimiyyəti illərində Bütöv Azərbaycan şüarı təkcə ədəbi, ictimai mühitdə deyil, eyni zamanda siyasi dairələrdə geniş müzakirə obyektinə çevrildi.

[48] Pryce Jones D. The strange of the Soviet Empire. New York, Metropolitan books, 1995, p. 135.



H.Əliyev cənublu yazıçı, şair və publisistlərə qayğı göstərməyin, onların əsərlərinin nəşrini genişləndirməyin, Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələri möhkəmləndirməyin zəruriliyi barədə ən yüksək kürsülərdən açıq şəkildə, heç nədən çəkinmədən gur səslə deyirdi. Onun göstərişinə əsasən 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqında Cənub ədəbiyyatı üzrə katib vəzifəsi təsis edildi. H.Əliyevin Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilən VII qurultayında iştirakı və fəaliyyəti bu baxımdan daha cəlbedicidir. Azərbaycan rəhbəri qurultayda etdiyi nitqində deyirdi: «Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmlətmək, mədəniyyətin, mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır»[49].

H.Əliyev cənub və şimalı vəhdətdə görərək hər iki taylı azərbaycanlıları ümumi məsələlərdə bir olmağa çağırır, Cənubi Azərbaycan üzərində şimalın təsirinin güclənməsinə çalışırdı. Azərbaycan Yazıçılarının elə həmin qurultayında H.Əliyev B.Azəroğluna üzünü tutaraq deyirdi: «... bütün Cənubi Azərbaycanda yaşayan şairlərə təsir göstərib başa salınız ki, türk dili deməsinlər, Azərbaycan dili desinlər və buna nail olmaq lazımdır. Bu, birinici sizin borcunuzdur. Çünki onlar özlərini azərbaycanlı sanır, dilləri də Azərbaycan dilidir. Biz Azərbaycan dilini qəbul etmişik... Necə ki, burda vardır, eləcə də Cənubi Azərbaycanda»[50]. Bu ifadələr əslində elə Bütöv Azərbaycan, birlik ideyasının geniş təbliği demək idi.

[49] H.Ə.Əliyevin Azərbaycan yazıçılarının VII qurultayında nitqi. – «Kommunist» qəzeti, 1981, 14 iyun, № 139 (17773); ARƏİDA, f. 340, siy. 1, bağ. 71, iş 1894, v. 395-396.
[50] ARƏİDA, f. 340, siy. 1, bağ. 71, iş 1694, v. 6.

H.Əliyevin Cənubi Azərbaycana belə diqqət etməsi cənublu yazıçı və şairləri daha da ruhlandırırdı. Əbəs deyil ki, həmin qurultayda Yazıçılar İttifaqının katibi kimi Balaş Azəroğlunun nitqi başdan-başa Cənubi Azərbaycan ədəbiyyatına, onun problemlərinə həsr edilmişdi. O deyirdi: «... Behrəngi Azərbaycan ədəbiyyatını vəhdətdə götürmüş və təsir məsələsinə həm sənətkarlaq, həm də yüksək ideyalılıq baxımından yanaşmışdır»[51]. «Ölkənin əhalisinin üçdə bir hissəsini təşkil edən Azərbaycan xalqının sənətkarları yuxarı dairələrdə yazıçı hesab olunmur. Ana dilində yaranan ədəbiyyatın üzünə ədəbi məclislərin qapıları bağlıdır»[52], «İran Azərbaycanında yazıçılar məhrumiyyətlərə düçar olublar», «... bir millətin azadlığı varsa, hər şeyi var. Azadlığı yoxsa, heç şeyi yoxdur»[53]. O daha sonra deyirdi: «Cənub mövzusuna gəlincə bizim milli həyat, milli hərəkat vətənin və xalqın taleyi ilə bağlı olan əsas ana mövzumuzdur...»[54], «...dili bağlanmış, yazarlarının qələmi sındırılmış bir xalqın mübarizəsini, dərdlərini, arzularını yazmağa, deməyə imkanı olan yazıçılar biz idik»[55].

H.Əliyevin iştirak etdiyi məclisdə belə məzmunlu bir nitqin söylənilməsi Azərbaycan rəhbərinin Cənub məsələsinə böyük önəm verdiyini, cənublu yazarları ruhlandırdığını göstərirdi. Artıq Cənubi Azərbaycan məsələsi H.Əliyevin gündəlik fəaliyyətinin əsas sahəsinə və başlıca qayğısına çevrilmişdi. Onun təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1981-ci il 5 may tarixli iclasında Balaş Azəroğluna Xalq şairi fəxri adı verilməsi barədə qərar qəbul edildi[56]. Bu addım cənublu yaradıcı adamlara, bütövlükdə, Cənubi Azərbaycan məsələsinə göstərilən diqqəti özündə ehtiva edirdi. MK bürosunun

[51] ARƏİDA, f. 340, siy. 1, bağ. 63 iş 1595, v. 47.
[52] Yenə orada, v. 48.
[53] Yenə orada, v. 49.
[54] Yenə orada, v. 50.
[55] ARƏİDA, f. 340, siy. 1, bağ. 71, iş 1694, v. 3.
[56] ARSPİHDA, f. 1, siy. 68, iş 73 (74), pr. № 10, § 17.



qərarına uyğun olaraq Balaş Azəroğluna Xalq şairi fəxri adı verildi. H.Əliyev bununla da kifayətlənmədi. Büronun həmin il 12 oktyabr tarixli iclasında B.Azəroğlunun anadan olmasının 60 illiyinin keçirilməsi haqqında qərar qəbul edildi[57]. Cənublu şairin Xalqlar dostluğu ordeni ilə təltif olunması barədə Sov. İKP MK-ya ünvanlanan eyni tarixli 19/547s №-li məxfi məktubu H.Əliyev imzaladı. Bu məktubda şairin təkcə yaradıcılığına verilən qiymət öz əksini tapmamışdı, Azərbaycan rəhbəri eyni zamanda Cənubi Azərbaycan məsələsini, 1946-cı il inqilabını Sov. İKP MK-ya cəsarətlə xatırladırdı. Tarixi əhəmiyyət kəsb edən məktubda deyilirdi ki, Balaş Azəroğlu 1946-cı ildə İran Azərbaycanında inqilabi demokratik hərəkat yatırıldıqdan sonra mühacirət edib. H.Əliyev bu istəyinə də nail oldu[58]. Bundan sonra şairin həyat və yaradıcılığı haqqında mətbuatda çoxlu yazılar verildi[59]. Məsələn, B.Vahabzadə «Kommunist» qəzetində yazdığı məqalədə şairin şerlərinin birini təhlil edərək belə bir nəticəyə gəlirdi: «Azadlığını və müstəqilliyini itirən xalq, mənliyini və milli varlığını da itirmiş olur»[60]. H.Əliyevin göstərişi ilə Balaş Azəroğlunun 60 illik yubileyi möhtəşəm keçirildi. Yubiley tədbiri radio və televiziya ilə translyasiya edildi[61].

Balaş Azəroğluna Xalqlar dostluğu ordenini və Xalq şairi fəxri adını tədim edərkən söylədiyi nitqində H.Əliyev deyirdi: «Balaş Azəroğlunun ilk şerlərinin bir çoxu qırxıncı illərin əvvəllərində Cənubi Azərbaycanda gedən ictimai-siyasi prosesləri əks etdirir. Həmin şerlərin əsasını... milli istismara qarşı mübarizə motivləri təşkil edir, bu şerlər inqilabi mübarizə ruhu ilə aşılanmışdır». O daha sonra deyirdi: «Balaş Azəroğlu

[57] ARSPİHDA, f. 1, siy. 68, iş 133 (134), pr. № 48, § 3-q.
[58] ARSPİHDA, f. 1, siy. 68, iş 362, v. 169-170.
[59] Vahabzadə B. Xalq şairi. – «Kommunist» qəzeti, 1981, 14 noyabr, №264 (17898).
[60] Yenə orada.
[61] ARƏİDA, f. 340, siy. 6, bağ. 8, iş 97, v. 1-27.

СЕКРЕТНО

COMITE CENTRAL DU PARTI D'EMOCRAT D'AZERBAIDJAN— ORGANISATION DU PARTI TOUDE D'IRAN EN AZERBAIDJAN

حزب توده ایران آذربایجان تشکیلاتی— آذربایجان دموکرات فرقه‌سی مرکزی کمیته‌سی

№ 19
D 26.V.81

نمره ——
تاریخ ——

СОВ.ИКП МК СИЈАСИ БҮРОСУНУН ҮЗВҮЛҮЈҮНӘ НАМИЗӘД, АЗӘРБ.КП МК-НЫН БИРИНЧИ КАТИБИ ҺЕЈДӘР ӘЛИЈЕВ ЈОЛДАША

ЦК КП Азербайджана
ВХ. № 762 на 2 листах
13 VIII 1981 г.
Подлежит возврату в общий отдел

Һөрмәтли Әлијев јолдаш!

Өз өмрүнү һәјатыны Азәрбајҹанын мүбаризә ше'ринин инкишафына һәср едән көркәмли шаир Балаш Азәроғлу јолдаша халг шаири фәхри ады верилмәси Азәрбајҹан Коммунист Партијасынын вә шәхсән Сизин Ҹәнуби Азәрбајҹан халгына, онун милли вә демократик әдәбијјатына, Ҹәнуби Азәрбајҹанын әдиб вә шаирләринә, о ҹүмләдән мүһаҹирәт илләриндә демократик әдәбијјатымызын јазыб јарадан нүмајәндәләринә көстәрилән аталыг гајғысыдыр.

Ичазә верин бу бөјүк гајғы вә е'тимада көрә Һизби Тудеји Иранын Азәрбајҹан тәшкилаты - АДФ-нин Мәркәзи Комитәси адындан Азәрбајҹан Коммунист Партијасынын Мәркәзи Комитәсинә, шәхсән Сизә вә Сизин симанызда гән гардашларымыза өз тәшәккүрләримизи вә дәрин миннәтдарлығымызы билдирәк вә Сизи әмин едәк ки, шаир вә јазычыларымыз бу аталыг гајғысына халгымызын мүбаризәсинә лајиг јени-јени әсәрләр јазмагла ҹаваб верәҹәкләр.-

ҺТИ-НИН АЗӘРБ.ТӘШКИЛАТЫ-
АДФ МК-НЫН БИРИНЧИ КАТИБИ: [signature] Ә.Ә.ЛАҺРУДИ.



64

СОВ.ИКП МК СИЈАСИ БҮРОСУНУН ҮЗВҮЛҮЈҮНӘ НАМИЗӘД, АЗӘРБ.КП МК-НЫН БИРИНЧИ КАТИБИ ҺЕЈДӘР ӘЛИЈЕВ ЈОЛДАША

Һөрмәтли Әлијев јолдаш!

Азәрбајҹан ССР Халг Шаири кими јүксәк фәхри ада лајиг көрүлмәјим мүнасибәтилә Азәрбајҹан Коммунист Партијасынын Мәркәзи Комитәсинә вә шәхсән Сизә өз тәшәккүрүмү вә миннәтдарлығымы билдирирәм.

Азәрбајҹан поезијасынын бөјүк үммангында бир зәррә олан мәним јарадыҹылыға көстәрдијиниз бу аталыг гајғысыны мән, империализмә вә шаһлыг диктатурасына гаршы ардыҹыл мүбаризә апармыш демократик әдәбијјатымыза вә онун јарадыҹыларына олан гајғы вә верилән гијмәт кими гәбул едирәм.

Азәрбајҹан халгынын севимли рәһбәри Һејдәр Әлијев јолдаш, гәләм јолдашларым вә шәхсән өз адымдан Сизә тәшәккүр едир, халгымызын хошбәхтлији наминә узун өмр вә мүвәффәгијјәтләр арзулајырам.-

Имза: [signature] Б.Азәроғлу.

762с

yaradıcılığının əhəmiyyətli cəhətlərindən biri də istər bizdə, istərsə də Cənubi Azərbaycanda ədəbiyyatın inkişafına səmərəli təsir göstərməsindən ibarətdir»[62].

Göründüyü kimi, H.Əliyev Balaş Azəroğluna cadəcə bir qələm sahibi deyil, bütün Cənubi Azərbaycanda milli ədəbiyyatın inkisafına təsir edə biləcək böyük sənətkar, ictimai xadim kimi yanaşır, onu bu işləri həyata keçirməyə səsləyirdi. Belə mövqe təkcə Balaş Azəroğlunu deyil, digər cənublu yaradıcı adamları da ruhlandırırdı. Az sonra H.Əliyevə göndərdiyi təşəkkür məktubunda Balaş Azəroğlu yazırdı: «Hörmətli Əliyev yoldaş! Azərbaycan SSR Xalq şairi kimi yüksək fəxri ada layiq görülməyim münasibətilə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə və şəxsən Sizə öz təşəkkürümü və minnətdarlığımı bildirirəm. Azərbaycan poeziyasının böyük ümmanında bir zərrə olan mənim yaradıcılığıma göstərdiyiniz bu atalıq qayğısını mən, imperializmə və şahlıq diktaturasına qarşı ardıcıl mübarizə aparmış demokratik ədəbiyyatımıza və onun yaradıcılarına olan qayğı və verilən qiymət kimi qəbul edirəm. Azərbaycan xalqının sevimli rəhbəri Heydər Əliyev yoldaş, qələm yoldaşlarım və şəxsən öz adımdan Sizə təşəkkür edir, xalqımızın xoşbəxtliyi naminə uzun ömür və müvəffəqiyyətlər arzulayıram»[63].

Balaş Azəroğluna belə yüksək mükafatın və fəxri adın verilməsi Cənubi Azərbaycandan olan bütün yaradıcı adamlar, ictimai-siyasi xadimlər tərəfindən rəğbətlə qarşılandı. Məsələn, bununla əlaqədar olaraq Ə.Ə.Lahrudinin H.Əliyevə 1981-ci il 26 may tarixdə yazdığı 19 №-li məxfi məktubu maraqlıdır. O deyirdi: «Hörmətli Əliyev yoldaş, öz şüurlu həyatını Azərbaycanın mübariz şerinin inkişafına həsr edən görkəmli şair Balaş Azəroğlu yoldaşa Xalq şairi fəxri adı verilməsi

[62] Azərbaycanın xalq şairlərinə mükafatları təqdim edərkən H.Ə.Əliyevin nitqi. – «Kommunist» qəzeti, 1981, 12 dekabr, № 286 (17920).

[63] ARSPİHDA, f. 1, siy. 68, iş 372, v. 64.



Azərbaycan Kommunist Partiyasının və şəxsən Sizin Cənubi Azərbaycan xalqına, onun milli və demokratik ədəbiyyatına, Cənubi Azərbaycanın ədib və şairlərinə, o cümlədən mühacirət illərində demokratik ədəbiyyatımızın yazıb yaradan nümayəndələrinə göstərilən atalıq qayğısıdır. İcazə verin, bu qayğı və etimada görə Hizbe Tudeyi İranın Azərbaycan təşkilatı-ADF-nin Mərkəzi Komitəsi adından Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə, şəxsən Sizə və Sizin simanızda qan qardaşlarımıza öz təşəkkürlərimizi və dərin minnətdarlığımızı bildirək və Sizi əmin edək ki, şair və yazıçılarımız bu atalıq qayğısına xalqımızın mübarizəsinə layiq yeni-yeni əsərlər yazmaqla cavab verəcəklər»[64].

H.Əliyev digər cənublu yazarların əməyini, Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatda iştirakını yüksək dəyərləndirirdi. Məsələn, 1981-ci ilin oktyabr ayında yazıçı Mirzə İbrahimova Lenin ordeni və «Oraq və çəkic» qızıl medalı təqdim edərkən söylədiyi nitqində Azərbaycan rəhbəri deyirdi: ««Gələcək gün» romanı Cənubi Azərbaycanda inqilabi hərəkat haqqında, xalqın öz milli və sosial quruluş uğrunda mübarizəsi haqqında inandırıcı, yüksək səviyyədə yazılmış qədim hekayətdir»[65]. O, yazıçı və şairləri Cənub Azərbaycan mövzusunda yazmağa çağırır, onlara maddi və mənəvi dəstək verirdi.

H.Əliyevin tövsiyəsi ilə Şimali Azərbaycan şairlərindən Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm və Nəbi Xəzrinin Cənubi Azərbaycanda yaşayan Məhəmmədhüseyn Şəhriyar, Səhənd və b. kimi görkəmli şairlərlə telefon əlaqələri və yazışmaları quruldu. Bu danışıq və yazışmalar haqqında mətbuatda və digər kütləvi informasiya vasitələrində məlumat verilməsi Cənub mövzusundan yazan yaradıcı adamları daha da ruhlandırırdı. Bundan sonra Azərbaycan mətbuatında Cənub mövzusunda yazıların çapı çoxaldı.

[64] Yenə orada, v. 65.

[65] «Kommunist» qəzeti, 1981, 24 oktyabr, № 247 (17881).

Azərbaycanda Cənub mövzusundan, bölünmüş vətənin dərdindən yazmaq bəzi rəhbər şəxslər tərəfindən dissidentlik sayılırdı. H.Əliyev isə cənubdan yazanları himayə edir, onları rejimin fəsadlarından qoruyurdu. Hələ 60-cı illərdə bölünmüş Vətənin dərdini böyük ustalıqla qələmə alaraq yazdığı «Gülüstan» poeması ilə minlərlə gəncin həyatı və dünyagörüşündə dərin iz buraxan, sovet xüsusi xidmət orqanları tərəfindən gözümçıxdıya salınan Bəxtiyar Vahabzadə həmin illərdə DTK sədrinin müavini və sədri işləyən Heydər Əliyev tərəfindən böyük risk hesabına müdafiə olunduğu kimi, 70-ci illərdə Azərbaycana rəhbərlik edən Heydər Əliyev tərəfindən də xüsusi qayğı ilə əhatə olundu. O, Azərbaycan EA-nın müxbir üzvü, akademiki, sonralar isə millət vəkili seçildi.

Cənub mövzusu teatrların səhnələrinə, radio və televiziya verilişlərinə gətirildi. Bu mövzu ictimai həyata Azərbaycan rəhbərliyi tərəfindən ötürülür və unutdurulmasına imkan verilmirdi. H.Əliyev iki Azərbaycanın birləşəcəyinə ümid edirdi. Londonda çap edilən «Tayms»-ın məlumatına görə H.Əliyev xarici ölkə diplomatları ilə söhbətlərində gələcəkdə hər iki Azərbaycanın birləşəcəyinə ümid etdiyini bildirmişdi.

H.Əliyev mühacirətin numayəndələri olan gəclərin ali təhsil almalarına, kamil mütəxəssis kimi yetişmələrinə də xüsusi qayğı göstərirdi. Azərbaycan rəhbərinin göstərişi və MK-nın qərarına uyğun olaraq onlar ali məktəblərə müsabiqədənkənar qəbul edilirdilər[66]. Məsələn, 1976-cı ildə Cənubi Azərbaycandan olan 1196 nəfər mühacir və onların övladları ali və orta ixtisas məktəblərində təhsil alırdı. 709-u ali, 487-ci isə orta ixtisas məktəblərində oxuyan bu gənclər təhsil müddətində qayğı ilə əhatə olunmuşdular[67]. Siyasi mühacirlərin övladları arasında Cənubi Azərbaycanda inqilabi hərəkat və görkəmli inqilabçıların həyatı geniş təbliğ edilirdi[68].

---

[66] ARSPİHDA. f. 1, siy. 20, iş 188, v. 36-37.

[67] ARSPİHDA, f. 1, siy. 57, iş 143, v. 92.

[68] Yenə orada, v. 91.



106

Пролетарии всех стран, соединяйтесь!

Коммунистическая Партия Советского Союза. ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ

СОВЕРШЕННО СЕКРЕТНО

РАССЕКРЕЧЕНО

№ Ст-218/6с
от 8.УП.1980 г.

Выписка из протокола № 218 § 6с Секретариата ЦК

---

Об усилении информационно-пропагандистской работы на Иран

В связи с активизацией империалистической пропаганды на Иран, существенным увеличением объема американских и других западных радиопередач на Иран, в которых искажается внешняя и внутренняя политика Советского Союза, а также принимая во внимание усиление враждебной Советскому Союзу деятельности реакционных иранских кругов, в которой принимают участие некоторые правящие круги и духовенство, ЦК КПСС считает необходимым принять дополнительные меры по информационно-пропагандистской работе на Иран.

ЦК КПСС постановляет:

I. Поручить Международному отделу и Отделу внешнеполитической пропаганды ЦК КПСС провести необходимые координирующие мероприятия по усилению пропаганды на Иран, имея в виду, что эти мероприятия должны обеспечивать:

разоблачение политики империалистических кругов США и сил иранской реакции;

развитие в Иране общедемократических тенденций и закрепление страны на антиимпериалистических позициях, проведение Ираном политики неприсоединения;

широкое информирование иранской общественности о политике Советского Союза, оказывающего поддержку и помощь иранскому народу в защите его суверенитета и национальной целостности.

Вся эта пропагандистская работа должна строиться с учетом развития в Иране политической обстановки и состояния советско-иранских отношений. Предусмотреть, что содержание теле- и радиопередач, а также основных пропагандистских материалов подлежит оперативному согласованию в централизованном порядке.

2. Принять предложение ЦК Компартии Узбекистана об увеличении иновещания из Ташкента на языке фарси до одного часа в сутки.

3. Гостелерадио СССР и Министерству связи СССР совместно с ЦК Компартии Азербайджана изучить вопрос об увеличении времени вещания из Баку на языке фарси, а также возможности расширения радиуса приема советских телевизионных передач на территории Ирана и принять необходимые решения.

4. Разрешить ТАСС провести, при согласии иранской стороны, переговоры с информационным агентством "ПАРС" и подписать новое соглашение о двустороннем сотрудничестве, имея в виду аренду совместно с "ПАРС" двустороннего телеграфного канала Москва-Тегеран; преобразовать корреспондентский пункт в Тегеране в отделение ТАСС в составе заведующего отделением и двух корреспондентов за счет существующих штатов.

5. Агентству печати "Новости" подготовить в сотрудничестве с Институтом востоковедения Академии наук СССР брошюру об отношении Советского Союза к исламу и издать ее на фарси, арабском и других языках мусульманских стран; пригласить в СССР, при наличии запросов из Ирана, до пяти журналистов из центральных газет и печатных иранских органов, доброжелательно настроенных в отношении Советского Союза, с целью ознакомления с жизнью народов советских закавказских и среднеазиатских республик.

6. Государственному комитету СССР по телевидению и радиовещанию осуществлять с иранским телевидением и радио, при согласии иранской стороны, обмен телевизионными и радиопрограммами.

7. Государственному комитету СССР по делам издательств, полиграфии и книжной торговли по заказам В/О "Международная книга" издавать общественно-политическую литературу на языке фарси и азербайджанском языке на арабской графике и на кириллице, словари и учебные пособия для изучения языка фарси, а также для изучения русского языка







иранцами; пригласить, при консультации с МИД СССР, из Ирана десять специалистов для переводческой работы в советских издательствах.

8. Государственному комитету СССР по кинематографии изготовить и направить в Иран по заказу и за счет ССОД начиная с сентября 1980 года для использования в сети общественного проката 10-15 советских художественных историко-революционных и документальных фильмов на языке фарси.

9. Министерству культуры СССР выпустить по заказам Совета Министров Азербайджанской ССР грампластинки и магнитофонные кассеты с записями национальной музыки (общим тиражом до 1 тысячи экземпляров) для их распространения в Иране по каналам В/О "Международная книга" и ССОД.

10. Совету по делам религий при Совете Министров СССР приступить с августа 1980 года к переводу на язык фарси журнала "Мусульмане в СССР" (тираж до 3 тысяч экземпляров), имея в виду его распространение в Иране.

11. Госплану СССР, Минсвязи СССР, Минрадиопрому и Минпромсвязи рассмотреть вопрос об увеличении в одиннадцатой пятилетке мощностей передающих устройств иновещания Азербайджанского радио, в том числе и на средних волнах, а также передач Азербайджанского телевидения, имея в виду обеспечение устойчивого их приема на территории Иранского Азербайджана. Предусмотреть в планах выделение необходимых средств на эти цели.

12. Госплану СССР рассмотреть, по представлении Госкомиздатом СССР соответствующих расчетов, вопрос о дополнительном выделении Госкомиздату СССР в 1980 году лимита по труду (до 17 человек).

СЕКРЕТАРЬ ЦК

---

Послано: т.т.Громыко, Демичеву, Пономареву, Байбакову, Талызину, Гарбузову, Патоличеву, Плешакову, Первышину, Стукалину, Ермашу, Лапину, Александрову, Кругловой, Куроедову, Лосеву, Толкунову, Замятину, Тяжельникову, Пегову, Смиртюкову; ЦК КП Азербайджана, Узбекистана.
п.4 - т.Голубеву.

27вв

Ст-215/4с от 17.VI.1980 г. - поручение (нс)

Bütün bunlar siyasi mühacirət tərəfindən rəğbətlə qarşılanırdı. Azərbaycan Demokrat Partiyası MK-nın sədri Q. Danışyan 34№-li məktubunda yazırdı: «Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin ən böyük qardaşlıq köməyi və yaxın qayğısı nəticəsində, mühacirətdə olduğumuz müddət ərzində iranlı siyasi pənahəndə ailələrinə mənsub gənc oğlan və qızlardan müxtəlif ali və orta ixtisas üzrə mütəxəssis kadr hazırlanmış və hazırlanmaqdadır»[69].

Cənubi azərbaycanlıların ali məktəblərə müsabiqədənkənar qəbul edilməsi onların təşkilatlarının rəhbərlərində rəğbət yaradırdı. Məsələn, 1981-ci ildə cənublu siyasi mühacir ailələrinə mənsub olan 25 nəfərin müsabiqədənkənar ali məktəblərə, 25 nəfərin isə texnikumlara qəbul edilməsi razılıq doğurdu. Lahrudi 1981-ci il 7 sentyabr tarixli 25 №-li məktubunda H.Əliyevə yazırdı: «Əziz Heydər Əliyev yoldaş! Siyasi mühacir ailələrinə göstərilən bu atalıq qayğısı üçün şəxsən Sizə öz ürək təşəkkürlərimizi və dərin minnətdarlığımızı bildiririk»[70].

Qeyd edildiyi kimi, inqilabdan sonra İranın rəsmi dairələri tərəfindən antisovet təbliğat güclənmişdi. Digər tərəfdən, ABŞ İrana radio verilişlərinin həcmini artırmışdı. Bu təbliğat əsasən sovet dövlətinin daxili və xarici siyasətinə qarşı yönəlmişdi. Belə şəraitdə antisovet təbliğatın dayandırılması, heç olmasa, zəiflədilməsi, İranın bloklara qoşulmamaq hərəkatı çərçivəsində antiimperialist mövqe tutması, suverenliyi və milli bütövlüyünün qorunmasında İran xalqına sovet dövləti tərəfindən yardım edilməsinin təbliği vacib idi. Buna görə də Sov. İKP MK katibliyi 1980-ci il 8 iyul tarixdə İrana informasiya-təbliğat işinin gücləndirilməsi haqqında qərar qəbul etdi[71]. Qərarda geniş tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur, İranın suverenliyinə və milli müstəqilliyinə

[69] Yenə orada, v. 76.

[70] ARSPİHDA, f. 1, siy. 68, iş 372, v. 59.

[71] РГАНИ, ф.89, оп.39, д.6, л.3-13.



hörmət edilməsinin vacibliyi xüsusi vurğulanırdı[72]. Qərarda bu istiqamət üzrə konkret tədbirlərin həyata keçirilməsi müəyyənləşdirilmişdi. İlk növbədə SSRİ Dövlət Televiziya və Radio Verilişləri Komitəsi və SSRİ Rabitə Nazirliyi Azərbaycan KP MK ilə birlikdə Bakıdan fars dilində verilişlərin artırılması, İran ərazisində televiziya yayımlarının qəbulunun gücləndirilməsi imkanları barədə məsələyə baxmalı idi. İki ölkənin televiziya və radio qurumları müştərək proqramlar hazırlamalı, SSRİ Dövlət Nəşriyyat Komitəsi fars və Azərbaycan dillərində ərəb və kiril qrafikaları ilə lüğətlər və dərs vəsaitləri nəşr etməli idi. İrana fars dilində tarixi və inqilabi ruhlu kinolar göndərilməsi nəzərdə tutulurdu. Azərbaycan SSR Nazirlər Sovetinin sifarişi ilə SSRİ Mədəniyyət Nazirliyi İranda yayılmaq üçün Azərbaycan milli musiqisi yazılmış 1000 nüsxə qrammplastinka və maqnitafon kasseti hazırlamalı idi. «Müsəlmanlar SSRİ-də» adlı jurnalın fars dilinə tərcümə edilib 3 min nüsxədə İranda yayılması nəzərdə tutulurdu. SSRİ Dövlət Plan Komitəsi, SSRİ Rabitə Nazirliyi və başqa strukturlar Azərbaycan radiosu və televiziyasının İran Azərbaycanı ərazisində yayılması üçün tədbirlər işləyib hazırlamalı və bu məqsədlə nəzərdə tutulan xərclərin artırılmasına baxmalı idilər. Qərar mühüm əhəmiyyət daşıyan bir sıra başqa tədbirlərin həyata keçirilməsini də nəzərdə tuturdu.

H.Əliyev həmin qərara uyğun olaraq Azərbaycan KP MK bürosunda məsələnin müzakirəsini keçirdi. 1980-ci il iyul ayının 15-də MK bürosunun iclasında (pr. №146, par. 4) «İrana informasiya-təbliğat işinin gücləndirilməsi haqqında» adlı qərar qəbul edildi[73]. Qərarda deyilirdi ki, Azərbaycan SSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi və Rabitə Nazirliyi bir ay müddətində Bakıdan Azərbaycan və fars dillərində televiziya verilişləri radiusunun genişləndirilməsi imkanlarını öyrənməli, Cənubi Azərbaycan ərazisində televiziya və radio verilişlərinin gücünün artırılmasına dair konkret təkliflər

[72] ARSPİHDA, f. 1, siy. 67, iş 83, v. 53-57.

[73] Yenə orada.

13

Принято 15 июля 1980 г. прот. № 146 п. 4 Сов.секретно

# ПОСТАНОВЛЕНИЕ

## БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

Об усилении информационно-пропагандистской работы на Иран

В постановлении ЦК КПСС от 8 июля 1980 года по данному вопросу отмечается:

В связи с активизацией империалистической пропаганды на Иран, существенным увеличением объема американских и других западных радиопередач на Иран, в которых искажается внешняя и внутренняя политика Советского Союза, а также принимая во внимание усиление враждебной Советскому Союзу деятельности реакционных иранских кругов, в которой принимают участие некоторые правящие круги и духовенство, ЦК КПСС счел необходимым принять дополнительные меры по информационно-пропагандистской работе на Иран, в том числе:

- Поручено Международному отделу и Отделу внешнеполитической пропаганды ЦК КПСС провести необходимые координирующие мероприятия по усилению пропаганды на Иран, имея в виду, что эти мероприятия должны обеспечивать:

разоблачение политики империалистических кругов США и иранской реакции;

развитие в Иране общедемократических тенденций и закрепление страны на антиимпериалистических позициях, проведение Ираном политики неприсоединения;

широкое информирование иранской общественности о политике Советского Союза, оказывающего поддержку и помощь иранскому народу в защите его суверенитета и национальной целостности.

Вся эта пропагандистская работа должна строиться с учетом развития в Иране политической обстановки и состояния советско-иранских отношений. Предусмотреть, что содержание теле- и радиопередач, а также основных пропагандистских материалов подлежит оперативному согласованию в централизованном порядке.

- Гостелерадио СССР и Министерству связи СССР совместно с ЦК Компартии Азербайджана изучить вопрос об увеличении времени вещания из Баку на языке фарси, а также возможности расши-





- совместно с Гостелерадио республики подготовить и направить в Иран магнитофонные записи историко-революционных пьес азербайджанских и советских авторов на языке фарси и азербайджанском языке и азербайджанской музыки;

- совместно с Госкомиздатом республики регулярно направлять в Иран в качестве дара произведения азербайджанских писателей и поэтов, общественно-политическую и информационно-пропагандистскую литературу и грампластинки;

- совместно с Союзом писателей республики подготовить к изданию малоформатные книги азербайджанских поэтов на азербайджанском языке на арабской графике для направления в Иран.

10. Нахичеванскому обкому, Бакинскому горкому, Астаринскому райкому Компартии Азербайджана, Каспийскому морскому пароходству, Управлению Азербайджанской железной дороги обеспечить таможенные пункты, железнодорожные, автомобильные и морские вокзалы информационно-пропагандистскими материалами, средствами наглядной агитации, наборами грам- и магнитозаписей азербайджанской национальной музыки.

11. Руководству и партийному комитету Каспийского морского пароходства совместно с Госкомитетом [redacted] Азербайджанской ССР по делам издательств, полиграфии и книжной торговли, Министерством связи Азербайджанской ССР обеспечить суда заграничного плавания пропагандистской, художественной литературой на азербайджанском языке, журналами и газетами на иностранных языках для проведения активной информационно-пропагандистской работы в портах Ирана.

12. Совету Министров Азербайджанской ССР рассмотреть и решить все материально-финансовые и штатные вопросы, вытекающие из настоящего постановления.

Г.Алиев

лв2

irəli sürməli idi. Verilişlərin keyfiyyəti yaxşılaşdırılmalı idi. İrandan gələn məktubların təhlili üçün alim və mütəxəssislər cəlb edilməli, SSRİ-də İslamın və müsəlmanların vəziyyətinə dair televiziya və radio verilişləri, Azərbaycan EA və Ali və Orta İxtisas Təhsili Nazirliyi İranda yayılmaqdan ötrü Azərbaycan və fars dillərində ictimai-siyası ədəbiyyat, Azərbaycanca-farsca, farsca-Azərbaycanca lüğətlər, xarici ölkələrdə yayılmaq üçün hər il avqust ayının 1-i üçün «SSRİ-də Azərbaycan dilində kitablar» adlı kataloq hazırlanmalı idi. Bu məqsədlə poliqrafiya bazası genişləndirilməli, Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsi «Azərbaycanfilm»in istehsalı olan ən yaxşı filmləri seçib kadr arxasında fars dilində oxunmaq üçün göndərməli, İranda və Cənubi Azərbaycanda Azərbaycan filmləri festifalı, Azərbaycan SSR-də isə İran filmləri festifalı keçirilməli idi. Azərbaycan milli musiqisi yazılmış 1000 nüsxə qrammplastinka və qrammofon valı istehsal olunub Cənubi Azərbaycana göndərilməli idi. İranla sərhəddə yerləşən Cəbrayıl, İmişli, Lerik və Ordubad rayonlarında ötürücü stansiyaların tikilməsi nəzərdə tutulurdu.

H.Əliyev qərarda nəzərdə tutulan məsələlərin icrasına qətiyyətlə başladı. Qərarın yerinə yetirilməsinə ciddi surətdə nəzarət edilirdi. Bundan sonra Cənubi Azərbaycana və İrana dair tədqiqat işləri genişləndirildi. EA Şərqşünaslıq İnstitutunda Cənubi Azərbaycan şöbəsi yaradıldı. İrana ictimai-siyasi, məlumat və bədii ədəbiyyatın göndərilməsi artırıldı. Gömrük məntəqələrinə, Cənubi Azərbaycan limanlarına üzən gəmilərə Azərbaycan milli musiqisi yazılmış kassetlər verildi. Bu məqsədlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuş maliyyə vəsaitləri artırıldı[74].

1980-ci ildə Azərbaycan radiosunun İran redaksiyasının bazasında müstəqil Cənubi Azərbaycan redaksiyası yaradıldı[75]. Cənubi Azərbaycana yayımlanan radio verlişlərinin həcmi artırıldı, Azərbaycan televiziyasını cənubdakı sərhədboyu məntəqələrdə yaşayan əhalinin seyr etmək imkanı çoxaldı. Bu isə cənubluların ana dilini, milli-mənəvi dəyərləri unutmamalarında, Şimali Azərbaycanla əlaqələrin güclənməsində mühüm rol oynayırdı. Bundan sonra Avropa ölkələrində və ABŞ-da yaşayan cənubluların Azərbaycanla məktublaşmaları çoxaldı. Belə bir fakt müqayisə üçün diqqəti cəlb edir ki, əgər 1979-cu ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin ünvanına xarici ölkələrdən gələn 1008 məktubdan 213-ü Cənubi Azərbaycandan, Avropa və ABŞ-da yaşayan cənublulardan alınmışdısa[76], 1980-ci ildə xaricdən gələn 1019 məktubun 461-i cənubi azərbaycanlılardan alınmşdı[77]. Həmin məktub müəlliflərinə Azərbaycandan ana dilində kitab, dərslik, qrammplastinka və bukletlər göndərilmişdi. Yazışmalar və göndərişlər milli ruhun yüksəlməsinə, cənubluların özlərinə inam hissinin artmasına kömək edirdi.

Bütün bu tədbirlər nəticəsində Azərbaycan televiziyasına cənubda maraq getdikcə güclənirdi. Azərbaycan xüsusi xidmət orqanının 1982-ci il 25 yanvar tarixli 10/092 №-li məxfi məlumatında deyilirdi ki, Azərbaycan televiziyasına baxmaq üçün Təbrizdə evlərə son vaxtlar 700-ə yaxın əlavə antennalar qoyulub, bu da televiziyanın məşhurluğunu və ona olan marağın artdığını göstərir[78]. Azərbaycan radio və televiziyasını dinlədikləri üçün adamlar hətta 50 min riyal cərimə də olunmuşdular. Kəşfiyyat məlumatından aydın olur ki, 1982-ci il yanvar ayının 1-də Cənubi Azərbaycanın sərhəd rayonlarının əhalisi Bakıdan Yeni il televiziya proqramına baxdıqları üçün cümə namazına çıxmamışdılar[79].

Sonrakı illərdə də İrana xüsusi diqqət yetirilməsi davam etdirildi. Sov.İKP MK katibliyinin 1986-cı il 4 iyul tarixli st-

---

[74] Yenə orada.

[75] ARSPİHDA, f. 1. siy. 68, iş 408, v. 114.

[76] ARSPİHDA, f. 1, siy. 67, iş 187, v. 51.

[77] ARSPİHDA, f. 1, siy. 68, iş 369, v. 18.

[78] Об отношении населения Иранского Азербайджана к радио и телепередачам из Советского Союза. 1982 г. - AR MTN arxivi, iş 536, v.13-14.

[79] Yenə orada.

14/52 qs №-li «İrana xüsusi radioverilişləri haqqında tam məxfi, xüsusi qovluq» qrifi ilə qərarına əsasən «Sülh və tərəqqi» radiostansiyası çərçivəsində İrana fars və Azərbaycan dillərində ümumi həcmi gündə 1 saat olan verilişlər açıldı, bu vaxtadək fəaliyyət göstərən «Sedai mellie İran» radiostansiyası ləğv edildi[80]. Qeyd etmək lazımdır ki, «Sedai mellie İran» radiostansiyası SSRİ ərazisindən İran milli-vətənpərvər qüvvələri adından elan olunmamış proqramlar yayımlayırdı. Bu radiostansiya hələ 1959-cu il mart ayının 3-də Sov.İKP MK-nın qərarına əsasən İran xalqını ölkədə dəyişikliyə səfərbər etmək məqsədilə yaradılmışdı. Şah rejimi devrildikdən sonra isə radiostansiya İranın mürtəce dairələrinə qarşı çıxış edirdi. Proqramları Moskvada SSRİ Dövlət Televiziya və Radioverilişləri Komitəsinin xüsusi qrupu hazırlayırdı. Onun tərkibinə iranlı mühacirlər də daxil idi. Verilişlərin həcmi hər gün 45 dəqiqə farsca, 30 dəqiqə Azərbaycan dilində təşkil edirdi. O dövrdə SSRİ ərazisindən İrana radioverilişləri Moskva, Bakı, Düşənbə və Daşkənddən gündə 8,5 saat yayımlanlırdı. «Sülh və tərəqqi» radiostansiyası ictimaiyyətin hesab olunduğu üçün verilişləri hazırlaması məqsədəuyğun sayılırdı. İran Kommunist Partiyasının (Tudə) rəhbərləri 80-ci illərin ortalarında həbs edildikdən sonra radiostansiyanın yerləşdiyi yer aşkarlandığından onun təbliğati səmərəsi də aşağı düşdü. Buna görə də sovet rəhbərləri radiostansiyanın fəaliyyətini dayandırmağı məqsədəuyğun saydılar. Hadisə belə olmuşdu:

Məlumdur ki, Sov. İKP MK İranda kommunist hərəkatını yaymaq və sovet dövlətinin mənafeləri naminə İran Kommunist Partiyasına yaxından kömək edirdi. Bu zaman partiyanın birinci katibi A.Havarinin gizli partiya işini öyrənmək barədə xahiş məktubu Sov.İKP MK katibliyində müzakirə olundu. Onun istəyi yerinə yetirildi. SSRİ DTK-nın himayəsi altında Praqadan Moskvaya gələn A.Havarinin bir ay ərzində xüsusi xidmət orqanları tərəfindən gizli partiya işini öyrənməsi, SSRİ-də yaşamaq, yol xərclərini və şəxsi ehtiyaclarını

---

[80] РГАНИ, ф.89, оп.13, д.2, л.1.



№ СТ-14/52гс от 4 VII 1986 г.

ОСОБАЯ ПАПКА 17
СОВЕРШЕННО СЕКРЕТНО
ОСОБАЯ ПАПКА
РАССЕКРЕЧЕНО

КОПИЯ

## ПОСТАНОВЛЕНИЕ

**Секретариата ЦК Коммунистической Партии Советского Союза**

О специальных радиопередачах на Иран

Принять предложение Государственного комитета СССР по телевидению и радиовещанию об упразднении радиостанции "Седае меллие Иран" и открытии радиовещания на Иран в рамках радиостанции "Мир и Прогресс" на языках фарси и азербайджанском общим объемом один час в сутки.

Результаты голосования:

За

На оформление
04.07.86 г.

125 Выписки тт. Чебрикову, Шеварднадзе, Добрынину, Яковлеву, Аксенову, Слезко

30.ИЮН 1986

Разослано: 04.07.86 г.

ОСОБАЯ ПАПКА
РАССЕКРЕЧЕНО 19
Совершенно секретно
Особая папка

ЦК КПСС
1487
27 ИЮН 1986
II сектор
ПОДЛЕЖИТ ВОЗВРАТУ
В ОБЩИЙ ОТДЕЛ ЦК КПСС

ЦК КПСС

О специальных радиопередачах на Иран

Государственный комитет СССР по телевидению и радиовещанию (т.Аксенов А.Н.) внес предложение упразднить радиостанцию "Седае меллие Иран" ("Национальный голос Ирана"), ведущую необъявленное вещание с территории Советского Союза от имени иранских национально-патриотических сил.

Радиостанция "Седае меллие Иран" была создана в соответствии с решением ЦК КПСС от 3 марта 1959 года с целью мобилизации иранских народных масс на борьбу за коренные перемены в стране. После падения шахского режима радиостанция выступает против реакционных исламских кругов Ирана. Программы радиостанции готовятся в Москве особой группой Гостелерадио СССР, в состав которой входят иранские политэмигранты. Объем передач в сутки - 45 минут на языке фарси и 30 минут на азербайджанском языке.

В последнее время в связи с арестом в Иране ряда руководителей партии Туде, в том числе принимавших ранее участие в работе радиостанции, ее характер и местоположение были раскрыты, что было использовано режимом Хомейни с целью ослабить пропагандистский эффект ее передач.

В этих условиях Гостелерадио СССР полагает целесообразным прекратить деятельность радиостанции "Седае меллие Иран", как выполнившей свои первоначальные задачи. Одновременно вносится предложение об открытии радиовещания на население Ирана в рамках радиостанции "Мир и Прогресс", выступающей от имени советских общественных организаций. В настоящее время государственное вещание





*İran gənclər təşkilatının nümayəndələri Bakıda. 1973-cü il oktyabr*



*Tudə partiyasının katibi İsgəndəri Bakıda. 1975-ci il 28 avqust*



*Tudə partiyasının rəhbəri Heydər Əliyevin qəbulunda. 1975-ci il 20 oktyabr*



*Qulam Yəhya Heydər Əliyevin qəbulunda. 1977-ci il 15 noyabr*



Qulam Yəhya Heydər Əliyevin qəbulunda. 1977-ci il 15 noyabr



Qulam Yəhya Heydər Əliyevin qəbulunda. 1977-ci il 15 noyabr



*İran həmkarlar ittifaqının nümayəndə heyəti Bakıda. 1978-ci il avqust*



*Heydər Əliyev M.İbrahimovu 70 illik yubileyi münasibəti ilə təbrik edir. 1981-ci il 23 mart*



Heydər Əliyev B.Azəroğluna orden təqdim edir. 1981-ci il 10 dekabr

Sov.İKP büdcəsindən ödəmək məqsədilə 200 rubl ayrılması barədə MK katibliyi 1984-cü il may ayının 22-də ST-153/58 q/s №li tam məxfi qərar qəbul etdi. Qərar yerinə yetirildi. O, gizli partiya işinin təşkilinə dair təlimləri keçib İrana qayıtdı[81].

Bundan sonra İran KP MK Siyasi bürosunun üzvü X.Foruqianın SSRİ DTK-nın rəhbərliyi altında bir aylıq xüsusi təlim alması barədə Sov.İKP MK katibliyinin 1985-ci il yanvar ayının 1-də st-181/28 q/s №-li tam məxfi qərarı qəbul edildi. Qərara əsasən bir aylıq kursu başa vurduqdan sonra Foruqian Əfqanıstan Xalq Partiyasının üzvlərinə partiya işini öyrətməli idi. Bütün bu məsələlər SSRİ DTK-nın sədri B.A.Kryuçkovla razılaşdırılmışdı. Ailəsi ilə bir ay Moskvada qaldıqdan sonra Foruqian fevral ayının sonunda Əfqanıstana ezam edildi[82].

Havari bir müddət sonra, 1985-ci il oktyabr ayının 16-da yenidən Sov.İKP MK-ya müraciət edərək İranda partiya işini aparmaq məqsədilə SSRİ-də yaşayan 10-15 nəfər İran KP üzvünün cənub sərhədlərindən keçirilməsini xahiş etdi. Sov.İKP MK-nın beynəlxalq şöbəsi bu məsələni DTK sədri V.M.Çebrilovla razılaşdırdı. İran KP rəhbərliyinin verdiyi siyahıya əsasən əvvəllər SSRİ-də siyasi sığınacaq almış 10-15 nəfərin sovet DTK-sı tərəfindən İrana keçirilməsi barədə Sov.İKP MK katibliyi 1985-ci il dekabr ayının 12-də ST-215/9 q/s №-li tam məxfi qərar qəbul etdi[83]. İrana keçirilən bu şəxslər az sonra həbs edildi və bütün məxfi işlərin, o cümlədən radiostansiyanın yerinin üstü açıldı. Beləliklə, sovet rəhbərliyi radiostansiyanın fəaliyyətini dayandırmağa məcbur oldu.

H.Əliyev Cənubi Azərbaycanda yaşayan gənclərin Azərbaycan SSR-in ali və orta ixtisas məktəblərində təhsil almalarına çalışırdı. O, böyük iradə və inadla cənubi azərbaycanlıların Bakıdakı ali məktəblərdə təhsil alması məsələsini qaldırır və onun müzakirəsini keçirirdi. İranda baş verən inqilabdan sonra onun ideoloqları tərəfindən Kreml «üç

---

[81] РГАНИ, ф.89, оп.15, д. 12, л.1.
[82] РГАНИ, ф.89, оп.15, д. 14, л.1-5.
[83] РГАНИ, ф.89, оп.15, д. 22, л.1-4.

şeytan»dan biri adlandırıldıqda bu məsələ xüsusilə aktuallaşmışdı. Cənubi azərbaycanlıların Azərbaycanda təhsil almaları, qayıtdıqdan sonra vətənlərində işləmələri antisovet təbliğatın zəiflədilməsinə kömək edərdi. Sov. İKP MK bu barədə Azərbaycana müvafiq tövsiyə verdi. Azərbaycan KP MK bürosunun 1981-ci il 2 iyun tarixli iclasında «Azərbaycan millətindən olan iranlıların Bakı şəhərində ali məktəblərə təhsil almaq üçün qəbul edilmələri barədə» məsələ müzakirə olundu[84]. Müzakirə zamanı çıxış edən H.Əliyev məsələnin çox ciddi əhəmiyyət daşıdığını bildirdi. Bu məsələ ilə bağlı qəbul edilən üç maddədən ibarət qərarda deyilirdi: «1. ... 1981/1982-ci tədris ilindən başlayaraq Bakı şəhərinin ali təhsil müəssisələrinə Azərbaycan millətindən olan iranlılardan 10 nəfər qəbul edilsin. 2. Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin rəyasət heyətinə yuxarıda göstərilən tələbələri təqaüdlə təmin etmək üçün vəsaiti və müvafiq yardımları təhsil müddətində ayırsın. 3. Respublikanın Ali və Orta İxtisas Təhsil Nazirliyi Azərbaycan millətindən olan iranlıların uğurlu təhsil almaları üçün qəbul edilməsini, yerləşdirilməsini və müvafiq şəraitlə təmin edilməsini həyata keçirsin»[85].

Bu qərar sovet dövlətinin ümumi məqsədlərinə xidmət etsə də, cənubi azərbaycanlıların maraqlarına tamamilə uyğun idi. Bundan sonra cənubi azərbaycanlıların nümayəndələri tədricən Azərbaycana təhsil almağa gəlməyə başladılar. Onlar üçün lazımi şərait yaradıldı, yataqxana və təqaüdlə təmin edildilər. Həmin gənclərin Azərbaycanda təhsil almaları, xalqın sosial-iqtisadi və mədəni sahədə qazandıqları uğurları əyani görmələri milli şüurun, müstəqillik, Vahid Azərbaycan ideyalarının güclənməsinə kömək edirdi.

H.Əliyev İranda Azərbaycan dilində nəşr olunan qəzet və jurnallarla əlaqələrin yaradılmasına xüsusi diqqət verirdi.

[84] ARSPİHDA, f. 1, siy. 68, iş 83 (84), pr. № 13, § 12.
[85] ARSPİHDA, f. 1, siy. 67, iş 83, pr. № 13, § 12, v. 29.



İnqilabdan sonra yaranmış yeni şəraitdə İranın müxtəlif şəhərlərində qəzet və jurnallar nəşr olunmağa başlamışdı. 1979-cu ilin iyun ayından etibarən Tehranda Azərbaycan dilində «Varlıq» jurnalı nəşr edilirdi. Jurnalın materiallarının bir qismi fars dilində verilirdi. Eyni zamanda jurnalda Azərbaycan dili və ədəbiyyatı, tarixi, incəsənəti və mədəniyyəti məsələləri işıqlandırılır, şair və yazıçıların əsərləri ixtisarla çap olunurdu. Jurnalın doqquzuncu nömrəsində şah rejimi zamanında Azərbaycan dilinin sıxışdırılması ittiham olunurdu. Müəllif azərbaycanlıları ana dilində təhsil almağa, dil və ədəbiyyat tarixi ilə yaxından tanış olmağa çağırırdı. İdeoloji baxımdan İslam dini mövqeyində duran jurnal redaksiyası Azərbaycan islam ədəbiyyatını çap etməyə də fikir verirdi. Jurnalın sahibi olan Cavad Heyət 1946-cı ildə İstanbul Universitetinin tibb fakültəsini bitirmişdi, ürək cərrahiyyəsi üzrə məşhur mütəxəssis idi. O, 20-dən çox beynəlxalq konqresdə iştirak etmişdi. Fransa və İngiltərədə nüfuzlu jurnallarda 20-dən çox məqaləsi çap olunmuşdu. Fransa Elmlər Akademiyasının müxbir üzvü idi. Tehrandakı «Tibb jurnalı»nın 13 il baş redaktoru işləmişdi. Dəyərli «Cərraşiyyə dərsləri» elmi əsərinin müəllifi idi[86]. Şah zamanında xüsusi xidmət orqanı olmuş «Savak» xəstəxanasının rəhbəri işləmişdi.

Cavad Heyət Şimali Azərbaycana səfər etmək istəyirdi. Bu barədə məlumat alan H.Əliyev Cavad Heyəti Bakıya dəvət etdirdi. Səfər zamanı ona hər cür şərait yaradıldı. Onun köməyi və təqdimatı ilə Türkiyəyə və başqa ölkələrə səfərləri çoxalan bir sıra azərbaycanlılar türk elmi və digər dairələri ilə yaxınlaşdılar. Cavad Heyətin Şimali Azərbaycanla əlaqələrinin genişlənməsi cənubluları öz hüquqları uğrunda daha ardıcıl mübarizə aparmağa ruhlandırırdı.

1979-cu ildən Təbrizdə Azərbaycan dilində nəşr olunan «Odlar yurdu» və Urmiyədə çap edilən «Tarla» jurnallarında, Təbrizdə nəşr edilən həftəlik «Araz» qəzetində Azərbaycan xalqının adət-ənənələri, mədəniyyəti, dili ilə bağlı məqalələr

[86] О некоторых изданиях, выпускаемых в Иране. 1980 г. – AR MTN arxivi, iş 495, v. 182.

verilirdi[87]. 1980-ci ilin avqust ayından etibarən Azərbaycan dilində nəşr olunan «Koroğlu» və «Dədə Qorud» jurnallarında Şimali Azərbaycana dair yazılar dərc edilirdi. Materialların bir qismi Bakıdan göndərilirdi.

Bütün bunlar cənubda milli ruhu gücləndirir, Şimali Azərbaycana olan rəğbəti artırır, Bütöv Azərbaycan düşüncələrini genişləndirirdi.

Bu zaman İrandakı rejim azərbaycanlıları sıxışdırmaqdan və amansız repressiyalardan əl çəkmirdi. Məsələn, 1982-ci ilin mart-aprel aylarında İran hakimiyyəti Şərqi Azərbaycanda yaşayan, istefada olan müxalif general-polkovnik Əfşari və Ayatolla Şəriətmədari tərəfdarlarının üzərinə hücuma keçdi. Verilən məlumatlara görə hərbçilər arasında çoxlu tərəfdarları olan müxalifətin məqsədi Təbrizdə üsyana başlamaq, sonra onu genişləndirərək İmam Xomeynini öldürmək idi. Lakin hakimiyyət bu qrupu darmadağın etdi. Qrupun 28 nəfər üzvü istintaqsız, məhkəməsiz Təbris həbsxanasında güllələndi. Əməliyyat zamanı əhalidən odlu silah, sursat, surətçıxarma maşınları götürülərək müsadirə olundu. Rejim əleyhinə olan adamların amansız ovu gücləndirildi[88]. Bütün bunlar İrandakı mövcud rejimdən narazılığı artırırdı.

Belə şəraitdə H.Əliyev cənubdakı azərbaycanlıların hüquqlarının qorunması, onlara mənəvi dəstək verilməsi məsələsini sovet rəhbərliyi qarşısında qətiyyətlə qaldırırdı. Onun Azərbaycan naminə xidmətləri cənublular tərəfindən yüksək qiymətləndirilirdi. Məsələn, 1982-ci ilin sovet agentura məlumatından aydın olur ki, Cənubi Azərbaycanın mütərəqqi ziyalıları Heydər Əlirza oğlu Əliyevlə fəxr edir, onun respublika əhalisinin həyat səviyyəsini yaxşılaşdırması, tərəqqiyə aparması ilə öyünürdülər[89]. Heydər Əliyev cənublular tərəfindən vahid lider, böyük dövlət adamı kimi qəbul edilirdi.

---

[87] Yenə orada.

[88] О положении в Восточном Азербайджана. – AR MTN arxivi, iş 536, v.37.

[89] Об отношении населения Иранского Азербайджана к радио и телепередачам из Советского Союза. AR MTN arxivi, iş 536, v. 13.





[12]

Азәрбајҹан ССР
Дөвләт Тәһлүкәсизлији
КОМИТӘСИ

КОМИТЕТ
Государственной безопасности
Азербайджанской ССР

/II.1980г. № 10/1268

СЕКРЕТНО
Экз. № 2

ЦК КП АЗЕРБАЙДЖАНА

О некоторых изданиях, выпускаемых в Иране.

После революции в феврале 1979 года в различных городах Ирана начали издаваться отдельные журналы и газеты с прогрессивной направленностью. Так, с июня 1979 года в г.Тегеране издается на азербайджанском языке ежемесячный журнал "Варлыг". Небольшая часть материалов печатается и на персидском языке. В журнале освещаются вопросы азербайджанского языка и литературы, истории, искусства и культуры азербайджанского народа. Публикуются выдержки из произведений азербайджанских советских писателей и поэтов. В редакционной статье девятого номера журнала, осуждая существовавшую при шахском режиме дискриминацию в отношении азербайджанского языка, автор призывает к организации обучения азербайджанцев в Иране родному языку, знакомит с историей языка и литературы. Редакция, естественно, стоит на исламских позициях, что находит отражение в некоторых публикациях.

Вместе с тем, [illegible] религиозными кругами [illegible] редакцией [illegible] литературы [illegible], что усматривается из [illegible], публиковать "статьи об азербайджанской [illegible] литературе, которая [illegible]" о том, чтобы "сохранять и развивать это наследие, для передачи его грядущим поколениям".

По имеющимся у нас данным, владельцем и издателем журнала "Варлыг" является Джавад Хеят, который в 1956 году окончил медицинский факультет Стамбульского университета. Известный иранский хирург, специалист по операциям на сердце. Представлял Иран на более чем 20 международных конгрессах хирургов. Во Франции и

13

**СЕКРЕТНО**

Экз.№ 2

**ЦК КП АЗЕРБАЙДЖАНА**

25/01.1982г. 10/092

26/I 82

**Об отношении населения Иранского Азербайджана к радио- и телепередачам из Советского Союза.**

Прием радиопередач, транслируемых из Советского Союза, на всей территории Иранского Азербайджана удовлетворительный, а прохождение телепередач нормальное лишь в пограничных населенных пунктах. В гор.Тебризе и других населенных пунктах, удаленных от границы с СССР, для приема более или менее качественного изображения необходимо устанавливать специальные направленные антенны. Неуклонно растет число устанавливаемых специальных антенн, несмотря на их относительно высокую стоимость. Так например, в Тебризе за последнее время установлено дополнительно около 700 таких антенн, что свидетельствует о росте интереса и популярности передач советского телевидения.

Прогрессивно настроенная часть интеллигенции отмечает, что руководители Советского Азербайджана проявляют постоянную заботу об улучшении благосостояния своего народа и ведут республику по пути постоянного прогресса, при этом в беседах делаются ссылки на выступления тов.Алиева Г.А. Как бесспорное преимущество социалистической системы хозяйствования расцениваются достижения тружеников сельского хозяйства республики в истекшем году. Местное население проявляет большой интерес к передачам телевидения, посвященным труженикам села по проблемам коллективного ведения хозяйства, стирания граней между городом и деревней, творчества поэтов и [illegible] Советского Азербайджана. Несмотря на то, что глушение и создание помех через эфир не проводится, местные власти принимают





меры к ограничению приема передач советского радио и телевидения. Так например был введен штраф в размере 50 тыс.риалов за пользование спецантеннами, что вызвало недовольство жителей.

Многие жители приграничных районов Иранского Азербайджана, в пятницу I января 1982 года не вышли на пятничный намаз, т.к. смотрели по телевидению новогоднюю программу из Баку, это привело к тому, что в городах Анмилар и Гергер произошли столкновения между вооруженными фанатиками и населением. После этого случая борьба с "нарушителями шариата" была активизирована.

По мнению представителей местного населения в радио и телепередачах следует больше уделять времени освещению событий в Иране и в особенности странах региона, к которому причисляется Иран, сообщениям иранской прессы, а также контрпропаганде по разоблачению антисоветски направленных выступлений, содержащихся в радиопередачах западных стран.

Выражается также пожелание увеличить мощность телетрансляторов вдоль границы с Ираном.

37

С Е К Р Е Т Н О

Экз. № 2

1982 г.

ЦК КП АЗЕРБАЙДЖАНА

О положении в Восточном Азербайджане.

В марте-апреле с.г. иранские власти провели ряд карательных операций против оппозиционных режиму сил в Восточном Азербайджане. В результате предпринятых мер была вскрыта и полностью разгромлена группа, возглавляемая генерал-полковником в отставке Афшари, сторонником аятоллы Шариатмадари, имевшим своих надежных людей среди военнослужащих Тебризского гарнизона. Группа намеревалась начать вооруженное выступление в Тебризе, а затем наладить взаимодействие с оппозиционными силами в Тегеране. Конечной целью заговорщиков являлось убийство имама Хомейни, аятоллы Монтазери и захват власти в Иране. В день разгрома группы 28 ее членов без суда и следствия были расстреляны в Тебризской тюрьме.

Власти также учинили расправу над членами Организации федаинов иранского народа (меньшинство) и "Рахе Каргар". Арестовано более 60 человек из организации федаинов, а руководитель группы "Рахе Каргар" в Восточном Азербайджане Мохаммед Хосейн Бабоваи расстрелян.

В ходе проведенных операций власти изъяли большое количество огнестрельного оружия, боеприпасов, печатно-множительной аппаратуры. Каких-либо проявлений протеста против акций властей со стороны местного населения, не наблюдалось. Власти продолжают через своих осведомителей выявлять и преследовать неугодных режиму лиц.



и Англии опубликовано более 20 его статей относящихся к различным проблемам хирургии. Является членом-корреспондентом Академии Наук Франции. В течении 13 лет был главным редактором журнала "Медицинская наука" в Тегеране. Является автором научного труда "Уроки хирургии". Мечтает познакомиться с Советским Азербайджаном, его литературой и научными деятелями.

С августа 1980 года начали издаваться на азербайджанском языке литературные журналы "Кер-оглу" и "Деде-Коркуд". В журнале "Деде-Коркуд" помещены стихи поэтов Советского Азербайджана, в частности Сулеймана Рустама.

С мая 1979 года началось распространение газет на азербайджанском языке "Одлар Юрду" "независимая еженедельная литературно-просветительная газета", издаваемая в Тебризе и "Тирим" - еженедельная сельскохозяйственная и культурно-просветительная газета, не принадлежащая ни одной группе или партии, издаваемая в г.Урмия. Данными об издателях не располагаем.

С мая месяца с.г. в г.Тебризе, на персидском и азербайджанском языках, выходит еженедельная газета "Араз". В редакционной статье так были сформулированы цели издания: излагать политические, экономические и культурные вопросы во имя народа и ради укрепления дружбы между народами, а также для развития и возрождения культуры языка, традиций азербайджанского народа. Редакция обещала отражать "прогрессивные взгляды различных групп" с привлечением прогрессивных писателей Азербайджана, в конечном счете "для победы великой исламской революции".

Тебризская ежедневная газета "Форуге Азади", принадлежащая Сеид Джаваду Кайази рекомендуется как "политическое и критическое издание Азербайджана". Одна страница в газете на азербайджанском языке. Публикует материалы внутриполитического и информационного характера, выходит с мая с.г.

H.Əliyevin Bütöv Azərbaycan naminə çalışmaları xarici ölkələrin tədqiqatçılarının da diqqətindən yayınmırdı. ABŞ tarixçiləri T.Svyatoxovski və B.K.Kollinz yazırlar ki, İran inqilabından sonra aktual olan Vahid Azərbaycan şüarı artıq siyasi məna kəsb etməyə başladı[90]. Başqa bir ABŞ tarixçisi A.D Agostino H.Əliyevin bu sahədəki fəaliyyətinə diqqət yetirərək yazır ki, Azərbaycan rəhbəri İrandakı azərbaycanlılıra qayğı göstərir, Birləşmiş Azərbaycanda «millətin azadlığına» qəti şəkildə tərəfdar çıxırdı. Bu məqsədlə İranda azərbaycanlılar yaşayan ərazilərdə geniş təbliğat işi aparılırdı. Yenə həmin tarixçi yazır ki, Mazandaranda və Xəzər dənizi sahillərindəki İran məntəqələrində daha fəal təbliğat aparılırdı. İran inqilabından sonra Tudə Partiyasına xüsusi diqqət yetirilməsi də bununla da bağlı idi[91].

H.Əliyev Şimali və Cənubi Azərbaycanın gələcəkdə birləşəcəyinə ümid edirdi. T.Svyatoxovski başqa bir əsərində Cənubi Azərbaycan məsələsində Heydər Əliyevin roluna qiymət verərək yazır: «Əgər Təbriz İslamın qalibiyyət rəmzi hesab edilirdisə, Bakı milli dərketmənin rəmzi olaraq qalmaq istəyirdi. Ümumittifaq siyasətin üfüqlərində parlaq bir ulduz olan Əliyev indi öz nitqlərində sovet rejiminin özünün ilk günlərindən müsəlman xalqlarının milli məsələ ilə bağlı istək və arzularını dəstəklədiyini vurğulamağa başladı...

Digər hallarda, Əliyev Şimal ilə Cənub arasındakı dostluq əlaqələrinin bərpası çağırışını təkrar edirdi və London «Tayms»ın verdiyi xəbərə görə Əliyev xarici diplomatlara söyləmişdir ki, o, gələcəkdə hər iki Azərbaycanın birləşməsinə ümid bəsləyir. Çox keçməmiş, 1982-ci ilin payızında Siyasi büronun ən nüfuzlu adamlarından biri kimi yüksək vəzifə tutmaq üçün Əliyev Bakını tərk edərək, Moskvaya yola düşdü. SSRİ-də heç bir azərbaycanlı belə yüksək mövqe tutmamışdı. Həmin vaxt Bakıda hər iki Azərbaycana bölünməz vətən kimi baxılırdı. Vəziyyət elə gətirdi ki, bir xalqı ikiyə bölən sərhəd

[90] Swietochovski T., Collins C. Göstərilən əsəri, p. 8.

[91] D'Agostino A. Gorbachev's Revolution, p. 103.



yarası - qaysaq bağlamamış yara aradan qalxdı (buna hansı yollarla nail olunduğu heç vaxt açıqlanmadığına baxmayaraq). Türkmənçay sazişi tarixi ədalətsizliyin eybəcər yadigarı mahiyyəti kəsb etdi.

Bu bəyanatlar tamamilə yeni olmasa da, onlara bəslənilən inam və geniş əhatə dairəsi yeni xarakter daşıyırdı. Əhəmiyyətli cəhət ondan ibarət idi ki, bu bəyanatların ancaq elmi əsərlərdə və jurnallarda işlənməsinə qoyulan məhdudiyyətin aradan qaldırılması ilə kifayət etmədi. Üstəlik bədii-kütləvi və həftəlik jurnallarda, teatr tamaşalarında işlənməsinə yol açıldı. Dirçəlmiş sovet Panazərbaycan təbliğatı, öz işində bir pillə yuxarı qalxsa da, hələ də gündəlik qəzetlərə, xüsusilə rus dilində çıxan qəzetlərə yol tapmamışdı. Bu isə yüksək dairələrin rəsmi razılığı olmadığına bir işarə idi. Tehrana qarşı məkrli oyun oynayan Moskva uzun müddət davam edəcək hər hansı bir tədbirə baş qoşmaq niyyətində deyildi.

Bakıda sanki idarə edənlərlə idarə olunanlar arasında sakitcə razılaşma yolu ilə gedən «Vahid Azərbaycan» kampaniyası Ermənistan və Gürcüstanda artmağa başlayan dissident hərəkatlarının Azərbaycan bənzəri rolunu oynadı. Meydana gələn müstəqil ictimai fikri cilayanlar öz növbəsində sərhədin o tayı ilə birləşmək arzusunun, tam olmasa da, qismən dəstəklənməsini rəğbətlə qarşıladılar. Bu arzunu təşviq etmək üçün həyata keçirilən tədbir hansı xarakterdə olursa-olsun, Azərbaycan milli dərketmə şüuruna fayda verəcək və ikiyə parçalanmış bu torpağın hər iki hissəsi arasındakı dostluq əlaqələrinin hər hansı şəkildə bərpası istər farslaşdırma, istərsə də ruslaşdırma fonunda azərbaycançılıq mövqeyini gücləndirəcəkdi»[92]. Görkəmli tarixçi alim T.Svyataxovskinin verdiyi bu qiymət H.Əliyevin Bütöv Azərbaycan naminə çalışmalarının mahiyyətini açır, bu fikrin məhz onun tərəfindən ictimai şüura yeridildiyini, xalqın içində yayıldığını göstərir. Doğrudan da, hansı xarakter daşımasına baxmayaraq, Vahid Azərbaycan, Azərbaycan birliyi

[92] Svyatoçovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə, s.260-261.

şüarı azərbaycanlıların milli şüurunu, azərbaycançılığı gücləndirirdi.

Göründüyü kimi, H.Əliyevin Bakıya cənuba təsir edən milli mərkəz kimi baxması, Vahid Azərbaycan, Bütöv Azərbaycan şüarını təşviq etməsi, cənubla bağlı ziyalıları düşündürən problemləri özü qaldıraraq dissidentlərin yaranmasına yol verməməsi, şəxsi fəaliyyəti ilə Bütöv Azərbaycan xalqının liderinə çevrilmişdi. Svyataxovskinin qeyd etdiyi kimi, rus dilli mətbuata çıxmadığından Moskvanın razılığı olmadığı anlamına gəldiyinə baxmayaraq, H.Əliyev iki Azərbaycanın gələcəkdə birləşəcəyinə inanır və bu məqsədlə əzmlə çalışırdı. Eyni zamanda hansı yollarla edildiyi açıqlanmasa da, o, sərhəd yarasını aradan qaldırmışdı. Cənub məsələsində xalqın və hakimiyyətin mövqeyində, idarə edənlərlə idarə olunanlar arasında heç bir fərq mövcud deyildi. Bütöv Azərbaycan fikri yuxarıdan gələrək cəmiyyətə yayılırdı. Bu istiqamətdəki bütün fəaliyyətlərinə görə H.Əliyev Bütöv Azərbaycanda böyük nüfuz qazanmışdı.

* * *

Beləliklə, həm tarixi-nəzəri, həm də praktik baxımdan Cənubi Azərbaycan məsələsini dərindən, mükəmməl bilən H.Əliyev hakimiyyətdə olduğu illərdə ona xüsusi önəm verirdi. O, sovet dövlətinin İrana münasibətdə yeritdiyi siyasətdə Azərbaycanın rolunu yüksəldir, cənubi azərbaycanlıların problemlərinin həllinin vacibliyini qabardır, fəaliyyəti ilə eyni zamanda ümummilli məsələlərə xidmət edirdi. Cənub məsələsi yeni olmasa da, ona bəslənilən inam və geniş əhatə dairəsi yeni idi. H.Əliyevin bu sahədəki fəaliyyəti bir neçə istiqamətdə həyata keçirilirdi: Cənubi Azərbaycandan olan ziyalılara xüsusi qayğı göstərir, Cənub mövzusunun unutdurulmamasına çalışır, ağır sovet rejimi şəraitində nəinki bu işin öhdəsindən böyük ustalıqla gəlir, eyni zamanda Bütöv, Vahid Azərbaycan ideyasının yayılmasını təşviq edir, alim, yazıçı və şairləri



Cənub mövzusundan yazmağa çağırır, Cənubi Azərbaycandan olan şair və yazıçıların məişət şəraitinin yaxşılaşdırılması üçün sərəncamlar verir, mənzillə təmin edir, dövlətin ən yuksək orden və medalları ilə təltif edilməsi barədə məsələ qaldırır, İrana və Cənubi Azərbaycan şəhərlərindəki kitabxanalara kitab göndərilməsini genişləndirir, Azərbaycanın hər iki tayından olan yaradıcı adamların əlaqə qurmasına, mətbuatda təbliğ edilməsinə imkan verir, Azərbaycan SSR-də yaşayan cənubluların Cənubi Azərbaycana pul baratları göndərmələrinə şərait yaradır, həm Şimali, həm də Cənubi Azərbaycanda yaşayan cənubluların Bakıda ali və orta ixtisas məktəblərində təhsil almalarına, mütəxəssis kimi yetişmələrinə çalışır və buna uğurla nail olurdu.

H.Əliyev azərbaycanlıları şimallılara və cənublulara bölmür, onların fəaliyyətini vəhdətdə görürdü. Sonrakı illərdə o deyirdi: «Fərqi yoxdur, bizim aramızda bir Araz var. Rəhmətlik Şəhriyar da bu barədə nə deyib, yadınızdadır... İndi nə olsun ki, vaxtilə aramızı kəsdilər. Aramızı Araz kəsmədi, bizi parçaladılar. Nə olsun? Nə fərqi var ki, biri o tayda, biri bu tayda doğulubdur? Hamısı azərbaycanlıdır. Ona görə də gəlin daha da birləşək, bir olaq»[93].

Bədii ədəbiyyata Cənub mövzusunun daha güclü şəkildə gətirilməsi və təbliği H.Əliyevin adı ilə bağlıdır. Məhz onun sayəsində Cənub mövzusu teatr tamaşalarına, radio və televiziya verilişlərinə gətirildi, unutdurulmasına imkan verilmədi. Vahid Azərbaycan, Bütöv Azərbaycan, Panazərbaycan şüarları iki Azərbaycanın birləşəcəyinə ümid edən H.Əliyevin sayəsində ictimai-siyasi mühitdə ciddi müzakirə obyektinə çevrilmişdi. O, Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların milli azadlığa qovuşması və Vahid Azərbaycan məsələsini hətta ölkə rəhbərliyi qarşısında qaldırmışdı. Cənub mövzusunu ədəbi və publisistik mövzudan siyasi müzakirələr predmetinə çevirən H.Əliyev cənubi azərbaycanlıların hüquqlarının qorunmasının və onların istiqlalının qatı tərəfdarı

[93] Azərbaycan beynəlxalq aləmdə. III cild, s. 584.

idi. Həm də təkcə tərəfdarı deyildi, eyni zamanda bu istiqamətdə fəal və strateji əhəmiyyətli tədbirlər həyata keçirirdi. Əslində bu fəaliyyəti ilə H.Əliyev Bütöv Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların ümumi, vahid liderinə çevrilmişdi. Hansı ideoloji-siyasi sistem çərçivəsində olmasından və hansı məqsədlər güdməsindən asılı olmayaraq, H.Əliyevin Cənubi Azərbaycan məsələsinə diqqət yetirməsi xalqın milli özünüdərkini, özünə inamını, Bütöv Azərbaycan idealını, müstəqil dövlətçilik hisslərini gücləndirirdi.



# XIV FƏSİL

## HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI

H.Əliyev SSRİ-nin Yaxın və Orta Şərq siyasətinin həyata keçirilməsində əsas dövlət xadimi hesab edilirdi. Türk və müsəlman dünyası istiqamətində siyasətini yeridərkən sovet rəhbərliyi onun tövsiyələrini dinləyir və nəzərə alırdı[1]. SSRİ ilə ABŞ arasında türk dünyasında nüfuz qazanmaq uğrunda gərgin mübarizənin getdiyi bir zamanda belə nüfuzlu türk siyasi xadimin tövsiyələri ciddi əhəmiyyət daşıyırdı. Buna görə də H.Əliyevin baxışları və fəaliyyətində Türkiyə və türk dünyası ilə əlaqələrin qurulub inkişaf etdirilməsi xüsusi yer tuturdu. Onun bu sahədəki mövqeyi Azərbaycan daxilindəki fəaliyyətdə, SSRİ-nin türk xalqlarına münasibətdə, Türkiyə və türk dünyası ilə əlaqələrin qurulub inkişaf etdirilməsində özünü büruzə verirdi. H.Əliyev sovet dövlətinin Yaxın və Orta Şərq siyasətinin həyata keçirilməsindən Azərbaycanın mənafeləri naminə məharətlə istifadə edir, respublikanın rolunu gücləndirir, Azərbaycan xalqının nüfuzunu artırırdı.

H.Əliyev türk dünyası yolunda çalışmalarını heç bir şüar söyləmədən və idealizmə yol vermədən, «türklük» ifadəsini işlətmədən dərin elmi əsaslarla, ehtiyatla həyata keçirirdi. O ilk növbədə türkçülüyün əsaslarından biri olan «xalqa doğru getməni» Azərbaycanda böyük məharətlə yerinə yetirirdi. Türkçülüyün əsaslarını yaradan Ziya Göyalp vaxtilə yazırdı ki, türkçülüyün ilk əsaslarından biri də «xalqa doğru»

[1] Solovyov V., Klepikova E. Behind the high Kremlin Walls, p. 64.

prinsipidir[2]. Sonra isə soruşurdu: xalqa doğru getməli olanlar kimlərdir? Bu suala özü də belə cavab verirdi: xalqa doğru gedənlər millətçi ziyalılar, yüksək tədbir və təhsil görmüş adamlardır. Xalqa doğru getmək xalqdan milli mədəniyyət tərbiyəsi almaq və xalqa mədəniyyət aparmaq məqsədi güdür. Xalq milli mədəniyyətin canlı muzeyidir. Qeyd etmək lazımdır ki, hələ Mustafa Kamal Paşa 1925-ci il oktyabr ayının 18-də Konyada müəllimlərlə görüşündə söylədiyi nitqində demişdi: «Millət və məmləkət xidmətində öndər olmaq istəyənlərin ilham qaynağı millətin gerçək duyğuları və hərəkətləridir»[3].

H.Əliyev hakimiyyəti illərində daim xalqının içərisinə gedir, həyatı, düşüncələri ilə yaxından tanış olur, problemlərini həll edirdi. Azərbaycan rəhbəri yalnız bununla kifayətlənmirdi. O, ziyalıları xalqın içinə getməyə qətiyyətlə çağırır, yönəldir və bu məsələdə onlara bilavasitə rəhbərlik edirdi. Azərbaycan rəhbəri öz nitqlərində yazıçı, şair və publisistləri xalq içərisinə getməyə, onun həyatına yaxından bələd olmağa və xalqdan yazmağa çağırır, bundan ötrü zəruri olan bütün şəraiti yaradırdı. H.Əliyev onlara «xalqın içinə gedin» deyirdi.

H.Əliyev Azərbaycanı SSRİ-də türkologiya sahəsində ən qabaqcıl mərkəzə çevirməyə nail olmuşdu. Bu məqsədlə o, Azərbaycanda türkologiya sahəsində dərin tədqiqatların aparılmasına şərait yaradır, müvafiq elmi strukturlar qurur, həmin sahədə çalışan alimlərə xüsusi qayğı göstərir, onların arasında sıx birliyin bərqərar olmasına çalışır, türkologiyaya dair əsərlərin, qədim tarixi əlyazmaların nəşrini daim gündəlikdə saxlayaraq təşviq edirdi. Azərbaycan rəhbəri dilçilik sahəsində kitab, monoqrafiya və dərsliklərin yazılmasına xüsusi diqqət yetirirdi. ADU-da türkologiya kafedrası H.Əliyevin hakimiyyəti illərində açıldı, Universitetin şərqşünaslıq fakültəsinin türk dili və ədəbiyyatı bölümünə diqqət artırıldı. EA-nın Şərqşünaslıq institutunda müvafiq şöbələr yaradıldı. Türkologiya sahəsində araşdırmaların aparılması genişləndirildi.

[2] Ziya Göyalp. Türkçülüyün əsasları, s.50.

[3] Atatürkün söylev və demeclerinin konuları indeksi: Hazırlayan Doç. Dr. Mehmet Evsile. Ankara, 1999, s. 75.



H.Əliyev türkologiya sahəsində çalışan alimlərə xüsusi qayğı göstərir, problemlərinin həll edilməsi üçün göstərişlər verir, yubileylərini təntənəli şəkildə keçirirdi. SSRİ-nin türkdilli respublikaları arasında ilk dəfə olaraq Azərbaycanın dialektoloji atlasını tərtib edən, lakin əvvəlki illərdə gözümçıxdıya salınan M.Ş.Şirəliyevin dövlət mükafatına təqdim edilməsi və yubileyinin təntənəli şəkildə keçirilməsi haqqında məsələ onun təşəbbüsü ilə MK-nın buro iclasında müzakirəyə çıxarıldı. H.Əliyev 1969-cu il avqust ayının 12-də Sov. İKP MK-ya məktub yazaraq M. Şirəliyevin Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi haqqında məsələ qaldırdı[4] və istəyinə nail oldu. H.Əliyevin sədrliyi ilə 1969-cu ilin sentyabr ayında keçirilən Azərbaycan KP MK bürosunun iclasında alimin 60 illik yubileyinin bayram edilməsi haqqında qərar qəbul olundu. Qərarda M.Şirəliyevin türkologiya sahəsindəki xidmətləri xüsusi qeyd olunur və o, görkəmli alim kimi xarakterizə edilirdi[5]. Alimin təntənəli yubiley tədbiri keçirildi.

SSRİ EA və Azərbaycan EA-nın birgə nəşri olan «Sovet türkologiyası» jurnalı 1970-ci ildən etibarən Azərbaycanda nəşr olunmağa başladı. Redaksiya üçün hər cür şərait yaradılmışdı. Onun yeni redaktoru da məhz M.Ş.Şirəliyev təyin edildi. Qısa müddət ərzində bu jurnal sovet və dünya türkologiyasında böyük nüfuz qazandı. Azərbaycan artıq 70-ci illərdə H.Əliyevin sayəsində dünyada qabaqcıl türkoloji mərkəzə çevrilmişdi.

H.Əliyev qədim türk yazılı abidələrinin Azərbaycan dilinə çevrilməsinə qayğı göstərir, bu sahədə araşdırmalar aparan alimlər arasında yekdilliyə nail olunmasına çalışır, bunu qətiyyətlə tələb edir və mövcud qüsurların aradan qal-

[4] Yenə orada, s. 197-198.

[5] Yenə ordada, s. 195.

dırılması üçün müvafiq tövsiyələr verirdi. O, işdə olan qüsurları bəzən ürək ağrısı və çılpaqlığı ilə yüksək kürsülərdən söyləyirdi. Məsələn, H.Əliyev yazıçıların VII qurultayındakı nitqində açıq şəkildə deyirdi: «...yaradıcı təşkilatlar və müxtəlif sahələrin ziyalıları arasında birlik zəifdir. Belə fikir birliyinin olmamasının və öz tariximizi hələ də layiqincə dərk edə bilmədiyimizin nəticəsidir ki, Azərbaycan ensiklopediyasının ilk nömrəsi Azərbaycansız çıxıb. Türkdilli xalqların ölməz abidəsi «Divani-lüğətit-türk» nəşrə hazırlansa da, on beş ildir toz altında yatıb qalıb. Birbaşa xalqımızın keçmiş mədəniyyəti ilə bağlı olan yüzlərlə ədəbi-bədii, tarixi əsər hələ də dilimizə çevrilməmişdir. Bunsuz inkişafı təsvir etmək çətindir»[6]. Göründüyü kimi, H.Əliyev bu istiqamətdə inkişafa nail olmaqdan ötrü tədqiqatçılar arasında birliyin, əməkdaşlığın qurulmasını, xalqın tarixinin lazımınca dərk edilməsini, tarixi və milli köklərə sıx bağlılığı, qədim yazılı abidələrə qayğı göstərilməsini tövsiyə edirdi.

H.Əliyev türkdilli tarixi abidələrə ekran həyatı verilməsi işinə təşəbbüs edərək buna uğurla nail olurdu. O belə hesab edirdi ki, geniş tamaşaçı auditoriyası toplayan əsərlər tez yayılır, kütləviləşir, xalqın milli özünüdərkində, tarixi köklərə qayıdışında mühüm rol oynayır. Artıq qeyd edildiyi kimi, əvvəlki illərdə «Kitabi-Dədə Qorqud» Azərbaycan rəhbərləri tərəfindən antixalq kimi dəyərləndirilmiş, hətta Azərbaycan xalqına aidiyyatı olmadığı göstərilmişdi. Eyni zamanda 70-ci illərdə İranda azərbaycanlı ziyalıların «Kitabi-Dədə Qorqud» dastanını nəşr etmələrinə icazə verilməmişdi. Beləliklə, bölünmüş vətənin həm şimalında, həm də cənubunda «Kitabi-Dədə Qorqud» gözümçıxdıya salınmışdı. H.Əliyev isə belə yanlış, zərərli yanaşmaya qarşı çıxaraq «Kitabi-Dədə Qorqud» dastanına olan münasibəti kökündən dəyişdirdi. Bilavasitə onun qayğısı altında türk dünyasının möhtəşəm abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanı əsasında «Dədə Qorqud» bədii filmi çəkildi. Azərbaycan KP

[6] ARƏİDA, f. 340, siy. 1, bağ. 71, iş 1964, v. 108.



MK bürosunun iclasında filmin çəkilməsi barədə məsələ geniş müzakirə olundu. H.Əliyev çıxış edərək filmin yüksək bədii, elmi və tarixi tələblərə cavab verməsinin vacibliyini bildirdi. O, filmin çəkilişinə bilavasitə nəzarət, meydana çıxan problemləri isə dərhal həll edirdi. Böyük ustalıqla çəkilən və ekranlara çıxan «Dədə Qorqud» filmi böyük tamaşaçı rəğbəti qazandı, geniş əks-səda doğurdu. Kinofilm haqqında Mərkəzi Komitənin orqanı olan «Kommunist» qəzetində dərc edilən rəydə deyilirdi: «Əsərin dili də türkdilli xalqlardan ən çox Azərbaycan dilinə yaxındır»[7]. Filmin ərsəyə gəlməsi Azərbaycan xalqının qan yaddaşını, tarixini, milli kimliyini dərk etməsinin gücləndirilməsində H.Əliyevin böyük xidməti idi.

H.Əliyevin türklüyə diqqət və qayğısı böyük türkçü, turançı mütəfəkkir olan H.Cavidə münasibətdə özünü göstərdi. Onun məzarının vətəninə köçürülməsi 30-cu illərdə Azərbaycandan didərgin salınmış türkçülüyün sözdə deyil, işdə, əməldə vətənə qaytarılması demək idi. Bəraət qazanmasına baxmayaraq, Cavidin məzarının Azərbaycana köçürülməsi sovet sistemi, vahid dövlət, ümumi ölkə şəraitində xeyli çətin, mürəkkəb bir iş idi. Lakin onu H.Əliyev böyük uğurla başa çatdırdı. O, xəyali deyil, mövcud şərtləri nəzərə alaraq türk dünyasına, ilk növbədə onun bir parçası olan, türk xalqları arasında qızıl körpü rolunu oynayan Azərbaycana xidmət edən dövlət xadimi idi. H.Əliyev bu məsələlərdə məqam düşdükdə ən minimum imkandan belə xalqın xeyrinə məharətlə istifadə edirdi. Məlum olduğu kimi, siyasət də elə mümkünlük sənətidir. H.Əliyevin təşəbbüsü və sədrliyi ilə H.Cavidin yubileyinin keçirilməsi barədə Azərbaycan KP MK bürosu müvafiq qərarlar qəbul etdi və onlar da uğurla yerinə yetirildi.

H.Əliyevin fəaliyyətində Məshəti (Axısxa) türklərinə qayğı başlıca yerlərdən birini tuturdu. İkinci dünya müharibə-

[7] Əfqan Ə. Dədə Qorqud ekranda. – «Kommunist» qəzeti, 1977, 15 yanvar, №12, (16447)

sində doğma torpaqlarından deportasiya edilən, min bir fəlakətlərə düçar olan Məshəti türklərinin bir qismi stalinizm dövrü başa çatdıqdan sonra Gürcüstana deyil, Azərbaycana pənah gətirmişdilər. H.Əliyev Azərbaycanda yaşayan Məshəti türklərinin problemlərinin həllini daim diqqətdə saxlayır, onların savadlanması, təhsil alması üçün təşəbbüslər göstərir və uğurlu qərarlar qəbul edilməsinə nail olurdu. Özü də bu işə hakimiyyyətə gəldikdən heç bir ay keçməmiş başlamışdı. Onun sədrliyi ilə Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında respublikanın bəzi rayonlarında yaşayan Məshəti türklərindən və ingiloylardan 86 nəfərin müstəsna hal kimi 1969-cu ildə ali məktəblərə qəbul edilməsi haqqında qərar qəbul olundu[8]. Saatlı, Sabirabad, Xaçmaz, Zaqatala, Quba və Beyləqandan olan bu gənclər Azərbaycanın 10 ali məktəbinə müsabiqədənkənar daxil edildilər[9]. Sonrakı illərdə də bu iş uğurla davam etdirildi. 1981-ci ildə Sabirabaddan 16, Saatlıdan 31, Xaçmazdan 3 nəfər Məshəti türkü müsabiqədənkənar yolla ali məktəblərə qəbul olundular[10]. H.Əliyev Məshəti türklərinin içərisindən ixtisaslı kadrların yetişmələrinə, dövlətin müxtəlif mükafatları ilə təltif edilmələrinə böyük əzmlə nail olurdu. Məshəti türkləri H.Əliyevlə fəxr edir, onu türk dünyasının böyük siyasi xadimi, milli lider kimi qəbul edirdilər.

H.Əliyev öz fəaliyyətində Türkiyəyə, türk və müsəlman dünyasına daha geniş baxaraq onları vəhdətdə görürdü. Müsəlman Şərqi problemlərinin mahir bilicisi hesab edilən H.Əliyev bu məsələdə özünün mükəmməl nəzəri biliyi və nəhəng praktik fəaliyyəti ilə digər sovet türk və müsəlman respublikalarının rəhbərlərini xeyli geridə qoymuşdu. SSRİ-nin siyasi rəhbərliyi müsəlman Şərqi məsələlərinin müzakirəsi və bu ölkələrə münasibətdə qərarların qəbulu zamanı onun fikir və tövsiyələrini dinləyir, əsas götürürdü.

[8] ARSPİHDA, f. 1, siy. 56, iş 49, pr. № 107, §21, v. 13.
[9] Yenə orada, v. 113.
[10] ARSPİHDA, f. 1, siy. 68, iş 400, v. 177-179.



Xüsusən İran inqilabı və Əfqanıstana sovet müdaxiləsindən sonra iki sistem ölkələri arasında münasibətlər kəskinləşdikdə H.Əliyev türk və müsəlman respublikalarının dünyanın müsəlman xalqları üçün nümunə rolu oynaması zəruriliyinə dair oz baxışlar sistemini ortaya qoyaraq sovet rəhbərliyini inandıra bildi. Elə bundan da istifadə edərək Azərbaycanın və digər müsəlman, türk respublikalarının sosial-iqtisadi və mədəni inkişafına sovet dövlətinin qayğısının artırılmasına nail oldu. O, müsəlman ölkələrində sovet nüfuzunu yaymaq üçün Mərkəzi Asiya respublikaları xalqlarının adət-ənənələrinin sərbəst inkişafının və maariflənməsinin vacibliyini dövlət rəhbərliyinə bildirmişdi. Azərbaycan rəhbərinin fikrincə, yalnız inkişaf etmiş Türküstan müsəlman Şərqi üçün nümunə rolunu oynaya bilərdi. H.Əliyev SSRİ rəhbərliyinə məsləhət bilirdi ki, Yaxın və Orta Şərqin müsəlman ölkələrində bu xalqların bir əlində K.Marksın «Kapital» əsəri, digər əlində isə «Quran» olmaqla sosial-iqtisadi dəyişikliklər etmək olar. Onun fikrincə, geri qalmış Türküstanın müsəlman qonşularına təsir imkanı xeyli aşağı olardı[11]. Buna görə də H.Əliyev Türküstanın sosial, iqtisadi, siyasi və mədəni cəhətdən inkişaf etdirilməsinə, burada yaşayan xalqların nümayəndələrindən ali təhsilli mütəxəssislərin geniş hazırlanmasına, vəzifələrdə irəli çəkilməsinə daha çox diqqət yetirilməsini tövsiyə edirdi. Belə tədbirlər eyni zamanda həmin xalqlar arasında milli şüurun yüksəlməsinə və milli özünüdərkə kömək edirdi.

Bu məqsədləri həyata keçirmək üçün H.Əliyev SSRİ-nin türk və müsəlman xalqları arasında mədəni əlaqələrin gücləndirilməsinə təşəbbüs edir, tərəfdar olur və bu sahədə mərkəzin icazəsi ilə konkret fəaliyyət göstərirdi. Onun fikrincə, SSRİ-nin türk xalqları arasında mədəni əlaqələrin genişləndirilməsi həm ölkə daxilində birliyə daha çox kömək edər, həm də onları türk və müsəlman dünyası üçün cəlbedici

[11] D'Agustino A. Gorbachev's Revolition, p. 103.

edərdi. Buna görə də H.Əliyev böyük əzmlə bu sahədə konkret qərarların qəbul edilməsinə nail olurdu. Məsələn, hələ Azərbaycan KP MK bürosunun 1970-ci il 25 fevral tarixli iclas qərarı ilə qazax şairi Abay Kunanbayevin 125 illiyi Azərbaycanda təntənəli şəkildə qeyd edildi[12]. Onun və Azərbaycana, Bakıya şerlər həsr etmiş Cambulun əsərləri Azərbaycan dilinə tərcümə olundu. Bütün bu tədbirlər SSRİ-nin türk xalqlarının tarixini, dilini, mənəvi və əxlaqi dəyərlərini bir-birinə daha da yaxınlaşdırırdı.

MK bürosunun 1978-ci il 14 aprel tarixli iclasında görkəmli özbək yazıçısı, pedaqoqu və alimi, özbək ədəbiyyatının klassiki, mənşəcə azərbaycanlı olan Maqsud Şeyxzadənin anadan olmasının 70 illiyinin Azərbaycanda keçirilməsinə dair tədbirlər planı bəyənildi, onun əsərlərinin Azərbaycan dilinə çevrilməsi barədə göstəriş verildi[13]. Həmin qərar uğurla yerinə yetirildi.

MK bürosunun 1978-ci il 25 mart tarixli iclasında Özbəkistanda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi və Azərbaycanda cavab tədbirlərinin təşkil oluması barədə qərar qəbul edildi[14]. Daşkənddə və başqa şəhərlərdə Azərbaycan milli mədəniyyətinin nümunələri nümayiş etdirildi. Heç şübhəsiz, mədəniyyət günləri eyni kökə malik olan iki xalq arasında əlaqələrin inkişafında mühüm rol oynayırdı. Keçirilən tədbirlərdə özbək və Azərbaycan musiqisinin səsləndirilməsi, kitab mübadiləsi xalqların bir-birinə yaxınlaşmasında, milli oyanışında müstəsna əhəmiyyət daşıyırdı. Xalqlar öz tarixi keçmişləri və gələcək inkişaf yolları barədə düşünürdülər. Bu isə türk dünyası yolunda geniş strateji fəaliyyətin tərkib hissələrindən biri idi.

H.Əliyev bu barədə öz fikir və düşüncələrini açıq-aşkar söyləyirdi. Məsələn, 1979-cu ilin iyun ayında Azərbaycanda keçirilən Özbəkistan ədəbiyyatı və incəsənəti günlərində

[12] ARSPİHDA, f. 1, siy. 57, iş 25 (26), pr. №121, § 45.
[13] ARSPİHDA, f. 1, siy. 65, iş 51, pr. №66, § 9, v. 86.
[14] ARSPİHDA, f. 1, siy. 65, iş 64 (66), pr. №71, § 8.



özbək nümayəndələri ilə görüşündəki nitqində H.Əliyev qeyd edirdi: «Özbək və Azərbaycan xalqlarının əlaqələrinin qədim zəngin tarixi vardır»[15]. O, daha sonra deyirdi: «Mədəniyyət günləri xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına, mədəniyyətlərinin qarşılıqlı surətdə zənginləşməsinə... kömək edəcəkdir»[16].

Özbək nümayəndə heyətinin şərəfinə verilən ziyafətdə H.Əliyev deyirdi: «Özbəkistan ədəbiyyatı və incəsənəti sizin günəşli respublikanıza səyahətə çıxmaqda bizə kömək etdi və Səmərqənd və Buxaranın orta əsr memarlıq inciləri... canlandı»[17]. O daha sonra bildirirdi: «Xalqlarımızın tarixində ümumi cəhətlər çoxdur, onların taleyi eynidir». Qeyd etmək lazımdır ki, özbək tarixi, ədəbiyyatı və mədəniyyətini gözəl bilən H.Əliyev hələ memarlıq fakültəsində oxuyarkən «Reqistan» məqbərəsini, özbək xalqının və Şərqin memarlıq incilərini dərsliklərdən oxumuşdu. O, türk və Şərq memarlıq abidələrinin vurğunu olduğundan onların qorunması və təbliğini böyük enerji və məharətlə davam etdirirdi.

1980-ci ildə Özbəkistanda Azərbaycan ədəbiyyatı və mədəniyyəti günlərinin uğurla keçirilməsi[18] hər iki xalqın mədəni həyatında mühüm hadisə olub, onların yaxınlaşmasında əsaslı rol oynadı. Özbəkistanda Azərbaycan, Azərbaycanda isə özbək mədəniyyəti günləri kütləvi informasiya vasitələrində geniş təbliğ edildi.

H.Əliyevin eyni kökdən olan iki xalq arasında mədəni əlaqələrin inkişafı yolundakı çalışmalarına Özbəkistanın rəhbəri Şərəf Rəşidovla şəxsi dostluğu da kömək edirdi. 70-80-ci illərdə türk respublikalarının xalqları və rəhbərləri bir-birinə həyan və arxa olurdular. Hətta Şərəf Rəşidovun povesti əsasında görkəmli Azərbaycan bəstəkarı Arif Məliko-

[15] «Kommunist» qəzeti, 1979, 5 iyun, № 126 (172 65).
[16] Yenə orada.
[17] Qardaş mədəniyyətlərin bayramı. – «Kommunist» qəzeti, 1979, 14 iyun, № 134 (17173).
[18] «Kommunist» qəzeti, 1980, 5 iyun, № 130 (17466).

vun yaratdığı «İki qəlbin əfsanəsi» adlı gözəl bir balet əsəri Daşkənd opera və balet teatrında uğurla tamaşaya qoyulmuşdu. Şərəf Rəşidovun romanları Azərbaycan dilinə tərcümə edilmişdi. 70-ci illərdə Azərbaycan rejissorları Daşkənd teatrlarında çalışırdılar. Özbək müğənniləri Bakıda böyük coşqu ilə qarşılanan konsertlər verirdilər.

H.Əliyev SSRİ-nin türk respublikalarının problemlərini dərindən bildiyindən Moskvada işlərkən də sovet rəhbərliyinə dəyərli tövsiyələrini verirdi. Lakin M.S.Qorbaçov SSRİ-nin türk respublikalarının rəhbərlərini çıxarıb yerlərinə rusları və başqa millətlərin nümayəndələrini təyin edəndə H.Əliyev onunla görüşərək bunun yanlış olduğunu söyləyib qəti etirazını bildirmişdi. Qazaxıstanın 22 il rəhbəri işləmiş, qazax Dinmühəmməd Kunayevə qarşı ədalətsizlik edilərək 1986-cı ilin dekabr ayında istefaya göndərildi. Qorbaçov onun yerinə rus millətindən olan yaxın adamı N.Kolbini təyin etdikdə H.Əliyev yenə də bunun yolverilməzliyini, Qazaxıstanın böyük bir respublika olduğunu və respublikaya həmişə qazaxların rəhbərlik etdiyini, Kunayevin yerinə rus millətindən olan şəxsin göndərilməsinin doğru olmadığını söyləmişdi. Cavabında isə Qorbaçov demişdi ki, qazaxlar özləri Kolbini xahiş ediblər. Əlbəttə, zəif və səriştəsiz dövlət başçısı olan Qorbaçov yalan danışırdı. Əslində qazaxlar belə bir xahiş etməmişdilər. Buna görə də onlar yeni təyin olunan adamı qəbul etməyərək üsyana başladılar. Sovet hakimiyyəti Qazaxıstanda baş verən üsyanı amansızlıqla yatırdı. Üsyançıların bir hissəsi həbs edildi, bəziləri isə amansızlıqla qətlə yetirildi. Bundan sonra Sov. İKP MK «Qazax millətçiliyi» haqqında xüsusi bir qərar qəbul etdi. Qazax xalqına qarşı ədalətsiz olan bu qərara H.Əliyevin qəti etirazına baxmayaraq, Qorbaçov öz bildiyini etdi.

Bu hadisədən sonra Qazaxıstanda antirus və antisovet vərəqələr, meyllər daha da gücləndi. Böyük şəhərlərdə antisovet vərəqələr yayılır, təbliğat genişlənirdi. SSRİ DTK-nın sədri V.Çebrikovun 1987-ci il 26 fevral tarixli 346-E №-li



tam məxfi məruzəsindən məlum olur ki, 1986-cı il dekabrın 17-dən 31-dək Qazaxıstanda 780 vərəqin, 3 məktubun və 76 antirus istiqamətli yazıların yayılması üçün 128 hadisə qeydə alınmışdı[19]. Qazaxıstanda millətçi ovu gücləndirildi.

Başqa bir misal. Şimali Qafqazda kiçik müsəlman respublikası olan Kabarda-Balkariya Muxtar Respublikasının rəhbəri, müsəlman Malbaxovu vəzifəsindən çıxaran Qorbaçov onun yerinə Sibirdən bir rusu gətirib qoymaq istəyirdi. H.Əliyev türklərə və müsəlmanlara qarşı yönəlmiş bu ayrı-seçkilik hərəkətinə də etiraz etdi. Lakin belə yanaşma Qorbaçovun xoşuna gəlmirdi. Özünün fəal və aydın mövqeyini söyləyən, türklərə və müsəlmanlara qarşı yeridilən ayrı-seçkilik, ədalətsiz siyasətə, milli dillərin sıxışdırılmasına etiraz edən H.Əliyev artıq Sov. İKP MK Siyasi bürosunda arzuolunmaz şəxsə çevrilmişdi. ABŞ tarixçiləri yazır ki, Moskva milli dilləri sıxışdıranda H.Əliyev etiraz edərək bunun yanlışlığını söylədi və milli dillərin müdafiəçisi oldu. Belə mövqe qatı ruslaşdırmanın tərəfdarı olan şəxsləri narahat etməyə başladı. Artıq H.Əliyev türk və müsəlman dünyasına dair məxfi qərarların qəbul olunduğu Siyasi büroda arzu edilən deyildi. Sovet rəhbərliyi ondan qorxmağa başlamışdı.

H.Əliyev Azərbaycanın təkcə Türküstanda yerləşən türk respublikaları deyil, eyni zamanda ölkənin muxtar türk, müsəlman respublika və vilayətləri arasında dostluq, qardaşlıq, əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi istiqamətində də çalışırdı. 70-80-ci illərdə ölkənin türk və müsəlman respublikalarının rəhbərləri bir-birinə dayaq olur, mühüm məsələlər barədə məsləhətləşirdilər. Qarşılıqlı münasibətlər etibarlı idi. Azərbaycanın Tatarıstan və Başqırdıstanla sıx əlaqələri saxlanılır, rəhbərləri görüşür, mədəniyyət xadimləri yaxından əməkdaşlıq edir, qarşılıqlı mədəniyyət günləri keçirilirdi. Lakin sovet sistemi şəraitində bu görüşlərdə ana dilindən deyil, əsasən rus dilindən istifadə

[19] РГАНИ, ф.89, оп.51, д.10, л.1-2.

edilirdi. Ölkənin türk xalqlarının mədəniyyətinə, dilinə bərabər münasibət bəsləyən H.Əliyev onların əlaqələrinin daha da sıxlaşdırılmasına tərəfdar çıxaraq mədəniyyətlərini, elmini, təhsilini, mənəviyyatını daha yüksəklərə qaldırmaq üçün səylər edirdi.

H.Əliyevin fəaliyyətində İraq türkmənlərinə münasibət əsas yerlərdən birini tuturdu. O, mövcud sistemin şərtləri, dövlətin ümumi siyasəti və ideolgiyanın tələbləri altında İraq türkmənləri ilə əlaqələrin qurulması və inkişafına müstəsna diqqət yetirirdi. Heç şübhəsiz, bu dövrdə sovet dövləti İraq türkmənlərini Qərb dövlətlərinin təsirindən qurtarıb özünə tərəf çəkməyə çalışırdı. Bu işdə Azərbaycan xalqı nümunə rolunu oynayırdı. Həmin məqsədləri yaxşı başa düşən H.Əliyev belə vəziyyətdən türkmənlərlə azərbaycanlılar arasında əlaqələrin qurulması və genişləndirilməsi üçün istifadə etməyə başlayaraq İraq türkmənlərinə xüsusi diqqət ayrılmasını sovet rəhbərliyinə tövsiyə etdi. O, Sov İKP MK-ya bu barədə geniş təkliflərini 1972-ci il 2 avqust tarixli 412s №-li tam məxfi məktubunda verdi. Sovet-İraq siyasi və mədəni əlaqələrini daha da geniləndirmək və möhkəmləndirmək tədbirlərinə dair iki səhifəlik məktubunda H.Əliyev bu ölkə ilə münasibətlərdə Azərbaycanın böyük rol oynaya biləcəyini dərin məntiqlə əsaslandırdı. O, İraqla münasibətlərin inkişafı prosesində eyni zamanda türkmənlərə diqqət ayrılmasını tövsiyə edirdi. Antisovet təbliğatın qarşısını kəsmək, İraq türkmənlərini pantürkçü ideyalardan azad etmək niyyətilə SSRİ-nin İraqdakı səfirliyində, mədəniyyət mərkəzində və başqa sovet müəssisələrində Azərbaycandan olan işçilərin çalışması tövsiyə edilirdi. H.Əliyev Azərbaycanla İraq arasında elmi əlaqələrin gücləndirilməsi məqsədilə alim, aspirant, ədəbiyyat, əlyazmaları və sərgilər mübadiləsini təklif edərək yazırdı: «... Azərbaycan SSR-in nailiyyətlərinin təbliğini İraqda, o cümlədən İraqın türkmən əhalisi hissəsində gücləndirmək», «elmi müəssisələr arasında əlaqələri qurmaq, respublikanın ali məktəblərində iraqlı gənclər, o cümlədən türkmən



58

412с 2 августа 2

<u>Секретно</u>

Ц К К П С С

**Некоторые предложения по дальнейшему расширению и укреплению советско-иракских политических и культурных связей.**

В декабре 1971 года в Ираке на примере Азербайджанской ССР проводилась Декада иракско-советской дружбы. В записке, адресованной ЦК КП Азербайджана, Чрезвычайный и Полномочный Посол СССР в Ираке тов. Лихачев В.А. отмечает, что проведение Декады превратилось в крупное политическое событие в Ираке и имело большое значение в плане пропаганды ленинской национальной политики КПСС и Советского правительства, достижений Азербайджанского народа за годы Советской власти. В записке выдвигаются некоторые предложения по дальнейшему расширению и укреплению советско-иракских политических и культурных связей.

ЦК КП Азербайджана принял постановление, в котором с учетом возможностей Азербайджанской ССР, намечены некоторые мероприятия по расширению существующих связей республики с Ираком. В свете новых перспектив, открывающихся в связи с подписанием советско-иракского Договора о дружбе и сотрудничестве и в соответствии с рекомендациями Посольства СССР в Ираке просим рассмотреть следующие вопросы:

– о расширении пропаганды достижений СССР и, в частности Азербайджанской ССР в Ираке, в том числе среди туркманской части населения Ирака.

2.

Пропаганда достижений Советского Азербайджана является существенным фактором в борьбе против антисоветской пропаганды западных держав и местной реакции в Ираке, будет способствовать освобождению иракских туркмен от реакционного влияния пан-тюркистских идей. Для организации этой работы было бы целесообразным иметь в аппарате Советского Посольства, культурного центра СООД и других советских представительств в Ираке работников из Азербайджанской ССР;

– об установлении научных связей Азербайджанской ССР с Ираком. Академия наук Азербайджанской ССР могла бы совместно с научными учреждениями Ирака разработать ряд актуальных проблем естественных, технических и общественных наук, в том числе по арабской филологии, ирако-азербайджанским экономическим и культурным связям. Большую пользу могли бы принести ежегодный обмен учеными, стажерами и аспирантами, литературой, рукописями, а также информацией о достижениях науки и культуры.

– О расширении подготовки в вузах республики специалистов из числа иракской молодежи, в том числе туркменского населения.

– О включении в план культурных связей 1973–1974 г.г. гастролей в Ираке музыкальных и творческих коллективов Азербайджанской ССР.

– Об открытии в Ираке в 1973г. выставки изобразительного и декоративного искусства Азербайджана с участием 2–3 художников республики.

– О налаживании творческих контактов между Союзом писателей Азербайджана и писательскими организациями Ирака. Было бы целесообразно обменяться в 1973 году делегациями писателей в составе 3–5 человек. Можно пригласить в Азербайджанскую ССР в 1972 году, в качестве гостей Азербайджанского Общества дружбы и культурной связи с зарубежными странами деятелей иракской культуры.

– О проведении в 1973 году в Ираке кинофестиваля художественных и документальных фильмов производства студии "Азербайджанфильм".

Секретарь ЦК КП Азербайджана

Г.Алиев



Азәрбајҹан ССР
Али вә Орта Ихтисас Тәһсили
Назирлији

Азербайджанская ССР
МИНИСТЕРСТВО
ВЫСШЕГО и СРЕДНЕГО СПЕЦИАЛЬНОГО ОБРАЗОВАНИЯ

Телефон № 93-70-83. г. Баку, Дом Правительства

316с 12. XII 1972 г.

КОНТРОЛЬ

СЕКРЕТНО
Экз. №1

ЦК КП АЗЕРБАЙДЖАНА

Как Вам известно, в последней декаде ноября месяца с.г. у нас в республике гостил директор Департамента Туркманской культуры Министерства Информации Ирака Абдул Лятиф Омран БЕНДЕР.

24 ноября 1972 года, Абдул Лятиф Омран был принят в Министерстве высшего и среднего специального образования Азербайджанской ССР. Во время беседы были затронуты ряд вопросов, но главным вопросом была просьба Абдул Лятиф Османа о принятии на учёбу граждан из Ирака туркманского происхождения.

Необходимость в приёме на учёбу граждан Ирака этой категории, по словам Абдул Лятифа обусловлена тем, что у них почти нет кадров высшей квалификации из лиц туркманского происхождения.

На первых порах он просил принять примерно человек 15–20, по таким специальностям как: – химия, физика, математика, биология, некоторые инженерно-технические специальности, а также 2–3-х аспирантов по специальности азербайджанской литературы, причем, по мнению Абдул Лятифа, обучение можно было бы организовать для лиц этой категории на азербайджанском языке.

Для того, чтобы это конкретно осуществить Абдул Лятиф просил, чтобы Министр высшего и среднего специального образования республики обратился с официальным письмом в литературное Объединение туркманов в Ираке и в копии Посольству Иракской Республики в СССР, в которой изъявил бы согласие принять на учёбу в вузы указанный контингент и сослалося бы на официальную просьбу Абдул Лятифа Омрана оглы.

ЦК КП
Вх. 1901с 2
20 декабря 72 г.

əhalisi içərisindən mütəxəssislər hazırlanmasını genişləndirmək» və s.[20] O bildirirdi ki, türkmənlərin Azərbaycanda təhsil almalarında dil sarıdan heç bir problem olmayacaq, çünki Azərbaycan və türkmən dilləri eynidir.

H.Əliyev İraqda Azərbaycan rəssamlarının əsərlərinin sərgisinin keçirilməsini, yaradıcı təşkilatlar arasında əlaqələrin qurulmasını və Azərbaycan filmlərinin göstərilməsini təklif edirdi.

Sovet rəhbərliyi H.Əliyevin bu tövsiyələrini nəzərə aldı. Müxtəlif sahələrdə İraqla əlaqələrin genişləndirilməsinə başlandı. İraq türkmənləri arasında ixtisaslı kadrlar az olduğundan türkmən gənclərin Azərbaycanın ali və orta ixtisas məktəblərinə qəbul edilmələri zəruri sayıldı. 1973-1974-cü tədris ilində 10-15 nəfər iraqlının ölkənin ali məktəblərinə qəbul edilməsi məsələsi gündəliyə gəldi[21]. Azərbaycana səfərlər çoxaldı. İraq Mədəniyyət Nazirliyinin türkmən mədəniyyəti departamentinin direktoru Əbdüllətif Bəndəroğlu Azərbaycana səfəri zamanı Bakıda keçirdiyi görüşlərdə kimya, fizika, riyaziyyat, biologiya, müxtəlif mühəndis-texniki ixtisaslar üzrə 15-20 nəfərin, həmçinin 2-3 nəfər gəncin Azərbaycan ədəbiyyatı üzrə aspiranturaya qəbul edilməsi məsələsini xahiş etdi. Azərbaycan Ali və Orta İxtisas Təhsili Nazirliyi bundan ötrü İraq türkmənlərinin ədəbiyyat birliyinə rəsmi müraciət etməyi və məktubun surətini SSRİ-dəki İraq səfirliyinə göndərməyi xahiş etdi. Bu tövsiyəyə əməl olundu. İki ölkə arasında razılaşmaya əsasən İraqdan aspirant və tələbə qəbulu məsələsi həll olundu. Təhsil almağa gələnlərin, əsasən turkmənlərin bir qismi Azərbaycan ali məktəblərinə yerləşdirildilər. Türkmən gənclərin təhsil müddətində Azərbaycan xalqı, tarixi, mədəniyyəti ilə yaxından tanış olmaları onların dünyagörüşünə, iki xalq arasında münasibətlərin inkişafına kömək edirdi.

[20] ARSPİHDA, f. 1, siy. 59, iş 142, v. 57-58.
[21] ARSPİHDA, f. 1, siy. 59, iş 150, v. 116-117.



70-80-ci illərdə Əbdüllətif Bəndəroğlunun Bakıya səfərləri də çoxalmışdı. Azərbaycanda ona mehriban münasibət bəslənilir, istəkləri yerinə yetirilirdi. Ölkəsinə dönərkən ona Azərbaycan mədəniyyəti, tarixi və mədəni əlaqələrə dair kitablar verilirdi. İraqa kitab göndərilməsi ilbəil artırılırdı[22]. Sonrakı illərdə də Mosul və Kərkük şəhərlərinə Azərbaycan və ingilis dillərində çoxlu kitablar göndərildi[23]. Belə mübadilə fərqli ideoloji sistemlərin olmasına baxmayaraq, konkret şəraitdə türk xalqları arasında əməkdaşlığın inkişafına kömək edirdi.

H.Əliyev soyuq müharibə illərində Türkiyənin Qərbdə qızışdırılan qatı antisovet təbliğatda iştirak etməsini arzulamırdı. Bu zaman Qərbin aparıcı dövlətləri Türkiyədəki mühacir azərbaycanlı təşkilatlarında millətçilik əhval-ruhiyyəsini gücləndirir, düşmənçilik toxumu səpməyə çalışırdılar. Bir çox türklər də antisovet təbliğatda fəal iştirak edirdilər. H.Əliyev yaranmış vəziyyətdən çıxmaqdan ötrü iki ölkə arasında normal, mehriban qonşuluq münasibətlərinin qurulmasını vacib hesab edərək praktik addımlar atmağa başladı. O sovet dövlətinin dünya türkləri və Türkiyə ilə dost olmasına, normal münasibətlərinin qurulmasına və bu işdə Azərbaycanın başlıca rol oynamasına çalışırdı. Artıq qeyd edildiyi kimi, H.Əliyev SSRİ-nin rəhbər siyasi xadimləri içərisində Türkiyə və türk dünyası məsələləri üzrə birinci şəxs sayılırdı. Onun turk, müsəlman olması, bir neçə Şərq dillərini bilməsi, hələ 40-50-ci illərdə Türkiyəyə, İrana, Əfqanıstana və Pakistana xidməti səfərlər etməsi, bu ölkələrin əhalisinin həyatına incəliyinə qədər bələd olması, müsəlman Şərqi üzrə çoxlu ədəbiyyatı mütaliə etməsi, güclü müşahidə, analitik qabiliyyəti, ən məxfi məlumatları dərindən təhlil edib doğru nəticələr çıxarması və problemlərin həlli yollarını aydın görməsi, uzaqgörənliyi həmin istiqamət üzrə nüfuzlu və sözükeçən dövlət xadimi olmasına kömək etmişdi. H.Əliyev sovet rəhbərlərini

[22] ARSPİHDA, f. 1, siy. 60, iş 139, v. 40.
[23] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v. 112 .

Türkiyəyə xüsusi diqqət yetirməyin, onunla dostluq münasibətləri qurmağın vacibliyinə inandırmağa çalışır və çox vaxt da buna nail olurdu. Bunun nəticəsində 60-70-ci illərdə L.İ.Brejnevin türk dünyasına, SSRİ-nin türk xalqlarına normal münasibəti yaranmışdı. Onlar dövlətin bütövlüyünün təməli kimi slavyan və türk xalqları arasında mehriban münasibətlərin vacibliyini başa düşmüşdülər. Məhz onların hakimiyyəti illərində türk-slavyan ittifaqı kifayət qədər möhkəm idi. Ölkədə milli, etnik ixtilaflar mövcud deyildi.

Sovet sistemi şəraitində Azərbaycanla Türkiyə arasında birbaşa əlaqələr yaratmaq mümkün olmadığından H.Əliyev elm, mədəniyyət və ədəbiyyat adamlarının əlaqələrinin qurulub inkişaf etdirilməsinə çalışırdı. Türkiyə ilə əməkdaşlıq dövlətin ümumi siyasəti çərçivəsində bir neçə istiqamətdə həyata keçirilirdi. O iki ölkə arasında dostluq münasibətlərinin qurulmasına, elə bu yolla da Azərbaycan xalqı ilə türk xalqının əlaqələrinin yaradılması və inkişafına səylər edirdi. İlk növbədə hakimiyyəti illərində Türkiyədən Azərbaycana gələn rəsmi qonaqlara xüsusi diqqət və qayğı göstərilirdi. Onlar azərbaycanlılar tərəfindən böyük coşqu ilə qarşılanırdılar. Hələ 60-cı illərin ortalarında Sovet İttifaqına səfəri zamanı Azərbaycana da gələn Türkiyənin baş naziri Süleyman Dəmirəli böyük hörmət və ehtiramla qarşılamışdılar. Bu səfər zamanı S.Dəmirəlin şərəfinə Bakıda verilən ziyafətdə maraqlı bir hadisə baş vermişdi. Azərbaycan müğənniləri proqramda nəzərdə tutulmayan türk mahnılarını ifa etmişdilər. SSRİ Xarici İşlər Nazirliyinin protokol idarəsinin əməkdaşı səfərdən sonra yazdığı hesabatında bu halı qüsur, proqramın pozulması kimi qiymətləndirmişdi.

H.Əliyev hakimiyyətə gələndən bir müddət sonra Azərbaycan KP MK bürosunda Türkiyə nümayəndə heyətinin respublikaya səfəri barədə məsələ geniş şəkildə müzakirə edildi. Onun sədrliyi ilə keçirilən Azərbaycan KP MK-nın 1969-cu il 14 noyabr tarixli büro iclasında Türkiyə Cümhuriyyətinin prezidenti Cövdət Sunayın Azərbaycana səfəri ilə bağlı məsələ müzakirə olunaraq 9 maddədən ibarət qərar qəbul edildi[24]. Qərarda səfərin noyabr ayının 18-19-da yüksək səviyyədə keçirilməsindən ötrü tədbirlər müəyyənləşdirildi.

Qonağın keçdiyi yollar Türkiyə, Azərbaycan, SSRİ bayraqları, türk, rus və Azərbaycan dillərində transporatlarla bəzədilmişdi[25]. Bakı aeroportunda yüksək qonağı 200 nəfər qarşıladı, 1№-li dövlət qonaq evində, digər şəxslər isə «İnturist» otelində yerləşdirildi. Üç dildə səfər proqramı çap olundu. Türkiyə prezidenti ilə Azərbaycan Dövlət Universitetində möhtəşəm görüş keçirildi. Azərbaycan rəhbərliyi onun şərəfinə ziyafət verdi. Ziyafətə rəsmi şəxslərdən başqa dəvət olunan 19 nəfərin hamısı Azərbaycanın tanınmış elm və mədəniyyət xadimləri idi. Bunların içərisində Qara Qarayev, Tahir Salahov, Qəmər Almaszadə, Rauf Hacıyev, Süleyman Rəhimov, Rəsul Rza, Süleyman Rüstəm və başqaları var idi.

Türkiyəli qonaqlara milli mədəniyyət və tarixlə bağlı yerlər göstərildi. Səfər barədə film çəkildi. Türkiyə mətbuatı bu səfəri yüksək qiymətləndirdi, Azərbaycan haqqında geniş yazılar verdi[26]. Səfər iki ölkə, Azərbaycan və türk xalqları arasında əlaqələrdə mühüm rol oynadı.

70-ci illərdə Türkiyədən Azərbaycana edilən rəsmi səfərlərin sayı çoxalmışdı. Məsələn, 1973-cü ildə Türkiyənin SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri İlter Türkmən Azərbaycana səfər etdi[27]. Səfər zamanı qonaq Azərbaycanın tarixi yerləri və mədəniyyət abidələri ilə tanış oldu, görkəmli elm və mədəniyyət xadimləri, rəsmi şəxslərlə görüşdü. Bu səfərdən sonra səfir Azərbaycanın sosial-iqtisadi və mədəni sahədə tərəqqisindən fəxrlə söhbət açmışdı.

---

[24] ARSPİHDA, f. 1, siy. 56, iş 63 (64).
[25] «Kommunist» qəzeti, 1969, 19 noyabr, №271 (14267); 20 noyabr, №272 (14268); ARSPİHDA, f. 1, siy. 56, iş 63, pr. №114, § 1-q, v.13-14.
[26] Yenə orada, v. 57.
[27] ARSPİHDA, f. 1, siy. 61, iş 156, v. 99.

Бүтүн өлкәләрин пролетарлары, бирләшин!

ССРИ ИТТИФАГЫ КОММУНИСТ ПАРТИЈАСЫ

АЗӘРБАЈЧАН КП
МӘРКӘЗИ КОМИТӘСИ

Пролетарии всех стран, соединяйтесь!

КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ СОВЕТСКОГО СОЮЗА

ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
КП АЗЕРБАЙДЖАНА

ӘН МӘХФИ
СОВ. СЕКРЕТНО

## ПРОТОКОЛ № 114

заседания Бюро Центрального Комитета Компартии Азербайджана

от 20 ноября 1969 года

Председательствовал тов.Алиев Г.А.

Присутствовали:

Члены Бюро ЦК т.т.Алиханов З.Н., Амиров А.Д., Джафаров Д.Г., Ибрагимов А.И., Кадыров А.М., Кязимов Г.Х.

Кандидаты в члены Бюро ЦК т.т.Керимов А.Г., Мелкумян Г.А.

Члены ЦК КП Азербайджана т.т.Алиев А.М., Алиев Т.С., Аскеров И.Н., Бабаян Г.М., Багиров Т.М., Даданов К.К., Кирсанов Я.М., Мамедов М.М., Орудшев А.К., Раев А.С.

Кандидаты в члены ЦК КП Азербайджана т.т.Мусабеков Ф.З., Эльдаров А.В.

Член Ревизионной комиссии КП Азербайджана т.Гасанов А.Г.

Заведующие отделами ЦК т.т.Ализаде Э.М., Джебраилов З.Ф., Мамедов А.Н.

Заместители заведующих отделами ЦК т.т.Глущенко И.В., Керимов К.Г., Раджабова Л.Д.

Корреспондент газеты "Правда" т.Таиров Л.Р.

Приглашенные по соответствующим вопросам:

Члены ЦК КП Азербайджана т.т.Векилов Ф.М., Халилов К.А.

Кандидат в члены ЦК КП Азербайджана т.Асадов И.М.



К пункту 1-г, прот. № 114

## ПРОГРАММА
пребывания в Азербайджанской ССР президента Турецкой Республики Д.Сунея

18 ноября 1969г.
(Вторник)

12.00
(Время местное)

– Прибытие в Баку. На Бакинском аэродроме гостей встречают т.т.Искендеров М.А. с супругой, Алиханов З.Н. с супругой, Ибрагимов А.И., Аллахвердов М.И., Шукюрова З.З., Олифиров Ф.А., Таирова Т.А., Красильников В.С., Абдуллаев Р.М., Халилов К.А., Насруллаев Н.И., Курбанов М.К., Гаджиев Р.С., Мамедов М.А., Халилов М.Р., Кулиев Р.И., Ахмедов Н.Х.

От аэродрома до резиденции в автомашинах сопровождают т.т.

Искендеров М.А. и Алиханов З.Н. – президента Турции

Азизбекова Т.Х. и Алиханова З.Г. – супругу Сунея г-жу Атифет Суней

Таирова Т.А. – министра иностранных дел И.Чаглаянгиля.

В поездках автомашину президента Турции сопровождает эскорт мотоциклистов (ответ. т.Али-заде М.А.).

14.15 – Совместный визит Председателю Президиума Верховного Совета Азербайджанской ССР т.Искендерову М.А. и Председателю Совета Министров Азербайджанской ССР т.Алиханову З.Н. На визите присутствуют т.т. Шукюрова З.З., Таирова Т.А., Абдуллаев Р.М., Халилов К.А.

15.30 – Осмотр достопримечательностей г.Баку. Пояснения дает т.Абдуллаев Р.М.

17.00 – Посещение Азгосуниверситета им.С.М.Кирова. Заезжают в резиденцию и сопровождают т.т.Таирова Т.А., Гусейнова З.И., Абдуллаев Р.М.

20.00 – Официальный обед от имени Президиума Верховного Совета и правительства республики (ресторан "Дружба"). Ответственные т.т.Бакир-заде А.Б. и Агаев А.Б.

2.

На обеде присутствуют члены Бюро ЦК КП Азербайджана с супругами, т.Керимов А.Г., с супругой, заместители Председателя Совета Министров Азербайджанской ССР, а также т.т.

| | |
|---|---|
| Пуникраде В.З. | Курбанов М.К. |
| Тагиева Т.А. | Бакир-заде А.Б. |
| Красильников В.С. | Абдуллаев Р.М. |
| Багиров К.М. | Гаджиев Р.С. |
| Алиев Т.С. | Курбалиев З.Д. |
| Ибрагимов З.Ф. | Каримов К.А. |
| Марданов А.К. | Рагимов С.Г. |
| Джаббаров О.С. | Насруллаев И.Н. |
| Али-заде З.М. | Джафаров Н.Н. |
| Гусейнова З.И. | Исмайлов Р.Г. |
| Али-заде М.А. | Расул Рза |
| Ахмедова М.Х. | С.Рустам |
| Кулиев Р.Н. | Ибрагимов М.А. |
| Караев К.А. | Алиев М.О. |
| Исаков И.М. | Меджидов В.Ф. |
| Исмаилзаде А.А. | Мамедов Г.А. |
| Кулиев Р.Р. | Агаев А.К. |
| Ибрагимов И.А. | Султанов М.К. |
| Сеидова Т. | Гурвич В.Г. |
| Ахмед-заде Г. | |
| Курбанова О. | |

Предусматривается концерт мастеров искусств Азербайджана (ответственный за концерт т.Гаджиев Р.С.).

19 ноября
(среда)
11.00 - Вылет спецрейсом в Москву.
Порядок проводов тот же, что и при встрече.

МК



Sonrakı illərdə Türkiyənin xarici işlər naziri işlərkən İlter Türkmən həyat yoldaşı ilə birlikdə 1982-ci ilin noyabr ayında Azərbaycanda səfərdə olarkən də böyük qayğı və ehtiramla əhatə olundu[28]. Türkiyənin xarici işlər naziri bir sıra görüşlər keçirdi. Səfərdən sonra İ.Türkmən Azərbaycan rəhbərinin milli-mədəni inkişaf yolunda çalışmalarını yüksək dəyərləndirmişdi.

70-ci illərdə Türkiyənin bir sıra görkəmli siyasi xadimləri, o cümlədən türklərin «qara oğlan» adlandırdıqları Bülent Ecevit 1976-cı ilin yayında Azərbaycanda səfərdə oldu. O çoxlu görüşlər keçirdi, tarix və mədəniyyət abidələri ilə tanış oldu. Səfərdən sonra Ecevit verdiyi müsahibələrində Azərbaycanı sevdiyini, milli-mədəni inkişafdan məmnun qaldığını söyləmişdi.

1978-ci ilin noyabr ayında türkiyəli millət vəkili Kabay Ekremin başçılığı altında Türkiyə nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Türkiyəli qonaqlara Azərbaycanda xüsusi ehtiram göstərildi.

1981-ci ilin aprel ayında Türkiyənin SSRİ-dəki səfiri Ercimənt Yavuzapın Azərbaycana səfəri uğurla keçdi.

Azərbaycanın sovet dövrü rəhbərləri içərisində ilk dəfə olaraq məhz H.Əliyev Türkiyə ilə münasibətlərin yaxşılaşdırılmasına dair geniş, dərindən əsaslandırılmış konkret təkliflərini SSRİ rəhbərliyinin diqqətinə çatdırdı. Onun bu istiqamətdə fəaliyyətinin bütün mənası iki ölkə arasında normal münasibətlərin və dostluğun qurulması, möhkəmləndirilməsi idi. Azərbaycan rəhbəri Türkiyə ilə əlaqələri inkişaf etdirməyə dair təkliflər irəli sürür, məktubları imzalayırdı. H.Əliyevin bu məsələ üzrə verdiyi göstərişə və tövsiyələrə uyğun olaraq MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdiri Ə.Cəbrayılov Sov. İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi ilə əlaqə saxlayıb V.V.Zaqladın və N.B.Slepovla danışıqlar apardı. Onlar həmin təklifləri həyata keçirməyin mümkünlüyünü bildirsələr də, müvafiq nazirlik,

[28] ARSPİHDA, f. 1, siy. 70, iş 409, v. 45.

təşkilat və idarələrlə razılaşmağın vacibliyini söylədilər. Bundan sonra iki ölkə arasında münasibətlərin inkişafına və Azərbaycanın Türkiyədə təbliğinə dair müvafiq sənəd layihəsi də təqdim edildi. Bu barədə təqdim olunan sənədə 1977-ci il 20 sentyabr tarixdə H.Əliyev belə bir dərkənar yazmışdı: «Xahiş edirəm, Sov. İKP MK-ya müvafiq qeydlər hazırlayın. Eyni zamanda Türkiyəyə təbliğatı gücləndirmək üçün bütün mümkün vasitələrdən yaxşı istifadə etmək lazımdır»[29]. H.Əliyevin göstərişinə uyğun olaraq hazırlanan məktub Kremlə göndərildi. Təkliflərdə Türkiyə ilə siyasi, iqtisadi, elmi, texniki, mədəni, idman, turizm sahələrində əlaqələri genişləndirmək, sovet-Türkiyə dostluğuna çalışmaq, vaxtilə ölkədən çıxıb getmiş şəxslərin və övladlarının vətənə dəvət edilməsi və s. məsələlər öz əksini tapmışdı. Məktubda deyilirdi ki, türklər və Turkiyədə yaşayan azərbaycanlılar arasında Azərbaycana maraq xeyli artır. Azərbaycanlıların Kars, Ərzurum, Bursa, Konya və başqa şəhərlərdə keçirdikləri tədbirlər belə marağın artdığını göstərirdi. Bu tədbirlər zamanı bir sıra azərbaycanlılar vətənlə əlaqələrin qurulması və səfərlərin edilməsinin zəruriliyi ilə bağlı təkliflər səsləndirmişdilər. Azərbaycana turist kimi gəlmək istəyənlərin də sayı artırdı. Bununla belə, bir sıra türklər hələ də Azərbaycan haqqında yanlış təsəvvürə malik idilər. Lakin belə vəziyyət heç də onların təqsiri deyildi. Çünki SSRİ-dən Türkiyəyə türk dilində ədəbiyyat demək olar ki, göndərilmirdi. Məktubda H.Əliyev Türkiyə ilə əlaqələri genişləndirmək üçün konkret təkliflər irəli sürürdü. Bildirirdi ki, türk dilində ədəbiyyatı tərcümə etməkdən ötrü Azərbaycanda kifayət qədər mütəxəssis olduğunu nəzərə alaraq Bakıda «Proqres» nəşriyyatının filialı açılsın. H.Əliyevin fikrincə, bu nəşriyyatda siyasi məzmun daşımayan kitablar, Azərbaycan klassiklərinin əsərləri, folklor ədəbiyyatı türk dilinə çevirilə və Türkiyəyə göndərilə bilərdi. O, Türkiyə ərazisində Azərbaycan radio və televiziyasının proqramlarının yayımlanmasını da zəruri hesab edirdi.

[29] ARSPİHDA, f. 1, siy. 64, iş 163, v. 180-182.



H.Əliyevin irəli sürdüyü ən maraqlı təkliflərdən biri Ümumittifaq Şərqticarətinin Azərbaycan bölməsinə Türkiyə ilə birbaşa ticarət əlaqələrinin qurmasına icazə verilməsi barədə idi. O, Moskvaya belə bir təklif edərəkən öz fikrini əsaslandırıb göstərirdi ki, 20-ci illərdə Bakıda iki ildən bir beynəlxalq sərgi-yarmarkalar keçirilib, bu işi canlandırmaq və həmin yarmarkalara Türkiyədən şirkətlərin dəvət edilməsi praktikasına nail olmaq gərəkdir. H.Əliyev eyni zamanda təklif edirdi ki, SSRİ Dövlət Xarici İqtisadi Əlaqələr Komitəsinin xətti ilə Türkiyədə Azərbaycanın layihə institutlarının müxtəlif ikitərəfli proqramlarında yaxından iştirak etmələri fayda verər, çünki Türkiyədəki idarə və müəssisələrdə çoxlu azərbaycanlı çalışır.

Türkiyə ilə Azərbaycanın Naxçıvan vasitəsilə sərhədyanı ticarət əlaqələrinin qurulmasının təklif edilməsinin dərin siyasi, iqtisadi, ideoloji və mənəvi məna daşıyırdı. Azərbaycanda xarici ticarət sahəsində təcrübə toplanılar, müvafiq strukturlar formalaşdırılar, bir-birindən ayrı düşmüş iki qardaş xalq arasında dil və mədəniyyət sarıdan ünsiyyət güclənər, Azərbaycanın regionda rolu daha da artardı. Lakin Moskva birbaşa ticarət iqtisadi əlaqələrin qurulmasına və sərhədyanı ticarətə dair təklifin reallaşmasına imkan vermədi.

H.Əliyev Türkiyə ilə mədəni əlaqələrdə Azərbaycanın daha geniş iştirakını təmin etmək üçün mərkəz qarşısında konkret məsələlərin həllini qaldırırdı. Bildirirdi ki, hər il sentyabr ayında Bakıda Yaxın və Orta Şərq ölkələri bəstəkarları və müğənnilərinin iştirakı ilə Şərq musiqisi festivalı keçirilsin. Belə bir festivalın keçirilməsi təkcə Azərbaycanın musiqi mədəniyyətinin deyil, eyni zamanda Şərq musiqisinin məşhur olduğu bu region xalqları arasında Orta Asiya xalqlarının da musiqisinin yayılmasına kömək edərdi. H.Əliyev Azərbaycanın teatr və konsert kollektivlərinin, ayrı-ayrı ifaçıların Türkiyəyə səfərlərinin genişləndirilməsini, ən yaxşı azərbaycanlı quruluşçu rejissorların, drijorların Türkiyədə kontraktla işləmələrinə şərait yara-

dılmasını təklif edirdi. O yazırdı ki, təcrübə göstərir, Azərbaycan ifaçılarının Türkiyəyə səfərləri uğurla keçir və türk ictimaiyyətinin böyük marağını çəkir. Nümunə kimi məktubda Niyazinin, Azərbaycan Dövlət rəqs ansamblının və b. səfərləri göstərilirdi.

H.Əliyev rəssamlar arasında əlaqələrin qurulmasına önəm verərək, Türkiyədə Azərbaycan rəssamlarının əsərlərinin sərgisinin keçirilməsini təklif edirdi.

Həmçinin müxtəlif tədbirlər keçirilərkən ən yaxşı Azərbaycan kinofilmlərinin nümayişini tövsiyə edirdi. Bildirirdi ki, Azərbaycan dili türk tamaşaçısı tərəfindən başa düşüldüyündən «Azərbaycanfilm»in istehsalı olan kinofilmlərin Türkiyədə satışını təşkil etmək məqsədəuyğun olardı.

Təkliflərdə deyilirdi ki, beynəlxalq idman əlaqələri münasibətlərdə mühüm rol oynaya bilər. Ona görə də H.Əliyev Bakı şəhərində Türkiyə idmançılarının iştirakı ilə daha çox beynəlxalq idman oyunlarının keçirilməsini, Azərbaycanla Türkiyə arasında idman kollektivlərinin qarşılıqlı mübadiləsini praktikadan keçirməyi təklif edirdi.

H.Əliyev Türkiyə ilə əlaqələrdə qardaşlaşmış şəhərlər hərəkatından istifadə edilməsi təklifini irəli sürür, Bakı və İzmir şəhərinin qardaşlaşması məsələsinə baxmağı xahiş edirdi. Yazırdı ki, İzmirdə xeyli azərbaycanlı yaşayır, zaman-zaman Ankara və İzmir şəhərlərinin merləri Bakı ilə qardaşlaşmış şəhərlər çərçivəsində əməkdaşlıq etmək istəyində olduqlarını bildirmişlər.

H.Əliyev Türkiyəyə səfərə gedən müxtəlif səviyyəli sovet nümayəndə heyətlərinin tərkibinə azərbaycanlılardan nümayəndələrin daha çox daxil edilməsi təklifini irəli sürürdü. Təkliflərdə deyilirdi ki, Türkiyədə azərbaycanlılar çox yaşadıqlarından və ölkənin ictimai-siyasi həyatında mühüm rol oynadıqlarından bu ölkədəki sovet nümayəndəliklərində, o cümlədən müxtəlif obyektlərin tikintisinə azərbaycanlı mütəxəssislər daha çox göndərilsin. H.Əliyev təklif edirdi ki, Türkiyədən SSRİ-yə gələn turistlərin səfər proqramlarına Azərbaycana səyahət də daxil edilsin.



Azərbaycan rəhbəri xarici ölkələrdə yaşayan azərbaycanlıların Ümumittifaq Vətən Cəmiyyətinin və Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin birgə xətti ilə daha çox dəvət olunmalarını təklif edirdi.

Heç şübhəsiz, bu təkliflər SSRİ-Türkiyə əlaqələrini canlandırmaq, Türkiyədə qızışdırılan antisovet təbliğatı aşağı salmaq məqsədini güdürdü. Yaranmış vəziyyətdən istifadə edən H.Əliyev iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsində Azərbaycanın və xalqının rolunu artırmağa, mühacirət təşkilatlarında hökm sürən antisovet əhval-ruhiyəni zəiflətməyə, onunla işləməyə çalışırdı. Çünki azərbaycanlı mühacir təşkilatların antisovet fəaliyyəti Moskvanı qıcıqlandırır, respublikda milli ziyalıların qorunması çətin olur, ziyan Azərbaycana dəyirdi. Buna görə də H.Əliyev xaricdəki azərbaycanlıların antisovet fəaliyyətlərdə iştirakını arzulamırdı.

Qeyd etmək lazımdır ki, H.Əliyevə qədər işlənmiş Azərbaycan sovet rəhbərlərindən heç biri Türkiyə ilə münasibətlərin inkişaf etdirilməsinə dair mərkəz qarşısında belə tutarlı, əsaslandırılmış və cəsarətli təkliflər verməmişdi.

H.Əliyevin təkliflərinin nəzərə alınması nəticəsində iki ölkə arasında münasibətlər yaxşılaşır, Türkiyədə antisovet təbliğat zəifləyir, türk xalqı Azərbaycanı daha yaxından tanıyır, siyasi mühacirət nümayəndələri vətənə səfərlər edirdilər.

70-80-ci illərdə H.Əliyev Türkiyə ilə mədəni, elmi və turizm əlaqələrinin inkişaf etdirilməsini diqqətdə saxlayırdı. Məsələn, onun tapşırığı ilə Azərbaycanın məsul şəxsləri İzmirdə keçiriləcək sərgi-yarmarkaya bir neçə ay əvvəlcədən ciddi hazırlaşmağa başlamışdılar. MK bürosunun hələ 1970-ci il 17 aprel tarixli iclasında İzmirdə keçiriləcək beynəlxalq yarmarkaya Azərbaycandan 22 nəfər incəsənət ustasının göndərilməsi barədə qərar qəbul edilmişdi[30]. Bu qərar uğurla yerinə yetirildi. Görkəmli müğənnilər Ş.Ələkbərova, G.Məmmədov, P.Bülbüloğlu və «Qaya» vokal-instrumental ansamblının Türkiyədə verdikləri konsertlər böyük rəğbətlə qarşılandı.

---

[30] ARSPİHDA, f. 1, siy. 57, iş 55 (56), pr. №128, §15.

182

ЦК КП Азербайджана

<u>О более широком использовании возможностей Азербайджанской ССР в пропагандистских мероприятиях на Турцию</u>

В массированной идеологической обработке общественного мнения, осуществляемой США и другими капиталистическими странами, большое место отводится направленной антисоветской и антикоммунистической пропаганде на советские восточные республики, включая Азербайджанскую ССР. Активную роль в этом играют различные американские и проамериканские идеологические центры, в частности, радиостанция "Свобода", вещающая ежедневно на азербайджанском языке.

В этих же целях широко используются различные идеологические организации Турции – единственной среди членов НАТО тюркоязычной страны. Используя общность этнических и языковых факторов, соответствующие турецкие службы путем радиопередач, легко принимаемых на территории Азербайджана, а также идеологической обработки советских граждан, посещающих Турцию, стремятся оказывать постоянное пропагандистское воздействие на население Азербайджанской ССР. Активно действуют в этом направлении и эмигрантские тюркоязычные организации, в частности, "Федерация обществ турецких переселенцев и эмигрантов" и "Общество азербайджанской культуры", которые имеют свои печатные органы и располагают немалыми пропагандистскими возможностями. В эмигрантских и других печатных органах Турции участилась публикация статей (Вахаб Юртвер, Ахмет Карадаг, Мирза Бала, Фейза Акаяма, Хызыр Гайретуллах и др.), где в извращенном свете излагаются события политической, экономической и социальной жизни Советского Азербайджана, предпринимаются попытки разжечь среди азербайджанской части населения Турции (около миллиона человек) националистические настроения, оклеветать нерушимую дружбу азербайджанского народа с другими народами Советского Союза и, по существу, извратить ленинскую национальную политику Коммунистической партии.

Фальсифицируя историю и социалистические завоевания Советского Азербайджана, эмигрантские и другие организации, с одобрения турецких официальных лиц, зачастую предпринимают шаги, вы-

3701



НА ...

183

Первому секретарю ЦК КП Азербайджана товарищу Г.А.Алиеву

Выполняя Ваше поручение, Отдел зарубежных связей ЦК подготовил предложения о более широком использовании возможностей Азербайджанской ССР в пропагандистских мероприятиях на Турцию (прилагается). Изложенные рекомендации обговорены с Международным отделом ЦК КПСС (тт. Загладин В.В., Слепов Н.Б.). По мнению товарищей из Отдела, все они осуществимы, но потребуют согласования с руководителями заинтересованных министерств, ведомств и организаций, после чего могут стать основой для соответствующего Постановления ЦК КПСС.

Просим Ваших указаний.

Э. Джебраилов (подпись)
Э.Джебраилов
15.IX.77.

Тов. Мамедзаде Р.Г.

Пр. подготовить соотв. записку в ЦК КПСС.
Одновременно следует лучше использовать имеющиеся возможности для усиления пропаганды на Турцию.
Г. Алиев
20/IX-77

3701/77
21.IX

H.Əliyevin səyləri nəticəsində Azərbaycan 1970-ci ilin avqust-sentyabr aylarında İzmirdə keçirilən beynəlxalq yarmarkada ayrıca pavilyonda təmsil olundu. Yarmarkada Azərbaycanın 500-dək eksponatı, «Azıx mağarası», «Təsnif», «Şəki sarayı», «Abşeron mahnıları» və s. qısametrajlı televiziya filmləri[31], xalqımızın tarixi, dili və mədəniyyəti ilə bağlı 136 adda kitab nümayiş etdirildi[32]. Yarmarkadakı Azərbaycan pavilyonu Türkiyədə böyük sevgi və məhəbbətlə qarşılandı. Türklər, azərbaycanlı mühacirlər pavilyonuna xüsusi maraq göstərir, Azərbaycandan gələnlərlə söhbət edib respublikadakı vəziyyətlə maraqlanırdılar. Onlara Azərbaycan milli musiqisi nümunələri yazılmış plastinkalar, ana dilində kitablar verilirdi. Sərgi-yarmarkanın keçirildiyi müddətdə türk mətbuatı Azərbaycana dair çoxlu yazılar verdi. Məsələn, nüfuzlu «Ekspres», «Demokratik İzmir» və başqa qəzetlər Azərbaycana rəğbət dolu məqalələr dərc etmişdilər[33]. İzmirdə keçirilən sərgi-yarmarkada Azərbaycanın iştrakı azərbaycanlılarla türklər arasında əlaqələrin canlandırılmasına güclü təsir edirdi.

70-80-ci illərdə Azərbaycan elmi və ədəbi mühitində Türkiyə mövzusu müəyyən müzakirələr obyektinə çevrilmişdi. Məsələn, 1971-ci ildə Azərbaycan Yazıçılar İttifaqının V qurultayında etdiyi çıxışında Süleyman Rüstəm deyirdi: «Mən ta gənclik illərindən bu günə qədər qəribə məktublar alıram. Aldığım son məktubun müəllifi (əlbəttə, imzasız müəllif) məni partiya məddahlığında günahlandırır... Deyir ki, bəzi xalqlara qardaş deyə şer yazırsan, bəs niyə Bakıya gəlmiş türklərə şer yazmırsan?»[34]. S. Rüstəm bu sözləri H.Əliyevin iştirak etdiyi məclisdə deyir və az sonra ona siyasi, ideoloji don geyindirirdi.

[31] ARDA, f. 411, siy. 47, iş 124, v. 79.
[32] ARDA, f. 28, siy. 12, iş 56, v. 71.
[33] ARDA, f. 28, siy. 12, iş 62, v. 40.
[34] ARƏİDA, f. 340, siy. 1, bağ. 55, iş 1441, v. 57.



H.Əliyev Azərbaycan şair və yazıçılarının Türkiyəyə səfərlərinə şərait yaradır, onu təşviq edir, baxışları üstündə əvvəlki illərdə sıxışdırılan şəxslərin qardaş ölkə ilə əlaqə yaratmalarına imkan verir, bundan ötrü mərkəzdən icazə alır və yardımlar göstərirdi. 1974-cü ildə Azərbaycan şair və yazıçılarından R.Rza Türkiyəyə səfər etdi, öz növbəsində Bakıya türk yazıçıları gəldi[35]. 1975-ci ildə Azərbaycan yazıçıları Türkiyəyə səfər edərək həmkarları ilə görüşdülər[36]. Həmin ilin may-iyun aylarında Anar, K.Simonov, həyat yoldaşı L.A.Jadova və V.Feofonov Türkiyədə səfərdə oldular. Anarın nümayəndə heyətinin daxil edilməsi Türkiyədə SSRİ-nin türk xalqlarına xüsusi maraq yaradır və rəğbəti daha da artırırdı[37]. Türkiyədə ziyalılar Anarla görüşlərə can atırdılar. Keçirilən görüşlər Azərbaycan ədəbiyyatı haqqında məlumatların yayılmasına kömək edirdi. Səfərdən sonra K. Simonov 26 səhifəlik hesabat yazaraq əslini Sov. İKP MK-ya, nüsxəsini isə Azərbaycan KP MK-ya göndərdi. Hesabatda deyilirdi ki, Türkiyənin müxtəlif yerlərində azərbaycanlıların, türkmənlərin, SSRİ-nin turk xalqlarının azadlığı komitələri yaradılır. Onlar bu xalqların müstəqilliklərinə qovuşmaları istiqamətində fəal iş aparırlar. Hətta 1973-cü ildə Türkiyədə nəşr olunan sovet türkləri antologiyası «Əsirlikdə olan türk diyarlarından... » adlandırılmışdı.

Səfər haqqında Türkiyənin «Milliyyət», «Yeni ortam», «Yeni gün», «Sənət dərgisi» və b. kütləvi informasiya vasitələri geniş məlumatlar verdilər. «Cümhuriyyət» qəzetinin müxbiri Kamal Özerin Anarla müsahibəsində Azərbaycan-Türkiyə əlaqələri, ədəbiyyat, incəsənət, türk şair və yazıçılarının Azərbaycanda tanıdılması barədə söhbət getmişdi. Anar deyirdi ki, biz istərdik, Türkiyədə Azərbaycan ədəbiyyatını heç olmasa, Azərbaycanda türk ədəbiyyatını bilən

[35] ARDA, f. 28, siy. 12, iş 57, v. 87; iş 66, v. 55; iş 84, v. 64.
[36] ARSPİHDA, f. 1, siy. 63, iş 147, v111.
[37] ARSPİHDA, f. 1, siy. 63, iş 178, v. 80.

kimi bilsinlər[38]. «Yeni gün» qəzetinə müsahibədə Anar «Qobustan», «Kitabi-Dədə Qorqud» dastanı haqqında söz açaraq Azərbaycanda mədəniyyətə və elmə verilən qiymətdən, yaradıcı adamlar üçün yaradılan əlverişli şəraitdən danışmışdı[39].

Belə səfərlər və verilən müsahibələr heç şübhəsiz, biri-birindən ayrı düşmüş Azərbaycanın Türkiyə və türk dünyası ilə əlaqələrinin inkişafına müsbət təsir edirdi.

H.Əliyevin tövsiyəsi əsasında Türkiyənin elm, təhsil və mədəniyyət ocaqları ilə müntəzəm əlaqələr yaradılır və inkişaf etdirilirdi. 1970-ci ildə Azərbaycan EA kitabxanası Türkiyədəki türkoloji mərkəzlə[40], 1973-cü ildə isə İstanbuldakı kitabxana ilə əlaqə qurdu[41]. Sonraki illərdə də bu iş uğurla davam etdirildi. 1982-ci ildə Ankaradakı Türk Dil Qurumu, Ərzurumdakı Atatürk Universiteti ilə EA kitabxanası arasında əlaqə yaradıldı[42]. Bu əlaqələrin nəticəsində Azərbaycan alimləri Türkiyədə çap olunan ən son elmi nəşrlərlə tanış olur və əməkdaşlığı genişləndirirdilər. Türk mətbuatının icmalını alan respublika Xarici İşlər Nazirliyi onu EA-nin İctimai elmlər üzrə elmi-informasiya mərkəzinə araşdırmalarda istifadə etmək üçün təqdim edirdi[43]. Azərbaycanda 70-ci illərdə Türkiyə üzrə elmi-tədqiqat işləri, məqalə və kitab çapı genişləndirilirdi. Türkologiyaya maraq güclənirdi.

H.Əliyev Türkiyədə Azərbaycan tarixi və ədəbiyyatından dərs verən müəllimlərin respublikaya səfər edərək azərbaycanlıların həyatı ilə, qazanılmış uğurlarla tanış olmalarına, Azərbaycan mənbələri əsasında araşdırmalar aparmalarına şərait yaradırdı. Məsələn, 1981-ci ilin mart ayında Ərzurum Universitetinin müəllimi, Azərbaycan ədəbiyyatından dərs verən, M.F.Axundovun əsərlərini türk dilinə çevirən Əli Yavuz Akpınarın Azərbaycana gəlib tədqiqat işi aparmasına nəinki icazə verildi, eyni zamanda bütün xərcləri Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin göstərişi ilə Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti tərəfindən ödənildi[44]. Bundan sonra Ə.Y.Akpinar Azərbaycan ədəbiyyatı haqqında dəyərli əsərlər yazdı.

H.Əliyev incəsənət sahəsində Türkiyə ilə əlaqələrin genişləndirilməsinə çalışır və bundan ötrü mühüm qərarların qəbul edilməsinə nail olurdu. 1969-1982-ci illərdə MK bürosunun iclaslarında müzakirə edilən məsələlərdən biri xarici ölkələrlə, o cümlədən, Türkiyə ilə mədəni əlaqələrin genişləndirilməsi olmuşdu. Qeyd etmək lazımdır ki, həmin illərdə həyata keçirilən Azərbaycan-Türkiyə incəsənət əlaqələri sovet hakimiyyətinin bütün əvvəlki dövrləri ilə müqayisədə daha geniş, əhatəli və səmərəli idi.

Bəzi faktların sadalanması əlaqələrin inkişaf dinamikasını aydın şəkildə göstərir. 1970-ci ildə Azərbaycan rəssamlarının əsərləri Türkiyədə nümayiş etdirildi və uğur qazandı[45]. Nümayiş etdirilən tablolar əsasən Azərbaycanın milli tarixi ilə bağlı yerlərə həsr edilmişdi. 1969-cu ildən başlayaraq demək olar ki, hər il Azərbaycan incəsənət xadimləri Türkiyədə səfərdə olur, mədəni əlaqələrin inkişafına öz töhvələrini verirdilər.

H.Əliyev görkəmli Azərbaycan drijoru Niyaziyə Türkiyə ilə əlaqələri sıxlaşdırmağı məsləhət görmüşdü. Məhz bu tövsiyələr əsasında Niyazi türk musiqiçiləri ilə yaxından əməkdaşlıq qurmuşdu[46]. Onun Türkiyəyə səfərləri iki qardaş

[38] «Cumhuriyet» qəzeti, 1975, 9 haziran.
[39] «Yeni gün» qəzeti, 1975, 3 haziran.
[40] Azərbaycan MEA kitabxanasının xarici ədəbiyyatın komplektləşdirilməsi və beynəlxalq kitab mübadiləsi şöbəsinin materialları. 1970-ci il üçün hesabat, v.1.
[41] ARDA, f. 28, siy. 12, iş 75, v. 68.
[42] Azərbaycan MEA kitabxanasının xarici ədəbiyyatın komplektləşdirilməsi və beynəlxalq kitab mübadiləsi şöbəsinin materialları. 1982-ci il üçün hesabat, v.1-2.
[43] ARSPİHDA, f. 1, siy. 60, iş 134, v. 7.
[44] ARSPİHDA, f. 1, siy. 68, iş 408, v. 22.
[45] ARDA, f. 28, siy. 12, iş 62, v. 2.
[46] ARƏİDA, f. 642, siy. 1, iş 115, 116, 117, 118, 119, 120, 121.

xalqın ziyalıları arasında əməkdaşlığın genişləndirilməsinə kömək edirdi. 60-cı illərin sonundan 70-ci illərin sonunadək Niyaziyə Türkiyədən 53 məktub gəlmişdi. Bu məktublarda türklər Azərbaycan respublikasına və xalqına, mədəniyyətinə sevgilərini, milli-mədəni inkişafda qazanılan uğurlardan məmnunluq hisslərini ifadə edirdilər[47]. Ziyalılar əlaqələrin genişləndirilməsinə çalışaraq bu işə öz töhvələrini verirdilər. Məsələn, 1970-ci ildə Türkiyənin təhsil naziri Orxan Oğuz Azərbaycan mədəniyyət naziri R.Hacıyevi Türkiyəyə səfərə dəvət etmişdi. Səfər mədəni əlaqələrin genişləndirilməsinə təsir etdi[48]. Bundan sonra Azərbaycan artistlərinin Türkiyəyə qastrol səfərləri uğurla keçdi[49]; 1972-ci ildə Azərbaycan bəstəkarları Türkiyəyə səfər zamanı həmkarları ilə əməkdaşlıq məsələlərini müzakirə etdilər[50]; 1973-cü ildə Niyazi, Polad Bülbüloğlu və Fərəc Qarayev Türkiyədə səfərdə oldular;[51] 1977-ci ildə Niyazi türk bəstəkarı A.Sayqının «Koroğlu» operasını tamaşaya qoymaq üçün Türkiyəyə səfər etdi[52].

İncəsənət sahəsində əlaqələr SSRİ-də mövcud olan sovet rejimi şəraitində iki xalq arasında münasibətlərin inkişafında mühüm rol oynayırdı. Azərbaycan sənətçilərinin səfərləri münasibətlərdə olan bütün özünəməxsusluqları üzə çıxarırdı. Türklər bu konsertlər zamanı istismar olunan türk xalqlarının azad olunmasına dair şüarlar səsləndirir, respublikadan gələn qonaqların milli hisslərini qızışdırır, Azərbaycan rəhbərinə və xalqına öz dərin ehtiramlarını bildirirdilər. Məsələn, görkəmli müğənni Zeynəb Xanlarovanın 1977-ci ildə Türkiyədə verdiyi konsertlərin birində belə bir hadisə

[47] ARƏİDA, f. 642, siy. 1, iş 286-338.
[48] ARSPİHDA, f. 1, siy. 57, iş 159, v. 26-28.
[49] ARDA, f. 28, siy. 12, iş 62, v. 25; f. 411, siy. 47, iş 124, v. 80.
[50] ARDA, f. 28, siy. 12, iş 71, v. 6-7.
[51] ARDA, f. 28, siy. 12, iş 77, v. 6.
[52] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f. 13, siy. 1, bağ 28, iş 294, v. 8.





Türkiyə prezidenti Cövdət Sunay Bakının görməli yerləri ilə tanış olur. 1969-cu il noyabr



*Türkiyə prezidenti Cövdət Sunay*
*Azərbaycan Dövlət Universitetində. 1969-cu il noyabr*



*Türkiyənin tanınmış siyasi xadimi Bülent Ecevit*
*Bakının görməli yerləri ilə tanış olur. 1976-cı il 14 iyun*



Bülent Ecevit Bakının görməli yerləri ilə tanış olur. 1976-cı il 14 iyun



Millət vəkili Kabay Erkemin başçılığı ilə Türkiyə ictimai xadimləri Azərbaycan Ali Sovetində. 1978-ci il 22 noyabr



Türkiyənin SSRİ-dəki səfiri Erciment Yavuzap Azərbaycan Ali Sovetində. 1981-ci il 9 aprel



Millət vəkili Kabay Erkemin başçılığı ilə Türkiyə ictimai xadimləri Azərbaycanda. 1978-ci il 22 noyabr



Türkiyənin SSRİ-dəki səfiri Erciment Yavuzap Azərbaycan Ali Sovetində. 1981-ci il 9 aprel



*Türkiyənin xarici işlər naziri İlter Türkmənin Bakı hava limanında qarşılanması. 1982-cil 1 dekabr*



*Türkiyənin xarici İşlər naziri İlter Türkmən Bakı məişət kondisionerləri zavodunda. 1982-cil 2 dekabr*



Türkiyənin xarici İşlər naziri İlter Türkmən Bakı şəhəri ilə tanış olur. 1982-cil 2 dekabr




*İraq İnformasiya Nazirliyi Türkmən mədəniyyət departamentinin direktoru, Türkmən yazıçılar ittifaqının katibi Əbdüllətif Bəndəroğlu Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyində. 1972-ci il 23 noyabr*



*Özbəkistan rəhbəri Şərəf Rəşidov Azərbaycan Dövlət Universitetində. 1969-cu il oktyabr*

baş vermişdi. Konsert günlərində Türkiyədə fəaliyyət göstərən Azərbaycan, Dağıstan və Şimali Qafqaz xalqlarının mühacirət təşkilatları tərəfindən təşkil olunmuş «İstismar olunan türklərin azadlığı həftəsi» keçirilirdi. Onları Türkiyənin qatı antisovet təşkilatları açıq şəkildə müdafiə edirdilər. Sovet xüsusi xidmət orqanlarının məlumatında deyilirdi ki, bütün bu təşkilatları «Mərkəzi Kəşfiyyat İdarəsi və yerli hakimiyyət orqanları maliyyələşdirdiklərindən kampaniya daha geniş xarakter daşıyır»[53]. Konsertlərin birində həmin təşkilatın yerli nümayəndələrindən bir nəfər səhnəyə qalxaraq əlindəki jurnalı Zeynəb xanıma təqdim edir. Jurnal istismar olunan türklərin ağır vəziyyətini, onların azad edilməsi yollarının aranmasına həsr edilmişdi və SSRİ-nin türk xalqlarını rus müstəmləkəçilik əsarətindən qurtulmağa səsləyirdi. Z.Xanlarova jurnalı alaraq tamaşaçılara müraciətlə deyir: «Mən sizə sovet xalqının salamını və dostluğunu gətirmişəm. Mən belə kirli kağızları görmək istəməzdim»[54]. Zal onun bu cavabını gurultulu alqışlarla qarşılayır. Bir neçə gəncin antisovet şüarlar qışqırmasına tamaşaçılar elə də reaksiya vermirlər.

Qeydə etmək lazımdır ki, Türkiyədə səfərdə olan Azərbaycan musiqi kollektivlərinin konsertlərini bozən Azərbaycan Kültür Dərnəyi təşkil edir, beləliklə, yığılan vəsaitin bir qismi dərnəyin ehtiyaclarına, o cümlədən «Azərbaycan» dərgisinin nəşrinə xərclənirdi.

Türkiyəyə səfər edən Azərbaycan incəsənət xadimləri türk cəmiyyətinin müxtəlif təbəqələri, həmçinin siyasi mühacirətin nümayəndələri ilə çoxsaylı görüşlər keçirirdilər. Maraqlı idi ki, bir çox türklər konsertlərə böyük həvəslə gəlir, fasilələrdə keçirdikləri görüşlərdə SSRİ-nin yeni Konstitusiyası, xüsusilə milli dillərin statusu məsələsi ilə maraqlanır, suallar verirdilər. Məsələn, 1981-ci ildə görkəmli pianoçu Fərhad Bədəlbəylinin Türkiyə prezident simfonik orkestri

---

[53] ARSPİHDA, f. 1, siy. 64, iş 163, v. 170.

[54] Yenə orada.

ilə verdiyi konsert türk musiqi həyatında mühüm hadisəyə çevrilmişdi. Türkiyənin dövlət və hökumət rəhbərlərinin iştirak etdiyi bu konsret barədə türk mətbuatı çoxlu müsbət rəylər vermişdi[55]. Məqalələrdə Azərbaycanda mədəniyyətin yüksək inkişafı, respublika rəhbəri H.Əliyevin ona verdiyi diqqət xüsusi vurğulanırdı.

Heydər Əliyevin hakimiyyəti illərində türkiyəli aktyorlar Azərbaycan səhnəsində rollar ifa edirdilər. Məsələn, 1981-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında C.Rossininin «Sevilya bərbəri» tamaşasında Don Brazil, V.Huqonun «Faust» operasında Mefistofel partiyalarını ifa etmək üçün türk aktyoru Atilla Maniazadə Azərbaycanda oldu[56].

Həmin ildə Ankarada Opera və Balet Teatrında görkəmli bəstəkar Arif Məlikovun «Məhəbbət əfsanəsi» baleti böyük uğurla oynanıldı[57]. Prezident Kənan Evrenin, Milli təhlükəsizlik şurası üzvlərinin, nazirlərin, deputatların, türk ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tamaşa Türkiyənin mədəni və ictimai həyatında geniş əks-səda doğurdu. SSRİ-nin Türkiyədəki səfiri A.Rodionov H.Əliyevə yazdığı 1981-ci il 9 iyun tarixli məktubunda Arif Məlikovun «Məhəbbət əfsanəsi» baletinin Ankara Dövlət Opera və Balet Teatrında yüksək səviyyədə oynandığını, tamaşada yüksək vəzifəli dövlət adamlarının iştirakını, tamaşanın iki ölkə arasında münasibətlərin inkişafında mühüm rol oynadığını böyük razılıq hissi ilə qeyd edərək vurğulayırdı: «Çox hörmətli Heydər Əlirza oğlu, fürsətdən istifadə edib sovet-Türkiyə əlaqələri məsələlərinə daimi qayğı və diqqət göstərdiyinizə görə Sizə bir daha təşəkkür etmək istərdim»[58].

Sovet səfiri iki ölkə arasında dostluq münasibətlərinin inkişafından ötrü Azərbaycandan daha çox mədəniyyət və incəsənət xadimlərinin Türkiyəyə göndərilməsini təklif edirdi.

---

[55] Газ. «Бакинский рабочий», 1981, 19 ноября, №268 (19296).
[56] Газ. «Бакинский рабочий», 1981, 1 апреля, №78 (19106).
[57] Газ. «Бакинский рабочий», 1981, 26 мая, №124 (19152).
[58] ARSPİHDA, f. 1, siy. 68, iş 408, v. 96.



ЦК КП Азерб.   96
Вх. №2658/81
28 VI

КАНДИДАТУ В ЧЛЕНЫ ПОЛИТБЮРО ЦК КПСС,
ПЕРВОМУ СЕКРЕТАРЮ ЦК КП АЗЕРБАЙДЖАНА

товарищу АЛИЕВУ Г.А.

Глубокоуважаемый Гейдар Алиевич!

Мне доставляет большое удовольствие сообщить Вам, что в Анкаре 20 мая на сцене Государственного театра оперы и балета с огромным успехом прошла премьера балета известного советского композитора, Народного артиста Азербайджанской ССР Арифа Меликова "Легенда о любви".

На премьере присутствовал глава Турецкого государства К.Эврен, члены Совета национальной безопасности, правительство, представители широких кругов турецкой общественности. Спектакль, постановка которого была осуществлена группой видных деятелей советского искусства, явился крупным событием в культурной жизни Турции. Проникновенная, притягательная и одухотворенная музыка Арифа Меликова нашла в Турции своего благодарного слушателя.

Композитор Ариф Меликов проделал большую работу по пропаганде советского искусства, внес весомый вклад в развитие советско-турецкого культурного сотрудничества. Важно, что произведение Назыма Хикмета – Арифа Меликова увидело свет рампы Анкары, а также Стамбула, о чем мечтал великий прогрессивный поэт Турции.

Пользуясь случаем, хотели бы еще раз поблагодарить Вас, глубокоуважаемый Гейдар Алиевич, за постоянную заботу и внимание к вопросам советско-турецких связей.

С глубоким уважением,

А.РОДИОНОВ
ПОСОЛ СССР В ТУРЦИИ

г.Анкара,
9 июня 1981 года

Məktubu oxuduqdan sonra H.Əliyev MK-nın ideologiya katibi H.Həsənova belə bir dərkənar yazmışdı: «MK bürosu üzvlərini tanış etməyinizi xahiş edirəm. Kütləvi informasiya vasitələrində bu barədə yaxşı material vermək olardı»[59]. Məhz həmin göstərişdən sonra Azərbaycan mətbuatında tamaşa haqqında geniş məqalələr dərc edildi. Heç şübhəsiz, belə yazıların verilməsi Azərbaycanda Türkiyə haqqında məlumatın yayılmasına, dostluq əlaqələrinin möhkəmlənməsinə kömək edirdi.

Azərbaycan artistləri 1982-ci ildə Türkiyədə uğurla konsertlər verdilər[60]. Öz növbəsində 70-80-ci illərdə Azərbaycanda Türkiyə incəsənət ustalarının konsertləri də yüksək səviyyədə keçir və azərbaycanlıların rəğbətini qazanırdı.

Qeyd etmək lazımdır ki, həmin illərdə Türkiyəyə səfər etmiş mədəniyyət və incəsənət xadimləri 90-cı illərin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi prosesində mühüm rol oynadılar, erməni separatizminə və Ermənistanın təcavüzünə qarşı mübarizədə ən yüksək kürsülərdən cəsarətlə öz sözlərini dedilər.

H.Əliyev dönəmində hətta tələbə gənclərin Türkiyədən gəlmiş qonaqlarla ünsiyyətinə şərait yaradılırdı. Məsələn, monoqrafiya müəllifi tələbə yoldaşları ilə birlikdə 70-ci illərdə Azərbaycana səfər etmiş Türkiyənin həmkarlar ittifaqlarından birinin nümayəndəsilə indiki Xətai mədəniyyət sarayında keçirilən görüşə getmişdi. Salonda oturanlar qonağın söhbətini başa düşdüyü halda, tərcüməçi Azərbaycan dilinə bəzən yanlış çevirdiyindən türkiyəli qonaq onu dayandıraraq səhvini düzəldib nitqinin anlaşıldığını deyib, tərcüməçisiz danışmağa davam etmişdi. Bu isə ona olan rəğbəti artırmış və hərəkəti alqışlarla qarşılanmışdı.

---

[59] Yenə orada.

[60] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f. 13, siy. 1, bağ. 40, iş 361, v. 139, 140, 223; bağ. 40, iş 362, v. 5, 178; bağ. 41, iş 363, v.14-16.



Türk ordusunun 1974-cü ildə Kiprdə başladığı xilaskarlıq hərəkatına azərbaycanlı tələbə gənclər rəğbət bəsləyirdilər.

H.Əliyev türk xalqının istiqlal savaşına hörmətlə yanaşır, milli azadlıq mübarizəsi tarixini və Türkiyə cümhuriyyətin tərəqqisini ən ali kürsülərdən daim yüksək qiymətləndirirdi. Məsələn o, 1977-ci il may ayının 16-da Bakıda keçirilən beynəlxalq konfransdakı məruzəsində deyirdi ki, milli azadlıq hərəkatının coşqun yüksəlişi Türkiyənin milli suverenliyinin möhkəmlənməsinə gətirib çıxardı[61].

H.Əliyevin hakimiyyəti illərində Türkiyə ilə turist əlaqələrinin inkişafına da diqqət yetirilirdi. Onun rəhbərliyə gəlişilə Azərbaycana olan turist səfərləri ildən-ilə artmağa başlamışdı. H.Əliyev mərkəzi orqanlara müraciət edərək Türkiyədən SSRİ-yə səfər edən turistlərin səfər proqramlarına Azərbaycanın da salınmasını təkid edərək istəyinə nail olmuşdu. Məsələn, 1970-ci ildə Azərbaycandan Türkiyəyə 41 nəfər[62], 1971-ci ildə isə Türkiyədən Azərbaycana 31 nəfər turist səfər etmişdi[63].

Qeyd etmək lazımdır ki, turist qruplarının səfərləri respublikaya valyuta gəlirləri gətirir, Azərbaycan və türk xalqlarının dostluğuna, bütövlükdə, SSRİ-Türkiyə münasibətlərinin inkişafına kömək edirdi.

Azərbaycana Turkiyədən gələn idman nümayəndə heyətlərinin səfərləri də çoxalmışdı. Belə heyətlərdən biri 1979-cu ildə respublikaya gəlmişdi[64].

H.Əliyevin zamanında Azərbaycan mətbuatında Türkiyə haqqında əsasən xoş məramlı yazılar dərc olunurdu. Türkiyəyə səfər edən Azərbaycan jurnalistləri qardaş ölkə haqqında nəinki ədəbi, həmçinin Kommunist Partiyasının

---

[61] Əliyev H. Böyük Oktyabr Sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı. - «Kommunist» qəzeti, 1977, 27 may, №122 (16557).

[62] ARSPİHDA, f. 1, siy. 58, iş 196, v. 51-53.

[63] Yenə orada, v. 115.

[64] ARSPİHDA, f. 1, siy. 67, iş 185, v. 48.

mətbu orqanlarında maraqlı məqalələr çap etdirirdilər. Daha çox tanışlıq, məlumat xarakteri daşıyan həmin yazılar oxucular tərəfindən rəğbətlə qarşılanırdı. Məsələn, «Kommunist» qəzetində Azərbaycan Jurnalistlər İttifaqı İdarə Heyətinin katibi H.Hacıyevin Türkiyəyə böyük məhəbbətlə yazılmış səfər təəssüratı oxucuların marağına səbəb olmuşdu[65].

70-80-ci illərdə Türkiyə mətbuatı da Azərbaycana və H.Əliyevə geniş yer ayırır, xüsusi ehtiramını ifadə edirdi. H.Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildikdən az sonra, 1969-cu ilin avqust ayında Türkiyənin «Meydan» jurnalının baş redaktoru Turxan, «Milliyyət» qəzetinin xarici siyasət məsələləri üzrə şərhçisi Yalçın, «Cümhuriyyət» qəzetinin fotomüxbiri Ozqan və xüsusi müxbiri Atayev Azərbaycana səfər etdilər[66]. Zəngin səfər proqramını başa çatdıqdan sonra onlar türk mətbuatında Azərbaycan haqqında geniş yazılar dərc etdilər, fotoşəkillər verdilər. Belə yazılar qapalı sovet cəmiyyətində yaşayan azərbaycanlıların həyat və məişətinin Türkiyədə tanıdılmasında mühüm rol oynayırdı.

H.Əliyev Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd seçildikdən sonra türk mətbuatının ona və Azərbaycana olan marağı daha da artdı. Azərbaycan haqqında verilən məqalə və xəbərlərin sayı çoxaldı. Məsələn, Ayşəgül Doranın «Sovet Azərbaycanında» adlı məqaləsində H.Əliyevin Azərbaycanda həyata keçirdiyi quruculuq işlərindən geniş söhbət açılır və onların xalqın həyatı üçün əhəmiyyətli olduğu göstərilirdi[67].

1977-ci ildə Azərbaycana Jurnalistlər İttifaqının xətti ilə dəvət alan «Anadolu» qəzetinin icmalçısı, məşhur publisist İrfan Ünvar (Nəsrəddinoğlu) və «Yeni Ulus» qəzetinin baş redaktoru Günər Samlı may ayının 28-dən iyun ayının 3-dək Azərbaycana səfər edərək teatrlarda, muzeylərdə, elmi

[65] Hacıyev H. Türkiyə lövhələri. – «Kommunist» qəzeti, 1979, 28 fevral, № 49 (17088).

[66] ARSPİHDA, f. 1, siy. 57, iş 140, v. 18.

[67] ARSPİHDA, f. 1, siy. 64, iş 163, v. 171.



idarələrdə oldular, yaradıcı ziyalıların nümayəndələri ilə görüşdülər. Vətənə döndükdən sonra İrfan Ünvar «Anadolu» qəzetində geniş məqalə çap etdirdi. Qəzetin «Azərbaycan» rubrikasında İ.Ünvar Nəsrəddinoğlu Heydər Əliyevin Azərbaycan xalqı içərisində böyük nüfuz və hörmət sahibi olduğunu xüsusilə vurğulayır, milli mədəniyyətin inkişafı yolunda xidmətlərindən böyük fəxrlə söhbət açırdı[68]. H.Əliyevi Azərbaycanın birinci adamı kimi yüksək dəyərləndirən, əhalinin bütün təbəqələri arasında böyük nüfuzu olduğunu qeyd edən qəzet onun şəklini ən yaxşı yerində vermişdi[69].

Türk jurnalisti Günər Samlı 1982-ci ilin avqust ayında «Yeni Ulus» qəzetində Azərbaycan haqqında dərc etdirdiyi məqaləsində Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevə xüsusi yer ayıraraq fəxrlə yazırdı ki, lider Heydər Əliyev Azərbaycanda hamı tərəfindən sevilir, o eyni zamanda Sov.İKP MK Siyasi bürosunun üzvlüyünə namizəddir və bütün ölkəni idarə edir. Müəllif H.Əliyevin böyük enerjisi, geniş dünyagörüşü və yüksək təşkilatçılıq qabiliyyəti olduğunu vurğulayırdı[70]. Türklər və Türkiyə mətbuatı H.Əliyevin SSRİ-ni idarə edən şəxslərdən biri olduğundan qürur duyurdular. Heç əbəs deyil ki, Heydər Əliyev Sov. İKP MK Siyasi bürosuna üzv seçilərkən türk mətbuatı «bir türk ulduzu Moskvada-Kremldə»-deyə yazmışdı.

Türkiyədə yaşayan Azərbaycan mühacirətinin bir çox nümayəndələri H.Əliyevin milli-mədəni inkişaf naminə həyata keçirdiyi işlərdən məmnun qalır və onları təqdir edirdilər. Mühacirət nümayəndələri H.Əliyevin Moskvada daimi işləməyə aparılmasına sevinir, onların fikrincə, bu işin 5-6 il yubanmasına təəssüf hissi keçirirdilər.

H.Əliyevin tövsiyəsi ilə Türkiyədə işləyən azərbaycanlı jurnalistlər türk dövlət, siyasi xadimləri ilə tanış olur, onlarla yaxınlaşır, iki ölkənin dost olması yolunda çalışır, bu sahədə

[68] AR MTN arxivi, iş 440, v.94-95.

[69] Yenə orada, v.148-149.

[70] AR MTN arxivi, iş 536, v.108-110.

baxışlarını Azərbaycan rəhbərinə yazırdılar. Məsələn, 1972-ci ildə Moskvada «Sovet Ensiklopediyası» nəşriyyatında çap edilmiş rusca-türkcə lüğətin həmmüəlliflərindən biri, sonralar Ankarada işləyən azərbaycanlı jurnalist Ehsan Mustafayevin baş nazir Bülent Ecevitlə mehriban münasibətləri yaranmışdı. Digər azərbaycanlı jurnalistlər və mütəxəssislər də türk ictimai və mədəni həyatına daxil ola bilmişdilər.

H.Əliyevin Türkiyə ilə əlaqələrə verdiyi önəm qabaqcıl siyasi xadimlər, jurnalistlər və diplomatlar tərəfindən yüksək qiymətləndirilirdi. Məsələn, Ehsan Mustafayev 1977-ci il iyul ayının 27-də H.Əliyevə göndərdiyi məktubunda Azərbaycan artistlərinin Türkiyəyə uğurlu qastrol səfərləri, türk mətbuatında bu barədə gedən yazılar, Azərbaycan kültür dərnəyi və ölkədəki siyasi qüvvələr arasında yaranmış nisbət barəsində geniş məlumat verərək qeyd edirdi ki, əvvəllər böyük mətbuat əgər SSRİ haqqında antisovet istiqamətə üstünlük verirdisə, indi vəziyyət dəyişib. O, Türkiyəyə mədəniyyət və incəsənət kollektivlərinin tez-tez göndərilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq məktubun sonunda deyirdi: «Əziz Heydər Əlirza oğlu, mən qisa yazmaq istədim. Görünür alınmadı. Mən Sizin Türkiyəyə necə böyük əhəmiyyət verdiyinizi bilərək çox yazmalı oldum»[71].

H.Əliyev sovet sistemi şəraitində ziyalıların gücündən istifadə edərək Azərbaycan-Türkiyə əlaqələrini qırılmağa qoymurdu. Sonralar o deyirdi: «Əgər xalqlarımız əsrlər boyu yaşayıblarsa, mübarizə apararaq öz mənliyini qoruya biliblərsə, öz milli xüsusiyyətlərini itirməyiblərsə, böyük mərhələlərdən keçərək indi müstəqil xalq kimi, dövlət kimi yaşayırlarsa, bütün bunlara görə xalqlarımız öz içərisindən çıxan mütəfəkkirlərə, yazıçı və şairlərə, bəstəkarlara, rəssamlara, memarlara, alimlərə minnətdardırlar. Böyük iftixar hissilə demək olar ki, xalqlarımız bu sahədə çox zəngindirlər. Bu zənginlik xalqlarımızda milli ruhu, milliliyi, milli ənənələri yaşadıb, nəsildən-nəslə keçirib bu günə gətirib çıxarmışdır.

[71] Yenə orada.



94

00-3

**СЕКРЕТНО**
Экз.№ 1

**ЦК КП АЗЕРБАЙДЖАНА**

№г. 10/908 2/3.82

Комитет госбезопасности Азербайджанской ССР, выполняя постановление ЦК КПСС "О 60-ой годовщине образования Союза Советских Социалистических республик", организует своими оперативными возможностями публикации за рубежом правдивых материалов о достижениях нашей республики за годы советской власти. В этих целях, в частности, по согласованию с соответствующими службами КГБ СССР, через общественные организации республики в Баку приглашаются прогрессивные журналисты, писатели и ученые капиталистических стран. Программы их пребывания составляются с учетом оказания на них выгодного нашей стране влияния, знакомства с достижениями в народном хозяйстве, науке, культуре и здравоохранении; с ними достигается договоренность о выступлении в печати их стран с правдивыми материалами о Советском Союзе вообще и Советском Азербайджане, в частности.

Одним из таких мероприятий была организация приглашения в Баку через Союз журналистов Азербайджана известного турецкого публициста, обозревателя газеты "Анадолу" (литературный псевдоним Н.Насреттиноглу) Нурхана Улвера и главного редактора газеты "Эни улус" Гювера Самии. Турецкие журналисты находились в Баку с 28 мая по 3 июня с.г. включительно, им была предоставлена возможность посетить промышленные предприятия и сельскохозяйственные кооперативы, учебные и научные заведения, театры, музеи, организованы встречи с представителями творческой интеллигенции.

По возвращении в Турцию Н.Насреттиноглу 29 июня с.г. в анкарской газете "Анадолу" опубликовал статью, где с прогрессивных позиций освещается жизнь советских людей и их достижения в

98

2

предверии 65 годовщины Октябрьской революции и 60-летия образования СССР, о чем 2 июля газета "Правда" информировала своих читателей.

Статья И.Насраттиноглу начинается следующими словами: "По моему убеждению, наш северный сосед Советский Союз является той страной, посетить которую желают как граждане нашей страны, так и всего мира". Далее он сообщает о том, с каким гостеприимством его принимали в Азербайджанской ССР, которую он и его коллега Гюнер Саилы посетили по приглашению Союза журналистов Азерб.ССР, а также в Москве и Ленинграде, которые они посетили на обратном пути.

Под рубрикой "Азербайджан", автор дает справку о нашей республике – о территории, населении, административном делении, рассказывает, какие основные предприятия находятся в Баку, Кировабаде, Сумгаите. И.Насраттиноглу рассказывает о новой Конституции СССР и Азербайджанской ССР, о руководящей деятельности ЦК КП Азербайджана и национальном составе Верховного Совета Азерб.ССР, особо подчеркивая, что возглавляет республику Первый секретарь ЦК КП Азербайджана Г.А.Алиев, пользующийся большим уважением и авторитетом у населения.

В газете опубликованы две фотографии, сделанные на полях Азербайджана во время уборки урожая, и под рубрикой "Сельское хозяйство" рассказывается о достижениях в этой области экономики, называются известные цифры урожая винограда, хлопка, табака, овощей, полученного в 1981 году. Здесь же подчеркивается, что в текущем году виды на урожай еще более благоприятные.

Учитывая, что в Турции в настоящее время ведется большая кампания за создание государственных кооперативов сельского хозяйства, автор останавливается на деятельности совхозов в Азербайджанской ССР, о правах и обязанностях рабочих и служащих, об организационной работе, налоговой системе и распределении доходов.

Завершается статья И.Насраттиноглу словами о том, что где бы он находился он, о чем бы не беседовал в Советском Азербайд-



108

Секретно
экз.№ 2

ЦК КП АЗЕРБАЙДЖАНА

Регр 10/1110
20/IX 82

К № 10/906 от 31.08.82 г.

В результате проведенных нами мероприятий турецкие журналисты Гюнер Саилы и Ирфан Улвер Насраттин оглу, находившиеся в нашей республике в мае-июне о.г., продолжают публикации репортажей о своей поездке в Советский Союз в различных местных газетах и журналах ("Олай" – в номерах за 2-27 августа, "Йени Улус" – за 20 августа, "Анадолу" – за 22 июля и 4,5 августа, "Тюрк Фольклору" – за август, "Кириндже " – за июль-август месяцы (прилагаются). О содержании указанных репортажей, об их прогрессивной направленности сообщала "Правда" за 2 июля, 6 августа и 10 сентября о.г.

Основной материал о Советском Азербайджане дал в двух больших статьях, занимавших весь номер газеты "Йени Улус" за 20 августа о.г. Статья И.Насраттин оглу, ранее уже печатавшаяся в газете "Анадолу", посвящена деятельности потребительской кооперации в Азербайджане. Другая обзорная статья под общей рубрикой "Впечатления об Азербайджане" принадлежит Г.Саилы.

Автор статьи – известный турецкий публицист, дружественно настроенный к Советскому Союзу – в целом дает правдивую картину жизни в Советском Азербайджане. Вместе с тем, он, учитывая нынешний режим в Турции соблюдает и определенную осторожность.

Г.Саилы пишет: "Как получилось, что страна, где ранее не было даже керосиновой лампы, достигла уровня космической науки? Задавая этот вопрос и начиная публикацию своих впечатлений об Азербайджане, мы не преследуем цель пропагандировать какую-либо социальную систему. Мы задумали об этом искренне, т.к. та или

110

3

Автор в своей статье практически охватил все области советского образа жизни жителей Азербайджана, высказывая не только восхищение увиденным, но и рекомендуя своим читателям кое-что перенять. У него есть и критика отдельных сторон нашей жизни, но эта критика доброжелательная и касается в основном бытовых вопросов.

Особое место в статье отводится руководству республики и, прежде всего, кандидату в члены Политбюро ЦК КПСС Первому секретарю ЦК КП Азербайджана Г.А.Алиеву. "Лидер Гейдар Алиев всеми любим в Азербайджане,- пишет Г.Самли,- он в то же время является кандидатом в члены Политбюро ЦК КПСС, которое управляет всем СССР". Автор отмечает большую энергию руководителя Советского Азербайджана, направленную на претворение в жизнь внутренней и внешней политики страны, во имя дружбы между народами во всем мире".

Согласно имеющейся договоренности с Г.Самлы к 60-летию образования СССР он на местной полиграфической базе подготовил к печати книгу тиражом 5 тысяч экземпляров под названием "Азербайджан".



Azərbaycan xalqı bütün türk dünyasının bir hissəsi olaraq böyük və zəngin elm, mədəniyyət tarixinə malikdir...

Tarix böyükdür. Biz öz tariximizlə fəxr edirik. O bizim tariximizdir, xalqlarımızın vahid tarixidir...

Biz uzun illər ərzində, 70 il bir-birimizdən ayrı düşmüşdük. Əvvəllər də birliyimizə maneçilik törədən amillər olmuşdur. Lakin elm, mədəniyyət, ədəbiyyat adamlarımız bizim həmişə birgə olmağımızı təmin etmişlər. Biz bir-birimizdən məsafəcə uzaq olsaq da, ərazicə ayrı düşsək də, bir-birimizi görə bilməsək də, ulu babalarımızın mütəfəkkirləri milliyyətimizi, milli ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi unutmağa qoymayıblar və heç vaxt da unutmamışıq.

İndi isə biz bir-birimizi qucaqlamışıq, bir yerdəyik. Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir, heç ayırmaq da lazım deyildir. Biz bir-birimizə qaynayıb-qarışmışıq və proses davam edəcəkdir»[72].

H.Əliyevin fəaliyyətində Bolqarıstan türklərinin mənafelərini qorumaq da mühüm yer tuturdu. Bir neçə dəfə Bolqarıstanda olan, bu ölkəni, orada yaşayan türklərin həyatını yaxşı bilən H.Əliyev 80-ci illərin əvvəllərindən başlayaraq türklərin sıxışdırılmasına, ad və soyadlarının zorla dəyişdirilərək bolqarlaşdırılmasına, Ramazan və Qurban bayramlarının keçirilməsinin qadağan edilməsinə qarşı çıxaraq bunun Türkiyə ilə münasibətlərə zərər vuracağını, SSRİ-nin Balkan yarımadasındakı nüfuzuna xələl gətirəcəyini söyləyir və etirazını bildirirdi. Belə siyasəti müdafiə etməklə SSRİ-nin türk dünyasında nüfuzunu itirəcəyini söyləyən H.Əliyev bunun qarşısını almağı təklif edirdi. H.Əliyev dünya türklərinin haqqlarını Sov. İKP MK Siyasi bürosunda qoruyan yeganə şəxs idi. Heç əbəs deyil ki, Bolqarıstanda türklərə qarşı yönəldilən siyasət Azərbaycan xalqında kəskin narazılıq doğurmuşdu. Nəticədə Abşeron rayonu ilə Bolqarıstanın

[72] Azərbaycan beynəlxalq aləmdə. I cild, s. 70-71.

183

тов. Кочарядзе ?

Прошу рассмотреть и принять необходимые меры.
Г. Алиев
10/IX 77

КАНДИДАТУ В ЧЛЕНЫ ПОЛИТБЮРО ЦК КПСС
ПЕРВОМУ СЕКРЕТАРЮ ЦК КПА

тов. АЛИЕВУ Г.А.

Дорогой Гейдар Алиевич,

Пользуясь Вашим разрешением, решил информировать Вас о гастролях азербайджанских артистов, о публикациях в турецких газетах, о деятельности т.н. "азербайджанского культурного общества" и коротко о расстановке политических сил в Турции.

Всеобщие парламентские выборы 5 июня 1977 года не обеспечили ни одной из политических партий возможность формирования однопартийного правительства. Самое большое количество мест в меджлисе получила Народно-республиканская партия /НРП/ - партия социал-демократического толка. Она получила 213 мест, чего недостаточно для вотума доверия. Для этого требуется минимум 226 голосов. В этих условиях генпредседатель НРП Бюлент Эджевит, получив полномочия от президента республики, решил сформировать однопартийное правительство парламентского меньшинства. Однако правительство это не получило вотум доверия и ушло в отставку. Затем полномочия формировать правительство были даны генпредседателю Партии Справедливости /ПС/ Сулейману Демирелю, имеющей в меджлисе 189 депутатов. Демирель создал коалицию из трех правых партий: ПС, Партии Национального благоденствия /ПНБ/ и Партии Националистического действия /ПНД/. Их общее количество депутатов в меджлисе 229. Между этими партиями существуют серьезные разногласия, которые привели к развалу прежней коалиции "националистического фронта". ПНД считается партией фашистского толка, она вместе с тем имеет броские, подкупающие лозунги, как то: "долой эксплуатацию", "долой многонациональные тресты", "равенство для трудящихся" и т.д. Одним из инициаторов "освобождения порабощенных турок" выступает эта партия, она выступает в роли отряда антикоммунизма. ПНБ же является исламской клерикальной

3608
15 IX 77



160

6.

политическая стабильность в стране, расширятся возможности и увеличится количество моих просьб.

Дорогой Гейдар Алиевич!

Старался быть лаконичным. Видимо, не удалось. Уж об очень многом хотелось бы поделиться, зная то значение, которое Вы придаете Турции. Для меня было бы очень ценно получить Ваши советы. Примите мою искреннюю любовь и добрые пожелания здоровья.

Искренне Ваш,

Оскан Мустафаев.

Мустафаев

26.УП.1977 г.
Анкара

Razqrad vilayəti arasında əvvəlki illərdə yaranmış qardaşlaşmış şəhərlər hərəkatı çərçivəsində əməkdaşlıq tədricən zəiflədi, bir müddət sonra isə tamamilə kəsildi.

4 min Bolqarıstan türkünü öldürən, 30 min nəfəri həbs etdirən[73], SSRİ-nin «16-cı» respublikası hesab edilən Bolqarıstanın rəhbəri Todor Jivkovun antitürk siyasətinə etiraz etməklə H.Əliyev əslində sovet siyasətinə qarşı çıxırdı. Belə mövqe onun şəxsi karyerasına ziyan olsa da, baxışlarını çəkinmədən, açıq şəkildə söyləyirdi.

H.Əliyevin aydın mövqeyi və Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq istiqamətindəki ardıcıl fəaliyyəti Azərbaycanın bədxahlarını ciddi narahat edirdi. Erməni dairələri onun qatı pantürkçü, turançı, türkçü olması haqqında Moskvaya ardı-arası kəsilmədən şikayət məktubları yazır, hətta azərbaycanlıların da adından teleqramlar vururdular. Onlar H.Əliyevi Kremldə oturan türk paşası adlandırır, türkçülükdə və pantürkizmdə təqsirləndirirdilər. Moskvada işlərkən onun əleyhinə ən çox yazan erməni ziyalıları idi. Məsələn, artıq qeyd edildiyi kimi, akademik Suren Eyvazyan 1987-ci ilin mart ayında M.S.Qorbaçova məktub yazaraq H.Əliyevi 1969-1982-ci illərdə pantürkizm siyasəti yeritməkdə ittiham etmiş, cinayət məsuliyyətinə cəlb olunaraq müttəhimlər kürsüsündə oturdulmasını tələb etmişdi[74].

Antitürk və antiazərbaycan fəaliyyətini genişləndirən Daşnaksütyun partiyası da başlıca zərbəni H.Əliyevə qarşı yönəltmişdi. Bu kampaniyada müxtəlif iyrənc üsullardan istifadə edilirdi. Heç şübhəsiz, onun Sov.İKP MK Siyasi bürosundan uzaqlaşdırılmasında erməni millətçilərinin məktublarının, böhtanlarının, təzyiqlərinin, Qorbaçovun ermənipərəst və antitürk mövqeyinin rolu böyük olmuşdu.

---

[73] Yahya İ. Çağlar böyu din duşmanları. İstanbul, Çözüm Yayınçılıq, 1989, s.126.

[74] D'Agustino A. Gorbachev's Revolition, p. 108.



* * *

Beləliklə, Heydər Əliyevin bu istiqamətdə mövqeyini və fəaliyyətini aşağıdakı kimi ümumiləşdirmək olar:

- ağır sovet sistemi şəraitində işləməsinə və milli düşüncəni, türklüyü inkar edən kommunist ideologiyasının Azərbaycanda rəhbəri olmasına baxmayaraq, H.Əliyevin fəaliyyətində türk dünyası ilə əlaqələrin qurulması və genişləndirilməsi mühüm yer tuturdu;
- onun türk dünyası naminə fəaliyyəti «türk», «türklük» ifadələri işlədilmədən sözdə deyil, əməldə, mövcud şəraitə uyğun olaraq ehtiyatla, məharətlə və uğurla həyata keçirilirdi;
- həyata keçirilən hər hansı tədbir üçün Moskvadan icazə alır, xalq və respublika əleyhinə mənfi rəyin formalaşmasının qarşısını ustalıqla kəsirdi;
- xalqa doğru gedir, milli mədəniyyətin və tarixi sərvətlərin qorunması və inkişafında müstəsna rol oynayır, ziyalılara bu məsələdə «qonşu respublikalardan nümunə götürməyi» tövsiyə edirdi;
- Azərbaycanda türkologiya sahəsində elmi araşdırmaların aparılmasına və türkoloqlara dövlət qayğısı göstərirdi;
- türk yazılı tarixi abidələrinin qorunub saxlanılmasına, tərcümə edilməsinə və xalq içərisində populyarlaşdırılmasına xüsusi diqqət yetirirdi;
- Azərbaycanda yaşayan Məshəti türklərinin ali təhsil almalarında, onlardan ixtisaslı kadrların hazırlanmasında, həyat şəraitlərinin yaxşılaşdırılmasında müstəsna rol oynayırdı;
- SSRİ-nin türk xalqları arasında mədəni əlaqələri genişləndirməyin təşəbbüskarı, bir çox hallarda isə keçirilən tədbirlərin rəhbər təşkilatçısı olmuşdu;
- İraq türkmənləri ilə əlaqələrin qurulması və genişləndirilməsindən ötrü Moskvaya öz tövsiyələrini vermişdi;

- H.Əliyev sovet dövlətini türk dünyası ilə dost etməyə çalışır və bu işdə Azərbaycanın müstəsna rol oynaya biləcəyini SSRİ rəhbərliyinə inandırmışdı. Məlum olduğu kimi, Azərbaycanın istiqlalı fikri siyasi mühacirət tərəfindən Türkiyədə müxtəlif dərnəklər qurmaqla, jurnallar açmaqla qorunur və inkişaf etdirilirdi. H.Əliyev Türkiyədəki mühacirətin antisovet meylinin zəiflədilməsinə, Azərbaycana dəvət edilərək vətənlə sıx əlaqəsinin qurulmasına çalışırdı. O, sovet dövlətinin Türkiyəyə olan soyuq münasibətini yumşaltmaqdan ötrü Sov. İKP MK-ya tövsiyələrini yazmışdı. H.Əliyev hətta Azərbaycanla Türkiyə arasında birbaşa ticarətin qurulması təklifini sovet rəhbərliyinə bildirmişdi. Bu təklifin reallaşması eyni zamanda Naxçıvanın sosial-iqtisadi, mədəni inkişafına kömək etməli idi. Sonralar H.Əliyev etiraf edirdi: «70-ci illərdə mən Azərbaycana rəhbərlik edərkən Türkiyə ilə əlaqələr qurmağa çalışırdım. Ancaq Sovetlər Birliyi bizi sıxırdı, müstəqil hərəkət etməyə imkanımız yox idi»[75]. H.Əliyev daha sonra deyirdi ki, Azərbaycan nümayəndə heyətləri dünyanın istənilən ölkəsinə səfər edəndə problem yox idi. Amma Türkiyəyə getməyə Moskvada maneçilik edirdilər. Çünki o vaxt istəmirdilər ki, Azərbaycan Türkiyə ilə yaxınlaşsın. Ermənilər də həmişə Moskvaya məlumat verir, çalışırdılar ki, Türkiyə ilə Azərbaycanın yaxınlaşmasına imkan olmasın[76]. H.Əliyevin təkliflərinin həyata keçirilməsi nəticəsində Türkiyə ilə siyasi, ticarət, iqtisadi, elmi-texniki, mədəni əlaqələr genişlənir, türk rəsmi dairələrində, mətbuatında antisovet meyllər zəifləyirdi;

- H.Əliyev Türkiyə ilə mədəni əlaqələrin genişləndirilməsinə, gələn rəsmi qonaqların ən yüksək səviyyədə qarşılanmasına, İzmirdə keçirilən beynəlxalq sərgi-yarmarkada Azərbaycanın müstəqil pavilyonda təmsil olunmasına, Azərbaycan şair və yazıçılarının Türkiyəyə səfər etmələrinə, türkoloji mərkəzlərlə əlaqələrin yaradılmasına, elmi-tarixi, bədii ədəbiyyatın qarşılıqlı mübadiləsinə, mədəniyyət xadimlərinin səfərlərinin müntəzəm xarakter almasına nail olmuşdu. Onun hakimiyyəti dövründə türkiyəli aktyor Azərbaycan səhnəsində rollar ifa etmişdi. Soyuq müharibə illərində SSRİ-Türkiyə münasibətlərində müəyyən problemlər çıxmasına, zaman-zaman gərginliklər yaranmasına baxmayaraq, Azərbaycan mətbuatında Türkiyə haqqında əsasən xoş məramlı məqalələr dərc edilirdi;

- Türkiyə mətbuatında da Azərbaycan əleyhinə verilən yazıların sayı azalmışdı. H.Əliyev Azərbaycan haqqında yazan jurnalistləri, səhifələrində Azərbaycan mədəniyyətinə, tarixinə, adət-ənənələrinə yer ayıran qəzet və jurnalların redaktorlarını respublikaya dəvət etdirir, onlara xüsusi qayğı göstərirdi. Türk mətbuatında H.Əliyev xalq adamı, milli lider, milli-mənəvi dəyərləri inkişaf etdirən, respublikanı tərəqqiyə aparan, milləti ucaldan rəhbər kimi təqdim olunurdu;

- Türkiyədə yaşayan Azərbaycan mühacirətinin nümayəndələri Heydər Əliyevin milli-mədəni inkişafa göstərdiyi qayğıdan razı qalır, onu tədqir edir, Moskvaya daimi işləməyə aparılmasına, dünyanın fövqəldövlətinin rəhbərlərindən biri olmasına sevinirdilər;

- Türkiyə tarixini, coğrafiyasını, iqtisadiyyatını, türk xalqlarının yaratdıqları dövlətlərin tarixini, türk dilini mükəmməl bilən H.Əliyev öz nitqlərində türk xalqının milli azadlıq mübarizəsini, Türkiyənin suverenliyinin möhkəmləndirilməsini yüksək qiymətləndirirdi;

- Azərbaycanın xüsusi xidmət orqanları verdikləri məlumatlarda Türkiyə ərazisində antisovet radiostansiyaların fəaliyyət göstərmədiklərini yazırdılar;

- sovet dövründə Türkiyə ilə birbaşa əlaqələrin qurulmasına imkan verilməsə də, məhz H.Əliyevin səyləri nəticəsində iki xalq arasında əsrlər boyu mövcud olan hisslər,

[75] Əliyev H. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. Bakı, 1998, s. 465.
[76] Yenə orada, s. 467.

duyğular sarsılmadı, sındırılmadı. Bu əlaqələri qoruyub saxlayan milli ruhlu ziyalılar oldular;

- H.Əliyev belə hesab edirdi ki, çoxəsrlik tarixi boyu Avrasiyanın böyük hissəsində yaşayan turkdilli xalqlar bəşər mədəniyyətinə böyük töhvələr verərək onu zənginləşdiriblər. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə üzləşsə də, türk xalqlarının dərin köklərə, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarıb. O, türk xalqlarının tarixi, milli kökləri, mənəvi dəyərləri, adət-ənənələri və böyük tarixi ilə fəxr edirdi;

- H.Əliyev hesab edirdi ki, türk xalqlarının yaratdıqları «Kitabi-Dədə Qorqud», «Manas», «Alpamış», «Koroğlu» dastanları, türk xalqlarına mənsub olan Nizami, Yunis Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərlərinin mənəvi dəyərləri əks etdirən yaradıcılığı nəsillərdən-nəsillərə keçib gələrək xalqları bir-birinə daha da yaxınlaşdırıb, vətənpərvərlik və vətənə sədaqət hisslərini gücləndirib. Onun fikrincə, türk xalqlarının mədəniyyəti və ədəbiyyatı ziddiyyətli, eyni zamanda şərəfli yol keçərək əlaqələrin saxlanılmasında başlıca rol oynayıb;

- H.Əliyev hakimiyyəti illərində Azərbaycanın türk dünyası ilə əlaqələrinin qırılmasına imkan vermədi, onu inkişaf etdirdi. Hansı sosial-iqtisadi, ideoloji sistemin mövcudluğundan asılı olmayaraq H.Əliyevin fəaliyyəti türk xalqları arasında əlaqələrin konkret şəraitdə inkişafına xidmət etdiyindən böyük tarixi əhəmiyyət daşıyırdı.



# NƏTİCƏ

XX əsrdə Azərbaycan xalqının qabaqcıl nümayəndələrini düşündürən məsələlərdən biri dövlət müstəqilliyinin bərpa edilməsi idi. Birinci dünya müharibəsinin gedişində yaranmış əlverişli beynəlxalq şəraitdə Azərbaycan xalqı müsəlman Şərqində ilk dəfə olaraq dövlət müstəqilliyini respublika formasında bərpa edərək tarixində yeni bir dönəmin başlanğıcını qoydu. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən tanınan Azərbaycan Xalq Cümhuriyyəti sosial, iqtisadi, siyasi, mədəni və başqa sahələrdə geniş tədbirlər işləyib hazırlayaraq həyata keçirməyə başladı. Lakin Azərbaycanın dövlət müstəqilliyini tanımayan bolşevik Rusiyası imkan yaranan kimi onu işğal edərək Cümhuriyyət hökumətini devirdi. Azərbaycanda sovet hakimiyyəti quruldu. Azərbaycanın dövlət müstəqilliyinə son qoyulsa, bütün idarəçilik üçün göstərişlər mərkəzdən verilsə, xarici siyasət fəaliyyəti ləğv edilsə də, yaradılmış Azərbaycan SSR-də dövlət və hökumət strukturları fəaliyyət göstərirdi.

20-30-cu illərdə Azərbaycanda yeridilən sovetləşdirmə siyasəti mahiyyətinə görə ruslaşdırma, milli qüvvələrin məhv edilməsi, vətəndən didərgin salınması məqsədini güdürdü. Xüsusən Bakı şəhəri başqa xalqların nümayəndərinin köçürülməsi nəticəsində milli simasını itirirdi. Hələ I Pyotrun Xəzərsahili ərazilərə işğalçı yürüşləri dövründən başlayaraq təlqin edilən «Bakı və Azərbaycan» fikrini sovet hökuməti də müxtəlif metodlarla həyata keçirirdi. Gənc sovet dövlətinin müstəqil Azərbaycan Cümhuriyyətinin təbii paytaxtı olan Bakını 1918-20-ci illərdə ayırıb Rusiyaya birləşdirmək niyyəti 1920-ci ilin aprelində baş verən işğaldan sonra da qalırdı. Hətta 20-ci illərin əvvəllərində Bakının Azərbaycandan alınıb Rusiyaya birləşdirilməsinə dair Kommunist Partiyası Mərkəzi Komitəsinin məxfi qərarı da

qəbul edilmişdi. Bakı şəhərinin büdcəsi bütün Azərbaycanın büdcəsindən çox idi. RK(b)P-nin 1921-ci ildə keçirilən X qurultayında etdiyi məruzəsində Stalin sosial-iqtisadi və mədəni inkişaf baxımından Bakının Azərbaycandan fərqli olduğunu bildirmişdi. Şəhəri Azərbaycandan ayırıb Rusiyaya birləşdirməklə respublikanı «başsız bədənə» çevirmək niyyətləri 20-30, hətta Xruşşov dövründə də davam etdirilmişdi. Bakının milli simasını bərpa etmək problemə çevrilmişdi.

Bununla belə, qeyd etmək lazımdır ki, istiqlal uğrunda mübarizə aparan qüvvələr, milli ziyalılar həmin illərdə repressiya olunaraq məhv edilsələr də, sovet hakimiyyətinin heç də bütün tədbirləri antiazərbaycan mahiyyəti daşımırdı və ziyanlı deyildi. Mədəni inqilab illərində Azərbaycan xalqının bir çox milli-mənəvi və mədəni sərvətləri qəddarlıqla məhv edilsə də, savadsızlığın ləğvi istiqamətində həyata keçirilən tədbirlər, məktəblərin, mədəni-maarif müəssisələrinin, ali və orta ixtisas təhsili ocaqlarının geniş şəbəkəsinin yaradılması, nəhəng tikinti-quruculuq işlərinin aparılması böyük tarixi hadisələr idi. Həmin illərdə milli ziyalıların ölkədə aparılan kütləvi repressiyalar nəticəsində məhv edilməsinə təsir edən çoxlu amillərdən biri heç şübhəsiz, Azərbaycan rəhbərliyi daxilində təbii yekdilliyin, səmimi birliyin olmaması, ayrı-ayrı şəxslərin arasında hökm sürən intriqalar, vəzifə hərisliyi idi. Bununla belə, 30-cu illərin qanlı repressiyaları istiqlal fikrini tamamilə məhv edə bilmədi. O, xalqın amansızcasına məhv edilməyə yönəldilmiş milli adət-ənənələrində və ruhunda yaşayırdı.

İkinci dünya müharibəsi illərində Azərbaycan xalqı antihitlerçi koalisiyaya daxil olan SSRİ-nin tərkibində qələbəyə özünün ön cəbhədə, partizan, antifaşist müqavimət hərəkatında döyüş qəhrəmanlıqları, qanı bahasına, arxa cəbhədə isə əmək rəşadəti, təbii sərvətləri ilə töhvə verdi. Bununla belə, müharibənin gedişində yaranmış şəraitdən istifadə edən Azərbaycan siyasi mühacirəti və əsir düşmüş bir sıra



azərbaycanlılar vətənin istiqlalını SSRİ-nin məğlub edilməsində və bolşevik hökumətinin devrilməsində görərək fəaliyyətə başlasalar da, müharibənin nəticələri onların istəklərini reallaşdırmağa imkan vermədi. Stalin repressiyalarından qorxaraq SSRİ-yə dönməyənlər istiqlal fikrinin unutdurulmaması yolunda xarici ölkələrdə, əsasən Türkiyədə müxtəlif dərnəklər və cəmiyyətlər quraraq fəal iş aparırdılar.

Müharibədən sonrakı stalinizm illərində də Azərbaycan daxilində istiqlal fikrinin yenidən doğması və inkişafı üçün demək olar ki, elə bir əlverişli şərait mövcud deyildi. Milli ruhlu ziyalıların, başqa cür düşünən şəxslərin təqib olunması davam edirdi. Stalinin ölümü və şəxsiyyətə pərəstişinin pislənilməsi sovet cəmiyyətində yeni ab-hava yaratdı. Ölkədəki inzibati-amirlik sistemində nisbi yumşalma baş verdi. Bundan sonra şair və yazıçıların əsərlərində xalqı düşündürən məsələlər bədii formalarla, üstüörtülü şəkildə, çox ehtiyatla təsvir olunmağa başladı. 50-ci illərdə xalqın milli-mədəni inkişafı ilə bağlı bəzi məsələlər, xüsusən ana dili məsələsi gündəliyə gəldi. Mərkəzin icazəsi ilə Azərbaycanda ana dilinə dövlət statusu verildi. Lakin Azərbaycan rəhbərliyində yekdilliyin, təcrübənin olmaması nəticəsində hay-küylü vəziyyət əmələ gəldi. Əhalinin bir qismi, xüsusən rəsmi orqanlarda işləyən qeyri azərbaycanlılar arasında narazılıq yarandı. Belə şəraitdə Moskva qətiyyətli addımlar atdı. Nəticədə tədricən intişar tapmağa başlayan milli məsələlər sovet hökuməti tərəfindən qətiyyətlə qapadıldı. Bundan sonra mərkəzdə Azərbaycan haqqında mənfi fikir gücləndi. Bütün bu hərəkətlərin nəticəsində Azərbaycan rəhbərləri dəyişdirildi.

Azərbaycan xalqını düşündürən bir sıra məsələlər 60-cı illərdə bəzi ziyalılar tərəfindən ehtiyatla qaldırılmağa başlansa da, həll edilməmiş qalırdı.

H.Əliyev hakimiyyətə gələrkən Azərbaycan xalqının qabaqcıl xadimlərini, milli ruhlu ziyalılarını düşündürən, yığılıb qalmış çoxlu problemlər hələ də həllini gözləyirdi.

Azərbaycanın başlıca problemləri əvvəlki dövrlərdə siyasi hakimiyyət daxilində yekdilliyin olmaması, xalqla hakimiyyət arasında uçurumun dərinləşməsi, ziyalıların siyasi hakimiyyətdən uzaq qaçması, milli ziyalılara soyuq münasibətin mövcud olması, milli ədəbiyyatın, milli-mənəvi dəyərlərin, mədəniyyətin sıxışdırılması, məhv edilməsi, tarixi abidələrə ögey münasibət bəslənilməsi, ana dilinin təsir dairəsinin məhdudlaşdırılması, milli hərbçi kadrların hazırlanmaması, sovet ordusu sıralarında yüksək rütbəli azərbaycanlı hərbçilərin olmaması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulmaması, Azərbaycan xalqının dünyada tanınmaması və ya az tanınması, əsassız erməni iddialarının qarşısının lazımınca alınmaması, Cənubi Azərbaycan məsələsi, türk dünyası ilə əlaqələrin yaradılmaması idi. Reallığa əsaslanaraq hərəkət edən böyük siyasi və dövlət xadimi olan H.Əliyev bu problemləri həll etməli idi.

H.Əliyevin doğulduğu ailənin mənsub olduğu Azərbaycan xalqının milli-mənəvi, dini dəyərlərinə sıx bağlılığı, sovet dövründə xalqını düşündürən problemləri, Azərbaycan və dünya tarixini, beynəlxalq məsələləri mükəmməl bilməsi, türk və müsəlman dünyası, Cənubi Azərbaycan məsələlərinə dərindən yiyələnməsi, xüsüsi xidmət orqanlarında işlərkən Azərbaycan xalqına qarşı yönəldilmiş siyasəti görməsi və bir sıra digər amillər onun millətsevərlik, müstəqil dövlətçilik baxışlarının formalaşmasına təsir etmişdi.

Əlbəttə, H.Əliyevin fəaliyyətinə sovet dövlətinin yeritdiyi ümumi siyasətdən kənarda baxmaq doğru deyil. Amma danılmaz həqiqətdir ki, o yaranmış ən kiçik imkanlardan xalqın mənafeləri naminə istifadə edirdi. Ümumiyyətlə, tarixi xadimlərin xidmətlərinə qiymət verərkən müasir tələblərə nisbətən vermədikləri şeylər deyil, onların öz sələfləri ilə müqayisədə verdikləri yeni şeylər əsas götürülür. Deməli, metodoloji baxımdan H.Əliyevin fəaliyyətinə özündən əvvəlki xadimlərlə müqayisədə doğru qiymət vermək olar. H.Əliyev özündən əvvəlki rəhbərlərin bacarmadıqlarını böyük



məharətlə həll etmişdir. Ondan sonra hakimiyyətə gələnlər isə nəinki H.Əliyevdən irəli getmədilər, əksinə problemləri həll etməyərək Azərbaycanı geriyə atdılar. Nəticədə Azərbaycan aqressiv erməni separatizmi, Ermənistan silahlı dəstələrinin hücumları, azərbaycanlıların tarixi-etnik torpaqlarından vəhşicəsinə qovulması faktı ilə üz-üzə qaldı. Azərbaycan böyük fəlakətlərə düçar oldu.

Azərbaycanlıların birliyi məsələsi H.Əliyevin milli dövlətçilik baxışlarının tərkib hissəsi idi. Buna görə də H.Əliyev hakimiyyətə gəldikdən sonra böyük məharətlə azərbaycanlılar arasında milli birliyə, siyasi hakimiyyət daxilində yekdilliyə, xalqla hakimiyyət arasında uçurumun aradan qaldırılmasına nail oldu. O, azərbaycanlıları müxtəlif dövlət, partiya və təsərrüfat orqanlarında vəzifələrə gətirmək üçün onların Kommunist Partiyası sıralarına daha çox daxil olmasına çalışır, məqsədinə böyük əzmlə çatır, xüsusi xidmət orqanlarına azərbaycanlı kadrları yerləşdirir, rütbələr verdirir, siyasi hakimiyyəti möhkəmləndirir, qadınları müxtəlif vəzifələrdə irəli çəkir, milli ruhu gücləndirir, sovet hakimiyyətinin əvvəlki illərində azərbaycanlıların qırılmış inamını bərpa edərək vətənpərvərlik və millətsevərlik baxışlarını gücləndirirdi. Onun hakimiyyəti illərində azərbaycanlılar vətən deyərkən əsasən Azərbaycanı, paytaxt deyərkən Bakını, rəhbər deyərkən Heydər Əliyevi nəzərdə tuturdular. H.Əliyevin ən böyük tarixi xidmətlərindən biri Azərbaycan xalqı arasında milli birliyə, siyasi hakimiyyət daxilində yekdilliyə, siyasi hakimiyyətlə xalq arasında vəhdətə nail olması idi. Bu isə digər sahələrdə onun millət naminə çalışmalarında uğurlar qazanmasına kömək edirdi.

H.Əliyev öz fəaliyyətində ilk növbədə təhsil və elmə xüsusi diqqət verirdi. Maarif və təhsilin inkişafı H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi. Azərbaycan xalqının bütün sovet tarixi ərzində məktəb və maarifinin ən yüksək inkişafı 70-80-ci illərdə oldu. Xalqın maariflənməsinə ciddi əhəmiyyət verən H.Əliyev başlıca səylərini

məktəb tikintisinə yönəltmişdi. Onun hakimiyyəti illərində Azərbaycan məktəb binaları tikintisi meydanına çevrilmişdi. 1969-1982-ci illərdə Azərbaycanda 849 ümumtəhsil məktəbi, yəni ildə orta hesabla təxminən 7 məktəb tikilib istifadəyə verildi. Həmin illərdə Azərbaycan məktəbinin maddi-texniki bazası, təchizatı yaxşılaşdı, məktəb kitabxanalarının fondları zənginləşdı. Şagirdlərin əmək tərbiyəsinə diqqət yetirilir, məktəb emalatxanaları və müxtəlif peşə yönümlü sahələr inkişaf etdirilirdi.

H.Əliyev Azərbaycan müəllimınə xüsusi qayğı göstərir, onları müxtəlif fəxri adlara təqdim edir, ən qabaqcıllarını bütün ölkədə tanıdırdı. 70-80-ci illərdə müəllim Azərbaycanda ən hörmətli şəxslərdən hesab edilirdi.

Məktəbin ana dilində dərslik, dərs vəsaitləri və metodik göstərişlərlə təmin olunması işi gücləndirildi. Məktəb yaşlı uşaqlar kütləvi şəkildə təhsilə cəlb edilmişdilər. Əvvəlki illərdə təhsil almaq imkanı olmayan şəxslər üçün axşam məktəbləri təşkil edilmişdi. Hakimiyyətə gələrkən kənd məktəblərində dərs verən orta ixtisas təhsilli müəllimlər üstünlük təşkil etdiyindən H.Əliyev onların ali təhsilli müəllimlərlə təmin edilməsi məqsədilə geniş tədbirlər həyata keçirirdi. Kənd yerlərindən olan uşaqların ali təhsil almalarından və kəndi ixtisaslı kadrlarla təmin etməkdən ötrü müsabiqədənkənar qəbula yerlər ayrılmışdı. Həmin gənclər təhsil aldıqdan sonra öz doğma yaşayış yerlərinə qayıdaraq işləyirdilər. Nəticədə Azərbaycanın hətta ucqar kənd məktəblərində ali təhsilli müəllimlər üstünlük təşkil edirdi.

Məktəbi ixtisaslı kadrlarla təmin etməkdən ötrü təyinat sistemi genişləndirilmişdi. Yerlərə işləməyə gedən başqa rayonlardan olan gənclər bəzən təyinat müddəti başa çatdıqdan sonra geri dönməyərək orada qalıb ailə qurur və yerli camaatla qaynayıb-qarışırdı. 70-ci illər Azərbaycanın kənd məktəblərində bilik yarışı ilə yadda qalmışdı. Təyinatla kəndə gedən müəllimlər mənzillə, mənzil kirayə haqqı ilə təmin olunur, onlara vergidə güzəştlər edilirdi. Həmin illərdə



müəllimlər özlərinə yaxşı evlər tikir, Azərbaycan kəndinə pul əvvəlki illərlə müqayisədə daha çox daxil olurdu.

Respublikada ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət verilirdi. 1969/1970-ci tədris ilindən başlayaraq respublikanın ali məktəblərində tələbələrin sayı 11%, orta ixtisas məktəblərində isə 14% artmışdı.

H.Əliyev azərbaycanlı gənclərin dünyanın müasir elm və mədəniyyət nailiyyətlərini mənimsəməsinə diqqət yetirərək onların ölkənin qabaqcıl ali məktəblərində ümumittifaq büdcəsi hesabına təhsil almalarına nail olurdu. Həmin tələbələrə qayğı göstərilir, problemləri həll edilir, onlarla Bakıda və Moskvada müntəzəm görüşlər keçirilirdi. 70-80-ci illərdə Azərbaycan başdan-başa savadlılar diyarına çevrilmişdi. Həmin illər eyni zamanda milli kimliyin, milli mədəniyyətin, adət-ənənələrin qorunmasında, özünə inam hissinin güclənməsində mühüm tarixi əhəmiyyət və məzmun daşıyan bir dövr idi.

H.Əliyev Azərbaycanın qədim tarix və mədəniyyət abidələrinin qorunması və bərpa etdirilməsində mühüm rol oynayaraq Dövlət büdcəsindən onların mühafizəsi və bərpasına ayrılan xərcləri daim artırır, tarixi yerlərin adlarını özünə qaytarır, arxeoloji qazıntı işlərini genişləndirmək üçün göstərişlər verir, həmin məqsədlə ayrılan vəsaitləri çoxaldır, görkəmli memarların yubileylərini keçirir, onların irsinin öyrənilməsi və təbliğini təşviq edir, muzeylərin eksponatlarla zənginləşdirilməsinə, arxivlərin fondlarının artırılmasına qayğı göstərir, yubileylərini qeyd etdirir, Azərbaycanda və ölkənin müxtəlif şəhərlərində xalqın tarixi ilə bağlı yeni abidələr qurur, mədəni-maarif müəssisələrinin şəbəkəsini genişləndirir, onları ali təhsilli mütəxəssislərlə təmin edir, saxlanmalarından ötrü Dövlət büdcəsindən ayrılan məsrəfləri çoxaldır, Azərbaycan xalqının dini və mənəvi dəyərlərinin qorunub-saxlanılması və inkişaf etdirilməsinə diqqəti artırırdı. Moskvanın təzyiqlərinə baxmayaraq, onun hakimiyyəti illərində Qurban və Ramazan kimi dini bayramlar dindarlar

tərəfindən qeyd edilirdi. Bununla belə, H.Əliyev dini fanatizmin, mövhumatın, xurafatın qəti surətdə əleyhinə çıxırdı. Milli bayram olan Novruz H.Əliyevin hakimiyyəti illərində böyük təntənə ilə keçirilirdi. O, Azərbaycan xalqını müasir dəyərlərə yiyələnmiş, inkişaf etmiş xalq kimi görmək istəyirdi. H.Əliyevin milli tarixə, mədəniyyətə, adət-ənənələrə qayğısı xalqda müstəqillik hisslərinin dirçəlməsinə təsir edirdi.

H.Əliyevin ədəbiyyata qayğısı onun milli dövlətçilik baxışlarının tərkib hissəsi idi. Çünki mədəniyyətdə, ədəbiyyatda xalqın milli ruhu, milli kimliyi yaşayırdı. Buna görə də H.Əliyev Azərbaycan ədəbiyyatına və ədəbi irsə qayğı göstərirdi. Onun bu sahədəki fəaliyyəti əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilirdi: yazıçıların qurultaylarında iştirak edir, onlarla canlı ünsiyyət qurur, əsərlərini oxuyur, evlərinə zəng vuraraq öz mülahizələrini söyləyir, xalqın tarixi keçmişi və bu günü barədə dəyərli əsərlər yazmağı tövsiyə edir, xalqla canlı ünsiyyət qurmaları və yaradıcılıqları üçün şərait yaradır, yazıçılar üçün xüsusi olaraq nəşriyyat qurur, yaradıcılıq evi açır, yubileylərini keçirir, dövlətin yüksək orden və medalları ilə təltif edilmələrinə əzmlə nail olur, mənzillə təmin edirdi. H.Əliyev Azərbaycan klassik irsinə xüsusi qayğı göstərir, klassiklərin yubileyləri barədə rəsmi qərarlar qəbul edir, onları təntənə ilə keçirir, əsərlərinin nəşrinə, səhnələşdirilməsinə, irslərinin təbliğinə nail olur, unutdurulmasına imkan vermir, adlarına küçə, məktəb və kitabxanalar verməklə, heykəllərini qoymaqla xatirələrini əbədiləşdirir, ədəbiyyat muzeyi yaradırdı.

H.Əliyev Azərbaycan jurnalistikasına da qayğı göstərir, jurnalistlərin qurultaylarında iştirak edir, onların mənzil və yaradıcılıq şəraitlərini yaxşılaşdırır, milli mətbuatın yubileyini keçirirdi. Onun hakimiyyəti illərində yazıçı, şair, jurnalist cəmiyyətdə nüfuzlu və hörmətli hesab edilirdi. Azərbaycan ədəbiyyatına, yazıçı və şairlərə xüsusi diqqət və qayğı göstərməklə H.Əliyev özündən əvvəlki rəhbərlərdən xeyli



irəli getmişdi. Azərbaycan ədəbiyyatı bütün sovet dövründə heç vaxt 70-ci illərdəki kimi qayğı ilə əhatə olunmamışdı. Həmin illər Azərbaycan ədəbiyyatının çiçəklənməsi, tərəqqisi illəridir. Azərbaycan xalqının tarixi keçmişi, milli kökləri ilə bağlı gözəl bədii əsərlər yaradılaraq müxtəlif dillərə tərcümə edilirdi. Xalqın ədəbiyyata həvəsi və ədəbi irsə sayğısı artmışdı. 70-80-ci illərdə Azərbaycanın yaradıcı adamları üçün sistem və ideologiya bir dekorasiya idi. Əslində onların əsərləri xalqda milli şüuru dirçəldir, özünə inam və müstəqillik hisslərini aşılayırdı. Azərbaycan ədəbiyyatına qayğı göstərməklə H.Əliyev istiqlal fikrinin inkişafına kömək edirdi.

Xalqın milli ruhu, tarixi keçmişi milli incəsənətdə yaşadığından H.Əliyev onun qorunması və inkişafına xüsusi diqqət yetirirdi. Milli incəsənətə qayğı H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi. Azərbaycan incəsənəti sovet dövründə ilk dəfə olaraq ən yüksək inkişaf nöqtəsinə məhz H.Əliyevin hakimiyyəti illərində çatdı. 70-ci illər-80-ci illərin ortaları Azərbaycan incəsənətinin coşqun yüksəlişi illəridir. Azərbaycan musiqisi, teatrı, kinosu, rəssamlığı, memarlığı, radio və televiziyası uca zirvələrə çatdı. Həmin illərdə Azərbaycan musiqi sənəti klassiklərinin xatirələri əbədiləşdirilir, ən parlaq nümayəndələrinə dövlətin orden və medalları, fəxri adlar verilir, mənzil və yaradıcılıq şəraitləri yaxşılaşdırılır, əsərləri ölkə və xarici dövlətlərin səhnələrində oynanılır, xalq musiqisi və folklor dirçəldilir, bədii özfəaliyyət kollektivlərinin fəaliyyəti gücləndirilir, aşıq musiqisinin inkişafına diqqət verilirdi. Bəstəkarların qurultaylarında iştirak edən H.Əliyev onlarla ünsiyyət qurur və problemlərinin həll edilməsi barədə göstərişlər verirdi.

H.Əliyev Azərbaycanda kino sənətinin inkişafına xüsusi önəm verir, kinostudiyanın maddi-texniki bazasını möhkəmləndirir, milli tarixə həsr edilmiş ən yaxşı bədii filmlərin çəkilişini tövsiyə edir, aktyorları dövlətin ali mükafatlarına və fəxri adlara təqdim edir, Azərbaycan kinosunun yubileyini

keçirir, teatrın inkişafına diqqət yetirir, teatr xadimlərinin, teatrların yubileylərini keçirir, onlara fəxri adların və dövlətin orden və medallarının verilməsinə nail olur, bununla da xalqının istedadlı, böyük olduğunu göstərir, milli tarixlə bağlı əsərlərin səhnələşdirilməsini məsləhət edirdi.

70-ci illər – 80-ci illərin ortalarında Bakının siması yeni binaların inşası ilə zənginləşdi, onlarla yeni memarlıq abidələri və heykəllər tikildi, Azərbaycan memarları bütün ölkə miqyasında məşhurlaşdı, rəssamlıq sənəti inkişaf etdi. Həmin sahənin görkəmli xadimləri dövlətin ən yüksək mükafatlarını aldılar.

Azərbaycan dilinə qayğı H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi. Onun səyləri nəticəsində respublika Konstitusiyasında Azərbaycan dili dövlət dili olaraq təsbit edildi. Bütün sovet tarixi ərzində Azərbaycan dili ilk dəfə olaraq məhz 70-80-ci illərdə mükəmməl kargüzarlıq dilinə çevrildi. Nəticədə dövlət müstəqilliyi bərpa edildikdən sonra digər türk və müsəlman respublikalarında dil məsələsində meydana çıxan bəzi problemlər Azərbaycanda yaranmadı. Ana dilinin mükəmməl kargüzarlıq dilinə çevrilməsi H.Əliyevin xalq qarşısında müstəsna tarixi xidmətidir. H.Əliyev ana dilinin saflığı uğrunda ardıcıl və qətiyyətlə çalışır, yaradıcı adamları buna əməl etməyə açıq-aşkar çağırır, dilçi alimlərə xüsusi qayğı göstərərək onları mənzil və yaşayış şəraiti ilə təmin edir, dövlətin orden və medallarına layiq görür, ölkədə tanıdırdı. Azərbaycan rəhbəri ana dilinin zənginləşdirilməsinə çalışaraq müxtəlif elmi, tarixi və bədii əsərlərin nəşrinə nail olurdu. Dilçi alimlərin əsərləri dövlət mükafatına layiq görülürdülər.

H.Əliyev respublika quruluşuna sədaqətli idi və onu daxilən sevirdi.

H.Əliyev əhalinin həyat şəraitini yaxşılaşdırmaq yolu ilə demoqrafik inkişafına çalışırdı. Respublikada qeyri-neft sahələrinin inkişafına xüsusi diqqət yetirilməsi regionların tərəqqisinə xidmət etməklə Bakı ilə Azərbaycanın digər



əraziləri arasında kəskin fərqlərin aradan qaldırılması, əhalinin demoqrafik inkişafı məqsədlərini güdürdü. Azərbaycanda yerli əhalinin üstün artması nəticəsində demoqrafik vəziyyət dəyişir, müxtəlif tarixi dövrlərdə müstəmləkəçilik siyasətinin gedişində köçürülmüş xalqların sayı tədricən azalmağa doğru gedir, Bakıda azərbaycanlı əhali dominantlıq təşkil edirdi. Bu isə azərbaycanlıların özlərinə olan inam hissini, milli ruhunu gücləndirirdi. Bakı şəhərinin milli simasının bərpa edilməsi, şəhər əhalisinin milli ruhunun dirçəldilməsi H.Əliyevin müstəsna tarixi xidmətidir.

Çoxuşaqlı ailələrə xüsusi qayğı göstərilir, onlara müavinətlər, müxtəlif fəxri adlar, dövlətin orden və medalları verilirdi. Çoxuşaqlı analar cəmiyyətdə xüsusi hörmət sahibi idilər. Beləliklə, Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək üçün tələb olunan şərtlərdən biri-əhali məsələsi əsaslı şəkildə həll edilmişdi. Azərbaycanlılar butün respublika ərazisində tam hökmran olaraq 90-cı illərin əvvəllərində dövlət müstəqilliyini bərpa etdilər. Bütün bunlar mahiyyətinə görə Azərbaycan tarixində mühüm əhəmiyyət daşıyan tarixi hadisələr idi.

H.Əliyev hakimiyyətə gələrkən sovet ordu sıralarında yüksək rütbəli azərbaycanlıların sayı xeyli az idi. Azərbaycanlılar ordu sıralarında əsasən tikinti hissələrində xidmət edirdilər. Sovet hökuməti onlara etibar etmirdi. Belə acınacaqlı vəziyyətin düzəldilməsinə ehtiyac duyulurdu. H.Əliyev azərbaycanlı hərbçi kadrların hazırlanması və hərbi vətənpərvərlik tərbiyəsinə ciddi diqqət yetirməyə başladı. O bu sahədəki fəaliyyətini bir neçə istiqamətdə həyata keçirirdi: azərbaycanlıların döyüş-texniki hərbi hissələrində qulluq etməsinə, ölkənin ali hərbi məktəblərinə göndərilməsinə nail oldu, C.Naxçıvanski adına hərbi məktəbi açdı. Azərbaycan rəhbəri ikinci dünya müharibəsində iştirak etmiş yüksək rütbəli azərbaycanlı hərbçiləri tanıdır, adlarını əbədiləşdirirdi. Görkəmli hərbçilərin yubileyləri, Qələbə bayramı bütün ölkədə olduğu kimi Azərbaycanda da möhtəşəm keçirilir, mək-

təblərdə hərbi idman oyunları genişləndirilir, hərbi komissarlıqların iş şəraiti yaxşılaşdırılırdı. Azərbaycanda mülki müdafiə məqsədləri üçün sığınacaqlar, hərbi qospitallar, toplanış məntəqəsi tikilir, hərbi strateji yollar çəkilir və təmir edilir, aerodromlar yeniləşdirilir, hərbi dənizçilərin yetişdirilməsinə, müharibə iştirakçılarına xüsusi qayğı göstərilirdi. Bütün bunlar, xüsusən Azərbaycanda hərbi məktəblərin açılması, azərbaycanlı hərbçi kadrların hazırlanması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi H.Əliyevin müstəqil dövlətçilik baxışlarının mühüm tərkib hissələri idi. 70-80-ci illərdə sovet ordusu hissələrində xidmət etmiş azərbaycanlı zabitlər Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqda yaradılmış milli orduda xidmətlərini davam etdirdilər.

Azərbaycanın bütün qonşu xalqlarla, xüsusən ermənilərlə mehriban münasibətlərinin saxlanılmasına tərəfdar olan H.Əliyev bundan ötrü bütün mümkün vasitələrdən istifadə edirdi. Bununla yanaşı, müəyyən erməni dairələrinin antiazərbaycan siyasətini dərindən bilərək fəaliyyətində sözçülükdən istifadə etmədən, qətiyyətli praktik işlər görərək ona qarşı amansızlıqla mübarizə aparırdı. Bu fəaliyyətində o daha çox beynəlmiləlçilik şüarlarından istifadə edirdi. H.Əliyev Ermənistanın Azərbaycana olan əsassız ərazi iddialarının qarşısını qətiyyətlə kəsmiş, hətta torpaq ərazilərinin bir qisminin verilməsinə dair əvvəllər qəbul olunmuş qərarları yerinə yetirməkdən imtina etmişdi. H.Əliyevin hakimiyyəti illərində Azərbaycandan Ermənistana torpaq verilmədi. Azərbaycanın ərazi bütövlüyünün qorunması, toxunulmazlığı H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi.

Dağlıq Qarabağın tarixini, coğrafiyasını, iqtisadiyyatını və əhalisinin düşüncələrini yaxşı bilən H.Əliyev fəaliyyətində muxtar vilayətin inkişafına başlıca diqqət yetirirdi. Onun bu fəaliyyəti bir neçə istiqamətdə həyata keçirilirdi: hakimiyyəti illərində Dağlıq Qarabağda yeni iş yerləri açılır, mədəni-maarif müəssisələri, məktəb binaları tikilir, avtomobil yolları, dəmiryolları, su kəmərləri çəkilir, əhalinin



həyat səviyyəsi yüksəlirdi. 70-ci illərdə – 80-ci illərin ortalarında Dağlıq Qarabağda azərbaycanlı əhalinin xüsusi çəkisi artmağa, ermənilərin və rusların sayı isə azalmağa doğru getmişdi. Dağlıq Qarabağa köçürülmə olduqlarını başa düşən erməni icması həmin hadisənin 150 illiyi münasibətilə vilayətdə hətta abidə də qoymuşdu.

H.Əliyev Dağlıq Qarabağda milli ruhun güclənməsinə, azərbaycanlı dövlət və mədəniyyət xadimlərinə abidələr qoyulmasına, Azərbaycan xalqının tarixi və mədəni irsinin qorunmasına xüsusi diqqət yetirirdi. Onun bu fəaliyyətini qəzəblə qarşılayan, paxıllıq, kin-küdurət hissləri bürüyən müəyyən erməni dairələri H.Əliyev haqqında müxtəlif şər, böhtan və iftiralarla dolu məktubları Moskvaya göndərirdilər. Bütün bunlara baxmayaraq, H.Əliyev həmin iddiaların qarşısını qətiyyətlə kəsirdi. Moskvaya daimi işləməyə gedərkən H.Əliyev Azərbaycanın gələcəyi üçün təhlükə törədə biləcəyini başa düşərək Dağlıq Qarabağa xüsusi diqqət yetirməyi respublika rəhbərlərinə tövsiyə etmişdi. Lakin ondan sonra Azərbaycanda hakimiyyətdə olan şəxslər bu məsələyə lazımi diqqət yetirə bilmədilər, zəiflik göstərdilər. M.S.Qorbaçov Sov.İKP MK-nın Baş katibi seçildikdən sonra ermənilər antiazərbaycan fəaliyyətlərini xeyli gücləndirdilər. H.Əliyev Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işlədikcə erməni dairələri öz istəklərini həyata keçirə bilməyəcəklərini başa düşdüklərindən onun Kremldən uzaqlaşdırılmasına çalışırdılar. H.Əliyevin bu vəzifələrdən getməsi ilə Azərbaycan böyük fəlakətlərə düçar oldu, düşmən vətən üzərinə ayaq açdı. Azərbaycan xalqına ağır müsibətlər gətirən Dağlıq Qarabağ problemi yarandı.

Azərbaycanın beynəlxalq aləmdə tanıdılması H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi. Buna görə də o, mövcud sistemin şərtləri altında Azərbaycan xalqının tarixini, elmini, mədəniyyətini, incəsənətini, idmanını tanıtmaq sahəsində geniş fəaliyyət göstərərək mühüm qərarla-

rın qəbul edilməsinə və həyata keçirilməsinə nail olmuşdu. H.Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin funksiyalarını və səlahiyyətlərini genişləndirməkdən ötrü mərkəzi orqanlarla yazışmalar aparır, inadla öz istəyinə çatırdı. H.Əliyev azərbaycanlılardan ibarət peşəkar diplomat kadrların təhsil almalarına çalışır, qəbul üçün Moskvadan yerlər alır, onların ixtisaslarını artırmalarına, xarici ölkələrdəki sovet səfliklərində diplomatik işdə çalışmalarına nail olur, Xarici İşlər Nazirliyinin ştat heyətini və onların maaşlarını artırır, nazirliyn maddi-texniki bazasının möhkəmləndirilməsinə səylər edirdi.

H.Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycana xarici ölkələrin rəsmi nümayəndə heyətlərinin və diplomatlarının səfərləri əvvəlki illərlə müqayisədə xeyli çoxalmışdı. Azərbaycan milli azadlıq mübarizəsi aparan xalqlar, xüsusən türk və müsəlman xalqları üçün nümunə rolunu oynamağa başlamışdı. Azərbaycan rəhbəri Kreml üçün «Heydər Əliyev, türk, müsəlman dünyası üçün isə təkcə Heydər Əliyev deyil, eyni zamanda, Heydər, Əli, Əlizadə idi». Heydər Əliyev Yaxın və Orta Şərq xalqları və dövlət başçıları tərəfindən ən hörmətli, nüfuzlu dövlət adamı, siyasi xadim kimi qəbul olunurdu. Müsəlman dünyası H.Əliyevlə fəxr edirdi. Sovet dövləti regiona dair bir sıra problemlərin, xüsusən münaqişələrin həllində onun nüfuzundan istifadə edirdi.

H.Əliyev respublika Xarici Ticarət Nazirliyinin səlahiyyətlərinin artırılmasına, əməkdaşlarının beynəlxalq iqtisadi əlaqələr sahəsində təcrübə toplamasına çalışırdı. Onun hakimiyyəti illərində Xarici Ticarət Nazirliyinin səlahiyyətləri genişləndirilmiş, xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrdə rolu xeyli artmışdı. Nazirlik xarici ölkələrdə sərgi-yarmarkaların əsas təşkilatçısına çevrilmişdi.

H.Əliyev Azərbaycanın tanıdılmasının yollarından biri kimi xarici ölkələrlə turist əlaqələrinin genişləndirilməsini görürdü. Bu sahədə qazanılan uğurlar həm Azərbaycanı dünyada tanıdır, həm də respublikaya əlavə valyuta gətirir, yeni iş yerləri açılır, turist kompleksləri tikilir, Xəzər sahili turist mər-



kəzinə çevrilirdi. Hakimiyyətdə olduğu illər ərzində H.Əliyev xarici ölkələrlə turist əlaqələrinin genişləndirilməsinə nail olmuşdu. Xarici ölkələrə səfər edən azərbaycanlılar dünyanı görür, dünyagörüşləri artır, ayrı-ayrı ölkələrin həyatında və beynəlxalq aləmdə baş verən dəyişiklikləri başa düşürdülər.

Azərbaycanın xarici dünya ilə birbaşa, müstəqil beynəlxalq ticarət-iqtisadi əlaqələri olmasa da, mərkəzi orqanlar vasitəsilə əməkdaşlıq etdiyi ölkələrin coğrafiyası genişlənir və həcmi ildən-ilə artırdı. Azərbaycanda istehsal olunan məhsullar dünya bazarında özünəməxsus yer tuturdu. Xaricə mal göndərən müəssisələrin sayı artırdı. Həmin müəssisələrin nümayəndələri xarici ölkələrə səfər edərək təcrübəni öyrənir və respublikada tətbiq etməyə çalışırdılar. Azərbaycanda istehsal olunan məhsulların keyfiyyəti yaxşılaşırdı. Ən başlıcası isə Azərbaycan beynəlxalq ticarət-iqtisadi əlaqələr sahəsində təcrübə toplayır və peşəkar mütəxəssislər yetişirdi. Həmin mütəxəssislər Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra ticarət-iqtisadi əlaqələrin inkişafında mühüm rol oynamağa başladılar.

H.Əliyevin hakimiyyəti illərində Azərbaycan beynəlxalq elmi, mədəni və b. tədbirlərin keçirildiyi yerə çevrilmişdi. Respublika alimlərinin, mədəniyyət, incəsənət və ədəbiyyat xadimlərinin xarici ölkələrə səfərləri çoxalmışdı. Azərbaycanın elmi idarələri ilə dünyanın qabaqcıl elmi mərkəzləri arasında əlaqələr qurulmuşdu və əməkdaşlıq inkişaf etdirilirdi. Azərbaycan alimləri dünya elminin nailiyyətləri ilə yaxından tanış olurdular. Onların xarıcı ölkələrin alimləri ilə apardıqları birgə elmi-tədqiqat işlərinin həcmi ildən-ilə artırdı. Respublikaya səfər edən xarici ölkə alimləri Azərbaycan xalqının tarixi keçmişi, mədəniyyəti, incəsənəti, sosial-iqtisadi və b. sahələrdə qazandığı uğurlarla tanış olur, çox hallarda öz ölkələrindəki həmkarları arasında doğru ictimai rəyin yaranmasına təsir edirdilər.

70-80-ci illərdə xarici ölkələrdə işləyən azərbaycanlı mütəxəssislərin sayı artmağa doğru getmişdi. Həmin

mütəxəssislər içərisində ali təhsilli müəllim, həkim, mühəndis və b. peşə sahiblərinin xüsusi çəkisi artır, fəhlələrin sayı isə azalırdı. H.Əliyev xalqının savadlı, bilikli, istedadlı nümayəndələrinin xarici ölkələrdə işləmələrinə çalışaraq Azərbaycanı, onun tarixini, mədəniyyətini tanıdır, təbliğ edirdi. Xarici ölkələrdə Azərbaycana və azərbaycanlılara qiymət verilərkən ilk növbədə H.Əliyevin biliyi, dünyagörüşü, bacarığı meyar olaraq götürülürdü.

Azərbaycan idmançılarının, ictimaiyyətinin beynəlxalq əlaqələri genişlənir, Baki ilə bəzi ölkələrin şəhərləri arasında qardaşlaşmış şəhərlər hərəkatı çərçivəsində əməkdaşlıq qurulurdu.

H.Əliyevin baxışlarında və fəaliyyətində xaricdə yaşayan azərbaycanlılara münasibət xüsusi yer tuturdu. Bütün sovet tarixi ərzində xarici ölkələrdə yaşayan həmvətənlərlə sistemli əlaqələrin qurulması işi bilavasitə H.Əliyevə məxsusdur. Azərbaycandan kənarda yaşayan azərbaycanlıların sayının müəyyənləşdirilməsi və mühacirət tarixinin dövrləşdirilməsi barədə göstərişi H.Əliyev vermişdi. Onun təşəbbüsü ilə Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin nəzdində xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradıldı. Vətən cəmiyyətinin yaradılması istiqamətində məqsədyönlü fəaliyyət H.Əliyevə məxsusdur. O, xarici ölkələrdə yaşayan həmvətənlərlə əlaqələrin sistemli qurulmasının istiqamətlərini müəyyənləşdirərək müvafiq göstərişlər vermişdi. H.Əliyev xaricdəki azərbaycanlıları şimallılara və cənublulara ayırmır, onları vəhdətdə görür, ana dilini və Azərbaycan tarixini unutmamaları üçün ciddi əməli işlər görür, maddi və mənəvi yardımlar edirdi. Xarici ölkələrdəki azərbaycanlı cəmiyyətlərinə Bakıdan kitablar, milli geyimlər, albomlar, milli musiqi nümunələri yazılmış vallar və s. göndərilirdi. Azərbaycanlıların yaratdıqları təşkilatlar xaricdə yaşayan həmvətənlər arasında istiqlal fikrini yayır, sovet rejiminin mövcud olmasına baxmayaraq, Azərbaycanı təbliğ edir, mənafelərini qoruyurdular.



H.Əliyev xarici ölkələrdə yaşayan azərbaycanlıların antisovet və qatı dini təbliğatda iştirak etmələrini arzulamır, onu zəiflətməkdən ötrü əsasən təbliğat vasitələrindən, həmin şəxslərin vətənə dəvət edilmələrindən, onlarla xoş münasibətlərin və əməkdaşlığın qurulmasından istifadə edirdi. Çünki mühacir azərbaycanlıların hər hansı antisovet çıxışları Moskvanı şübhələndirir, Azərbaycanda ziyalılar arasında millətçi axtarışı ovuna çıxmağa, təzyiqləri artırmağa vadar edirdi. Belə şəraitdə Azərbaycan rəhbərinin milli ruhlu ziyalıları rejimin sərt təqiblərindən qoruması çətin olur, millət naminə çalışmalarını həyata keçirməkdə problemlər yaradırdı.

Azərbaycan rəhbəri siyasi mühacirət nümayəndələrinin əvvəlki illərdə izlənilməsi, təqib olunması, öldürülməsi praktikasına cəsarətlə son qoyaraq onunla işləməyə, humanitar, ümumi dəyərlər əsasında əməkdaşlıq etməyə üstünlük verirdi. O, Azərbaycan mühacirətini xilas etdi. Elə buna görə də xaricdəki azərbaycanlılar H.Əliyevi təbliğ edir, ona rəğbətlə yanaşır, milli lider kimi qəbul edirdilər. Həyata keçirilən tədbirlərin nəticəsində həmvətənlər Azərbaycana maraq göstərir, vətənə səfərlər edir, mədəniyyət, elm, təhsil və iqtisadiyyat sahəsində qazanılan uğurlara sevinirdilər. Xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulması və inkişaf etdirilməsi H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi.

Həm tarixi-nəzəri, həm də praktik baxımdan Cənubi Azərbaycan məsələsini dərindən, mükəmməl bilən, hələ ikinci dünya müharibəsi illərində iki Azərbaycanın birləşdirilməsi, cənubi azərbaycanlıların hüquqlarının qorunması istiqamətində çalışan, Təbrizdə Azərbaycan Demokratik Partiyasında gəncləri Bütöv, Vahid Azərbaycan uğrunda mübarizəyə ruhlandıran H.Əliyev respublikanın rəhbəri kimi fəaliyyətində də həmin problemin həllinə xüsusi önəm verirdi. Onun bu sahədəki fəaliyyəti daha geniş və dərin məna daşıyırdı: Azərbaycan Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə katiblik yaratdı, Cənubi Azər-

baycandan olan ziyalılara xüsusi qayğı göstərir, Cənub mövzusunun unutdurulmamasına çalışır, ağır sovet rejimi şəraitində nəinki həmin işin öhdəsindən böyük ustalıqla gəlir, eyni zamanda alim, yazıçı və şairləri Cənub mövzusundan yazmağa çağırır, Cənubi Azərbaycandan olan şair və yazıçıların məişət şəraitinin yaxşılaşdırılması üçün sərəncamlar verir, dövlətin ən yüksək orden və medalları ilə təltif edilməsi barədə məsələ qaldırır, İrana və Cənubi Azərbaycan şəhərlərindəki kitabxanalara kitab, jurnal göndərilməsini genişləndirir, Azərbaycanın hər iki tayından olan yaradıcı adamların əlaqə qurmalarına, mətbuatda təbliğ edilmələrinə imkan verir, Azərbaycan SSR-də yaşayan cənubluların Cənubi Azərbaycandakı qohumlarına pul baratları göndərmələrinə şərait yaradır, həm Şimali, həm də Cənubi Azərbaycanda yaşayan cənubluların Bakıda ali və orta ixtisas məktəblərində təhsil almalarına çalışır, mühüm qərarlar qəbul edir, buna nail olurdu. H.Əliyevin Cənubi Azərbaycana olan sevgisi içdən, kökdən gəlirdi.

H.Əliyevin hakimiyyəti illərində özünün sosial-iqtisadi, mədəni inkişafı ilə Şimali Azərbaycan Cənubi Azərbaycanda, o cümlədən bütün İranda yaşayan azərbaycanlılar və türklər üçün nümunə rolunu oynayırdı. Onun sayəsində Cənub mövzusu elmi və bədii ədəbiyyat səhifələrindən çıxaraq siyasi müzakirələrin obyektinə çevrilmişdi. H.Əliyevin bilavasitə göstərişləri əsasında Vahid Azərbaycan, Bütöv Azərbaycan, Panazərbaycan ideyaları təkcə şimalda deyil, həmçinin Cənubi Azərbaycanda da təbliğ edilirdi. Respublika rəhbəri xarici ölkələrin diplomatları ilə söhbətində iki Azərbaycanın birləşəcəyinə ümid etdiyini bildirmişdi.

H.Əliyev İranda Azərbaycan dilində nəşr olunan qəzet və jurnallara milli tarix, ədəbiyyat, adət-ənənələr haqqında materiallar göndərtməklə, onların yaradıcı heyətlərinin üzvlərini respublikaya dəvət etdirməklə yardımlar göstərirdi.

Cənubi Azərbaycan ərazisində Azərbaycan radiosu və televiziyası verilişlərinin yayımlanmasının genişləndirilməsi



barədə rəsmi qərar qəbul olunmuşdu və uğurla həyata keçirilirdi.

Cənubi azərbaycanlılar Şimali Azərbaycanın inkişafında qazanılan uğurlara sevinir, H.Əliyevlə fəxr edir, onun Cənubi Azərbaycan naminə çalışmalarını yüksək qiymətləndirirdilər.

H.Əliyev sovet dövlətinin Yaxın və Orta Şərq siyasətinin həyata keçirilməsində əsas dövlət xadimi hesab olunurdu. Suriya-İsrail münaqişəsinin, hətta bəzi ərəb ölkələrinin daxilində, xüsusən Livan və YXDR-də gedən vətəndaş müharibəsinin dayandırılmasında H.Əliyevin nüfuzundan istifadə edilmişdi. Müsəlman ölkələrinin rəhbərləri və müxtəlif dairələri H.Əliyevin tövsiyələrini dinləyir, yerinə yetirirdilər. O, müsəlman dünyasını sovet dövləti ilə dost etməyə çalışır, SSRİ-nin bu istiqamətdəki siyasətinin həyata keçirilməsində Azərbaycanın rolunu artırırdı. H.Əliyev ölkənin müsəlman dünyası ilə əlaqələrinin inkişaf etdirilməsində, müsəlmanların mənafelərinin qorunmasında təsirli bir dövlət adamı idi.

Ağır sovet sistemi şəraitində işləməsinə və milli düşüncəni, türklüyü inkar edən kommunist ideologiyasının Azərbaycanda rəhbəri olmasına baxmayaraq, H.Əliyevin fəaliyyətində türk dünyası ilə əlaqələr mühüm yer tuturdu. Onun türk dünyası naminə fəaliyyəti «türk», «türklük» ifadələri işlədilmədən, şüarlarla, sözdə deyil, əməldə, mövcud şəraitə uyğun olaraq ehtiyatla həyata keçirilirdi. O, sovet sistemi şəraitində türk dünyası arasında siyasi əlaqələrin qurulmasının mümkün olmadığını başa düşərək mədəni əməkdaşlığın inkişafına xüsusi diqqət yetirirdi. Azərbaycanın Türkiyə və türk dünyası ilə əlaqələrinin qurulub inkişaf etdirilməsi H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi. Bu sahədə həyata keçirilən hər hansı tədbir üçün Moskvadan icazə alır, xalq və respublika əleyhinə mənfi münasibətin formalaşmasının qarşısını əvvəlcədən kəsirdi. H.Əliyev xalqa doğru gedir, milli mədəniyyətin və tarixi sərvətlərin qorunması və

inkişafında müstəsna rol oynayır, ziyalılara bu işdə «qonşu respublikalardan nümunə götürməyi» tövsiyə edirdi. Azərbaycanda türkologiya sahəsində elmi araşdırmaların aparılmasına, türkoloqlara xüsusi dövlət qayğısı göstərirdi. Türk yazılı tarixi abidələrinin xalq içərisində populyarlaşdırılmasına diqqət yetirirdi. H.Əliyev Azərbaycanda yaşayan Məshəti türklərinin ali təhsil almalarında və yaşayış şəraitlərinin yaxşılaşdırılmasında müstəsna rol oynamışdı. O, SSRİ-nin türk xalqları arasında mədəni əlaqələri genişləndirməyin təşəbbüskarı, bir çox hallarda isə həyata keçirilən tədbirlərin rəhbər təşkilatçısı idi.

Hakimiyyəti illərində H.Əliyev İraq türkmənlərinə xüsusi diqqət yetirməyi, əlaqələrin inkişafında Azərbaycandan istifadə etməyi sovet rəhbərlərinə tövsiyə etmiş, konkret təkliflərini vermişdi. Azərbaycan İraq türkmənlərinin milli-mədəni inkişafına təsir edən güclü bir faktora çevrilmişdi.

H.Əliyev sovet dövlətinin Türkiyəyə olan məlum münasibətini yumşaltmağa, iki ölkəni dost etməyə çalışır, bundan ötrü Moskvaya öz tövsiyələrini verir, Türkiyə ilə mədəni əlaqələrin genişləndirilməsinə, gələn rəsmi qonaqların ən yüksək səviyyədə qarşılanmasına, İzmirdə keçirilən beynəlxalq sərgi-yarmarkada Azərbaycanın müstəqil pavilyonda təmsil olunmasına, azərbaycanlı şair və yazıçıların Türkiyəyə səfər etmələrinə, türkoloji mərkəzlərlə əlaqələrin yaradılmasına, elmi-tarixi, bədii ədəbiyyatın alınmasına və göndərilməsinə, mədəniyyət xadimlərinin səfərlərinin müntəzəm xarakter almasına nail olurdu. Onun hakimiyyəti illərində türkiyəli aktyor Azərbaycan teatrı səhnəsində rollar ifa etmişdi. H.Əliyev Azərbaycanla Türkiyə arasında birbaşa ticarət əlaqələrinin, sərhədyanı ticarətin qurulması barədə sovet rəhbərliyinə tövsiyə vermişdi. Soyuq müharibə illərində SSRİ-Türkiyə münasibətlərində müəyyən problemlərin meydana çıxmasına baxmayaraq, Azərbaycan mətbuatında Türkiyə haqqında xoş məramlı məqalələr dərc edilirdi. Türkiyə mətbuatında da Azərbaycan əleyhinə verilən yazıların sayı



azalmağa doğru gedirdi.

H.Əliyevin hakimiyyəti illərində türk mətbuatının müəyyən dairələri ilə səmərəli əlaqələr qurulmuşdu. Azərbaycana səfər edən türk jurnalistləri respublikanın uğurları, xalqımızın tarixi, mədəniyyəti, adət-ənənələri barədə yazılar verir, H.Əliyevi milli lider, türk dünyasının parlayan ulduzu kimi təqdim edirdilər.

Türkiyədə yaşayan Azərbaycan mühacirətinin nümayəndələri kommunizmə, sovet quruluşuna nifrət bəsləmələrinə baxmayaraq, Heydər Əliyevin milli-mədəni inkişafa göstərdiyi qayğıdan razı qalır, onu təqdir edir, şəninə xoş sözlər deyir, Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, üzv seçilməsinə və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsinə, Moskvaya daimi işləməyə aparılmasına, ölkəni idarə edən şəxslərdən biri olmasına sevinirdilər. Xarici ölkələrdəki azərbaycanlılar onunla qürur duyurdular.

Heydər Əliyev öz nitqlərində türk xalqının milli azadlıq mübarizəsini, Türkiyənin suverenliyinin möhkəmləndirilməsini yüksək qiymətləndirirdi.

70-ci illərin əvvəllərində Azərbaycan xalqı, xüsusən tələbə gənclər Türkiyənin Kiprdə həyata keçirdiyi xilaskarlıq yürüşünə rəğbət bəsləyirdi.

Məhz H.Əliyevin fəaliyyəti nəticəsində 1969-1987-ci illərdə Azərbaycan nəinki SSRİ-də, həmçinin dünyada daha çox tanınmış və nüfuzu xeyli artmışdı. Bu baxımdan Moskvada işləyən bir azərbaycanlının 1980-ci il aprel ayının 28-də H.Əliyevə göndərdiyi məktub diqqəti cəlb edir. Məktubda deyilirdi: «Azərbaycan naminə yorulmaz əməyinizə görə Sizə təşəkkür edirəm... Azərbaycanın nüfuzu heç vaxt indiki kimi güclü, səsi isə ucadan və inamla gəlməmişdi. Butun bunlar, Heydər Əlirza oğlu, Sizin xidmətinizdir»[1].

1969-1987-ci illərdə H.Əliyev Azərbaycan xalqını yüksəltdi, milli mədəniyyətini inkişaf etdirdi, xalqa doğru gedə-

[1] ARSPİHDA, f. 1, siy. 67, iş 196, v. 74.

rək ona arxalandı, milli vicdanı, milli ruhu, milli düşüncəni gücləndirdi, Azərbaycan cəmiyyətini birləşdirdi, milli həmrəyliyə, hakimiyyətlə xalq arasında, hakimiyyət daxilində birliyə, Azərbaycan dilinin dövlət dili statusunun qorunmasına, ana dilinin mükəmməl kargüzarlıq dilinə çevrilməsinə, saflığına və zənginləşməsinə, milli köklərə dayanan ədəbiyyat və incəsənətin inkişafına nail oldu, türk dünyası və Türkiyə ilə əlaqələrin qırılmasına, Cənubi Azərbaycan mövzusunun unudulmasına imkan vermədi, bu yolda səylər etdi, Azərbaycan mühacirətinə olan düşmən münasibəti dəyişdirdi, hərbçi kadrları yetişdirdi, milli əxlaqı, vətən əxlaqını, ailə əxlaqını, şəxsi əxlaqı qoruyaraq möhkəmləndirdi. Bütün bunları yalnız istedadlı, böyük dövlət və siyasi xadim, əsl milli lider edə bilərdi.

H.Əliyevin həyata keçirdiyi tədbirlər milli-mənəvi, maddi və beynəlxalq münasibətlər baxımından Azərbaycanın dövlət müstəqilliyinin bərpası üçün zəruri olan şərtləri hazırlayar istiqlala doğru apardı. Məhz həmin təməllərin əsasında xalqımız mövcud olduqca əbədi, dönməz və sarsılmaz olacaq Azərbaycanın dövlət müstəqilliyi XX əsrin 90-cı illərinin əvvəllərində bərpa edildi.



# İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

## I. Mənbələr

### *Heydər Əliyevin nitq və əsərləri*


1. Алиев Г.А. Пусть справедливость верх берет. – Газ. «Бакинский рабочий», 1981, 19 ноября, №268 (19296).
2. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Prezidenti Heydər Əliyevin 1993-1994-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I cild. Bakı, Göytürk, 1996.
3. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). III cild. Bakı, Göytürk, 1998.
4. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). IV cild. Bakı, Göytürk, 1999.
5. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Azərbaycan Demokratik Respublikasının 80 illiyinə həsr olunmuş təntənəli iclasda nitqi.- // Dirçəliş – XXI əsr» jurnalı, 1998, № 5.
6. Azərbaycan yazıçılarının VII qurultayında H.Ə.Əliyevin nitqi. – «Kommunist» qəzeti, 1981, 14 iyun, №139 (17773).
7. Azərbaycanın xalq şairlərinə mükafatları təqdim edərkən H.Ə.Əliyevin nitqi. – «Kommunist» qəzeti, 1981, 12 dekabr, № 286 (17920).
8. Birinci kurs tələbələrinin respublika partiya və sovet fəalları ilə görüşündə H.Ə.Əliyevin nitqi. – «Kommunist» qəzeti, 1979, 30 avqust, №198 (17237).

9. C.Cabbarlının abidəsinin açılışında Heydər Əliyevin nitqi. – «Kommunist» qəzeti, 1982, 24 mart, № 70 (18004).
10. Əliyev H.Ə. Nəriman Nərimanovun abidəsinin açılışında nitq. – «Kommunist» qəzeti, 1972, 7 iyun, №132 (15042).
11. Əliyev H.Ə. Görkəmli partiya və dövlət xadimi. - «Kommunist» qəzeti, 1972, 30 iyun. №152 (15062).
12. Əliyev H. Ə. Böyük Oktyabr Sosialist inqilabi və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı. - «Kommunist» qəzeti, 1977, 27 may, №122 (16557).
13. Əliyev H.Ə. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (əsas qanunu) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında. – «Kommunist» qəzeti, 1978, 21 aprel, № 94 (16834).
14. Əliyev H.Ə. Partiyanın irəli sürdüyü vəzifələri mübarizcəsinə yerinə yetirməli. - «Kommunist» qəzeti, 1979, 17 yanvar, № 23 (17062).
15. Əliyev H.Ə. Xalqların dostluğu ədəbiyyatların dostluğudur. – «Kommunist» qəzeti, 1980, 29 oktyabr, №249 (17585).
16. Əliyev H.Ə. Sovet Azərbaycanı. Bakı, Azərnəşr, 1981.
17. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı, 1997.
18. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı, 1997.
19. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. Bakı, 1998.
20. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. Bakı, 1998.
21. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. Bakı, 2000.
22. H.Ə.Əliyevin tələbə gənclərlə görüşündə nitqi. - «Kommunist» qəzeti, 1969, 29 avqust, №202 (18136).



23. H.Ə.Əliyevin Azərbaycan yazıçılarının VI qurultayında nitqi. - «Kommunist» qəzeti, 1976, 27 may, №122 (16251).
24. Heydər Əliyevin bəstəkarlarla görüşdə nitqi. – «Kommunist» qəzeti, 1979, 2 oktyabr, № 225 (17264).
25. H.Ə.Əliyevin Moskvada təhsil alan Azərbaycan tələbələri və aspirantları ilə görüşdə nitqi. – «Kommunist» qəzeti, 1979, 5 dekabr, № 277 (17316).
26. H.Ə.Əliyevin C.Naxçıvanski adına internat məktəbin 10 illiyinə həsr edilən təntənəli yığıncaqda nitqi. – «Kommunist» qəzeti, 1981, 11 dekabr, № 285 (17919).
27. Heydər Əliyevin Qara Qarayevin dəfnində nitqi. – «Kommunist» qəzeti, 1982, 20 may, № 117 (18051).
28. H.Ə.Əliyevin tələbə gənclərlə görüşdə nitqi. – «Kommunist» qəzeti, 1982, 29 avqust, № 202 (18136).
29. «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi. – «Dirçəliş XXI əsr», 1999, №14.

### *Çap olunmuş rəsmi sənədlər*

### *Azərbaycan dilində*

30. Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin məlumatı. 1969-cu il 15 may. Bakı, 1969, № 9 (310).
31. Azərbaycan SSR-in 1975-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1973-cü il Dövlət büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1974, 28 dekabr, № 303 (15823).
32. Azərbaycan SSR-in 1977-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1975-ci il Dövlət büdcəsinin yerinə

yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1976, 26 noyabr, №276 (16405).
33. Azərbaycan SSR Konstitusiyası (əsas qanunu) – «Kommunist» qəzeti, 1978, 23 aprel, № 96 (16836).
34. Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin məlumatı. - «Kommunist» qəzeti, 1979, 16 may №111 (17150).
35. Azərbaycan SSR-in 1980-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1978-ci il Dövlət büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1979, 21 dekabr, № 290 (17329).
36. Azərbaycan SSR-in 1981-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1979-cu il Dövlət büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1980, 13 noyabr, № 261 (17579).
37. Azərbaycan SSR-in 1982-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1980-ci il Dövlət büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1981, 4 dekabr, №280 (17914).
38. Azərbaycan KP MK-nın «Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında» qərarı. - «Kommunist» qəzeti, 1981, 21 iyul, №169 (17803).
39. Azərbaycan KP MK-nın «Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərarı». – «Kommunist» qəzeti, 1981, 6 avqust, №183 (17817).
40. Azərbaycan KP MK-nın «C.C.Naxçıvanskinin anadan olmasının 85 illiyi haqqında» qərarı. – «Kommunist» qəzeti, 1981, 8 avqust, № 185 (17819).
41. Azərbaycan KP MK-nın «Azərbaycan Elmlər Akademiyası respublika əlyazmaları fondunun fəaliyyətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərarı. – «Kommunist» qəzeti, 1981, 13 avqust, №189 (17823).



42. Azərbaycan KP MK-nın «Məhəmməd Nəsrəddin Tusinin anadan olmasının 780 illiyinin bayram edilməsi haqqında» qərarı – «Kommunist» qəzeti, 1981, 14 avqust, №190 (17824).
43. Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin «Azərbaycan SSR-də şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsini, bərpasını və onlardan istifadə olunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərarı. – «Kommunist» qəzeti, 1981, 4 oktyabr, №231 (17865).
44. Azərbaycan KP MK-nın Azərbaycan operasının 75 illiyi haqqında qərarı. – «Kommunist» qəzeti, 1982, 31 iyul, №178 (18112).
45. 1975-ci ildə Azərbaycan SSR Xalq Təsərrüfatının inkişafına dair Dövlət planı haqqında. – «Kommunist» qəzeti, 1974, 28 dekabr, №303 (15823).
46. 1979-cu ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planı və 1978-ci ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planının yerinə yetirilməsi gedişi haqqında. - «Kommunist» qəzeti, 1978, 16 dekabr, №267 (17027).
47. 1980-ci ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planı və 1979-cu ildə Azərbaycan SSR-in iqtisadi və sosial inkişafına dair Dövlət planının yerinə yetirilməsi gedişi haqqında. - «Kommunist» qəzeti, 1979, 20 dekabr, №289 (17328).
48. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onların istifadəsi haqqında SSRİ qanunu. – «Kommunist» qəzeti, 1976, 31 oktyabr, № 255 (16384).

*Rus dilində*

49. Азербайджанская ССР. Верховный Совет. Созыв 4-й, сессия 5-я. Стенографический отчет. Баку, 1956.
50. XVIII съезд КП(б) Азербайджана. – Газ. «Правда», 1951, 29 мая, №149 (11986).
51. Документы по русской политике в Закавказье. Выпуск первый. Издание особой комиссии при Министерстве Иностранных дел Азербайджанской Республики. Баку, 1920.
52. Закон о дополнении Конституции (Основного Закона) Азербайджанский ССР статьей о Государственном языке Азербайджанской ССР. – Газ. «Бакинский рабочий», 1956, 24 августа, №198 (10756).
53. Население империи по переписи 28-го января 1897 года по уездам. И.А.Яковлев, Санкт-Петербург, 1897.
54. Перепись населения города Баку. 1903. Баку, Каспий, 1905.
55. Перепись населения города Баку. 1913. Баку, Каспий, 1916.
56. Пленум Центрального Комитета Компартии Азербайджана. – Газ. «Бакинский рабочий», 1959, 11 июля, №161 (116 34).

***SSRİ Nazirlər Sovetinin sənədləri***

57. Постановление Совета Министров СССР за июнь 1984 г. М., Тип. Совмина СССР, 1984.
58. Постановление Совета Министров СССР за октябрь 1984 г. М., Тип. Совмина СССР, 1984.
59. Постановление Совета Министров СССР за апрель 1986 г. М., Тип. Совмина СССР, 1986.





**Arxiv materialları**

**Azərbaycan Respublikasının arxiv sənədləri**

***Azərbaycan Respublikası Dövlət Arxivi***

60. f.28, siy.1s, iş 17.
61. f.28, siy.1, iş 68.
62. f.28, siy.1, iş 179.
63. f.28, siy.1, iş 185.
64. f.28, siy.12, iş 56.
65. f.28, siy.12, iş 57.
66. f.28, siy.12, iş 62.
67. f.28, siy.12, iş 66.
68. f.28, siy.12, iş 71.
69. f.28, siy.12, iş 75.
70. f.28, siy.12, iş 77.
71. f.28, siy.12, iş 86.
72. f.202, siy.1, iş 25.
73. f.379, siy.5, iş 2382.
74. f.411, siy.47, iş 124.
75. f.2693, siy.1, iş 185.

***Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi***

76. f.1, siy.18, iş 111.
77. f.1, siy.18, iş 113.
78. f.1, siy.20, iş 188.
79. f.1, siy.56, iş 5.
80. f.1, siy.56, iş 23.
81. f.1, siy.56, iş 24.

82. f.1, siy.56, iş 25.
83. f.1, siy.56, iş 26.
84. f.1, siy.56, iş 35.
85. f.1, siy.56, iş 45.
86. f.1, siy.56, iş 46.
87. f.1, siy.56, iş 49.
88. f.1, siy.56, iş 50.
89. f.1, siy.56, iş 53.
90. f.1, siy.56, iş 54.
91. f.1, siy.56, iş 57.
92. f.1, siy.56, iş 58.
93. f.1, siy.56, iş 59.
94. f.1, siy.56, iş 60.
95. f.1, siy.56, iş 63.
96. f.1, siy.56, iş 64.
97. f.1, siy.56, iş 71.
98. f.1, siy.56, iş 72.
99. f.1, siy.56, iş 109.
100. f.1, siy.57, iş 23.
101. f.1, siy.57, iş 24.
102. f.1, siy.57, iş 25.
103. f.1, siy.57, iş 26.
104. f.1, siy.57, iş 27.
105. f.1, sil.57, iş 28.
106. f.1, siy.57, iş 31.
107. f.1, siy.57, iş 32.
108. f.1, siy.57, iş 33.
109. f.1, siy.57, iş 34.
110. f.1, siy.57, iş 51.
111. f.1, siy.57, iş 52.
112. f.1, siy.57, iş 55.
113. f.1, siy.57, iş 56.



114. f.1, siy.57, iş 57.
115. f.1, siy.57, iş 58.
116. f.1, siy.57, iş 94.
117. f.1, siy.57, iş 95.
118. f.1, siy.57, iş 100.
119. f.1, siy.57, iş 101.
120. f.1, siy.57, iş 103.
121. f.1, siy.57, iş 104.
122. f.1, siy.57, iş 107.
123. f.1, siy.57, iş 140.
124. f.1, siy.57, iş 143.
125. f.1, siy.57, iş 159.
126. f.1, siy.58, iş 27.
127. f.1, siy.58, iş 28.
128. f.1, siy.58, iş 45.
129. f.1, siy.58, iş 46.
130. f.1, siy.58, iş 70.
131. f.1, siy.58, iş 74.
132. f.1, siy.58, iş 75.
133. f.1, siy.58, iş 111.
134. f.1, siy.58, iş 113.
135. f.1, siy.58, iş 126.
136. f.1, siy.58, iş 128.
137. f.1, siy.58, iş 133.
138. f.1, siy.58, iş 134.
139. f.1, siy.58, iş 144.
140. f.1, siy.58, iş 146.
141. f.1, siy.58, iş 147.
142. f.1, siy.58, iş 148.
143. f.1, siy.58, iş 196.
144. f.1, siy.58, iş 199.
145. f.1, siy.59, iş 16.

146. f.1, siy.59, iş 18.
147. f.1, siy.59, iş 44.
148. f.1, siy.59, iş 45.
149. f.1, siy.59, iş 59.
150. f.1, siy.59, iş 60.
151. f.1, siy.59, iş 92.
152. f.1, siy.59, iş 94.
153. f.1, siy.59, iş 97.
154. f.1, siy.59, iş 99.
155. f.1, siy.59, iş 142.
156. f.1, siy.59, iş 150.
157. f.1, siy.59, iş 170.
158. f.1, siy.60, iş 10.
159. f.1, siy.60, iş 11.
160. f.1, siy.60, iş 12.
161. f.1, siy.60, iş 13.
162. f.1, siy.60, iş 15.
163. f.1, siy.60, iş 19.
164. f.1, siy.60, iş 35.
165. f.1, siy.60, iş 57.
166. f.1, siy.60, iş 59.
167. f.1, siy.60, iş 90.
168. f.1, siy.60, iş 92.
169. f.1, siy.60, iş 134.
170. f.1, siy.60, iş 139.
171. f.1, siy.60, iş 143.
172. f.1, siy.60, iş 162.
173. f.1, siy.60, iş 168.
174. f.1, siy.61, iş 16.
175. f.1, siy.61, iş 48.
176. f.1, siy.61, iş 60.
177. f.1, siy.61, iş 62.



178. f.1, siy.61, iş 69.
179. f.1, siy.61, iş 71.
180. f.1, siy.61, iş 133.
181. f.1, siy.61, iş 148.
182. f.1, siy.61, iş 155.
183. f.1, siy.61, iş 156.
184. f.1, siy.61, iş 160.
185. f.1, siy.62, iş 30.
186. f.1, siy.62, iş 32.
187. f.1, siy.62, iş 47.
188. f.1, siy.62, iş 49.
189. f.1, siy.62, iş 53.
190. f.1, siy.62, iş 132.
191. f.1, siy.62, iş 133.
192. f.1, siy.62, iş 138.
193. f.1, siy.63, iş 28.
194. f.1, siy.63, iş 31.
195. f.1, siy.63, iş 41.
196. f.1, siy.63, iş 43.
197. f.1, siy.63, iş 80.
198. f.1, siy.63, iş 82.
199. f.1, siy.63, iş 83.
200. f.1, siy.63, iş 85.
201. f.1, siy.63, iş 86.
202. f.1, siy.63, iş 88.
203. f.1, siy.63, iş 139.
204. f.1, siy.63, iş 147.
205. f.1, siy.63, iş 151.
206. f.1, siy.63, iş 163.
207. f.1, siy.63, iş 178.
208. f.1, siy.64, iş 11.
209. f.1, siy.64, iş 12.

210. f.1, siy.64, iş 17.
211. f.1, siy.64, iş 29.
212. f.1, siy.64, iş 32.
213. f.1, siy.64, iş 43.
214. f.1, siy.64, iş 47.
215. f.1, siy.64, iş 48.
216. f.1, siy.64, iş 56.
217. f.1, siy.64, iş 90.
218. f.1, siy.64, iş 91.
219. f.1, siy.64, iş 127.
220. f.1, siy.64, iş 163.
221. f.1, siy.64, iş 176.
222. f.1, siy.64, iş 178.
223. f.1, siy.64, iş 179.
224. f.1, siy.64, iş 208.
225. f.1, siy.65, iş 37.
226. f.1, siy.65, iş 39.
227. f.1, siy.65, iş 40.
228. f.1, siy.65, iş 42.
229. f.1, siy.65, iş 43.
230. f.1, siy.65, iş 45.
231. f.1, siy.65, iş 49.
232. f.1, siy.65, iş 51.
233. f.1, siy.65, iş 55.
234. f.1, siy.65, iş 57.
235. f.1, siy.65, iş 61.
236. f.1, siy.65, iş 64.
237. f.1, siy.65, iş 65.
238. f.1, siy.65, iş 66.
239. f.1, siy.65, iş 67.
240. f.1, siy.65, iş 69.
241. f.1, siy.65, iş 71.



242. f.1, siy.65, iş 73.
243. f.1, siy.65, iş 113.
244. f.1, siy.65, iş 115.
245. f.1, siy.65, iş 119.
246. f.1, siy.65, iş 121.
247. f.1, siy.65, iş 176.
248. f.1, siy.65, iş 188.
249. f.1, siy.66, iş 22.
250. f.1, siy.66, iş 29.
251. f.1, siy.66, iş 42.
252. f.1, siy.66, iş 71.
253. f.1, siy.66, iş 73.
254. f.1, siy.66, iş 86.
255. f.1, siy.66, iş 88.
256. f.1, siy.66, iş 98.
257. f.1, siy.66, iş 105.
258. f.1, siy.66, iş 108.
259. f.1, siy.66, iş 127.
260. f.1, siy.66, iş 168.
261. f.1, siy.66, iş 176.
262. f.1, siy.66, iş 177.
263. f.1, siy.66, iş 208.
264. f.1, siy.67, iş 17.
265. f.1, siy.67, iş 23.
266. f.1, siy.67, iş 26.
267. f.1, siy.67, iş 38.
268. f.1, siy.67, iş 67.
269. f.1, siy.67, iş 83.
270. f.1, siy.67, iş 111.
271. f.1, siy.67, iş 114.
272. f.1, siy.67, iş 120.
273. f.1, siy.67, iş 126.

274. f.1, siy.67, iş 178.
275. f.1, siy.67, iş 185.
276. f.1, siy.67, iş 187.
277. f.1, siy.67, iş 196.
278. f.1, siy.68, iş 37.
279. f.1, siy.68, iş 38.
280. f.1, siy.68, iş 46.
281. f.1, siy.68, iş 52.
282. f.1, siy.68, iş 70.
283. f.1, siy.68, iş 71.
284. f.1, siy.68, iş 73.
285. f.1, siy.68, iş 74.
286. f.1, siy.68, iş 79.
287. f.1, siy.68, iş 83.
288. f.1, siy.68, iş 84.
289. f.1, siy.68, iş 92.
290. f.1, siy.68, iş 95.
291. f.1, siy.68, iş 96.
292. f.1, siy.68, iş 99.
293. f.1, siy.68, iş 100.
294. f.1, siy.68, iş 102.
295. f.1, siy.68, iş 103.
296. f.1, siy.68, iş 115.
297. f.1, siy.68, iş 116.
298. f.1, siy.68, iş 127.
299. f.1, siy.68, iş 128.
300. f.1, siy.68, iş 133.
301. f.1, siy.68, iş 134.
302. f.1, siy.68, iş 157.
303. f.1, siy.68, iş 158.
304. f.1, siy.68, iş 204.
305. f.1, siy.68, iş 357.



306. f.1, siy.68, iş 362.
307. f.1, siy.68, iş 369.
308. f.1, siy.68, iş 372.
309. f.1, siy.68, iş 400.
310. f.1, siy.68, iş 408.
311. f.1, siy.70, iş 21.
312. f.1, siy.70, iş 27.
313. f.1, siy.70, iş 39.
314. f.1, siy.70, iş 46.
315. f.1, siy.70, iş 48.
316. f.1, siy.70, iş 56.
317. f.1, siy.70, iş 58.
318. f.1, siy.70, iş 88.
319. f.1, siy.70, iş 92.
320. f.1, siy.70, iş 112.
321. f.1, siy.70, iş 132.
322. f.1, siy.70, iş 203.
323. f.1, siy.70, iş 378.
324. f.1, siy.70, iş 382.
325. f.1, siy.70, iş 409.
326. f.1, siy. 73, iş 157.
327. f.1, siy. 73, iş 160.
328. f.1, siy.74, iş 158.
329. f.1, siy.91, iş 310.
330. f.1, siy.125, iş 107.
331. f.1, siy.169, iş 249.
332. Əlyazma fondu.

333. f.340,siy.1, iş 248.
334. f.340, siy.1, bağ.55, iş 1441.
335. f.340, siy.1, bağ.55, iş 1445.
336. f.340, siy.1, bağ.63, iş 1595.
337. f.340, siy.1, bağ.63, iş 1596.
338. f.340, siy.1, bağ.67, iş 1597.
339. f.340, siy.1, bağ.71, iş 1694.
340. f.340, siy.1, bağ.71, iş 1894.
341. f.340, siy.1, bağ.71, iş 1964.
342. f.340, siy.6, bağ.1, iş 1.
343. f.340, siy.6, bağ.1, iş 4.
344. f.340, siy.6, bağ.2, iş 6.
345. f.340, siy.6, bağ.2, iş 12.
346. f.340, siy.6, bağ.2, iş 15.
347. f.340, siy.6, bağ.3, iş 18.
348. f.340, siy.6, bağ.3, iş 19.
349. f.340, siy.6, bağ.3, iş 23.
350. f.340, siy.6, bağ.3, iş 24.
351. f.340, siy.6, bağ.3, iş 25.
352. f.340, siy.6, bağ.3, iş 27.
353. f.340, siy.6, bağ.3, iş 35.
354. f.340, siy.6, bağ.4, iş 39.
355. f.340, siy.6, bağ.4, iş 40.
356. f.340, siy.6, bağ.5, iş 44.
357. f.340, siy.6, bağ.5, iş 51.
358. f.340, siy.6, bağ.6, iş 72.
359. f.340, siy.6, bağ.7, iş 80.
360. f.340, siy.6, bağ.7, iş 81.
361. f.340, siy.6, bağ.7, iş 84.
362. f.340, siy.6, bağ.8, iş 86.
363. f.340, siy.6, bağ.8, iş 87.



364. f.340, siy.6, bağ.8, iş 88.
365. f.340, siy.6, bağ.8, iş 93.
366. f.340, siy.6, bağ.8, iş 94.
367. f.340, siy.6, bağ.8, iş 97.
368. f.340, siy.6, bağ.9, iş 103.
369. f.340, siy.6, bağ.9, iş 104.
370. f.340, siy.6, bağ.9, iş 105.
371. f.642, siy.1, iş 115.
372. f.642, siy.1, iş 116.
373. f.642, siy.1, iş 117.
374. f.642, siy.1, iş 118.
375. f.642, siy.1, iş 119.
376. f.642, siy.1, iş 120.
377. f.642, siy.1, iş 121.
378. f.642, siy.1, iş 286.
379. f.642, siy.1, iş 287.
380. f.642, siy.1, iş 288.
381. f.642, siy.1, iş 289.
382. f.642, siy.1, iş 290.
383. f.642, siy.1, iş 291.
384. f.642, siy.1, iş 292.
385. f.642, siy.1, iş 293.
386. f.642, siy.1, iş 294.
387. f.642, siy.1, iş 295.
388. f.642, siy.1, iş 296.
389. f.642, siy.1, iş 297.
390. f.642, siy.1, iş 298.
391. f.642, siy.1, iş 299.
392. f.642, siy.1, iş 300.
393. f.642, siy.1, iş 301.
394. f.642, siy.1, iş 302.
395. f.642, siy.1, iş 303.
396. f.642, siy.1, iş 304.
397. f.642, siy.1, iş 305.

398. f.642, siy.1, iş 306.
399. f.642, siy.1, iş 307.
400. f.642, siy.1, iş 308.
401. f.642, siy.1, iş 309.
402. f.642, siy.1, iş 310.
403. f.642, siy.1, iş 311.
404. f.642, siy.1, iş 312.
405. f.642, siy.1, iş 313.
406. f.642, siy.1, iş 314.
407. f.642, siy.1, iş 315.
408. f.642, siy.1, iş 316.
409. f.642, siy.1, iş 317.
410. f.642, siy.1, iş 318.
411. f.642, siy.1, iş 319.
412. f.642, siy.1, iş 320.
413. f.642, siy.1, iş 321.
414. f.642, siy.1, iş 322.
415. f.642, siy.1, iş 323.
416. f.642, siy.1, iş 324.
417. f.642, siy.1, iş 325.
418. f.642, siy.1, iş 326.
419. f.642, siy.1, iş 327.
420. f.642, siy.1, iş 328.
421. f.642, siy.1, iş 329.
422. f.642, siy.1, iş 330.
423. f.642, siy.1, iş 331.
424. f.642, siy.1, iş 332.
425. f.642, siy.1, iş 333.
426. f.642, siy.1, iş 334.
427. f.642, siy.1, iş 335.
428. f.642, siy.1, iş 336.
429. f.642, siy.1, iş 337.
430. f.642, siy.1, iş 338.



### *Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Arxivi*

431. f.13, siy.1, bağ.28, iş 294.
432. f.13, siy.1, bağ.40, iş 361.
433. f.13, siy.1, bağ.40, iş 362.
434. f.13, siy.1, bağ.40, iş 363.
435. f.13, siy.1, bağ.41, iş 369.

### *Azərbaycan Milli Elmlər Akademiyasının materialları*

436. Azərbaycan MEA kitabxanasının xarici ədəbiyyatın komplektləşdirilməsi və beynəlxalq kitab mübadiləsi şöbəsinin materialları. 1970-ci il üçün hesabat.
437. Azərbaycan MEA kitabxanasının xarici ədəbiyyatın komplektləşdirilməsi və beynəlxalq kitab mübadiləsi şöbəsinin materialları. 1982-ci il üçün hesabat.

### *Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi*

438. Azərbaycan DTK zabit heyətinin milli tərkibi (1950-1985-ci illər). – AR MTN muzeyinin materialları.
439. Алиев Г.А. Первому секретарю ЦК КП Азербайджана тов. Ахундову В.Ю. 26 июня 1967 г. – AR MTN muzeyinin materialları.
440. Заявление Г.А.Алиева 27 января 1944 г. – AR MTN muzeyinin materialları.
441. О некоторых изданиях, выпускаемых в Иране. 1980 г. – AR MTN arxivi, iş 495.
442. Об отношении населения Иранского Азербайджана к радио-и телепередачам из Советского Союза. 1982 г. – AR MTN arxivi, iş 536.
443. О положении в Восточном Азербайджане. 1982 г. – AR MTN arxivi, iş 536.

444. Приказ министра Государственной Безопасности Азербайджанской ССР. 10 мая 1949 г. – AR MTN muzeyinin materialları.
445. Представление Г.А.Алиева к присвоению воинского звания генерал-майора. – AR MTN muzeyinin materialları.
446. Приказ председателя Комитета Государственной Безопасности при Совета Министров СССР. 27 ноября 1969 г. – AR MTN muzeyinin materialları.
447. Начальнику II отдела 2-го Главного Управления Комитета Госбезопасности при Совета Министров Союза СССР полковнику, товарищу Хамазюк В.М. – AR MTN arxivi, iş 164.
448. Свидетельство об окончании школы МГБ СССР ст. лейтенанта Г.А.Алиева. – AR MTN muzeyinin materialları.
449. Свидетельство об окончании курса усовершенствования руководящего оперативного состава. Полковник Алиев Гейдар Али Рза оглы. – AR MTN muzeyinin materialları.
450. Служебная характеристика ст. лейтенанта Алиева Гейдара Али Рза оглы. – AR MTN muzeyinin materialları.
451. Характеристика Г.А.Алиева. – AR MTN muzeyinin materialları.
452. İş L-164.
453. İş L-440.
454. İş L-497.
455. İş 813.
456. İş FT-292.
457. İş PS-7525. III cild.
458. İş PR-41065. IV cild.



## Rusiya Federasiyasının arxiv sənədləri

### Российский Государственный Архив Социально-Политической Истории

459. ф.17, оп.3, д.216.
460. ф.17, оп.3, д.230.
461. ф.17, оп.3, д.229.
462. ф.17, оп.3, д.394.
463. ф.17, оп.3, д.395.
464. ф.17, оп.3, д.758.
465. ф.17, оп.3, д.759.
466. ф.17, оп.3, д.830.

### Российский Государственный Архив Новейшей Истории

467. ф.2, оп.5, д.81.
468. ф.2, оп.5, д.83.
469. ф.2, оп.5, д.86.
470. ф.3, оп.8, д.89.
471. ф.3, оп.8, д.388.
472. ф.3, оп.10, д.70.
473. ф.3, оп.10, д.207.
474. ф.3, оп.12, д.997.
475. ф.3, оп.12, д.998.
476. ф.3, оп.12, д.1004.
477. ф.3, оп.12, д.1010.
478. ф.3, оп.14, д.23.
479. ф.3, оп.14, д.24.
480. ф.3, оп.14, д.25.
481. ф.5, оп.61, д.32.
482. ф.5, оп.61, д.69.
483. ф.5, оп.61, д.71.
484. ф.6, оп.61, д.18.
485. ф.5, оп.33, д.104.
486. ф.89, оп.11, д.40.

487. ф.89, оп.13, д.2.
488. ф.89, оп.13, д.5.
489. ф.89, оп.13, д.15.
490. ф.89, оп.14, д.27.
491. ф.89, оп.15, д.12.
492. ф.89, оп.15, д.14.
493. ф.89, оп.15, д.22.
494. ф.89, оп.23, д.13.
495. ф.89, оп.25, д.38.
496. ф.89, оп.34, д.3.
497. ф.89, оп.37, д.3.
498. ф.89, оп.39, д.6.
499. ф.89, оп.42, д.54.
500. ф.89, оп.51, д.10.
501. ф.89, оп.53, д.19.
502. ф.89, оп.55, д.2.
503. ф.89, оп.61, д.32.
504. ф.89, оп.61, д.68.
505. ф.89, оп.61, д.69.
506. ф.89, оп.61, д.71.
507. ф.89, оп.65, д.11.
508. ф.89, оп.73, д.163.
509. Архивы Кремля. Президиум ЦК КПСС. 1954-1964. Т.1. Черновые протокольные записи заседаний стенограммы. Главный редактор А.А.Фурсенко. М., РОССПЭП, 2003.

## Gürcüstan Respublikasının arxiv sənədləri

## Gürcüstan Respublikası Dövlət Ən Yeni Tarix Arxivi

510. f.300, siy.8, iş 1347.
511. f.607, siy.1, iş 327.
512. f.607, siy.2, iş 1973.
513. Постановление Совета Министров Грузинской ССР за февраль 1978 г. Тбилиси, тип. Управделами Совета Министров Грузинской ССР, 1978.



## Dövri mətbuat

514. «Azərbaycan» qəzeti, 2004, 3 mart, № 52 (3667).
515. --»--, 2004, 16 sentyabr, № 216 (3831).
516. Газ. «Бакинский рабочий», 1958, 24 января, №21 (11187).
517. --»--, 1974, 22 мая, № 117 (17034).
518. --»--, 1981, 1 апреля, № 78 (19106).
519. --»--, 1981, 26 мая, № 124 (19152).
520. --»--, 1981, 19 ноября, № 268 (19296).
521. «Kommunist» qəzeti, 1936, 23 may, №118 (4744).
522. «Kommunist» qəzeti, 1969, 15 iyul, №163 (14159).
523. --»--, 1969, 7 avqust, № 183 (14179).
524. --»--, 1969, 28 avqust, № 201 (14197).
525. --»--, 1969, 11 oktyabr, № 239 (14235).
526. --»--, 1969, 22 oktyabr, № 248 (14244).
527. --»--, 1969, 2 noyabr, № 258 (14254).
528. --»--, 1969, 19 noyabr, № 271 (14267).
529. --»--, 1969, 20 noyabr, № 272 (14268).
530. --»--, 1969, 27 noyabr, № 278 (14274).
531. --»--, 1970, 7 yanvar, № 4 (14305).
532. --»--, 1970, 10 yanvar, № 7 (14308).
533. --»--, 1970, 22 mart, № 68 (14369).
534. --»--, 1970, 28 mart, №73 (14374).
535. --»--, 1970, 30 avqust, № 202 (14503).
536. --»--, 1970, 6 sentyabr, № 208 (14509).
537. --»--, 1970, 3 oktyabr, № 231 (14532).
538. --»--, 1971, 3 yanvar, № 2 (14607).
539. --»--, 1971, 13 fevral, № 37 (14642).
540. --»--, 1971, 3 iyun, № 129 (14734).
541. --»--, 1971,4 iyun, № 130 (14735).
542. --»--, 1971, 2 noyabr, № 256 (14861).
543. --»--, 1971, 23 noyabr, № 273 (14876).

544. --»--, 1971, 25 dekabr, № 301 (14906).
545. --»--, 1972, 26 may, № 722 (15032).
546. --»--, 1972, 10 iyun, № 135 (15045).
547. --»--, 1972, 17 noyabr, № 270 (15180).
548. --»--, 1972, 18 noyabr, № 271 (15181).
549. --»--, 1972, 26 noyabr, № 278 (15188).
550. --»--, 1973, 17 mart, № 64 (15279).
551. --»--, 1973, 11 may, № 109 (15324).
552. --»--, 1973, 9 avqust, № 165 (15400).
553. --»--, 1973, 11 avqust, № 187 (15402).
554. --»--, 1973, 11 sentyabr, № 213 (15426).
555. --»--, 1973, 14 noyabr, № 266 (15481).
556. --»--, 1973, 28 noyabr, № 278 (15493).
557. --»--, 1973, 27 dekabr, № 302 (15517).
558. --»--, 1974, 15 may, № 111 (15631).
559. --»--, 1974, 1 iyun, № 126 (15646).
560. --»--, 1974, 10 sentyabr, № 212 (15731).
561. --»--, 1974, 29 noyabr, № 279 (15799).
562. --»--, 1974, 26 dekabr, № 301 (15821).
563. --»--, 1974, 29 dekabr, № 304 (15824).
564. --»--, 1976, 4 yanvar, № 2 (16131).
565. --»--, 1976, 13 yanvar, № 11 (17050).
566. --»--, 1976, 20 yanvar, № 15 (16144).
567. --»--, 1976, 4 iyul, № 155 (16284).
568. --»--, 1976, 31 avqust, № 202 (16331).
569. --»--, 1976, 19 noyabr, № 270 (16399).
570. --»--, 1976, 1 dekabr, № 280 (16409).
571. --»--, 1976, 26 dekabr, № 302 (16431).
572. --»--, 1976, 30 dekabr, № 304 (16439).
573. --»--, 1977, 25 yanvar, № 20 (16445).
574. --»--, 1977, 27 fevral, № 49 (16484).
575. --»--, 1977, 14 mart, № 64 (16679).
576. --»--, 1977, 30 mart, № 73 (17112).
577. --»--, 1977, 30 iyun, № 150 (16585).



578. --»--, 1977, 6 iyul, № 155 (16590).
579. --»--, 1977, 13 avqust, № 186 (17522).
580. --»--, 1977, 28 avqust, № 201 (16636).
581. --»--, 1977, 30 avqust, № 304 (16739).
582. --»--, 1977, 11 dekabr, № 288 (16723).
583. --»--, 1977, 30 dekabr, № 304 (16739).
584. --»--, 1978, 5 fevral, №31 (16771).
585. --»--, 1978, 21 aprel, № 94 (16834).
586. --»--, 1978, 20 may, № 118 (16858).
587. --»--, 1978, 31 avqust, № 199 (16939).
588. --»--, 1978, 15 oktyabr, № 237 (16977).
589. --»--, 1978, 25 noyabr, № 269 (17009).
590. --»--, 1978, 22 dekabr, № 292 (17032).
591. --»--, 1979, 13 yanvar, № 11 (17050).
592. --»--, 1979, 23 yanvar, № 19 (17055).
593. --»--, 1979, 7 fevral, № 31 (17070).
594. --»--, 1979, 23 fevral, № 45 (17084).
595. --»--, 1979, 30 mart, № 73 (17112).
596. --»--, 1979, 11 aprel, № 83 (17122).
597. --»--, 1979, 5 iyun, № 126 (17265).
598. --»--, 1979, 30 avqust, № 198 (17237).
599. --»--, 1979, 22 sentyabr, № 217 (17256).
600. --»--, 1979, 7 dekabr, № 279 (17318).
601. --»--, 1980, 23 yanvar, № 19 (17355).
602. --»--, 1980, 21 fevral, № 44 (17380).
603. --»--, 1980, 15 mart, № 63 (17399).
604. --»--, 1980, 26 mart, № 72 (17408).
605. --»--, 1980, 28 mart, № 74 (17410).
606. --»--, 1980, 15 aprel, № 89 (17425).
607. --»--, 1980, 29 aprel, № 101 (17437).
608. --»--, 1980, 14 may, № 112 (17448).
609. --»--, 1980, 18 may, № 116 (17452).
610. --»--, 1980, 5 iyun, № 130 (17466).
611. --»--, 1980, 12 iyun, № 136 (17472).

612. --»--, 1980, 13 avqust, № 186 (17522).
613. --»--, 1981, 27 fevral, № 50 (17684).
614. --»--, 1981, 7 aprel, № 81 (18015).
615. --»--, 1981, 26 aprel, № 100 (17734).
616. --»--, 1981, 22 may, № 121 (17755).
617. --»--, 1981, 11 iyun, № 136 (17770).
618. --»--, 1981, 14 iyun, № 139 (17773).
619. --»--, 1981, 25 iyun, № 148 (17782).
620. --»--, 1981, 3 iyul, № 155 (17799).
621. --»--, 1981, 19 iyul, № 165 (17799).
622. --»--, 1981, 25 iyul, № 173 (17807).
623. --»--, 1981, 4 oktyabr, № 231 (17865).
624. --»--, 1981, 7 oktyabr, № 233 (17867).
625. --»--, 1981, 9 oktyabr, № 234 (17868).
626. --»--, 1981, 15 oktyabr, № 237 (17871).
627. --»--, 1981, 24 oktyabr, № 247 (17881).
628. --»--, 1981, 25 noyabr, № 273 (17907).
629. --»--, 1981, 26 noyabr, № 274 (17908).
630. --»--, 1981, 29 noyabr, № 276 (17910).
631. --»--, 1981, 4 dekabr, № 280 (17914).
632. --»--, 1981, 15 dekabr, № 289 (17922).
633. --»--, 1981, 11 dekabr, №285 (17919)
634. --»--, 1981, 13 dekabr, № 287 (17921).
635. --»--, 1981, 22 dekabr, № 294 (17928).
636. --»--, 1981, 26 dekabr, № 297 (17931).
637. --»--, 1981, 31 dekabr, № 300 (17934).
638. --»--, 1982, 27 yanvar, № 22 (17956).
639. --»--, 1982, 2 fevral, № 27 (17961).
640. --»--, 1982, 2 iyun, № 129 (18063).
641. --»--, 1982, 18 iyul, № 168 (18102).
642. --»--, 1982, 25 iyul, № 173 (18107).
643. --»--, 1982, 30 iyul, № 177 (18111).
644. --»--, 1982, 31 iyul, № 178 (18112).
645. --»--, 1982, 3 avqust, № 180 (18114).



646. --»--, 1982, 16 avqust, № 192 (18126).
647. --»--, 1982, 9 oktyabr, № 234 (18168).
648. --»--, 1982, 10 oktyabr, № 240 (18174).
649. --»--, 1982, 17 oktyabr, № 240 (18174).
650. --»--, 1982, 19 oktyabr, № 241 (18175).
651. --»--, 1982, 23 noyabr, № 269 (18203).
652. --»--, 1982, 24 noyabr, № 270 (18204).
653. --»--, 1982, 27 noyabr, № 273 (18207).
654. --»--, 1982, 4 dekabr, № 278 (18212).
655. Газ. «Правда», 1956, 23 мая, №144 (13807)

*(Türkiyə)*

656. «Cumhuriyet», 1975, 9 haziran.
657. «Yeni gün», 1975, 3 haziran.

*(İran)*

658. «Keyhan international», 1978, 16 June.

## II. Ümumi ədəbiyyat

***Azərbaycan dilində***

659. Abbasova E. Mahnıların qanadında. - «Kommunist» qəzeti, 1977, 12 may, № 110 (16545).
660. Abbasova E. Coşqun ilham. - «Kommunist» qəzeti, 1980, 10 sentyabr, № 217 (17553).
661. Abdullayev M. XX əsr Şərqinin böyük satira ustası. - «Kommunist» qəzeti, 1980, 27 sentyabr, №223 (17559).
662. Azərbaycan məktəbi yubiley ilində. Azərbaycan SSR maarif naziri M.Mehdizadə ilə müsahibə. – «Kommunist» qəzeti, 1969, 22 avqust, № 196 (14192).
663. Azərbaycan rəssamlarının VIII qurultayı. - «Kommunist» qəzeti, 1977, 12 mart, № 59 (16494).
664. Azərbaycan xalqının nadir səsli Bülbülü. - «Kommunist» qəzeti, 1982, 11 iyun, № 107 (18071).

665. Ağayev İ. Satirik şair, ictimai xadim. - «Kommunist» qəzeti, 1980, 24 dekabr, №293 (17629).
666. Axundov A. Əsrin yaşıdı. – «Kommunist» qəzeti, 1980, 26 mart, №72 (17408).
667. Axundov A. Xalqımıza dəyərli hədiyyə. – «Kommunist» qəzeti, 1981, 11 iyul, № 161 (17795).
668. Bağırov Z. Respublika ərazisində mədəniyyət abidələrinin vəziyyəti və onları qorumaq tədbirləri haqqında. - «Kommunist» qəzeti, 1973, 11 iyul, №160 (15375).
669. Bədəlbəyli Ş. Həmişə cavan sənətkar. - «Kommunist» qəzeti, 1977, 24 dekabr, №299 (16734).
670. Bədəlbəyli Ş. Qüdrətli sənətkar. - «Kommunist» qəzeti, 1981, 13 mart, №63 (17697).
671. Böyük sənətkar. - «Kommunist» qəzeti, 1982, 20 avqust, №194 (18128).
672. Cahangirov C. Böyük vətəndaş, görkəmli sənətkar. - «Kommunist» qəzeti, 1980, 18 sentyabr, № 216 (17552).
673. Çəmənzəminli Y.V. Xarici siyasətimiz. Bakı, Azərnəşr, 1993.
674. Çoxəsrlik tariximizin 34 ili. Bakı, CBS, 2003.
675. Daha çox məktəb tikək. - «Kommunist» qəzeti, 1975, 8 iyul, № 157(15983).
676. Dövrün kino salnaməsini yaratmalı. - «Kommunist» qəzeti, 1981, 7 may, № 108(17742).
677. Əcəmi Naxçıvaninin yubileyi şərəfinə Bakıda elmi sessiya. – «Kommunist» qəzeti, 1976, 18 dekabr, № 295 (16424).
678. Əfqan Ə. Dədə Qorqud ekranda – «Kommunist» qəzeti, 1977, 15 yanvar, №12, (16447).
679. Əkbərov F. Yardımlıda maarifin inkişafı. Bakı, Mütərcim, 1999.
680. Əliyev F. Tarixi sənədlər xəzinəsi. - «Kommunist» qəzeti, 1981, 14 yanvar, №14 (17645).



681. Əliyev Q.H. Tələbə qəbulu mütəşəkkil keçəcəkdir. - «Kommunist» qəzeti, 1981, 28 iyul, №175 (17809).
682. Əlizadə M.İ. Tarixə yaddaş ömür. Bakı, 2001.
683. Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, Gənclik, 1992.
684. İvanov R. F. Duayt Eyzenhauer. Bakı, Azərnəşr, 1985.
685. Gerasimov İ., Budaqov B. Təbiət vurğunu. - «Kommunist» qəzeti, 1977, 16 dekabr, №292 (16727).
686. Gənc istedadların musiqi bayramı. - «Kommunist» qəzeti, 1982, 5 iyun, №132 (18066).
687. Göyalp Z. Türkçülüyün əsasları. Bakı, Maarif, 1991.
688. Hacıyev H. Türkiyə lövhələri. – «Kommunist» qəzeti, 1979, 28 fevral, № 49 (17088).
689. Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001.
690. Heydər Əliyev. Biblioqrafik məlumat kitabı. Azərbaycan MEA müxbir üzvü, professor A.M.Məhərrəmovun ümumi redaktorluğu altında. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003.
691. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil, 2004.
692. Xalqa, vətənə, dövlətə sədaqət. Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş mərasim və təntənəli yığıncaq. 28 iyun 1997-ci il. Bakı, Gənclik, 1997.
693. Xalqın tarixinin solmaz səhifələri. – «Kommunist» qəzeti, 1981, 29 noyabr, № 276 (17910).
694. Xalq sənətkarlarının xatirəsi əbədidir – «Kommunist» qəzeti, 1982, 16 yanvar, № 13 (17947).
695. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı, 1997.
696. İsgəndərov Ə., Babayev Ə. Mərd və sözü bütöv insan. – «Zirvə» qəzeti, 2003, 16 avqust, № 15-16 (5514).

697. Kənddə kino xidməti. - «Kommunist» qəzeti, 1981, 3 iyul, №155 (17789).
698. Qarayev Q. Həyatımızı ilhamla tərənnüm edək. - «Kommunist» qəzeti, 1974, 7 aprel, №82 (15602).
699. Qardaş mədəniyyətlərin bayramı. – «Kommunist» qəzeti, 1979, 14 iyun, № 134 (17173).
700. Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. (1914-1918-ci illər). 3 hissədə. II hissə (1917-ci il noyabr- 1918-ci il noyabr). Bakı, «Adiloğlu» nəşr., 2001.
701. Qasımov M. 1969-1982-ci illərdə azərbaycanlı diplomatların hazırlanması və yerləşdirilməsi məsələsi. – «Heydər Əliyev və Azərbaycanda diplomatik kadrların hazırlanmasının aktual problemləri» elmi-praktik konfransının materialları. Bakı, XDU nəşr., 2004.
702. Qədim Naxçıvanda bayram. Bakı, 1999.
703. Quliyev O. Ustad tarzən. - «Kommunist» qəzeti, 1980, 27 dekabr, №295 (17631).
704. Quliyev R., Teymurov M. Mənəvi sərvətlər xəzinəsi. - «Kommunist» qəzeti, 1972, 2 aprel, №78 (14988).
705. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, Təhsil, 2002.
706. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, «XXI - Yeni nəşrlər evi», 2003.
707. Mehdizadə M. Mühüm vəzifələr. – «Kommunist» qəzeti, 1971, 31 avqust, №202 (14807).
708. Mehdizadə. M. Xalq maarifinin yeni tərəqqisi uğrunda. - «Kommunist» qəzeti, 1974, 1 sentyabr, №205 (15725).
709. Məhərrəmov A. Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu. Redaktor akademik C.Ə.Əliyev. Bakı, Bakı Universiteti nəşriyyatı, 2001.
710. Mədəni irsə qayğı. - «Kommunist» qəzeti, 1981, 21 may, №120 (17754).
711. Məmmədzadə K., Quliyev N. Xalqın sərvəti. – «Kommunist» qəzeti 1976, 10 avqust, № 185 (16314).



712. Muğamın problemləri və gələcəyi. - «Kommunist» qəzeti, 1978, 17 noyabr, №262 (17002).
713. Mustafayev A. Abidələr tədqiq olunur. – «Kommunist» qəzeti, 1974, 8 dekabr, №287 (15807).
714. Rəhimov İ. Nəğmələrlə döyünən ürək. – «Kommunist» qəzeti, 1976, 14 yanvar, № 10 (16139).
715. Rəsulzadə M. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990.
716. Rusiya EA-nın müxbir üzvü Əhməd İsgəndərovla müsahibə. – «Xalq qəzeti», 2004, 16 dekabr, №290 (24857).
717. Svyatoxovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, Xəzər Universiteti nəşriyyatı, 2000.
718. Stalin İ.V. Leninizm məsələləri. Bakı, Azərnəşr, 1948.
719. Şükürov K. Qədim türk diyarı – Naxçıvan. – «Xalq qəzeti», 2004, 3 mart, №51 (24618).
720. Tarle Y.V. Napoleon. Bakı, Azərbaycan ensiklopediyası, 1993.
721. Tağıyeva Ş., Rəhimli Ə., Bayramzadə S. Güney Azərbaycan (məlumat kitabı). Bakı, Orxan, 2000.
722. Vahabzadə B. Xalq şairi. – «Kommunist» qəzeti, 1981, 14 noyabr, № 264 (17898).
723. Yusifzadə Q. Yarım əsr efirdə. - «Kommunist» qəzeti, 1977, 29 iyun, № 149 (16584).
724. Zamanov A. Unudulmaz sənətkar. - «Kommunist» qəzeti, 1977, 26 aprel, № 97 (16532).
725. Zamanov A. Ülvi əməllər şairi. - «Kommunist» qəzeti, 1979, 7 dekabr, № 279 (17318).
726. Zəmanəmizin qüdrətli sənətkarı. - «Kommunist» qəzeti, 1978, 4 fevral, № 30 (16770).

***Türk dilində***

727. Atatürkün söylev və demeclerinin konuları indeksi. Hazırlayan Doç. Dr. Mehmed Evsile. Ankara, AKDTYK Atatürk Araşdırma Merkezi, 1999.

728. Bilgic E. Kültür milliyyetçiliği ve kültür emperyalizmi. Ankara, 1977.
729. Hitler A. Kavğam. Çeviri: M. Selman Uğurlu. İstanbul, Kamer Yayınları, 1998.
730. Qasımov M. Azerbaycan Cumhuriyeti. - «Türkler». 19. Ankara, Yeni Türkiye yayınları, 2002.
731. Yahya İ. Çağlar böyu din duşmanları. İstanbul, Çözüm Yayınçılık, 1989.

***İngilis dilində***

732. Alstadt A.L. The Azerbaijan Turks. Stanford, California, Hoover Institution Press, 1992.
733. Ambrose Stephen E. Eisenhower solider and president. New York, 1990.
734. Bennigsen A. Islamic or Local consglousness among Soviet nationalities? // Soviet nationality problems. New York, Columbia University Press, 1961.
735. Bennigsen A. Azerbaidzhan. Prepared for the Converence on the Soviet Caucasus co-sponsered by the U.S International Communication Agency, and the Kennan Intitute for Advansed Russian Studies. The Wilson Center, May 15, 1979, № 61.
736. Bennigsen A., Broxup V. The Islamic Threat to the Soviet State. New York, St. Martin's Press, 1983.
737. Bennigsen A., Wimbush S. Enders. Muslims of the Soviet Empire. A Guide. Bloomington and Indianapolis, Indiana University Press, 1986.
738. Brian D. Silven. Population redistribution and the ethnic balance in Transcaucasia. New York, Kennan Institute for Advanced Russian studies. The Wilson Center and American Assosiation for tne Advancment of Slavic Studies, 1980.
739. Brian D. Silven. Population redistribution and the ethnic balance in Transcaucasia// Transcaucasia nationalism and sosial change. Essays in the history of Armenia, Azerbaijan and Georgia, Edited by Ronald Grigor Suny. The University of Michigan, 1983.
740. Blum Jhon Morton. The republican Roosevelt. Cambridge, 1997.
741. D'Agustino A. Gorbachev's Revolition. New York, New York University Press, 1998.
742. Dornberg J. Brezhnev. The Masks of Power. New York, Basic Books inc. , Publishers, 1974.
743. Europe since 1945. An Encyclepedia. Volume 1. Bernard A. Cook. Loyola University New Orleans. Editor. New York and London, Garlond Publishing Inc., 2001.
744. Evon M. The Andropov file. New York, Mc. Graw. – Hill Book Company, 1983.
745. Fowkes B. The National Question in the Soviet Union under Leonid Brezhnev: Policy and Response // Brezhnev reconsidered. New York, 2002.
746. Frank Freidel. Franklin D. Rossevelt. A Render – vous With Destiny. New York, 1990.
747. Hazan B.A. Gorbashev and his enemis. The Struggle for Perestroika. Oxford, San Francisko, Westview Press, 1990.
748. Kazemzadeh F. The Caucasus region and relations with the central covernment. Prepared for the conference on the Soviet Caucasus co-sponsored by the U.S. International Communication Agency, and the Kennan Institute for advanced Russian Studies. №60, Washington DC, The Wilson Center, may 15, 1979.
749. Leuchtenburg Willam E. Franklin D. Roosevelt and the New deal. 1932-1940. New York, 1963.
750. Link Artur S. Wudrow Wilson and the progressive era. 1910-1917. New York, 1954.
751. Merill D. Peterson. Thomas Jefferson and the New Nation. London, 1970.

752. Medvedev Zh., Andropov. New York, London, W. W. Norton and Company, 1983.
753. Naumkin V.V. Central Asia and Transcaucasia. London, Greenwood Press, 1994.
754. Pryce Jones D. The strange of the Soviet Empire. New York, Metropolitian books, 1995.
755. Robert A. Divine. Eisenhower and the cold war. Oxford, 1981
756. Robert A. Garo. The Jears of Lindon Jonson means of ascent. New York, 1990.
757. Solovyov V., Klepikova E. Yuri Andropov. A secret passage into the Kremlin. London, Coller Macmillan Publishers, 1983.
758. Solovyov V., Klepikova E. Behind the high Kremlin Walls. New York, Dodd, Mead and Company, 1986.
759. Soviet politics. Russia after Brezhnev. Edited by Joseph L. Nogee. New York, Proeger Publishers, 1985.
760. Shlesinger Jr. Arthur M. The Age of Jackson. New York, 1945.
761. Shlesinger Jr. Arthur M. Robert Kennedy and his times. New York, 1978.
762. Shaffer B. Borders and Brethren. Iran and the Challenge of Azerbaijani identity. London, The MIT Press, 2002.
763. Strayer R. Why did the Soviet Union Collapse Understanding Historical Change. New York, London, M. E. Sharpe, 1988.
764. Swietochovski T., Collins C. Brian. Historical dictionary of Azerbaijan. Asian \ Oceanian Historical Dictonaries, № 31, Marilend and London, The Scarecrow Press Inc., Lanham, 1999.
765. Charles van der Leeuw. Azerbaijan a quest for identity. A short history. New York, St. Martin's Press, 2000.



***Rus dilində***

766. Булок А. Гитлер и Сталин. Жизнь и власть: в 2-х томах. Смоленск, Русич, 1994.
767. Верт Н. История советского государства. 1900-1991. Пер. с фр. М., Весь мир, 1999.
768. Гасанов Г. Важная задача идеологической работы. - Газ. "Правда", 1951, 7 июля, №188 (12025).
769. Гасымов М. Азербайджан в международных культурных связях (1946-1990 г.). Докторская диссертация. Баку, 1992.
770. Голубев Г.Н. Геология. М., ГЕOS, 1999.
771. Гусейнбейли А. Эмигранты (почти невыдуманные истории). Баку, Шарг, 1994.
772. Гренвилл Дж. История XX века. Люди. События. Факты. пер. с англ. М., Аквариум, 1999.
773. Гриневский О. Тысяча и один день Никита Сергеевича. М. , Вагриус, 1998.
774. Киссинджер Г. Дипломатия. М., Ладомир, 1997.
775. Краткий словарь иностранных слов. М., Госиздат иностранных и национальных словарей, 1950.
776. Краткий политический словарь. М. , Политиздат, 1983.
777. Молчанов Н.Н. Генерал де Голл. М., Международные отношения, 1980.
778. Трухановский В.Г. Антони Иден. М., Международные отношения, 1983.
779. Уткин А.И. Дипломатия Вудро Вилсона. М., Международные отношения, 1989.
780. Уткин А.И. Дипломатия Франклина Рузвелта. Свердловск, изд. Уральского университета, 1990.
781. Халилов К. Имадеддин Насими. - «Курьер ЮНЕСКО», 1973, июль.

782. Хибберт К. Муссолини. Биография. Пер. с англ. Ростов-на-Дону, Феникс, 1998.
783. Хоскинг Д. История Советского Союза. 1917-1991. Пер. с англ. М., Вагриус, 1995.
784. Чубинский В. Бисмарк. Биография. С-Пб., Образование-Культура, 1997.
785. Яковлев Н. Вашингтон. М., Молодая Гвардия, 1973.
786. Якубов Т.Советский Азербайджан перед выборами. - Газ. "Правда", 1951, 3 февраля, №34 (11871).

***Ukrayn dilində***

787. Акперов З. Великий гуманист. – «Литературна Украина» qəzeti, 1973, 11 veresnya, №71 (3078).

***Polyak dilində***

788. Baranovski B., Baranovski B. Historia Azerbejdzani. Wroslaw, Zaklad Narodowy im Ossolinskich Wydawnietwo, 1987.



**MUSA CƏFƏR OĞLU QASIMLI**
*Tarix elmləri doktoru, professor*

# HEYDƏR ƏLİYEV-
## İSTİQLALA GEDƏN YOL
**(1969-1987-ci illər)**

Çapa imzalanıb: 09.01.2006
Formatı: 60x90 $^{1}/_{16}$, Həcmi: 38.
Sifariş: 001. Tiraj: 1000

Texniki redaktor:
**Cəsarət Qasımov**

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunmuşdur



Ф3(2А)
Q-25